# QIRMIZI KVADRATLAR

## (HACI HÜSEYN YEKTANIN UŞAQLIĞINDAN MÜQƏDDƏS MÜDAFİƏNİN SONUNA QƏDƏRKİ XATİRƏLƏRİ)

**Zeynəb İrfanian**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:...........................Qırmızı kvadratlar**
**Müəllif:......................................Zeynəb İrfanian**
**Çap tarixi:....................................................2024**
**Çap növbəsi:.............................................Birinci**
**Tiraj:..............................................................1000**

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 55-18-77, 500-249,

ISBN 59-53-024518-57

## Giriş əvəzi

Bir axşam Şələmçədə hələ qanları qurumamış şəxslərlə əhd bağladım. Onlar zərif bir pərdə qədər məndən aralıda idilər, uca yaradanla görüşə nail olmuşdular.

Əhdimə sadiq qaldım; bu kitabın sonuna qədər. Ümidvaram ki, əməl dəftərimdə yaşıl vərəq olar.

Aqibətimin xeyirli olması üçün dua etmənizi rica edirəm!

Zeynəb İrfanian

Aprel 2018

Xuzistan, Şələmçə, Nəhr-Xəyyin

# Səmaya körpü[1]

Qumun Xakfərəc məhəlləsində irəlilədikcə küçələrin eni azalır, uzunluğu çoxalır; dar, ensiz və əyri-üyrü. Sanki evlər ürəkləri istəyən yerdə cücərib bir-birinə söykənib. Rəngi qaçmış asfalt bədənini əyərək onların arasından keçib.

Əşrəf xala bizi şam yeməyinə dəvət etmişdi. Axşam namazlarımızı məsciddə qılıb qonaqlıq geyimində onun evinə doğru yola düşdük.

Küçə adamla doluydu. Kişilər idman şalvarı və çəkələklə bir-birindən önə keçirdilər. Bütün məhəllə xalamgilin evləri tərəfə gedirdi.

– Ağa Hacı Miyanəcinin[2] qonağı olub.

Kişilərin biri bunu atama deyib yerişini yeyinlətdi. Bu sözdən sonra atamın addımları da sürətləndi. Mən də arxasınca gedirdim. Mehri bacı da mənimlə gəlmək istəyirdi, amma anam qolunu dartıb qoymadı.

Camaatın ardınca düşüb Əşrəf xalamın evini də keçdik. Kişilər küçənin sonundakı iki balaca pillənin üstünə doluşmuşdular, həsrətlə boylanırdılar. Küçənin başına baxdım; hərəkətdə olan avtomobilin zəif səsi gəlir, uzaqdan işıqları öləziyirdi. Ağanı görənlər qəhər içində digərlərinə danışırdılar. Atam gözlərinin yaşını əli ilə qurudub dərin bir ah çəkdi. Camaatın arasından keçib açıq qapıdan evə girdim. Ağanın qonaq olduğu Ayətullah Əhmədi Miyanəcinin evi idi.

Ayı-günü yadımda deyil, amma 1979-cu il idi və mənim on iki yaşım vardı. O zaman nə Cəfərlə dost olmuşdum, nə də atası Ayətullah

---

[1] Hekayəçinin qeydi

[2] Ayətullah Mirzəli Əhmədi Miyanəci 1926-cı ildə Miyanədə doğulmuş, 2000-ci ildə vəfat edərək həzrət Məsumənin məqbərəsində dəfn olunmuşdur.

Miyanəcini tanıyırdım. Başımı aşağı salıb içəri girdim; çəkinmədən və dəvətsiz. Hamı bir neçə dəqiqə öncə bu evdə qonaq olmuş ağa Xomeynidən danışırdı. Balaca otağa göz gəzdirib əmin oldum ki, gecikmişəm. Ağa Xomeyni getmişdi. Divarın yanındakı döşəkcəsi boş idi, önündəki boşqabda yarımçıq alma vardı.

Həmin axşam çox təsadüfi şəkildə məhəlləmizin din alimi ağa Miyanəcinin evində oldum. Kimsə təklif etmədən qonaq otağında bardaş qurub oturdum, boşqabda qalmış yarımçıq alma ilə özümə qulluq etdim. Bütün ev güclə 60 kvadrat metr olardı. Bayır hissə, yəni qonaq otağı bizim divan-kreslolu qonaq otağımızdan yerlə göy qədər fərqlənirdi.

Həmin axşamı yaxşı xatırlayıram. O, uşaqlıq çağımın ən dəyərli xatirəsi olmuşdur. İndi uşaqlığımı və dəcəlliklərimi yadıma salanda həmin axşamın xatirəsi birinci cərgədə dayanır; o evlə və mehriban ev yiyəsi ilə xatirəm; çörəyini yediyim əxlaqlı kişi, gənclik və tələbəlik illərini bu məhəllədə keçirmiş din alimi. Sonralar da şəhərin daha yaxşı məhəllələrinə köçməyib elə həmin evdə qaldı.

O deyirdi: "Mən bu insanların arasında din alimi olmuşam". Mən də deyə bilərəm ki, ömrümün qızıl günlərini onun ailəsinin yanında keçirmişəm. Atamın süfrəsində yediyim halal tikələr bir tərəfə, bu ev sakinlərinin, xüsusən də Ayətullah Miyanəcinin və kiçik oğlu Cəfərin mənə verdiyi nur tikələri bir tərəfə! Nə desəm, nə yazsam, Ayətullah Miyanəcinin haqqını verə bilmərəm. O, əməli elmini üstələmiş alimdi, "Fələk durduqca alimlər yaşayırlar" hədisinin real nümunəsi, çox ixlaslı və böyük şəxsiyyət idi. O, heç vaxt özünü yüksəkdə görmürdü; nə mənim kimi dikbaş bir yeniyetmə, nə dərsinə gələn tələbə, nə də moizəsini dinləyib şəriət hökmünü öyrənən savadsız qoca qarşısında. Özü danışanda deyirdi: "Yeni bir sözümüz yoxdur. Elə min il öncəki sözü söyləyirik - Allahın və Peyğəmbərin (s) sözlərini. Əgər insan o sözlərə əməl etsə, xoşbəxt olar".

Mən danışanda elə sakitcə dinləyirdi ki, sanki nəsə öyrənir; sanki dediyim sözü bilmir, ilk dəfədir eşidir. Bəzən elə bilirdim ki, mən böyüyüb ona çatmışam. Gənclərlə həmsöhbət olanda deyirdi: "Mənim altmış yaşım var. Otuz il mən enərəm, bir neçə il də siz qalxın ki, bir-birimizi başa düşək". Mənə isə bunu da demirdi, özü aşağı enirdi; o qədər enirdi ki, dəcəl və bircəcik “Məhəmmədhüseyn xan”la söhbət edirdi.

O zaman onun Əllamə Təbatəbainin tələbəsi olduğunu bilmirdim. Başa düşmürdüm ki, qonağa özü çay gətirsin deyə niyə bu qədər israr edir; qonaq da istər mən olum, istər Qum Müdərrislər Cəmiyyətindəki alim yoldaşlarından biri.

Bazar üçyolunda yerləşən balaca Abdullahi məscidindəki qısa moizələrinin də səbəbini bilmir, qısa və yanıqlı rövzələri ilə niyə ağladığını başa düşmürdüm.

Həmişə deyirdi ki, bütün problemlər gözləntidəndir; əgər heç kimdən bir şey gözləməməyi öyrənsən, həm özün rahat olarsan, həm də digərləri.

Onunla bağlı xatirələrdən yazmaq istəyəndə həmişə daha şirin bir xatirənin qaldığını görürəm. Nə qədər danışsam da, gözəlliklər dəryasından yalnız bir damla olur. Axırda bir cümlə ilə kifayətlənirəm: Mərhum Ayətullah Mirzəli Əhmədi Miyanəci bu ayəyə tabeliyin müstəsna bir nümunəsi idi: "Həqiqətən, Allahın Rəsulunda Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox yad edənlər üçün gözəl örnək vardır!"[1]

Xakfərəc məhəlləsindəki həmin kiçik evində onunla yan-yana oturub şam yeyirdim; danışır, dinləyir, ata kimi nəsihət verir, məni oğlu Cəfərdən ayırmırdı. O qədər mehriban idi ki, hərdən məni Cəfərdən də çox istədiyini düşünürdüm. Həmişə mənə zaman ayırırdı. Bəzən oturub onu dinləyirdim, bəzən danışırdım, bəzən dəcəllik edirdim. Məni kölgəsi altından uzaqlaşmağa qoymurdu; Cəfərin özü kimi.

Atası kimi Cəfər də nur mənbəyi idi; zirvədə, ən yüksəklərdə. O qədər yüksəkdə idi ki, bəzən sözlərini başa düşmürdüm. Kiçik şeylərlə sevinir, Cəfərin hər gün daha da uzaqlaşdığını hiss etmirdim. Şəhadətindən sonra özümə gəldim, hər şeyin bir gecədə bitdiyini gördüm. Cəfər getmiş, mənim də bütün rahatlığımı aparmışdı. Heç bir yerdə qərar tuta bilmirdim. Dünya onsuz əskik görünürdü. Səhərdən axşama qədər hərlənir, bir də gözümü açanda özümü Xakfərəcdə, Cəfərgilin evinin önündə görürdüm; hansı ki, o evin sakinləri yüksəlməm üçün mənə qol-qanad olmuşdular. Hacı ağa özü qapını açır, məni görəndə mehriban üzünə təbəssüm qonurdu. Əlindən öpmək istəyirdim, amma qoymurdu. Qucaqlaşırdıq, əbasının ətri canıma

[1] Əhzab, 21.

hopurdu. Ondan Cəfərin ətri gəlirdi - gülüşlərinin, namazlarının, sözlərinin ətri.

Nə qədər ki Cəfər vardı, əlimdən tuturdu, sevgi, səbir, hətta küsməklə məni doğru yola çəkirdi. Sanki geridə qalacağım, tək qalacağım, onu bir anlığa görmək həsrətindən ürəyimin qəm-kədərlə dolacaq günlərimi görürdü, əlimdən tutub, zorla da olsa, mənə yolu göstərirdi.

İndi şəhadətindən otuz iki il ötür. Onunla birlikdə getməyimi istədiyi gün mən tənbəllik etdim, bu gün özümə gələndə isə o yoxdur; nəinki yoxdur, var, amma əlim ona yetmir. Onu çox hiss edirəm; özünü və atasını. Bəzən məni çağırdıqlarını eşidirəm. Bəzən bir tərəfdə dayanıb acınacaqlı halıma baxır, kədərlənirlər. Bəzən mənə yol göstərməyə çalışırlar. Bəzən mənə yaxşı yerlər nəsib olur, hiss edirəm ki, onların işidir. Bəzən də bu qədər yanımda olmalarına baxmayaraq, məni görməmələrindən inciyirəm.

Bu qədər qaçıb çatmamaqdan yoruluram. Xakfərəc məhəlləsinə gedib evlərinin önündəki pilləkəndə otururam. Həsrət çəkirəm ki, kaş bircə dəfə də bu qapı açılaydı və Hacı ağa bayıra çıxaydı! Əbasını çiyninə çəkəndə mən də ayağa qalxıb salam verəydim. Məni görüb gülümsəyə və deyəydi: "Salam, ağa Məhəmmədhüseyn". O, məni həmişə "ağa" çağırırdı.

Qapı açılaydı, Cəfər qolları çırmanmış halda bayıra çıxaydı. Çənəsindən dəstəmaz suyu damaydı. Əlini yaş üzünə çəkib suyu üzümə sıçradaydı gülüm deyə. Kaş bir də gəlib üzümə su səpəydi! Qəflət yuxusundan oyanaydım, nə desə, qulaq asaydım, nə tapşırsa, yerinə yetirəydim. Əlindən tutaydım, hara getsə, onunla gedəydim, yolun sonuna, cənnətin özünə qədər. Kaş! Kaş bu qapı bir də açılaydı! Kaş Cəfərlə hacı ağa həyatda olaydılar! Kaş, heç olmasa, onların ardınca getməyə bir yol tapaydım!

Beş il idi xatirələrimi yazmaq qərarına gəlmişdim. Xüsusən də Böyük Rəhbər Ayətullah Xamenei xatirələrini yazmayınca bir döyüşçünün döyüşünün yarımçıq qaldığını buyurandan sonra onları çap etdirməkdə daha qərarlı oldum. Döyüş yoldaşlarımın rəşadətləri, qəriblikləri və məzlumluqları barədə nə bilirdimsə, cəbhə bölgələrini ziyarət edən ekskursiya qruplarına danışmışdım. Xatirələrimi qələmə almaqla uşaqların deyilməmiş sözlərini, bəndəlik, ibadət, yoldaşlıq və cəbhədə yaşamaq tərzlərini işıqlandırmaq istəyirdim. Hansı ki, bugünkü gənclərin həyatında bu tərzlərin yeri çox görünür.

2015-ci ilin mayında Rəsul Moltan kitabının təqdimat mərasiminə dəvət olundum. Kitab Şəhid Seyid Məhəmmədəli Rəhiminin həyatı barədə idi. Kitabı oxuduqca çox ürəyimə yatırdı. Allahın istəyi və Şəhid Rəhiminin lütfü ilə 15 şəban ərəfəsində Rəsul Moltan kitabının yazarına ilk müsahibəni verib xatirələrimi söylədim.

O gündən başlayaraq yazmaq, yoxlamaq, yenidən tərtib etmək və əsaslandırmaq kimi mərhələləri üç ilə bitdi. Yekun nüsxə 2018-ci ilin 31 martında, İmam Əlinin (ə) doğum günündə hazır oldu. İşin başlanğıcı ilə bitişinin iki bayram arasında baş tutduğunu bərəkət nişanəsi sayır, bu vəzifəmi yerinə yetirməkdə mənə kömək etmiş bütün əzizlərə təşəkkür edirəm. Xüsusən də kitabın hərbi-əməliyyat hissələrini oxuyub təsdiqləməkdən ibarət hədsiz əməkdaşlığına görə müharibə günlərinin böyük komandiri Sərdar Hacı Əhməd Fütuhiyə, hər fəslin istinadlarını və şəkillərini təkmilləşdirdiyinə görə "Həmasə 17" mərkəzinə, müharibə günlərində olduğu kimi bütün imkanları ilə yanımda olan, yaddaşımın yanlış və əskiklərini düzəldən döyüş yoldaşlarıma, habelə kitabın nəşrini səbir, diqqət və incəliklə həyata keçirmiş Şəhid Kazimi nəşriyyatına minnətdarlığımı bildirirəm. Ümidvaram ki, döyüş yoldaşlarımın İmam Mehdinin (ə) naibi olan İmam Xomeyninin “Bir kömək edən varmı?” çağırışına “ləbbeyk” cihadının bir parçasını təsvir edən bu kitab dövrün imamının razılığına səbəb olsun və şəhid dostlarım həsrət günündə əlimdən tutsunlar. Mən o dostlarımı kitabın müsahibəsi və oxunuşu zamanı bu vərəqlərin arasında bir daha gördüm, onlarla birgə vuruşdum, pusquda durdum, səngərdə dayandım, yaralandım, namaz qıldım, güldüm, zarafat etdim, onları öpdüm, ətirlərini duydum, yenə dayanıb gedişlərinə baxdım... Və yenə tək qaldım. Canım təklikdən çox sıxılır; səmanın həsrətindən. Ümidvaram ki, bu kitab mənimlə şəhid yoldaşlarım arasında, habelə həqiqət axtaranların hamısı üçün səmaya doğru bir körpü olar.

Məhəmmədhüseyn Hüseyni Yekta
27 Rəcəb 1439
14 Aprel 2018

# Birinci fəsil

## *İnqilabın səsi*

“Bizim inqilabımız İranla məhdudlaşmır. İran xalqının inqilabı İslam dünyasının həzrət Höccətin (ruhumuz ona fəda olsun) rəhbərliyi ilə baş tutacaq böyük inqilabının başlanğıcıdır. Allah bütün müsəlmanlara və bütün insanlara lütf edib onun zühurunu indiki dövrdə həyata keçirsin!”

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 327

Yer qızışıb titrəyir, dar qaranlıq pusqu səngərini udmaq istəyirdi. Birinci mərmi partlayanda tavandan Cəfərin[1] üz-başına daş və torpaq töküldü. Yenə mərmi fitinin səsi gəldi, qulağının pərdəsi titrədi və üzü üstə yerə yıxıldı. Qıvrım saçı toz-torpağa bələşmişdi. Ağır və qalın partlayış səsi, torpaq və barıt qoxusu... Pusqu səngəri alt-üst oldu, tavanın taxtaları sındı. Kaş Cəfər səngərin içində olmayaydı! Kaş taxtalar başını arxadan yarmayaydı!

Bilmirəm neçənci dəfə idi Cəfərin şəhadət anını eşitdiklərim əsasında təsəvvür edirdim. Ürəyim qəm-qüssədən dayanmaq üzrə idi. Sanki o səngəri yalnız Cəfər üçün düzəltmişdilər və Allah şəhadəti ona özəl olaraq orada təklif etmişdi. Əks təqdirdə, niyə səngərin koordinatları 15 şəbana qədər düşmənə məlum olmadı? Niyə Cəfərin

---

[1] Şəhid Cəfər Əhmədi Miyanəci 1965-ci ildə Qum şəhərində dünyaya gəlmiş, 25.04.86 tarixində, 15 şəbanda Məcnun adasında şəhadətə qovuşmuşdur.

postda olduğu vaxt, yəni axşama qədər mərmilər səngərin yolunu tapmadı?

Üzünü yerə qoyub zikr deyərkən çıxardığı "s" səsləri qulaqlarımda dolaşırdı. Qəzəbli partlayış gurultularının fonunda belə eşidirdim:

– Ey mövlam, ey dövrün imamı, köməyə gəl! Ey mövlam, ey Sahibəzzaman, dadıma yet!

Bu, daimi zikri idi. Yavaşca, dodaqaltı zümzümə edirdi. O qədər deyib daddı ki, ağası da 15 şəbanda ona müştəri oldu.

Küçələrdə dolaşa-dolaşa hərəmə çatdım. Xanım dərdimi bilirdi. Ürəyimi alıb Cəfərin yanına apardı. Ay üzü bir an da beynimdən çıxmırdı. Beş il öncə ilk dəfə gördüyüm kimi intizarla mənə baxırdı.

1981-ci ilin yayı idi. Ayağımı küçəyə qoyan kimi peyda oldu. İstidən yanaqları qızarmışdı. Uzun taxta nərdivanı çiynində yerbəyer edib nıqqıldaya-nıqqıldaya Sahibəzzaman məscidinin küçəsindən Xakfərəc xiyabanına döndü. Mən Həsən ağanın dükanından qatıq almağa gedirdim. Bığ yerim təzəcə tərləyirdi, axşam atam gələnə qədər evin alış-verişlərini mən edirdim.

– Kömək edirsən? - Cəfər nərdivanı divara dayayıb tövşüyə-tövşüyə dedi.

Elə danışırdı ki, sanki məni çoxdandır tanıyır. "Yox" deyə bilmədim, onu gözlətmədən həyət qapısının arasına bir daş qoydum. Qatıq isə yadımdan çıxdı.

Qumun iyul günəşi sanki xiyabanın kənarındakı kanalın yanında oturub yapışqan istisini üz-başımıza səpir, bizi yandırırdı. Tər damcıları belimin ortasına qədər sürüşürdü. Nərdivandan ikiəlli yapışmışdım. Cəfərin yıxılacağından qorxduğuma görə kürəyimi qaşıya da bilmirdim. Günəşin sərt işığından gözlərimi qıyıb ona baxırdım. Nərdivanın son pilləsi üzərində kaman kimi əyilib plakata mismar vururdu. Çəkici hər vuranda ürəyim üzülürdü, qorxurdum ki, başı üstə səkinin ortasına yıxılar.

Plakatdakı yazını oxuyanda ağa Behiştinin[1] şəhadəti yadıma düşdü. Ürəyim yandı. Behiştinin adı ağ parçanın ortasına qırmızı rəngdə

---

[1] Ayətullah Seyid Məhəmməd Hüseyni Behişti 24.10.28 tarixində İsfahanda doğulmuş, 28.06.1981-ci ildə Tehranda İslam Respublikası Partiyasının iqamətgahının Xalq Mücahidləri Təşkilatı tərəfindən partladılması zamanı şəhadətə qovuşmuşdur.

yazılmışdı, "şəhid" sözünün hərflərindən qan damırdı. Fikirləşdim ki, sanki bütün sözlər behiştin ortasına toplaşıb tamaşa edirlər.[1]

İki il öncə ağa Behiştini düz burada görmüşdüm; Həsən ağanın dükanının qarşısında. Küçəmizin başında qara bir Blazer avtomobilindən enirdi. Mən sevincək ona doğru qaçıb salam verdim. Adımı soruşdu. Əbasının ipini sinəsinə doğru çəkib iri addımlarla getdi və döngədə gözdən itdi.

Cəfər plakatı vurub işini bitirdi, gərnəşəndən sonra nərdivanın bir tərəfini çiyninə qoydu. Kömək istəməsini gözləməyib tez o biri tərəfini qaldırdım, Cəfər kimi çiynimə qoyub onun ardınca yola düşdüm.

Sahibəzzaman məscidinin xudmani həyəti elə nərdivan uzunluğunda idi. Onu yerə qoyduq. Cəfər üst-başını çırpdı. Əllərimin içinin qaraldığını görüb həyətdəki dəstəmazxanaya doğru getdim.

– Kitabxananı təmizləyərsən? – Cəfər soruşdu.

Kitabxananın adını çəkən kimi sevindiyimdən uçmaq istədim, amma üz vurmayıb nəmli dəsmalı ondan aldım.

Kitabxana məscidin balkonunda yerləşirdi. Cəfərin gözündən uzaqlaşan kimi qaça-qaça pilləkənlə şəbistana qalxdım. Balkona girmək uşaqlara qadağan edilmişdi. Nəsə bilirdilər ki, bizi yuxarı buraxmırdılar. Balkonun sürahilərindən sallananda yıxılmamağım, beynimin şəbistanın ortasına səpələnməməsi bir möcüzə oldu.

Cəfərin məni nə üçün yuxarıya yolladığını unudub balkonda gəzişir, hər şeyi qurdalayırdım. Sanki kitabxananı təmizləməyə gəlməmişdim. Tozu kitablarından çox olan dördmərtəbəli bir metal şkaf vardı, qısa və uzun, arıq və kök kitablarını rəflərə düzmək yerinə üst-üstə qoymuşdular. Onları dəstə-dəstə yerə qoydum, rəflərə yaş dəsmal çəkdim. Əlimin altından toz içində nazik bir yol çəkildi; küçəmiz kimi ensiz.

Axşamlar nənəmə məhəllə uşaqlarından və onlarla oyunlarımızdan o qədər danışırdım ki, başı ağrıyırdı, susub yatım deyə yatağımı sərirdi. Hər gecə Mehri bacımla mən nənənin yanında yatmaq üstə dalaşırdıq. O da sülh yaratmaq üçün mənim yerimi sağ tərəfindən sərirdi, Mehri bacımın yerini sol tərəfindən.

---

[1] "Mənim Şəhid Behişti ilə bağlı narahatlığımın səbəbi onun şəhadətindən də əhəmiyyətlidir. Bu, onun ölkədə məzlumluğundan ibarətdir... Mən onu xalqını və İslamı sevən, öz cəmiyyətimizə faydalı olan məsuliyyətli, dindar və müctəhid bir şəxs bilirdim". (İmam Xomeyni, Nur səhifəsi, c. 14, s. 518-519)

Atamın mehriban anası olan Zivər nənə ağlım kəsəndən bizimlə yaşayırdı. Nağıl danışanda gərək gözlərimizi bağlayaydıq. Məndən iki yaş kiçik olan Mehri bacım tez yatırdı, mənsə yavaşca gözlərimi açırdım. Nağılı onun gözlərinin mavi səmasından dinləmək istəyirdim. Məhəmmədhüseyni də yatıb yaxşı yuxular görsün deyə nağılı davam etdirirdi, amma bilmirdi ki, nağıldakı Nəməkiyə yoldaş olmuşam, buynuzlu divin qaranlıq zindanının qorxusu yuxumu qaçırıb. Əlindən bərk tuturdum ki, yatandan sonra Nəməki kimi məni də oğurlamasınlar. Əllərinin özünəməxsus ətri canıma yayılırdı və nəhayət, məni də yuxu tuturdu.

Yadıma gəlmir ki, nə vaxtsa səhər oyananda nənəm səhər süfrəsini sərmiş olmasın. Hətta gecəni qonşumuz Zikra xanımgildə yatanda da bizim səhər yeməyimizi hazırlayırdı. Zikra xanım gecə tək qalmasın deyə nənəm çox vaxt onun evində yatırdı. Məscidin azan səsi həyəti bürüyəndə açarını yavaşca həyət qapısına salır, səssizcə içəri girirdi. Mülayim səhər havası bədənimi üşüdürdü, ədyalı qulağımın dibinə qədər çəkirdim. Hovuzda dəstəmaz alanda yuxulu halda miçətkənin içindən ona baxırdım. Taxta darağını ağ parlaq saçına çəkəndə dəcəlliyim tuturdu:

– Mən o vaxt həyatda olsaydım, babamla evlənmənə qoymazdım, sənə özün kimi göyçək bir ər tapardım.

Dodağını dişləyib hörüyünü yaylığının altına salırdı. Bilmirəm beynimin harasından çıxarmışdım ki, babam kəndin ən göyçək qızı Zivəri bulaq başında görüb sevmişdir. Rəhmətliyin bu zövq hekayəsini hamıya danışıb nənəmin göyçəkliyi ilə öyünürdüm. O da məni qorxudub deyirdi ki, atan bu sözləri eşitsə, sənə acıqlanar. Mən də onu digərlərinə tərifləyəndən sonra yavaşca deyirdim: "Atama deməyin ha!"

Həmişə mənim tərəfimi saxlayırdı; xüsusən də Nəfisə bacım dünyaya gələndə. Mən istəyirdim ki, anamın bətnindəki uşaq oğlan olsun, onunla birlikdə velosiped sürüm, Mehri bacım isə evcik-evcik oynasın deyə bacı gözləyirdi. Hələ dünyaya gəlməmiş bacı və ya qardaşımız üstə hər gün dalaşırdıq. Söhbət böyüyəndə nənəm məni kənara çəkib qulağıma deyirdi ki, namazda ananın sənə qardaş gətirməsi üçün dua edirəm.

1975-ci ilin iyulunda Fatimə bacım dünyaya gələndə davalarımız da bitdi. Məhəllənin çevik mamaçası çadrasının altında çanta bizə gəldi. Mehri ilə məni də o, dünyaya gətirmişdi.

İkimiz birlikdə Nəfisə bacımızın başı üstə oturmuşduq. Gözləyirdik ki, gözlərini açsın, görək rəngi qaradır, yoxsa nənəm kimi mavi. Onun oğlan olması üçün nə qədər dua etdiyimi artıq unutmuşdum.

Həmin günlərdə məhəllə uşaqlarından öyrəndiyim pis bir sözə görə küçəyə çıxmaq mənə qadağan olunmuşdu. Küçədəki uşaqlar o sözü çox deyirdilər, mən də pis söz olduğunu bilmədən evdə təkrarlamışdım. Elə bilirdim ki, uşaqlar kimi anam da onu eşidəndə güləcək. Gülüşünü xatırlamıram, amma dilimin üstünə tökdüyü istiot yaxşı yadımda qalıb. Nə qədər su içirdimsə, xeyri olmurdu, yanaqlarım göynəyirdi.

Ağlamaqdan boğazım duzlu olmuşdu. Dizimi qucaqlayıb otağın bir tərəfində oturdum və atamı gözləməyə başladım. Elə ağlayırdım ki, anamın da yazığı gəldi, qərara gəldi ki, belə cəzalandırmaq yerinə küçə uşaqları ilə oynamağı qadağan etsin.

Nəhayət, atam gəldi. Motosikletinin səsini eşidib həyətə qaçdım. Onun gəlişinə o qədər sevindim ki, istiot və ağlamaq yadımdan çıxdı. Motosikletin ətrafını gəzir, oturacağın iki tərəfindəki xurcunları yoxlayırdım.

– Bəs yük maşınım hanı? – gözlərimə inanmayıb soruşdum.

Tək oğul idim, nə istəyirdimsə, alırdılar; o sarı-qırmızı plastik yük maşınından başqa hər şey. Onu küçədə uşaqlarda görmüşdüm. Günortadan sonra ipini səkinin yanındakı ağacın budağına düyünləyirdilər; nasos yeri və onun dəmir qapısı ilə üzbəüz. Özləri də ağacın kölgəsinə söykənib sürücüləri yamsılayırdılar. Nasos yeri küçənin başında, evimizin önündə idi, keçmişdə orada sakinlərin istifadəsi üçün su nasosu olmuşdu.

Nasos yeri hələ də durur, indi məndən və oyun yoldaşlarımdan da çox qocalmış tək çinar ağacı ilə birgə. Hərdən Xakfərəc məhəlləsinə yolum düşəndə oraya da baş çəkirəm, uşaqların gülüş və oynamaq səsi qulaqlarımda dolaşır. Xəzinə tapmaq, ya da toplarını çıxarmaq üçün onun divarına çox dırmaşırdılar. Orta yaş kədəri indi həmin uşaqların çoxunun saçını ağardıb.

Həmin günü - pis sözü dediyim, istiotun gözlərimi yaşartdığı günü xatırlayanda həsrəti ürəyimdə qalmış arzum yadıma düşür. Arzum bu idi ki, mənim də yük maşınım olsun, torpaqla doldurum, buferinə ip bağlayıb ardımca çəkim. Daşıma işi bitəndən sonra yük maşınlarının sürücüləri kimi səkinin yanındakı ağacın kölgəsində istirahət edim.

Atamın əlindən tutub nasos yerinə aparmış, uşaqların sarı-qırmızı yük maşınını göstərmişdim; o da alacağına dair söz vermişdi. Əməl etmədiyi ilk və son sözü bu oldu. Anam torpaqla oynamağa getməyim deyə yük maşını almağa icazə vermədi.

Bir neçə dəfə motosikletin ətrafına fırlandım, xurcuna əlimi saldım - yük maşını yox idi. Onun yerinə mənə velosiped aldı və mən küçənin yeganə velosipedli uşağı oldum. Xalam və dayım oğlanları bizə gələndə küçədə də sürürdüm, digər vaxtlarda isə küçəyə çıxmaq qadağan idi.

Mehri bacımı tərkinə oturdub həyətdə dövrə vururdum. Heç kəsdə velosiped yox idi. Digər uşaqlar meyvə yeşiyindən özlərinə araba düzəltmişdilər. Yeşiyin altına diyircəkli yastıqdan təkərlər yerləşdirir, ona bir sükan düzəldib minirdilər. Anamdan gizli başımı küçəyə çıxarıb onlara baxırdım. Arabaların asfalt üzərində xırçıltısı hamının qulağını batırır, mənimsə ürəyimi yandırırdı. Allahdan gizli deyil, sizdən nə gizli: onların arabasını qiymətli velosipedimdən çox sevirdim.

Yalnız çevrəmiz toplaşanda velosipedimə görə sevinirdim: mən, məndən üç-dörd yaş böyük olan dayılarım Məhəmməd[1] və Mürtəza[2], Siddiqə xalamın oğulları Mehdi ilə Əmir və Tehranda yaşayan Fəxri xalamın oğlu Əli.[3] Bəzən İsfahandan anamın xalası oğlu Məhəmmədrza[4] da bu çevrəyə əlavə olurdu.

Velosipedə növbə ilə minməyə səbrimiz çatmırdı, üçümüz birlikdə minirdik: mən, Məcid və Əli. Poladdan olduğu üçün altımızda davam gətirirdi. Bir nəfər oturacaqda otururdu, bir nəfər tərkində oturub pedalı fırladırdı, birimiz də sükanla təriyin arasında, çərçivənin yuxarı borusunun üzərində. Birləşəndə heç kim bizimlə bacarmırdı.

Bir dəfə Siddiqə xala Quma gəlmişdi. Qayıdanda Mürtəza dayı da onlarla Tehrana getmək istədi, amma nənəm Nüsrət xanım icazə vermədi. Qulağımıza söz batmırdı. Məcid yavaşca atası Hacı Rəhmətin

---

[1] Məhəmməd Əbayi Kupayi 1963-cü ildə Qumda dünyaya gəlmiş, 1983-cü ildə Mərivanda şəhadətə qovuşmuşdur.

[2] Mürtəza Əbayi Kupayi 1967-ci ildə dünyaya gəlmiş, 1986-cı ildə Kərbəla-8 əməliyyatında ayağını itirmişdir.

[3] Əli Əbayian Kupayi 1964-cü Tehranda dünyaya gəlmiş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

[4] Məhəmmədrza Əbayi Kupayi 1966-cı ildə İsfahanda doğulmuş, 1983-cü ildə Xeybər əməliyyatında şəhadətə qovuşmuşdur.

cibindən maşının açarını çıxardı. Mürtəza dayı baqaja girib gizləndi. Böyüklər də bundan xəbərsiz sağollaşmağa başladılar. Onlar gedəndən bir saat sonra Məcidlə mənim işim başlayırdı. Məcid gözləməli, onlar magistrala çıxandan sonra Mürtəzanın baqajda olduğunu söyləməli idi. Tez desəydi, dövrə vurub qayıdardılar. Mən də gözləməli, onu soruşanda xəbər verməli idim. Təhlükəli iş idi. Hərəmiz əməlli-başlı döyülməyi haqq edirdik, amma Mürtəza dayının baqajda boğulmadığına şükür əlaməti olaraq, bizimlə çox da işləri olmadı.

Bir gündən bir həyətimizi yumalı idik. Mehri bacı plitələri süpürür, mən də şlanqla yuyurdum. Atam plitələrin arasının betonunu xüsusi sifarişlə çox möhkəm etmişdi, anamın o qədər sürtüb yumasından laxlamırdı. Həyət parıldayandan sonra növbə mətbəxin divarlarına çatırdı. Bu qədər işdən hövsələm daralırdı, oynamaq istəyirdim. Buna görə bəzi kafelləri silmirdim. Bu isə anamın gözündən yayınmır və məni bir çimdiyə qonaq edirdi.

Atamın məni bir dəfə də vurduğunu xatırlamıram, amma ana çimdiyi yerindəydi. Əgər olmasaydı və çəkinməsəydim, olmazdı, gərək hər gün çadrasını başına atıb məni üz-başı qanlı halda çaydan yığaydı. İllərlə su üzü görməyən Qum çayı Xakfərəc məhəlləsinin yuxarısından keçirdi və o günlərdə narkomanların mərkəzinə, Xakfərəc və Bacək dalaşqanlarının döyüş yerinə çevrilmişdi.

Uzun yay günlərində hövsələm daralırdı. Küçədən uşaqların gülüş səsini eşidəndə dözə bilmirdim. O qədər deyinib bəhanə gətirirdim ki, anam çadrasını başına atırdı, Mehri bacı ilə mən də sevincək onun ardınca yola düşürdük. Babagilə, Hacı Əlimirzə Əbayi Kupayinin və Nüsrət xanımın evinə getdiyimizi söyləyəndə çox sevinirdik. Şeyx Mehdi küçəsinin başına çatanda anamızın çadrasını buraxır, küçənin ortasındakı ensiz kanalın üstündən ziqzaq şəklində və səs-küylə qaçırdıq. Mehri bacımla mənim gülüşlərim Nüsrət xanımın qızının və nəvələrinin gəldiyini qonşulara xəbər verirdi.

Yaş buğda ətri qapının yanından burnuma dolurdu. Buğdaları cücərsinlər deyə Hacı Əlimirzənin evinin zirzəmisində isladırdılar. O zaman suhan halvası bişirənlər bu buğdalardan istifadə edirdilər. Məhəmməd dayımla Mürtəza dayım cücərmiş buğdaları bellə vedrəyə doldurur, vedrəni zirzəminin ensiz pəncərəsindən bayıra verirdilər. Mən daşıma işlərinə baxırdım: ipi vedrənin dəstəyinə möhkəm düyünləyirdim, Hacı Əlimirzə də damdan çəkirdi. Qurumaq üçün oraya sərirdilər. Əlimi belimə qoyub yuxarı baxır, boş vedrənin

yırğalana-yırğalana enməsini gözləyirdim. Hoppanıb onu göydə tutur və bir neçə dəqiqədən sonra dolu halda yuxarıya verirdim. Belin yerdə xırçıltısı başıma dolurdu.

Nüsrət xanım isə xalça toxuyurdu. Onun şeirlərinin mülayim ritmini sevirdim. Oxuya-oxuya toxuyur, daraqla vururdu, biz də işləyirdik. İşi qurtarandan sonra çay dolu podnosla həyətə gəlirdi. Mən böyüklərin yanında otururdum. Bellə işləməkdən dayılarımın əlləri qabar olurdu, Hacı Əlimirzənin başında tər damcıları parıldayırdı. Mən də əlimi belimə qoyub ax-uf edə-edə pillələrin üstünə yayılırdım, Nüsrət xanımın təzə dəmlənmiş çayını buğdasını özümüz qurutduğumuz suhan halvası ilə içib yorğunluğumu çıxarırdım. Sanki dünyanın ən çətin işini görmüşəm; atamla anam vacib həccə gedəndə mağazaya baş çəkməyim qədər çətin.

1978-ci ilin qışı idi. İnsanlar sürətlə yanımdan keçir, mənə toxunurdular. Qələbəlik arasından İtminan parça mağazasına doğru yol açırdım. Kaş atam orada olaydı, əlindən möhkəm tutaydım, arxasında gizlənib mağazaya qədər gedəydik! Hər gün şərfimi gözlərimin altına qədər qaldırırdım. Qışın soyuq çağında məktəbdən atamın dükanına gedir, guya işlərə baş çəkdiyimi sanırdım.

Həmin gün isə həmişəkindən fərqli idi.[1] O qədər hay-küydən qorxuya düşdüm. İnsanlar bütün İrəm xiyabanını doldurmuşdular, hövzə tələbələri bitməyən bir sel kimi Feyziyyə mədrəsəsindən çıxırdılar. Yumşalmış qar ayaqlar altında şappıldayırdı. Bəzilərinin əlində qəzet vardı, hirslə havada yelləyib qışqırırdılar. Onların niyə

---

[1] 1978-ci il yanvarın əvvəllərində "Ettelaat" qəzeti şahın birbaşa əmri ilə bir məqalə çap etdi. Orada açıq şəkildə hicabsızlıq dəyər, hicab isə köhnəpərəstlik və mürtəcelik kimi təqdim olunur, İmam Xomeyni təhqir edilir və 5 İyun 1963-cü il qiyamı qırmızı və qara müstəmləkənin təxribatı adlandırılırdı. Bu addıma ilk reaksiyalar Qumdan gəldi. Qum Elm Hövzəsinin müəllimləri yanvarın 8-də hövzəni bağladılar, tələbələr böyük dəstələrlə təqlid müctəhidlərinin evlərinə doğru yürüş etdilər. Qumun bəzi din alimləri və təqlid müctəhidləri çıxış edərək imamı dəstəklədilər, ona qarşı təhqirləri qınadılar. Qum tacirləri elm hövzəsini görüb 9 yanvarda dükanları bağlamaq qərarına gəldilər. Həmin gün SAVAK və polis qüvvələri Tehrandan köməyə gəlmiş qüvvələrlə birlikdə hövzə mədrəsələrini mühasirəyə aldılar. Müxtəlif təbəqələrdən olan əhali hövzə böyüklərinin evlərinə doğru yürüş edir, get-gedə daha da qızışırdılar. Rejim qüvvələri xalqın böyük aksiyasını görüb hücum qərarına gəldi və atəş başlandı. Həmin gün əhalidən və hövzə tələbələrindən çox adam şəhid oldu və yaralandı.

hirsləndiklərini bilmirdim. Səsləri başıma dolurdu. Qorxudan ağzım acı olmuşdu, ürəyim bərk döyünürdü.

Nə irəli gedə bilirdim, nə də geri. Çaxnaşmanın ortasında qalmışdım. Bazarçalarında oynamağı sevdiyim xiyaban qorxunc olmuşdu. Nə qədər irəliləyirdimsə, sıxlıq da mənimlə gəlirdi. Camaatın çoxluğundan Astana meydanı görünmürdü. Bir tələbə sürətlə yanımdan qaçdı. Əmmamə başından düşdü, o isə arxasına da baxmadı. Başqa bir neçə əba, əmmamə və bir cüt nəleyn də ayaq altda oyan-buyana gedirdi. Sahibkarlar mağazalarının jalüz qapılarını tələsik endirirdilər. Gənc bir kişi hər iki əlini yuxarı qaldırmışdı, camaatın arasında gəzişib hamıya göstərirdi. Onun qanlı əllərini görəndə çox həyəcanlandım, baxışım üzündə donub qaldı. Saçının arasından alnına və burnunun kənarlarına doğru qan axırdı. Ağ köynəyinin sinəsi qandan qızarmışdı, ucadan nəsə deyirdi. Hay-küydən səsini eşitmirdim. Çənəsinin altından da qan damdı, yerdəki qar üzərinə bir neçə xırda qırmızı ləkə düşdü. Müvazinətini qoruya bilmir, sağa-sola səndələyirdi. Birdən yerə yıxıldı. Camaat dəmir yonqarlar kimi onu dövrəyə aldılar və o, gözdən itdi.

Hərə bir tərəfə qaçırdı: bir qismi hərəmə, bir qismi Güzərxana, məmurlar da camaata tərəf. Onların dəmir dəbilqələrindən və qaşqabaqlı baxışlarından qorxurdum, dəmir silahları və qalın çəkmələri ürəyimi üzürdü. Atamın yeri necə də görünürdü!

İnqilabın nə olduğunu başa düşməyimə hələ qalırdı. Həmin gün evə qədər birnəfəsə qaçdım. Hər bir neçə addımdan bir arxama baxırdım, qorxurdum ki, şahın məmurları məni təqib edərlər. Qar ayaqlarım altında xırçıldayır, yanaqlarım soyuqdan göynəyirdi.

Anamla atamın həcdən qayıtmasına cəmi iki gün qalırdı. Həyətimizdə çadır qurmuşduq, stol və stullar ədəb-ərkanlı uşaqlar kimi həyətin bütün dövrəsində oturmuşdu. Həyətin yeni görkəmini sevirdim. Səbirsizliklə gözləyirdim ki, anamla atam gəlsinlər və həyət qonaqla dolsun, xalam uşaqları ilə stolların arasında qaçıb oynayaq. Məhəmməd dayımla Mürtəza dayım evimizin önündə dayanmışdılar. Sevincək onlara doğru qaçdım, lakin həyəti görəndə sevincim qursağımda qaldı. Heç nə yerində deyildi.

– Bəs çadır hanı? – deyə soruşdum.

Sual boğazımda düyünləndi, gözlərimin yaşı soyuqdan donmuş yanaqlarımı qızdırdı. Dayılar zavallı stol və stulları ağır çadranın altından xilas etməyə çalışdılar. Çadra yerə düşmüş, tapdanmış qarın

çirki üzərinə oturmuşdu. Qar yersiz əriyir, mənim planlarımı da əridirdi.

***

Güllə kimi yerimdən sıçradım. İlk partlayış səsi gələndə Şahrox fotoatelyesinə tərəf qaçırdım. Bütün günü qulaqlarımı şəkləmişdim ki, bu səsi eşidim. Fotoatelye SAVAK-ın göstərişi ilə şahın adını qapısının üstündən götürmüş və "Şəbahəng" olmuşdu.

Pəncərəsinin arxasından bütün Xakfərəc xiyabanını görə bilirdim. Küçənin səs-küyü mən deyildim ki, qapının arxasında saxlamaq mümkün olsun. Uşaqların oynamaq səsi də deyildi, inqilabın səsi idi. Bu səsin xüsusiyyəti belədir ki, heç bir qapının arxasında qalmır; xüsusən də bizim Xakfərəc xiyabanının ortasında, iki küçənin qovşağında yerləşən qapımızın.

Həyətdən küçəyə çıxan kimi inqilabçılarla hərbçilər arasında qarşıdurmanın içinə girirdin. Səs-küy gələn kimi Həsən ağanın dükanının yanındakı pilləkənlə dördəlli qalxır, özümü fotoatelyenin pəncərəsinin arxasına çatdırır, həyəcandan bərəlmiş gözlərlə baxırdım. İnqilabçılar xiyabanın ortasına qədər çəkdikləri tikanlı məftillərin və avtomobillərin arxasında mövqe seçirdilər. Bir cavan, əsgər dolu pikaplara tərəf butulka atırdı. Butulkanın düşdüyü yerdən dərhal alov qalxırdı. Qaça-qaça fotoatelyeyə elə bu molotov kokteylini görməyə gəlmişdim. Adını da sevirdim; yumru idi, ağzımda qəşəng fırlanırdı.

Xiyabana və oradakı qələbəliyə həvəslə tamaşa etdiyim yerdə mehriban fotoqrafın ağır əlini çiynim üzərində hiss edib özümə gəldim:

– Anan nigaran qalar!

Yenə pilləkənə doğru qaçdım, amma hələ çatmamış fikrimdən daşındım, yolumu bankın üstündəki otağın həmişə qıfıllı qapısına tərəf döndərdim. Bu, atamın heç kimə kirayə vermədiyi yeganə otaq idi - sirli otaq. Bu bağlı qapının arxasındakı dünyanı görmək istəyirdim. O, mənim üçün yeni olan insan və əşyalarla dolu xəyali bir dünya idi. Qıfılla bir qədər əlləşdim, amma açılmadı və həmişəki kimi kor-peşman pilləkəndən endim.

Evimiz ərzaq dükanı ilə Sadirat bankının arasında yerləşirdi. Hər şeyimiz vardı: fotoatelye, ərzaq dükanı, bank və diş klinikası. İkimərtəbəli bir ticarət mərkəzi kimi idi. Atamın kirəçiləri olduğuna görə hər yerə girir, gəzişirdim.

On bir yaşım vardı, evdə qala bilmirdim. Anam bəzi günlərdə atamla mağazaya getməyə icazə verirdi. İtminan parça mağazasında kassanın arxasında oturub yoldan keçənlərə baxırdım.

Astana meydanına çatan hər kəs üzünü hərəmin günbəzinə doğru çevirir, əlini sinəsinə qoyur, baş və çiyinlərini ədəb-ərkanla endirib salam verirdi. Bu meydanın adını Salam meydanı qoymuşdum. Səhərdən axşama qədər neçə nəfərin oradan salam verdiyini saymaq istəyirdim. Atamın mağazasına gedəndə işim bundan ibarət olurdu. Bəxtim gətirəndə ferşel Hacı Qüdrətin oğulları da ataları ilə gəlmiş olurdular. Bu zaman isə daha mağazada qalmırdım. Hacı Qüdrətin tibb otağı mağazanın yanındakı dalanın sonunda yerləşirdi. Oradan həmişə spirt və şpris iyi gəlirdi, duyanda həyəcanlanırdım. Rza, Həsən və Hüseyni küçənin başından, mağazanın önündən çağırırdım. Səsim küçənin əhəng tağı altında əks-səda verirdi. O qədər oynayırdıq ki, axşamın nə vaxt gəldiyini bilmirdik. And içmişdik ki, İrəm xiyabanını bu başdan o başa qədər metrlə ölçək; qaçır, yarışırdıq.

Şeyxan bazarçasının parçasatanları dükanlarını bağlayanda kefimiz kökəlirdi. Parça toplarının ortasındakı karton lülələri götürüb o qədər qılınc oynayırdıq ki, hər yerimizdən tər axır, yanaqlarımız qızarırdı. Astana meydanında bir-birimizi qatırdıq. İnsanlar və hövzə tələbələri hələ get-gəl edirdilər, biz də onların arasından keçib qaçırdıq. Karton lülələr əyilib sınanda isə döyüşümüz yarımçıq qalırdı.

Döyüşlərimiz zarafat və gülüşlə dolu olurdu; 1978-ci ildə İrəm xiyabanındakı döyüşlər isə qışqırıq, tüstü və alovlu olub hər gün xiyabanı udurdu, bir göz qırpımında hərəmdən Güzərxana və Çaharmərdan xiyabanına çatırdı, tələbələr Feyziyyə mədrəsəsindən bayıra çıxırdılar. İstəyirdim ki, camaatın arasında itim və atam məni tapa bilməsin. Tələbələrlə birlikdə yola düşür, şüarları təkrarlayırdım. Atamsa qoymurdu, israrlarıma cavab olaraq kassanın arxasında oturur, mənə baxmırdı; sanki heç nə eşitmirdi.

Şah məmurları peyda olanda hər şey alt-üst olurdu. Davaya gec çatmış adamlar kimi camaata hücum edirdilər. Səs-küy qulaq batırırdı. Şüşə qapının arxasına qaçıb oradan baxırdım. Hərə bir tərəfə qaçırdı. Məmurların dəmir papaq altındakı hirsli görkəmləri məni qorxudurdu. Atamın sözünə baxıb camaatın içinə girmədiyimə görə sevinirdim.

Astana meydanında əvvəlki sakitlikdən əsər-əlamət yox idi. İrəm xiyabanı bütün bu gərginliklərdən partlamaq üzrəydi. Atam tapşırırdı ki, mağazadan çıxmayım, özü isə qapının önündə dayanırdı. Nə etmək

istədiyini bilirdim. Kim yolunu itirirdisə, mağazada gizlədirdi. Ortalıq sakitləşənə qədər inqilabçılar mağazamızda qalırdılar. Tərdən islanmış üz-başları və tövşüyən nəfəsləri yadımdadır. Onlar bir söz demədən atam onları mağazanın sonundakı balaca otağa salırdı. Şkafların arxasındakı otaqdan bizdən başqa heç kimin xəbəri yox idi. Bir dəfə oradakı gəncə aparmaq üçün mənə bir stəkan su verdi. Qaranlıq olduğu üçün görkəmi yadımda qalmayıb, yalnız boğazının altındakı seyrək saqqalını xatırlayıram. Paltar şkafına söykənmişdi. Quru və sürətli nəfəslər arasında mənə təşəkkür edib suyu birnəfəsə içdi. Hər dəfə udanda boğazının altında udlağı tərpənirdi. Orada oturub əlimi çənəmin altına qoymaq, gerçək və cəsur bir qəhrəmanı yaxından görmək istəyirdim.

Həmin günlərdə Hacı Mühəssil Yəzdi bizə çox gəlirdi. O, Sahibəzzaman məscidinin axundu idi. Atamın xümsünü hesablayanda məni də otağa buraxırdılar. Lakin bir dəfə nə qədər israr etdimsə, atam icazə vermədi. Küsüb pəncərənin arxasında oturdum və gözlərimi həyətin o tərəfindəki qonaq otağına dikdim. Hacı sağollaşıb gedəndən sonra sevincək oraya qaçdım. Anamın gözündən uzaqdım, istədiyimi edirdim. Qonaq otağının qapısının qıflı açılanda sanki dünyanı mənə verirdilər.

Atam mağazanın kassa dəftərlərini yığışdırdı. Kağız-kuğuz arasında bir şəkil vardı. Elə bildim ki, qədim bir albom kəşf etmişəm. Atama yaxınlaşdım, bardaş qurub oturdum, ağ-qara şəkli götürüb:

– Bu, kimin şəklidir? – deyə soruşdum.

Atam şəkli indi görürmüş kimi tez əlimdən aldı. Şəkildəki kişinin siması yaxşı yadımda qalmışdı. Geniş alnının üstündən qara əmmamə qoymuşdu, sıx qaşlarının altındakı gözləri parıldayır, çox mehriban görünürdü. Atam şəkildəki adamdan – şahı İrandan qovub xalqı xilas etmək istəyən cəsur və mömin kişidən, ağa Xomeynidən, inqilabçılardan, Çaharmərdan xiyabanında gördüyüm qarşıdurmalardan, boş əllə şaha qarşı çıxan gənclərdən mənə danışdı. Mağazanın arxa otağında gördüyüm və su apardığım qəhrəman yadıma düşdü.

– Mağazamızda gizlənənlər ağa Xomeyninin dostlarıdır? – deyə soruşdum.

– Onlar ağa Ruhullahın əsgərləridir, – gülümsəyərək cavab verdi.

Mən də onlar kimi ağa Ruhullahın əsgəri olmaq istəyirdim; şüar deyim, molotov kokteylim olsun və şaha qarşı vuruşum. Amma anam

məni evdən bayıra çıxmağa qoymurdu. Yenə şəklə baxdım. Atam onu alıb öpdü. O şəkli 1964-cü ildən saxlayırdı, mən dünyaya gəlməzdən üç il öncədən. Həmin ildə şah ağa Xomeynini İrandan sürgün etmişdi.

Atamın yavaşca danışmasından hiss etdim ki, şəkli gizlədib saxlamaq lazımdır. Bu, atamın mənə verdiyi ilk sirr idi - dünyanın ən böyük sirri. Bu sirr bütün sinəmə doldu, gecə onun ağırlığından yata bilmirdim.

Qaranlıqda nənəmin əlini bərk tutmuşdum. Digərlərinin uzun nəfəs səsləri otağı bürümüşdü. Kürsü sobasının hərarəti ayaqlarımdan gözlərimə qədər yayılırdı. Fikirlərim qarışmışdı. Hündür və qalın bir səs eşidib yerimdən qalxdım. Ürəyim boğazımda döyünürdü. Bir neçə dəqiqə öncə gözlərimin önünü tutmuş yuxu yerini qorxuya verib getdi. Atəş səsi gecənin sükutunu pozdu. Ağzım acılaşdı.

Nənəm başını yastıqdan ayırıb əlini çiynimə doladı. Mehri bacım qorxudan ağlamağa başladı. İşıq iti bir bıçaq kimi gözlərimə batdı, Mehri bacımın ağlamaq səsini də kəsdi. Fənərin işığı otaqda fırlandı.

– Polislərdir. Onlar gedənə qədər tərpənməyin.

Atam boğazaltı danışırdı. "Polis" sözünü eşidəndə ürəyim üzüldü. Qonaq otağının damında nə işləri vardı? Ağzımın suyu böyrək daşı olub aşağı getmirdi. Atamın sirrini öyrəndiklərini düşünəndə ağzım acılaşdı. Mən heç kimə bir söz deməmişdim. Polislərin fənərlə axtarışları bitmək bilmirdi. Nənəmin qucağına bir az da qısıldım.

Ayətullah Səidinin[1] oğlu Ruhullah və onun bacısı oğlu yadıma düşdü. Bir neçə həftə qabaq məktəbdə səhər düzülüşündə uşağı falaqqaya bağlamışdılar. Uşaqlar deyirdilər ki, ağa Xomeyninin tərəfdarı olduğuna və şaha qarşı yürüşlərdə iştirak etdiyinə görə cəzalandırırlar. Ayaqlarının altındakı qırmızı qamçı yeri səhərə qədər gözlərim önündən getməmişdi. Ertəsi gün məktəbə getmək istəmirdim.

Səhər çağı ərzaq dükanı olan Həsən ağa və digər qonşular evimizin önünə toplaşmışdılar. Həsən ağa qapının üstündəki yarığı göstərib gecəki kabusdan təfərrüatıyla danışırdı. İnqilabçılar gecənin yarısı bankın damına çıxıb şah patrullarına əl bombası atmışdılar. Həmin bombanın qəlpəsi qapını o günə qoymuşdu. Onlar bizim qonaq

---

[1] Ayətullah Seyid Məhəmmədrza Səidi 1929-cu ildə dünyaya gəlmişdi. O, Pəhləvi rejiminə qarşı mübarizə fəallarından olmuş, SAVAK tərəfindən moizəsi qadağan edilmişdi. Nəhayət, 1970-ci ildə Qızıl qala zindanında işgəncə altında şəhadətə qovuşdu.

otağımızın damından küçəyə atılıb qaçmışdılar. Həsən ağanın sözlərindən bildim ki, polislər bizim evimizdə inqilabçıları axtarırmışlar, atamın sirrini yox. Gecədən sinəmə ağırlıq edən nəfəsi bayıra buraxdım və arxayın oldum ki, bu gün məni məktəbdə falaqqaya bağlamayacaqlar.

İnqilab günləri on bir yaşlı bir oğlan uşağı üçün həyəcanlı və əyləncəli idi. Xüsusən də iki gündən bir məktəblər tətil ediləndə çox sevinir, hamımız Tehrana Hacı Rəhmətgilə gedirdik.

Mən, Mehdi, Əli və Əmir xəstə olurduq, Məcid həkim, Raziyə ilə Mərziyə də tibb bacıları. Oyunlarımızda Məcidin rolu ona çox uyğun gəlirdi: qayğıkeş və mehriban. Biz zarıyırdıq, o da üz-başımızı tumarlayır, atamın və ya Hacı Rəhmətin dərman torbasından çırpışdırdığımız merkuroxrom mazını qol-qanadımıza sürtürdü. Raziyə ilə Mərziyə ona qayçı və bint verirdilər, o da xəyali yaralarımızı ehtiyatla bağlayırdı. Hər axşam böyüklərdən gizli şəkildə işimiz bundan ibarət olurdu. Yavaşca dərman torbasına hücuma keçir, merkuroxromla hər yerimizi qızardırdıq. Xalam qızları və xalam oğulları ilə hər cür oyundan çıxırdıq. Atamın və Hacı Rəhmətin inqilabçı və yaralılar üçün gətirdikləri dərmanlara da rəhm eləmirdik.

1979-cu ilin 1 fevralında hamımız Hüseyn dayıgilə toplaşmışdıq. Böyüklər gözlərini televizora elə dikmişdilər ki, biz uşaqlardan da səs çıxmırdı. Hamıdan öndə, televizorun qarşısında oturmuşdum. Təyyarənin trapından enən qoca seyidi tanıyana qədər bir az vaxt ötdü. Doğru görürdüm, atamın sirri idi, şəkildəki kimi sıx qaşlarının altından baxırdı. Atamın sirrini göstərənə qədər görüntü kəsildi. Qaşqabaqlı aslan əlindəki qövsvarı xəncəri ilə ekranda peyda oldu.

Hamı hərəkətə başladı. Atamla Hüseyn dayımın Peykan avtomobillərinə doluşduq. Bütün şəhər Behişti-Zəhraya (ə) doğru gedirdi. Həmin gündən qələbəlik və tıxacdan başqa bir şey yadımda qalmayıb. Maşını yolun kənarında saxlayıb camaatın ardınca piyada yola düşdük. Atamın sirrini yaxından görəcəyimə görə sevinirdim.

İnqilabı həmin günlərdə dərk etdim. Bütün fikir-zikrim inqilabçı olmaqdan ibarət idi. Bir nəfər yox idi boynumun ardından bir şillə vurub desin ki, hər şey sakitləşəndən sonra sənin inqilabçı olmağının kimə nə xeyri; get dərslərinlə məşğul ol.

Hərbi Hava Qüvvələrinin Hümafər adlı xüsusi birləşməsinin İmam Xomeyni ilə məşhur beyət şəklini qəzetdə görəndə daha da qızışdım.[1] Bu şəkildən xoşum gəlirdi; eyni paltar və papaqları olan o qədər kişi. Şəkildəki hümafərləri bir neçə dəfə saydım - yüzdən çox idilər. Ağ-qara şəkildə atamın cəmiyyətin önündə dayanmış sirrinin siması dumanlı görünürdü. Onlara baxırdı, əlini azca yuxarı qaldırmışdı. Mən də əllərimi hümafərlər kimi qulaqlarıma yaxınlaşdırıb İmam Xomeyniyə hərbi salam verirdim; əsl əsgər kimi. Arxaları fotoaparata dayanmış hümafərlərin üzünü görmək istəyirdim. İmamın İrana gəlişindən bir həftə sonra bu beyət və hörmətin nə qədər cəsarətli addım olduğunu o zaman bilmirdim və başa düşmürdüm ki, nə üçün ondan başqa heç kimin üzü görünmür.

Mənsur da mənim kimi şəkli görmüş, hərbçilərin o şəkildəki nizam-intizamından xoşu gəlmişdi. Məktəbdən evə qədər hümafərlərdən, eyni formalarından danışıb onlar kimi hərbi salam verməyi məşq etdik. Mənsur Baqiri məktəb və məsciddəki həmişəki dəcəllik yoldaşım idi.[2]

Bir gün biologiya dərsində bizi Həkim Nizami adına orta məktəbin laboratoriyasına apardılar. Yeddinci sinifdə oxuyurduq, guya elmi ekskursiyaya getmişdik. Müəllim bizə su ilə yağın sintezindən təcrübə göstərir, Mənsurla mən də plan qururduq. Ömrümüzün ilk elmi ekskursiyasının nəticəsi oradan götürdüyümüz laboratoriya borusu oldu. Dərsdən sonra həvəslə bizim qarajımıza getdik. Təcrübə üçün boruya ehtiyacımız vardı. Kitablarda oxumuşduq ki, nitrat turşusu partlayışa yararlıdır. Lakin qarışqada bu turşunun olduğunu haradan çıxardığımızı xatırlamıram. Mənsur mənim əl vurmağa qorxduğum iri qarışqaları borunun içinə salırdı. Qarışqalar topa şəklində boruda fırlanırdılar, boru qaraya çalırdı. Onlarda olmayan nitrat turşusunu yaxşıca buraxsınlar deyə borunu ocağın üstünə qoyduq. Yaxşı qızışandan sonra borunu çevirdik. Lakin nitrat turşusunun yerinə kasaya yanıb yumrulanmış qarışqalar töküldü. Yazıqlar nə qədər çapalasalar da, onlardan bir damcı nitrat da çıxmamışdı.

---

[1] 08.02.79 Tarixində ordunun Hərbi Hava Qüvvələrinin yüzlərlə hümafəri İmam Xomeyninin İrana gəlişindən sonra yerləşdiyi Ələvi mədrəsəsində onunla beyət etdilər. Onlar bu işlə silahlı qüvvələrin inqilab rəhbəri ilə vəhdətinin avanqardı oldular.

[2] Şəhid Mənsur Baqiri 1967-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

Növbəti sınağa başladıq. Permanqanat və qliserini bir alüminium qutuya töküb ağzını bərk bağladıq, partlayış səsi çıxarsın deyə onu alovun içinə atdıq. Qutu bizi sevindirmək üçün bircə dəfə olsun “taq” da eləmədi. Bir nəfər yox idi bizə desin ki, ay rəhmətliyin uşaqları, indiyə qədər hansı ixtiranı etmisiniz ki, bu da ikincisi olsun.

1980-ci ilin qışı idi. Eşitdik ki, Muzey üçyolunda və Xəstəxana dördyolunda qarşıdurma var. Məktəbdən sonra anamdan gizli Mənsurla birlikdə Muzey üçyoluna getdik. Qələbəlik və yürüş görmək üçün başımız ağrıyırdı. Gec çatdıq. Ağacların qırılmış budaqlarını yerdə görəndə peşman olduq. Ağlımıza gəlmirdi ki, hər bir qarşıdurma və yürüşdə iştirak etmək olmaz.[1]

Hay-küylü uşaq dünyamıza o qədər qərq olmuşduq ki, müharibənin nə vaxt başladığını bilmədik. Bu çağırılmamış qonaq on üç yaşımızın oyunlarını atəş açmaq, vuruşmaq və əsir tutmaq röyaları ilə doldurdu.

Müharibənin əvvəllərində Niyazxaninin dərslərini xatırlayıram. Mənsurla birlikdə məsciddə otururduq. Gülməkdən gözlərimiz yaşarırdı, amma səsimizi çıxarmırdıq. Mənsur güləndə gözləri bağlanırdı, kirpiklərini bir-birinə sıxırdı, boğazından yoğun və qırıq-qırıq gülüş səsi çıxırdı. Mənim vəziyyətim də ondan geri qalmırdı, qorxudan ağzımı ovcumla tuturdum. Əgər səs salsaydıq, Niyazxani bizi şəbistandan qovardı. Hər axşam namazdan sonra bozumtul-yaşıl geyimlə və çiynində tüfəng gəlməsini gözləyirdik. Patron kəmərini möhkəm bağlayır, ciddi görkəmdə şəbistanın ortasında dayanırdı. Gənclər onun ətrafına yığışırdılar. Silahı açıb-bağlamağı öyrədəndə əlinin cəld hərəkətlərini görə bilmirdim. Uzağa tullanma təlimində Mənsurla mən də qoşulurduq. Xəyali silahı qucaqlayıb yerimizdə fırlanır, atılıb-düşür, artıq döyüşməyi öyrəndiyimizi sanıb çox sevinirdik.

Təlimin ən yaddaqalan hissəsi iplə alpinizm idi. Məscidin dirəklərinə plastik bir ip bağlayırdılar. Könüllülər bu ipdən sallanmalı idilər. Yazıqlar sürüşmək istəyəndə ip yerə qədər dartılırdı. Yolun ortasında enib qalanını qaçırdılar. Biz də gülməkdən uğunurduq.

---

[1] İnqilab günlərində Ayətullah Seyid Kazim Şəriətmədarinin rəhbərliyi ilə İran Müsəlman Xalq Partiyası fəaliyyətə başladı. Sonra isə bu partiya ilə İslam Respublikası arasında ideoloji fikir ayrılıqları yarandı. Onların tərəfdarları 1980-ci ilin martında Təbrizdə teleradio mərkəzini ələ keçirməyə nail oldular. Şəriətmədarinin Qumun Xəstəxana dördyolunda təbliğat mərkəzi vardı, xalq qarşıdurmalarında inqilabçılar tərəfindən ələ keçirildi. (Hekayəçi)

Hər şeyimiz müharibədən və yekə-yekə siyasi sözlərdən ibarət olmuşdu. Hər gün məktəbdə mübahisə yaranır, dava düşürdü. Bir dəstə Bəni-Sədrin tərəfdarı idi, bir dəstə Behiştinin. Mübahisələrdə noxud kimi ortalığa diyirlənirdim. Sözlərimin çoxunu başa düşmürdüm, Əhmədin qəssab dükanının önündə Bəni-Sədr tərəfdarlarından eşitdiklərimi təkrarlayırdım.

Əhməd Respublika Partiyasının qəzetini hər gün knopka ilə dükanının önündəki ağaca bərkidirdi. İnsanlar qəzetin ətrafına yığışırdı, bir neçə dəqiqədən sonra isə mübahisələr başlayırdı. Bəni-Sədr və Behişti üstündə az qala bir-birini döyəcəkdilər. Mənsurla mən də məktəbdən gələndə onları eşidirdik. Mən o qədər Bəni-Sədri təriflədim, atam qorxdu ki, əks-inqilabçı olam. Haqlı idi; məndən böyüklər də bu mövzularla əks-inqilabçı olmuşdular. Mənim kimi bir cücə isə əks-inqilabçı təşkilatlar üçün xırda bir tikə idi. Atam mənim xəbərim olmadan Cəfəri kənara çəkib demişdi ki, Məhəmmədhüseynə fikir ver, onu öz çevrənizə sal.

Elə buna görə həmin gün Cəfər nərdivanı saxlamaq üçün məndən kömək istədi, məscidin kitabxanasını təmizləməyi mənə tapşırdı və o gündən etibarən axşamlar namaza gedəndə məni də çağırmağa başladı. Məni “məscid uşağı” elədi, mənə dostdan da, qardaşdan da yaxın oldu.

# İkinci fəsil

## *Müharibə uşaq oyunu deyil*

"İran xalqı elə düşünməsin ki, müharibə başlayıb və biz özümüzü itirməliyik. Xeyr, belə deyil. Bir şey gətirdilər, buraya bir bomba atdılar və qaçıb getdilər... Bir oğru gəlib, bir daş atıb, sonra da qaçıb gedib. Bunu bir də təkrarlamağa gücü çatmaz, inşallah".

İmam Xomeyni, Nur səhifəsi, c. 13, s. 223

– Əgər uşağının özünə qalmasını istəyirsənsə, mənim oğlumla oturub-durmağa qoyma.

Cəfərin anası bu sözlə anama öncədən xəbərdarlıq etmişdi. Zarafat edirdi, amma həqiqət də beləydi. Cəfər mənim üçün örnəyə çevrilmişdi. Evə gecikəndə anam məni Hacı xanım Miyanəcidən soruşurdu. Çünki səhər-axşam onlarda idim. Cəfər bütün işlərimin icazəsi olmuşdu. Dünənə qədər hara mənə qadağan idisə, Cəfərlə gedirdim. Birincisi də çay yatağı idi.

Çayı kinoteatra çevirmişdik. Uşaqlar toplaşırdılar, onlara film göstərirdik. Cəfərlə Əkbər Şirqulami Təbliğat komitəsindən videomaqnitofon və televizor almışdılar. Güc-bəla ilə onları çayın ortasına aparırdıq. O zaman evlərdə nəinki videomaqnitofon, heç televizor da yox idi. Əkbər sıx saqqalına görə bizdən çox böyük görünürdü; uşaqlar ondan çəkinirdilər, heç kimin səsi çıxmırdı. Yazıqlar keyfiyyətsiz filmlərlə məmnundular. Qulaqlarını şəkləyir, gözlərini televizora dikirdilər ki, bir sözü də qaçırmasınlar.

Bir Xakfərəc idi, bir də Sahibəzzaman məscidi. Biz də özümüzü ev sahibi bilirdik, ürəyimiz istəyəndə İslam birliyi adı ilə məscidə gedirdik. Bu birlik hərəmizi bir tərəfdən məscidə yığmışdı: mən, Cəfər, Əkbər, Mənsur və irili-xırdalı çoxlu yeniyetmə. Məscidlə birlik ikinci məktəbimiz olmuşdu, dərs və tapşırıqlarımızı orada yazırdıq.

Bəzən bəxtim gətirəndə birliyin sədri Hacı ağa Turabi məsciddə olurdu. Əvvəlcə ayaqqabılarımı ayaqqabı şkafına qoyurdum, sonra onun görəcəyi bir yerdə oturub kitab-dəftərlərimi açırdım. Həvəslə gözləyirdim ki, başım üstə gəlib kitabımı bir az vərəqləsin, qurbağa xəttimi süzsün və İsfahan ləhcəsi ilə tərifləyib desin: "Bərəkallah! Yaxşı dərs oxu!"

Hacı Turabi bizi ya məscidə toplayırdı, ya da evinə. Onun təfsir və əxlaq dərslərini məktəbimizin tənəffüs zənglərindən çox sevirdim. Hər cümə dərsin həvəsi ilə günorta yeməyimin son tikəsini udar-udmaz qaçıb Hacı ağa Miyanəcigilin küçəsinin pilləkənində oturur, Cəfəri gözləyirdim. O dərsə həmişə hamıdan qabaq gedirdik. Hacı Turabinin qapısı açıq olurdu, qalın pərdəni kənara çəkib girirdik. İki balaca otağı, bir xudmani mətbəxi vardı. Səssiz-səmirsiz mətbəxin yanındakı otaqda oturub digərlərini gözləyirdik.

Ağalar bir-bir peyda olurdular. Hər biri "ya Allah" deyib otağı nurlandırırdı. İbrahim Zare bizi görüb toxuma papağını götürür, başına yapışmış yağlı saçını tumarlayıb yenə papağını qaşlarına qədər çəkirdi. İbrahimin ardınca qapının arasından Mənsur Baqirinin şuluq sifəti boylanırdı. Qarğı kimi arıq və xırda cüssəsinə baxmayaraq, o qədər dəcəllik edirdi ki, bir o qədərinin də yerin altında olduğuna şübhəm qalmırdı. Dodaqları gülüşdən rezin kimi dartılır, gözləri yumulurdu.

Mənsur çox vaxt Seyid Hüseyn Rüknəddinlə gəlirdi. Evləri yan-yana idi. Mənsur nə qədər şuluq idisə, Hüseyn onun tam əksi idi. Qalın kişi səsi arıq bədəni ilə uyğun gəlmirdi. Həmid Avərifərd[1] Mənsurla birləşəndə heç kim onlarla bacara bilmirdi. İçəri girən kimi gözləri Mənsuru axtarır, yanında oturardu.

Növbəti adam Əkbər Şirqulami olurdu. Sıx saçına və saqqalına görə qrupumuzun atası sayılırdı.

---

[1] Şəhid Həmid Avərifərd 1966-cı ildə dünyaya gəlmiş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

Hər bir adam gələndə səsimiz ucalırdı, bir-birimizə "hacı ağa, xoş gəldiniz", "qardaş, buyurun" deyib sakitləşən kimi növbəti adam içəri girirdi.

Məcid Zöhrabi Əkbərin ardınca gəlirdi. Səliqəli oğlan idi, o vaxtdan bilinirdi ki, gələcəyi var. Axırda doktor oldu. Bizim zarafatlarımıza cavab olaraq təbəssüm edir, ağ və səliqəli dişlərini göstərirdi.

Musəvi qardaşları həmişə birlikdə gəlirdilər: Sadiq və Kazim. Sadiqin boyu hamımızdan uca idi, ağ üzü təmizlikdən parıldayırdı. Onun ardınca kiçik qardaşı Kazim içəri girirdi. Xarakterlərini və ədəb-ərkanını Sadiqdən kopyalamışdı. Salam verəndə yanaqları qızarırdı.

Hadi Rəzzaqinin gözləri özündən qabaq içəri girirdi. Eynəyin arxasında kiçildib pərdənin arasından baxır, sonra içəri girib səssiz-səmirsiz bir tərəfdə dizi üstə otururdu.

Əbülfəzl Muradi şişmiş gözlərindən yuxudan təzə durmuş adamlara bənzəyirdi. Otağa baxıb içəri girirdi.

Ən sonda Əli Salehi gəlir, qapını da bağlayırdı. Hamımız tərpənib yuxarı tərəfdə ona yer açırdıq. Hamıdan böyük idi. Sümüklü üzü, bir-birinə bitişik qaşları və düz burnu ilə həmişə ciddi görünürdü. Hamımıza əl verib halımızı soruşurdu.

Dediyim irili-xırdalı yeniyetmələr bunlar idi. Hamı yığışandan sonra Hacı Turabi dərsə başlayırdı. Eynəyinin iri qəhvəyi çərçivəsi üzünün yarısını tuturdu. Suallarımı vermədən cavabını verirdi. Sanki beynimi oxuyurdu. Bəzən dərsin ortasında zarafatlaşır, yavaşca gülüşürdük. O da saçının başına yapışmış tellərinə əlini çəkirdi. Mehriban baxışını aramızda bərabər şəkildə bölüb təbəssümlə sakitləşməyimizi gözləyir, sonra sözünə davam edirdi.

Turabinin evində o qədər əylənirdik ki, getmək özümüzdən idi, qayıtmaq isə Allahdan. Dadlı xörək ətri özünü mətbəxdən otağa yetirəndə qarnımızı ovuşdurub düşünürdük ki, şam yeməyinə birlikdəyik.

Dərsdən sonra Cəfərlə birgə bankın üstündəki həmişə bağlı otağa gedirdik. Açarı məndə idi. Uaşqlıqda arxasındakı xəyali dünyanı və qəribə varlıqları görmək üçün bu sirli otağın qıflı ilə çox əlləşmişdim. İndi isə otağın sahibi olmuşdum, qəribə varlıqlar yerinə içinə özüm yerləşmişdim.

Bütün birlik üzvləri oraya gəlib-gedirdilər. Anam da arxayın idi ki, ən azı, evdəyəm. Cəfərlə yerimizdə uzanıb Turabinin dərslərindən, birliyin işlərindən və oxumalı olduğumuz kitablardan danışırdıq. Hər

gün yeni kitablarımı qoltuğuma vurub pilləkəndən qalxırdım. "İmamət və rəhbərlik", "Böyük günahlar" və başqa bir neçə kitabı yerə düzmüşdüm; oxuyur, yazırdım. Zaman onların səhifələri arasında itirdi, sözlər önümdə paraddan keçirdilər, başım düşüncə və sualla dolurdu. O sualların cavablarını isə yalnız İslam birliyində tapırdım.

Cəfərlə oraya gedəndə qaçıb kitabları və yazılarımı gətirirdim. Cəfər onları məndən öncə oxumuşdu, bütün sualların cavablarını bilirdi. Hamısına cavab verəndən sonra məni məcbur edirdi ki, yatım. Sübh namazımızın qəzaya getməsindən qorxurdu. Mənimsə yuxum gəlmirdi, qoysaydılar, sabahacan danışardım.

Hər şey mənə yeni idi: birlik, dərslər, adamlar, hətta Xızır dağı.

Möhsün Hüseynianla birlikdə dağa çıxmağın başqa ləzzəti vardı. Günəş çıxmamış məscidin önündə bizi gözləyirdi. Əlləri şalvarının cibində küçəni uzununa addımlayırdı. Yuxulu halda, ayaqlarımızı sürüyə-sürüyə bir-bir gəlirdik. Hamımıza əl verib görüşürdü. Kim daha yuxulu idisə, əlini daha çox sıxırdı ki, ayılsın. Gülüşlə sızıltı birlikdə boğazımızdan çıxırdı. O qədər sıxırdı və gülürdük ki, üzümüzdə yuxudan əsər-əlamət qalmırdı. Özümüzə gələndən sonra Xızır dağına doğru yola düşürdük. Hər cümə günü sübh çağı işimiz bu idi.

Onda Möhsünün iyirmi iki yaşı vardı. İndi fikirləşirəm ki, on dörd-on beş yaşlı bir dəstə dəcəl uşağa, həmin irili-xırdalı, amma çox səs-küylü yeniyetmələrə görə çox səbirli imiş. Onun bizə hətta bir dəfə də acıqlandığını xatırlamıram. Ümumiyyətlə, o qədər mehribanlıq qaşqabaqla və hirslə birləşə bilməzdi. Güləndə üzü daha mehriban olur, gözlərinin ətrafı qırışır, yanaqları batırdı. Həmişə təmiz və səliqəli olduğuma görə məni cənab səhiyyə çağırırdı. Bir şey yemək istəyəndə tez soruşurdum:

– Təmizdir?

– Cənab səhiyyə yenə başladı! – gülüb deyirdi.

Cümə günü səhərdən günortaya qədər gözləri önündə nə dəcəllik istəyirdiksə, edirdik, bir söz demirdi. Xızır dağının başına, ən yüksək zirvəsinə çıxırdıq. Şəhər ayaqlarımızın altında qalırdı. Möhsün çıxdığımız dağ və oradan günbəzi görünən Cəmkəran məscidi barədə danışırdı; səhərin o çağında evlərində yatmış insanlardan, bu hündürlük kimi bir yerdən hər şeyə baxan, bizim bütün işlərimizi, dəcəlliklərimizi, dostluqlarımızı, sədaqətlərimizi, bütün yaxşı və pis hərəkətlərimizi görən Allahdan. Möhsün danışır, biz də qulaq asırdıq, səs-küy salan nadinc oğlanlardan əsər-əlamət qalmırdı. Dağın

sükutunda lal-dinməz qulaq asırdıq. Məncə, özü kimi sözləri də mehriban idi. Onu dinləyir, bəzən yavaşca gözlərimin yaşını silirdim.

Danışıb qurtarandan sonra çiynindəki Kalaşnikov avtomatını bizə verirdi, vuraq deyə daş, tikan kolu - hədəfə oxşayan nə isə tapırdı. Biz də yeri-göyü dəlik-deşik edirdik, amma hədəf yerindən tərpənmirdi. Hərəyə iki güllə atırdıq. Bu, heç vaxt poza bilmədiyimiz bir qanun idi. Yalnız bir dəfə Əli Sabuninin[1] ayağının altından daş çıxanda bu qanun pozuldu.

Bir qarış boyu ilə uşaqların arasında itir, min oyundan çıxırdı. Həmin gün də nəsə hoqqa çıxarmaq istəyəndə yerə yıxıldı, əlinin içi siyrilib qanadı. Üzü də bərk ağrıyırdı. Möhsün bir neçə iri addımla özünü Əliyə yetirdi, tez dizlərini çırpdı. Bu yıxılması, gülsün deyə Əliyə əlavə bir atəş qazandırdı. O güləndən sonra Hüseynian arxayınlaşdı, əlini alnına tökülmüş qəhvəyi pərişan saçına çəkdi. Güldü və gözlərinin ətrafı qırışdı. Biz də çox istəyirdik ki, əlavə bir güllə də ataq, amma qanun belə idi: hərəyə iki güllə.

Atışlarımız tez bitəndə Möhsünlə birlikdə Həkim Nizami liseyinə gedirdik. Cümə namazında yalnız biz yox idik. Xütbə oxunan zaman birinci cərgədə dayanmış qocaların çəp-çəp baxışları altında bir-birimizə yavaşca yumruq və ya dirsək vurub hırıldayırdıq. Problem bu idi ki, şit dəcəlliklərimizə görə hövsələsiz böyüklər nə qədər üz-gözlərini turşutsalar da, xəcalət çəkmir, cümə namazından tutmuş hərəmə və Cəmkərana qədər hər yerə gedirdik.

İndi də gecəni Cəmkəranda keçirdiyim çox olur; namaz qılır, həyətində gəzişir, günbəzə tamaşa edir, gənclərlə söhbətləşir, dodaqaltı rövzə oxuyuram. Lakin bunların hamısında bir şey əskikdir: o gecələrin təkrarolunmaz dadı.

Cümə axşamları Kumeyl duasını həzrət Məsumənin məqbərəsində oxuyurduq. Ziyarətdən sonra Cəmkərana gedən mikroavtobusların növbəsində dayanırdıq. Axırıncı oturacaqları bizim üçün düzəltmişdilər. Cəmkərana qədər mikroavtobusun altını üstünə çevirirdik; o qədər əylənirdik ki, nə vaxt çatdığımızı bilmirdik.

Son gülüşlərimiz ehsan verilən samovarın yanında qalırdı. Samovarın yanındakı qoca seyid uzaqdan bizi görəndə dolu stəkanları

---

[1] Şəhid Əli Sabuni 1969-cu ildə Qumda doğulmuş, 1986-cı ildə Kərbəla-4 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

stolun üstünə düzürdü; çayın buxarı havada yellənir, istiliyi ürəyimizə və ciyərimizə yayılırdı.

Çiynimizdə gödəkcə, dabanları yastılanmış ayaqqabılarla məscidə doğru sürətimizi artırırdıq. Dəstəmazın suyu çənəmizdən damır, soyuq külək yaş qollarımızı üşüdürdü. Cəmkəran məscidi yaşıl işığı ilə bizi çağırırdı; istiqanlı və mehriban şəkildə. O zaman məscid balaca idi; ortasındakı neft sobasının ətrafında dairəvi oturur, paltarımızın qollarını aşağı çəkirdik. İsti hava və neft qoxusu ciyərlərimizin dibinə qədər yayılırdı. Bir neçə dəqiqədən sonra əlimizdə yüzədədli təsbeh hərəmiz bir tərəfə çəkilir, zarafat və dəcəllik pəncərəsini bağlayıb namaza başlayırdıq:

– İyyakə nəbudu və iyyakə nəstəin...

Orada heç bir cəhətdən mikroavtobusdakı nadinc uşaqlara bənzəmirdik. Namazımı qılandan sonra oturub uşaqlara tamaşa edirdim.

Cəfər öz aləminə qərq olur, Allahla danışırdı. Bir qədər sakit qalır, qulaq asır, yenə nəsə deyirdi. Gözlərinin kənarı parıldayırdı. Fikirləşir, sanki ürəyində gülürmüş kimi üzü açılırdı. Üzündə həm kədər, həm rahatlıq ifadələri vardı.

Mənsur Baqirinin başı aşağı idi. İnana bilmirdim ki, bu, zəlzələ qoparan həmin bəlalı uşaqdır. Yavaşca zikr deyir, arabir gözlərini məscidin tavanına qədər qaldırır, sonra sanki utanırmış kimi tez aşağı endirirdi. Göz yaşları çənəsinə qədər cığır açırdı və o, yenə zikr deyirdi.

Əli Sabuni dizi üstə otururdu, baş və çiyinləri yavaşca irəli-geri gedirdi. Heç kimə fikir vermədən səcdəyə gedir, əvvəlcə alnını möhrə qoyurdu, sonra üzünün sağ, sonra sol tərəfini. Çiyinləri yüngül titrəyirdi.

Mən hər üçünə tamaşa edirdim. Namazlarında mənim bilmədiyim nəsə baş verirdi. İndi də bu barədə fikirləşəndə o azyaşlı uşaqların belə halları mənə anlaşılmaz qalır. Bəlkə də, ata-analarının halal çörəyi, xeyir əməli və ya bir gecə namazı kainatda dolanmış, müsbət təsiri onların ruhuna oturmuşdu.

Cəfərin və digərlərinin yanında nə eşidirdimsə, kitablarda nə oxuyurdumsa, məktəbdə danışırdım. Xoruz səsinə bənzəyən səsimlə harada mübahisə yaranırdısa, mən də qoşulurdum. Uşaqlar arasında siyasi mübahisələr çox qızışmışdı. O qədər danışırdıq ki, axırda zəng çalınırdı. İslam birliyinin və məscidin uşaqları bir tərəfdə dayanırdı,

göbələk kimi hər gün çoxalan qruplaşmalar da bir tərəfdə. Məktəbdəki mübahisələrimiz xeyirlə bitirdi, amma küçə-bazarda məsələ yumruq-təpiyə gedib çıxırdı. Vəziyyət pis idi. Bir qrupun cəhalətinə görə zahirən dindar görünən çoxlu günahsız insanın qanı tökülürdü.

Mübahisə və səs-küyün ortasında gözlərim Mustafanı axtarırdı. Mustafa Əncüməfruz[1] məktəbimizin xəttatı idi. Onu görən kimi mübahisəni yarımçıq qoyub yanına qaçırdım. Hər gün son dərsdən sonra məktəbdə işi başlayırdı. Kiməsə bir söz demədən, car çəkmədən qalıb işini görürdü. Məktəbin divarlarındakı xəttatlıq və rəssamlıq işlərinin onun məhsulu olduğunu əvvəllər bilmirdim.

Eşitmişdim ki, cənubdandırlar, bir neçə il öncə Quma köçüblər. Özü bir kəlmə də danışmırdı. Sanki dilinin yerinə sənətkar əlləri işləyirdi. Demək istədiklərinin hamısını rəssamlıq və xəttatlıqla ifadə edirdi. Hər dəfə onun yanında olanda qərara gəlirdim ki, onun kimi sakit və azdanışan olum. Amma mümkündümü? Elə bu qərara gələn kimi ağzımda min söz sıraya düzülürdü. Məncə, məni danışmaq üçün yaratmışdılar, Mustafanı isə yazmaq və çəkmək üçün.

Uzun barmaqlarını fırçaya düyünləməsindən xoşum gəlirdi. Sanki fırçayla oynayırdı; çevirir, əyir, çəkirdi. Fırça sürüşür, Mustafanın arıq əli də onun ardınca qaçırdı. Birdən əli hərəkətsiz qalırdı. Barmaqları sanki nəfəslərini dərib mülayim şəkildə başqa bir hərəkətə başlayırdı; yumşaq və yavaşca. Yazıb qurtarandan sonra geri çəkilib uzaqdan baxırdım: "Yaşasın Xomeyni".

Mustafanın yazılarını hər göndə mən də xəttatlığa həvəslənirdim, qələm və kağız götürüb yazırdım. Xəttatlıq qələminin kağız üzərində cırıltısı bədənimi ürpədirdi. İki-üç səhifəni qaralayırdım, amma sözlərin heç biri Mustafanın yazdığı kimi olmurdu. Səbrim tükənirdi, qələm-kağızı yığışdırırdım. İndi də vaxt tapanda əyri-üyrü xəttimi düzəltməyi xoşlayıram.

Hər gün bir bəhanə ilə məktəbin qapı və divarlarından sallanırdıq; gah bayraq asır, gah haranısa rəngləyir, ya da bəzəyirdik. İslam birliyinin sədri Həsən Zairi[2] bizi çox həvəsləndirirdi. Sədrlik onun kişi görkəminə və enli sinəsinə yaraşırdı. Sonuncu sinifdə oxuyurdu,

---

[1] Şəhid Mustafa Əncüməfruz 1967-ci ildə Nəcəf şəhərində dünyaya gəlmiş, 1985-ci ildə Aşura əməliyyatında Çənguləldə şəhadətə qovuşmuşdur.

[2] Məhəmmədhəsən Zairi 1965-ci ildə Qumda dünyaya gəlmiş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

sözünü eşidirdik. Hamı gedəndən sonra məktəbin boş dəhlizlərində iri addımlarının səsini hələ də xatırlayıram. Səhər tezdən məktəbə gəlib birliyin işlərini yerbəyer edir, günortadan sonra da Mustafa ilə məndən sonra sonuncu adam olaraq gedirdi.

***

1981-ci ilin payızı idi. Boy-buxunda atamı keçmişdim. Hər səhər bir stəkan süd içməli idim. Xakfərəcdə qaldığımız müddətdə atam hər səhər dolça ilə gedib Xavər xanımdan təzə süd alırdı. Bir stəkan südü birnəfəsə başıma çəkib evdən qaçır, Ayətullah Miyanəcinin evinin önündəki pilləkəndə otururdum. Mən ayaqqabımın bağını bağlayınca Cəfər gəlirdi. Hər gün işim belə idi. Küçənin başına qədər birlikdə gedirdik. O, Səduq liseyinə gedirdi, mən Rəcayi liseyinə.

Bir dəfə pilləkəndə nə qədər oturub gözlədim, amma Cəfər gəlmədi. Hacı xanım yatmış olar deyə zənglərini basmadan məktəbə yola düşdüm.

Axşam məscidə gələnə qədər Cəfərdən xəbərim olmadı. Harada olduğunu heç kim bilmirdi. Bir gecənin içində qeybə çəkilmişdi. Yorulub bir tərəfdə oturdum. Beynimə heç nə gəlmirdi. Harada olsaydı, həmişə özünü axşam namazına və birliyin iclasına çatdırardı. Namazdan sonra Hacı ağa Turabiyə yaxınlaşdım. Cəfərin harada olduğunu deyəndə isə təəccübdən ağzım açıq qaldı. O, cəbhəyə getmişdi.

– Bəs məni niyə aparmadı? – deyə soruşdum.

Turabinin bu sualıma cavab verməsini gözləyirdim. Elə bilirdim ki, Cəfər hara getsə, gərək mənim də əlimdən tutub aparsın. Az qala ağlayacaqdım. Nə qədər çox soruşurdumsa, daha da kövrəlirdim. O, Zəhab düzünün istiqamətlərindən birinin komandiri olan Purgülüstani[1] ilə cəbhəyə getmişdi. Purgülüstanini bir neçə dəfə məsciddə görmüşdüm. Deyirdilər ki, Cəfəri təbliğat bölməsinə aparıb. Eşitmişdim ki, təbliğat bölməsində mikrofon qoşur, camaat namazı təşkil edirlər. Atılıb-düşərək dedim ki, bunları mən də bacararam, Cəfər məni niyə aparmayıb? İki ayağımı bir başmağa dirəyib dedim ki, nə olur-olsun, cəbhəyə getmək istəyirəm.

Sübh çağı səhər yeməyini yeməmiş evdən çıxıb Qum korpusuna yola düşdüm. Bazar üçyolunda yerləşirdi. İnamla pilləkəndən qalxdım.

---

[1] Şəhid Kərəm Purgülüstani 1964-cü ildə Qumda doğulmuş, 1982-ci ildə Sərpol Zəhabda şəhadətə qovuşmuşdur.

Uca boyuma aldanmışdım. Elə bilirdim ki, ad-soyadımı deyən kimi bir silah verib məni cəbhəyə yollayacaqlar. Lakin ad və soyaddan sonra yaşımı soruşdular. On beş yaşım vardı. Adları yazan ucaboy kişi ayaqlarını güclə stolun altına yerləşdirmişdi. Mənə elə baxdı ki, çənə vurmadan dərslərimin ardınca getməli olduğumu anladım.

Müharibə uşaq oyunu deyildi. Yanaqlarım qızarmış halda kor-peşman bayıra çıxdım. İncimişdim. Döyüşə getmək istəyirdim, amma deyirdilər ki, uşaqsan. Cəfərdən cəmi iki yaş balaca idim. Ondan ayrı qalmaq acısı canıma düşdü. Özümə qarşı hirslənirdim. Bəlkə, cəbhəyə gedəcəyini mənə demişdi, amma sözünü ciddiyə almamışdım. İndi isə Cəfər getmişdi və mən hələ nə edəcəyimi düşünürdüm.

Hövsələsiz halda məktəbə doğru yola düşdüm. Sanki bütün dünyanın qəm-qüssəsi ürəyimə çökmüşdü. Fikirləşdim ki, görəsən, Cəfər indi hardadır, nə edir, silahı var, yoxsa yox. Birdən bir fikir ildırım kimi beynimdən keçdi. O qədər sevindim ki, az qala küçənin ortasında mayallaq aşacaqdım. Cəfərə çatmaq üçün iki ilim çatmırdı, o iki ili bir günə qət etməyin yolunu tapmışdım.

Şkaf üstümə düşsəydi, yüz faiz, canım çıxardı. Pəncələrim üstə boylanıb yuxarıdan sənəd boğçasını dartdım. Şkafın üstünə qoymuşdular ki, mənim kimi hər işə başını soxan uşağın əli çatmasın. Vaxtım az idi. Şam və işa namazlarının ortasında məsciddən yoxa çıxmışdım. Evdə heç kim yox idi. Pasportumu açdım. Salavat deyə-deyə 7 rəqəmini 5-ə çevirdim. Sonra isə doğum tarixinə baxıb öz istedadımdan vəcdə gəldim. 1967 tarixi 1965 olmuşdu. Hacı Mühəssil Yəzdi minbərə qalxıb-düşənə qədər iki il böyümüşdüm. İndi Cəfərlə yaşıd idim; bu asanlığa.

Sübh çağı şərfimi və papağımı götürüb korpusa getdim. Qapının arxasında yüzüncü dəfə köynəyimin cibinə əlimi saldım. Ürəyim pasportun altında qalxıb-enirdi. Çətinliklə udqunub içəri girdim. Korpus Gülüstan xiyabanının əvvəlinə köçmüşdü. Bəxtimdən cəbhəyə ad yazan yenə həmin ucaboy kişi idi. Bir pasporta baxdı, bir də mənə. Arxasında bir dünya qəzəb cilovladığı dərin nəfəsini bayıra buraxdı, pasportu önümə qoyub dedi:

– Buranı düzəltmək yadından çıxıb.

Barmağının altına baxdım. Doğum tarixi sözlə də yazılmışdı. O böyüklükdə yazını görmədiyimə görə çox heyrətləndim. Doğum ilindəki “yeddi” sözü sinəsini qabağa verib mənə ağız əyirdi. Çox pərt oldum, otaqdan necə çıxacağımı bilmədim. Qulaqlarım istidən yanırdı.

Evə qədər adyazan kişinin ağır baxışlarını üzərimdə hiss edir, hər bir neçə addımdan bir tərdən islanırdım.

Saxtalaşdırdığım bir pasportla qalmışdım. O da əlimdə çox qalmamalı idi, həmin günlərdə kupon almağa lazım olurdu. Bir nəfər yox idi desin ki, ay rəhmətliyin oğlu, heç olmasa, bu məharətini bir dəfə pasportun surəti üzərində yoxlayaydın. Bir mürəkkəbsilən götürüb əlavə etdiyim hissələri silməyə başladım. O qədər bərk sildim ki, vərəq deşildi. Məni ağlamaq tutdu. Təvəllüd tarixi bir yana, özü də sıradan çıxdı. Deşik pasportla məni nəinki cəbhəyə buraxmazdılar, hətta atam da evdən qovardı.

Atam həyətdə taxtın üzərində oturmuşdu, qarşısında qarpız podnosu vardı. Boynumu əyərək məzlum görkəm aldım və pasportu ona tərəf itələdim. Qulaqlarımın dibi gizildəyirdi. Bıçağı qarpızın qarnına batırdı, xırçıldada-xırçıldada kəsdi. Sanki quyunun dibindən gələn bir səslə öz məharətimdən danışdım. Hamısını söyləyəndən sonra başımı qaldırdım. Atam iri qırmızı bir dilimi mənə uzadıb dedi:

– Əvvəldən kişi kimi özümə deyəydin ki, cəbhəyə getmək istəyirəm də.

Bu sözündən sonra yerimdə quruyub qaldım. Sevindiyimdən atılıb əlini öpmək istəyirdim. O, ya cəbhəyə getməyin bu qədər asan olmadığını bilirdi, ya da mənim tez kişi olmağımı istəyirdi; Cəfər kimi bir kişi.

Atamın razılığını alıb bir addım irəlilədim, amma problem öz yerində qalırdı. Cəbhəyə getmək üçün qanuni yaşa çatmamışdım. Dostlarım bir-bir gedirdilər, mənsə hələ yaşımla əlləşirdim. Birliyin uşaqları azalmışdı. Əkbər Şirqulami, İbrahim Zare, Möhsün Salehi və Hüseyn Rüknəddin bir yol tapıb getdilər. Hamısı Əbuzər qarnizonuna gedirdi. Çevrələri yerindəydi, yalnız mən yox idim. Qarnizonun təbliğat rəisi ağa Naini onlara yolu göstərmişdi. Mənsə iki il gec dünyaya gəldiyimə görə az qala qüssədən ürəyim partlayacaqdı.

Hər gün sübh açılar-açılmaz korpusun qapı və divarlarına qısılıb qalırdım ki, birinin rəhmi gəlib məni dostlarımın yanına göndərsin. Ucaboy adyazan nə qədər hirs və qaşqabaq bilirdisə, mənə göstərirdi, amma əl çəkmirdim. Sinirlərini əməlli-başlı korlamışdım. Bir-birimizi görəndə qıcıq olurduq. O qədər qapıdan qovulub pəncərədən girdim, o qədər sorğu-sual etdim ki, axırda tibbi köməkçi kimi qəbul edə biləcəklərini anladım.

Liseydə ixtisasım Səhiyyə xidmətləri idi. İlkin tibbi yardım dərsimiz vardı, amma heç girişini də oxumamışdım. Həsən Zairidən xahiş etməyə, hapa-gopa basmağa başladım. O qədər danışdım ki, yazığın səsi çıxmadı, əsl mətləbə keçməyimi istədi. Bəs əsl mətləb nə idi? Şəhid Rəcayi liseyinin Səhiyyə xidmətləri ixtisasından cəbhəyə tibbi köməkçi göndərilməsi. Həsən Zairi qaşlarını qaldırıb mütəfəkkircəsinə mənə baxdı. Qərara gəldik ki, özüm adyazdırma elanını hazırlayıb liseyin qapısına vurum.

O gündən gecələr gözümə yuxu getmədi. Özümü Cəfərin və digər yoldaşlarımın yanında görürdüm. Hər gün səhər tezdən liseyin İslam birliyinin otağına gedib Həsən Zairi ilə bu barədə danışırdım. O qədər inad etdim ki, mənim əlimdən xilas olmaq üçün bir aydan sonra birliyin məktubunu verdi. Məktubu qoltuğuma vurdum, ardımca da bir batalyon uşaq salıb korpusa getdim. Birlik məni tibbi köməkçi kimi təqdim etmişdi. Əlbəttə, baxan hər kəs bilirdi ki, bizdən binti və merkuroxromu tanımaqdan başqa bir şey gözləməməlidir.

Hər yaşdan on nəfər qatar kimi ardımca düzülmüşdü; birinci on nəfər, ikinci on nəfər, üçüncü on nəfər, dördüncü on nəfər; tibbi yardımı, daha doğrusu, cəbhəni sevənlər qatarı.

Sübh namazından sonra evdə hamı oyaq idi. Nənəm yemək dolu çantanı əlimə verdi, anam məni Quranın altından keçirdi. Mehri bacım dostlarının yanında qardaşının cəbhəyə getməsi ilə öyünəcəyinə görə sevinirdi. Nəfisə bacım sübh tezdən oyanmışdı, ətrafımda gəzişirdi. Atam oğlunun boy-buxununa baxırdı. İmamzadə olmuşdum, hamı başıma dolanırdı. Uzun və göz yaşı dolu bir sağollaşma idi. İnana bilmirdim; deyəsən, həqiqətən də, cəbhəyə gedirdim.

Hamıdan qabaq korpusun önünə dikildim. Yavaş-yavaş digər tibbi köməkçilər də peyda oldular. Gözlərimiz qapıda qaldı, amma ucaboy adyazan gəlmədi. Ürəyimə qorxu düşdü ki, birdən bizi ələ salarlar. Hamımız yığışandan sonra gülərüz bir kişi gəldi. Üzünün yarısı sıx saqqalının altında gizlənmişdi.

– Tibbi köməkçilər sizsiniz? – deyə soruşdu.

Üzüm güldü. İki dəqiqə öncəki qorxunc həyəcan yerini sevincə verdi. Özümü dəstənin başçısı hesab edirdim. Yaxınlaşıb saqqallı kişiyə əl verdim, birliyin məktubunu qürurla ona uzadıb dedim:

– Bəli. Biz Şəhid Rəcayi liseyinin tibbi köməkçiləriyik.

Uşaqları elə göstərdim ki, sanki arxamda mütəxəssis bir həkim heyəti dayanıb. Saqqallı kişi bir mənə, bir də arxamdakı uşaqlara

baxdı, sonra məktubu alıb oxumağa başladı. Adam görməmiş məxluqlar kimi gözlərimizi ona zilləmişdik. Saqqalı yavaşca tərpənir, gözləri məktubun üzərində qaçırdı. Sakit qalıb nə deyəcəyini gözləyirdik. Başını qaldırıb:

– Mən Dünyabinəm, korpusun Tibbi təlim rəisi, – dedi.

Başımızı yelləyib gülümsədik, amma anlamadıq ki, bu söz cəbhə yerinə tibb məntəqəsinə getmək deməkdir.

Dünyabin öndən gedirdi, biz də arxasınca. Ayətullah Gülpayiqani xəstəxanasının uzun dəhlizləri bizi yorurdu. Bir həftə nəzəri təlimlər təyin etmişdilər. O məktubla bizə ölü də tapşırmazdılar, o ki qala müharibə yaralısına.

Hər şöbədə iki gün qonaq olub işləri öyrənməli idik: ürək, beyin, böyrək və başqa bir neçə önəmli bədən üzvünə dair şöbələrdə. Həkimlər bizdən yaxşı bilirdilər ki, iki günün içində bütün elmlər yox, heç yarısı da bizim ilk tibbi yardım çantamıza sığmaz. Güman ki, yalnız daxili orqanların ad və formaları ilə tanış olmağımızı istəyirdilər. Beləliklə, bəxtsiz biri qarnı yarılmış halda əlimizə keçsəydi, ən azı, ciyərlə bağırsağın fərqini bilib onları bir-birinə tikməzdik.

Dilxor halda təlimlərə qulaq asırdıq. Çox narahat idik. Özümüzü cəbhədə təsəvvür edərkən xəstəxana şöbələrində sərgərdan qalmışdıq. Bu hara, o hara! Elə təmtəraqlı sağollaşmaya görə razı idim ki, müharibənin sonuna qədər Gülpayiqani xəstəxanasında qalım, amma evə getməyim.

Doktor Hacianla doktor Feyz tibbi bilgiləri bizə öyrətmək üçün əllərindən gələni edirdilər. Bir otaqdan o birinə gedib xəstələrini müayinə edirdilər, biz də nəsə öyrənmək üçün ördək balaları kimi arxalarınca düşürdük. Ölənlərimizə savab çatsın deyə sözlərindən qeydlər də götürürdük. Mənim qeydlərim yalnız oxunaqlı olmadığına görə həkim nüsxələrinə bənzəyirdi, başqa heç nədə!

Həmin bir həftəni güc-bəla ilə də olsa, başa vurduq. Xəstəxanada gəzməkdən bəzi uşaqların hövsələsi daraldı və cəbhə fikrindən daşındılar.

Evdəkilərlə birinci dəfədən də yanıqlı şəkildə sağollaşdım. Heç bilməzdim ki, bu dəfə də cəbhədən xəbər-ətər olmayacaq. Gərək Nekuyi xəstəxanasının Təcili yardım şöbəsinə gedib camaatın keçəl başı üzərində ustalıq öyrənəydik. "Bunlar bizi cəbhəyə aparan deyillər" deyə düşünənlər oldu və sayımız bir qədər də azaldı.

Təcili yardım şöbəsində hadisələr o qədər tez baş verirdi ki, qeyd yazmaq bir yana, xəstənin başı üstündə adımı da unudurdum. Bir tərəfdə dayanırdım ki, əl-ayağa dolaşmayım, həkimlər və tibb bacıları işlərini görsünlər.

Bir dəfə iri cüssəli bir kişini gətirmişdilər. Çarpayıya uzanmışdı, yerində qıvrılırdı. Tibb bacısı məni çağırıb betadin və bint istədi. Kişinin üz-başında nə qan, nə toz-torpaq vardı, nə də qəza keçirmişdi. Əlinə doğru əyilmişdi, zarımağa da taqəti yox idi. Yaxınlaşanda burnuma yanmış ət iyi doldu. Sanki qarnımın içindən nəsə qırılıb boğazımda düyünləndi, nəfəs yolum bağlandı. Əgər ürəyim bulansaydı, cəbhə bir tərəfə, məni Təcili yardım şöbəsinə də buraxmazdılar. Çox çətinliklə udqunub əlinə baxanda gözlərim qaraldı, çarpayının kənarından tutdum. Qır, irin və çəhrayı ət idi. Yaranın ətrafındakı dəri büzüşmüşdü. Betadin yerinə tibb bacısına nə verdiyimi bilmədim. Hirslə mənə baxıb özü betadini götürdü və sterilizə olunmuş bintin üzərinə tökdü. Soyuq tər belimə qədər axdı. Daldalı gedib divara söykəndim ki, tibb bacısı o qədər işin içində məni toplamağa məcbur olmasın.

Həmin bir həftə mənə bir il qədər uzun keçdi. Günboyu o qədər yara, qan, yanıq və sınıq görürdüm ki, iştaham küsürdü. Evdə şam yeməyində bir şeyi bəhanə edib süfrədən qalxırdım. Qorxurdum ki, niyə yemədiyimi söyləsəm, xəstəxanaya getməyə qoymazlar. Bu asanlığa geri çəkilmək fikrim yox idi. Gərək Cəfərin getdiyi yerə gedəydim, hətta qan dolu Təcili yardım şöbəsinin ortasından keçməyə məcbur olsam da.

Bir gün gənc bir oğlanı gətirdilər, yoldaşlarının sözü ilə desəm, “dilim-dilim” olmuşdu. Məndən bir neçə yaş böyük idi, mənim kimi özünü zəif göstərmək istəmir, kəsik və qanlı paltarlarla yerində qıvrılırdı. Ağrıdan dodağını dişləyirdi, amma səsi çıxmırdı. Bir dəfə də avtoqəzaya düşmüş birini gətirdilər. Ana ilə uşaq yerində keçinmişdi, ailənin atası başına-başına vururdu. Özü də yaralanmışdı, amma yarası isti idi deyə başa düşmürdü, çaş-baş halda xəstəxananın dəhlizində oyan-buyana gedirdi. Nəhayət, bir nəfər sakitləşdirici ilə onun dadına yetdi. Sızıltıları ürəyimi parçalayırdı. Bir küncdə dayanıb ona baxdığım yerdə məəttəl baxışı mənim baxışıma düyünləndi və mən kövrəldim.

Gündüzlər xəstəxanada mən bu adamların ardınca düşürdüm, işlərini görürdüm, gecələr də yuxuda onlar mənim ardımca qaçırdılar;

bıçaq, şpris və əllərinə keçən hər bir şeylə. Nə gecəm vardı, nə gündüzüm.

Artıq cəbhənin əlçatmaz olduğuna inamım güclənirdi. Quru bir sağollaşmadan sonra evdən çıxdım. Yenə sübh tezdən korpusun önündə sıraya düzülməli idik. Oraya hamıdan qabaq getdim ki, görüm bu dəfə başımızı nə ilə qatacaqlar.

Bu dəfə məsələ ciddi oldu. Qərara alındı ki, imtahan verək. Məni Nekuyi xəstəxanasının İynəvurma şöbəsinə göndərdilər, orada mənə ağ xalat verdilər. Kəfənə bükülmüş bir kömür parçasına oxşadım. Xalat o qədər böyük idi ki, əynimdə ağlayırdı. Özüm də utanmasaydım, oturub doyunca ağlayardım. Cəbhəyə getməkdən ötrü başıma gəlməyən bəla qalmamışdı. Bir ay xəstəxanaları gəzmişdim, indi də hərbi forma yerinə əynimdə ağ xalat vardı. Sərgərdanlıq və xalat bir tərəfə, əsas müsibət iynə vurmaq idi. Bunu nə bacarırdım, nə də ürəyim gəlirdi.

– Sən iynə vurursan, oğul? – üzü günəşdən yanmış arıq bir qoca dilləndi.

– Bəli, – ayağa qalxıb özümü səliqəyə salandan sonra cavab verdim.

İlk müştərim penisillin vurdurmaq istəyirdi. Bu bəxtsizlikdən məni bir daha ağlamaq tutdu. İynə vurmaq təlimi keçmişdim, amma adam üzərində yox, balış üzərində. İynədən qorxmurdum, amma adamdan qorxurdum. Bu adamdan isə hələ iynə vurmamış "Ərrəhman" ətri gəlirdi.

– İndiyədək penisillin vurdurmusuz, atacan?

Təsdiq əlaməti olaraq başını yelləyib pərdənin arxasına keçdi. Kişi on beş dəqiqə idi uzanmışdı, mənsə hələ iynənin suyu ilə əlləşirdim. Tibb bacılarının şüşənin başını əllə sıxıb xırda bir taqqıltı ilə göyə uçurduqlarını görmüşdüm. Mən də belə edirdim, amma nə qədər sıxırdımsa, xeyri olmurdu. Bir nəfər də yox idi metalkəsəni verib desin ki, əvvəlcə şüşəni cız, sonra canına daraş. Axırda şüşənin başını yumurta kimi stolun kənarına vurdum. Taqqıldamaq yerinə cınqıldayıb sındı. Mayenin yarısı yerə töküldü, qalanını penisillinin tozu ilə qarışdırdım. Ağ mayeni qorxudan soyuyub titrəyən əllərimlə şprisə çəkdim. O zaman şprisin heç kimlə zarafatı yox idi; uzunluğu əl boyda idi, üzərinə minən iynə də öküz buynuzu qalınlığında. Havasını çıxarmaq üçün şprisin başını avtomat kimi üzü divara tutub atəş açdım. Sonra pərdənin arxasına, yaxud sallaqxanaya keçdim.

Qoca hazır vəziyyətdə uzanmışdı. İynə batıracağım yeri dezinfeksiya etdim. Nə qədər zikr bilirdimsə, oxuyub iynəyə üfürdüm.

Nişan alandan sonra bir hərəkətlə iynəni batırdım. Vətərin xırçıltısı ürəyimi üzdü. Əvvəl xoş dillə şprisi sıxdım, amma ağ maye hərəkət etmədi. Sonra bir qədər bərk sıxdım, yenə xeyri olmadı. O qədər fısıldaya-fısıldaya dua və zikr oxumuşdum ki, penisillin mayesi bərkimişdi, iynədən keçmirdi. Lakin bu maye aşağı getməsəydi, cəbhəni yaddan çıxarmalı idim. Dərin nəfəs alıb daha bərk sıxdım, bütün ağırlığımı şprisin üstünə saldım.

– Nə edirsən, oğul? - zavallı qoca qışqırdı.

Həyəcanlandım və əlim tərpəndi. Şpris iynədən ayrıldı. Penisillin mayesi pırtıldayıb qatıq kimi bayıra töküldü. Qocanın qara bədəni ağardı. Şpris mənim əlimdə idi, iynə isə qocanın əzələsində. Özümü ələ almağa çalışıb iynəni bayıra çıxardım, yerini sterilizə olunmuş bintlə silməyə başladım. Zavallı qocanın hələ ömrü qaldığı üçün tibb bacısı gəlib onu mənim əlimdən xilas etdi. Boynumu əyib məzlum görkəmdə kənara çəkildim. Bilmirəm ki, mənim xoşbəxtliyimdən, yoxsa tibbi köməkçiləri olacağım yazıq döyüşçülərin bədbəxtliyindən tibb bacısı səsini çıxarmadı. Nə idisə, hər halda, axırıncı mərhələdən də keçdim.

# Üçüncü fəsil

## *Ağ-qırmızı xalatlar*

“Biz deyirik ki, nə qədər ki şirk və küfr var, mübarizə də var və nə qədər ki mübarizə var, biz də varıq. Biz şəhər və ölkə üstündə kiminləsə vuruşmuruq. Biz qərara gəlmişik ki, "La ilahə illəllah" bayrağını ucalıq və böyüklüyün yüksək zirvələrində dalğalandıraq!”

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 88.

O günə qədər tək getdiyim ən uzaq yer Cəmkəran olmuşdu. İndi isə çantamı çiynimə atıb təkbaşına cəbhəyə gedirdim. 9 Mart 1982-ci il idi. Sürücü bayram münasibəti ilə avtobusunu yuyub parıldatmışdı. Pəncərənin yanında oturub kiçik çantamı bərk qucaqladım. Ev və küçələr sürətlə üzümün yanından keçirdi. Yuyulub sərilmiş xalçaların qırmızı gülləri damların kənarında günəşin altında cana gəlmişdi.

O qədər sevincək idim ki, hətta nə üçün Baxtərana[1] getməli olduğumu soruşmadım. "Sabah ezam olunursunuz" deyən kimi üzümdə güllər açdı, evə qədər birnəfəsə qaçıb çantamı hazırladım. Həmin gecə sevindiyimdən və həyəcandan yata bilmirdim. Kaş Cəfər də olaydı! Tək olduğumu düşünəndə ürəyimdə nəsə əsir, ağzım su ilə dolur və nəfəsim yolunu itirirdi.

Gözlərimi bağlayıb yatmaq istəyəndə üzümün önünə bir kölgə düşdü. Atam yatağımın yanında oturdu. Onu nəfəslərindən tanıdım.

[1] O zaman Kirmanşah vilayətinə Baxtəran deyilirdi.

Elə bildim ki, peşman olub və razılıq məktubunu geri almaq istəyir. Özümü yatmışlığa vurdum. Oturması uzun çəkdi; səssiz və sözsüz. Mənə yaxşıca tamaşa edəndən sonra ayağa qalxıb dedi: "İlahi, Sənin razı olduğuna razıyam!"

Bunu dodaqaltı deyəndə nədənsə gözlərimin kənarı islandı. O, dərin bir ah çəkərək bu cümləni söyləmişdi. Bir anlığa istədim ki, ayağa qalxıb onu qucaqlayım, o, çiyinlərimdən tutub desin ki, kişi ol, mən də gözlərimi silib qəhərimi udum. O, divara söykənib dizlərini qucaqlasın, mən də qarşısında oturum və səhərə qədər danışaq. Amma artıq gec idi; mən qaranlıq otaqda tək qalmışdım.

Sübh çağı yuxudan oyananda atam həmişəkindən tez getmişdi. Anam çantamı verib alnımdan öpdü. Nənəm məni Quranın altından keçirdi. Tez-tez Fələq və Nas surələrini oxuyur, boy-buxunuma üfürürdü. Hər həftə getmək adı ilə sağollaşdığıma və cəbhə əvəzinə xəstəxanaya getdiyimə görə Mehri bacım bu dəfə, həqiqətən, cəbhəyə getməyimə inanmırdı. Nəfisə bacım başını yastıqdan qaldırıb mənə baxdı və yenə yatdı. Özüm də avtobusa oturmayınca inana bilmirdim.

Artıq ucsuz-bucaqsız bir yoldaydım. Ürəyimə həyəcan doldu, fikirləşdim ki, bu yolu necə qayıdacağam. Avtobus yorğun bədənimi magistral üzərində dartırdı. Qumdan uzaqlaşdıqca həyəcanım da çoxalırdı. Qarın soyuğu pəncərənin arasından içəri soxulurdu. Özümü təsəvvür edirdim: evə qayıtmaq istəyirəm və bu qarlı yollarda azmışam.

Məktəbin ilk günü yadıma düşdü. Nənəmin yandırdığı üzərliyin iyi evi bürümüşdü. Öpüm deyə Quranı mənə yaxınlaşdırdı, özü də əyilib yanağımdan öpdü. Atam demiş, artıq kişi olmuşdum, savadlanmalı idim. Məktəbə çatanda isə həyəcanla anamın çadrasından tutdum. Məktəbin o qədər adam dolu böyük həyəti canıma qorxu salırdı. Ağzım acılaşmışdı. Onun arxasında gizlənmək istəyirdim. Həyətin ortasındakı hündür beton bina mənə ağız əyirdi. Anamla birlikdə evə qayıtmaq istəyirdim, amma mümkün deyildi.

Avtobus dərin nəfəs alıb dayandı. Çox həyəcanlandım. Sərnişinlər yerə enmək üçün ayağa qalxdılar. Hamı mənə özgə idi. Ayağım yerə dəyməmiş soyuq məni ikiəlli qucaqladı. Bədənimi gödəkcəmə bükdüm. Qum və onun istisi geridə qalmışdı. Böyük bir xəstəxananın qarşısında idik, gecəni orada qalacaqdıq.

O gecədən yalnız qəribə adlar yadımda qalıb: Meymək, Sumar, Sərpol Zəhab, Cavanrud, Babacani, Hacian boğazı və Bazideraz. Sakit

və çaşbaş halda digərlərinin sözlərinə qulaq asırdım, adlar da başımda bir-birinin belinə dırmaşırdı. O qədər həyəcanlı idim ki, harada uzanıb yuxuya getdiyimi xatırlamıram.

Səhərin gözü açılmamış əlimdə ezam vərəqi xəstəxananın həyətində sürücülərin arasında gəzirdim. Sərpol Zəhab istiqamətinə getməli idim. O vaxta qədər onun nə adını eşitmişdim, nə də harada olduğunu bilirdim. Hərə bir tərəfə gedirdi. Sanki hamı tələsirdi. Ezam vərəqini hansı sürücüyə göstərirdimsə, əvvəlcə boy-buxunumu süzürdü. Qorxurdum ki, bu tərs baxışlarla məni geri qaytararlar. Köhnələrdən eşitmişdim ki, əgər bir sürücünün yolu mənimlə eyni olsa, bəxtim gətirib, olmasa, gərək yas saxlayıb Sərpola qədər çoxlu maşın dəyişim.

Ezam vərəqi əlimdə əzilmiş, yumşalmışdı. Həyəcanla və məyus halda başqa bir sürücüyə yaxınlaşdım. Təcili yardım maşınının motoru ilə məşğul idi. Vərəqi ona göstərdim. Düz burnunu boynundakı çəfiyə şalı ilə bağladı. Soyuqlamışdı. Köhnə furqonunun kapotunu örtdü və başı ilə maşının arxasını göstərdi. Sevincək qaçıb mindim. Hələ yerimi rahatlamamış yola düşdü və mən maşının yerinə sərələndim. Tez özümü cəmləyib çantamı qucaqladım və oturacağın üstünə qısıldım. İnandım ki, doğrudan da, geriyə yolum yoxdur.

Ayağımın altında bir xərək vardı, mənim kimi yorğun və yalqızdı. Üzərindəki qurumuş qan qaraya çalırdı. Qanı görəndə çox qorxdum. Maşın tərpəndikcə xərək də silkələnirdi. Üzərindəki qan laxtalarına görə ona baxmaq istəmirdim, amma xəfif taqqıltı ilə məni çağırırdı. Çantamı bərk qucaqladım. Pəncərədən bayıra baxıb əhvalımı dəyişdirmək üçün üzümü çevirdim, ancaq bir baca da tapa bilmədim. Palçığa bələşmiş şüşələrdən heç bir yer görünmürdü. Qaçmağa marağı olmayan bir dustaq sayağı özümü maşının təkanlarına həvalə etdim; xərək kimi.

Qarnım hay-küy qoparırdı. Sübh çağı yeməyə quru çörək də tapa bilməmişdim. Əgər evdə olsaydım, indi qarnımı atamın Xavər xanımdan aldığı südlə qızdırmışdım, süfrə başında bacılarım Mehri və Nəfisə ilə zarafatlaşırdım. Bir nəfər yox idi desin ki, rəhmətliyin oğlu, çörəyin yox idi, yoxsa suyun? Buyur, bu da cəbhə; ona faydan toxunacaq?!

Ac və qəmli nəfəsimi buraxdığım yerdə top mərmisinin yersiz fiti düşüncələrim üzərindən xətt çəkdi. Yerimdən hoppandım. Sürücü və köməkçisi sanki səsləri eşitmirdilər, başları söhbətə qarışmışdı.

Vahimə içində ətrafıma baxdım. Növbəti mərmi fiti gələndə sürücü gözlərini qıydı, aynadan mənə baxaraq dedi:

– Kəl-Davud boğazına çatdıq.

Mat-məəttəl baxışlarımdan bildi ki, bir qədər ətraflı məlumat verməlidir.

– Burdan o tərəfə döyüş bölgəsidir, - deyə əlavə etdi.

Udqunub çantamı bərk qucaqladım. Cəbhəyə gəlmək üçün özümü bu qədər oda-suya vurmuşdum, indi isə "Bismillah" deməmiş qorxudan dilim tutulmuşdu. Bir mərmi fit çala-çala maşının yanına düşdü. Yenə yerimdən sıçradım. Yavaş-yavaş döyüş bölgəsinin nə demək olduğunu anlayırdım: yerli-yersiz mərmilərin fiti və partlayış səsləri ilə dolu məntəqə. Ön şüşənin palçığa bulaşmamış dairəvi hissəsindən xurd-xəşil edilmiş torpaq yola baxmaq üçün boylandım.

– Təlimdə olanlardansan? – sürücü soruşdu.

– Necə?

Cəbhəyə ilk dəfə gələnlərə "təlimdə olan" deyildiyini bilmirdim. Sürücü də görkəmimdən heç nə başa düşmədiyimi anlayıb izah etməyə başladı. Sükanı sağa-sola döndərir, bizi atıb-tutur və danışırdı.

Qarşıda Sərpol Zəhab şəhəri vardı, sol tərəfdə düşmənin yerləşdiyi Bazideraz yüksəklikləri. Baziderazı görmək üçün boylandım. Sürücü əyləcə basdı və mən başı üstə ön şüşəyə tərəf atıldım.

– Mövqeyin sonudur, – deyə əl əyləcini də çəkib maşından endi.

Yenə yazıq çantamı qucaqladım.

Üstü şiferli birmərtəbəli bina ətrafındakı ağacların arasında gizlənmişdi, divarına yazılmış yerdən başqa hər şeyə oxşayırdı: "Şəhid Nəcmi poliklinikası".

Tərəddüdlə, ayaqlarımı sürüyə-sürüyə yola düşdüm. Hər şey mənə qəribə gəlirdi: yer, göy, bina, gedib-gələn adamlar. Bu poliklinika yaralılara xidmət edirdi. Sərpol Zəhab cəbhəsində kim yaralanırdısa, buraya gətirirdilər. Bəziləri burada doktor Ejeyinin və tibb bacılarının sayəsində sağalırdı, vəziyyəti ağır olanları isə Əbuzər qarnizonuna[1] göndərirdilər. Doktor Ejeyi yeriyə-yeriyə danışır, yaralıları müayinə edirdi. Doktor Feyz kimi işləyirdi, özünə vaxtı olmurdu.

---

[1] Əbuzər qarnizonu Müdafiə Nazirliyinə tabe idi, inqilabdan sonra bu adla məşhurlaşmışdı. Həm müalicə imkanlarına, həm helikopterə və yaralıları Kirmanşaha aparmağın mümkünlüyünə görə vəziyyəti ağır olan yaralıları oraya göndərirdilər.

Qoltuğumda çanta poliklinikanın dəlik-deşiklərinə baş çəkməyə başladım. Ətrafdakı torpaq ərazidə mülayim bir yoxuş vardı. Sanki poliklinikanı təpələrin ortasındakı çökəkdə gizlətmişdilər ki, top və minaatan mərmiləri onu narahat etməsin. Təcili yardım zalına girməyə cürətim çatmadı. Yan-yana düzülmüş çarpayılarla dolu idi. Üfunət və şpris iyi yaralıların ah-naləsi ilə birlikdə qapının arasından bayıra çıxıb məni qorxudurdu. Nekuyi xəstəxanasının Təcili yardım şöbəsi yadıma düşdü. Nəsə bilirmişlər ki, bizə bir həftə orada təlim keçmişdilər; bizim ürəklənməmizi istəyirmişlər.

Poliklinikadan çıxdım, cəbhənin bu bir qarış yerdən ibarət olduğunu sanaraq Cəfəri axtarmağa başladım. Onun üçün darıxmışdım. Nə qədər çox gedirdimsə, daha çox darıxırdım. Tərk edilmiş Sərpol Zəhab şəhəri xarabalığa çevrilmişdi. Küçələrdə külək dolaşır, evlərin qapı və pəncərələrinə çırpılmaqla gücünü göstərirdi. Gödəkcəmin yaxasını qulaqlarımın dibinə qədər qaldırdım.

Şəhərin divarlarını görəndə yerimdə quruyub qaldım; uşaqların səs-küyündən əsər-əlamət olmayan küçələr, şüşələri qırılmış evlər. İlin o vaxtında insanlar evlərini tökürlər, şüşələr sınmaq yerinə parıldayır, xalçalar evlərin damına rəngbərəng görüntü verir. Bayram coşqusunun yerinə şəhərin üstünə soyuq və ağır sükut çökmüşdü. Həmin gün Cəfəri tapmadım, amma müharibəni yaxından gördüm, şəhərin soyuq sükutunda hiss etdim. Bu hiss hətta uzaqlarda yeri titrədən top mərmilərinin fitində də yox idi.

Gündüzlər tibb bacılarına kömək edir, gecələr təcili yardım sürücülərinin otağında yatırdım. Otaqları Təcili yardım şöbəsinin yanında idi. Gözlərimi tavana dikirdim. Minaatan mərmisi tavanın sökübdağıtmışdı. Qorxurdum ki, yataram, kərpic və dəmirlər üstümə düşər. Hələ öyrənməmişdim ki, cəbhədə ölümlə dostlaşmalısan. O, sənin biraddımlığında gəzişir, sənə əl yelləyirsə, qorxmağın və yatmamağın mənası yoxdur. Əgər əlindən tutub səni aparasıdırsa, səhərə qədər kərpicləri gözünlə izləsən də öz işini görəcək. Əgər növbən çatmayıbsa, nə qədər izləyirsən izlə, sənə məhəl qoymayacaq.

***

Qara tənbəl buludlar zəif ay işığını öz arxasında həbs etmişdi. Önümü görmürdüm. Çəfiyə şalımı başımın üstə tutub kor kimi irəliləyir, qaranlığa qərq olmuş təpələrin arasından yol axtarırdım. Təcili yardım maşınının sürücüsü də işıqlarını söndürüb ehtiyatla

arxamca gəlir, yoldan çıxmasın deyə gözlərini əlimdəki şaldan ayırmırdı.

Poliklinikada yeyib-yatmaq dövrüm bitdi və mən Abbarik[1] cəbhəsinə ezam olundum. Düşmən Bazideraz təpələrindən bölgəni gördüyünə görə gecə vaxtı gedib-gəlirdik. Təpələr naməlum qaraltılara çevrilib torpaq yolun iki tərəfindən yavaşca bizə baxırdı. Öz ayaqlarımın səsindən də qorxurdum, hər an təpələrin arxasından bir nəfərin çıxacağını gözləyirdim. Ürəyim Qumun ulduz dolu təmiz səmasını istəyirdi. İndi Mehri bacım nənəmin yanında yatmışdı, Nəfisə bacım da gəlinciyinə laylay çalırdı.

Təcili yardım maşınının uğultusundan özümə gəlib arxama baxdım. Maşın təpənin döşündə ilişmişdi. Sürücü sükanı döndərərək qaza basır, ön təkərləri çıxarmağa çalışırdı.

Əlvənd çayının o tayına qədər tısbağa sürəti ilə getdik. Gündüzün isti günəşindən qaçır, dağın gecə soyuğuna əsir olurduq. Çənəmi gödəkcəmin yaxasına saldım. Çayın səsi gecənin sükutu ilə dalaşırdı. Su körpünün dirəklərinə dəyib canıma qorxu salırdı. Burnuma mamır və rütubət qoxusu dolurdu. Abbarik cəbhəsi körpünün o tərəfində idi. Bu bir neçə alçaq-hündür təpədə mazandaranlı uşaqların bir taqımı yerləşmişdi. Biz çatanda komandirləri Musa Rikabidən[2] başqa hamı yatmışdı. O, bizi gözləyirdi. Mavi gözlərini görəndə nənəm yadıma düşdü.

Həmin gecə komandir səngərinə qonaq oldum. Qapının önündəki ədyalı kənara çəkib içəri girdi, mən də ardınca. İçəridən torpaq, neft və lampa iyi gəlirdi. Təcili yardım çantamı torpaq dolu çuvalların arasından asdım. Yardım əşyalarıma gözlərim kimi baxırdım. Bir taxta parçası vardı, deməyincə təsbitedici olduğunu heç kim bilməzdi. Ətrafındakı pambıq və bintə görə daha çox pambıq şəkərə bənzəyirdi. Bir ovuc sakitləşdirici dərman vardı, bir neçə yara bandı və sterilizə olunmuş bint. Əgər peşəkar tibbi köməkçi olduğuna əmin olmalarını

---

[1] Sərpol Zəhab istiqaməti kiçik cəbhələrə bölünmüşdü və hərəsinin öz adı vardı; ya qədim yerli adları, ya da uşaqların qoyduğu yeni adlar. Hər bir cəbhəyə eyni bölgədən gəlmiş döyüşçülər yerləşmişdilər; bir cəbhə şimallılara tapşırılmışdı, biri həmədanlılara və s.

[2] Şəhid Musa Rikabi 1961-ci ildə Sarinin Dövlətabad kəndində dünyaya gəlmiş, Fav düşmən əlinə keçəndə kimyəvi silahdan xəsarət almışdı. O, illərlə əlillikdən sonra 2010-cu ildə şəhadətə qovuşdu.

istəyirdinsə, gərək çantanda iki-üç şpris də olaydı. Allaha şükür, heç kim mənim barəmdə belə əminliyə nail olmadı.

Uzun piyada yolçuluq məni əldən saldı. Səngərin bir tərəfində uzandım. Yuxarıdan asılmış neft lampası pırtıldayır, şöləsi titrəyirdi. Çirkli əsgər ədyalını çiynimə qədər çəkdim. Həqiqi səngərdə uzanmışdım. Qapı və divarlarından gözlərimi çəkə bilmirdim. Arabir gələn mərmi fiti və partlayış səsi gecənin sükutunu parçalayırdı. Musa gecə vaxtı bir neçə dəfə səngərdən çıxdı. Boz toxunma papağını qaşlarına qədər çəkib gedirdi. Papağından İbrahim Zareyə oxşayırdı. Fikirləşdim ki, görəsən, o indi haradadır; yəqin ki, Cəfər və Əkbərlə birlikdədir. Yalnız mən onlardan ayrı düşmüşdüm və buna görə darıxırdım.

Musa hər dəfə ədyalı kənara çəkəndə soyuq külək səngərin içində vıyıldayırdı. Onun şəxsi heyətə baş çəkməyə getdiyini bilmirdim. Səngərdə tək olanda canıma qorxu düşürdü, çox vaxt ədyalın altına girib dua edirdim ki, tez qayıtsın. Düşünürdüm ki, kaş nənəm burada olaydı, əlindən tutaydım.

Musa axırıncı dəfə gedəndə partlayış səsləri uzaqlaşdı və zəiflədi. Yuxunun ləzzətini hiss etdim və yavaş-yavaş hər şey qaranlığa qərq oldu.

– Namazın qəzaya getməsin!

Musa üzü islanmış halda yanımda dizi üstə oturub gülümsəyirdi. Əlini çiynimdən götürüb ayağa qalxdı. Yuxulu halda səngərdən çıxdım. Dağ və təpələrin içində soyuq sübh havası məni səngərə itələyirdi. Dişlərim bir-birinə dəyirdi. Gödəkcəyə bürünüb su çəninə doğru qaçdım.

Sübh namazından sonra hava işıqlaşanda haraya düşdüyümü gördüm. Musa səbirlə və mehriban şəkildə hər yeri mənə göstərdi; Möhsün Hüseynian kimi. Dağın soyuğunda qəhvəyi saçının rəngi qaçmışdı. Hara gedirdisə, arxasınca gedirdim: ictimai səngər,[1] təpənin başındakı rabitə səngəri, hüseyniyyə, qarovul səngərləri və hamam.

Hamam Əlvənd çayından ibarət idi. Buz kimi suya girməyin mümkün olduğuna inana bilmirdim. Musa körpünün dirəyinə bağlanmış ipi mənə göstərdi. Ölü ilan kimi suyun üzündə qalxıb-yatırdı. Çimmək üçün özünü iplə körpüyə bağlamalı, başını da

---

[1] Torpaq sipərin arxasında bir otaq şəklində düzəldilən və on nəfərin yata bildiyi səngərlər

gizlətməli olurdun ki, düşmən yuxarıdan otların tərpəndiyini görüb atəş açmasın. Yuyucu tozu, sabun, şampun – fərqi yoxdu, ancaq tez sürtünüb suya çəkilməli idin. Əgər uzatsaydın, ya düşmən işini bitirərdi, ya da suyun soyuqluğu.

Səhərdən axşama qədər işim döyüşçülər arasında veyillənməkdən ibarət idi, təcili yardım çantamı isə səngərdə toz basırdı. Bu cəbhədə əlimə heç bir yaralı keçmədi. Azad bir döyüşçü olmuşdum, Musa Rikabinin ardınca hər yerə baş çəkirdim. Rikabi mənim üçün ata kimi idi; Hüseynian idi, Turabi idi, Cəfər idi.

Yol getdiyimiz yerdə döyüşçülərin biri əlində fotoaparat önümüzdə peyda oldu. Şəklimizi çəkmək həvəsinə düşmüşdü. Soyuq havada Musanın ağ dərisi qızarmış, sarı saqqalı solmuşdu. Fotoqraf əliboş olmayım deyə silahını mənə verdi. Musa isə başdan-ayağa hərbi vəziyyətdə idi: çəkmə, Kalaşnikov, patron kəməri. Mənsə gödəkcə və çəkələkdə idim, pijamamın balağı şalvarımdan bayıra çıxmışdı. Fotoqrafın silahı əlimdə yöndəmsiz yamaq kimi qalmışdı. “Bir, iki, üç” deməmiş şəklimizi çəkdi, nə mən üst-başımı səliqəyə saldım, nə Musa obyektivə baxmağa macal tapdı. Yalnız papağını qaldırmağa imkanı oldu ki, qaşları görünsün. Komandirlə yeganə şəklim bu oldu.

Bir neçə gün ötəndən sonra hiss etdim ki, əlim daim saçımdadır; başım qaşınırdı. Bədənimə də yağ qoxusu oturmuşdu, üz-başımdan çirk yağırdı. Çarə yox idi, gərək çayda çiməydim. Evimizin isti hamamı yadıma düşdü. Zavallı nənəm məni tutmaq üçün həyətdə nə qədər ardımca qaçırdı, hamama salmaq üçün nə qədər "başına dönüm, qurban olum" deyirdi. Başıma sürtdüyü balıq yağının qoxusuna nifrət edirdim. Bu qoxu boğazımın dibinə qədər yapışırdı. Həmişə hamama gedəndə bu hadisə təkrarlanırdı. Anam hamama gedirdi, nənəm də saçı sıx olsun deyə əziz Məhəmmədhüseynin başını yağlayırdı. Yağlı başla bir saat günəşin altında qalırdım, balığın pis qoxusu ətrafa yayılırdı. Anamın bədənimi liflə sürtməsi isə bundan da ağır idi. O qədər bərk sürtürdü ki, dərim siyrilirdi. Bir saatdan sonra isə gözləri və yanaqları qızarmış bir gül olurdum.

İndi həmin gül bir əli ilə ipdən yapışmışdı, digər əli ilə özünü yuyurdu. Soyuqdan dişlərim əsib bir-birinə dəyirdi. Yuyucu tozunun iri dənələrini üz-başıma sürtürdüm ki, rəngim açılsın. Nəfəs almağım hıçqırtıya çevrilmişdi, az qala soyuqdan daşa dönəcəkdim. Axırda islanmış çirkli paltarımı geyib soyuq və dalğalı hamamdan salamat çıxdım.

Günortalar həm biz istirahət edirdik, həm düşmənlər; bir-birimizlə işimiz olmurdu. Yalnız günorta namazını camaat namazı şəklində qılmaq olurdu. Xudmani hüseyniyyəyə doluşurduq. Tez-tez əyilib-düzəlir, həyatda qalaq deyə salamı verər-verməz aradan çıxırdıq.

Müharibənin əvvəllərində səngər düzəltmək üçün imkan və təcrübə az idi. Taxta, şifer və qum çuvallarını üst-üstə yığıb sevinirdik ki, səngərimiz var. Güllə və qəlpənin qarşısını alırdı, amma bir mərmi ilə çöküb bizə məzar olurdu. Düşmənin hüseyniyyənin koordinatını tapıb namaz vaxtı bütün taqımı göyə uçurma ehtimalı böyük idi. Buna görə namazlarımızı uzatmırdıq.

Namazdan sonra süfrə açılırdı. Uşaqlar məni "balaca doktor" çağırır, nə yemək istəyirdilərsə, icazə alırdılar. Musa çox vaxt bizimlə nahar edirdi. Süfrə sərir, su dolçasını doldurub gətirir, uşaqlarla söhbətləşir, danışıb-gülürdü. Söhbətlərində Möhsün adını çox çəkirdi.[1] Mən tanımırdım, amma hiss edirdim ki, Musa onu çox sevir. Cəfər mənim üçün necə əzizdisə, Möhsün də onun üçün əziz idi. Nahar süfrəsində, bərkimiş konservləri yeyəndə o qədər deyib-gülürdük ki, hər bir xörəkdən çox ləzzət alırdıq. Yalnız axşamlar isti xörəyimiz olurdu. O da Toyota pikapı min bir müsibətlə bizə çatana qədər əldən düşürdü. Xörək maşını siqnal verəndə biri səngərin önündən qazanı götürüb şam payımızı almağa qaçırdı. Biz də səngərdə havanı qoxulaya-qoxulaya düşünürdük ki, görəsən, bu isti cənnət xörəyi qiymədir, yoxsa mərciplov.

Qumun isti kababının və altındakı yağlı səngək çörəyinin yeri necə də görünürdü! Nənəm şam süfrəsini həyətdəki taxtın üzərində açırdı. Atam motosikletlə gələndə onu qarşılamağa qaçırdıq və kabab iyi burnumuza dolurdu. İyi də özü kimi dadlı olurdu. Cəbhə xörəklərinin iyi yox idi, ağlımızı başımızdan çıxarmırdı, əvəzində isə duzu vardı və hamını duz-çörəyə sadiq edirdi.

Şam süfrəsi toplanandan sonra dünyanın qəm-kədəri ürəyimə çökürdü. Hərə bir tərəfə gedirdi. Mən qürub çağından ruhuma çökən tənhalıqla baş-başa qalırdım. Hündür və iti Bazideraz təpələri qırmızı və qızılı günəş atəşlərini bərk daş xəncərləri arasına yerləşdirirdi. Günəş endikcə xəncərlərin kölgəsi də böyürürdü, səssiz-səmirsiz

---

[1] Sərpol Zəhab cəbhəsinin komandiri Möhsün Hacıbaba 1959-cu ildə Tehranda dünyaya gəlmiş, 1982-ci ildə Sərpol Zəhab istiqamətlərindən birində şəhadətə qovuşmuşdur.

yaxınlaşıb hər şeyi qaranlığa qərq edirdi. Külək otların arasında vıyıldayırdı, mən tək-tənha qalır, hamı üçün darıxırdım. Səngərdən bayırda hər şey şübhəli qaraltıya çevrilirdi. Top və mərmilərin uzaqlardan gələn fiti gecənin sükutunu yarıb özünü mənə yetirir, bağrımı yarırdı. Bilmirdim ki, bu gecə başımı aparacaqlar, yoxsa qulağımı.

Səngərin önündə divara söykəndim. Yaxınlaşmaq istəyəni vurum deyə əlimdə bir Kalaşnikov avtomatı vardı. Düşmənin sakitcə yaxınlaşmasının qorxusundan gözlərimi də qırpmırdım. Qaranlıq qır kimi yerə-göyə yapışmışdı. Qatı buludlar ayın işığını öz arxalarında gizlətmişdilər. Bütün çöl səsə çevrilmişdi: ayaq, nəfəs, çay, külək səsi və s. Hər bir səsdən sonra silahımın lüləsini ovcumla tuturdum. Boğucu bir qorxu canıma düşürdü. Rikabi məni qarovul kimi səngərin önündə oturtmuşdu. Hətta soruşmamışdım ki, niyə digərləri səngərin içinə girirlər, mənsə yox.

– Taxtda qalmayasan, Nəməki! Bəxtə yanasan, Nəməki! Altı qapını bağladın, Nəməki! Bir qapını bağlamadın, Nəməki!

Nənəmin nağılı buraya çatanda ağzım acılaşır, ürəyim tez-tez və bərk döyünməyə başlayırdı; qışın qaranlıq soyuğunda Nəməkini oğurlamağa gəlmiş divin qapını döyməsi kimi. Ürəyim istəyirdi yeddinci qapını da özüm bağlayım ki, qorxudan gözləri bərəlmiş Nəməki yuxuma girməsin.

Yayda gecələr həyətdəki taxtın üstündə yatanda ədyalı başıma çəkir, burnumu və gözlərimi kiçik dəlikdən bayıra çıxarırdım. Tərləyir, kabus və oğruların divardakı kölgələrinə baxırdım.

Həmin gecə də qaranlıq çöldəki səngərin önü kölgə və kabusla dolmuşdu. Bir düşmən təpənin arxasından və otların arasından oğrun-oğrun mənə tərəf gəlirdi. Nəməkinin vahiməli və donmuş üzü... yuxulu gözləri həmişə qorxudan bərəlmiş olurdu. Bir gözü mənə baxırdı, bir gözü arxasına. Yaxınlaşmaqda olan böyük bir divin kölgəsini göstərirdi. Ona kömək etmək, qorxmasın deyə sığınacaq vermək istəyirdim, amma bacarmırdım. Əl-ayaqlarımı hiss etmirdim. Qışqırmaq istədim, amma boğazımın yolu bağlanmışdı, məndən heç bir səs çıxmırdı. Soyuq külək Nəməkinin qara saçını yellədirdi. Qırmızı dodaqları qorxudan ağarmışdı. Qorxu içində mənə baxır, səngərdə yatmış hər kəsin başını kəsmək istəyən əlixəncərli düşməni göstərirdi. Düşmənin gözləri qızarmışdı, ağzından qəribə səslər çıxırdı. Nəməki qaranlıqda gözdən itdi və onu daha görmədim. Çölün o

başından qışqırır, xəncərin tiyəsi qaranlıqda parıldayırdı. Düşmənin qəhqəhə səsi çölü bürüdü. Nəməki uzaqdan məni çağırırdı, mənsə cavab verə bilmirdim. Sanki düşmən sinəmdə oturmuşdu, nəfəs yolum bağlanmışdı.

– Məhəmmədhüseyn! Məhəmmədhüseyn can...

Tər içində yuxudan diksindim. Musa qollarını çırmamış vəziyyətdə qarşımda dayanmışdı. Məni şimal ləhcəsi ilə çağıranda adımı necə də sevirdim! Həmişəki kimi mehriban şəkildə güldü. Avtomatın lüləsi hələ əlimdə idi. Yuxuda keşik çəkmişdim.

– Qalx, namazın qəza olmasın.

Tez özümü toparladım və qaranlıqda tək dəstəmaz almaq qorxusundan onun ardınca qaçdım. O vaxt bilmirdim ki, səngərin önündə keşik çəkməyə ehtiyac yoxdur və Musa məni qorxularımla üzləşdirmək üçün səhərədək burada oturtmuşdur.

İndi də Sərpol Zəhaba gedəndə Musanı xatırlayıram. Səngərin yerləşdiyi təpənin yamacına gedir, sakitliyə və təhlükəsizliyə qərq olmuş Bazideraza baxıram. Daha heç bir mərminin fit və partlayış səsi gəlmir. Fikirləşirəm ki, Musa yuxarıda, Baziderazın üstündə dayanıb və təbəssümlə mənə baxır; özünəməxsus təbəssümü ilə. Və əli ilə havanın qaralmaqda olduğunu bildirir. Soyuqda və qaranlıqda tək qalaram deyə narahatdır. Şimal ləhcəsi ilə adımı çağırır. Səsi dağı-düzü dolaşır.

Onun yanında olduğum axırıncı axşamı xatırlayıram. Şam namazından sonra təcili yardım maşını ilə Nəcmi poliklinikasına qayıdacaqdım. Abbarikdəki tapşırığım sona çatmışdı. Musanın yanından getmək istəmirdim. Hələ getməmiş onun üçün darıxırdım. Bura mənim üçün ilklərlə dolu idi: ilk təklik, ilk cəbhə, ilk post, ilk komandir. Səngərdə qəm içində dizlərimi qucaqlayıb onun namaz qılmasına baxırdım. Son səcdəsi həmişə uzun olurdu; o qədər uzun ki, elə bilərdin, qalxmaq yadından çıxıb. Orada qalmaq və hər axşam onun namaz qılmasına baxmaq istəyirdim. Lakin müharibə sevdiyin hər şeylə müharibədədir. Maşının siqnal səsi səngərə qədər gəldi. Məni çağırırdı.

***

Tibb bacılarının başlarını qaşımağa vaxtları yox idi. Xidmətə hazır vəziyyətdə dayanmışdım ki, əlimdən bir iş gəlsə, görüm. Burnum qan və spirt qoxusu ilə dolmuşdu. Təcili yardım maşınları bir-birinin

ardınca poliklinikanın ərazisinə daxil olur, yaralı gətirirdilər. Kürəmuş cəbhəsində ağır döyüş baş tutmuşdu.

Yerə, çarpayıların arasına da yaralı uzatmışdılar, serumları başları üstə divara mıxlanmışdı. Bəzilərindən hələ barıt iyi gəlirdi. Haraya baxırdınsa, ya qan görürdün, ya bint, ya serum. Doktor Ejeyinin və digər tibb işçilərinin xalatları ağ-qırmızı olmuşdu. Qanaxmadan yaralıların ürəkləri dayanmasın deyə hər şey əl altında idi. Onlara qan və serum çatdırırdıq. Hər birinin canı bizim sürətimizə bağlı idi. Çarpayıların arasında qaçır, tibb bacıları nə istəyirdilərsə, gətirirdim. Doktor Ejeyi bəzi yralıları əllə dirildib tibb bacılarına təhvil verir, digərinə yaxınlaşırdı.

Mən bütün yaralıların başı üstə getməyə çalışır, Cəfərin onların arasında olmadığına əmin olmaq istəyirdim. Bir təcili yardım maşınındakı yaralıların vəziyyəti ağır idi. Onları maşından endirməyib cəld Əbuzər qarnizonuna göndərdilər. Yolda həyat əlamətlərini yoxlayım deyə mən də onlarla getdim. Qaranlıqda üzlərini də görə bilmirdim, o ki qala həyat və ölüm əlamətlərinə. Yoxlaya bildiyim yeganə həyat əlaməti çala-çuxurlarda atılıb-düşən zaman zarımaları idi.

Böyük müsibətlə olsa da, onları Əbuzərə çatdırdıq. Qayıdanda sürücü ilə köməkçisinin arasında oturdum. Sürücünün əli sükanda, başı isə pəncərədən bayırda idi. Yazıq o qaranlıqda nə görürdü, nə də işığı yandıra bilirdi; daha yaxşı görmək üçün başını bayıra çıxarmışdı. Qədim və sınıq-salxaq furqon zarıya-zarıya zülmətin ortasından özünə yol tapırdı. Hələ cəbhə Toyota pikapları ilə dolmamışdı, bütün işlərimizi köhnə furqonlarla həll edirdik. Enli və uzun cəmdəyindən furqondan çox gəmiyə oxşayırdı.

Çənəmi idarəetmə panelinə qoymuşdum, qarşımızda bir təpə peyda olmasın deyə önümüzə baxırdım. "Əbuzərə çatdırdığımız yaralıların ailələri əzizlərinin həyatda olduğunu eşidəndə nə qədər sevinəcəklər!” – deyə fikirləşdiyim yerdə birdən qışqırdım:

– Maşıın!

Qeybdən qarşımızda bir təcili yardım maşını peyda oldu. Mən onu görüb qışqırandan sonra isə "bomb" səsi gəldi.

Hər iki maşının işığı sönmüşdü, bir-birini görmürdülər. Qarşıdakı maşın yaralı ilə dolu idi, Nəcmi poliklinikasından gəlirdi. Yaralıların ailələri yasa batmasın deyə az qala öz ailələrimizi də yasa batıracaqdıq.

Gözümü açanda kapotun üstündəydim. Maşının altından su axır, şırıldayırdı. Başım üstə şüşəyə şığımışdım; şüşə kapotun üstünə sərilmişdi, mən də onun üstünə. Hamı başıma yığışıb canıbərkliyimə təəccüblənirdi. Başım bədənimə ağırlıq edirdi. Sürücü qoltuğumdan tutub məni kapotun üstündən endirdi. Müvazinətimi itirmişdim, ayaq üstə dayana bilmirdim, başım gicəllənirdi. Oturub maşının təkərinə söykəndim. Hacı Qüdrətlə oğulları yadıma düşdü.

Bir gün Mərəq kəndinə əmimgilə getmişdik. Əmimin yoldaşı həyəti və eyvanı yumuşdu. Biz də bir yerdə oturmurduq, sürahisiz eyvanda dəcəlliyimiz tutmuşdu. Çox deyirdilər ki, oturun, yıxılarsınız, bizsə qulaq asmırdıq. Birdən ayağım sürüşdü və eyvandan başı üstə həyətin ortasına uçdum. Qan alnımın ortasından burnumun ucuna qədər axırdı. Anam ayaqyalın mənə tərəf qaçdı. Rza, Həsən və Hüseyn qorxudan eyvanda quruyub qalmışdılar. Atam məni maşına mindirib tez kəndin hindistanlı həkiminin[1] yanına apardı. Bir saatdan sonra isə alnımın ortasında iri bir sarıqla evdə idim. Artıq sakit və sözəbaxandım, anamın yanından tərpənmirdim. Nənəm mənim üçün üzərlik yandırırdı, "qurban olum" sözləri dilindən düşmürdü.

İndi isə heç biri yanımda deyildi. Dirsəyimdə yaranmış paralel cızıqlar göynəyir, başımda səslər dolaşır, bədənim ağrıyırdı. Başımı dizimin üstə qoydum. Heç kim mənə fikir vermirdi, yaralıların yanına getmişdilər. Yazıqları o vəziyyətdə maşından endirdilər. Bir nəfər irəli qaçıb növbəti Təcili yardım maşınını saxlatdırdı və onları mindirdi. Bizsə poliklinikaya piyada getdik.

Poliklinikada iki-üç gündən artıq qonaq olmadım. Məni Kaskəbud cəbhəsinə göndərdilər.

Oraya çatanda hava qaralmış, hamı yatmaq üçün ictimai səngərə toplaşmışdı. Divar boyunca sıx-sıx oturub Vaqiə surəsini oxuyurdular. Yatmazdan qabaq bunun cəbhədə bir adət olduğunu bilmirdim. Özümə bir yer tapıb hər birinin üzünə baxdım. Cəfər burada da deyildi. Hərə bir ayə oxuyurdu. Birdən səngərdə gülüş bombası partladı. Seyrək saqqallı bir gənc ayəni oxuyanda qulaqlarının dibinə qədər qızardı. Bir qədər dayanıb davam etdi: "Və hurul-`in..."[2]

---

[1] İslam İnqilabından öncə terapevt çatışmadığına görə kəndlərdə, hətta bəzi kiçik şəhərlərin poliklinikalarında hindistanlı və pakistanlı həkimlər işləyirdilər.

[2] “(Onlar üçün orada) iri (ahu) gözlü, qəşəng hurilər də vardır. Sanki sədəf içində gizlənmiş incidirlər”. (Vaqiə, 22-23)

Hərə bir tərəfdən söz atırdı. Gənc başını aşağı salmışdı; digərlərinin sözlərindən həm xoşu gəlir, həm də xəcalət çəkirdi. Hamıdan balaca idim, mat-məəttəl onlara baxırdım. Bilmirdim ki, bu ayə onun oxumaq növbəsinə düşdüyünə görə zarafat edirlər. Onların gülüş və zarafatlarının səbəbini anlayana qədər çox çəkdi. Hər axşam ürəyimdə dua edirdim ki, o ayə mənə düşməsin; digərlərinin gülüşündən utanırdım.

Kaskəbud cəbhəsi düşmən mövqeyinə daha yaxın idi. Uşaqlar növbə ilə pusqu səngərində qarovul dayanırdılar. İraq mövqeyinə ən yaxın nöqtədə xudmani bir pusqu səngəri düzəltmişdilər. Oradan göz qoyurduq ki, düşmən qüvvələri bu tərəfə keçməsinlər. Növbə yalnız sübh və şam azanlarından sonra dəyişilirdi. Uşaqlara orada güllə də dəysəydi, yazılmamış qanuna görə, səngərin yeri bilinməsin deyə səslərini çıxarmırdılar. Beləliklə, səhərdən-axşama qədər qan itirirdilər, yavaş-yavaş ağızları şirinləşirdi və uçub gedirdilər.

Pusqu səngərində qarovul təcrübəsi cəbhənin ən spesifik anlarından idi. Səngər fikir və tənhalıqdan aşıb-daşırdı: özün, olduğun yer və o yerə qanları tökülmüş uşaqlar barədə fikirlər. Orada Allahla və bir neçə addımlığında dayanmış şəhadətlə baş-başa qalırdın; sanki ay buludun arxasından boylanıb baxışınla oynayır. Pusqu səngəri yerlə göy arasında bir yerdi, dünya bütün bər-bəzəyi ilə birlikdə arxanda qalırdı. Qarşında yalnız Allah vardı və açılmış qucağı. Əbədiyyətə uçmaq üçün isə yalnız bir addım atmalı idin. Bu səngərdə şəhadət xüsusi tərzdə gəlirdi: yavaş və səssiz. Səhərdən-axşama qədər uşaqlardan qan axırdı, axşam düşmən görməyəndə geri gətirirdilər.

Kaskəbud cəbhəsində hamıdan çox Mehdi Pakrəvan və Əlirza İbrahimpurla dostlaşdım. Zarafatcıl və səs-küylü uşaqlar idilər, onların yanında özümü tək hiss etmirdim. Məni "doki" çağırırdılar. Qərara gəlmişdik ki, nə vaxt Tehrana getsəm, evlərinə baş çəkim; ancaq bu qərar hələ də həyata keçməyib. Başqa bir nəfər də yaxşı yadımda qalıb: ortayaşlı isfahanlı. Hər dəfə yanımdan keçəndə boy-buxunumu süzür, dodaqaltı, amma mənim eşidəcəyim səslə “Allah, Sən yetiş dadımıza!” - deyirdi. Dostları gülürdülər, mənsə məni ələ saldığını bilmirdim.

– Allahdan istəmişəm ki, ya yaralanmayım, ya da sən bir qarış uşağın əlinin altına düşməyim, - bir gün dedi, - çünki fatihəmi oxuyarsan.

Özümü o yerə vurmayıb xüsusi tərzdə "inşa Allah" dedim.

Bir dəfə günorta çağı mərmi fiti qulaqlarımızın pərdəsini titrətdi. Təpənin başındakı qarovul səngərini vurmuşdular. Həmin isfahanlının növbəsi idi. Uşaqların ikisi gedib onu bayıra çıxardı. Huşunu itirmişdi. Təcili yardım səngərinə qədər yanında olmaq üçün mən də maşına oturdum. Ona çox yazığım gəldi; qorxduğu başına gəlmişdi.

Vəziyyəti ağır idi. Gündüz çağı düşmən atəşi altında onu geri aparmağa məcburduq. Nə tərpənir, nə də zarıyırdı. Onu başdan-ayağa süzdüm. Heç bir yeri sınmamışdı. Qanaxması da yox idi ki, bağlayım. Dişləri qıfıllanmışdı, süni tənəffüs vermək üçün ağzını açmağa gücüm çatmadı. Nə edəcəyimi düşündüyüm yerdə maşın təpənin arxasından çıxıb düşmənin hədəfi altına keçdi. Elə vururdular ki, sanki neçə gündür bizi gözləyirlər. Nə qədər mərmi vardısa, başımıza tökdülər. Bu vurhavurda mən də rəngi solmuş yaralıya kömək etməkdə israrlı idim. O, ağzı yarıaçıq şəkildə və saçı toz-torpaq içində xərəyin üstə qalmışdı. Onu partlayış dalğasının bihuş etdiyini bilmir, bədənində yara və ya zədə axtarırdım. Əllərimi bir-birinə keçirib bu bəxtsiz insanın sinəsinə qoydum və sıxıb-buraxmağa başladım. Döş qəfəsini hər dəfə sıxanda xəfif bir fısıltı gəlirdi. Onu qan dövranının səsi zənn edib sevinir, daha möhkəm sıxırdım. Ancaq bilmirdim ki, qəlpə iki çiyninin ortasına girib, fısıltı da xərəyə sıçrayan qanın səsidir. Öz əllərimlə yazığı o dünyaya göndərirdim. Bəxti onda gətirdi ki, bütün qanını maşına boşaltmadan təcili yardım səngərinə çatdıq. Gülə-gülə məni maşından endirib dedilər:

– Yer üzü belə tibbi köməkçilərdən boş qalmamalıdır. Sən en aşağı, heyifsən.

Gündüz vaxtı getmək mümkün deyildi. Oraya qədər güc-bəla ilə sağ qalmışdıq. Hər bir cəbhənin özündən bir qədər geridə təcili yardım səngəri vardı; yaralıları oraya aparıb ya özləri lazımi yardımı göstərirdilər, ya da hava qaralanda Nəcmi poliklinikasına göndərirdilər.

Axşam sürücü mövqeyə qayıdanda həkim kimi özünəinamla yaralının vəziyyətini soruşdum. Yazıq yaralının tibbi köməkçi sarıdan bəxti gətirməmişdi, amma sürücü də canına qəsd etmək niyyətində imiş. Vəziyyəti ağır olduğuna görə onu gündüz vaxtı Nəcmi poliklinikasına aparmağa məcbur olublar və sürücü düşmənin atəşi altında yola düşüb. Mərmilər onları uçurmasın deyə maşını bir növ uçururmuş. Birdən sürücü köməkçisi başını çevirib görüb ki, təcili yardım maşınının arxa qapısı açıqdır və yaralı, həqiqətən də, uçub.

Getdikləri yolla geri qayıdaraq qanlı bədəni təpənin yamacında tapmış, maşına qoyaraq çox çətinliklə Nəcmiyə aparmışdılar.

Onu yadımdan çıxara bilmirdim. Pakrəvanla İbrahimpur məni bu fikirdən ayırmaq üçün bir zarafat planı cızdılar. Məni çağırdılar, arıq olduğumu bəhanə edib dedilər ki, su çəninin içini yalnız sən yuya bilərsən. Məndən kömək istədiklərinə görə sevinib razılıq verdim. Soyunub uzun enli şortla ayaqyalın çənə girməyə hazırlaşdım. Qollarımdan tutdular və mən çənin üstündəki dəlikdən bir ip kimi keçdim.

Mətbəxin kaşılarını yumağımız və anamın çimdikləri yadıma düşdü. Çox darıxmışdım. Düşündüm ki, yəqin, günorta yeməklərini yeyiblər və Mehri bacım qabları yuyur.

Metal tor və süngərlə çənin içini sürtməyə başladım. Günün o vaxtı, adətən, iraqlılar yatıb istirahət edirdilər. Amma mənim bəxtimdən hansısa yuxusuz qalmışdı və təsadüfən çənə doğru bir mərmi fırlatdı. Üçə qədər sayınca hamı dağılışdı, mənsə çənin içində əks-səda verən partlayış səsi ilə baş-başa qaldım. Hər yerdə şəhid olmaq istəyərdim, amma şortla çənin içində yox.

Qışqırmağa başladım. Çənin divarına yumruq-təpik vururdum ki, mənə kömək etsinlər. Səs-küyüm başıma dolurdu, iraqlıların bu bir mərmini atıb yatmağa getdiklərini bilmirdim. Uşaqlar da səngərin kölgəsində oturmuşdular; özləri üçün deyib-gülür, mənim çənin içindəki cəh-cəhimə qulaq asırdılar. Onlar doyunca güləndən, mənim də qışqırmaqdan səsim tutulandan sonra gəlib məni çıxardılar.

Sudan və tərdən islanmış halda özümü bayıra atdım. Pakrəvanla İbrahimpur fürsəti fövtə vermədilər, çimməyə məcbur olduğuma görə altıma bir taburetka qoyub başımı qırxmağa başladılar. Güzgüdə yeni görkəmimə baxdım. Burnum üzümün ortasında bardaş qurmuşdu, "Məhəmmədhüseyn böyüyüb" deyə qışqırırdı. Geyinmək üçün bir dəst bozumtul-yaşıl forma da verdilər. Mənə ən azı üç ölçü böyük idi, əynimdə zar-zar ağlayırdı. Əynimdən düşməsin deyə patron kəmərimi bərk bağladım. Başıma da bir papaq qoydular, gözlərimə qədər endi. Təminat yolunun ortasında dayanıb fotoqrafa və onun fotoaparatına poz verdim. Əlimdəki silaha görə necə kef edirdim!

İndi bu şəklə baxanda məni gülmək tutur. Avtomat özüm boydadır, bir qamış kimi paltarın içinə girmişəm. Şəkillərə baxanda uşaqlar üçün darıxıram, istəyirəm ki, Pakrəvanla İbrahimpur da yanımda olsunlar, albomu birlikdə vərəqləyək və o günləri yada salıb gülək.

Yenə Nəcmi poliklinikasına qayıtmışdım. Gözləyirdim ki, görəsən, hansı cəbhənin bəxti gətirəcək və məni qucağına atacaqlar.

1982-ci ilin yazı idi. Bahar ətri təcili yardım zalının pəncərələrinə qədər gəlirdi. Həyətdəki ağacların təzə yaşıl yarpaqları günorta günəşinin altında ətir saçırdı. Birdən ağlıma gəldi ki, Abbarik cəbhəsinə bayramlaşmağa gedim. Musa Rikabi üçün darıxmışdım. Torpaq yolla getməyə başladım. Poliklinikadan çox uzaqlaşmamış yer titrəməyə başladı. Darıxmaq yadımdan çıxdı və geri qaçdım. İraq müşahidəçisi səhər tezdən bizdən can almağa and içmişdi, əl çəkmirdi. Həmin bir neçə dəqiqədə mənə doğru üç mərmi atdı. İri-xırda qəlpələri yarışırmışlar kimi vıyıldaya-vıyıldaya yanımdan keçirdi. Torpaq və barıt qoxusu gəlirdi.

Yolumun üstündəki imamzadənin[1] içinə atıldım. Əhməd ibn İshaqın kiçik zərihi və kərpic günbəzi mənə sığınacaq oldu. Tövşüyürdüm. Divara söykəndiyim yerdə baxışlarım zərihdə donub qaldı. Dünyanın bütün rahatlığı oraya cəm olmuşdu. Sanki müharibədən kilometrlərlə uzaqdaydı. Dizlərimi qucaqladım. İlk dəfə idi novruz bayramında ailəmdən ayrı düşmüşdüm. Bu axşam bütün qohumlar Hacı Əlimirzənin evinə toplaşacaqdılar. Darıxıb gözlərimi yumdum.

Hacı Əlimirzənin əbası əynimə olsun deyə pəncələrim üzərində yeriyirdim, amma xeyri yox idi, hələ babamın boyuna çatmağıma qalırdı. Həmişə novruz bayramında, bahar girən dəqiqələrdə əbası çiynində olurdu, övladları və nəvələri gələnə qədər səccadə üzərində namaz qılırdı.

Novruz bayramında hər şey fərqli olurdu. Bayram hədiyyəsi olaraq atamdan qədtəzə ikitümənlik alırdım. Anamın gözəlləşmiş üzü və qarmoşka yubkası, Mehri və Nəfisə bacılarımın köynəkləri rəngində olan saçabəndləri, nənəmin ağ yaylığı, Nüsrət xanımın rəngli şüşəyə bənzəyən pulcuq konfetinin dadı, uşaqlara verilən rəngli yumurtalar... Hər il qərara gəlirdim ki, soğan qabığı ilə boyanmış yumurtanı bayramın sonuna qədər saxlayım, amma qarnım yazığa yalnız axşama qədər fürsət verirdi.

Hamı gələndən sonra həyətdə hovuzun yanında şam süfrəsi sərilirdi. Hər kəs bir tərəfə gedir, bir şey gətirirdi; biri həyəti sulayır, biri

---

[1] İmam Cavad (ə), İmam Hadi (ə) və İmam Əsgərinin (ə) səhabəsi olmuş Əhməd ibn İshaq Əşəri Quminin məzarı yerli əhali arasında İmamzadə Əhməd kimi məşhurdur.

döşəyir, biri divarlara bellik düzür, biri rəngli zəfəranlı düyü ilə buluddakı plovun üzərini bəzəyirdi. Hamı iş başındaydı, Nüsrət xanım da nəzarət edirdi. O, hər sözü bir dəfə deyirdi və biz düzgün yerinə yetirməli idik. Bütün iqtidarına və ciddiliyinə baxmayaraq, evin altını üstünə çevirən biz uşaqları hətta bir dəfə də acıladığını xatırlamıram. Süfrələrindən Kirmanşahi yağının ətri və plovun üzərindəki qırmızı parlaq zirinclər hər şeydən yaxşı yadımda qalıb.

Şamdan sonra Nüsrət xanım kişilərin qəlyanını hazırlayırdı. Kömürqızdıranı özü gəzdirirdi. Əlinin dairəvi hərəkəti ilə havaya xırda qırmızı qığılcımlar səpələnir, qırmızı alov dairəsi yaranırdı. Ona tamaşa edir, qəlyan tütününün ətri yayılanda ciyərimə çəkirdim.

Havanı iylədim. Torpaq və barıt iyi gəlirdi; bayram ətri, Nüsrət xanımın ətri, qəlyan tütünü və kömür iyi, Musa Rikabinin səngərindəki lampanın neft iyi, təcili yardım zalının qan və betadin qoxusu – müharibə qoxusu.

Evimizlə bağlı fikir və xəyallar başımdan çıxmırdı, beynimə yapışıb qalmışdı. Çox kövrəlmişdim, heç kimlə danışmağa hövsələm yox idi. Poliklinikanın həyətində gəzişdiyim yerdə çiynimə bir əl toxundu. Geri döndüm. Cəfər arxamda dayanmışdı. Elə bildim ki, yanlış görürəm. Cəbhələrdə bu qədər onu axtarmışdım, indi isə özü gəlmişdi. Bir-birimizi başdan-ayağa süzdük. Hər ikimiz bir neçə ay öncəki yeniyetməni axtarırdıq. Əyninə azı iki ölçü böyük olan paltarlarda daha arıq görünürdü.

Sevindiyimdən gözlərim doldu. Onu qucaqlamaq istədim, amma utandım. O, mənim üçün bir böyük kimi idi; əziz və əlçatmaz. Əlini bir qədər sıxıb saxladım. Onun yanında halım yaxşılaşdı. Cəfərlə özümdən də yaxın dost idim.

Söhbət əsnasında öyrəndim ki, daha çox, Əbuzər qarnizonunda və Purgülüstaninin yanında olur. Mən də eşitdirdim ki, tibbi köməkçi olmuşam. Əslində isə Əbuzər qarnizonunun təbliğat bölməsinə getmək istəyirdim; Cəfərin və oraya toplaşmış digər birlik uşaqlarının - Hüseyn Rüknəddinin, İbrahim Zareyin və Əkbər Şirqulaminin yanına. Fikirləşdim ki, birlikdə necə də xoşbəxtdirlər. Onlara baş çəkmək istəyirdim, amma müharibə idi, qonaqlıq yox; ürəyin istəyən hər yerə gedə bilməzdin.

Cəfərlə poliklinikada gəzmək, dostumu hamıya göstərmək, birlikdə Abbarikə gedib onu Musa Rikabi ilə tanış etmək, gecə birlikdə qarovul səngərində dayanmaq, Kaskəbuda gedib onu tez Pakrəvan və

İbrahimpurla dostlaşdırmaq istəyirdim. Bunların hamısının həsrəti ürəyimdə qaldı. Cəfər tələsirdi; Nafirə kəndinə getməli idi.

Düşmən müşahidəçisinin tərsliyinin hikmətini anladım. O, məni mərmi ilə qovmasaydı, Abbarikə gedəcək və Cəfəri görməyəcəkdim. O qədər darıxdığım bir zamanda Cəfəri görmək mənim üçün ən gözəl bayram görüşü oldu.

Cəbhədə qalmışdım, elə bilirdim ki, təkcə özüm darıxıram. Atamın darıxdığına və nigaran qaldığına görə Əbuzər qarnizonuna gəldiyindən xəbərsiz idim. Hacı Hüseyn Baqirzadəganla[1] birlikdə xalq yardımlarını yükləyib Əbuzər qarnizonuna gətirmişdi. Hacı Hüseyni tanıyırdım, atam Məkkədən gələndə həyətdə qurduğumuz çadırları o tikmişdi. Müharibə başlayandan sonra mağazasının qapısını bağlayıb cəbhəyə yollanmışdı. Bəxtlərindən mən də Noxudi kimi cəbhələri gəzirdim, heç kim harada olduğumu bilmirdi.

Əbuzər qarnizonunda mənim əvəzimə bir pikap dolu kartof və soğan tapmışdılar. Görmüşdülər ki, Allahın neməti günəşin altında tumurcuqlanıb əldən gedir. Heyifləri gəlmişdi. Danışıb razılaşandan sonra kartof və soğanları aparıb Kirmanşah yolunda satmışdılar, pulu da qarnizonda tualet tikmək üçün qum və sement olmuşdu. İndi də bu xatirə yadıma düşəndə gülürəm. O tualet atamın mənim üçün darıxmasının nəticəsidir.

Baharın ikinci və üçüncü günü Hacian boğazı cəbhəsinə göndərildim. Orada hər şey fərqli idi. Güc balansı bizim xeyrimizə dəyişdiyinə görə çox sevinirdim. Biz yuxarıda idik, düşmənsə aşağıda, bizim müşahidə və atəşimiz altında. Ordunun taqımında haraya istəyirdimsə, baş çəkirdim. Yamacda boz örtüyün altında həmişə bir 106 pikapı dayanır, bir neçə gündən bir səssizcə təpənin döşünə qalxırdı. Onun atəşini seyr etməyi çox sevirdim. Özümü tez təpənin başına yetirib kənarda dayanır, qulaqlarımı tutub baxırdım. Sürücü köməkçisi maşından düşüb durbinlə diqqətlə baxırdı, sonra isə: "Taq!"

Əvvəlcə nişanalan silahla atəş açırdı. Vurduğu yerdə toz-torpaq qopurdusa, bu o deməkdi ki, hədəfi düzgün seçib. Dərhal topdan əsas atəşini yerinə yetirirdi. Pikap guruldayır, ağır korpusu tərpənirdi. Hələ atəşinin toz-torpağı yatmamış mövqe Kərbəlaya çevrilirdi; düşmən dəli

---

[1] Şəhid Hacı Hüseyn Baqirzadəgan 1926-cı ildə Qumda doğulmuş, 1986-cı ildə Şələmçədə Kərbəla-5 əməliyyatında şəhadətə qovuşmuşdur.

kimi atəş açırdı. Pikap da bütün bu qiyaməti qoparmayıbmış kimi yamaca enib kamuflyaj altında sakitcə dayanırdı.

O cəbhənin ən təhlükəsiz yerində xudmani bir səngər qazmışdılar: snayper səngəri. Hər gün oraya baş çəkirdim. Bardaş qurub oturur, əlimi çənəmin altına qoyub tamaşa edirdim. Snayper hamını görürdü, onu isə heç kim görmürdü. Onun danışığını sevir, səssizcə izləyib gülürdüm. Ağ-qırmızı üzünü bir tərəfə toplayıb baxır, Simonov silahının arxasından hədəfi ilə danışırdı:

– Gəl, gəl, gəl. Niyə dayandın? Yaxınlaş. Aha, bura yaxşıdır!

Bir anlıq sakit qalır, əli tətik üzərində yavaşca tərpənirdi: "Taq!"

Başını gizlədib oturur, alnındakı tər dənələrini köynəyinin qolu ilə qurudur, mənə göz vurub gülürdü. Bu cəbhədən bütün xatirələrim belə bezdirici atəşlərlə bağlıdır.

Bilmirəm necə oldusa, o cəbhədən Zəhab düzünə düşdüm. Sanki Allah bu düzü mala ilə hamarlamışdı; dübbədüz və daldasız yerdi. Ayağını torpaq sipərin o tərəfinə qoyan kimi hazır idin; dönüş ola bilməzdi. Məncə, buna görə adını Zəhab (ərəbcə: gediş) düzü qoymuşdular!

Düşmən Baziderazın başından bütün düzü görürdü. Oranı qorumaq üçün yalnız bircə yolumuz vardı: pusqu səngəri. Düzün kənarındakı yol düşmən mövqeyinə gedirdi. Altı kiçik beton körpülər və su yolları ilə doluydu. Sanki yol bizimlə İraq mövqelərinin arasındakı körpülərin üstünə minmişdi. Onlardan pusqu səngəri kimi istifadə edirdik.

Bu cəbhənin bütün döyüşçüləri mənim kimi azyaşlı idilər və bütün vaxtlarını beton körpülərin altındakı səngərlərdə keçirirdilər. Mən də hər gün birinin yanında olurdum. Yeməklərimizi geridən qatırlara yükləyib göndərirdilər. Dilsiz heyvan yolu tanıyır, vaxtında çatıb hamımızı sevindirirdi. Səngərimizdə iki nəfərin oturması qədər yer vardı. Hələ tualetimiz də o birqarışlıq yerdə idi: konserv qutusu. Dolanda bayıra boşaldırdıq.

Körpünün altında həyat davam edirdi; deyib-gülür, namaz qılır, xörək yeyirdik. Möhsün Hacıbabanın adını bu uşaqlardan çox eşidirdim. Musa kimi hamı ondan hörmət və sevgi ilə danışırdı. Əxlaq və xarakterlərini o qədər tərifləyirdilər ki, onu yaxından görmək istəyirdim. O, mən gəlməzdən öncə səngərlərə baş çəkib getmişdi. Uşaqların isti və ağır körpülərin altındakı vəziyyəti onu narahat edirmiş. Uşaqlar bunu söyləyəndə atamın sevgi və qayğıları yadıma

düşürdü. Heyifsilənirdim ki, kaş Zəhab düzünə tez gəlib Möhsünü görəydim.

Nə qədər ki günəş göydə idi, körpünün altından çıxmaq dünyadan çıxmaq demək idi. Şəxsi heyət sübh azanından qabaq özünü körpüyə yetirir, axşama qədər orada qalırdı.

Düzün qızmar günəşi körpünün altını təndir kimi qızdırırdı. Tər şəlalə kimi sinənə qədər axırdı. Sanki ayaqlarımızın altında ocaq yanırdı. Bu düzdəki günəşin hərarəti Qum günəşinin üzünü ağartmışdı. Nə qədər gücü vardısa, pusqu səngərlərinə tökürdü. Bu səngərlər olmasaydı, düşmən mövqeyə yaxınlaşardı. Sərpol Zəhaba və Əbuzər qarnizonuna qədər yolu açıq idi. Əbuzərin süqutu isə Sərpol Zəhab cəbhəsinin arxa hissəsinin süqutu demək idi. O balaca səngərlər və onların balaca döyüşçüləri İraqın ehtimali diversiya hücumu qarşısında böyük maneə idi.

Şirudi[1] helikopteri ilə düşmənin ayağını Zəhab düzündən kəsmişdi. Onun yorulmaz müqavimət dastanını sanki səngərlərin divarlarına yazmışdılar; bütün uşaqların dilinin əzbəri olmuşdu. Elə buna görə inanırdıq ki, bir nəfər helikopterlə düşməni mövqe arxasında saxlaya bilirsə, üç-dörd bəsici uşaq da bu körpülərin arxasında saxlaya bilər.

1982-ci ilin iyununda qayalıqda yerləşən 1100 saylı cəbhəyə göndərildim. Beytülmüqəddəs əməliyyatı[2] yeni qələbə çalmışdı. "Xürrəmşəhr azad oldu, imamın ürəyi sevindi" - bu şüarı hər yerə yazmışdılar. Bir-birimizlə üz-üzə gələndə qələbə rəmzi olaraq iki barmağımızı qaldırırdıq. Hamı sevinirdi.

Cəbhədə hər gün mərmi fiti ilə oyanmağa alışmışdıq. Düşmən pulemyotu səhər erkəndən axşama qədər atəş açırdı. Həmin günsə nə qədər gözlədiksə, xəbər çıxmadı; nə atəş, nə fit səsi, nə də gumbultu. Gözlərimiz göyə dikilib qalmışdı, amma bircə güllə də atılmırdı.

---

[1] Şəhid pilot general Əliəkbər Qurban Şirudi 1956-cı ildə Tonikabunda doğulmuş, 1981-ci ildə Zəhab düzündə şəhadətə qovuşmuşdur. O, Bazideraz əməliyyatında tabeliyində olan qüvvələrlə birlikdə helikopterlərlə düşmən mövqelərini cəhənnəmə çevirmişdilər. İmam Xomeyni onun şəhadətindən sonra buyurmuşdu: "O, bağışlanmışdır".

[2] Beytülmüqəddəs əməliyyatı 1982-ci ildə Karun və Kərxəkur istiqamətində həyata keçirilmişdir. Bu əməliyyatda qüvvələrimiz Əhvaz-Xürrəmşəhr magistralına qədər irəlilədilər, Xuzistanın qızmar havasında iyirmi üç gün vuruşandan sonra Xürrəmşəhr darvazasından keçdilər. Şəhər azad ediləndə düşmənin on beş mindən artıq döyüşçüsü əsir tutuldu. (Hekayəçi)

Fikirləşdik ki, yəqin, bizə qarşı yeni planları var. Xürrəmşəhr azad edildiyinə görə bütün Sərpol Zəhab cəbhəsindən geri çəkiləcəkləri ağlımıza da gəlməzdi.

Mövqeyin o tərəfinə baş çəkmiş uşaqlar oradakı sakitlikdən və laldinməzlikdən bizə həvəslə danışırdılar; qoyub getdikləri silah və texnikalardan, boş qalmış beton səngərlərdən. Oranı saxlamaq üçün bir il yarım tər tökmüşdülər, indi isə gecə ikən Allahın ümidinə buraxıb getmişdilər. Yalnız Qəsri-Şirindəki sərhəd təpələri işğalda qalmışdı. Düşmən yenidən sürət götürüb irəliləmək üçün öz yuvasına çəkilmiş, canlı qüvvəsini İranın hücum edəcəyinə daha çox ehtimal verdiyi yerə, yəni cənub cəbhəsinə aparmışdı.

Xürrəmşəhrin azadlığı və düşmənin qulağımızın dibindən geri çəkilməsi bizi çox sevindirdi. Bilmirdik ki, Xürrəmşəhrə görə sevinək, yoxsa boşalmış qərb cəbhəsinə görə. Dağ-təpələrdə yaşamağın yorğunluğu bir gecəyə bədənimizdən çıxdı. Uşaqların ikisi düşmən qüvvələrinin haraya qədər geri çəkildiyinə baxmaq üçün yüksəkliyə qalxdı. Onlar gedirdilər, biz də oturub tamaşa edirdik. Aşağıdan iki kiçik nöqtə kimi görünürdülər. Onlarla getməyi, dağların o tərəfində nə olduğunu görməyi çox istəyirdim. Lakin birdən partlayış səsinə hamı yerindən qalxdı.

Yarım saatdan sonra həmin iki nəfər qayıtdı. Biri o birinin boynundan asılıb sürünə-sürünə gəlirdi, rəngi solmuşdu. O, salxım minasına düşmüşdü. Çiynimdə təcili yardım çantası yarasını bağlamağa qaçdım. Topuğu vətərdən sallanırdı. İlk dəfə idi kəsilmiş ayaq görürdüm. Çəhrayı ətinə baxmamağa çalışdım. Burnuma qan və yanmış ət qoxusu dolurdu. Qanaxma dayansın deyə topuğun yuxarı hissəsini turna[1] ilə sıxdım. Yaranın üstünə bir neçə sterilizə olunmuş bint qoyub sarıdım. Qan dərhal bintin üstünü örtdü. Onu geriyə aparmaq üçün tez təcili yardım maşınına mindirdik. Bir il öncə azad olunmuş bu təpələrdə Bazideraz əməliyyatı baş tutmuşdu. Minalar həmin əməliyyatın yadigarı idi.

"Yeddi gün çox ağır əməliyyatdan sonra təyin olunmuş hədəflər ələ keçirilsə də, düşmənin ardıcıl əks-hücumlarına görə 1150 saylı təpə

---

[1] Yumşaq plastik materialdan nazik şlanq

yenə düşmən tərəfindən zəbt edildi. Quru Qoşunların pilotu Əliəkbər Şirudi bu əməliyyatda şəhadətə qovuşdu".[1]

İndi, bir ildən sonra İraq tərəfinin nəyi vardısa, bu təpələrin üstündə qoyub getmişdi. 1982-ci ilin iyununda uşaqlar təpələrin başına çıxıb Bazideraz əməliyyatından qalmış şəhid cəsədlərini gətirirdilər. Bir il öncə bu qayalara çətin və ağır imkanlarla qalxmışdılar, indi isə onları asanlıqla geri qaytarırdılar. Boy-buxunları məndən də balacaydı. Nə ağır idilər, nə də çanta və silahları vardı. Kəlləni və bir neçə sümüyü boğça kimi şala büküb gətirirdilər. O yüngül və tozlu sümüklər itkinləri tapmaqla bağlı ilk təcrübəm idi.

Yenə Nəcmi poliklinikasına qonaq oldum. Get-gedə cəbhələri gəzməkdən xoşum gəlirdi. Hər yerə getmək istəyirdim. Beləliklə həm bölgəni yaxşı tanıyırdım, həm də Cəfəri görməyə ümidlənirdim.

İyun ayının isti küləyi yarpaqları yelləditdi. Çantamı qoltuğuma vurub poliklinikanın həyətində gəzişir, məni aparacaq təcili yardım maşınını gözləyirdim. Hansı cəbhəyə göndərildiyim yadımda deyil. Birdən hər şey alt-üst oldu. Təcili yardım maşını gəldi, amma mənim gözlədiyim yox, özü ilə matəm gətirmiş maşın. Hamı ona doğru qaçdı. Arxasındakı qan torbasına heyrətlə baxır, çiyinlərini sallayaraq kənara çəkilir, oturub dizlərini qucaqlayırdılar. Sanki çiyinlərinə ağır və acı bir həqiqət çökürdü.

Yaxınlaşdım. Torbanın dibi qırmızıya çalırdı, altından açıq rəngli irin axırdı. Çox qorxdum, boğazımı qəhər tutdu. O vaxta qədər Sərpol Zəhab cəbhəsinin komandiri Möhsün Hacıbabanın yalnız adını eşitmişdim, indi isə yaxından görürdüm. Mən də daxil olmaqla, o torbada Hacıbabanın bədəninin parçalarını görən hər kəs ağlayırdı. Əllərimi üzümə qoyub çəkinmədən bərkdən ağlamağa başladım. Hər yerdən ağlamaq səsi gəlirdi. Maşınını topla vurmuşdular. İki nəfərlə birlikdə yanmışdı. Dostlarından birinin dediyinə görə, elə şəhid olmaq istəyirmiş ki, bədənini toplamaq mümkün olmasın. Arzusuna çatmışdı; onu toplaya bilmirdilər, bədəninin çox hissəsi ərimişdi, qalanını da torbaya tökmüşdülər. Bədəninin bir parçası şəhid olduğu yerdə qaldı. Buna görə indi onun iki məzarı var: biri Tehranda, biri də həmin bir parçanın dəfn olunduğu şəhadət yerində.

---

[1] Unudulmaz döyüşlər atlası, Səkkizillik müqəddəs müdafiə zamanı ordunun Quru Qoşunlarının əməliyyatları, Müctəba Cəfəri, s. 48.

Bütün müharibə komandirləri kimi, Hacıbaba da gedişi ilə hamını matəmə qərq etdi. O, şəxsi heyətinin bütün dünyası idi, indi isə onları tək qoyub getmişdi. Sonralar eşitdim ki, Kumeyl və Nüdbə dualarını əzbər bilir, daim oxuyurmuş. Komandir idi, amma heç kim onun pikapın salonunda oturduğunu görməmişdi. Pikapın arxasına bir qədər polistrol köpük sərmişdi. Bir yerə getmək istəyəndə, maşını özü sürmürdüsə, qaçıb onun üstündə bardaş qururdu. Heç kim də öndə otursun deyə israr etmirdi; çünki oturmayacağını bilirdilər.[1]

Onun şəhid olduğu gün çox ağladım. Gecə başağrısı və şişmiş gözlərlə yerimə uzandım. Yata bilmirdim. Torbanın altından təcili yardım zalının önünə qədər yol salmış irinli qan gözlərim önündən getmirdi. Möhsün Hacıbabanı heç vaxt görməmişdim, amma barəsində danışanların onu nə qədər sevdiklərini bilirdim. Sanki bu cəbhəni o qoruyurdu. Uşaqlar ona güvənirdilər. Barəsində deyilənləri eşidəndə həmişə fikirləşirdim ki, onun bu cəbhədə olması necə də yaxşı haldır. İndi isə yox idi və bu fikirlə təkrar-təkrar kövrəlirdim.

Həmin gecə hər şey mənim üçün mənalandı: gəldiyim yer, gördüyüm uşaqlar, Musa Rikabinin çiyinlərinin səcdədə titrəməsi, Zəhab düzü qüvvələrinin körpülərin altındakı qəribliyi. İlk dəfə idi kiminsə şəhid olduğunu görürdüm; tanıdığım birinin. Bu müddətdə yaralı çox görmüşdüm, şəhidsə görməmişdim. Fikirləşirdim ki, görəsən, ağa Möhsün indi haradadır? Əgər şəhadət şahid olmaq deməkdirsə, indi harada dayanıb bizə baxır? Baziderazın başında, Zəhab düzünün ortasında, Əlvənd körpüsünün üstündə, yoxsa burada, poliklinikanın həyətində? Yenə kövrəldim. Nə qədər fikirləşirdimsə, daha çox darıxırdım; Möhsün, Musa Rikabi, Cəfər, birliyin uşaqları və ev üçün. Ürəyimlə bacara bilmirdim. Müharibənin mənasını yeni öyrənmişdim: hamını itirib tək qalmaq.

---

[1] Şəhadətinin şahidlərindən olmuş Hüseynabadi deyir: "Şəhid olduğu gün günorta yeməyini Dalahu təpəsindəki səngərimizdə yedi. Zəhab düzünün pusqu səngərində olan uşaqları görməyə gedəcəkdi. Ricab təpəsindən Zəhab düzünə enməli idi. Nahar vaxtı deyirdi: "Bir ətrim vardı, ona çox bağlanmışdım, deyirdim ki, özüm istifadə edəcəm. Bir neçə gün qabaq namaz vaxtı hamıya o ətirdən vurdum, boş şüşəni də tulladım". Nahardan sonra iki nəfərlə yola düşdü. Səngərin içindən Bəmu təpəsinin yamacına qədər maşınlarını görürdüm. Qari təpəsinin arxasına keçəndə isə partlayış səsi gəldi və qara tüstü qalxdı. Maşın günorta saat 2-dən günbatan çağına qədər yandı. Düşmənin müşahidəsi altında olduğuna görə heç kim ona yaxınlaşa bilmədi. (Hekayəçi)

# Dördüncü fəsil

## *Xaki geyimlilər*

“Biz son damla qanımıza qədər onlarla sərt vuruşacağıq. Çünki biz döyüş adamlarıyıq. Biz inqilabımızı bütün dünyaya ixrac edəcəyik. Çünki o, İslam inqilabıdır. “La ilahə illəllah və Muhəmmədun rəsulullah” fəryadı bütün dünyaya səs salmayınca mübarizə var və nə qədər ki dünyanın hər hansı yerində hegemon güclərə qarşı mübarizə var, biz də varıq!”

İmam Xomeyni, Nur səhifəsi, c. 12, s. 147

1982-ci ilin yayı idi. Qapını anam açdı. Məni görən kimi mehriban üzünə təbəssüm qondu, gözləri işıldadı. Ağlamasını gözləmədən qolumu boynuna saldım. Bilmədim ki, mən böyümüşəm, yoxsa o arıqlayıb. Başımı çiyninə qoyub dərin nəfəs aldım. Mehribanlıq ətri gəlirdi. Onun üçün necə də darıxmışdım!

Televizorun önündə uzandım. Hamamda bədənimi o qədər sürtmüşdüm ki, burnumun ucu parıldayırdı.

– Ölərəm səninçün; bir dəri, bir sümük qalıb! – nənə hər dəfə başım üstdən keçəndə deyir, mənsə həmişəki kimi ərköyünləşmək yerinə utanırdım.

Fisincan ətri evi bürümüşdü. Onun bişməsini səbirsizliklə gözləyirdim. Mehri və Nəfisə bacılarım ətrafımda fırlanırdılar. Onlara düşmənlərdən geniş şəkildə danışırdım. Dörd ay idi yolda azacağımdan qorxub evə gəlmirdim, indi isə hər şeyi elə danışırdım ki, sanki

cəbhəni mən idarə edirəm. Telefon dayanmadan zəng çalır, qohumlar anama gözaydınlığı verirdilər.

Şam azanının səsinə oyandım. Məscidin namazları üçün çox darıxmışdım. Fikirləşdim ki, yəqin, Cəfər də qayıdıb. İraq tərəfi qərb cəbhəsindən geri çəkildiyinə görə daha orada işimiz yox idi.

Məsciddə Cəfərdən başqa hamı vardı. Nə qədər soruşurdumsa, başım daha da ağırlaşır, şəbistan ətrafımda fırlanırdı. Düşündüm ki, niyə Cəfərin yaralandığını cəbhədə eşitməmişəm. Həmin gecə fikirdən yata bilmədim, səhərədək oyan-buyana çevrildim. Cəfərin yadımda qalan son görüntüsü poliklinikadakı axırıncı baxışı idi.

Sübh tezdən Tehranın Loğman xəstəxanasına getdim. Cəfər üz-başı sarıqlı halda çarpayıda uzanmışdı. Ağ mələfənin altında bədən qalmamışdı. Soyuq və cansız əlini tutdum. Qəm-kədər barmaqlarımın ucundan ürəyimə qədər yayıldı. Mənə necə də əziz idi! Qəzanın baş verdiyi axşam haqda düşünəndə çox həyəcanlanırdım.

Purgülüstani ilə birlikdə motosikletlə Əbuzər qarnizonundan Zəhab düzünə gedirmişlər. Qarşıdan da bir böyük yük maşını gəlirmiş. Hər ikisi işıqlarını söndürdüyünə görə bir-birini görməyiblər. Purgülüstaninin başı yük maşınına dəyib parçalanmışdı, Cəfərin üzü də onun parçalanmış başına dəymişdi. Purgülüstani bir tərəfə düşmüşdü, motosiklet bir tərəfə, Cəfər də hamısından uzağa. Şəhid Purgülüstaninin bədənini gecə ikən geriyə göndəriblər, qaranlıqda Cəfəri görməyiblər. O da səhərə qədər qan içində çapalayıb. Səhər çağı motosikleti aparmağa gələndə Cəfəri çənəsi sınmış və burnu əzilmiş halda tapıblar.

Burnunu bərpa etmək üçün çanağından sümük götürübmüşlər. Dişlərini simlə bir-birinə birləşdirmişdilər. Başqa planetdən gələnlər kimi gicgahları tərəfdən, qaşlarının yanından iki mil qalxırdı. Millər uzaqdan car çəkirdi ki, Cəfərin çox ağrısı var, çox!

Cəfərin vəziyyətini görəndə məzuniyyət burnumdan gəldi. O, xəstəxanadan çıxmadan mən qərb cəbhəsinə qayıtdım. Cəbhəyə gedib-gəlməyin qayda-qanunu vardı, xüsusi vərəqə almalıydım.

Bu bir həftədə hər şey dəyişmişdi; nə mərmi fiti vardı, nə işıqlarını söndürmüş təcili yardım maşını gəlirdi, nə də poliklinika yaralı ilə dolu olurdu. Müharibədən yorulmuş və yaralanmış bir istiqamət sükuta qərq olmuşdu.

Nəcmi poliklinikasında mənə bir vərəqə verib Baxtəran xəstəxanasına göndərdilər. Bir vaxtlar həmin xəstəxanada bir gecə

qalmışdım, səhər çağı Sərpol Zəhaba ezam vərəqimi vermişdilər. Cəbhənin bütün bürokratik əngəllərindən yalnız bu, yadımda qalıb.

Baxtəran xəstəxanasına getdim, orada mənə Qum korpusuna ünvanlanmış bir məktub verdilər. Bu məktub məni stajlı etdi; artıq cəbhə stajım vardı.

Öz evimizdən çox Ayətullah Miyanəcigildə olurdum. Axşam hacı ağa gələndə söhbətə başlayırdım. Qarşısında bardaş qurub otururdum. Yazıq şam yeməyini mənim söhbətlərim altında yeyirdi. Dayanmadan danışırdım, o da qulaq asırdı; səbirlə və mehriban şəkildə. Bəzən də ürək ağrısını zarafatla qarışdırıb deyirdi:

– Bizim göyçək bir uşağımız vardı, o da darmadağın oldu.

Doğru deyirdi, Cəfər darmadağın olmuşdu. Ağzı altı ay bağlı qaldı. Yalnız maye qəbul edirdi. Sözü dişlərinin arasından güc-bəla ilə çıxarırdı. Həkim başından qalxan milləri hər ay bururdu ki, çənələri bir-birinə yaxşı qıfıllansın.

Çanaq sümüyü burnuna uyğun gəlməyib əridi. Burnu əzildiyinə, alnı batdığına və yanaqları şişdiyinə görə başqa bir adam olmuşdu. Hər axşam sağollaşıb gedəndə hacı xanım tapşırırdı ki, yenə gəlim. Oğlunun evin bir tərəfində sakit və tək qalmasını istəmirdi. Mən də məmnuniyyətlə hər gün səhər çağı bir qucaq qəzetlə onlara gedirdim. Çatar-çatmaz taxçadakı radionu işə salırdım. Ramazan əməliyyatının[1] marşı hər ikimizi sevindirirdi. Yeni xəbər ümidi ilə radioya qulaq asır, qəzetlərin üstündə çadır qururduq. Kiçik qonaq otaqları müharibə otağına çevrilmişdi.

Ramazan əməliyyatı Xürrəmşəhrin azadlığından sonra Bəsrəni ələ keçirmək niyyəti ilə baş tutmuşdu. İraq tərəfi İran torpaqlarındakı mövqelərini əldən vermişdi, indi nəyin bahasına olursa-olsun öz torpaqlarını qorumalı idi.

“Bu əməliyyatda ən önəmli süni maneə üçbucaq şəkilli torpaq sipərlər idi. Onların mürəkkəbliyi döyüşçüləri çaş-baş salırdı. Ramazan əməliyyatında cənubun avqust ayında pik həddə çatan yandırıcı istisi döyüşçülərimizin tam uğuruna hər bir amildən çox mane oldu".[2]

---

[1] Ramazan əməliyyatı 1982-ci ildə cənub cəbhəsinin üç istiqamətində başlandı. Cənub və şimal istiqamətlərində çoxlu maneələrə və düşmən su buraxdığına görə irəliləmə baş tutmadı. Orta istiqamətdə isə döyüşçülər müharibənin ən uzun irəliləmələrindən birinə imza atdılar. Hərçənd, düşmənin güclü atəşinə görə geri çəkilməyə məcbur oldular. (Hekayəçi)

[2] İran və İraq müharibəsinin təhlili, Hüseyn Ərdistani, c. 3, s. 34.

Müharibə qurtarandan sonra çoxlu əməliyyatlarda iştirak etmədiyinə görə heyifsilənirdim, amma Ramazan əməliyyatında iştirak etməməyin həsrəti ürəyimə dağ çəkirdi. Səhərdən axşama qədər Cəfərlə birlikdə oturub oxuyur, hirslənirdik. Düşmənin kölgəsi iki ilə yaxın mal və namusumuz üzərində oldu, Birləşmiş Millətlər Təşkilatı tamaşa etdi. Xürrəmşəhr azad ediləndən və üstünlük bizim tərəfimizə keçəndən sonra isə oyandı, qətnamə qəbul edərək israrla atəşkəsə əməl olunmasını tələb etməyə başladı. Həyasızcasına gözləyirdilər ki, sərhədə çatdığımız yerdə bəasçiləri yola salıb lal-dinməz evlərimizə qayıdaq; təcavüzkar təyin edilmədən.

1982-ci ilin avqustunda ramazançılar gəldilər; ya özləri, ya da xəbərləri. Əməliyyatda Əli Salehinin ayağına güllə dəymişdi. O, hər gün çəliklə məscidə gəlirdi. Onu hər dəfə görəndə ürəyimə qəm-qüssə çökürdü. İslam birliyində işləməyə heç kimdə hövsələ qalmamışdı. Ramazan əməliyyatı dilimin əzbəri olmuşdu. Onun barəsində nə qədər danışırdıqsa, rahatlaşa bilmirdik. Ürəyimiz yanırdı.

Xürrəmşəhrin azadlığından sonra iki vur ikimizin dörd olmaması bir yana, uşaqların bir qisminin ağır və məzlumcasına şəhadəti də bir yana. Əcəlləri istidən gəlmişdi, güllə və qəlpədən yox. Ramazan şəhidlərinin susuzluğu bizi çox üzürdü. Əgər Cəfərə görə Qumda qalmasaydım, gecə ikən cəbhəyə qayıdardım. Gedib bəasçi düşməni məhv etmək istəyirdim.

Şəhidlər bir-bir gəlir, dərdimizi təzələyirdi. Gözlərimiz yolda qaldı, amma Əbülhəsən Əllami[1] gəlmədi ki, gəlmədi. O və Möhsün Salami[2] məscidimizin ilk şəhidləri idilər. Möhsün bizim qonşumuz idi, İslam İnqilabının qələbəsi elan olunanda qonşular onlara toplaşmışdılar; yalnız onlarda televizor vardı. Anası Səkinə xanım çadrasını dişi ilə tutub tez-tez stəkanlara şərbət doldurur, gələnlərə paylamaq üçün Möhsünə verirdi. İndi yenə evləri adamla dolmuşdu, amma şərbət paylayan yox idi. Arıq üzü, uşaqlığında olduğu kimi, taxçanın üstündəki çərçivədən gülürdü.

Bir ayağımız Səkinə xanımın evində idi, bir ayağımız Əllaminin. Çox vaxt küçədə Əbülhəsənin şəhadət xonçasının yanında olurdum.

---

[1] Əbülhəsən Əllami 1963-cü ildə Qumda dünyaya gəlmiş, 1982-ci ildə Ramazan əməliyyatında şəhadətə qovuşmuşdur. Bu şəhidin cəsədi şəhadətindən on il sonra ölkəyə gəldi.

[2] Şəhid Möhsün Salami 1961-ci ildə Qumda doğulmuş, 1982-ci ildə Ramazan əməliyyatında itkin düşmüşdür.

Anasının ah-nalələrinə qulaq asmaq hər adamın işi deyildi. Cəfər də evdə qala bilməyib ehtiyatla Əbülhəsəngilə gəldi. Mən qorxurdum ki, üzünə bir şey dəyər və ağrıdar. Əbülhəsənin böyük qardaşı Əbülfəz[1] qapıda dayanıb gələnləri qarşılayırdı. Hər dəfə onu görəndə ramazan ayındakı Quran dərsləri yadıma düşürdü.

Bütün ramazan ayında Quran dərsi növbəsinin bizim evimizə çatmasını səbirsizliklə gözləyirdim. Taxta rəhllər bütün divar boyu düzülürdü. Onların taqqıltılarını sevirdim. Əbülfəz Əllami həmişə yuxarı başdakı rəhlin arxasında otururdu, Əbülhəsən də qardaşının düz yanında. Onun yanından tərpənmirdi. Başını aşağı salırdı, yalnız bitişik qaşları görünürdü; taxçanın üstündəki mərhum atalarının şəkildə görünən qaşları kimi. Onun şəklini hər dəfə görəndə fikirləşirdim ki, qaşqabağı ilə gülüşü bir-birinə qarışıb.

Hərə bir səhifə Quran oxuyurdu, Əbülfəz də səbirlə, mehriban şəkildə səhvlərimizi düzəldirdi. Axırda növbə Əbülhəsənə çatanda yanaqları qızarırdı, səsi güclə boğazının dibindən çıxırdı; utana-utana, amma səhvsiz oxuyurdu.

İndi Əbülfəz evlərinin önündə dayanmışdı, Əbülhəsən isə yanında deyildi. Sanki nə isə əskikdi. Başını aşağı salmışdı, yalnız bitişik qaşlarını görürdüm. Anasının hər ah-naləsi gələndə çiyinləri daha çox sallanırdı.

1982-ci ilin sentyabrında guya dərs oxuyum deyə Qumda qalmışdım, lakin görmədiyim yeganə iş dərs oxumaq idi. Korpusun kəşfiyyatı ilə lisey arasında əlaqələndirici idim. Hər gün dərsdən sonra xiyabanlarda qaçdı-tutduya başlayırdım. O qədər siçan-pişik oyunu çıxarırdım ki, az qala canımdan olacaqdım.

Kişinin bel tapançasını görəndə qorxudan bütün bədənim qızışdı. Gənc bir qadınla Səfaiyyə xiyabanının sonuna qədər piyada getdilər. Qadın üzünü tam örtmüşdü, görə bilmirdim. Üçsantimetrlik kərpic evə çatanda kişi yumurta qutusunu pilləkənə qoydu, sağ-soluna baxıb açarı cibindən çıxardı. Mən ağacın arxasında gizlənmişdim. Qapının bağlanmaq səsi gələndən sonra yenə boylandım. Divara dırmaşıb həyətə göz qoymaq istəyirdim, amma qorxdum. Korpusun kəşfiyyat rəisi Xodadi və Əli Salehi xəbərdarlıq etmişdilər ki, təhlükəyə atılmağa və şübhəli adamlara yaxınlaşmağa icazən yoxdur.

---

[1] Beynəlxalq Quran müəllimi və hakimi qiraətçi ustad Əbülfəz Əllami 1958-ci ildə Qumda doğulmuş, 2016-cı ildə dünyasını dəyişmişdir.

Birnəfəsə liseyə qədər qaçdım. Həyətdəki anbarın siyirməsinə çatana qədər hər şeyi bir neçə dəfə beynimdən keçirdim. Qırmızı məruzə qovluğunu açdım və xüsusi qələmlə yazmağa başladım:

"Obyekt 1: ucaboy kişi, gənc, saqqaldan sıx bığ, qara şalvar, silahlı

Obyekt 2: gənc qadın, çadralı

Mövqe: Həyət evi, üçsantimetrlik kərpic, Səfaiyyə"

Qurusun deyə vərəqi havada yellədim. Qələmimə limon suyu tökmüşdüm ki, vərəqə yazılanlar yalnız hərarət verəndə oxunsun.

Hər axşam polisçilik məruzəmi məsciddə Əli Salehiyə verirdim. Məni korpusun kəşfiyyatına o gətirmişdi, özümə də yaxşı baxırdı. O zaman xalq fədailəri məktəb və universitetlərdə adam toplayırdılar. Adamın ayağı onların komanda evlərinə dəyəndən sonra isə daha geriyə yolu olmurdu. Məktəb uşaqları onların sözlərinə hamıdan çox aldanırdılar. Hər biri bir liseyə bəs edirdi. Haraya dən səpib tor atmalı olduqlarını bilirdilər. Camaatın uşaqlarının taleyini məhv edirdilər. Azdanışan və səs-küysüz uşaqları nəzarət altında saxlayırdım. Kim gözümə şübhəli dəyirdisə, ona blank hazırlayırdım, vaxtında məruzə yazım deyə şəxsi məlumatlarını vərəqə qeyd edirdim. O qədər gedib-gəldim və sonuncu sinif uşaqlarından birini o qədər təqib etdim ki, axırda həmin üçsantimetrlik kərpic evə çatdım. Korpus uşaqları gecə ikən evə basqın etdilər.

Döyüşçü olmadığımız zamanlarda İslam birliyinə görə özümüzü məscidin sahibi bilirdik. İndi isə artıq cəbhəyə də ayağımız açılmışdı və çox böyüdüyümüzü düşünürdük. Birdən beynimizə gəldi ki, məscidin xadimləri olaq. Mənim cəbhəyə getməməyimin və Cəfərin evdə oturmasının acı nəticəsi məscidə qismət oldu. İstəyirdik ki, məscid bizim əlimizdə olsun və kadr yetişdirək. Bir adam da yox idi desin ki, əvvəl özünüz kadr olun, sonra kadr yetişdirməyə başlayın. O qədər gedib-gəldik, olmayan saqqalımıza and içdik ki, axırda icma sözümüzlə razılaşdı.

İbrahim Zare ilə Əkbər Şirqulami də bizə qoşuldu. Cəfərin qulaqlarının üstündən iki metal buynuz çıxmışdı. İbrahimin də bir toxunma papağı vardı, sanki başına yapışmışdı. Mən də uzun boyum, böyük burnum və təzə göyərmiş bığımla hamıdan maraqlı görünürdüm. Görkəmdən hər adama oxşayırdıq, məscid xadimindən başqa. Yalnız Əkbərin görkəmi saqqalına və heybətinə görə çaşdırıcı idi, o da dəcəllikdə bizi tozda qoyurdu. O günə qədər gecələr yatmağa evə gedirdik, məscidin xadimi olandan sonra isə o da ləğv olundu.

İşimizin birinci günündə Cəfər, İbrahim və Əkbər məni həyətdəki dəstəmazxanada kranların altına uzadıb suyu açdılar. O qədər çapalayıb təpik atdım ki, az qala dəstəmazxana yerindən qopacaqdı. Bununla da zarafatlar başlandı. Mən də əvəz çıxmaq üçün onlar tualetə girəndə suyu açıb şlanqı qapının üstündən başlarına tuturdum.

Sübh azanını səsucaldandan səsləndirmək mənim vəzifəm idi, günorta Cəfərin, axşam da İbrahimin. Əkbər usta sayılırdı, bizim uçurduqlarımızı düzəldirdi.

Bir dəfə gecənin yarısı saatın zəngi çaldı və mən sübh azanı vermək üçün oyandım. Radionun kanallarını nə qədər dəyişirdimsə, azan öncəsi Quran oxumaq yerinə xışıldayırdı. Gözlərim yumulurdu, radionun yanında oturub mürgüləyirdim. Başım boynum üzərində qalmırdı. Yuxudan diksinib bir neçə dəqiqə kanal axtardım və yuxu yenə gözlərimə qalib gəldi. Bir saat yata-dura radionun xışıltısı ilə məşğul oldum.

Uşaqlar şəbistanda yatmışdılar. Əgər yuxuya qalsaydım, mənim yerimə onları namaza gələn camaat oyadacaqdı. Çətinliklə gözlərimi aralı saxlayıb kanalları axtardığım yerdə Cəfər çiynimdən vurdu. Gülüşündən bildim ki, tora düşmüşəm. İbrahim zəngli saatı bir saat önə çəkibmiş. Heyif ki, yuxum gəlirdi, hirsimdən bir dolça suyu başına boşaltmaq istəyirdim.

Bu zarafatlarımızın birində şüşəni sındırdıq, bütün şəbistanı cınqıltı bürüdü. Mat-məəttəl qaldıq. Şüşəyə hansımızın dəydiyini bilmirdik. Gülüş dodaqlarımızda qurudu, zarafatlarımıza sükut çökdü. Xalça şüşə qırıqları ilə dolmuşdu. Qaçıb süpürgə və xəkəndaz gətirdim. Əkbərlə İbrahim iri parçaları götürdülər. Cəfər şüşə qırıqları tökülsün deyə xalçanın kənarlarını silkələdi. Korladığımız işi düzəltməli idik.

Şüşə sınandan sonra ağıllaşdıq; sakitcə gəlir, sakitcə də gedirdik. Bir-birimizin boynuna çıxmaq yerinə axşamlar qapını kilidləyib evlərimizə qayıdırdıq. Bizim evimiz məscidə hamıdan yaxın idi. Sübh namazından öncə birinci mən gedirdim. Bir dəfə içəri girəndə hiss etdim ki, ayağımın altı boşdur. Əmin olmaq üçün gözlərimi ovdum. Düz görürdüm. Qapının önündəki qırmızı xalça yox idi. Döşəmənin soyuq tozlu plitələri ayağımı qıdıqlayırdı. Əvvəl elə bildim ki, bizdən birinin işidir, zarafata götürüb. Lakin mənim kimi digər uşaqlar da təəccübləndilər. Xalça şüşə deyildi ki, dəyişək, heç kim də bilməsin. O itəndən sonra məcbur qalıb xadimliyi öz adamlarına tapşırdıq və dərslərimizlə məşğul olmağa getdik.

Məsciddən çıxarılar-çıxarılmaz Feyziyyə mədrəsəsinə gedib çıxdıq. Birinci gün görməmişlər kimi oyan-buyana baxırdım. Cəfərlə Əkbər Feyziyyədə olmuşdular, mənsə yox. Qısa taxta qapıları olan tələbə hücrələrinə boylanmağı sevirdim. Giriş qapısının üstündəki kaşılar mənim üçün bir bağ kimi idi; tamaşasından doymadığım güllü-çiçəkli və firuzəyi sulu bağ. O günlər barədə düşünəndə görürəm ki, Feyziyyə mədrəsəsi mənim üçün feyzlə dolu idi. Ayətullah Ərakinin[1] arxasında namaz qılmaq, təqvalı insanlarla həmsöhbət olmaq, sonrakı illərdə hövzə tələbəsi olmaq və inqilabçı qalmaq feyzi.

Feyziyyəyə ayağımı Əkbərin bacısının həyat yoldaşı Hacı Haşimzadə açdı. Kim salamımızı alırdısa, bir də baxırdı ki, evindəyik. Əxlaq dərsində iştirak etmək bəhanəsi ilə şam namazından sonra evlərində lövbər salırdıq. Əkbərin bacısı qazanı ona verirdi, payımızı götürüb dərs başlayana qədər məşğul olurduq. Hacı ağa bizə göz qoyur, dəcəlliklərimizi idarə edirdi. Onun Şiraz ləhcəsini sevirdim; sözləri uzada-uzada tələffüz edirdi. Bizə "Bihar əl-ənvar" kitabının hədislərini səlis tərzdə oxuyurdu. "Bihar əl-ənvar" toplusunu Ayətullah Miyanəcinin kitabxanasında çox görmüşdüm, cildlərinin uzun sırası yan-yana düzülürdü. Adı mənə maraqlı gəlirdi: Nur dəryaları. Heç vaxt düşünməzdim ki, bir gün bu dəryalara dala, hədislərini oxumağı səbirsizliklə gözləyə bilərəm. Gözlərimi Haşimzadənin ağzına dikirdim, nə deyirdisə, yazırdım. Yadımdan çıxmasın deyə onları bir neçə dəfə oxumaq istəyirdim.

Həmin günlərdə qərb cəbhəsi yenə canlandı. Bizimkilər Ramazan əməliyyatından sonra düşmənə zərbə vurmaq üçün fürsət axtarırdılar. Qərb cəbhəsini də düşməni qəfil yaxalamaq üçün seçmişdilər. Müslim ibn Əqil[2] və Məhərrəm[3] əməliyyatları müharibəni İraq torpaqlarına doğru çəkdi.

---

[1] Böyük təqlid müctəhidi Məhəmmədəli Əraki 1894-cü ildə Ərak şəhərində dünyaya gəlmiş, ömrünün sonlarında müctəhidlərin şeyxi ləqəbi ilə məşhurlaşmışdı. O, 1994-cü ildə Qumda vəfat etdi, cənazə namazı Ayətullah Behcət tərəfindən qılınandan sonra həzrət Məsumənin məqbərəsində dəfn edildi.

[2] Müslim ibn Əqil əməliyyatının məqsədlərindən biri düşməni Sumar şəhərinin qərbindən çıxarmaq, sərhəd yüksəkliklərini azad etmək və mümkün olduqda İraqın Məndəli şəhərinə doğru irəliləmək idi. Bu əməliyyat ordu və korpus tərəfindən müştərək şəkildə hazırlanıb 1982-ci ildə həyata keçirildi. (Unudulmaz döyüşlər atlası, s. 82)

[3] Məhərrəm əməliyyatı 1982-ci ildə Müslim əməliyyatından bir ay sonra Dehloranın cənub-şərqində və Eyn-Xoşun qərbində yerləşən yüksəklikləri azad

İşimiz bu iki əməliyyatın şəhidlərini dəfn etməkdən ibarət olmuşdu. İrəm xiyabanında hər gün qiyamət idi. Camaat tabutun arxasınca məqbərəyə qədər gedib sinə vururdu, məddah da oxuyurdu. Sanki hamımız şirin bir mürgüyə dalmışdıq. Sinə vurur, hamı bir ağızdan məddaha cavab verirdik. Birdən kollektiv şəhadət xonçası fikri xora kimi canıma düşdü. Ertəsi gündən işimiz başlandı. Camaatın evinə gedib şəhidlərin şəklini alır, sevinirdik. Gözəl bir iş görmək istəyirdim. Hamımız şəhid şəkillərini toplamağa səfərbər olmuşduq. Bizim evimiz və bankın üstündəki otaq da təminat şöbəsinə çevrilmişdi.

Axşamüstülər Xakfərəcin Tərəbar meydanına gedib boş yeşiklər gətirir, həyətdə üst-üstə yığırdım. Çox böyük bir işə girişmişdim; canım çıxdı, amma axırda öhdəsindən gəldim. Elə bunu sevirdim; özümdən böyük işləri. Gecələr yatmaq yerinə yorğunluqdan özümdən getməyi çox xoşlayırdım. Məncə, işləmək bu deməkdi; gərək yorulasan. Başağrısı olmayan sadə işləri hamı bacarır. Çoxlu qaçaqaçdan və yorğunluqdan sonra işin nəticəsini görəndə rahat nəfəs alırdım, yorğunluğum çıxırdı.

1983-cü ilin novruz bayramına bir neçə gün qalırdı. Nasos yerinin önündəki səkini bağladıq, meyvə yeşiklərindən pilləli bir səhnə düzəltdik, üzərinə parça sərib şəhidlərin şəkillərini düzdük. Əlimiz çatan yerlərə də gül qoyduq. Qumun ən böyük şəhadət xonçası oldu.

Həmin il bayram görüşləri həmişəkindən fərqli keçdi. Şəhidlər xiyabanın kənarından, səkinin üstündən bizə baxırdılar. Fikirləşirdim ki, adamların bu qədər hərəkətinə və sərgərdanlığına baxıb gülürlər. Onların baxışlarındakı rahatlığın həsrətini çəkirdim.

Kollektiv şəhadət xonçası düzəltdiyimiz günlərdə yeni bir hadisə baş verdi; "Balaca Əli" adlı bir hadisə. Tək, bircəcik olmaq dünyası sona çatırdı. Qardaşımın dünyaya gəlişini səbirsizliklə gözləyirdim. Evimizdə səs-küy salmış son körpə Nəfisə bacım olmuş, mənim səkkiz yaşım olanda dünyaya gəlmişdi. Sevinirdim ki, məktəblər tətildir və onu Mehri bacımla növbə ilə qucağımıza götürəcəyik. Hər səhər onun ağlamaq səsinə yuxudan oyanır, qucağımıza götürmək üçün həvəslə qaçırdıq. Ancaq nənəm həmişə bizdən tez çatırdı. Onu görən kimi

---

etmək məqsədi ilə baş tutdu. Bu əməliyyatdan sonra Ramazan uğursuzluğundan yaranmış ümidsizlik müəyyən həddə aradan qaldırıldı. (İran və İraq müharibəsinin təhlili, c. 3, s. 37)

dayanırdıq. O, Nəfisə bacımı bizə vermirdi, deyirdi ki, oyuncaq deyil. Mehri bacımla mən də gizlicə götürməyə məcbur olurduq.

Əli qardaşımın dünyaya gəlməsinə yaxın isə birdən-birə hər şey dəyişdi; həkimlər dedilər ki, uşaq xəstədir. Doğulandan sonra qanı tamamilə dəyişilsəydi, bəlkə sağ qalardı. Anam tez-tez ağlayırdı. Heç kimin, hətta nənəmin də hövsələsi qalmamışdı, körpəyə bir dəst paltar da tikməmişdi.

Martın ortalarında, kollektiv şəhadət xonçası ilə məşğul olduğumuz zaman mamaça Fatimə xanım iti və iri addımlarla küçəmizə döndü, qapımızın zəngini basdı. Bildim ki, nəsə xəbər var. Axşam evə gələndə qardaşım Əli nənəağanın qucağındaydı. Üzünü göstərdi. Gözlərindən mənə oxşayırdı. Kor ocaqları yanmış adamlar kimi başına dövrə vurmuşduq. Üzünün iki tərəfindən sallanan iri yanaqlarını bir-birimizə göstərirdik. Anamla nənəmin nəzirləri qəbul olmuşdu. “Qalası olmayan” uşağın hətta sarılığı da yox idi.

Hamı həvəslə işə başladı; atam körpə oğlan paltarı aldı, nənəm anama quymaq bişirdi, Mehri bacı qabları yudu, Nəfisə bacı Əli üçün rəsm çəkdi. Mən də sevindiyimdən anamın yanında o ki var quymaq yedim.

1983-cü ilin novruzu müharibə illərində evdə keçirdiyim son bahar bayramı oldu. Hər il olduğu kimi, bu il də bütün qohumlar Hacı Əlimirzənin evinə toplaşdılar. Şam yeyəndən sonra Məhəmməd dayım ayağa qaldı, bir neçə dəfə öskürüb boğazını arıtladı, yumşaq saqqalını qaşıyıb qırmızı yanaqlarla, sanki quyunun dibindən gələn səslə danışmağa başladı. Qonaqların pıçıltısı dayansın deyə əvvəldə yavaş-yavaş danışdı. Hamı ona baxırdı. Müharibədən danışırdı; şəhid olmuş dostlarından, İraqa maddi və hərbi yardım göstərən ölkələrdən. Sakit qalıb gözləyirdik ki, görək axırda nə demək istəyir. Cibindən bir torba çıxarıb otaqda gəzdirməyə başladı, səs tonu tamamilə dəyişdi:

– İslam döyüşçülərinə nağd pul və digər yardımlar!

Qohumlar arasında gəzib bu sözləri təkrarlayırdı. Bir neçə saniyə öncəki sükut yerini gülüş və zarafata verdi. Otağın bu başından o başına gedir, uşaqlar da ardınca düşürdülər. Torba böyüklərin pulu və uşaqların bayramlığı ilə dolandan sonra xalalara tərəf getdi. Əvvəlcə corabla qolbaqlarına daraşdı. Corab işə yaramayanda isə qayçı gətirdi. Hansını verib, hansını vermədiklərini söyləyincə azı iki qolbağı kəsirdi. Xanımlar gülməkdən uğunur, digər qolbaqlarını xilas etmək

üçün qollarını zorla dayımın əlindən çıxarırdılar. Həmin axşam hamımız gülə-gülə talandıq.

***

Təqvim 12.06.83 tarixini göstərirdi. Yay imtahanları bitəndən sonra yenə korpusun binası önündə peyda olmağa başladım. Artıq stajım vardı, xahiş-minnətə möhtac deyildim. Hörmətlə ezam vərəqəmi verdilər. Müharibənin əvvəllərində Qum, Ərak, Simnan və Qəzvin vilayətlərinin bir diviziyası vardı: Mehdi Zeynəddinin[1] başçılıq etdiyi 17 saylı Əli ibn Əbu Talib diviziyası. Mən də bu diviziyaya ezam olundum. Düşünürdüm ki, çox böyümüşəm və daha Cəfərdən asılı olmamalıyam. Arzu edirdim ki, indi ki yaxşılaşıb, cəbhəyə birlikdə gedərik. Amma bunu dilimə gətirməyə utandım. Çantamı çiynimə atıb tək-tənha dəmiryol vağzalına tərəf yola düşdüm.

Zalda adam əlindən yer yox idi, Şam bazarı kimi qələbəlik və səs-küy vardı. Ahəngəranın səsucaldanlardan gələn səsi də qiyamət qoparırdı. Ağız deyəni qulaq eşitmirdi. Məlumat bürosundan arabir mikrofonla nəsə deyəndə camaat bir anlığa sakitləşib qulaq asır, sonra danışmaq yarışındaymışlar kimi yenə hər yeri səs-küy bürüyürdü. Bəzi sərnişinlər baş və çiyinlərini çətinliklə qatarın pəncərələrindən çıxarmışdılar. Qatarın fiti və vağzalın qələbəliyi altında tələsik son sözlərini söyləyir, əl yelləyirdilər.

Nəhayət, bizim qatarımız da gəldi. Hamıdan qabaq vaqona qalxıb dar qaranlıq kupenin pəncərəsinin yanında özümə yer seçdim. Kupeyə başqa beş nəfər də gələcəkdi. Bir-bir gəldilər. Demək olar ki, bir-birimizin qucağında oturmuşduq. Kupe hamama döndü. Hamıdan kök olan bir nəfər şəlalə kimi tər tökürdü, başı boğazının altına qədər islanmışdı. Pəncərəni açdı, havanın hərarəti qatarın taraq-turuq səsi ilə birgə kupeyə doldu. Bu səsi indi də sevirəm. Onu eşidəndə illər öncəyə gedirəm və həmin axşamın xatirələri gözlərim önündə canlanır.

Kupenin ən az işlənmişi məndim! Hamı əməliyyat xatirələrindən danışırdı, mənsə əməliyyatda olmamaqda hamıdan təcrübəli idim. Pəncərənin arxasındakı çöllüklərə baxa-baxa səfər yoldaşlarımın xatirələrinə qulaq asırdım. Yalan danışmağı da bacarmırdım ki, onlara

---

[1] 17 Saylı Əli ibn Əbu Talib diviziyasının komandiri Mehdi Zeynəddin 1959-cu ildə Tehranda doğulmuş, 1984-cü ildə Banə-Sərdəşt yolunda əks-inqilabçı qüvvələr tərəfindən şəhadətə yetirilmişdir.

qoşulum. Cəfərin yeri görünürdü; yüz faiz, məclisi ələ alar, danışar, soruşar, dinləyər və hamı ilə dost olardı.

Namazdan sonra sanki yuxu zəngi çalındı, deyib-gülmək bazarı bağlandı. Əlimizi oturacaqlarımıza atıb kupenin o başına qədər çəkdik. Açdığımız əyri-üyrü çarpayılarla kupe zindana döndü. Kim harada idisə, orada da qaldı; nə getmək oldu, nə gəlmək. Yalnız qarşındakının ayağını burnunun yanında qucaqlayıb yata bilirdin. Kupe xorultularla, uzun və ritmli nəfəslərlə doldu.

Mən oyaq idim, pəncərənin şüşəsində özümü görürdüm. Yan kupedən Aşura ziyarətnaməsinin zəif səsi gəlirdi. Ürəyim istəyirdi ki, bərkdən oxusun və qulaq asım. Hacı Əlimirzənin namaz qılandakı səs ritminə bənzəyirdi. Düşündüm ki, yəqin, yatmazdan öncəki dəstəmazını da alıb.

Təsbehini yerə qoyan kimi götürürdüm. Bir nəfər acıqlanmırdı bilim ki, uşaq hər şeyə əl vurmamalıdır. Sanki iri qırmızı nar dənələrini sapa düzmüşdülər. Buna görə onu sevirdim. Bir-birinin üzərinə düşəndə yavaşca taqqıldayırdı və mənim xoşuma gəlirdi. Gecə namazına oyananda qaranlıqda onu nə qədər axtardığını bilmirdim. Bir dəfə əlimdən aldığını da xatırlamıram; özüm qaytarana qədər gözləyir, ya da baxırdı ki, oynaya-oynaya hara atdığımı görsün və səssizcə götürsün.

Mən babam kimi olmaq istəyirdim: zikr edim, təsbeh dənələri barmaqlarımın arasında sürüşsün, dodaqlarım tərpənsin və fısıltım gəlsin. Hər şeyini sevirdim. Ağ üzü çox sakit və rahat görünürdü. Dəstəmaz almaq üçün qollarını çırmayanda ardınca düşürdüm. Şalvarının balaqlarını qatlamağa da adət etmişdi. Ağ dabanları təmizlikdən parıldayırdı.

Həyətin ortasındakı hovuzda dəstəmaz alırdı. Dirsəyinin altında bir neçə mavi damar çıxmışdı. Öz qara dirsəyimə baxırdım; mavi damarlar yox idi. Onun yanında dəstəmaz alırdım. Ayağına məsh çəkmək üçün əyiləndə keçəl başına baxırdım; üzü ilə eyni rəngdə, ağ və parıltılı idi, yalnız bir neçə balaca qəhvəyi ləkə vardı. Onların haradan gəldiyini bilmək istəyirdim. Bəzən oturub onları sayırdım. Başını yellədən kimi ərköyüncəsinə etiraz edirdim ki, niyə tərpəndin, sayını itirdim. Dəstəmaz almamız bitəndə tez təsbehini hovuzun yanından götürüb fısıldamağa və dodaqlarımı tərpətməyə başlayırdım. Bunu görəndə onu gülmək tuturdu, yaş saqqalına əlini çəkib başını yelləyirdi. Mirzəli kişinin mehriban röyası Əhvaza qədər mənə yoldaşlıq etdi.

Qatardan enib gərnəşdim. Qəfəsdən azad olmuş kimi qol-qanad açmışdıq. Əhvaz Dəmiryol meydanı xaki geyimlilərlə dolmuşdu. İlk dəfə idi cənub cəbhəsinə gedirdim. Saatlarla orada qalmaq istəyirdim. Məncə, İranı o meydana silkələmişdilər. Xurma ağaclarının çətri altında bütün şəhər və ləhcələrdən döyüşçü tapardın. Yerlilər hamıdan uca və qəliz danışır, uzun ağ və ya boz köynəklərlə digərlərindən seçilirdilər.

Qatar yoldaşlarım boz mikroavtobuslara minirdilər. Meydana göz gəzdirib görüntünü beynimə həkk etdim, sonra çiynimdə çanta mikroavtobuslara doğru qaçdım.

Bütün Əhvaz-Abadan yolu boyunca gözlərimi yummadım. Hər şeyi görmək istəyirdim. Düzənlik sinəsini qızmar günəş altında sipər etmiş, elektrik dirəkləri belləri sınmış vəziyyətdə yolun kənarına düşmüşdü. Müharibə və xarabalıq! Mikroavtobuslar səliqə-sahmanlı uşaqlar kimi ard-arda düzülmüşdülər. Deyirdilər ki, atom enerji stansiyasına gedəcəyik. “Atom enerjisinin cənub cəbhəsinə nə aidiyyəti var?” deyə düşündüyüm yerdə yuxu yavaşca, oğrun-oğrun gözlərimi ağırlaşdırdı.

– Səddamın sağlamlığının aradan qalxması üçün salavat!

Mikroavtobusda gülüş və salavat bombası partladı, mürgüm yarımçıq qaldı. Dələduzlar axırıncı oturacaqda oturmuşdular:

– İslam döyüşçülərinin sağlamlığı üçün hamı həkimə getsin!

Cəmkəran məscidinə gedən mikroavtobuslardakı dəcəlliklərimizi xatırladım. Biz xaki geyimlilər bir-birimizə necə də bənzəyirdik! Mənsur Baqirinin, Əli Sabuninin, Cəfərin və Əkbər Şirqulaminin yeri görünürdü. Əgər burda olsaydılar, arxada oturanlarla yaxşı zarafatlaşardıq.

Zarafatcıl qardaşlar mikroavtobusdan enəndə də dayanmaq bilmirdilər, qapının önünü kəsdirib hamıdan qabaq düşmək istəyirdilər:

– Ay qardaş, icazə verin, bir dəfə də birinci biz şəhid olaq!

Səs-küylə, gülüş içində yerə tökülüşdülər, digərləri də onların ardınca.

Göz işlədikcə yerdən konteyner bitmişdi. Darxuin atom enerji stansiyasında idik. Bu konteynerlər inqilabdan qabaq fransız mühəndislərin istirahət yeri olmuşdu. Burada atom enerji stansiyası tikəcəkdilər. Özləri getmişdilər, amma stansiyanın adı və konteynerləri qalmışdı.

Bu konteynerlərdə cəmi bir neçə gün qonaq oldum. Günortalar təndir kimi qızırdı. Çəfiyə şalını nə qədər isladıb üz-başımıza atırdıqsa,

xeyri olmurdu. İsti və boğuq hava ciyərlərimizi ağırlaşdırırdı. Konteyner cəhənnəmindən çıxıb bir tərəfdə kölgə tapır, heç vaxt əsməyən külək ümidi ilə uzanırdıq. Tər belimizə qədər axıb quruyur, paltarlarımızda izi qalırdı. Hər gün paltar yumalı olurduq. Günortalar konteynerlərdən qaçanda yalnız pəncərələrin ağzında yaş paltarlar qalırdı. Son anda güllə ilə vurulan fərarilər kimi hərəkətsiz halda qızmar günəş altında sallanır, buxarlanırdılar. Su canlarının şirəsi kimi susuz torpaqlar üzərinə damırdı.

Karun çayı konteynerlərdən bir qədər aralıda bizimlə xurmalıqları ayırırdı. Külək axşamlar suyun və yanındakı xurmalığın ətrini bizim tərəfə gətirirdi.

Burada hər şey maraqlı idi. İlk günlərdə, hələ bölünməmiş səhərlər konteynerlərdən qaçıb səhər düzülüşünə toplaşırdıq. Konteynerlərin yanındakı çöllük ərazi adamdan qaralırdı. Batalyonlar orada-burada dövrə vurub oxuyurdular:

Yeganə xoşbəxtlik yolu:
İman, cihad, şəhadət!

Tər boğazlarının altına qədər axırdı. Oxuyur, möhkəm addımlayırdılar. İdman zamanı hər yer titrəyirdi. Mən gözlərimi çəkmədən onlara baxırdım. Hələ də yolum Əhvaz-Abadan magistralına düşəndə gözlərim yolun kənarına qaçır. Çoxdandır konteynerləri oradan aparıblar, amma uşaqların hiss və halları hələ oradadır. Qulaqlarımı şəkləyirəm. Qaçış səsləri başımda dolaşır. İki addım yavaş, üçüncüsü isə möhkəm çırpılır. Bu ritmi sevirəm.

Uşaqlar stansiyaya gedən torpaq yolda bir-birinin ardınca qatar kimi düzülürdülər, yer ayaqları altında silkələnirdi; oxuyur, qaçır, tər tökürdülər. Deyəsən heç kimin yadında deyildi ki, mən təlim görməmişəm, ya da sonradan təlimlərdə iştirak edəcəyimə dair razılığa gəlmişdik. Hər halda, orada təlimdə iştirak etdiyim yadıma gəlmir. Döyüşçülərin təlim və məşqlərinin tamaşaçısı idim.

Bir neçə gün konteynerlər bağında gəzişəndən sonra şəxsi heyətin komandiri peyda oldu. Gözlərini ağzına dikmişdim ki, görüm nə əmr edəcək. İki batalyon düzülmüşdü, əlavə döyüşçüyə ehtiyac yox idi. Qorxurdum ki, birdən məni qaytararlar. Oturub nəzir-niyaz etməyə başladım. Fikirləşirdim ki, yalnız piyada batalyonda ola bilərəm. Hələ diviziya birləşmələrini tanımırdım. Komandir bildirdi ki, seçim azaddır, hansı birləşməni istəyiriksə, xidmət edə bilərik: mina, təminat, tibb, kəşfiyyat. Tanımadığım birləşmələr arasında qalmışdım. Tibb

bölməsində kifayət qədər xidmət etmişdim. Digər birləşmələr barədə soruşmağa başladım:

– Bu nədir? Nə iş görür? Haraya gedir? Neçə nəfər gedir?

Sual ardınca sual verirdim. Elə dəqiq soruşurdum ki, sanki birləşməni satın alacağam. Sual-cavabın sonunda, çoxlu məsləhətlərdən sonra bir birləşmə hamısından çox ürəyimə yatdı: kəşfiyyat. İran mövqelərindən o tərəflərə getməyi, düşmənlərin qulağının dibində gəzişməyi və əməliyyat üçün yol açmağı xoşlayırdım. İrəli getməkdən həzz alırdım; sıranın başında yola düşüm, digərləri ardımca gəlsinlər. Elə bilirdim ki, bələdçi olmaq bu qədər asandır.

Torpaq boğazımın dibinə qədər bütün ağzımı palçıq etmişdi. Arxamızca havaya toz qatarı qalxırdı. Biz kəşfiyyatçıları Zeyd istiqamətinə aparmaq üçün pikapın arxasına yığmışdılar. Mənim kimi kəşfiyyatı seçənlər arasından Mahmud Paknejad yadımda qalıb. Nə qədər irəliləyirdiksə, müharibə daha çox özünü göstərirdi.

Karunun üzərindən keçməli idik. Üzən körpü maşını yellədirdi. Dördəlli pikapın dəmirlərindən yapışdıq. Çayın qoxusu başıma doldu. İsti və rütubətli havanı ciyərimin sonuna qədər uddum. İlk dəfə idi Karunu görürdüm; yorğun, səssiz və palçıqla birgə yoluna davam edirdi. Günəş uzaqlarda suyun üstünə qırmızı toz səpirdi. Qoxuladım: torpaq iyi, barıt qoxusu və cəbhə ətri.

Maşın dayanan kimi yerə atıldım. Hava qaralmışdı. Ətrafa göz gəzdirdim. Hər kəsə yad olduğumu hiss etdim. Cəfəri arzuladım. Bir kişi Qum ləhcəsi ilə bizi çağırdı. O anda onun ləhcəsi mənə dünyanın ən qəşəng ləhcəsi kimi gəldi. Mehriban təbəssümündən sonra bütün qəribliyim yoxa çıxdı, ürəyim sakitləşdi. Əhmədlu[1] hamımıza əl verib salamlaşdı. Xakfərəcdən olduğunu biləndə çox sevindim. Sanki ailə üzvlərimdən birini görürdüm. Mövqeyin kəşfiyyat komandiri idi. Yerləşmək üçün bizə üç səngər göstərdi. Musa Rikabini xatırladım; onun kimi mehriban idi.

---

[1] Müqəddəs müdafiə dövründə Əhmədlu kimi məşhurlaşmış Şəhid Mahmud Əhmədităbar 1965-ci ildə Qumda doğulmuş, Əli ibn Əbu Talib diviziyasının Kəşfiyyat rəisinin müavini olmuş, 2011-ci ildə Sərdəşt bölgəsində PJAK qruplaşması tərəfindən şəhadətə yetirilmişdir.

Mahmud Paknejadla mən simnanlı uşaqların səngərinə düşdük. Mənsuri, Heratian,[1] Səmavi və Mirzayi qumlu çıxdılar. Mahmud Paknejadla məndən sonra isə çevrələri təkmilləşdi. Elə birinci gecə Paknejadla məni kəşfiyyata göndərdilər. Təzə gələnləri yoxlamaq istəyirdilər. Mən də fikirləşdim ki, nə yaxşı gəldim, heç demə bu qədər iş yerdə qalıbmış!

Torpaq sipərin üstündən o tərəfə sürüşdük. Bir neçə metr gedəndən sonra pıçıltı ilə danışmağa başladılar. Biz də elə sandıq ki, ucadan danışsaq, düşmənlər vurarlar, qanad çalıb gedərik. Öz istehkamımızdan cəmi yüz metr aralanmışdıq. Heç düşünməzdik ki, düşmənin birinci istehkamına iki min beş yüz metr qalıb.

Bizi orada azdırdılar. Səhərə qədər yerdə gözlərimiz bərəlmiş halda uzanıb qaranlığa göz qoyduq. Sən demə bizi ələ salırmışlar. Özləri guya bizə dəstək üçün geriyə qayıtmış, əslində isə doyunca gülməkdən ötrü gedib səngərdə oturmuşdular. Biz də hər şeydən xəbərsiz sanki postda dayanmışdıq.

Qaraltı qır kimi yerə-göyə yapışmışdı. Tapşırmışdılar ki, düşmən görsəniz, atəş açmayın. Qorxurdular ki, həm səhvən öz uşaqlarımızı vurarıq, həm də düşmən tərəfi boşuna oyanar.

Dirsəklərim çölün torpağında yuxuya getmişdi. Avtomatı sinəmə yapışdırıb gecənin yarısı nə isə görməyə çalışırdım. Paknejad elə sakit qalmışdı ki, yanımda uzandığı yadımdan çıxmışdı. Parıltılı gözləri qaranlıqda çöllüyə baxırdı. Hər bir səs eşidəndə hücum mövqeyi seçib sinəsini yerdən qaldırırdı.

İlk kəşfiyyat gecəsi bütün uzunluğu ilə bitdi. Sübh tezdən sərhəd qalasına təlimə getdik. Atom enerji stansiyasında nə qədər əylənmişdiksə, burada əvəzini çıxdıq; plan çəkmək, planla və kompasla işləmək, ulduzla istiqaməti təyin etmək və s.

Sərhəd qalasındakı təlimlərdə hər şey öyrəndik. Nədirini[2] birinci və axırıncı dəfə orada gördüm. Qısa boyu və güclü bədəni ilə qüdrətli görünürdü. Planın önündə diz qapaqları üzərində oturur, digərlərinin fikir və izahlarını diqqətlə dinləyirdi. Az danışır, yaxşı qulaq asırdı; diqqət və səbirlə. Kəşfiyyat rəisi idi. Sonralar eşitdim ki, döyüşçüləri

---

[1] Şəhid Heratian 1962-ci ildə dünyaya gəlmiş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[2] Əli ibn Əbu Talib diviziyasının Kəşfiyyat-diversiya rəisi Şəhid Əmirhüseyn Nədiri 1958-ci ildə Savənin Mahmudabad kəndində dünyaya gəlmiş, 1983-cü ildə Mehranda şəhadətə qovuşmuşdur.

kəşfiyyata gedəndə yatmırmış, böyrü üstə torpaq sipərin kənarında uzanıb əlini başının altına qoyur, döyüşçülər qayıdana qədər gözlərini qaranlığa dikirmiş. Canı şəxsi heyətinə bənd idi; Əhmədlu kimi.

Yüngül və yumşaq şəkildə, pişik kimi yeriyirdik. Bir-birimizdən iki metr aralıda gedirdik. Düşmən bizi bu şəkildə görəndə hamımızı birlikdə atəşə tuta bilmirdi. Kompasçı idim. Mənsuri ilə öndən gedirdik, Heratianla Səmavi də qoruma kimi arxamızdan gəlirdilər. Ay işığı altında sıraya düzülmüşdük. Mənsuri bir neçə addımdan bir durbinlə baxırdı. Ultraqırmızı durbin gecənin qaranlığını yarırdı. Nəfəs səslərimizi eşidirdik. Çöllüyün çala-çuxurları və torpaq maneələri Ramazan əməliyyatında iraqlılardan yadigar qalmışdı. Özləri qazmışdılar, indi də xeyrini görürdülər. Ramazan əməliyyatının izlərini görəndə Əbülhəsən Əllami ilə Möhsün Salami yadıma düşür, ürəyimə qəm-kədər çökürdü.

Qaranlıqdan qorxduğumu heç kim bilmirdi. Qısa-hündür hər bir təpəciyin arxasında nəfəsimiz dayanır, bədənim tərləyirdi.

Bizdən bir neçə metr aralıda nal şəkilli bir torpaq maneə vardı. Ağzı düşmən tərəfəydi. Ona tank çalası deyirdilər. Birdən onun arxasından bir düşmən başını qaldırıb bizi avtomat atəşinə tutdu. Güllələr gecənin sükutunda vıyıldayırdı. Qaçmağa yolumuz yox idi. Mənsuri ilə birlikdə çala tərəfə qaçıb yoxuşa yapışdıq. Düşmən öncəki gecələrdə bizim gedib-gəldiyimizi duymuş, nə baş verdiyini görmək üçün çalanın arxasına gəlmişdi. Hələ əl-ayağımı yığmamış Mənsuri ilə arama nəsə düşüb tappıldadı. Əl qumbarasını görəndə gözlərim bərəldi. Mən tərpənənə qədər Mənsuri cəld hərəkətlə onu bir neçə metr uzağa atdı. Partlayış səsindən qulaqlarımda qəribə səslər yarandı.

İşimizi bitirməmiş geri qayıtmalı idik. Mənsuri işarə ilə başa saldı ki, o, atəş açanda Səmavi ilə Heratiana tərəf qaçım. Bir qədər yuxarı qalxdı, silahının lüləsini tank çalasının kənarına qoydu. O, atəş açanda birnəfəsə 10-12 metr geriyə qaçdım. İndi isə mənim növbəm idi. Dərhal geri dönüb qaranlığa doğru atəş açmağa başladım. Sanki atəş aça-aça qorxu canımdan çıxdı. Mənsuri mənim səs-küylü atəşim altında bizə doğru qaçdı. Atəşi saxlayanda artıq yanımda dayanmışdı. Canımızı götürüb öz mövqeyimizə qayıtdıq. Bu, mənim ilk üz-üzə döyüşüm oldu; hansı ki, az qala tikə-tikə olacaqdım.

Ertəsi gün gecə Mənsuri ilə Heratian xəbərsiz getdilər və sübh açılmamış geri qayıtdılar. Deyib-gülmək səsləri özlərindən qabaq gəlirdi. Mənsuri enli çiyinlərinə bir su termosu qoymuş, Heratian da

qoltuğuna bir qurbağa telefonu vurmuşdu. Düşmənin pusqu səngərinə onlardan tez gedib yazıqları endirmişdilər; pusqunu susdurmaqdan əlavə, qənimət də götürmüşdülər.

Kəşfiyyat uşaqlarının yanında və Zeyd zastavası bölgəsinin səngərində yenə qədim dostluqların həzzini almağa başladım; Cəfər, Əkbər, İbrahim, Mənsur və digərləri ilə dostluqların. Uzunlu-qısalı nadinc yeniyetmələr əllərinə silah götürmüşdülər, hərəmiz bir cəbhədə böyüyürdük. Kəşfiyyat səngərində ikən özümü onların yanındakı kimi yaxşı hiss edirdim.

Səhərlər Səmavi bizim üçün Aşura ziyarətnaməsi oxuyurdu. O, bu ziyarətnaməni oxuyanda başqa bir adama çevrilirdi, heç birimizi görmürdü. Səsi məndə xüsusi mənəvi hal yaradırdı. İlk salamdan kövrəlir, yana-yana oxuyurdu. Mən qaranlıq səngərdə dizlərimi qucaqlayıb ağlayırdım, istəyirdim ki, Səmavi axşama qədər bizim üçün Aşura oxusun. Səsini öpmək istəyirdim. Yumru qızılı lampanın işığı uşaqların baş və çiyinlərinə düşür, onlara nəvaziş göstərirdi. Bir-bir ağlamağa başlayırdılar. Şirin bir mürgüyə dalırdıq; şüşə kimi zərif. Səmavinin ağlaması ürəyimi parçalayırdı. Başını səcdəyə qoyanda torpağa çevrilirdi, torpaqdan da çox torpaq olurdu. Çiyinləri tərpənirdi, qırıq-qırıq səslə oxuyurdu:

– İlahi! Müsibət zamanı şükür edənlərin bütün tərif və sənası Sənə məxsusdur!

Ağlamaqdan boğazım şorlanırdı. Başımı səcdədən qaldırmaq istəmirdim. İstəyirdim ki, zaman dayansın və mən bu mürgü və yüngüllük halımda qalım.[1] İndi də Aşura ziyarətnaməsi oxuyanda həmin səngər yadıma düşür – uşaqların göz yaşlarından islanmış üzləri, zəif lampa işığı və ağlamaqdan titrəyən çiyinlər.

Sübh namazından sonra Aşura ziyarətnaməsi oxumaq cəbhənin yazılmamış qanunu idi. Lakin kəşfiyyat səngərinin Aşura ziyarətnaməsində yaşadığım hissləri cəbhənin heç bir yerində yaşamadım. Bütün o yanğılar uşaqların ölümlə qonşu olduqlarına görə idi. Kəşfiyyat zamanı öz mövqeyimizdən bir neçə metr aralanan kimi "azadlıq nöqtəsi"nə çatırdıq. Bu adı sevirdim. Həqiqətən də qaranlıqda və çölün ortasında azad olur, arxamızda qalan hər şeyi ürəyimizdən

[1] "Döyüş səngərlərini məscid mehrabına və Allaha doğru merac yerinə çevirən əzizləri hansı dil və qələmlə vəsf etmək olar?!" (İmam Xomeyni, Nur səhifəsi, c. 18, s. 332-333)

çıxarırdıq: sevdiyimiz səngəri, öz mövqeyimizi, ailəmizi, dostumuzu, dünyanı və onun bər-bəzəyini. Sanki Allahın qucağına atılırdıq, şəhadətin kölgəsini görürdük. Bizə gülür, əl yelləyirdi. Bəzən bir neçə addım yaxınlaşırdı, bəzən biz ona doğru gedirdik. Yerlə göy arasında qalmışdıq. Göyə yalnız biraddımlıq məsafədəydik; nəfsdən azad olmaq üçün bir addım. Aman bu nəfs əlindən! Asanlıqla arxada qalmayan yeganə şey nəfs idi. O, ardınca gələ, ayaqlarını zəncirləyə bilərdi və sən ağırlaşar, uçmağı bacarmazdın.

Hər gecə Zeyd zastavasının çöllüklərində uşaqların ardınca yola düşürdüm. Bəzi gecələr ay işığı bizə kömək edirdi, bəzənsə göz-gözü görmürdü, bir addım səhv atsaydın, dəstəni itirərdin. Uşaqlar qorxmadan irəliləyirdilər. Özümüz üçün axtarış edir, hər bir dəlik-deşiyə baş çəkirdik. Durbinlə baxır, gördüklərimizi yazır və əzbərləyirdik. Məlumatlarımız əməliyyat üçün xəritə və plana çevrilirdi. Gözümüzü yaxşı açmalı idik. O qədər yeriyirdik ki, ayaqlarımızın altı gizildəyirdi. İş saatımız günbatanla günçıxan arasında idi. Şam namazından sonra qaranlığa dalır, günəş doğmadan qayıdırdıq; özü də necə! Mənim vəziyyətim maraqlı olurdu. Ayaqlarımı arxamca sürüyürdüm. Sanki bu sakit çöldə nə isə unutmuşdum. Bir addım irəli gedirdim, on addım geri. Qalmağa bir yer axtarırdım. Ayağımız öz mövqeyimizə dəyən kimi sanki bizi cənnətin qapısından qaytarmışdılar. Ürəyimiz qəm-kədərdən çatlamağa qalırdı. Dəstə dağılışırdı. Heç birimiz üz vurmurduq, hərə bir tərəfə çəkilib sübh azanını gözləyirdi. Qaranlıq çöl kölgə və göz yaşları ilə dolurdu; biri rükuya, biri səcdəyə gedir, biri qünut tuturdu. Ulduzlar da oturub kölgələrə tamaşa edirdilər. Uşaqlar öz dünyalarına çəkilib bərkdən ağlayırdılar, bərkdən...

Onda hələ bilmirdim ki, peşəkar bir kəşfiyyatçının ən əsas xüsusiyyəti gecə vaxtı belə ağlamaqdır. Bilmirdim ki, əli göydən üzülsə, yerin yol və keçidlərini tapa bilməz. Əgər nəfsini boğazlamasa, bu ucsuz-bucaqsız çöllüklərdə azar. Bir əzizin dediyi kimi, keçid tapmağın nəfsin döngə və dolanbaclarını tapmaqdan asılı olduğunu öyrənənə qədər bir müddət çəkdi.

Sübh azanı veriləndə səngərə toplaşır, Səmavi Aşura ziyarətnaməsinə başlayanda çəkinməyi kənara qoyurduq. Qayıtmaqdan ürəyimizi yandıran həsrət qəhərə və göz yaşlarına çevrilirdi. Bir saat öncə cənnətin biraddımlığına qədər getmişdik, ətri hələ başımızda idi, indi isə səngərdə əsir qalmışdıq. Niyə qayıtdığımıza görə yanırdıq.

Niyə şəhadət özünü bizə göstərdi, amma ona çata bilmədik? Öz halımıza ağlayırdıq.

İndi də səhərlər namazdan sonra Səmavini xatırlayıram. Ürəyim istəyir ki, bizə bir də Aşura ziyarətnaməsi oxusun. Səsi sətirdən sətrə daha çox titrəsin, qalxıb üzündən öpüm, boynunu qucaqlayım, utanmadan ağlayım, şəhadətin mənə dəfələrlə əl yelləməsinə baxmayaraq, hələ də qaldığım üçün öz halıma yanım.

Zeyd cəbhəsində işimiz iraqlıların ətrafında gəzişmək olmuşdu; ya döyüş gəzməsi, ya da kəşfiyyat. Yadımdadır ki, bir neçə dəfə Hacı Əhməd Kərimi[1] ilə kəşfiyyata getdik. O, qumlu uşaqların Zeyd mövqeyindəki batalyonlarından birinin komandiri idi. Qaranlıqda əyilə-əyilə gedirdi, biz də arxasınca. Bir neçə gecə işimiz bundan ibarət oldu. Düşmənin qulağının dibinə qədər gedir, yorğun halda qayıdırdıq.

Çölün ortasında düşmənin bir pusqu səngəri peyda olmuşdu, ətrafa yaxşı nəzarət edə bilir, işimizə mane olurdu. Qərara alındı ki, səngərin koordinatlarını öyrənib vaxtı çatanda susduraq. Bölgənin hər tərəfini yaxşı tanıyandan sonra bir neçə qumbaraatanı arxamıza saldıq, süngü ilə səngər qazıb içinə girmək və atəş əmrini gözləmək üçün onlara yer göstərdik. Həmin səngərin bizə yaratdığı bütün problemlərin əvəzini çıxmaq üçün gecənin sonlarına qədər gözlədik. Düşmənin gözləri yaxşı yuxulayanda qumbaraatanlara atəş əmrini verdik. Ərazi Kərbəlaya çevrildi. Düşmən oraya güclü nəzarət etməsinə baxmayaraq, tələyə düşmüşdü. Var-gücü ilə vururdu. Nə qədər mərmi vardısa, bizə xərclədi. Biz də əlimizi çənəmizin altına qoyub gülürdük. Həm səngəri məhv etdik, həm də ürəyimiz rahatlaşdı. Ortalıq sakitləşəndən sonra qumbaraatanların yanına getdik. Üz-başlarına bir barmaq bəndi qədər toz oturmuşdu, barıt iyi verirdilər. Qəhqəhə ilə gülür, bizim kimi sevinirdilər.

Gecədən səhərə qədər işimiz düşməni dəli etməkdən ibarət idi. Bir gecə öz mövqeyimizdən güc-bəla ilə hərəyə bir TIR təkəri apardıq. Fırlana-fırlana gedirdi, biz də yavaşca ardınca. Düşmən mövqeyinə yüz metr qalmış benzin bidonunu təkərlərin içinə boşaldıb geri qaçdıq və fitili yandırdıq. Fitil qığılcım saçıb irəliləyirdi. Təkərə çatanda əvvəlcə içinə yerləşdirdiyimiz TNT maddəsi partladı, sonra təkər

---

[1] Əhməd Kərimi 1961-ci ildə Qumda dünyaya gəlmiş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

yanmağa başladı. Alov qalxır, qaranlığı həvəslə işıqlandırırdı. Düşmənlər hirslə təkərin canına daraşdılar, biz də bu tərəfdən zövqlə izləməyə başladıq.

Yalnız boyumuz uzanmışdı, dəcəlliklərimiz bığ-saqqalımız olmayan vaxtlarla əsla fərqlənmirdi. Qohumlarla Qişm adasına səfərimiz və orada etdiyimiz biabırçılıq yadıma düşdü.

Xalaoğlular bir yerə toplaşmışdı: mən, Siddiqə xalamın oğulları Məcid, Mehdi, Əmir və Fəxri xalamın oğlu Əli. Əli aramızda hamıdan məzlum idi, yazığı "qara Əli" çağırırdıq. Guya özümüz pambıq kimiyik deyə özünəinamımız vardı. Onun buna görə nə vaxtsa narahat olduğunu xatırlamıram.

Qərara gəlmişdik ki, günorta yeməyini Bəndər-Abbasda yeyib gəmi ilə Qişmə gedək. Böyüklər gözlərini bir an üzərimizdən çəkən kimi sənət əsəri yaradırdıq. Xiyabanın kənarında nahar süfrəsi sərdilər. Bu dəfə TIR təkərini çox çətinliklə təpənin başına qaldırdıq. Üz-başımızdan tər axır, tövşüyürdük. "Bir, iki, üç" deyib onu buraxdıq. Diyirlənə-diyirlənə getdi və bir gurultu qopdu. Gözlərimiz bərəlmiş halda baxırdıq. Bu qədər yer qaldı, gedib düz doktor Sənətinin maşınını əzdi. Qapının üstündəki dərin batıq təpənin başından da görünürdü. Təkərin diyirlənməsinin bütün ləzzəti dərin bir ah olub ağzımızdan çıxdı. Əgər başqa maşınlara dəysəydi, bu qədər narahat olmazdıq. Ona görə yox ki, doktor Sənəti uzaq qohumumuz idi və ondan çəkinirdik; ona görə ki, əxlaqlı və mehriban insan idi, həmişə üzündə təbəssüm olurdu.

Hamı qaşqabaqla bizə baxdı. Doktor Sənəti də mikroskop eynəyini aşağı salıb qıyılmış gözləri ilə baxdı, amma həmişəki təbəssümü ilə və qaşqabaqsız. Nə geriyə yolumuz vardı, nə də irəli. Yalnız bircə yolumuz vardı: nahar süfrəsinə gedən və hamının yığışıb bizi gözlədiyi yol.

Təpənin başından səs-küyə başladıq:

– Mənim günahım deyildi.

– Sən dedin ki, gedək.

– Təkər özü diyirləndi...

O qədər qışqırıq saldıq ki, böyüklər bizə acıqlanmamağı üstün tutdular. Səfərin sonuna qədər doktor Sənətidən utanır, ona yaxınlaşmırdıq.

İndi isə böyümüşdük və belə dəcəlliklərimizə görə heç kim bizə acıqlanmırdı.

Həmin istiqamətdə son kəşfiyyatım Heratianla oldu; sübh tezdən, qaranlıqda. Çiynimizdə silah, qoltuğumuzda termos çöllüyə üz qoyduq. Ramazan əməliyyatından sonra düşmən bu bölgənin hər yerini minalamışdı. Oğrun-oğrun irəlilədiyimiz yerdə birdən bir səs bizi diksindirdi. Uşaqların elektron səsgücləndiricisi idi. Bizim kəşfiyyatımızdan xəbərsiz oyun çıxarmışdılar. Səddamın və Bəəs partiyasının əleyhinə ərəbcə bir çıxış kaseti vardı. Təbliğat bölməsindən bir səsgücləndirici və uzun bir kabel alırdıq. Gecə ikən kabeli çəkir, üstünü örtürdük. Sübh azanından sonra iraqlılar yatmaq istəyəndə maqnitofonu işə salırdıq. Bilirdilər ki, bizim işimizdir. Çöllüyü güllə ilə elə şumlayırdılar ki, ya kabel qırılırdı, ya da çuvala bükdüyümüz cihaz partlayırdı.

Həmin gün də bəəsçilərə çıxış dinlətmək həvəsinə düşmüşdülər. Ortalıq sakitləşənə qədər çölün ortasındakı torpaq maneənin arxasına sığınmağa məcbur olduq.

Təyinat yerinə çatana qədər yüz dəfə ölüb-dirildik. Uşaqların dəcəlliyinə görə düşmən mövqeyi hazır vəziyyətə gətirilmişdi. Hər an vurub işimizi bitirəcəklərini gözləyirdik. Təyinat yeri Ramazan əməliyyatında uşaqlarımızın ictimai səngərlərindən biri idi. Sübh namazını düşmənin qulağının dibində qıldıq və oturub get-gəllərinin başlanmasını gözlədik. Heratian durbinlə baxırdı, mən də səngərin önündəki ədyalın arasından ətrafa göz qoyurdum. O vaxta qədər düşmən cəbhəsini belə yaxından və gündüz görməmişdim. İşimizi bitirmələri üçün azca şübhələnmələri kifayət idi. Səsləri elə aydın gəlirdi ki, görməsəydin, elə bilərdin səngərin arxasında oturublar. Heratianın isə vecinə də deyildi. Durbinin arxasında üzünü bir tərəfə toplamışdı; nə görürdüsə, deyirdi, mən də yazırdım. Qarabuğdayı dərisi parıldayır, tez-tez tərini qolu ilə qurudur, yorulanda termosu götürüb ağzına doğru qaldırır və kranı sıxırdı. Su birbaşa boğazının dibinə tökülürdü. Termosu başının üstündən mənə də təklif edirdi. Sanki bir diviziya düşmən biraddımlığımızda deyildi.

Səngər məzar kimi qaranlıq idi, nə yazdığımı görmürdüm. Çalışırdım ki, dəftərçəm ədyalın arasından içəri soxulan nazik işığın altında olsun.

– Çətindirsə, ver, yazım, - Heratian mənə baxıb dedi. - Mənim gözlərim qaranlığa alışıb.

– Əqrəb sancmasına necə? – yazdığım yerdə gülərək cavab verdim və gülmək növbəsi ona keçdi.

Gecələr oyananda Heratian yatağında olmurdu, səngərin arxasına keçib gecə namazı qılırdı. Orada özünə bir məzar da qazmışdı, sübh azanına qədər içində uzanırdı. Bir dəfə əlində bel məzarına tərəf getdi, onu doldurmağa başladı. Tər boğazının altına qədər yol açmışdı. Eşitmişdim ki, gecə ayağını əqrəb sancıb. Ona yaxınlaşıb:

– Onsuz da axırda bu həşərat və heyvanlar səni yeyəcəklər, indidən alışsan, yaxşıdır, – dedim.

Bir az sakit qalıb nə demək istədiyimi anladı. Gülüşünü zorla udub təhdid əlaməti olaraq beli yuxarı qaldırdı və mənə bir addım yaxınlaşdı. Gülüb qaçdım.

Qarınlarımız quruldamağa başlamışdı. Səhər yeməyi yemədən çıxmışdıq, indi isə günəş iraqlıların arxasından aşağı sürüşürdü. Qaranlıq öz xalçasını hər yerə sərənə qədər gözlədik, bir dünya məlumat əlavə olunmuş yüklərimizi toplayıb qayıtdıq.

Heratian kəşfiyyatından razı halda zarafatlar edirdi, mənsə həmişəki kimi dilxor idim. Kəşfiyyat bitəndə və hələ həyatda olduğumu görəndə qaşqabağım sallanırdı. Gec gəlmişdim, tez getmək istəyirdim. Hələ başa düşməmə qalırdı ki, kəşfiyyat bir yana, heç qarşıdakı əməliyyatlarda da şəhid olmayacağam. Həmin gecə şirin ağzından salamat çıxdığıma görə həmişəkindən də dilxor idim. Səngərin bir tərəfində oturub deyinməyə başladım. Bilmirdim ki, şəhadət özü gəlmir, ona çatmaq lazımdır. Gərək o qədər qaçasan ki, ona çatasan. Əgər oturub gəlişini gözləsən, hamı gedər, sən qalarsan. Deyinmələrimin ortasında Səmavi səngərə girdi. Bir qədər sözlərimə qulaq asdı, bir söz demədi. Köynəyinin qollarını aşağı endirib əlini yaş üzünə çəkdi. Qara saçının bir dəstəsi alnına düşmüşdü. Üzüqibləyə dayandı. Dodaqları tərpənir, yavaşca iqamə deyirdi. Əllərini qulaqlarına qədər qaldırdı, bir qədər dayandı, sonra çiyninin üstündən üzünü mənə çevirib dedi:

– Şəhadət deyiləsi deyil ki! Nə qədər deyirsən?! Şəhadət əməl ediləsidir. Allahu əkbər...

***

Kəşfiyyat gecələrində Vəlfəcr-2 əməliyyatı barədə qulağıma bəzi xəbərlər çatırdı. Döyüş İraqın Hacı İmran yüksəkliyi üzərinə mərkəzləşmişdi. Əməliyyat bölgəsindəki zirvələr İranla İraq qüvvələri arasında əl dəyişdirirdi.

"Fəlfəcr-2 əməliyyatında döyüşçülərimizin düşmənlə ən qızğın döyüşü 2519 saylı yüksəklikdə baş tutdu. Bu yüksəklik bir dəfə əlbəəl

olandan sonra bizimkilər Quru Qoşunların artilleriya dəstəyi və pilotlarının cəsarəti sayəsində bütün yüksəklikləri ələ keçirdi.

Vəlfəcr-3 əməliyyatı Vəlfəcr-2 əməliyyatının ortalarında, 29 sentyabr 1983-cü ildə İlam vilayətində, Mehran şəhərinin ətrafındakı yüksəkliklərdə başlandı”.[1]

1984-cü ilin avqustunda 17 saylı diviziyanın üç batalyonu Məhəmmədcavad Delazərin[2] istiqamət komandirliyi və Hacı Qasim Süleymaninin rəhbərlik etdiyi Sarəllah diviziyasının əməliyyat nəzarəti ilə Vəlfəcr-3 bölgəsinə yollandı. Bizim kəşfiyyat komandamız da qərbə getmək üçün əşyalarını topladı. Qum və orada bir ailəm olduğu yadımdan çıxmışdı, elə bilirdim ki, hər şey buradan ibarətdir. Uşaqların yanında rahat idim, Qumda isə vəzifəsi məlum olmayan biri kimi. İndi də cənuba, müharibə bölgələrinə gedəndə ailə-uşağım olduğunu unuduram. Hiss edirəm ki, çoxlu qaçandan sonra əlim cənnət nərdivanının pillələrinə çatıb. Birnəfəsə qalxmaq, ən zirvədə dostlarımın yanına getmək istəyirəm.

Diviziyanın batalyon və birləşmələri Çəngulədə[3] kükürdlü çayın kənarında çadırlarını qurdular. Qısa ağaclar və uşaqların çadırları adda-budda cücərmişdi. İlk dəfə idi Mehrana gedirdim. Şəhərdən əsər-əlamət qalmamışdı; evlər dağılmış, küçələr boşalmışdı, həyat əlamətləri yox idi. Hamı getmişdi, biz düşmənlə üz-üzə qalmışdıq.

Kirmanın Sarəllah diviziyası Qalavizan yüksəkliyində düşmənlə vuruşurdu. Nə biz irəli gedirdik, nə düşmən qüvvələri yaxınlaşırdılar. Vəziyyət qıfıllanmışdı. Hələ tərimiz qurumamış acı bir xəbər bizi qarşıladı: Diviziyanın Kəşfiyyat rəisi Nədiri şəhid olmuşdu. Onun şəhadəti ürəyimi parçaladı. Özü ilə apardığı o qədər mehribanlığına heyfim gəldi. Yuxusuzluqdan çökəyə düşmüş gözləri və yorğun siması gözlərim önündən getmirdi. Fikirləşdim ki, şəhadətdən sonra, yəqin, gözlərini yumub rahat yatıb.

Bizi döyüş yerindən uzaqda, çayın yanında əməliyyatın ikinci və üçüncü mərhələləri üçün saxlayırdılar. İstidən və ağcaqanaddan yaşıl rəngli kükürdlü çaya girirdik. Ağcaqanadların qorxusundan danışa da

---

[1] İran və İraq müharibəsinin təhlili, Hüseyn Ərdistani, c. 3, s. 56-57; Unudulmaz döyüşlər atlası, Müctəba Cəfəri, s. 90.

[2] 17 Saylı Əli ibn Əbu Talib diviziyasının Əməliyyat rəisi Məhəmmədcavad Delazər 1958-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

[3] Mehran rayonunda bir kənd

bilmirdik; ağzımızı açan kimi boğazımızda idilər. Ağzım ağcaqanad dadırdı. Üzümüzə yapışır, əl çəkmirdilər. Gözlərimiz, burnumuz da qaşınırdı. Qulaqlarımızın dəliyini də tapmışdılar, içində gəzirdilər. Bizi bir saniyə də rahat buraxmırdılar.

Avqust günəşi səmanın sinəsinə yapışanda biz də çaya tökülüşürdük. Biz kəşfiyyatçılar yuxarıya, kəndin tərk olunmuş evlərinə yerləşmişdik. Çimmək üçün qaça-qaça gəlir, suya girirdik. Suyun üzü parıldayırdı, yapışqan kükürd iyi burnumuza dolurdu. Gülüş və zarafat səsimiz İraqa qədər gedirdi; sanki uşaqlar Qum bəndinin kənarındakı kanalda oynayıb gülüşürdülər.

Evimiz küçənin başında yerləşirdi. Qapını açan kimi bəndin kənarındakı kanalı görürdün. Ensiz kanal günortalar uşaqla dolu olurdu. Su ilə oynayır, bir-birinin boynuna dırmaşırdılar. Yaş bədənləri günəşin altında parıldayırdı. Qapımızın arasından onlara həsrətlə baxırdım. Anam o çirkli suda yuyunmama icazə vermirdi. Uşaqların səs-küy və gülüşləri ürəyimə qəm-qüssə doldururdu. Hər gün ağlayıb yalvarırdım, anamsa icazə vermirdi. Bəzən həyətdəki hovuzda çimizdirmək sözü verib başımı aldadırdı. Gərək gözləyəydim ki, günəş göyün ortasına, hovuzun və onun yanındakı əncir ağacının üstünə qalxsın. Günəşin şəkli suya düşəndə hovuza hoppanırdım. Şappıltılarım hamıya xəbər verirdi. Başımı suya batırıb iyirmiyə qədər sayırdım. Suyun altında ovcumdakı balaca daşlara baxmaqdan necə də həzz alırdım! Onlara o qədər baxırdım ki, gözlərim qan qoyurdu. Əncir ağacının enli yarpaqları sakit və qızmar günorta havasında tərpənmirdi. Ovcumu su ilə doldurub yarpaqlara səpirdim. Nənəm dəsmalla gələndə çimmək zamanı bitmiş olurdu. O qədər şappıltıdan yorulub hovuzun kənarında otururdum. Burnumun ucundan su damırdı. İsti plitələr üzərində ayaqlarımın izi qalır, yaş bədənimə hava dəyirdi. Hovuzun suyunu açıb bağçaya buraxırdım. Su torpağın üzərində yavaş və səssizcə sürüşürdü. Ağacın və qara əncirlərin susuzluğu yatsın deyə torpaq onu qurtum-qurtum sorurdu.

Anamın yeri görünürdü ki, mənim pis qoxulu, kükürdlü suda necə çimdiyimi və özümü qaşıdığımı görəydi. Batalyonun uşaqları çiməndən sonra çadırlarda uzanırdılar. İsti idi, ağcaqanad da vardı. Çadırın hər iki tərəfini qaldırırdılar. Beləcə külək gəlsəydi, ağcaqanad qalmağa yer tapmırdı.

Kükürdlü çayla bağlı xatirələrimi beynimi doldurmuş qəribə suallarla xatırlayıram. Həddi-büluğdan sonrakı günləri yaşayırdım və

hər şeyə şəkk edirdim. Soruşurdum ki, Allah haradadır və ümumiyyətlə, varmı. Bir tərəfdə oturub heç kəsin ağlına gəlməyən suallarıma cavab axtarırdım. Bir nəticə əldə etməyəndə burğu aləti kimi diviziya ruhanilərinin beyinlərini deşməyə başlayırdım. Yazıqların hərəsi bir dəfə bütün üsuli-dini və fürui-dini mənə sayırdılar. Allahın varlığını mənə o qədər ayə, hədis və elmi dəlillə sübut etdilər ki, axırda qane oldum. Əgər bir kafir müsəlman olmaq istəsəydi, onlara məndən az sual verərdi. Səbir-hövsələ ilə cavab verəndə ağa Turabi yadıma düşürdü.

Uşaqlar məni ələ salıb deyirdilər ki, Allahla problemini həll etməyincə güllə və qəlpə önünə çıxma. Elə qızğın şəhadət bazarında dünyadan kafir getməyim, doğrudan da, heyif olardı.

Seyyidüşşühəda batalyonunun komandiri Mustafa Kəlhüri[1] hər gün hamıdan qabaq oyanırdı. Hər dəfə bizim İslam yolunda cihad etməyimizdən söhbət düşəndə deyirdi: "İslam o günə qalıb ki, mənim kimi birisi onun işini görür".

Onun səhər proqramlarını sevirdim. Hamını sıraya düzür, özü hamıdan qabaqda qaçıb oxuyurdu:

Ey ağıllılar! Ey ağıllılar!
Evinizdən bayıra çıxın!
Mənə tamaşa edin,
Mənə dəli deyirlər.
Balacalığımdan indiyədək
Yaxşı bir dostum var.
Bu yaxşı dostum üçün
Ömrümü sərf etmişəm...

Batalyonun səsi gələndə bayıra qaçır, uşaqlara baxıb dodaqaltı onlarla oxuyurdum. Şeiri əzbərləmişdim.

Bir gün diviziyanın taktika qərargahının yerləşdiyi Məlikşahi kəndinə getmişdim. Kirmanlılar yuxarıda vuruşurdular. Diviziyalarının komandiri Qasim Süleymani şəxsi heyəti mühasirəyə düşməsin deyə özünü oda-suya vururdu. Uşaqları çətin vəziyyətdə qalmışdılar və o, sakit otura bilmirdi. Xəbər vermişdilər ki, düşmən qüvvələri Qalavizan

[1] Seyid Mustafa Kəlhüri 1959-cu ildə Qumda dünyaya gəlmiş, 1985-ci ildə Bədr əməliyyatında şəhadətə qovuşmuşdur.

yüksəkliyindən enirlər. Bir yerdə qərar tuta bilmirdi, o qədər narahat idi ki, önünü kəsməsəydilər, təkbaşına döyüşçülərini xilas etməyə gedərdi. Çənguləda olduğumuz bir həftədə gözlərimiz daim yüksəklikdə idi; qulaqlarımızı şəkləyirdik ki, bəlkə döyüş səsləri arasından xoş bir xəbər eşidək.

Bu əsnada İraq tərəfi əks-hücuma başladı. Mustafa bu xəbəri eşidəndə güllə kimi yerindən sıçradı. Sinəsini motosikletin sükanına söykəmişdi, ən son sürətlə çadırlara doğru gedirdi. Biz evlərin içindən motosikletinin arxasınca qaldırdığı toz-dumanı görürdük. Nahar süfrələri sərilmişdi. Motosikletlə süfrələrin ortasından keçir, boğazının dibindən gələn səslə qışqırırdı:

– Qalxın, iraqlılar gəlirlər!

Uşaqlar ildırım sürətilə sıraya düzüldülər. Hədəf İraqın Qalavizanın arxasında yerləşən Bədrə vilayəti idi. Bir tərəfdən, Qalavizanın üzərindəki mina dolu hamar düzənlik uşaqları çətinliyə salmışdı, digər tərəfdən, düşmən Mehrana doğru əks-hücuma keçmişdi.

Xəbər gəldi ki, mövqeyi yarıb Qalavizandan eniblər. Planları Qavi çayına doğru irəliləmək və Dehloran-Mehran yolunu bağlamaq idi. Yol bağlansaydı, iş bitmişdi. Müharibədə saniyələrdən istifadə etmək lazımdır. Necə ki, Mustafa Kəlhüri şəxsi heyətini ayağa qaldırdı və uşaqlar bir göz qırpımında əşyalarını götürüb pikaplara mindilər. Hamımızı sürətli rejimə keçirmişdilər, çevik olmuşduq. Sürücülər qaza basanda üz-başımıza isti külək dəyirdi.

Dehloran-Mehran magistralının arxasında maşınlardan endik və əlimiz tətikdə yerə uzanıb hücum əmrini gözləməyə başladıq. Heç kimdən səs çıxmırdı. Qarşıda nə baş verdiyini bilmirdik. Düşmən qüvvələri hər an çəyirtkə kimi başımıza tökülüşüb işimizi bitirə bilərdilər. Bir kəşfiyyat komandası irəli gedib düşmənin haraya qədər gəldiyini öyrənməli idi. Mən Mirzayi ilə birlikdə motosikletlə düşmənin hücuma keçdiyi torpaq sipərin arxasına qədər getdim. İstidən bütün bədənimizdən tər axırdı. Motosikleti istehkamın arxasında saxlayıb əyilə-əyilə irəlilədik. Hər an bir güllənin fit verə-verə beynimə oturmasını gözləyirdim. Nə qədər durbinlə baxdıqsa, bir düşmən qüvvəsi də görmədik. Çöllükdən və günəşdən başqa heç nə yox idi. Bu tərəfə bizim uşaqlarımızın bədənləri düşmüşdü, o tərəfə də düşmənin boş tankları. Şübhə və ehtiyatla istehkamın arxasına keçdik. Gözlərimizə inana bilmirdik; elə sakitlikdi ki, sanki illərdir oralara

insan ayağı dəyməyib. Allahın lütfündən düşmən boş düzənlikdə çətinə düşəcəyindən qorxub geri çəkilmişdi.

Düşmənin sahibsiz texnikaları ilə qarşı-qarşıya qalmışdıq. Susuzluqdan ölmək üzrə idim. Gözümü gəzdirib su axtarmağa başladım. Müharibə və cəbhəyə razılaşdınsa, zəruri ehtiyacların üçün də qalmırsan, birtəhər həll edirsən. İşlərimizi elə idarə edirdik ki, sanki düzənlik evimizin dəlik-deşikləridir. Uşaqların olan-qalanı səngərlərin içinə səpələnmişdi.

Quru nəfəslərimdən dodaqlarım qızmışdı. Mirzayi də məndən geri qalmırdı; susuzluq amanını kəsmişdi. Bir də uzaqdan gördüm ki, buz qabını və bir qədər limonotunu qoltuğuna vurub sevincək mənə tərəf qaçır. Buzları ovuc-ovuc çeynəmək istəyirdim. Əgər bir dolça su tapsaydıq, dünyanın ən xoşbəxt adamları olardıq. Uzaqdan qırmızı bir aftafa bizə göz vururdu. Bir aftafaya görə heç vaxt bu qədər sevinməmişdim. Qaldıran kimi içindəki su yavaşca şappıldadı. Səsini eşidəndə iştaham birə min artdı. Bir aftafa limonotu şərbəti düzəltdik.

Buzlar aftafanın divarına dəyir, xırda taqqıltıları könlümü oxşayırdı. Lüləni ağzımın üstündən tutdum. Şərbətin sərinliyi ürəyimə yayıldı. Bir qurtum içib aftafanı bir-birimizə verirdik. Birdən torpaq istehkamın arxasından toz-torpaq qalxdı. Aftafa qucağımızda qaçıb səngərdə gizləndik. Quruculuq cihadı təşkilatının patrulu döngənin arxasından tələsik düzənliyə çıxdı. Düşmənin geri çəkildiyini eşitmişdilər, istəyirdilər ki, əmin olub torpaq maneə qurmaq üçün buldozer göndərsinlər. Buraxsaydın, İraqa qədər gedəcəkdi. Maşının önünə atılıb dedim:

– İraqın qulağının dibində hara gedirsən, qardaş? Əsir düşərsən.

Boğazının altına qədər bütün başı islanmışdı.

– Bir qurtum suyun var? – dedi.

Mirzayi gülümsəyib göz-qaşla aftafanı göstərdi.

– İç, ciyərin sərinləşsin, - deyə aftafanı sürücünün yanına qoydum.

Bir mənə, bir də aftafaya baxdı, lüləni ağzına qoyub birnəfəsə başına çəkdi.

"(Vəlfəcr-3 əməliyyatında) İraq qüvvələrinin ən çox müqaviməti Kəlləqəndi adı ilə məşhurlaşmış 343 saylı təpədə baş tutdu və on bir sutka davam etdi... Düşmən Mehran səmtindən hücumla qarşılaşdıqdan

sonra Vəlfəcr-2 əməliyyatına qarşı təzyiqini azaldıb qüvvələrini daha çox bu istiqamətə cəmlədi".[1]

Bu cəbhə kilidlənəndə düşmənə zərbə vurmaq üçün başqa bir yol axtarmağa başladıq. Bunun üçün isə Bəmu yüksəkliyindən yaxşısı ola bilməzdi. Başı göyə yapışmış qol-qanadsız bir nəhəng idi. Yaxınlaşdıqca daha əzəmətli görünürdü; uca və əlçatmaz. Yoxuşsuz bir qayaydı. Bu yüksəkliyə yuxuda da qalxmaq olmazdı.

Özümü iki ildən sonra evinə qayıtmış adam kimi hiss edirdim. Sərpol cəbhəsində böyümüşdüm. Qərb cəbhəsinin hər yeri mənim üçün xatirə dolu idi. Bəmu üçün bir şey fikirləşək deyə Çənguldən oraya ezam olunmuşduq. Ürəyim istəyirdi ki, azad şəkildə bölgənin cəbhələrini gəzim, Abbarikə gedim, Musa Rikabinin səngərinə baş çəkim. Kaş həyatda olub daha qaranlıqdan qorxmadığımı görəydi![2] Nəcmi poliklinikasına, Əhməd ibn İshaq imamzadəsinə də getmək istəyirdim, amma qalmağa vaxtım yoxdu. Gecə ikən diviziyanın Sərpol Zəhabla Bəmunun arasındakı Nafirə kəndində yerləşən düşərgəsinə getdik. Cəfər yadıma düşdü. İki il öncə onu Nəcmi poliklinikasında görəndə Nafirə kəndinə tələsirdi. Fikirləşdim ki, onunla aramızdakı yaş fərqinə görə ondan həmişə iki il geridə olacağam.

Bəəs rejimi tərəfindən dəstəklənən əks-inqilabçı örgüt və Demokrat partiyası ruh kimi həm hər yerdə idi, həm də heç yerdə deyildi. Bölgəni əllərinin içi kimi tanıyırdılar. Kaş ayağımız Bəmunun başına çataydı! Həm İraqa məxsus Dərbəndxani və Hələbçə əlimizə keçərdi, həm də əks-inqilabçıların hərəkətlərini nəzarətə götürərdik. Hansı tərəfə baxırdınsa, uşaqlar daşlardan, qapı və divarlardan sallanırdılar. Ümumi Sərpol bölgəsinin yüksəklikləri məşq maketinə çevrilmişdi.

Bizim kəşfiyyat komandamız Şeyx Sələ kəndində işləyirdi; ən irəlidə, Bəmunun vahiməli kölgəsi altında.

Birinci gecə Təzəabad kəndindəki sərhəd zastavasına yerləşdik. Birnəfəsə Şeyx Sələyə getmək pis olmazdı, xüsusən də Mehdi Zeynəddinin orada olduğunu öyrəndiyimiz üçün. O, özünü təhlükəyə ataraq şəxsi heyətin əməliyyat keçirəcəyi yeri yaxından görməyə gəlmişdi. Özümü Şeyx Sələyə yetirib onu görmək istəyirdim, amma

---

[1] İran və İraq müharibəsinin təhlili, Hüseyn Ərdistani, c. 3, s. 58; Unudulmaz döyüşlər atlası, Müctəba Cəfəri, s. 90.

[2] Rikabini müharibə illərində bir də görmədim. 2003-cü ildə o, məni hekayəçiliyim vasitəsi ilə tapdı. Hələ də mənim üçün mehriban və qayğıkeş bir böyükdür.

olmurdu; yolları yalnız gündüz getmək mümkündü, o da mühafizəçi qüvvələrlə.

Biz diviziyanın Şeyx Salədəki taktika düşərgəsinə çatanda Mehdi getmişdi. Onu görə bilmədiyimə görə çox heyifsiləndim. Uşaqların çoxu onu görəndə yaxınlaşıb üzündən öpür, danışır, dərdləşirdilər. Mənimsə heç vaxt yaxınlaşmağa üzüm gəlmirdi. O, mənim üçün həmişə mehriban və əzəmətli bir böyük idi. Çıxışlarını dinləyəndə hiss edirdim ki, ondan çox geridəyəm. O, aşiq idi, – cihad aşiqi, İslama xidmət aşiqi, şəhadət aşiqi.

Düşərgədə qaldığımız bir həftədə lobya konservinə oxşayırdıq. Ürəyim lobyadan başqa hər şey istəyirdi. İnadkarlıqdan lobyaları ocaq üzərinə qoyurduq, çox qızırdı və biz lobya konservi yerinə lobya xəmiri yeyirdik. Belə olduqda ən azı qapağını açanda iri lobyalar adama ağız əymirdi.

Səhərdən axşama qədər ağacların arasından durbinlə baxırdıq. Artıq təcrübəli olmuşduq, durbinlə müşahidəmiz piyada kəşfiyyat qədər uzun sürürdü. Durbini santimetrlə hərəkət etdirirdik. Hara sakit idisə, daha çox yaxınlaşdırırdıq. Xəbərlər sakit yerlərdə idi.

Gecənin qaranlığı yayılana qədər işimiz bundan ibarət olurdu. Bölgəni əzbərləmişdik. Mahmud Paknejadı orada gördüm. Təcrübəli və gülümsər bir bələdçi idi. Danışanda təbəssümdən üzü qızarırdı. Mustafa Yusifi[1] ilə birgə Bəmunun yamacında olan və ən təhlükəli yer sayılan Qəlb kəndinə yerləşmişdilər. Hər axşam Bəmu qayalarına qalxır, düşmənlərin qulağının dibindəki səngərlərinə baş çəkib qayıdırdılar. Onlar qayalardan sallanırdılar, biz də Şeyx Salə ilə Qəlbin arasında palıd ağaclarının altından durbinlə baxırdıq. Biz - yəni mən, Əbülfəz Xoşqoftar və Əhməd Bərzigər.[2]

Dağ günəşinin altında dərimiz qurumuşdu. Durbini yerə qoyanda o qədər yorğun olurduq ki, sanki bütün bölgəni piyada gəzmişik. Üzümüz əyilirdi. Qurumuş boynumuzu tərpədir, sümüklərini şaqqıldadırdıq. Üz-başımız düzələndə şam yeməyinə gedirdik. Təminat uşaqları bizim yeməyimizi Şeyx Saləyə gətirirdilər. Bir qədər konservi də qatıra yükləyib əməliyyat zamanı üçün bizdən önə göndərir,

---

[1] Mustafa Yusifi 1960-cı ildə Qumda doğulmuş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[2] Əhməd Bərzigər Məfruyi 1966-cı ildə Rey şəhərində doğulmuş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

Bəmunun aşağısında boşaldırdılar; əlbəttə, əgər əks-inqilabçı qüvvələr arzularını ürəklərində qoymasaydılar.

Nəhayət, zaman gəlib çatdı və hazır vəziyyətdə batalyonların gəlişini gözləməyə başladıq. Əməliyyat gecəsi heç birimizin gözünə yuxu getmirdi. Gecə durbini ilə nə qədər qaranlığa baxdıqsa, xəbər çıxmadı ki, çıxmadı. Qərara alınmışdı ki, qayaya dırmaşacaq batalyonlar həmin gecəni bizim yanımızda qalsınlar və sübhə yaxın Qəlb və Bəmu kəndlərinə, Paknejadla Mustafa Yusifinin tapdığı gizli yollara doğru getsinlər. Gözlərimiz yolda qaldı, kirpiklərim ağırlaşdı. Əbülfəzlə Əhməd durbinin arxasında idilər. Əbülfəz saqqalının ucu ilə oynayırdı, Əhmədinsə çənəsi tərpənirdi; zikr deyirdi. Sıxıcı bir səssizlik vardı. Batalyonlar gecikirdilər.

– Atəş! – Əbülfəz birdən yerindən hoppanıb dedi.

Əməliyyatın üstü açılmışdı. Bir göz qırpımında bütün ərazi işıqlandı. Başımızı haraya çevirirdiksə, qaranlıqda od-alov görürdük. Şölələrin sayı o qədər çox idi ki, havadan yanmış taxta iyi gəlirdi. O qədər əziyyət bu atəşlərlə yanıb kül oldu. İnanmaq istəmirdim. Ümidimi itirmədim. Avtomatımı qucaqlayıb batalyonları gözlədiyim yerdə məni yuxu tutdu.

Sübh çağı helikopter səsinə oyanıb avtomata tərəf sıçradım. Mahmudla Mustafadan nigaran qaldım. Fikirləşdim ki, harada olsalar, helikopterlər indicə onları görəcəklər. Atəş açacaqlarını gözləyirdim, amma xəbər çıxmadı. Helikopter başımızın üstündən keçdi. Gözümlə təqib edirdim. Səmada ağ iz buraxıb gedir, kağızlar yellənib rəqs edə-edə aşağı düşürdü. Əks-inqilabçıların elanları idi. Eşitmişdim ki, xəbərdarlıq və təhdid yazıblar. Əməliyyatımızdan xəbər tutmuşdular. Bu bildirişlərlə demək istəyirdilər ki, hər şey nəzarətimiz altındadır.

Əməliyyatı ləğv etməkdən başqa yol yox idi. Batalyonlar növbəti əməliyyata hazırlaşmaq üçün bir neçə günlük məzuniyyətə getdilər.

Ayağım Quma dəyməmiş birliyə gedirdim. Hər axşam bankın üstündəki otağa daha çox adam gəlib-gedirdi. Uşaqlar gedəndə sanki otaqda bomba partlamış olurdu, boş stəkanlardan tutmuş yastıq və kitablara qədər hər şey ortada olurdu. Cəfər həmişəki kimi qalıb tez-tez otağı səliqəyə salırdı. Yeni görkəmi mənə adiləşmirdi. Əzilmiş burnu şişmiş üzündə itmişdi.

Bir dəfə dəcəlliyim tutdu, uzandım. Bir neçə dəfə dedi ki, qalxıb ona kömək edim, amma qulaq asmadım. Zarafat və hədə ilə məni qaldırmağa gəldi. Müdafiə vəziyyəti alıb ayaqlarımı yuxarı qaldırdım.

Cəfərin təpiyi ayağımın altına dəyib taqqıldadı. Hiss etdim ki, topuğumda nəsə tərpəndi, ağrı boğazımın dibinə qədər getdi, taqətim çəkildi. Ağrıdan yerimdə qıvrıldım. Cəfərin dodaqları üzü kimi ağardı, gözləri bərəlmiş halda mənə baxmağa başladı. Zarafatımız ciddi oldu; ayağa qalxa bilmirdim. Əlim Cəfərin boynunda axsaya-axsaya pilləkəndən endim. Qaçıb mopedini gətirdi və səssizcə sınıqçı Hacı Məhəmmədgilə getdik. Stansiya xiyabanına çatana qədər ağrıdan yüz dəfə ölüb-dirildim.

Hacı Məhəmməd evinin bir otağını xəstə qəbulu üçün ayırmışdı. Qarşımda oturub ayağımı dizinin üstünə qoydu. Cəfər narahat halda qocanın əllərinə baxırdı. Bir saatın içində ayağım başım boyda olmuşdu. Bir az süzəndən sonra danışmağa başladı:

– Yıxılmısan?

– Yox.

– Kimin oğlusan?

– Atamın.

Əli ayağımın üstündə hərəkətsiz qaldı, mənə mənalı tərzdə baxıb küsmüş kimi dizini ayağımın altından çəkdi. Dabanım yerə bərk dəydi.

– Ax! – deyə zarıdım.

– Get, atanla gəl, – dedi.

Təəccüblə Cəfərə baxdım. Onu gülmək tutmuşdu. Qoca ayağımın sümüyünü yerinə salmadı, amma mənə həyatı başa saldı. Kor-peşman geri qayıtdıq.

Cəfər evimizin önündə sağollaşıb getdi. Ayağıma görə çox narahat idi. Evə gəlməyə də utandı. Ayağımı tam yerə qoya bilmədiyimə görə salam verən kimi hamı ayağıma baxdı. Anamla nənəm həyəcanla mənə doğru qaçdılar. Kiçik bir toxunuşla qışqırırdım, heç kimi əl vurmağa qoymurdum. Atam tez pencəyini geydi və on beş dəqiqədən sonra yenə Hacı Məhəmmədin evindəydik.

Qoca ayağımı qucağına qoyub atama baxdı:

– İstədim gələsən, sənə deyim ki, üzlü oğlun var.

Hazırcavablığımdan danışırdı, mən də qulaq asırdım. Birdən "taq" səsi gəldi. İlan vurmuş adam kimi yerimdən qalxdım. Bir hərəkətlə ayağımı yerinə salmışdı. Halsız halda stulun üstünə düşdüm.

Yumurta və sarıkökün kəskin iyi bir həftə ayağımda qaldı. Guya evdə istirahət etməli idim, amma axsaya-axsaya hər yerə gedir, istirahətdən başqa hər şey edirdim: məscid, hərəm, Cəmkəran, Çaharmərdan məscidi, birliyin iclasları, atamın dükanı və Cəfərgil. Hər

yerdə fəal iştirak edirdim. Elə bilirdim ki, birlik mənim buynuzum üstə hərlənir. Ayağımın altındakı yastığı qoltuğuma vurub yola düşürdüm. Məsciddə birliyin iclasında ayağımı uzadır, yastığı altına qoyur, hamıdan çox danışır, hər şeyə fikir bildirirdim.

# Beşinci fəsil

## *Şəhadətin qayda-qanunu var*

“Güclər, supergüclər və onların nökərləri əmin olsunlar ki, əgər Xomeyni tək-tənha da qalsa, küfr, zülm, şirk və bütpərəstliyə qarşı mübarizə yolunu davam etdirəcək, Allahın köməyi sayəsində, İslam dünyasının könüllüləri ilə, diktatorların qəzəbinə gəlmiş bu ayaqyalınlarla birlikdə istismarçıları və zülmlərinə israr edən muzdurları rahat yatmağa qoymayacaq!”

İmam Xomeyni, Nur səhifəsi, c. 20, s. 318-319

"Amerikanın “Vaşinqton Post” qəzeti yazırdı: "Fransa düşünür ki, Super Etendart təyyarələri iraqlıları İranı müzakirəyə məcbur etmək üçün ehtiyacları olan amillə təmin edəcəkdir".[1]

Fransa İraqa heç bir məntiq və siyasətlə uyğun gəlməyən yeni bir hədiyyə vermişdi: Super Etendart təyyarələri. Bu təyyarələr Exocet raketi ilə təchiz olunmuşdu və su döyüşlərində çox işə yarayırdı. İçimiz içimizi yeyirdi, etiraz səsimiz bir yerə çatmırdı. Özümüzə yazığım gəlirdi. Dünya qarşımızda sıraya düzülmüşdü. Bu xəbəri eşidəndən sonra Qumda qala bilmədim.

Yeriyəndə topuğumun sümüyü taqqıldayırdı. Qaça bilmirdim. Ayağımı sürüyə-sürüyə cəbhəyə getdim. Qərb cəbhəsində hələ də get-gəl vardı. Bu cəbhədə məhdud əməliyyatların iki faydası vardı:

[1] İran və İraq müharibəsinin təhlili, Hüseyn Ərdistani, c. 3, s. 69.

müharibəni aktiv saxlamaq və qərb cəbhəsini əks-inqilabçılardan təmizləmək. Düşmənin başını orada qarışdırıb Vəlfəcr-4 əməliyyat planını yekunlaşdırmaq istəyirdilər. Bu əməliyyat Pəncvin şəhərinə və İraqın Şiler düzünə nəzarət edən yüksəklikləri ələ keçirmək məqsədilə Banə və Mərivan şəhərlərində baş tutacaqdı.

Şiler düzü İran torpaqlarında uzanıb gedirdi. Xəritədə baxanda eynilə İraq səmtindən bizim torpağımıza batmış bir xəncər kimi görünürdü. Vəlfəcr-4 əməliyyatında bu xəncərin tiyəsinin sonunu kəsməli idik. Şiler düzünün və ətrafındakı təpələrin sərhəd mövqeyi oranı əks-inqilabçı qüvvələrin İranın qərbinə gedib-gəlməsi üçün əlverişli keçidə çevirmişdi.

"Vəlfəcr-4 əməliyyatının məqsədlərindən bəziləri əks-inqilabçıların işğal etdiyi bölgələrin bir hissəsini təmizləmək, düşmənin bölgədəki qüvvələrini məhv etmək, əks-inqilabçı qüvvələrin İraqdakı təminat mənbələri ilə əlaqəsini kəsmək və sonda sərhəddəki şəhər və kəndləri İraq artilleriyasının atış məsafəsindən çıxarmaq idi".[1]

Əməliyyat sürətlə və uğurla irəliləyirdi. İraqın hərbi Pəncvin şəhərciyinə baxan yüksəkliklər iranlı döyüşçülərin əlinə keçdi. 17 Saylı diviziya hələ əməliyyata qoşulmamışdı. Güman ki, əməliyyatın uzanacağını ehtimal edib bizi mövqeyin arxasındakı bir kənddə ehtiyat üçün saxlamışdılar. Əməliyyat bir neçə mərhələli olsaydı, biz təzə nəfəsli qüvvə kimi qoşulacaqdıq; necə ki, elə də oldu.

Düşmən dəli olmuşdu. Təyyarələri daim səmada uçub bombalarını boşaldır və gedirdilər. Uşaqlar dağlıq bölgənin dəlik-deşiklərində gizlənə-gizlənə hər gün daha çox irəliləyirdilər. Düşmənin silah baxımından üstünlüyü vardı, bizim də dağlıq sığınacaqlar baxımından. Bu isə tərəfləri bərabərləşdirirdi. Mərivan qarnizonu əməliyyatın ilk günlərində bombardman edildi. Səhərdən axşama qədər partlayış səsi gəlirdi. Ordunun Zərivar gölünün yaxınlığındakı artilleriyası düşmənə cavab verirdi: "Gumb! Gumb! Gumb!"

Balkonda yatmışdım. Artilleriyanın birnəfəsə qopardığı gurultu bizə layla çalırdı. 17 Saylı diviziyanın birləşmələri gölün kənarındakı kəndin evlərinə yerləşmişdi. Yenə simnanlıları görüb sevindim: Səmavi, Heratian və Mirzayi. Nə qədər ki bizim diviziyamıza növbə çatmamışdı, işimiz kənddə və gölün kənarında gəzişmək idi. Günəş hər səhər bər-bəzəkli ətəyini Mərivanın Zərivar gölünün üstünə sərirdi.

[1] Unudulmaz döyüşlər atlası, s. 94.

Sanki üzərinə qızılı zərli parça atmışdılar. Kəndin alçaq evləri gölün dövrəsinə səpələnmişdi. Evlərin arasındakı torpaq küçələrdən gölün qoxusu gəlirdi.

Hər səhər ordunun artilleriyasına gedir, qarşılıqlı atəş mübadiləsinə tamaşa edirdik. Gölün kənarında hamı üçün darıxırdım. Burnumuza su, ot və qamış iyi dolurdu. Fikirləşirdim ki, indi müharibə olmasaydı, camaat burada oturub isti və pürrəngi çayını içirdi, uşaqlar gölün kənarında qaçışır, günortalar suda çimirdilər. Əvvəllər elə bilirdim ki, günəşin arxasından bərbəzəklə çıxdığına görə bu gölün adını Zərivar qoyublar. Lakin yerli döyüşçülərdən eşitdim ki, "zərivar" kürdcə dəniz kimi, bəxtiyaricə isə qızıl torpaq deməkdir. Fikirləşdim ki, təkcə bu göl yox, bütün İran bu ada layiqdir. Məncə, İranın hər yeri bu göl kimi gözəldi. İndi müharibədə bu gözəlliklərin qədrini daha çox bilirdim. Gölə baxıb ah çəkdim; aman bu müharibədən və bu qızıl torpağı bürümüş rəhimsiz səs-küydən!

Artilleriyaya yolumuz düşəndə hər dəfə ordu uşaqlarından top barıtı alırdıq. Onları təsbeh kimi bir-birinə birləşdirib aşağısını torpağa batırır, başını yandırırdıq. Fışıldaya-fışıldaya ilan kimi qıvrılır, alov torpağa çatır, birdən güclənirdi. Torpağın altından çıxıb havada dolaşır, dam-divara dəyirdi. Biz də kreativliyimizdən zövq alırdıq. Yanar ilanımızı görən hər kəs xəbərdarlıq edirdi ki, ətrafda tövlə və saman anbarı çoxdur, yanğın törədərsiniz. Ancaq eşidən kimdi?!

Artilleriyaya o qədər gedib topların atəşinə tamaşa etdim ki, qulağım tutuldu. Ağzımı nə qədər əydimsə, hava qulağımdan çıxmadı. Başımdan fit səsi gəlirdi. Sanki qulağım qatı yağla dolmuşdu. Gecələr qulaq ağrısından yata bilməyəndə Əbülqasimxan yadıma düşürdü. Uşaq vaxtı məni qulaq ağrısından xilas etmişdi.

– Bu, nə iyidir?

Tiryək iyini tanıyırdım, amma hər axşam bu sualı nənəmə verirdim. Axşam Əbülqasimxanın tiryəkinin iyi kondisionerin kanalından evə yayılırdı və mən üçaylığımı xatırlayırdım. İstəyirdim ki, nənəm bu xatirəni hər gecə danışsın, saçımı tumarlasın, ağladığıma görə necə narahat olduğunu, gecədən səhərə qədər anamla nənəmin əlində atılıb-düşdüyümü və ağladığımı söyləsin. Sakitləşim deyə atam məni çiyninə qoyub evdə gəzdirirmiş. Nənəm mənə isti şərbət düzəldir, bədənimi zeytun yağı ilə sürtür, paltarıma dua sancır, bir parçanı qızdırıb qarnıma bağlayırmış. Lakin bunların heç biri məni sakitləşdirmirmiş.

Gecələr ağlamaq səsim Əbülqasimxanın evinə gedirmiş. Nərgiz xanımla Əbülqasimxan divar-divara qonşumuz idilər. Bir gün səhər çağı Nərgiz xanım qapımızı döyür, alüminium kağıza bükdüyü tiryəki nənəmə verib deyir ki, qulağımın arxasına qoysun. Beləliklə, ağlamağıma əlac tapılır. Bu unudulmaz əlacın xatirəsi həmişə yadımdaydı.

Qulağımın ağrısı təzə yaxşılaşmışdı ki, bizim növbəmiz çatdı. Mənsuri, Səmavi və Heratianla birlikdə pikapın arxasına mindik. Xəbər verdilər ki, düşmən Pəncvini TNT ilə hamarlayıb geri çəkilmək istəyir. Kənddə qaldığımız müddətdə partlayışların səsini eşitmişdik, maşında isə nəticəsini görürdük. Bu qədər xarabalıqdan ürəyim sıxıldı. Başmaq təpəsinin yamacındakı düzənlik bomba sahəsinə dönmüşdü. Partlamamış salxım bombalarını şumlanmış yerə buğda kimi səpmişdilər. Təbiətdə salamat bir yer tapa bilməzdin. Qara partlayış çalaları hər yerdə görünürdü.

Üzərində durbinlə baxacağımız Seyidi təpəsi ordunun mövqeyindən beş kilometr irəlidə idi; bizimlə düşmən mövqeyinin arasında. Təpənin başına qalxanda ehtiyatla düşmən səngərlərinə baş çəkdik. Sakitlik idi. Hərəmiz bir tərəfdə uzanıb durbinlə baxmağa başladıq. İraq Pəncvin şəhərinə diş-dırnaqları ilə yapışmışdı, geri çəkilmək istəyənə oxşamırdı. Pəncvin bu bölgədəki olan-qalan mövqeləri idi. Birdən fikirləşdim ki, İraq səngərlərinə baxmaq maraqlı olar. Bir-bir onlara baş çəkməyə başladım. Bizim səngərlərdən necə də fərqlənirdi! Nə torpaq iyi gəlirdi, nə neft. Möhkəm divarları vardı. Səngərlərin çoxunda Səddamın hərbi geyimdə şəkli vurulmuşdu. Tərsliyim tutdu; gözlərini çıxarmaq, qırmızı qələmlə dodaqlarını qızartmaq, başına iki buynuz qoymaq, sonra da şəkli bayıra çıxarıb uşaqlarla gülmək istəyirdim. Lakin vaxt yox idi.

İçinə girdiyim son səngərdən kəskin odekolon iyi gəlirdi. Döyüş əlifbaları bizimlə yerlə göy qədər fərqlənirdi. Burada əməlli-başlı yaşayırdılar, bizsə həyatımızı cəbhənin arxasında qoymuşduq. Onlar qalmağa gəlmişdilər, bizsə getməyə.

Gözümə quru süd qutusu sataşdı. Bir qədərini əlimin içinə töküb az-az dadmağa çalışdım. Uşaqlarla işini bitirmək üçün qutunu qoltuğuma vurdum. Bu zaman bir güllə daşa dəyib geri qayıtdı. Heç birimiz əhəmiyyət vermədik, elə bildik ki, kor atışdır. İkinci və üçüncü güllə gələndə isə başa düşdük ki, vəziyyət gərgindir. Qutu əlimdən düşdü. Qismət deyilmiş. Quru süd gözümə və burnuma doldu, öskürməyə

başladım. Güllə dolu kimi başımıza yağmağa başladı. Sanki quru südü götürdüyümüzə görə hirslənmişdilər.

– Uşaqlar, bizi gördülər, qaçın aşağı, - Mənsuri qaçaraq dedi.

Öskürə-öskürə qaçırdım. Özümüzə gəlincə minaatandan üstümüzə mərmi göndərdilər. Pikapın arxasına hoppandıq. Sürücü yavaşca gedirdi ki, uşaqlar özlərini yetirib minsinlər. Öskürək gözlərimi yaşartmışdı. Quru süd burnumdan gəldi. Hamı gələndən sonra sürücü qaza basdı. Mərmilər bizdən bir neçə metr aralıya düşürdü. Çox gözlərinə girmişdik. Dayanmadan vururdular, biz də yayınırdıq. Torpaq və barıt qoxusu hər tərəfi bürümüşdü.

Zərivar gölünün yanında maşından enəndə bildik ki, bir nəfərimiz yoxdur; Səmavi orada qalmışdı. Minmək üçün Vanetin arxasınca qaçdığını hamı görmüşdü, amma yuxarı qalxdığını heç kim. Biz başlarımızı aşağı salıb pikapın yerinə qısılmış, o vurhavurda, tüstü və alov arasında onun minə bilmədiyini görməmişdik. Bilmirdik ki, təpənin döngəsində belinə mərmi qəlpəsi dəyib və yıxılıb. Onu gətirmək üçün qayıdanda gördük ki, özü gəlib. Qan içində sürünə-sürünə özünü ordunun mövqeyinin yaxınlığına yetirmişdi. Yorğunluqdan yatmış adam kimi gözlərini yummuşdu. Sakit və məzlumdu. Üzünü torpağa qoymuşdu. Yanında oturdum. Rəngi ay kimi ağarmışdı. Həmişəkindən daha arıq görünürdü. Əlini tutdum. Bədəni qışa dönmüşdü. İstəyirdim ki, ayağa qalxsın, gülüb:

– Sizinlə zarafat edirəm. Elə bildiniz ki, şəhid olmuşam? – desin, sonra isə qollarını çırmayıb dəstəmaz almağa getsin.

Ancaq yerindən tərpənmədi, səsini bir də eşitmək həsrəti ürəyimdə qaldı. Kaş bizə bir də Aşura ziyarətnaməsi oxuyaydı! Kəşfiyyatdan sonra səngərə toplaşırdıq. O, səsi titrəyə-titrəyə oxuyur, biz ağlayırdıq. Qəhər içində ona baxdım. Həqiqətən, şəhid olmuşdu. Bir söz demədən əməl etmişdi. Özünün dediyi kimi, şəhadət əməl olunasıydı.

Hələ Səmavinin yasından çıxmamış Mircani ilə kəşfiyyata getmək üçün motosikletin tərkinə hoppandım. Mircani əyri-üyrü xətt üzrə sürürdü, mən də əllərimlə onun çiyinlərindən yapışmışdım. Nədirinin şəhadətindən sonra diviziyanın Kəşfiyyat rəisi olmuşdu. Hər dəfə mərmi fiti gələndə başımı arıq kürək sümüklərinin arasına salırdım. Mehdi Zeynəddin Şiler mövqeyində bizə yeni tapşırıq vermişdi. Döyüş irəlilədikcə biz kəşfiyyatçıların işi çoxalırdı, hər gecə tapşırığa gedirdik. Keçidləri ovcumuzun içi kimi tanımalı idik. Uşaqların hər birinin canı tapdığımız keçidlərə bağlı idi.

Hacı Himmətin[1] rəhbərlik etdiyi Tehran diviziyası Kanimanqa təpəsində vuruşur, Hacı Əhməd Kaziminin[2] rəhbərlik etdiyi Nəcəf diviziyası Şiler düzündə mərəkə qoparırdı. Üçbucağın üçüncü başı alovlar içindəki Lori yüksəklikləri idi. İraq hansı tərəfi tuturdusa, başqa bir yeri itirirdi. Uzun ensiz Şiler xəncəri süqutun biraddımlığında idi. Xəncərin tiyəsi bizim əlimizdə idi, düşmən də dəstəyindən yapışmışdı. Biz də Mircani ilə baxmaq istəyirdik ki, bölgəni tanıyaq və bizim diviziyamıza ehtiyac olsa, şəxsi heyəti bölgə ilə tanış edə bilək.

Mərmi fiti və top partlayışları beynimə dolmuşdu. Torpaq ayaqlarımızın altında titrəyirdi. Tüstü və barıt qoxusu sinəmə ağırlıq edirdi. Mircani ilə birlikdə Hacı Əhməd Kaziminin cəbhəsinin ön xəttindəki torpaq sipərin kənarına qədər qalxdıq. Çuvalla birnəfərlik bir səngər düzəltmişdilər; onun içinə girdik.

Ağır atəş səbəbindən baxış dairəmiz məhdudlaşmışdı. Hər dəfə durbinlə baxanda yeni bir şey görürdüm. İrəli gedib daha dəqiq görmək və yazmaq istəyirdim, ancaq mümkün deyildi. Hələ orada da bir neçə dəfə qulağımın dibindən güllə və qəlpə keçdi. Boylanıb baxır, tez başımı gizlədirdim. İşimiz bitəndən sonra torpağa söykənib dizlərimizi qarınlarımıza doğru yığdıq. Nəfəsimizi dərmək üçün zorla oraya yerləşmişdik. Bizə istirahət düşmədiyi üçün bu zaman torpaq sipərin arxasına bir top mərmisi dəydi. Belim qızışdı, hər yanı toz-duman bürüdü. Hərarət böyürlərimi qızdırdı. Başımı qollarımın arasına keçirdim. İri-xırda qəlpələr birsantimetrliyimizdən keçirdi. Barıt və yanmış çuval iyi burnuma doldu. Qarşımızdakı çuvallar əriyib dəlik-deşik olmuşdu. Böyürlərimə əlimi çəkdim. Başım hələ ağır və dumanlı idi. Bir-birimizə baxdıq; hətta kiçik yaram da yox idi. İnana bilmirdim. Köynəyimi qaldırdım. Bir cızıq belə yox idi. Bu qədər qəlpə bizim aramızdan necə yol tapıb keçmişdi? Üz-başımıza bir neçə santimetr qalınlığında toz oturmuşdu. Fikirləşdim ki, şəhadət gülümsəyib biraddımlığımdan keçdi, məni başa salmaq istədi ki, şəhadətin qayda-qanunu var.[3]

---

[1] Tehranın Məhəmməd rəsulullah (s) diviziyasının komandiri Məhəmməd İbrahim Himmət 1955-ci ildə İsfahanın Şəhr-Rza şəhərində dünyaya gəlmiş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[2] Şəhid Əhməd Kazimi 1958-ci ildə İsfahanın Nəcəfabad şəhərində dünyaya gəlmiş, 2006-cı ildə helikopter qəzasında şəhadətə qovuşmuşdur.

[3] "Şəhadət Allah-taala tərəfindən layiq olanlara verilən bir hədiyyədir". (İmam Xomeyni, Nur səhifəsi, c. 10, s. 440)

Həmin ezamda baş verən hadisələrdən heç biri Lori təpəsindəki kimi halımı alt-üst etmədi. Seyyidüşşühəda batalyonunun iki yeniyetməsi indi də yadıma düşəndə kövrəlib qışqırmaq istəyirəm. Uşaq üzləri ürəyimi parçaladı. Qayanın arxasında qızışmaq üçün qol-boyun olmuşdular.

Bütün bədənim gizildədi. Qan yerdə, sinələrinin altında laxtalanmışdı. Uşaqlar onların arıq və buz kimi bədənlərini bir-birindən ayıra bilmirdilər. Əhmədlu onlara baxır, dodaqları əsirdi. Bir neçə nəfər onları ehtiyatla qatırın üstünə qoyub iplə bağlamağa başladı. Lori dağının yamacından geri göndərməyə başqa bir nəqliyyat vasitəsi yox idi. Biz kəşfiyyata gedəndə bu iki yeniyetmə yolumuzu kəsmişdi; ruhsuz və donmuş üzlərlə. Onların üzlərindən xəcalət çəkdim, fikirləşdim ki, ömürlərinin qalanını onlara borclu qaldım.

Qurumuş qan paltarlarının sinəsini qaraltmışdı. Ötən gecə ərazi atəş altında olanda vurulmuş, qayanın arxasında köməkçi qüvvələri gözləyərək bir-birinə sığınmış, qolları bir-birinin boynunda soyuqdan və qanaxmadan donmuşdular; Lori yüksəkliyinin azadlığı üçün qanları bu donmuş torpağı qızdıran digər yüzlərlə insan kimi.

Çayın kənarında oturdum. Soyuq hər şeyin, hətta Heratianla Mirzayinin üzünün rəngini də qaçırmışdı. Hər kəs öz dünyasına çəkilmişdi. Göz yaşlarım keyimiş yanaqlarım üzərindən yavaşca özünə yol açdı. Uzaqlarda göy tutulmuş, təpələrin başında boz tutqun səma çadır qurmuşdu. Döyüşçülər uşaqların donmuş bədənlərini qatıra bağlayanda Mehdi Zeynəddin motosikletlə gəldi. Soyuqdan üzü qızarmışdı. Motosikletini kənarda saxlayıb yaxınlaşdı, uşaqların donmuş bədənini görəndə boğazını qəhər tutdu. Heç bir söz demədi, başını aşağı salıb çayın kənarında oturdu. Çiyinləri titrəməyə başladı və bərkdən ağlamaq səsi gəldi. Bu uşaqların məzlumluğu qarşısında boğazımızdan çıxan yeganə səs ağlamaq səsi idi. Bir-bir ağlamağa başlayır, ah-nalələrimizi çayla uzaqlara göndərirdik.

***

Çadırlarımızı təmas xəttindən bir neçə kilometr geridə qurduq. Altımızdakı torpaq soyuq və rütubətli idi. Soyuq iliyimizə qədər işləyirdi. Yağışın keçməsindən qorxub çadırın üstünə sellofan çəkdik. Gecələr külək əsib onu xışıldadanda isə hamının qulağı batırdı.

Mehdi Zeynəddinin əmri ilə kəşfiyyat komandaları azad edilmiş Lori bölgəsində çadır qurmuşdular. Mövqe dayanmadan irəliləyirdi. Biz uşaqlardan bir addım öndə olub məlumat toplamalı idik.

Hər tərəfimiz soyuq dağdan və palıd ağaclarından ibarət idi. İndi də palıd iyi məni o günlərə aparır. Sanki kəşfiyyat çadırları palıd bağında qurulmuşdu. Qısa çətirli ağaclar idi. Palıd qozalarını odda yandıranda ətri iştahamızı açırdı. Odda taraq-turuq edib partlayırdı, biz də yeyirdik. Mağara adamları kimi yaşayırdıq, su və odla hər iş görürdük. O çadırlarda o qədər qaldıq, dağın dəlik-deşiklərində o qədər gəzdik ki, hər yeri əzbərlədik. Bütün bölgəni öyrənməli idik ki, hansı istiqamətdə əməliyyat keçirmək istəsələr, bələdçiləri olsun. Hər gecə əlimizdə kompas yola düşürdük.

Bir dəfə qaranlıqda ağacların arası ilə bacardığımız qədər irəlilədik. Əməliyyat kəşfiyyatı budur: hey irəli gedəsən, həzz alasan, axırda da ya sən başından olasan, ya da düşmən. Həmin gecə də az qala başımızdan olacaqdıq. İraqlıların biraddımlığında məmnun halda durbinlə baxır, tez-tez qeydlərimizi yazırdıq. Yenə irəliləmək istəyəndə başımızı qaldırıb gördük ki, canavar kimi bir it bizdən bir neçə metr aralıda dayanıb. Yerimizdə quruyub qaldıq, niyə qaçmırıq deyə təəccüblə bir-birimizə baxdıq. Dili ağzına yerləşmirdi. Qaranlıqda gözləri parıldayır, hirslə mırıldayırdı. Hərəyə iki ayaq borc alıb qaçmağa başladıq. Ağlımıza gəlmirdi ki, bir-birimizdən ayrılsaq, çaş-baş qalacaq. Silah çiynimizə ağırlıq edirdi, amma düşmənin qulağının dibində olduğumuza görə atəş aça bilmirdik. Bu zaman it yox, düşmən işimizi bitirərdi. Hamımız birlikdə qaçırdıq, it də səs-küylə bizi qatırdı. Bir tərəfdən qorxurduq ki, bizi tutub parçalayar, bir tərəfdən də iraqlılar səs-küyü eşidib şübhələnsəydilər, hər tərəfə atəş açacaqdılar və dəlik-deşik olacaqdıq. Bu haray-həşirdə ayağım çolaq olduğunu xatırlayıb burxuldu. Sanki elektrik cərəyanı topuğumdan boğazıma qədər vurdu. Üzü üstə iki metr irəli yıxıldım, bir saniyənin içində yenə qalxıb qaçdım. İtin vəhşi nəfəsləri ax-ufa yer qoymurdu.

Çətin şəraitlərdə istedadlarını kəşf edirsən. Sürətli qaçış həmin gecə bizdə kəşf olunan istedad idi. Ayağımız öz mövqeyimizə dəyən kimi yorğunluqdan yerə sərələndik. Danışmağa taqətimiz yox idi, bir-birimizə baxıb gülümsəyirdik.

Sübh tezdən ocaq tüstüsünün iyi gəldi. Xirtdəyimə qədər ədyalın altındaydım. Çadırın qapısının arasından bayıra baxdım. Möhsün Ənsari[1] su qaynatmışdı. Paltarları soyuqdan hərəkətsiz halda

[1] Möhsün Ənsari 1964-cü ildə Qumda doğulmuş, 1983-cü ildə Vəlfəcr-4 əməliyyatında şəhadətə qovuşmuşdur.

budaqlardan sallanırdı. Qırmızı bədəninə hər su tökəndə mənim bədənim titrəyirdi.

Toyotanın siqnalından sonra ədyalın istisindən vaz keçməyə məcbur oldum. Uşaqlar da bir-bir peyda oldular. Mehdi Zeynəddin əməliyyatı davam etdirmək üçün Lori təpələrindən yol tapmağı tapşırmışdı. Hamıdan axırda Möhsün maşına doğru qaçdı. Başında bir toxunma papaq vardı. Burnunun ucu parıldayırdı. Minməzdən öncə şəkil çəkdirmək üçün hamımızı yan-yana düzdü. Şəkil yaxşı düşsün deyə gülümsədik. Fikirləşirdim ki, başı yaş halda pikapın arxasında, küləyin altında necə oturacaq? Şəkil çəkdirəndən sonra ətir şüşəsini cibindən çıxardı, hamımıza ətir vurdu. Biri o birindən ətirli halda maşına mindik. Pikap güldaşıyan maşına çevrildi. Ənsari digərlərinə ətir vurmaqla məşğul olduğuna görə yer tapa bilmədi. Maşının dövrəsinə fırlandı, salonun sərnişin səmtindən yuxarı qalxdı. Mən salonun arxasındaydım, onun üstündən qalxan mili tutdum. Ayağını maşının kənarına qoydu, çiynini yanıma yerləşdirdi, tutduğum milin sonundan yapışdı və maşın yola düşdü.

Təpənin arxasından çıxandan sonra iraqlıların müşahidəsi altına keçdik. Onlar yolu şumlamağa başladılar. Sürücü ziqzaq şəkildə sürətlə sürürdü. Ənsari yıxılacağından qorxub başını və çiynini mənə yapışdırmışdı. Üzümə və alnıma külək dəyirdi. 120 mm çaplı mərmi enəndə gözlə görünmür. Amma həmin gün mən onu hiss etdim. Saç teli kimi bir şeyin avtomobilin sağ qanadına dəydiyini gördüm. Partlayış işığı gözlərimi qamaşdırdı, üzü üstə salonun üstünə düşdüm. Döş qəfəsim ağrımağa başladı. Dişimə dəyib maşının üstünə düşən kiçik bir qəlpənin xırda cingiltisini eşitdim. Maşın xırıldayıb söndü.

Partlayışdan beyni dumanlı halda gözlərimi açdım. Gördüm ki, Ənsari yoxdur. Qan içində uşaqların üstünə düşmüşdü, boğazından fışıldaya-fışıldaya çıxan qan ətrafa sıçrayırdı. Qəlpədən başı parçalanmışdı. Başının olmadığını görəndə özümdən asılı olmadan əlimi boynuma və başıma vurdum. Qəlpə birqarışlığımdan keçmişdi. Yapışqan qan qoxusu ürəyimi bulandırdı.

Düşmən adətən hədəfin məhv edildiyinə əmin olmaq üçün iki raketi dalbadal atırdı. Növbəti mərmi gəlmədən maşından endik. Piyada olanda düşmənin gördüyü ərazidə bir an da dayanmaq olmurdu. Ağacların arasında və iri daşların arxasında gizləndik, sonra ön xəttə qədər birnəfəsə qaçdıq.

Gecənin yarısı qayıdanda qaranlıqda Möhsünün su qaynatdığı qazanı gördüm. Qüsl almaq səhnəsi,[1] ətir vurması və yadigar şəkil çəkdirməsi gözlərim önündə canlandı. Hiss etdim ki, bu kəşfiyyatdan qayıtmayacağını bilirmiş. Boğazımı qəhər tutdu. Şəhadət mənə o qədər yaxınlaşmışdı, amma onu görməmişdim. Bir külək kimi gəlib yanımdakını aparmışdı. Ətrini hiss etdim, hətta üzümə əlini də çəkdi, amma yenə qaldım.

Uşaqlar çadırda qanlı paltarlarını çıxarmağa başladılar. Ənsarinin damar və vətərləri onların saç və paltarları üzərində qatılaşmışdı. Hərə özündən bir tikə ayırıb üstünə ad qoyurdu; deyib-gülürdülər. Mənimsə bütün vücudum həsrətlə alışıb-yanırdı. Cəbhədə kimsə uçanda onun üçün sevinirdik, ağlayanda da öz acınacaqlı halımız üçün ağlayırdıq.

Qış dağa-düzə ağ don geydirmişdi. Vəlfəcr-4 hələ davam edirdi. Düşmən neft tankerlərimizə hücum edərək, habelə Dezful və Məscid-Süleyman şəhərlərini bombalayaraq İranı bu cəbhədən uzaqlaşdırmağa çalışırdı.

"İraq 1983-cü ilin 23-28 oktyabrında bir həftə boyu qırıcı təyyarələrlə Pəncvin şəhəri, Gərmək qarnizonu, Şiler dərəsi və digər əməliyyat istiqamətlərini kimyəvi iprit maddəli raketlərlə bombaladı. Vəlfəcr-4 əməliyyatının uğurlarını nəzərə alsaq, düşmən öz hücumlarından bir növ intiqamdan başqa bir şey əldə etmədi".[2]

Qarın soyuğu adamın iliyinə qədər işləyirdi. Geri çəkilmə əmri verildi. Seyyidüşşühəda batalyonunda Hacı Dehnəvi[3] adlı mehriban bir qoca vardı. İmam "cəbhələr qorunmalıdır" deyə buyurduğuna görə qayıtmaq istəmirdi. Məhəmməd Zülfi[4] hər dəfə onu görəndə zarafata başlayırdı:

– Sənin arvad-uşağın var, dünyanın ləzzətləri sənə adiləşib, mənsə geri qayıdıb evlənmək istəyirəm.

---

[1] "Bu şəkildə dəyişən, övladları soyuqda bu yollarda əziyyətlə piyada gedib şəhadət qüslü verən və şəhadət üçün önə keçən bir xalq qalibdir!" (İmam Xomeyni, Nur səhifəsi, c. 11, s. 346).

[2] Müharibə cinayətləri, İraqın İranla müharibədə kimyəvi silahlardan istifadəsi, Məhəmmədbaqir Nikxah Bəhrami, s. 113.

[3] Hacı Mahmud Dehnəvi 1986-cı ildə diviziyanın Xuzistandakı düşərgəsində dünyadan köçüb şəhid yoldaşlarına qovuşdu.

[4] Məhəmməd Zülfi 1964-cü ildə Qumda dünyaya gəlmiş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

Birini Məhəmməd deyirdi, birini Hacı Dehnəvi. Batalyon da gülüş səsindən uçurdu.

Nəhayət, qayıtdım, amma çox müsibətlə. Boğulmaq üzrəydim. Ayağımı həyətə qoyan kimi evin divarlarının üstümə gəldiyini hiss etdim. Evdə olmadığım bir neçə ay ərzində Hacı Əlimirzə bir neçə il qocalmışdı. Çiyinləri sallanmışdı, yeriyəndə çiynində yük varmış kimi ağır və yavaş addım atırdı.

Gecikmişdim. Baba evinin səs-küyündən və get-gəlindən payım qara bayraqları açmaq oldu. Axırıncısını eyvanın kənarından açdım. Sanki evin üstünə qəm ələmişdilər. Bayrağı üzümə yaxınlaşdırıb qoxuladım. Gülab və üzərlik ətri gəlirdi. Məhəmməd dayım taxçanın üstündəki çərçivədən mənə baxırdı. Göz yaşlarımın arxasından təbəssümünü bulanıq görürdüm. Bu, şəhadətindən sonra şəkillərdəki təbəssümü idi. Tabutda da mehriban üzünə rəsmlə təbəssüm çəkmişdilər.

Mərivanda olduğum günlərdə İraq tərəfi oradakı qarnizonu bombalamışdı. Dayım bir gün qabaq dostlarına demişdi ki, mən sabah rahat olacağam. Elə də olmuşdu. Balaca bir qəlpə ürəyinə girmiş və rahat təbəssümlə onu yatızdırmışdı. Mən Mərivanda olanda şəhid olmuşdu. Kaş külək onun şəhadət xəbərini mənə gətirəydi! Kaş tez qayıdıb Nüsrət xanımın və Hacı Əlimirzənin yarasına məlhəm olaydım!

Atamın Məkkədən gələcəyi gün yadıma düşdü. Qarın ağırlığından həyətdəki çadır uçmuşdu. Mən nə qədər ağlamışdım. Məhəmməd dayı onda yanıma gəlib başımı sinəsinə qoydu, söz verdi ki, böyüyüb Məkkəyə gedəndə həyətinizdə çadır quracağam, keçəl başına araqçın qoyub çadırın altında uşaqlarla istədiyin qədər oynayacaqsan. Böyük bir bayrağa da adımı yazacaqdı: Hacı Məhəmmədhüseyn Hüseyni Yekta. Nə qədər istəyirdim ki, kaş yanımda olaydı, qucaqlayıb mənə ürək-dirək verəydi, məni də getdiyi yerə aparacağını söz verəydi.

Məhəmməd dayımın şəhadəti anamın üzündən gülüşü aparmışdı. Hər gün səhər oyanıb onun qızarıb şişmiş gözlərini görəndə gedib-getməmək barədə tərəddüd edirdim. Evin dam-divarı nəfəsimi kəsirdi, hər bir bəhanə ilə evdən çıxırdım. Evim də, həyatım da cəbhədə qalmışdı. Qumda sanki yerlə göyün arasında avara qalmışdım. Cəfər cəbhəyə getmişdi və mən onsuz nəyisə çatışmayan Qum xiyabanlarında tək qalmışdım.

Özümə söz vermişdim ki, anam yaxşılaşana qədər yanında qalım. Çətin günlər yaşayırdım. İndi də o günləri xatırlamaq məni narahat edir. Dözməkdən başqa yolum yox idi. Cəbhəyə getmək üçün evdə uyğun şəraitin yaranmasını gözləyirdim. Başım qarışsın və sözümə də əməl edim deyə məktəbə getdim. Çoxdan idi o tərəflərə getmirdim. Dərs oxumağın da qayda-qanunu vardı, olmazdı ki, bir həftə gedəsən, bir neçə ay getməyəsən.

Cəbhədən əl çəkə bilmirdim. Şələ-şüləmi yığıb Döyüşçülər liseyinə getdim. Birlik uşaqlarından eşitmişdim ki, mənim kimi döyüşçülər üçün ən yaxşı təhsil yeri oradır.

Axşamlar dərs oxumağın da öz ləzzəti vardı. Sübhdən axşamüstüyə qədər məsciddə və birlikdə olurdum, saat 4-də kitab-dəftərlərimi qoltuğuma vurub Xəstəxana dördyoluna doğru qaçırdım. Hay-hayı getmiş köhnə bir tikili bizi axşama qədər qonaq edirdi.

Bizim məktəbimizlə hər şeydə fərqlənirdi; nə direktor müavini, nə danlamaq, nə də ciddi hazır-qaib etmək. Bunlara ehtiyac yox idi. Müharibə hamımızı böyütmüşdü. Bizimlə də böyük kimi rəftar edirdilər. Sinifdə oturanda elə bilirdin ki, taqımın çadırındasan. Nə yaşlar bir-birinə uyğun gəlirdi, nə də boy-buxunlar. Amma əvəzində ürəyin istəyən qədər yaxın dostlar idik. Hamımızın bir ortaq dərdi vardı: cəbhədən ayrılıq. Sinif yoldaşlarım arasında iki nəfər hamıdan çox yadımda qalıb. Həmişə sakit idilər, gülümsəyib sözlərimizə qulaq asırdılar. Divardakı çərçivənin içindən baxışlarını bərabər paylayırdılar: Döyüşçülər liseyinin şəhidləri.

İnformatika dərsimiz olanda daha tez gedirdim. Vaxtında sinifdə olduğum yeganə dərs o idi. Qədim mirzələr kimi müəllim nə deyirdisə, yazırdım. İnformatika və statistika elminin köməyi ilə cəmiyyətin real vəziyyətini bilmək olur. Yalnız məlumatlar düzgün olmalıdır. Verilənlərdən alınan nəticəni, habelə proqnoz və təxminləri çox sevirdim. İndi də hər bir işi görməzdən qabaq nəticəni beynimdə təsvir edirəm, sonra Allaha təvəkkül edib "Bismillah" deyirəm. Real nəticə beynimdəki təsvirlə uyğun gələndə yorğunluğum çıxır.

1984-cü ilin martı idi. Həyat davam edir, soyuqqanlı müharibə də onunla bərabər gedirdi. Məsciddə və liseydə müharibə xəbərləri

dolaşırdı. Hamı məlumatlarını dairəyə tökürdü. Nə qədər eşidirdimsə, Xeybər[1] həsrəti ürəyimi daha çox yandırırdı.

Əli Haşiminin və komandasının kəşfiyyatları bir möcüzə kimi idi. Uşaqlar da bu möcüzənin haqqını yaxşı verdilər. İndinin özündə də Xeybər əməliyyatının və Məcnun adasının adları döyüşçülərin ürəyini yandırır. Hansı diviziyanın uşaqları ilə oturub söhbət etsən, bu əməliyyat barədə o qədər deyiləsi sözü var, o qədər şəhadət və məzlumiyyət görüb, o qədər ürəyi yanıb ki, danışar, danışar, axırda həm özü ağlayar, həm də səni ağladar. Xeybər əməliyyatını uşaqların qeyrəti irəli apardı. Şəhid Meysəmi[2] bu əməliyyat barədə demişdi: "Kim Təlaiyyədə qalıb müqavimət göstərdisə, Kərbəlada da olsaydı, qalardı!"

Əməliyyatın birinci günündən birləşmələr Məcnun adalarına çatırlar, amma Zeyd istiqamətində iş düyünə düşür. Qərara alınmışdı ki, dəstək qüvvələri Zeyd və Təlaiyyə istiqamətindən adalara gəlsinlər. Əgər bu qüvvələr adalara girə bilsəydilər, məsələ bitmişdi. Düşmən də bunu bilirdi. O, bütün atəşini adalara yardım yollarına yönəltdi, yolun kənarına çatmış qüvvələrimiz də geri çəkilməyə məcbur oldular. Çünki köməksiz və dəstəksiz orada qalmalarının xeyri yox idi.

Zeyd istiqaməti Ramazan əməliyyatında da bizdən çoxlu şəhid almış yer idi; maneələrlə doluydu. Ən pisi də üçbucaq torpaq sipərlər idi. Bu sipərlər çox mürəkkəb bir şey idi, içi zindana bənzəyirdi. Girəndən sonra yolun bağlanırdı, tankın, pulemyotun və piyada qüvvələrin arasında qalırdın.[3] Qumun Əli ibn Əbu Talib diviziyasının

---

[1] Xeybər əməliyyatı Bəsrəni ələ keçirmək üçün planlaşdırılmışdı. Qərara alınmışdı ki, Bağdad-Bəsrə yolu kəsilsin, böyük bir əməliyyat baş tutsun. Əməliyyat zonası bataqlıq və qamışlıq idi. Bu bölgədə suyun dərinliyi iki metrdən dörd metrə çatırdı. Hur gölünü iraqlıların özləri belə Əli Haşimi və onun Nüsrət qərargahındakı kəşfiyyat komandası qədər tanımırdılar. Onlar Xeybər əməliyyatında əllərindən gələni etdilər. Gecə-gündüz çəkdikləri əziyyətlər Xeybər əməliyyatını görənlərin yaddaşından heç vaxt silinməz. Verdikləri məlumatlar uşaqların həyatı ilə bağlı olduğuna görə özlərini təhlükəyə atıb düşmənlərin ortasına qədər gedir, dəqiq informasiya toplayırdılar. (Hekayəçi)

[2] Şəhid Abdullah Meysəmi 1955-ci ildə İsfahanda doğulmuş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında şəhadətə qovuşmuşdur.

[3] Xeybərdə döyüşçülərin hər biri bir diviziya komandiri səviyyəsində vuruşur, amma iş irəliləmir. Məhəmməd Rəsusullah (s) diviziyasının komandiri Məhəmməd İbrahim Himmət və Aşura diviziyasının komandir müavini Həmid Bakiri bu əməliyyatda şəhid olurlar. İmam Hüseyn (ə) diviziyasının komandiri Hüseyn

Seyyidüşşühədа batalyonu Mustafa Kəlhürinin rəhbərliyi ilə Cənubi Məcnun adasında idi. Onlar Ərakdan Ruhullah və İmam Rza (ə) adlı yardım batalyonları ilə birlikdə adanı diş və dırnaqları ilə saxlayıb köməkçi qüvvələri gözləyirlər. Düşmən onları uzaqlaşdırmaq üçün Dəclə çayının suyunu nasosla Hur gölünə tökür. Hurun səviyyəsi qalxır, səngərlərə dolur və döyüşçüləri sıxıntıya salır. Zeynəddin və şəxsi heyəti gündüz hərəkət etməyə məcbur olurlar. Təlaiyyədə isə Himmət və qüvvələrinin başına məlum hadisə gəlir. İş o yerə çatır ki, Mustafa Kəlhüri süngü ilə düşmən qüvvələri ilə vuruşur. Bu əməliyyatda su döyüşü və gündüz döyüşü iranlıların ilk belə təcrübəsi idi; uşaqların itkisi ilə bağlı qəm-kədərlə dolu ağır təcrübə.

"İraq tərəfi döyüşçülərimizi Təlaiyyədən və digər istiqamətlərdən geri çəkilməyə məcbur edəndən sonra adalara yerləşmiş qüvvələri qovmağı da mümkün sayırdı. Nəhayət, martın əvvəlləri gəldi və tarixi fərman verildi: "Adalar, nəyin bahasına olursa-olsun, qorunmalıdır!"[1]

Sanki uşaqların bədəninə yeni ruh üfürülür. Biz piyada qüvvələr idik, düşmən isə zirehli. Uşaqları geri qovmaq üçün namərdlik pik həddinə çatır, kimyəvi bomba və raketlərdən ilk dəfə o qədər istifadə olunur. Qırx gün səhər və axşamüstü olmaqla gündə iki dəfə 80 km məsafəyə qədər bütün bölgəni suluq bağlayan müxtəlif qazlarla, xüsusən də xardal qazıyla, boğucu və əsəb korlayıcı qazlarla kimyəvi bombardmana məruz qoyurlar.[2]

"6 Mart 1984-cü ildə İraq ağır atəş, geniş hava bombardmanı, helikopter, tank və piyada qüvvələrlə Cənubi Məcnun adasına qarşı güclü əks-hücuma başladı və nəticəsiz sona çatdı. İraqın hücumları 7-9 martda da davam etdi, hətta kimyəvi silahlar tətbiq olundu, amma adaya yerləşmiş qüvvələr düşmənin girişinə imkan vermədilər, dişlə, dırnaqla, qan verməklə Bəəs ordusunun döyüş maşınlarını saxladılar. Məhəmməd İbrahim Himmət, Həmid Bakiri[3], Əkbər Zücaci[1] və Yağçian[2] adaları qorumaq üçün ödənən bədəllər oldular".[3]

---

Xərrazinin qolu kəsilir və yara dolu bədənlə geriyə göndərilir. Bütün bunlar isə döyüşçülərin ruhdan düşməsinə səbəb olur. (Hekayəçi)

[1] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 91.

[2] İraqın İrana qarşı müharibə cinayətləri və kimyəvi hücumları, Məhəmmədbaqir Nikxah Bəhrami, s. 130-131.

[3] Aşura diviziyasının komandir müavini Həmid Bakiri 1955-ci ildə Urmiyada dünyaya gəlmiş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

Məcnun adaları belə qorundu və uşaqlar imamın sözünün yerdə qalmasına imkan vermədilər.

---

[1] Məhəmməd rəsulullah (s) diviziyası komandirinin birinci müavini Əkbər Zücaci 1959-cu ildə Kaşanda doğulmuş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[2] Aşura diviziyası komandirinin ikinci müavini Mürtəza Yağçiyan 1956-cı ildə dünyaya gəlmiş, 1984-cü ildə Xeybər əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[3] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 92-93.

# Altıncı fəsil

## *Əlvida, komandir*

"Filosof, arif və sənətkarların elmi, əsaslandırmalı və irfani addımlarla əldə etdiklərinə şəhidlər, əsirlər, itkinlər və zərərçəkənlər real addımla çatmışlar; onların kitab və səhifələrdə axtardıqlarını bunlar haqq naminə (atıldıqları) qan və şəhadət meydanında tapmışlar".

İmam Xomeyni, Nur səhifəsi, c. 18, s. 74-75

Avtobus nərildəyib dayandı. Cənub yerinə Tehranın şərqindəki təpələrə gedib çatmışdım. Yerə enməyə həvəsim yox idi. Əgər uşaqlar yanımda olmasaydılar, çantamı çiynimə atıb Quma qayıdardım.

Təqvim 18.06.84 tarixini göstərirdi. Bölgə korpusu yaradılandan Tehrandan ezam olunurduq. Cəfər, Seyid Mehdi Musəvi[1] və Mənsur Baqiri məndən tez düşdülər. Panel bina bir div kimi yerdən boy atmışdı. Oranın inqilabdan öncə atçılıq mərkəzi olduğunu bilmirdim. Binanın önündə tamaşaçılar üçün oturacaqlar var idi, oturacaqların qarşısında da torpaq meydança. Panel bina beldən oturacaqlara doğru əyilmiş, kölgəsini onların üstünə salmışdı.

Gəlişimizdən iki saat sonra binanı görməyə dəyərdi. Vitraj pəncərəli böyük zallar xaki geyimlilərlə doldu. Hər mərtəbə bir batalyona və bir

---

[1] Seyid Mehdi Musəvi 1965-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

ləhcəyə məxsus idi: Simnan, Ərak, Qəzvin və Qum. Bəzən hədik aşı kimi bir-birimizə qarışırdıq. Hələ Qum diviziyası ayrılmamışdı.

Dəstə-dəstə zalların yerində əsgər ədyallarının üstündə uzandıq. Hər gün günortadan sonra Cəfər, Seyid Mehdi və Mənsurla birlikdə tamaşaçı tribunasına qalxır, oradan son İran şahı Məhəmmədrza Pəhləvinin dayandığı mərkəzi tribunaya keçirdik.

Günəş binanın arxasına enir, qırmızı işığını meydançaya səpirdi. Uşaqlar təpədən yorğun-arğın qayıdırdılar. Hər dəfə oraya gedəndə şahı düşünür, orada necə oturduğunu xəyalımda təsəvvür edirdim. Görəsən, o da həmin günlərdə bizi - onun hakimiyyəti zamanı dünyaya gəlmiş uşaqları düşünübmü? Bu meydançanın bir zaman cəbhəyə ezam mərkəzi olacağı, uşaqların bu binada belə rahat gəzəcəkləri ağlına gəlibmi? Düşünübmü bizim kimilər onun oturduğu kürsünün yanında oturub yuxarıdan dostlarına əl yelləyəcəklər?[1]

Gecənin yarısı zal sükut və pıçıltılarla doluydu, kölgələrin nümayişi gedirdi. Günəş qalxmazdan öncə hamı oyaq idi. Çox kövrəlmişdim, ağlamaq üçün bir himə bənd idim. Cəfərin çiyinləri yavaşca tərpənirdi. Qünut vaxtı Mənsurun bütün dəcəllikləri duaya çevrilib üzünə tökülürdü. Onlara tamaşa etməkdən doymurdum.

Ay gümüşü işığını pəncərələrdən zala tökürdü. Sanki uşaqları qucaqlamaq üçün qollarını uzatmışdı. Taqımlar oyanandan iki saat sonra günəş binanın önündəki təpələrin arxasından qalxmağa başladı. Əlini çənəsinin altına qoyub bizim səhər proqramımıza tamaşa edirdi. Qaçır, möhkəm addımlarla yeriyir, şeir oxuyurduq. Yuxarıdakı xüsusi səhnədə şahın və qulluqçularının yeri boş qalmışdı; oturub bizə baxmırdılar.

Günorta yeməyinin vaxtı gələndə bilmirdik ki, gülək, yoxsa ağlayaq. Biz dördüncü mərtəbədə qalırdıq, yeməkxana isə zirzəmidə yerləşirdi. Yüzdən artıq pilləni enməli olurduq. Danışıq və qaşıq-çəngəl səsləri yeməkxananın alçaq tavanına dəyib başımıza qayıdırdı. Uzun stol və stullar sıx-sıx düzülmüşdü. Qumdakı evimizin zirzəmisində, heç olmasa, bir tavan ventilyatoru vardı, burada, bu qədər adamdan partlamağa qalmış bir yerdə isə o da yox idi. Tər üz-başımızdan şəlalə kimi tökülürdü. Dörd mərtəbənin şəxsi heyəti dar,

---

[1] 1964-cü ildə SAVAK məmurlarından biri İmam Xomeynidən soruşub ki, siz hansı qüvvəyə arxalanaraq şaha qarşı çıxırsınız? İmam cavabında buyurub ki, mənim əsgərlərim beşikdədirlər. O əsgərlər böyüyüb cəbhələri doldurmuşdular. (Hekayəçi)

qaranlıq və qısa pəncərəli bir mərtəbəyə doluşurdu. Həmin birqarışlıq yerdə necə də xoşbəxt idik!

Enli-uzun növbə sırasında bir saat dayanandan sonra xörəyimizi ala bilirdik. O qədər ac olurduq ki, yeməkdən çox min cür kafur və zəhrimar dadı verən xörəyə hirsimizi boşaldırdıq. Ehtiyatla yeyirdik ki, barmaqlarımızı dişləməyək. Yemək qurtarandan sonra şənlik süfrəsi yığılırdı, ağır mədələrlə, yuxulu gözlərlə və bitməyən pillələrlə baş-başa qalırdıq. Nahardan sonra özümüzü tribunaya yetirirdik. Cəfərlə Seyid Mehdi Xeybər xatirələrindən danışırdılar, Mənsurla mən də həsrətlə dinləyirdik.

– Uşaqlar, indi İmam Mehdi (ə) desə ki, binanın damına qalxın, oradan özünüzü aşağı atın, nə edərsiniz?

Bir dama və onun hündürlüyünə, bir də bizi qəfil sualı ilə yaxalamış Cəfərə baxdım. Belə suallarından necə də xoşum gəlirdi! Hamımız fikrə getdik. Cəfərin düşündürmələrinin həmişəki nəticəsi buydu. Kömək iddiamız vardı, indi isə dilemma qarşısında qalmışdıq. Cəfər İmam Sadiqin (ə) sözü ilə bir nəfərin dərhal təndirə girdiyini danışdı.[1] Bilmirdim ki, hansı köməkçilərdənəm: dərhal təndirə girənlərdən, yoxsa...

Yadımdadır ki, heç kim "yox" demədi. Hamı dama çıxdı və orada növbəti hadisəni gözləməyə başladı.

– Bəlkə, ağanın fikri dəyişdi.

– Bəlkə, yerə düşməmiş özü bizi tutdu.

– Kaş yuxarı çataq, fikri də dəyişməsin və onun önündə şəhid olanlardan olaq.

O binaya və tribunalarda söhbətlərimizə təzə alışırdıq ki, avtobuslar peyda oldu. Şəxsi heyəti yükləyib atom enerji stansiyasına tərəf yola düşdülər.

Stansiyanın hansı tərəfinə baxırdınsa, çadır cücərmişdi. Konteynerlər bu qədər canlı qüvvəyə kifayət etmirdi. Sanki bir-birimizin belinə minmişdik. Məgər bir çadırda iyirmi iki nəfər yata

---

[1] Səhl ibn Xorasani İmam Sadiqdən (ə) imamət haqqını qəsb edənlərə qarşı qiyam etməsini istəyir. O, iddia edir ki, imama dəstək verəcək çoxlu döyüşçülər var. Bu zaman Harun Məkki içəri girir. İmam Haruna deyir ki, təndirin içinə gir. Harun heç bir söz demədən içindən alov saçan təndirə girir. İmam Səhlə deyir: "Xorasanda bizim əmrimizə tabe olan neçə belə insan var? Əgər onun kimi beş nəfər olsa, qiyam edərik". (Bihar əl-ənvar, c. 47, s. 123, Mənaqib ibn Şəhr Aşub kitabından nəql olunmuşdur).

bilər?! Biri yerindən tərpənən kimi yanındakı qışqırırdı. Kimsə tualetə getmək istəyəndə hamını tapdayırdı. Gecə namazı qılanlar gecənin qaranlığında tualetə getmək və dəstəmaz almaq üçün bayıra çıxırdılar. Onların adlarını “tapdayanlar” qoymuşdular.

Gecənin əvvəlində məni yuxu tutmadı; yerim dar idi və mən buna alışmamışdım. Çadırı da uzun tənəffüs səsləri bürümüşdü. Xəyal qurmağa başladım. İçində yatdığımız çadırı qadın çadrasına çevirdim. Gözlərimi bağlayır, uşaqların başına atırdım. Nə qədər gülməli görünürdülər. Birinin burnu böyük idi, birinin bığ-saqqalı gözə girirdi, birinə də qısa idi. Bir qədər aralıdan gələn uca "nırç" səsi ilə özümə gəldim. Fikirli idim və fikirlərimə bərkdən gülürmüşəm.

Cəbhəyə öncəki gəlişimdə kəşfiyyatçı olmuşdum. Bir səngərdə uzaqbaşı beş nəfər yatırdıq. Özümüz özümüzün ağası idik; istəyəndə gedir, istəyəndə gəlirdik. Burada isə iyirmi iki nəfər bir süfrədə yeyir, bir çadırda yatırdı. Yatmazdan öncə çadırın kənarı boyu oturub Vaqiə surəsini oxuyurduq. Kaskəbud cəbhəsində huri ayəsinin mənə düşməməsi üçün dua etdiyim axşamlar yadıma düşürdü. Artıq böyümüşdüm, həmin utancaq uşaqdan əsər-əlamət qalmamışdı. Ayənin məndən başqa birinə düşməsi kifayət edirdi ki, səngərin altını üstünə çevirək. Zarafat və gülüş səsimiz İraqa qədər gedirdi.

İmam Səccad (ə) batalyonunda idim, komandirimiz Cavad Abidi,[1] birinci müavini də Mirzə Şəhami idi. Cəfərlə eyni taqıma düşmək istəyirdim, amma bir söz deməyə üzüm gəlmədi. Əvəzində Mənsurla, habelə Əbülfəz Müqəddəm və Əli Fərdpur[2] kimi taqım uşaqları ilə bir olmuşduq. Hacı Hüseyn Baqirzadəgan da o taqımdaydı. Hamı onun ağ saqqalına hörmət edirdi. Səhər düzülüşündə batalyonun bayrağını qaldırırdı. Atışına söz ola bilməzdi. Silahını əzəmətlə tutması kimi, bayraq tutması da xoşuma gəlirdi. Əlində bayraq hamıdan öndə dayanırdı. Quran oxunuşu qurtarandan sonra bayrağı arxasındakına verib çadıra yatmağa gedirdi. Günəş altında qaçmadığına görə ona həsrətlə baxırdıq. Ancaq səhər düzülüşündən sonra könlümüzü alırdı; süfrə sərir, bizi şirinçayla qarşılayırdı. Ah, necə də ləzzətli idi!

---

[1] Cavad Abidi 1961-ci ildə Qumda doğulmuş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

[2] Əli Fərdpur 1961-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Aşura-2 əməliyyatında Çənguldə şəhadətə qovuşmuşdur.

Qərara alındı ki, Bəsrəyə doğru getmək məqsədilə Ramazan əməliyyat bölgəsində və Şələmçə düzündə yeni əməliyyat həyata keçirilsin. Düşərgənin ətrafındakı düzənliklərdə təlim keçirdik. Hər yer kanal, torpaq sipər və tikanlı məftillə doluydu. Əməliyyat zonasının maketini yaratmışdılar. İyun günəşi təri Niaqara şəlaləsi kimi başımızdan üzüaşağı tökürdü. Qaçma, oturub-qalxma, diyirlənmə, sürünmə və min cür atılıb-düşmə nəfəsimizi kəsirdi.

"Bölük azad" deyilən kimi oradaca uzanırdıq. Maraqlı səhnə yaranırdı. Bir anın içində heç bir döyüşçünün bizi yerdən toplaya bilmədiyi məğlub bir diviziyaya çevrilirdik. Kaş bir kamera olub bizi çəkəydi! Yaş çəfiyə şalımızın altında nəfəs təzələmək və təlimin ikinci mərhələsi üçün cana gəlmək üçün çadıra qayıdırdıq. Gündə 10 km qaçırdıq. İmam Səccad (ə) batalyonunu o çöllükdə ağır təlimlərlə xatırlayıram. Təlim zamanı komandirlər həddən artıq ciddi olurdular. Müharibə idi, oyun-oyuncaq yox; gərək bərkiyəydik. Təlim nə qədər ağır olurdusa, əməliyyat zamanı itki bir o qədər az olurdu.

Düşmən yatsaydı, yuxusuna da girməzdi ki, biz bu istidə əməliyyat barədə düşünürük. Ancaq bu, həqiqət idi. Hətta bizim kimi səbirsizlər də düşməni qəfil yaxalamaq üçün işə girişmişdilər. Torpaqda o qədər sürünmüşdük ki, dirsəklərimiz yara olmuşdu. Əllərimin içi qabar olmuş, ayaqlarımın altında xırda suluqlar yaranmışdı.

O qədər təlimdən sonra planın nə olduğunu söyləyəndə təəccübdən ağzımız açıq qaldı. Axı bizim ordu birləşməsində nə işimiz vardı? Yəqin ki, buraya gəlməli olduqlarını biləndə onların da ağızları bu qədər açılmışdı. Çarəmiz yox idi, əmr verilmişdisə, yerinə yetirməli idik. Çaş-baş halda cəld əşyalarımızı topladıq.

Qərara alınmışdı ki, bizim diviziyamızla ordunun 81 saylı diviziyasının üç bölüyü bir-biri ilə yerlərini dəyişdirsinlər. Bu, ordu ilə korpusun müştərək əməliyyatı üçün bir plan idi. Bilmirəm başqa diviziyalarda da belə bir iş baş tutdu, yoxsa yox. Bizim Salman bölüyümüz də yerdəyişənlərdən idi.

Axşam düşməmiş Kirmanşah diviziyasının Cüfeyr düzündəki taktika düşərgəsinin çadırlarına yollandıq. Günəş yeri-göyü eyni həddə qızdırırdı. Bədənimiz tərdən yapışqan olurdu. Gücümüz çölün günəşinə çatsaydı da, iri əqrəblərinə çatmazdı.

Bir neçə gün keçəndən sonra qırışımız açıldı. Müştərək səhər düzülüşündə bölüyün ruhanisi Hacı Cəlilzadə ağır bir çıxış etdi, sonra da sözü bölüyün təbliğat qüvvəsi Fədai Hüseynə verdi. O, qırmızı

maqnitofonunu qoltuğuna vurub çəkinmədən tribunaya yaxınlaşdı. Hələ bığ-saqqalı da çıxmamışdı. Maqnitofonu işə salıb səsini ən yüksək səviyyəyə qaldırdı. Zorxana zənginin səsi gəldi. Biz də məmnuniyyətlə dairə qurduq. Bir nəfər ortaya atılıb fırlanmağa başladı. Mürşid maqnitofondan bir-iki sayırdı, biz də dairənin içərisində növbə ilə hünərini göstərənlərə "maşallah", "eyvallah" deyirdik. Ordu hərbçiləri özümüzdən çıxardığımız səhər proqramını təəccüblə izləyirdilər.

Bu səhər düzülüşü bizi işə saldı və bizə təlim keçməyə başladılar. Hər şeyə dözərdik, təlimdən başqa. Günəş beynimizi qaynadırdı. Hövsələsiz halda dizlərimizi qucaqlayıb torpağın üstündə otururduq, cavan bir leytenant ciddi şəkildə dərs keçirdi:

– Qardaş, bu, RPG qumbaraatanıdır. Bunu atmaq üçün belindən tutub bu şəkildə çiyninizə qoyursunuz.

Atəş vəziyyəti aldı. Dəbilqə altında üzü daha ciddi görünürdü. Qumbaraatanı çiyninə qoyanda zarafatlar başladı:

– Belinin harasından?

Gülüşümüzü birtəhər udduq. Gənc təlimçi bizə fikir vermədən daha ciddi şəkildə sözünə davam etdi:

– Hədəflə məsafənizi nəzərə alaraq ayaq üstə dayanır, ya da dizi üstə oturursunuz.

– Uzanmaq olmaz? – uşaqlar yenə söz atdılar.

Zarafatcıllar arxada oturmuşdular, onları görmürdüm. Başımızı aşağı salıb yavaşca gülüşürdük. Zavallı leytenant ilişmişdi. Dəbilqəsini aşağı çəkdi, burnunun ucuna qədər üzü örtüyün altında qaldı. Nə gülə bilirdi, nə də gülməyə. Çalışdı ki, üz vurmasın. Söz-söhbət olmadan dərsi yekunlaşdırdı.

Dərslər hər gün bu vəziyyətdə davam edirdi. Dərsdən də maraqlısı bölük hərəkət edəndən sonra oturduğu yerin çala-çuxuru idi. Uşaqlar dərs zamanı ya hırıldaşır, ya da süngüləri ilə yer qazırdılar. Çala nə qədər dərin olsaydı, qazanın dərsə bir o qədər az qulaq asdığını göstərirdi. Kimsə bizi görməsəydi, elə bilərdi ki, burada bir bölük səhra siçanı dərs keçmiş və yuva qurmuşdur.

Günortalar çadır hamam kimi qızıb buxarlanır, paltarlarımız əynimizə yapışırdı. İstidən bezib hərəmiz bir tərəfdə uzanır, şallarımızı isladıb üzümüzə sərirdik. Qulam Kaşi adlı bir uşaq ventilyator rolunu oynayırdı. Qəliz Qum ləhcəsi ilə çadırları gəzə-gəzə uşaqların başı üstə

oturur, həsir yelpiklə üz-başlarına sərin verib kababçılar kimi səsini boğazına atırdı:

– Ağciyərdi ha... ağciyərrr!

Sonra yelpiyi üzünə doğru tutub mehriban səslə deyirdi:

– Ürək, qara ciyər və böyrək verim.

Bərkdən gülüşürdük. Özünü ürək və ciyər hesab edirdi, digərlərini ağciyər. O qədər dəcəldik ki, ordu birləşmələrinin yanında özbaşına buraxıla bilməzdik.

Bir dəfə diviziyanın Qərargah rəisi İsmayıl Sadiqi[1] birləşdirilmiş bölüklərə baxış keçirməyə gəldi və Həsən Müqiminin[2] təşəbbüsünü çox bəyəndi. Bir gün Həsən yaş şallarımızın altında mürgülədiyimiz yerdə çadıra girmişdi. Arıq cüssəsi başdan-ayağa toz-torpağa bələşmişdi. Bizim acınacaqlı halımızı görüb tərdən islanmış üzü ilə gülümsəmiş:

– Gəlin, görün nə etdim, – demişdi.

Çadırın arxasında bir metr dərinliyində bir çala qazmış, bir nəfərin uzanması üçün içini boşaltmışdı. Ora düzənliyin günəşindən qaçmaq və günortalar yatmaq üçün onun yataq otağı olmuşdu. Mümkün deyildi ki, harasa getsin, amma balaca külüngünü özü ilə aparmasın. İlk işi də bölüyə tualet quyusu qazmaq olurdu. Biz növbə ilə onun yataq otağına gedir, bəh-bəhlə tərifləyirdik. Bir dəfə orada yatdım. Torpağın sərinliyi canıma yayıldı. Günəşin əli oraya çatmadığı üçün çox sevinirdim.

Cüfeyr düzünün qızmar günəşi altında beynimiz işləmirdi. Diviziyanın bölüklərində camaat namazı təşkil etmək istəyirdik ki, çox bekar olmayaq və təbliğat işi də görmüş olaq. Bizim taqımımız bölüyün fransız açarı olmuşdu, hər bir sahədə bir ustamız vardı. Əli Fərdpurla Salehi[3] qaçıb pişnamaz olmaq istədilər. Əli Fərdpur azana on beş dəqiqə qalmış çadırın önündə dayanıb adam toplayırdı:

– Kim namaza gəlsə, hərəyə min tümən!

---

[1] 17 Saylı diviziyanın Qərargah rəisi Şəhid İsmayıl Sadiqi 1957-ci ildə Qumun Bidhind kəndində dünyaya gəlmiş, 1985-ci ildə Bədr əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[2] Həsən Müqimi 1966-cı ildə Qumda doğulmuş, 1986-cı ildə Kərbəla-4 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

[3] Şəhid Əli Salehi 1986-cı ildə Aşura-2 əməliyyatında Çənguldə şəhadətə qovuşdu.

O qədər təkrarlayırdı ki, utanırdıq. Ordu döyüşçülərinin yanında bundan artıq rəzil olmayaq deyə qaçıb dəstəmaz alır, ardınca yola düşürdük. Zarafat edə-edə nə qədər adamı camaat namazına gətirirdi.

Günəşdən qızarmış yanaqlarını və məsum görkəmini başqa cür təsəvvür edə bilmirdim. Əvvəllər ayaqqabısının dabanını yastıladır, çiyninə pencək atır və yeriyəndə qollarını iki tərəfdən o qədər açırdı ki, sanki pəhləvandır. İndi isə pencəyini düyməmləmiş, dabanını qaldırmış və düşmənin önündə sinəsini sipər etmişdi. Gecənin yarısı onun ahnalələrinə çox oyanmışam. Dostlarının gedişindən yorulmuşdu. Bütün düzənlik ayna olub Fərdpurun hönkürtülərini göylərə qaldırırdı. Səsi taqımın çadırının arxasından gəlirdi. İstəyirdim ki, gedib arxasında oturum və özünü yeni tapmış bir adamın namaz qılmasına baxım; elə bir adam ki, ömrünün günləri qədər Allaha borclu olduğunu düşünürdü. Çadırda qulaqlarımı şəkləyirdim, hönkür-hönkür ağlamasını eşidəndə gözlərim yaşarırdı.

Hər gün sübh çağı ordunun çadırımızın arxasından keçən pikapının səsinə oyanırdıq. Əsəblərimiz korlanmışdı. Həm yuxu burnumuzdan gəlirdi, həm də qaldırdığı toz-torpaq günortaya qədər boğazımızda palçıq olurdu. Maşınların təkəri torpaq üzərində cığır açmışdı və hamısı oradan keçirdi. Əvvəlcə birləşdirmə layihəsinin hörmətini saxladıq, hörmətlə xahiş etdik ki, ordudakı qardaşlar bizim çadırımızdan bir neçə metr kənarda qaza bassınlar. İki gün pikapın səsi gəlmədi, biz də sevincək səhər proqramına qədər yatdıq. Üçüncü gündən isə yenə köhnə hamam, köhnə tas. Çox tərsliyimiz tutdu. Pikap elə qaz verirdi ki, sanki indicə çadırın içinə girəcək.

Bir gün sübh namazından sonra Həsən Müqimi başımız üstə peyda oldu. Yadımıza düşdü ki, axşam yatmaq vaxtından yoxa çıxmışdı. Başdan-ayağa toz-torpaq içində idi, sevincək gülümsəyirdi. Pəncərənin önünə qaçıb bizi də çağırdı. Ətrafına toplaşdıq. Ordunun pikapı peyda oldu. Qaza basıb sürətlə gəldi, çadırımızın yaxınlığında isə nəyəsə ilişdi, bərk yellənib dayandı. Arxa təkərləri bir anlığa yerdən aralanıb yenə yerə oturdu. Müqimi yolda yarım metr enində uzun bir çala qazmış, torpaqları da gətirib çadırın arxasına tökmüşdü.

Hərbçilər maşından enib mat-məəttəl çalaya baxırdılar. Bildilər ki, bizim işimizdir, amma üz vurmadılar. Pikapı yüz dəfə irəli-geri verəndən sonra çıxarıb getdilər. Çala da digər pikaplara mane olmaq üçün orada qaldı. Ertəsi gündən maşınlar bizim çadırımıza çatanda

hərbi salam verib yollarını döndərir, səssiz-səmirsiz bir qədər aralıdan keçirdilər, biz də rahat yatırdıq.

Həmin bir ayı birtəhər başa vurub ordudakı qardaşlarla mehriban şəkildə sağollaşdıq və 17 saylı diviziyaya - öz evimizə qayıtdıq. Diviziyada heç kim bizim xatirələrimizdən azad deyildi. Səhərdən axşama qədər ordudakı nizam-intizamdan, dərslərindən və maraqlı səhər proqramlarımızdan danışırdıq. Ən çox da komandirlərinin gözəl əxlaqını tərifləyirdik ki, bu qədər dəcəlliyimizə baxmayaraq, bizə dözürdülər.

Cüfeyr düzündə günəş dərimizi nə qədər soymuşdusa, Dez bəndinin yanında əvəzi çıxdı. Mirzə Şəhaminin komandirlik etdiyi İmam Səccad (ə) batalyonu Dez bəndi düşərgəsindəki çadırlara yerləşdi. Sanki baharda təbiət qoynuna çıxmışdıq, sərin dağ havasında istirahət edirdik. Həsən Müqiminin başına topladığı toyuq və xoruzlar da başqa bir aləmdi. Onları düşərgənin ətraf kəndlərindən tapmışdı. Qəfəslərindən gələn iy məni uşaqlıq illərimə aparırdı: Əbülqasimxanın evinə və göyərçinlərinin qəfəsinə.

Evlərində hər şeyə əl vururdum, Nərgiz xanım mənə hey "qurban olum, başına dönüm" deyirdi. Övladları yox idi, onlara övlad kimi idim. Evlərinə getdiyim günlərin sayı qədər Əbülqasimxanın ayağı barədə soruşmuşam. Əlini bığına çəkib Zufar döyüşündə güllədən yaralanmasını xırdalığına qədər danışırdı.[1]

Əbülqasimxan həmin döyüşdə yaralanmışdı və ondan sonra ayağını çəkirdi. Mən bütün əhvalatdan yalnız güllənin dəyməsini başa düşürdüm. Əhvalatı danışıb qurtarandan sonra əsasını götürüb həyətdə gəzir, ayağımı Əbülqasimxan kimi ardımca çəkirdim. O, göyərçinlərin tor qəfəsinə girirdi. Quşlar oyan-buyana qaçışır, boğazlarının dibindən səs çıxarırdılar. Ən ağ olanı tuturdu. Mən ona "kəkilli" deyirdim. Başına əlimi çəkib sevinim deyə yaxına gətirirdi. Bircəcik olmağın belə xeyirləri vardı.

Həsənin səs-küylü toyuq və xoruzları hər gün səhər proqramından qabaq oyanırdılar. Qaçıb tər tökən bizdik, onun arsız xoruzu isə sinəsini qabağa verib gəzirdi. Səhər proqramı bitəndən sonra uşaqlar

---

[1] Zufar döyüşü omanlı solçularla həmin ölkənin şah hökuməti arasında Zufar vilayətində baş tutmuşdu. Məhəmmədrza Pəhləvi 1973-cü ildə İranın şahənşah ordusunun çevik qüvvələrini oraya göndərmişdi. Bu döyüşdə həmin şəxsi heyətdən 700-dən çox hərbçi həlak olmuşdu.

dağın qaya və cığırlarına səpələnirdilər. Qayaya dırmanmaq gündəlik məşqimiz idi, heç kim ondan qaça bilməzdi. Taqım komandiri Məhəmməd Zülfi öndən gedirdi, biz də ardınca qatar kimi düzülürdük. Dağ havasını bütün ciyərimizə doldurub özümüzü ən yüksək zirvəyə çatdırırdıq. Duman dağların başından suya doğru gedir, soyuq hava burnumuzun ucunu qızardırdı. Yuxarıda az danışırdıq, hərə öz aləminə çəkilirdi. Mən əlimi uzadıb buludları tutmaq istəyirdim. Seyid Mehdi Musəvi axırıncı adam idi. Qəsdən yavaş-yavaş gəlirdi ki, yolda kimsə qalsa, kömək etsin. Salehi ilə Fərdpurun hərəsi bir tərəfdə oturub uzaqlara baxırdı, mənim görmədiyim yerlərə.

Ərdistani[1] balaca kağızlarını cibindən çıxarıb oxumağa başlayırdı. Dünyanın bütün rahatlığı və məzlumluğu onun baxışlarına dolmuşdu. Başını qaldıranda dilinin yerinə gözləri danışırdı. Atom stansiyası düşərgəsində kitabxananın bir guşəsi Ərdistaninin adına yazılmışdı. Arıq cüssəsi ilə kitabın üstünə çökür, donqarı çıxırdı. Üz-başından tər axa-axa kitab oxuyurdu. Səhər proqramı bitər-bitməz kitabxanaya qaçırdı. Günortaya qədər heç yerdə görünmürdü. Həmişə cibində olan kiçik vərəqləri kitabxanada yazırdı. Oxuduğu hər bir yeni hədisi qeyd edirdi. Dağın başında olduğumuz yarım saatda Ərdistani qeydləri ilə məşğul olurdu.

Dağın bütün dəlik-deşiklərini ovcumuzun içi kimi tanıyırdıq. Dağın döşündə, böyük bir qayanın arxasında dərin bir cığır vardı; uzun, ensiz. Bu arıq mağara su damcılarından tədricən yaranmışdı. Bölük hər gün onun içinə baş çəkirdi. Sıra ilə düzülüb çiyinlərimizi əyir, dağın içinə girirdik. Yaş sürüşkən divarlarının yanında üzümə cığır küləyi dəyir, məni qıdıqlayırdı. Su damcılarının incə və məlahətli səsi qulağıma nəvaziş göstərirdi. Mamır ayaqlarım altında sürüşür, su başıma damır, evimizin su anbarı yadıma düşürdü. Bu arıq mağara kimi oradan da həmişə sərinlik və rütubət qoxusu gəlirdi.

Quran yarışı kitabını qoltuğuma vurub zirzəminin pillələri ilə aşağı qaçırdım. Su anbarı mənim otağım olmuşdu. Beşinci sinifdə oxuyanda Hacı Rastqu məsciddə uşaqlara mütaliə yarışı keçirirdi. Verdiyi kitabı oxuyurduq, ondan bizə suallar verirdi. Cavabları ucadan deyirdik, o da lövhəyə yazırdı. Xəttini sevirdim; sanki rəsm çəkirdi. Anbarda sükut içində nəfəslərimin səsini də eşidirdim. Mütaliəyə qərq olurdum.

[1] Hüseynəli Ərəb Ərdistani 1960-cı ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

Hacının bütün suallarını bilmək istəyirdim. Orada o qədər qalırdım ki, soyuqdan alnım ağrıyırdı. Nənəağa əli dizində pilləkəndən enib məni çağırırdı.

Dağdan enəndən sonra sanki bədənimizi döyəcləmiş olurdular. Çadırda uzanıb axşama qədər yatmaq istəyirdim. Ancaq Həsən Müqiminin arsız xoruzu qoyurdumu?! Hər gün səsini başına atırdı. Uşaqlar oyanıb deyinə-deyinə çadırlardan çıxırdılar. Günəş səmanın eyvanından suyun üzünü almaz kimi parıldadırdı. Uzun enli və rəngbərəng şortlarla suya girirdilər. Ən hündür qayadan başı üstə suya tullanır, dağın sükutuna su səpirdilər. Mən də dayaz bir yer tapmışdım, su belimdəndi. Oraya girib özüm üçün şappıldadırdım. Uşaqların çoxu üzməyi orada öyrəndilər. Bir-birimizi o qədər suya itələyirdik ki, heç kim suyun kənarında dayanmağa cürət etmirdi. Çiməndən sonra acından ölürdüm. Su mədə-bağırsaqlarımı yuyurdu. Yorğun və ac halda ayaqlarımı sürüyə-sürüyə çadırlara qayıdırdım.

Məhəmməd Zülfi hamıdan qabaq suya girir, hamıdan axırda çıxırdı. Hamıya göz qoyurdu, qorxurdu ki, xəstələnərik. Zarafat edə-edə başımızı dəsmalı ilə qurudur, sonra buraxırdı.

Bir gün sudan çıxanda Məhəmməd yox idi. O qədər zarafatcıl və səs-küylü idi ki, yoxluğu tez bilinirdi. Çadırların arxasından fırlana-fırlana ağ tüstü qalxırdı. Yanmış taxta iyi və inanılmaz bir qoxu gəlirdi. Tez orada nə baş verdiyini bilmək istədik. Məhəmməd kömürlərin yanında oturub cücəkabab bişirirdi. Çiməndən sonra kabab yeyəcəyimiz yuxumuza da girməzdi. Süfrədə Həsənin toyuq və xoruzlarını kəsmək üçün icazə verən Mirzə Şəhamiyə bir salavat göndərdik, Həsənin salamatlığı və toyuqların ruhlarının şadlığı üçün də bir salavat.

Həmin il Qədir-Xum bayramında Dez bəndində olduq. Cəbhədə keçirilən bayram və mərasimlərdə heç nə olmurdu, hər şey də olurdu. Başımıza şal və papaq atıb açıq havada oturduq. Karvanın ruhanisi çıxış edirdi. O, seyidlərin hərəsinə yaşıl bir şal vermişdi. Üzümü seyidlərə doğru çevirdim. Şallar onlara çox yaraşırdı. Hamımız əl-ələ tutduq. Hacı qardaşlıq əqdini oxudu, biz də təkrarladıq. Biz sönmüş lampa sırası kimi idik, yalnız seyidlərin rəngi fərqli idi: açıq yaşıl.

Tədbirdən sonra seyidlər sıraya düzüldülər, hamımız ay üzlərindən öpdük. Dostlarımla da qardaşlıq əqdi oxumaq istəyirdim, amma nə qədər etdimsə, Cəfərə yaxınlaşmağa üzüm gəlmədi. Nə qədər ki Seyid Mehdi vardı, özü ilə əqd oxumağıma qoymayacağını bilirdim. Seyid

Mehdi Musəvi yaşıl şalı ilə göz qamaşdırırdı. Ona baxan kimi əlini uzadıb bərkdən əqdi oxumağa başladı. Gözlərimi bağladım. Zamanın dayanmasını istəyirdim. Seyid Mehdinin səsindəki əminlik məni rahatlaşdırırdı. Düşünürdüm ki, heç vaxt əlimi buraxmayacaq:

- Vaxəytukə fillah, və safəytukə fillah, və safəhtukə fillah... Söz verirəm ki, cənnət və şəfaət əhli olsam və mənə cənnətə girmək icazəsi verilsə, sənsiz girməyəcəyəm!

Cavab vermək üçün başımı qaldırdım. Mehdinin üzü göz yaşlarından islanmışdı. Özümü saxlaya bilməyib onu qucaqladım və bərkdən ağlamağa başladım. Seyid Mehdi ağlaya-ağlaya oxudu:

- Səndən heç bir qardaşlıq haqqımı istəmirəm, şəfaət, dua və ziyarətdən başqa.

O an üçün çox darıxmışam. Seyid Mehdi tədbirdən sonra xatirə dəftərimi götürüb yazmağa başladı. Hərdən o xatirələrə, şəkil və əlyazmalara baxıram, mənim üçün yazdığı şeiri oxuyuram. Ürəyim onu istəyir. Çox vaxt onu yanımda hiss edirəm. Sözünün üstə dayanıb, üzü göz yaşlarından islanıb və mənim üçün narahatdır. Yorğunluq dizlərimi qatlayanda yanıma gəlir. Bu qədər qaçıb çatmamaqdan başımı divara qoyub zar-zar ağlamaq istəyən zamanlarımda əlimdən tutur, mənim üçün dua edir. Onunla qardaşlıq əhdimizi xatırlayıram. O, mənə qardaşdan da yaxın qardaş olmuşdur.

Ya Qədir-Xum bayramında, ya da ondan bir neçə gün sonra Mehdi Zeynəddin düşərgəyə gəldi. Onun gəlişi bizə əsl bayram hədiyyəsi idi. Heç kimdən nəfəs səsi də çıxmırdı. Sərin torpağın üstündə sıra ilə oturmuşduq. O danışırdı, biz kövrəlirdik. Uca dağlar ətrafımızı sarmışdı. Külək bəndin suyu üzərindən əsir, uşaqların cərgələri arasından keçib bizi tumarlayırdı. Zeyd zastavasındakı əməliyyat ləğv olunmuşdu. Ağa Mehdi başını aşağı salıb bizə məlumat verirdi. Necə də atəş istəyirdik! Bu xəbərlə sanki uşaqları yerə tikdilər, ətrafımızdakı dağlar qəm-qüssəyə çevrilib başımıza töküldü. Mehdinin vəziyyəti bizimkindən fərqlənmirdi:

– Şəhadət yolu hələ açıqdır. Bu əməliyyat olmadısa, növbəti əməliyyatda.

Bizə təskinlik verməyə çalışırdı. Sırada bir neçə nəfərin çiyinlə göz yaşını sildiyini gördüm. Əməliyyatın ləğv ediləcəyi ağlımıza gəlməzdi. Ağa Mehdi hələ ümidvar idi; tapşırdı ki, diviziyanı boş qoymayaq.

Batalyonların dolu olması diviziya üçün bir üstünlükdü, o ki qala bizim kimi təlim keçib əməliyyata hazırlaşmış qüvvələrə. Əgər

getsəydik, bizi bu asanlığa toplamaq olmayacaqdı. Mehdi uşaqlara dedi ki, əgər məzuniyyətə getsələr, tez qayıtsınlar. Bizim istəyimiz də bu idi. Bu torpaqdan yaxşı hara gedəcəkdik?! Dünyanın hər şeyi bu dağların arxasında qalmışdı: bər-bəzəyi, ləzzəti, çətinlikləri, əhalisi. Burada göylərlə baş-başa qalırdıq, zirvəyə gedən yollar da açıqdı.

Mehdi Zeynəddinin çıxışı bitəndən sonra uşaqlar onu dövrəyə alıb başlarının üstünə qaldırdılar. Uşaqların arasındakı sıxlıqda ilişmişdi. İstəyirdik ki, diviziyanın boş qalmayacağından arxayın olsun. Kimin əli çatırdısa, Mehdinin üz-başını öpürdü. Mən yaxınlaşmağa utanır, uzaqdan ona və onu dövrəyə almış döyüşçülərə baxırdım. O qələbəlikdən necə böyük sevgi aşıb-daşırdı!

Evə piyada getmək fikri də məni yorurdu. Hərəm hara, Salariyyə hara? Cəbhədən qayıdanda evdən öncə xanım Məsuməyə (s) baş çəkirdim. Hərəmdə sübh namazı qılmağın başqa ləzzəti vardı. Ciblərimi nə qədər axtardımsa, pul tapmadım. Şəhər hələ yuxudaydı. Soyuq və inadkar payız küləyi gödəkcəmin altına girirdi, burnum axırdı. Başımı yaxama salıb yola düşdüm. Anam məktubda yazmışdı ki, Salariyyəyə köçmüşük.

Yuxusuzluqdan gözlərim yumulurdu, ayaqlarımı ardımca sürüyürdüm. Uzaqdan bir qaraltı gəlirdi. Yuxulu və laqeyd halda yoluma davam etdim. Birdən qarşımda kürək sümükləri çıxmış qara bir it peyda oldu. Yorğunluq və yuxusuzluq yadımdan çıxdı, güllə kimi yerimdən sıçradım. Ayaqlarımın dartıldığını, addımlarımın böyüdüyünü hiss edirdim. Qaçır, itin nəfəs səslərini arxamdan eşidirdim. Dönüb geri baxdım. İnanılmaz idi. Bir it dörd itə çevrilmişdi; ailəlikcə məni qatırdılar. Güllə və qəlpə yerinə çöl itlərindən ölmək qorxusu ayaqlarıma güc verdi. Hər nəfəs alanda boğazım yanır, burnumun dəlikləri yırtılırdı.

Ayaqlarımın altı qızmışdı. Özümə gələndə gördüm ki, itlərdən səs-səmir yoxdur. Sürətimi azaltdım. Tər şəlalə kimi başımdan tökülür, ürəyim işıq sürəti ilə guppuldayırdı. İtlər xeyrə vasitə oldular və mən Salariyyəyə düşündüyümdən tez çatdım. Jalə küçəsinin tablosunu görəndə sanki dünyanı mənə verdilər. Günəş üfüqü qızılı rəngə boyamışdı. Çantamı çiynimə atıb onun cansız işığı altında yeni evimizi tapdım.

Günorta azanı Peyğəmbər (s) məscidinin səsucaldanlarından küçələrə axışanda mən də bədənimin qırışını açırdım. Fisincan ocaq üstündə qaynayırdı. İyindən məst halda yataqdan qalxdım. Özümü

ərköyün göstərib qazanın qapağını açmağa və iştaha ilə qoxulamağa üzüm gəlmirdi. Məzuniyyətin bütün ləzzətləri bir tərəfə, yuxu və fisincanı bir tərəfə.

Nənəm bir stəkan çayla başım üstə oturdu. Onun çaylarının ətri üçün darıxmışdım. Qardaşım Əli təzə oyanıb qara gözləri ilə tavana baxırdı. Məni görüb çapalamağa başladı. Mən də onu görüb çox sevindim. Anamın gözündən uzaq uzanıb ayaqlarımı yuxarı qaldırdım, balaca qardaşımı qarnı üstə ayaqlarımın altına qoydum, balaca əllərindən tutdum. Ayaqlarımı yığıb-açanda necə də sevinirdi! O, ürəkdən gülürdü, mən də onun xırda dişlərini görə bilirdim.

Azan səsini izləyə-izləyə Peyğəmbər (s) məscidinə çatdım. Yarımçıq bir tikili idi, yalnız zirzəmisi istifadəyə verilmişdi. Tanış bir döyüş yoldaşımı görərəm deyə cərgələrə göz gəzdirdim, amma heç kimi tanımayıb pis oldum. Yalnız yanımda oturmuş gəncdən cəbhə ətri gəlirdi. Abbas Möhsüni ilə Abdullah Mürəvvicin[1] baxış və rəftarları da mənə tanış gəldi. Tanıdığım bütün döyüşçülər kimi azdanışan və sakit idilər.

Namazdan sonra tez evə qayıtdım. Xakfərəcin Sahibəzzaman (ə) məscidinə getmək istəyirdim. Mən o məsciddə böyümüşdüm. Bilməzdim ki, bu yad məscidə alışacaq, bundan sonra məzuniyyət günlərimi onun mədəniyyət şöbəsində keçirəcəyəm. Bu məsciddə Hacı Şeyx Mürtəza Ağa-Tehraninin əxlaq dərslərinə getməyə başladım. İmamın qırx hədisin şərhi dərslərinin dadı hələ də damağımdadır. Kiçik cihadla məşğul olduğumuz o günlərdə Hacı Tehrani böyük cihadın yolunu-yolağını bizə göstərirdi. O, insanı bir ölkəyə bənzədirdi, iki ordu onu ələ keçirmək üçün vuruşurdu: Rəhmanın və şeytanın orduları. Nəfslə cihadı da böyük cihad adlandırıb deyirdi ki, bu cihad şeytanın ordusunu məğlub edib uzaqlaşdırmağa səbəb olur. Bu cihadın şərtləri vardı. O şərtləri sayanda həmişə Cəfərlə Seyid Mehdi yadıma düşürdü.

Birinci şərt təfəkkür idi: Allahın insanı bu dünyaya gətirmək məqsədi barədə düşünmək. İkinci şərt günahdan uzaqlaşmaq istəyi və iradəsi idi. Deyirdi ki, insanların dərəcəsi onların istək və iradələrinə görə fərqlənir. Üçüncü şərt ehtiyat və hesab idi. Yəni əməllərdən ehtiyatlı olmaq və şeytanın vəsvəsəsi ilə yoldan çıxmamaq. Gecələr isə

---

[1] Seyid Abdullah Mürəvvic 1964-cü ildə Əhvazda doğulmuş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

hesab zamanı idi; yəni günboyu nə etdin və nə etmədin. Dördüncü şərt günboyu Allahı yada salmaq idi.

O danışdıqca gecənin qaranlığında düşərgənin ətrafındakı çöllüklərdə fəryad qoparıb göz yaşı tökənlərlə fərqimi daha yaxşı anlayırdım. Gözlərimi hacının ağzına dikib kəlmə-kəlmə bütün sözlərini udurdum. Gecəyə qədər orada oturmaq istəyirdim; o danışsın, mən də qulaq asım.

***

İmam Səccad (ə) batalyonunun uşaqları bir-bir peyda olurdular. Görüşəndə elə sevinirdik ki, sanki neçə ildir bir-birimizi görmürük. Üz vurmasaq da, hamımız Mehdi Zeynəddinin sözü yerdə qalmasın deyə qayıtmışdıq. O, Dez bəndindəki çıxışında diviziyanı boş qoymamağımızı xahiş etmişdi. Bilirdik ki, bizə bunu tapşırırsa, özü, ümumiyyətlə, məzuniyyətə getməyəcək.

İki həftədən çox evdə qalan olmadı. Enerji stansiyasındakı düşərgədə gəzişir, uşaqlarla hal-əhval tuturdum. Məhəmməd Zülfinin taqımında snayper idim. Mənə yaxşı baxırdı. Əslində, hansımıza yaxşı baxmırdı ki?! Sübh azanından öncə hamımızı gecə namazına oyadırdı. Kim tənbəllik edirdisə, ədyalı üstündən çəkirdi. Özü hamı yuxuda olanda namazını qılır, sonra gümrah və enerjili şəkildə digərlərini oyadırdı. Çox çətinliklə ədyalın altından çıxıb soyuqda dəstəmaz alırdıq. Namaz vaxtı ürəyimiz sınanda və gözlərimizdən yaş axanda da zarafata başlayırdı. Əlindən çıxıb qaçır, bir tərəfdə üzümüzə şal atırdıq ki, tanımasın. Ancaq xeyri olmurdu. Şalı üzümüzdən şəkib ovcumuza bir beştümənlik qoymayınca əl çəkmirdi. Onun əlindən nə yata bilirdik, nə də yatmayıb namaz qıla.

Stansiya düşərgəsindəki konteynerlərdə də macəralarımız olurdu. Gündüzlər təndirə dönürdü, gecələr soyuducuya. Qol-qıçlarımızı qarnımıza yığır, soyuq dəmir döşəmə üzərində ədyalı başımıza çəkib səhərə qədər titrəyirdik.

Bir gecə gözümə təzə yuxu getmişdi. Birdən kiminsə məni silkələdiyini hiss etdim. Qaranlıqda bölük komandiri Həsən Bərxurdarinin arıq cüssəsini gördüm. Başım üstə dizi üstə oturmuşdu. Çox yuxum gəlirdi. Bir qədər qalxdım. Əlini dodaqlarının üstünə qoyub işarə verdi ki, səs salmayım. Yavaşca bədənimi yerdən

qaldırdım. Həsən Rəncbərlə[1] Məhəmməd Zülfini də oyatmışdı. Bir söz demədən yuxulu halda düşərgənin tualetlərinə tərəf yola düşdük. Üz-başımıza su vurmayınca yuxu bizdən əl çəkmirdi. Sübh azanına üç saat qalırdı.

Qol və balaqları çırmanmış arıq bir qaraltı tualetdən çıxdı. Ərdistani idi. Başını qaldırmadan yanımızdan keçdi. Ayağımı tualetə qoyan kimi yuxum qaçdı; hər yer parıldayırdı. Tualetin yerinə toplanmış palçıqlı sudan əsər-əlamət yox idi. Ərdistaniyə doğru döndüm. Gecənin qaranlığında gözdən itmişdi.

Qaranlıqda soyuqdan əsə-əsə pikapın arxasına mindik. Başımızı yaxamıza keçirib bir-birimizə yapışdıq. Adamın iliklərinə qədər işləyən soyuq külək canımızın qəsdinə durmuşdu. Hamımızın burnu axırdı. Zülfi əlini yaxamın düyməsinə doğru uzatdı, ciddi baxışla:

– Bu düyməni istəyirsən? – deyə soruşdu.

– Yox, – burnumu çəkib dedim.

Bir hərəkətlə düyməni qopardı. Nə deyəcəyimi bilmədim. Düyməni cibinə qoyub soyuqqanlılıqla mənə baxdı.

– Dedin ki, istəmirsən.

Müavini Həsən Rəncbərin dodaqları qaçdı. O, Zülfini məndən yaxşı tanıyırdı. Zarafatına təəccübləndim. Əlini ikinci düymənin üstünə qoydu.

– Bunu necə?

– Hə, istəyirəm, – deyə bu dəfə zirəklik etdiyimi sandım.

Bir hərəkətlə düyməni qoparıb mənə uzatdı.

– Al... Demədin istəyirəm?!

Yerimdə donub qalmışdım. Bilmirdim ki, gülüm, yoxsa təəccüblənim. Yerimdə bir az da qısıldım ki, əli düymələrimə çatmasın.

Bir saatdan sonra sürücü əyləcə basanda başımızı qaldırdıq. Soyuq bədənimi keyitmişdi. Zülfi uca boyu ilə bir hərəkətlə aşağı endi. Rəncbərin soyuqdan yaşarmış qara gözləri parıldayırdı. Hələ bizim üçün nə düşündüklərini bilmirdik. Vağzalı və qatarı görəndə fikirləşdik ki, yəqin, gizli bir tapşırığa gedirik; sevindik ki, indi isti və yumşaq kupelərdə uzanacağıq. Ancaq bu xəyalımız da puç oldu. Diqqətlə baxanda gördük ki, yük qatarıdır, biz də fəhlələri.

---

[1] Həsən Rəncbər 1965-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Darxuində şəhadətə qovuşmuşdur.

Müharibənin qanunu belədir: bir gün snaypersən, bir gün kəşfiyyatçı, bir gün tankvuran, bir gün də yükvuran. "Bismillah" deyib bir qatar ədyal, çadır və digər əşyaları yüklədik. Bu imkanların döyüş yerinə göndərildiyini heç kim bilməməli idi. Xəbər dolaşmasın deyə əsas kadrlardan istifadə edirdilər. Üz-başımızdan tər damır, ağzımızdan çıxan buxar havada itirdi. Dinmədən və gülmədən işləyir, tövşüyürdük.

Bir həftədən sonra həmin ədyallar kimi özümüzü də səssiz şəkildə qatara yüklədilər. Qatar uzun fitlə Qum vağzalında dayananda sevincək əşyalarımızı topladıq. Ziyarətə tələsirdik. Lakin nə qədər dəhlizlərdə dayandıqsa, heç kim qapıları açmadı. Çox dilxor olduq. Yenə kupelərə girdik. Qatar bizə məhəl qoymadan bir-bir şəhərləri gəzirdi. Hiss edirdik ki, əməliyyat var, amma hara getdiyimizi bilmirdik.

Səhər yuxudan oyananda qarın ağartısı gözlərimizi qamaşdırdı. Təbrizin soyuq havası içəri girmək üçün kupenin pəncərəsinə yapışmışdı. Cənubun istisi cənubda qaldı. Bir sutka idi qatardaydıq. Dar və qaranlıq kupelərdə sümüklərimizin səsi gəlirdi. Məhərrəm ayı idi, ürəyim rövzə istəyirdi. Dəhlizə çıxdım. Rövzə oxunan kupelərin qapısının ağzında oturub dizlərimi qucaqlayırdım. Həsən Rəncbər də mənim kimi dəhlizdə gəzib rövzə axtarırdı. Orada bir-birimizi görüb yadigar şəkil çəkdirmək istədik. İndi şəklə baxanda razıyam ki, hər şeyimi verim və o an təkrarlansın. Qolumu Həsənin çiyninə qoymuşam. Çəfiyə şalını boğazına dolayıb və mənim kimi, o da fotoaparata baxmır. Bilmirəm o plastik çəkələkləri nə vaxt geymişdim. Həsənin vəziyyəti isə məndən də acınacaqlı idi; ayaqlarında plastik çəkələk də yox idi, dəhlizin ortasında ayaqyalın dayanmışdı. Həsənin çəfiyə şalını görəndə çəfiyə ilə tək şəkil çəkdirmək həvəsinə düşdüm. Şalını ondan aldım və əmanət şalla poza verdim. Qollarımı sinəmə qoyub gözlərimi uzaqlara dikdim. Bir nəfər yox idi desin ki, bu uzunluğa qatarda niyə tualetin önündə şəkil çəkdirirsən.

Marağa vağzalı son stansiya idi. Əsnəyə-əsnəyə yerə endik. Razı idim ki, dünyanın o başına qədər piyada gedim, amma daha heç nəyə minməyim. Lakin çarə yox idi. Həbsxana dəyişdirən dustaqlar kimi tez avtobuslara minməli idik. Axırıncı oturacaqda Cəfərin yanında oturdum; Cəmkərana getdiyimiz zamanlar kimi. Başını pəncərəyə söykəyib dodaqaltı rövzə oxuyur, yavaşca əlini dizinə vururdu. Məncə, həmişəki Cəfər deyildi.

Avtobuslar bir-birinin ardınca düzüldülər. Boş yol qarlı dağ-təpələr arasından keçirdi. Cəfərin rövzə pıçıltısı qulaqlarımı tumarlayırdı. Kirpiklərim ağırlaşdı.

Məhərrəm axşamlarında məsciddə adam əlindən yer olmurdu. Qara köynəyimi geyirdim. Atama oxşamaq istəyirdim. Bütün uşaqlar orada olurdular. Sinəzən küçələri salınanda yan-yana dayanırdıq. Biz uşaqlar hamıdan bərk sinə vururduq. Hacı ağa Mühəssil Yəzdi həzrət Əli Əsğər rövzəsi oxuyurdu. Həmişə ürəyim istəyirdi ki, rövzə oxunanda böyüklər kimi əlimi alnıma qoyum və ağlamaqdan çiyinlərim tərpənsin. Həmin axşam, həqiqətən, ağladım; həzrət Əli Əsğərə və onun çapalamasına ürəyim yandı. Hacı oxuyur, mən də ağlayırdım. İmam Hüseyn (ə) rövzəsinin nə olduğunu ilk dəfə həmin axşam dərk etdim.

Avtobusun əyləci ilə mürgüm yarımçıq qaldı. Bilmirəm yuxu görürdüm, yoxsa Cəfərin səsini Hacı Mühəssil Yəzdinin rövzə səsi ilə qarışdırmışdım.

Avtobus Marağada bir hüseyniyyənin önündə dayanmışdı. Yerə enəndən sonra avtobus kolonunun önü və axırındakı təminat pikaplarını gördüm. Yol təhlükəli olduğuna görə gecəni hüseyniyyədə yatmalı idik. Tualetin qarşısında yaranmış uzun növbə sırasının yanından keçdim. Qumqumamda dəstəmaz almağa su vardı. Soyuq külək yaş üz və qollarım üzərində əsirdi. Uşaqlar çiyinlərində gödəkcə və ayaqqabılarının dabanlarını yastılamış halda hüseyniyyəyə doğru qaçırdılar.

Bağırsaqlarım bir-birini qovur, qıvrılırdı. Bir söz deməyə heç kimin üzü gəlmirdi, amma şam yeməyindən də xəbər yox idi. Deyinmədən və uşaqlıq etmədən, heç olmasa, doyunca yataq deyə başımızı yerə qoyduq. Sıx-sıx uzanmışdıq. Soyuq hüseyniyyənin yerindən bədənimizə mıx kimi batırdı. Gödəkcəmi üstümə çəkdim, dizlərimi qarnıma tərəf yığdım. Hamı bu vəziyyətdə idi. Cəfər hüseyniyyəyə hamıdan gec gəlib səssizcə uzandı. Ona göz qoyurdum, qorxurdum ki, nəsə olar və mən qalaram. Əlini başının altına qoymuşdu. Tərpənməyindən bilirdim ki, hələ oyaqdır. Mən də oyaq qalmağa çalışdım, amma qala bilmədim.

Sübh namazından sonra yerimizdə büzüşdüyümüz zaman hər tərəfi çörək ətri bürüdü. Hüseyniyyənin qonşuları döyüşçülərin gecəni burada yatdığını bilib səhər tezdən təzə çörək gətirmişdilər. Gecənin aclığı bu təzə çörəklərlə aradan qalxdı. Bir neçə boğça çörək bir

batalyon ac uşağın əlində əlbəəl olurdu. O qədər havanı iyləyib udqundum ki, nəhayət, növbəm çatdı, isti ətirli boğça qucağıma gəldi. Çörəklərin ətri bizi bu dünyadan ayırırdı. İsti və dadlı idi. Kiçik dişlər götürürdüm ki, dadı yavaş-yavaş canıma hopsun.

Cəfəri görmək üçün üzümü çevirdim. Halı gecəki kimi idi. Özümə hirsləndim: “Kaş gecə yatmayaydım!” Cəfər qızarıb şişmiş gözləri ilə mənə baxdı. Ona göz qoyduğumu bilib gülümsədi və başını aşağı saldı. Gedib yanında oturmaq, onunla danışmaq istəyirdim.

Nəhayət, yeni düşərgəmizə çatdıq: səssiz-səmirsiz Məhabad kəsim yeri. Birmərtəbəli yarımçıq panel tikililər bizi gözləyirdi. Haraya baxırdınsa, dağ və səma görürdün. Evlərə bacardıqca sıx-sıx doluşduq ki, hamıya yer çatsın. Hər gecə ərazinin ətrafında keşik çəkməli, örgüt və Demokrat qüvvələrindən ehtiyatlı olmalıydıq. Soyuqdan dişlərimiz bir-birinə dəyirdi. Buz bağlamayaq deyə tez-tez yeriyirdik. Tikililərin içinin havası bayırdan fərqlənmirdi. Külək dağın başından özünü pəncərəsiz tikililərə yetirir, vıyıldaya-vıyıldaya otaqların içinə soxulurdu.

Qərara alınmışdı ki, ümumi Sərdəşt bölgəsində əməliyyat olsun. Gecədən səhərə qədər dağın soyuğu bizi titrədirdi, səhərdən-axşama qədər də biz qaçıb ayaq döyürdük və yer ayağımızın altında titrəyirdi. Səhər idmanı zamanı diviziyanın Rza dayı çağırdığımız ruhanisi Rza Bəstami enerji ilə şeir oxuyurdu, biz də cavab verirdik:

Hüseyn-Hüseyn deyərik!
Kərbəlaya gedərik!..

O, hamıdan çox qaçır, tər tökürdü. Səhər proqramından sonra ağır təlimlər başlayırdı. Günorta azanına qədər birnəfəsə qaçır, sığınacağa girir, dağın yoxuşuna qalxırdıq. "Azad" komandası verilən kimi yerə sərələnir, nəfəsimizi təzələyək deyə on beş dəqiqə hərəkətsiz qalırdıq.

Bu komandanı sevirdim. Tez qəhvəyi dəftərçəmi götürürdüm. O, sevdiyim şeirlərlə dolu idi:

Ey ağıllılar! Ey ağıllılar!
Evinizdən bayıra çıxın!
Mənə tamaşa edin,
Mənə dəli deyirlər.
Balacalığımdan indiyədək
Yaxşı bir dostum var.
Bu yaxşı dostum üçün

Ömrümü sərf etmişəm.
Mövlanın canı haqqı, bu ağa
O qədər mehribandır ki!
Dərdimdən xəbərdardır,
Nə desəm, bilir.
Onun müqəddəs adı
Qəlbi titrədir, vallah.
Mən nə desəm də,
Dəlilər ona deyirlər: "Hüseyn can".

Bunu Mustafa Kəlhüridən öyrənmişdim, hamısından çox sevirdim; yavaşca oxuyub sinə vururdum. Bu növhəni indi də əzbər bilirəm; Kərbəla üçün darıxanda oxuyub yavaş sinə vurur, doyunca ağlayır, o günlərə qayıdır, özümü tək-tənha iri bir daşın üstündə oturmuş görürəm: "Azad" komandası verilib. Şəhid dostlarım dağın başında dayanıb mənə baxırlar. Mən yavaşca oxuyuram, onlar da sinə vururlar. Qara əza şalı boyunlarındadır. Bu beytə çatanda bərkdən ağlayıram. Dostlarım mənim çarəsiz durumumdan kədərlənir, başlarını aşağı salıb mənimlə birlikdə yavaşca oxuyurlar:

Yazıqlar, zavallılar
Bir baxışına təşnədirlər.
Bütün qəlb adamları
Kərbəlasına aşiqdirlər.

Günortadan sonra dağa çıxmaq zamanı idi. Taqımlar ətraf dağ və yamaclara səpələnirdilər. Yuxarıya qalxdıqca kəsim yeri və panel tikililər kiçilir, nöqtə boyda olurdu. Bədənimizin yeddi qatından tər axırdı. Bu dağların arxasına keçmək istəyirdim. Ayaqlarımın altındakı otlar saralmışdı. Ürəyim istəyirdi ki, bütün sarıları arxada qoyub o qədər gedim ki, bu dünya da arxamda qalsın, balaca qara bir nöqtə olsun; o qədər kiçilsin ki, onu görməyim, bu dağların zirvəsinə çatım, buludların və mələklərin yanında dərin nəfəs alım, cənnətin ətri canıma yayılsın. Dağın başına çatanda elə bilirdim ki, dünyanı aşağıda qoyub gəlmişəm. Oradan dünya mənə kiçik görünürdü; ayağımın altına sığacaq qədər kiçik. Axşam azanına yaxın getdiyimiz yolu geri qayıdanda narahat olurdum. Cənnətin qapısının arxasından dünyaya enməli olurduq. Dünya isə məni udmaq üçün ağzını açmışdı.

Biz tikililərə çatanda batalyonun ruhanisi Rza Bəstami dayı bizdən qabaq orada olur, camaat namazı üçün sərdiyi çadırın üstündə üzüqibləyə otururdu. Namaz vaxtı uşaqları görmək üçün axırıncı cərgədə dayanırdım. Ürəyimdə nəsə əsirdi. Göz yaşı donmuş üzümü isidirdi. Uşaqların boyu yerlə göy arasında məsafə qədərdi. Günəş ətəyini dağ-düzdən toplayır, payız küləyi cərgələrin arasına soxulur, yerin soyuğu ayaqlarımızın altından girirdi. Bu kəsim yerinin soyuq havasından nəfəsimiz zərrə-zərrə kəsilirdi.

Namazdan sonrakı səcdədən başımızı qaldırmamış Əli Malikinin səsi ətrafı bürüyürdü. Hər gün onun rövzələrinin həvəsi ilə dağdan qayıdırdım. Növhələrini necə də sevirdim! Sanki səsi səmada dolaşıb bizə çatırdı. Rza dayı hamıdan tez kövrəlirdi; çiyinləri titrəyir, bərkdən ağlayırdı. Göylər sözlərimə şahiddirlər! Hamı torpağa düşür, Əli Malikinin səsi titrəyirdi:

– Şukrən lillah... həmdən lillah... Ey Xuda, bəndə mənəm, xəcalətli şərməndə mənəm...

Kövrəlir, hönkür-hönkür ağlamaq səsi uşaqların hönkürtüsü arasında itirdi.

– Öz pis əməlimdən xəcalətliyəm, itaətsizlik etmiş bir qocayam.

Səsinin yanğısı ürəyimi parçalayırdı:

– İlahi, əl-əfv! İlahi, əl-əfv!..

Oxuyub bizi bu dünyadan ayırırdı. İki dəqiqə öncəyə qədər sümüklərimizi titrədən soyuq da xəcalət çəkirdi. Sanki bütün günün yorğunluğunu bu uzun səcdə ilə çıxarırdıq. Zaman dayanırdı. Heç kim səcdədən qalxmağa tələsmirdi. Batalyonun ağlamaq səsi arasında Muradi qardaşlarının ah-naləsini seçmək olurdu. Abbasəli[1] və Əbülfəzl[2] həmişə yan-yana otururdular. Əbülfəzl hər gün qürub çağı bu halda olurdu. Elə ağlayırdı ki, sanki son dəfə səcdə etməyə macal tapmışdır. Başımızı səcdədən qaldıranda ətrafımızdakı dağlar qara bir kölgəyə çevrilirdi. Əbülfəzlin ah-naləsi dağlara dəyib qayıdır, bizim qəlbimizə çökür, göz yaşları donmuş yanaqlarımız üzərindən yenə cığır açırdı. Onu səcdədən qaldırmağa heç kimin ürəyi gəlmirdi. Ağlaması rövzədən geri qalmırdı.

---

[1] Abbasəli Muradi Kuşki 1967-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Darxuində şəhadətə qovuşmuşdur.

[2] Əbülfəzl Muradi Kuşki 1965-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Darxuində şəhadətə qovuşmuşdur.

Kəsim yerinin hər şeyi, hətta camaat namazları da fərqli olurdu. Təhlükəsizliklə bağlı olaraq, hamımız birlikdə namaz qıla bilmirdik. Bir camaat namazı İmam Səccad (ə) batalyonu və zireh əleyhinə İmam Rza (ə) bölüyü üçün dağın yaxınlığında Rza Bəstami dayının pişnamazlığı ilə təşkil olunurdu. Bir qədər aşağıda kəsim yerinin ərazisində isə digər batalyon və birləşmələr namazlarını diviziyanın Etiqadi işlər rəisi Höccətül-İslam Möhsün Ruhaninin[1] imamlığı ilə qılırdılar.

Oranın kərpiclərini sanki göz yaşları ilə hörmüşdülər. Oradan xatırladığım ancaq ağlamaq və ah-nalədir; 19.11.84 tarixində olduğu kimi yanğılı ağlamalar:

Səma gecədən daim kövrəlir, yağırdı. Boz buludlar səhər günəşinin önünü kəsmişdilər. Yağış və nəmli torpaq iyi ərazini bürümüşdü. Səhər proqramı vaxtı nəmli yerdə oturduq. Burnumun ucu qızarmışdı. Soyuqdan gödəkcəmi başıma atdım. Dizlərimi qucaqlamışdım, yüngülcə titrəyirdim. Yağış buludları düzənliyə matəm səpirdi. Rza dayı söhbətə başladı. Atəşli cümlələrindən əsər-əlamət yox idi. Buludlar onun səsinə də qəm-qüssə tökmüşdülər.

– Qardaşlar! Müharibə bizim üçün ilahi imtahandır: dünyadan uzaqlaşmaq, ailədən uzaqlaşmaq, dostları itirmək...

Dərin bir nəfəs alıb göyə baxdı. Söhbətini davam etdirmək üçün söz axtarırdı.

– Allah kimi sevirsə, daha tez aparır... Bir nəfər də aramızdan getdi.

Səsi titrədi və ağlamağa başladı. Sözlər ağzından qırıq-qırıq çıxırdı:

– Qardaşlar! Ağa Mehdi getdi, bizsə qaldıq.

Ortaya ağır sükut çökdü. Yerə yapışdığımı hiss edirdim. Üç ay öncə ağa Mehdi Dez bəndində bizdən istəmişdi ki, diviziyanı boş qoymayaq. İndi bütün batalyonlar toplaşmışdı, özü isə yox idi. Rza dayının mikrofon arxasından hönkür-hönkür ağlamaq səsi başımıza dəyirdi. Məğlub qoşun kimi yerə səpələnmişdik. Həmin səhər mərasimi ağa Mehdinin yas məclisinə çevrildi. Artıq ağlamaqdan keçmişdi, hönkürürdük. Heç vaxt düşünməzdik ki, o, düz əməliyyat öncəsi gedə bilər. Rza dayıdan sonra Rəhim Səfəvi tribunaya qalxdı. Komandir şəxsi heyətinə ata kimidir. Rəhim Səfəvi helikopterlə

---

[1] Diviziyanın Etiqadi işlər rəisi Höccətül-İslam Möhsün Ruhani 1986-cı ildə Məcnun adasında müdafiə mövqeyində şəhadətə qovuşdu.

Məhabada Mehdinin yetimlərinə başsağlığı verməyə gəlmişdi. Səsi sinəsinin dibindən çətinliklə çıxırdı:

– Şəhadət ağa Mehdinin çəkdiyi əziyyətlərin mükafatı idi.

Uşaqlar daha bərkdən ağlamağa başladılar. Hər cümlə ilə müsibətə daha yaxşı inanır, fəryadları daha da ucalırdı. Mehdinin mehriban baxışları gözlərim önündən getmirdi. Haraya baxırdımsa, onu görürdüm. Lori yüksəkliyinin yamacında, çayın kənarında oturub qucaq-qucağa şəhid olmuş iki yeniyetmənin məzlumluğuna ağladığı gün yadıma düşdü; habelə uşaqlardan nigaran qaldığına görə Şeyx Sələyə qədər gəldiyi günlər. Xeybər əməliyyatında qulaqlarımız xəbərlərdə idi, ağa Mehdi Məcnunda rəşadətlə vuruşurdu. Bir gün də çıxışında diviziyada siqaret çəkməyi qadağan etmişdi. Biz haradaydıqsa, ağa Mehdi də oradaydı, hətta bizdən öndə. İtirdiyimiz komandirimiz həmişə yanımızda idi; bizim qayğımıza qalırdı, bizi qardaş kimi sevirdi. İndi bu kəsim yerində biz vardıq, ağa Mehdi isə yox idi. Yox idi və bizi bu soyuq torpaqdan qaldırmırdı; yox idi və bizə ürək-dirək vermirdi; yox idi və hələ açıq olan səma qapılarını bizə göstərmirdi; yox idi və bizə növbəti əməliyyatda şəhadət sözü vermirdi; yox idi və onu dövrəyə ala, başımız üzərinə qaldıra bilmirdik. Yox idi deyə halımız da, hövsələmiz də yox idi.

Şəhadətinin təfərrüatı çox tezliklə düşərgəyə yayıldı. O, əməliyyat yerini öyrənmək üçün Banədən Sərdəştə gedir və həmin gecə yağışlı havada əks-inqilabçıların pusqusuna düşür. Qardaşı Məcid[1] döyüşün əvvəlində şəhid olur. Mehdi isə maşından bir metr aralıya düşür. Terrorçular qaranlıqda diviziya komandirini vurduqlarını bilmirlər. Yağış səhərə qədər Mehdinin qanını yuyub çöllüyə axıdır.

Hələ də qərbə gedəndə Mehdinin şəhid olduğu yerdə mütləq dayanıram. Alçaq təpələr arasında yaşıl bir ərazidir. Bir torpaq yol çölün ortasında burulub təpənin arxasına keçir. Həmişə fikirləşirəm ki, Mehdi bu torpaq yolla cənnətə getmişdir; fikirləşirəm ki, bu düzü və təpələri Mehdinin qanı cənnət kimi gözəlləşdirmişdir.

---

[1] 17 Saylı Əli ibn Əbu Talib diviziyasının Kəşfiyyat-diversiya rəisinin birinci müavini Şəhid Məcid Zeynəddin 1964-cü ildə Tehranda doğulmuş, 1984-cü ildə Banə-Sərdəşt yolunda əks-inqilabçılar tərəfindən şəhadətə yetirilmişdir.

# Yeddinci fəsil

## *Qırmızı kvadratlar*

“Mən üstündə Allah əli olan qüdrətli əl və qollarınızı uzaqdan öpür və bununla şərəf duyuram.

Siz əziz İslama və şanlı vətənə borcunuzu ödədiniz... Kaş mən də sizinlə olub böyük şəhadət feyzinə qovuşaydım!”

İmam Xomeyni, Nur səhifəsi, c. 16, s. 142

Gövhərşad məscidinin həyətində sanki İmam Rzanın (ə) məqbərəsinin günbəzi aşağı enmişdi. Boylanıb onu öpmək istəyirdim. Həmişə bu həyətdən içəri girirdim. Cəfərin dodaqları bir-birinin üstündə sürüşürdü, gözlərinin kənarı islanmışdı. O oxuyurdu, biz də təkrarlayırdıq:

– Ey Allahım! Mən Peyğəmbərinin – ona və ailəsinə Sənin salamın olsun – qapılarından birində dayanmışam və Sən onun izni olmadan daxil olmağı insanlara qadağan etmisən...

Seyid Mehdi toxunma papağını qulağının üstünə qədər endirdi, dizlərini qucaqlayıb büzüşdü. Səxavətli şahın qapısında ağlayırdıq:

– Ey Allahım! Mən bu şərafətli məqbərənin sahibinin hörmətini, onun yanında olduğu kimi, ondan uzaqda da saxlayıram, bilirəm ki, Sənin rəsulun və onun canişinləri – onlara salam olsun – diridirlər və Sənin yanında ruzilərdən bəhrələnirlər. Onlar burada dayandığımı görürlər, sözümü eşidirlər, salamımı cavablayırlar. Sən onların

sözlərini qulaqlarımdan gizlətmisən və onlarla dərdləşməyin həzzi ilə anladırsan.

Günbəzə baxdım. Mehriban imam oradaydı və mən qarşısında diz çökmüşdüm. O, məni görürdü, mənsə onu yox. Ürəyimdəki hansı sözü gizlədə, onun bilmədiyi nəyi söyləyə bilərdim!? Çənəmi gödəkcəmin yaxasına saldım. Cəbhə torpağının ətri gəlirdi:

– Ey Rəbbim! Mən birinci növbədə Səndən, ikinci növbədə rəsulundan – Allahın salavatı olsun ona və ailəsinə – və sonra itaəti mənə vacib edilmiş imam olan canişinin Əli ibn Musa Rzadan – ona salam olsun – izin istəyirəm...

Abbasəlinin nəfəsinin buxarı bitişik qaşlarına qədər qalxırdı. Başını əymişdi, giriş izni almaq üçün yazıq-yazıq günbəzə baxırdı. Seyid Mehdinin çiyinləri titrəyirdi. Cəfər Əli ibn Musa Rzanın (ə) adını çəkəndə ürəyim titrədi. Onun razılığını istəyirdim - şəhadətimə razılığını.

– Daxil olummu, ey Allahın rəsulu? Daxil olummu, ey Allahın höccəti? Daxil olummu, ey Allahın bu məqbərədə olan yaxın mələkləri?

Yalvararaq oxuyur, icazə istəyirdi. Səs Cəfərin boğazında qırıldı. O dayandı, Abbasəli davam etdi:

– Ey mövlam, mənə giriş icazəsi ver, dostlarından birinə verdiyin ən dəyərli icazədən. Mən buna layiq deyiləmsə də, Sən buna layiqsən!

Qızıl günbəz göz yaşlarımın arxasından dumanlı görünürdü. Özümü imamın qucağına atmaq istəyirdim. Yaşıl bayraq donmuş bədənini günbəzin üstündə ağır-ağır yellədirdi. Külək soyuq donunu boş həyətə sərmişdi. Ağa Mehdinin şəhadəti evə getmək həvəsimizi öldürmüşdü. Dərdimizi mehriban imama söyləməyə gəlmişdik. Gözlərimiz zərihə sataşan kimi bir-birimizdən çəkinmədən ağlamağa başladıq. Mehdinin şəhadəti ürəyimizi çox yandırmışdı. İmam Rza (ə) halımızı bilirdi. Ağa Mehdinin yoxluğuna və öz varlığımıza yanırdıq. Halbuki əsgər hər yerdə komandirinin arxasınca getməlidir. Komandirimdən ayrı qaldığımı düşünəndə ürəyim od tutub yanırdı. Bir-birimizə bildirmirdik, amma bu günbəz altında şəhadət diləyimizi almağa gəlmişdik. Məşhəd bizim üçün hərəmlə və Rza (ə) behişti məzarlığı ilə xülasə olurdu. Xüsusən də indi ağa Mehdinin müsibəti təzə idi və biz şəhid məzarlığından ayrıla bilmirdik. Qəbirlər arasında gəzirdik, həsrət ürəyimizi parçalayırdı.

İndi də Məşhədə gedəndə o günləri xatırlayıram, Cəfərin, Abbasəlinin və Seyid Mehdinin yerinə namaz qılıram, onları görmək üçün ziyarətçilərə göz gəzdirirəm. Bəzən Seyid Mehdi Musəvinin mehriban üzünü adamların içində görürəm, amma özümə gəlib tərpənincə camaatın arasında gözdən itir. Bilmirəm ki, özü idi, yoxsa ona oxşar kimsə. Ardınca qaçmaq, əlindən tutmaq istəyirəm; istəyirəm deyəm ki, o səfərdə özü üçün dua etdiyi kimi, mənimçün də dua etsin, günbəzin altında mənim şəhadət diləyimi alsın.

Həmin səfərdə Rza (ə) behişti məzarlığında şəhidlərin qəbri yanında dayanıb yadigar şəkil çəkdirdik. İndi şəklə baxanda məni gülmək tutur. Orkestr kimi sıraya düzülüb əllərimizi belimizin arxasında düyünləmişik, sanki fotoaparat yoxmuş kimi hərəmiz bir tərəfə baxırıq. O şəklin də macərası var. Mən arxam Seyid Mehdiyə dayanıb guya uzaqlara baxırdım. Bu diqqətsizliyə görə Cəfər üç gün mənimlə ciddi davrandı. Arxamı Seyid Mehdiyə çevirdiyimə görə narahat idi. Seyid Mehdi həm məndən böyük idi, həm də bir-birimizlə qardaşlıq əqdi oxumuşduq. Ona arxamı çevirməməli idim.

Gedib Ayətullah Miyanəcigilin küçəsinin pillələrində oturur, dizlərimi qucaqlayıb Cəfərin gəlməsini gözləyirdim. Məni görəndə mehriban üzü ciddiləşirdi. Küsmüşdü, amma həm salam verir, həm də danışırdı. Davranışı üzərində çox həssas idi, mənim də diqqətli olmağımı istəyirdi. İndi, o gündən otuz üç il keçəndən sonra Cəfərin nəfsinə qarşı ehtiyatlılığının nəticəsini görəndə fikirləşirəm ki, bu kiçik məsələlərə görə hamı getdi, mən qaldım.

Qumda çox da davam gətirmirdik, bir həftədən sonra yenə cəbhədəydik. Hər gün keçəllərin sayı artırdı, başlarında da özüm dururdum. Atom stansiyasındakı düşərgənin bərbərinin işi yaxşı gedirdi. Yüngül və sakit başla at oynadırdıq. Digərləri də bizi görüb həvəsə düşür, saçlarını qırxdırırdılar. Seyyidüşşühəda batalyonunda idik, komandirimiz Mustafa Kəlhüri idi. Onu hər görəndə Çəngulədə nahar süfrələrinin ortasına motosikletlə girdiyini xatırlayırdım.

Arıq uzun cüssəm hansı işə yaramasa da, çapar işinə yarayırdı; Dəstqeyb bölüyünün çaparı. Çevik halda oyan-buyana qaçırdım. Müctəba Seyfi[1] buna görə məni özünə çapar seçmişdi. Xəbər aparıb-gətirəndə o qədər bərk qaçırdım ki, ayaqlarım az qala bir-birinə

[1] Seyid Müctəba Seyfi 1965-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

dolaşacaqdı. Yaşımın azlığına görə bölüyün əsas kadr heyətinin cücəsi olmuşdum. Hamıdan çox Müctəbanın ətrafında fırlanırdım. Qarabuğdayı simasını və mehriban gülüşlərini sevirdim. Sıx bitişik qaşları alnının bu başından o başına qədər qara xətt çəkmişdi. Yemək vaxtı əsas kadr heyəti üçün özü süfrə sərirdi. Süfrənin ətrafında dizi üstə otururduq. O qədər deyib-gülürdük ki, nə yediyimizi bilmirdik.

Bir gün hələ nahar süfrəsi toplanmamış kollektiv şəkil çəkdirmək istədik. Hamımız ekrana yerləşək deyə mehriban oturduq. Hətta qab və qazanlarımızı da yığışdırmadıq. Şəkildəki səkkiz nəfərdən yalnız üçü şəhid olmayıb. Onların biri mənəm. Həsrətdən ürəyim yanır. Şəhidlərlə şəkildə sıx-sıx oturduğum qədər bir-birimizə yaxın idik. Ancaq seçib apardılar, mənsə qaldım.

Bölüyün siyahısı məndə idi. Bekar olan kimi adları oxumağa başlayırdım. Səksən nəfərin adlarını və şəxsi məlumatlarını qırmızı dəftərçəyə qeyd etmişdim. Bütün bölüyü cibimdə gəzdirirdim.

Atom stansiyasına yenicə alışmağa başlamışdıq ki, mikroavtobuslar peyda oldu. Minib Əndimeşkə yola düşdük. Yeni bir düşərgəyə köçdüyümüzü bilmirdik. Dehloran üçyolundan sonra mikroavtobuslar torpaq yola döndülər. Çöllüyün ortasında qaza basıb gedirdilər. Hündür otlar mikroavtobusun belinə çatırdı. Faraların işıqları yerdə sıraya düzülmüşdü. Otlar təkərlərin altında yatıb yol açırdı. O qədər silkələndik, boğazımıza o qədər toz-torpaq doldu ki, ürəyimiz bulandı. Yerə enəndə haraya gedəcəyimizi bilmirdik, qaranlıq və əngin bir düzənlikdə qalmışdıq.

Taqımların çadırlarını qurub içinə girdik. Hər yer bizə yad idi. Səhər gözlərimizi açanda haraya gəldiyimizi bildik. Nə qədər gedirdiksə, Allahın bu çölünün sonuna çatmırdıq. Hər şeyimiz stansiya düşərgəsində qalmışdı. Burada yalnız çantamız və taqımın çadırı vardı, qalanı boş çöllük idi; nə hamam vardı, nə tualet, nə konteyner.

İkinci axşam Mustafa Kəlhüri batalyonu piyada yürüş üçün sıraya düzdü. Müavini Cavad Fəxxari[1] öndən gedirdi, biz də arxasınca. Cavadı atom stansiyasında çox görmüşdüm. Pikapı elə sürürdü ki, sanki sürücülük vəsiqəsi yoxdur. Çuxura bir neçə metr qalmış sürətini azaldırdı, beytülmala cızıq düşəcəyindən qorxub az qala maşını belində keçirmək istəyirdi. Diviziyanın əşya və texnikalarını göz bəbəyi kimi

[1] Məhəmmədcavad Fəxxari 1960-cı ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

qoruyurdu. Ailəsinin maddi vəziyyəti yaxşı idi, ayaqqabı, çəfiyə şalı və hərbi geyim kimi şəxsi əşyalarını həmişə arxa cəbhədən öz hesabına alırdı. Hətta hər birindən bir neçə ədəd alıb döyüşçülər üçün anbara verirdi.

Həmin axşam kolonu o aparırdı. Qaranlıqda yalnız iri cüssəsinin qaraltısını görürdüm. Qorxmadan qaranlığa girirdi, biz də arxasınca. Çöllüyün dərə-təpələrində o qədər sağa-sola getdik, enib-qalxdıq ki, azdıq. Əvvəl ciddiyə almayıb ulduzlarla və kompasla araşdırmağa başladıq. Bir saatdan sonra gördük ki, doğrudan da, azmışıq və öz ətrafımızda fırlanırıq. Bütün cığırlar bir-birinə oxşayırdı, heç biri bizim qurduğumuz çadırlara getmirdi. Sübh azanına yaxın kolon ucsuz-bucaqsız cığırların birinə səpələndi. Səmanın ulduz dolu qara məxməri yumşaq bir yorğan kimi üstümüzə sərilmişdi. Hərə bir tərəfdə təyəmmüm aldı. Sükut və pıçıltı cığırı başına almışdı. Ulduzlar uşaqlara tamaşa etmək üçün bir basabas salmışdılar ki! Sübh namazından sonra hərə bir tərəfdə uzandı. Düz kolondan əsər-əlamət qalmadı, ortası sağa-sola əyildi.

Təminat uşaqları ratsiyadan ünvan verirdilər: bir neçə dərəcə şərqə, bir neçə dərəcə qərbə. Ancaq yenə başqa bir yerə çıxırdıq. Axırda bundan artıq fırlanmayaq deyə bir fişəng atdılar. Fişəngi izləyib çadırlara çatdıq. Həmin gecə gülüş dolu bir xatirə kimi yadımızda qaldı. Ondan sonra tualetə də getmək istəyəndə kompas götürürdük ki, qayıdanda yolumuzu azmayaq!

Mehdi Zeynəddinin zövqündən, yol və dolanbac dolu bu çöllükdən xoşumuz gəlmişdi. O, şəhadətindən öncə bölgənin bütün çöllüklərini gəzmiş, buranı tapmaq üçün çox əziyyət çəkmişdi. İndi isə qumlu uşaqlar düşərgəyə sahiblənmişdilər. Ancaq heyif, ağa Mehdi yox idi ki, şəxsi heyətinə baxsın, bu düşərgənin sonralar necə abadlaşacağını görsün: səhər düzülüşü meydançası, isti hamam, hovuz və s. Tələsirdi; çox şeyi görmədən getdi.

Yenə mikroavtobuslar peyda oldular. Hiss edirdik ki, növbəti əməliyyat suda olacaq. Bizi Dezfulun Dez bəndindəki düşərgədə endirəndə bunu bildik. Yenə çadırlar quruldu. Mikroavtobuslardan enən kimi burnumuza soyuq rütubət iyi doldu. Bu düşərgədə çoxlu xatirəmiz vardı. Ən yaddaqalanı da ağa Mehdinin çıxışı idi. Dağlar əmanəti necə yaxşı qorumuşdular! Səsi hələ də əks-səda verirdi. Son dəfə mikrofon arxasında dayandığı yerə baxdım. Qəhərdən boğulmaq üzrəydim. Hamı bu vəziyyətdə idi.

Bu soyuqda üzgüçülük təlimi keçəcəyimizə inana bilmirdik. Yamacın qarı ay işığında gümüşü rəngə boyanmışdı. Birinci axşam heç kim ayağını suya vurmağa cürət etmirdi. Mustafa Kəlhüri əvvəlcə xoş dillə bizi üzgüçülüyə hazırlaşmağa çağırdı, yola gəlmədiyimizi görəndə isə bir-bir bizi suya itələdi. İlk bir neçə dəqiqədə taxta kimi suyun üzündə qaldıq. Soyuqdan əl-ayaqlarımız tutulmuşdu. Su əməliyyatı üçün balıq kimi olmalı idik. Mənim vəziyyətim hamıdan pis idi; həm soyuğa dözümüm yox idi, həm də üzə bilmirdim. Özümə gəlincə Mustafa öz işini gördü və mən kərpic kimi guppultu ilə suya düşdüm. Gecənin yarısı az qala infarkt olacaqdım. Başımı qışqırıq səsi verən bərk nəfəsimlə birgə sudan çıxardım.

Hər axşam üzgüçülük təlimindən sonra suyun kənarında təkərlər alovlanırdı. Sevincək onlara doğru qaçırdıq. Alovu qucaqlamaq istəyirdim. Müctəba şam kimi başımıza fırlanırdı. O, hamıdan qabaq suya girir, hamıdan axırda çıxırdı. Sanki soyuğu hiss etmirdi. Bütün bölüyünü alovun ətrafına yığmayınca rahatlaşmırdı. Alovun işığında onun narahat üzünü görürdüm. Hər birimizin qayğısına qalırdı. Uzun bir çubuqla ocağı gücləndirirdi. Bitişik qaşlarının arasında su parıldayırdı. Alovun hərarətini nəfəsimlə canıma çəkirdim. Yanaqlarım qızırdı. Qırmızı alov sanki qaranlığı yalayaraq göyə qalxırdı. Məhəmməd Sadiqi[1] böyük plastik eynəyini alova yaxınlaşdırıb qurudur, gözlərini qıyıb ona baxırdı. İranizadə[2] rabitə cihazını uşağı kimi ayağının yanına qoyurdu. Cəfər Rəbbaninin[3] ağ üzü çuğundur kimi qızarırdı. Səhərə qədər alovun yanında oturmaq istəyirdim. Əl-ayaqlarımız cana gələndə çadırlara qaçırdıq. Acından taqətim qalmırdı. Ədyalı başımıza çəkib yatırdıq. Sübh azanına bir saat qalmış isə hamı oyaq olurdu, ən birinci də Məhəmməd Sadiqi. İnanmazdın ki, bunlar gecənin yarısı buz kimi suda çapalayan adamlardır. Yaş və nəmli paltarlarla dəstəmaz alır, soyuğu ələ salırdılar.[4]

---

[1] Şəhid Məhəmməd Sadiqi 1963-cü ildə doğulmuş, 1985-ci ildə Çəngulədə Aşura-2 əməliyyat bölgəsində şəhadətə qovuşmuşdur.

[2] Mehdi İranizadə 1967-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

[3] Şəhid Məhəmmədcəfər Rəbbani 1967-ci ildə doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

[4] “Çalışın "öz" pərdənizi götürün, Onun əzəmətli camalını görün. Bu zaman hər bir çətinlik asanlaşacaq, hər bir əzab-əziyyət şirinləşəcək, Onun yolunda qurban

Suda əzələlərin qıc olması uşaqların zarafat mövzusuna dönmüşdü. Çoxlu maye qəbul etməli idik ki, lazım olanda işimizə yarasın. Bizə çay süfrələri də təşkil etmişdilər. Çay içir, deyib-gülürdük. Bir axşam üzgüçülük təlimi keçirdik, bir axşam qayıqçılıq. Soyuq külək gözlərimizi çıxarırdı. Əgər səssizcə və suya girmədən minə bilsəydik, əla göstərici idi, daha avar çəkmək lazım deyildi. Soyuqdan əl-ayaqlarımız keyiyirdi. Minib yerimizdə oturana qədər qayıq çox yellənirdi. Azca səhvə yol versəydik, başımız üstə suya düşürdük. Bu isə təlimin hədər getməsi demək idi və hər şey yenidən başlayırdı.

Avar çəkmək növbə ilə baş tuturdu. Soyuqdan əlimin dərisi dartılır, barmaqlarım avarın ətrafına kilidlənirdi. Hərəmiz on metr avar çəkir, növbəti adama verirdik. Biləkdən kəsilməsin deyə əllərimi qoltuğumun altına salırdım. Suyun ortasında qumbaraatanın növbəsi gəlirdi. Donmuş bədənini çətinliklə tərpədib qumbaraatanı çiyninə qoyurdu. Hərəkət edə-edə atəş açmalı, şərti hədəfi vurmalı idi. Atəşin alovu və istiliyi bizə qismət olurdu. Onun isti nəvazişi necə də gözəldi! Bir anlığa üz-başımızı tumarlayırdı və biz sanki qısa şirin bir yuxuya gedir, növbəti atəşə kimi yenə qısılıb otururduq.

Bir gün sübh çağı namazdan sonra ədyalın altında büzüşüb nəfəsimlə isindiyim yerdə bir nəfər ədyalı kənara çəkdi. Müctəba Seyfi Şüştərə gedib çayı və dəyirmanları görmək həvəsinə düşmüşdü. Yuxum gəlirdi. Ədyalı üstümə çəkib onu başqa birini oyatmağa göndərdim. Püşk Möhsünün[1] adına çıxdı. Səssizcə şal və papaqlarını götürüb getdilər. Həmin gün gözlərimiz yolda qaldı, heç birindən xəbər çıxmadı. Bilmirdik ki, onları harada axtaraq. Bölüyün əsas kadr heyəti Müctəbasız yarımçıq görünürdü.

Gecə yorğun və dilxor halda gəldi. Möhsünün harada olduğunu soruşanda qızarmış gözlərini görməyək deyə başını aşağı saldı, sonra Mustafa Kəlhürinin çadırına getdi.

Bir neçə dəqiqədən sonra Əli İrəmlə[2] Müctəba getməyə hazırlaşdılar. Möhsünü axtarmağa gedirdilər. Möhsün suyun kənarında qədim hava dəyirmanı ilə şəkil çəkdirmək həvəsinə düşüb fotoaparatı Müctəbaya vermiş, özü gedib dayanmış və birdən ayağı sürüşmüşdü.

---

getmək baldan da şirin olacaq, hətta hər şeydən yüksəkdə duracaq". (İmam Xomeyni, Nur səhifəsi, c. 18. s. 333-334)

[1] Onun soyadını qəsdən qeyd etmədim.

[2] Əli İrəm 1959-cu ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

Müctəba onu tapmaq üçün suyun kənarı ilə bir neçə kilometr qaçmışdı, amma görünür əcəli çatıbmış. Bu hadisə hamımızı narahat etdi.

Müctəba ilə Əli İrəmi aparacaq pikap yola düşüncə Abbas Məhəmmədcu[1] çadırdan çıxıb pikapa tərəf qaçdı, cəld sıçrayıb onlarla birlikdə getdi. O, qumbaraatan köməkçisi idi, balaca cüssəsi və çiynindəki RPG sursatıyla qumbaraatanın ardınca necə qaçacağını bilmirdik. Onlar Möhsünün cəsədini tapmaq üçün səhərə qədər çayı addım-addım gəzdilər, amma tapmadılar.

Bu hadisədən sonra Müctəba əvvəlki kimi şuxtəb ola bilmədi. Özünə qapanır, heç kimlə danışmırdı. Uşaqlar onunla zarafatlaşıb deyirdilər ki, dua elə, bu əməliyyatda şəhid olasan, yoxsa qayıdası olsan, məhkəmənin dəhlizlərində o qədər oyan-buyana gedəcəksən, axırda qocalacaqsan. Mən də gülüb deyirdim ki, bəxtim gətirdi, həmin gün aldanıb səninlə getmədim. Zarafatlarımıza cavab olaraq birtəhər gülümsəyib başını aşağı salırdı. Onu görən hər kəs bilirdi ki, düşərgədə qalmaq ona əzab verir və Möhsünün yoxluğu onu incidir. Namazlarında həmişə çox ağlayırdı, gecələr ətrafdakı çöllüklərə gedirdi. Çiyinləri sallanmışdı, ayaqlarını ardıyca sürüyürdü. Vəziyyəti fəryad qoparmaq istəyən, amma bacarmayan adam kimi idi. Ona yazığım gəlirdi. Mehriban qəlbindən nələrin keçdiyini bilirdim. Həmin acı hadisədə özünü təqsirli sayırdı.

Müctəba həmişə səhər düzülüşündə gümrah olur, ucadan şeir oxuyurdu. Oxuduğu şeirin ikinci misrasını dəyişdirmişdi. Biz də onun kimi təkrarlayırdıq:

Əgər Allah mənim tanıdığım Allahdırsa,
Şüşəni daşla mübarizədə saxlayır.

"Daşın içində" yerinə "daşla mübarizədə" deyirdi. İzah edirdi ki, bəndənin nəfsi ilə döyüşü daşla şüşənin mübarizəsi kimidir. O, günahdan uzaq qalmağı yalnız Allahın lütfü bilirdi. O hadisədən sonra da səhər düzülüşündə şeir oxuyub gülümsəyirdi, amma səsindəki qəhəri gizlədə bilmirdi.

Müharibənin durumu mürəkkəbləşmişdi. İranın cənub cəbhəsində qələbəyə ehtiyacı vardı. Mövcud vəziyyət nə müharibə, nə sülh bataqlığı idi və orada bundan artıq batmaq olmazdı. Cəbhə komandirləri nə qədər araşdırdılarsa, əməliyyat üçün Hurdan münasib

---

[1] Abbas Məhəmmədcu 1969-cu ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

bir yer tapmadılar. Məcnun adalarının iranlı döyüşçülər tərəfindən ələ keçirilməsi İraqı bölgəni qorumaqda qərarlı etmişdi. Tikanlı məftil şəbəkələri və digər maneələr qurmaq, Hur əl-Hüveyzə gölünün qərb bəndinə gedən kanalların ağzında minalar basdırmaq, gölün qərbindəki torpaq sipərin üzərində tank mövqeləri yaratmaq və zirehli birləşmələr yerləşdirmək İraqın bu bölgədəki müdafiə mexanizminin bir hissəsi idi.[1]

Fevral-mart aylarında Hur gölünün suyu bizi dondururdu. Qərara alınmışdı ki, Bədr əməliyyatında Hura və Dəcləyə hücum edib əl-İmarə-Bəsrə yolunu kəsək. Buna görə bizi Hurun Şadqan sahilinə aparmışdılar. Hurun suları Əhvaz-Abadan magistralının yanına qədər gəlirdi. Mən yolun kənarı ilə Hura və qamışlığına doğru getmək istəyirdim, amma mümkün deyildi. Hurun və qamışların saraltısına uzaqdan baxırdım. Hündür qamışlar səhərlər duman altında qalır, axşamlar qaraltıya çevrilirdi, biz də uzaqdan onlara baxırdıq.

Həzrət Rəsul (s) batalyonunu bizdən öncə gətirmişdilər. Əməliyyat zamanı onlar qayıqlarla mövqeyi ələ keçirəcəkdilər, biz də motorlu qayıqlarla onların ardınca gedəcəkdik. Onlar da qayıq sürməyi öyrənirdilər. Komandirləri Mirqeysəri[2] idi. Axşamlar əvvəlcə qayıqçılar suya girirdilər, sonra növbə Seyyidüşşühəda batalyonuna, yəni bizə çatırdı. Şəxsi heyətin minməsi üçün ağır qayıqları körpünün önünə gətirirdik. Ən ağır iş yaş və ağır bədənlə sudan qayığa qalxmaq idi. Külək əsib yaş paltarları sıxır, az qala canımızın şirəsini çəkirdi. Ayın gümüşü kölgəsi suyun üzərinə düşəndə avar çəkməyə başlayırdıq. Qayıqdan sağ düşəcəyimə inanmırdım. Müctəba Seyfi bütün qayıqlara baş çəkirdi. Birdən kimsə asqırsa və ya titrəsəydi, öz gödəkcəsini zorla ona geydirirdi. Şəraitimizin ağırlığına görə o qədər narahat olurdu ki, üşüdüyümüzü deməyə utanırdıq. Bütün fikri-zikri bizim qayğımızı çəkmək idi. Özü isə hamıdan çox islanırdı.

Hər gecə sübhə bir qədər qalana qədər qayıqlarla suyun üzərində gəzir, duman arasından yol axtarırdıq. Qaranlıq və vahiməli gecələr idi. Hər yer bir-birinə bənzəyirdi. Biz də bu vahimənin bir hissəsinə çevrilmişdik. Azca diqqətsizlik edəndə qaranlıqda azırdıq. Avar

---

[1] Unudulmaz döyüşlər atlası, s. 104.

[2] Həzrət Rəsul (s) batalyonunun komandiri Seyid Məhəmməd Mirqeysəri 1963-cü ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

yavaşca suya girir, şappıltı səsi qulaqlarımızı qıdıqlayırdı. Bu bölgədə iki həftə titrəyə-titrəyə avar çəkib işi öyrəndik. Artıq hamı əməliyyat ətrini duyurdu.

Birinci gecə yuxulu və yorğun halda sudan qayıdanda Əli İrəm Mustafa Kəlhüriyə yaxınlaşıb zarafata dedi:

– Sənin bu gecə bizə etdiklərini Şimr İmam Hüseynə etməmişdi!

Donmuş üzümüz gülümsədi. Mustafa gülə-gülə onun kürəyinin ortasından elə bərk vurdu ki, qızışsın, soyuqlamasın.

Uşaqları çox sevirdi. Şəxsi heyətinin hər biri qədər yol gedir, işləyirdi. Qayıqları suya salanda ən birinci o, suda olurdu, özü olanda döyüşçülərini islanmağa qoymurdu. Üz-başından yuxusuzluq və yorğunluq yağırdı. Şalını başına bağlayıb qaşlarının üstünə qədər çəkirdi. Sanki bu, bütün bədənini qızdırırdı. Heç vaxt soyuqdan şikayətlənmirdi.

***

Əndimeşk-Əhvaz yolu gecənin yarısı çöllüyün ortasından uzanıb gedirdi. Hələ Cüfeyrə və onun düzənliklərinə çox qalırdı. Avtobusa yuxu tozu səpmişdilər. Adət üzrə Əli Kari ilə birlikdə son oturacaqda oturmuşduq. Başını arxaya söykəmiş, ağzıaçıq yatmışdı.

Bizi Cüfeyrdə avtobusdan endirdilər. Əməliyyat yerinə getmək üçün pikaplara doluşduq. Külək üz-başımızı qamçılayırdı. Şimali Məcnun adasına çatana qədər donduq. Hamının burnu axırdı. Bizim bölüyümüz Vəliəsr diviziyasına birləşəcəkdi. Fikirləşdim ki, əməliyyatın qızğın yerində Vəliəsr uşaqlarını necə tanıyacağıq.

– Əməliyyat üçün bölüyünə çətin nöqtə veriblər, - başımı Müctəba Seyfinin qulağına yaxınlaşdırıb dedim.

– Mən əməliyyatın əvvəlində bu dünyayla xudafizləşəcəyəm, – mənalı tərzdə mənə baxıb dedi. – Bu, sizin probleminizdir, gərək axıra qədər gedəsiniz.

İstədim çiyninə vurub deyim ki, bir sözdür, dedim, sən niyə fələqbazlıq edib[1] işıq saçırsan. Lakin məhəl qoymayacağını bilib dinmədim. Zarafata hövsələsi yox idi.

1985-ci ilin martı idi. Sübh azanından sonra bizi Hur gölünün kənarında endirdilər. Suyun kənarı qollarını çırmayıb ayaqqabılarının dabanını yastılatmış bəsicilərlə doldu. Hur qarğı dolu böyük bir göl idi.

---

[1] Çox nurlu olan və şəhadət ətri gələn döyüşçüləri zarafata "fələq" çağırırdıq. Quranda işlənmiş bu söz sübh işığı deməkdir.

Hündür qarğılar əllərini uzadıb səmanı tutmaq istəyirdilər. Polistrol köpükdən körpülər Hurun təmiz və sakit suyu üzərindən yol açmışdılar. Körpülər ayaqlarımızın altında yellənirdi, möhkəm dayanmaq istəyəndə baş və belimizi yüngülcə rəqs etdirirdi. Körpünün iki tərəfindəki qamışların ucunu bir-birinə düyünləyib əvvəli quruluqda, sonu isə suda olan gizli bir dəhliz düzəltmişdik; qamış iyi ilə dolu dəhliz. Ertəsi gün axşama qədər orada qamışların arasında gözləməli idik. Külək suyun hər yerindən baş qaldırmış qamışların arasında əsir, xışıltı səsi adamın ürəyinə qorxu salırdı.

Təminatdan hərəyə bir ədyal verildi. Ədyalımı körpülərdən birinin üstünə sərib mart ayının zəif günəşi altında uzandım. O əsnada necə oldusa, bölüklərdən birinin RPG mərmiləri suya düşdü. Mustafa Kəlhüri sursat tapmaq üçün Əkbər Qumini geriyə göndərdi. Əkbər də motosikletlə sürətlə sahilə tərəf getdi. Pikapla yoluna davam edib geridəki səngərlərdən sursat alacaqdı. Partlayış dalğasına düşdüyünə görə zavallı Əkbərin görmə problemi vardı, önünü görmək üçün başını sola çevirməli olurdu. Uşaqların biri Əkbərin uzaqdan sürətlə gəldiyini, amma başını çevirdiyini, önə baxmadığını görüb təəccüblənir və motosikletlə onu vuracağından qorxub suya atılır. Üzməyi də bacarmayan o uşaq az qala boğulacaqdı. Uşaqlar onu sudan çıxarandan sonra dedilər ki, Əkbər motosikletlə əl-ayağını qırsaydı, yenə də boğulub ölməkdən yaxşı idi!

Günəş körpünün üstündə məni yatızdırmışdı, amma uşaqların səs-küyü yuxumu qaçırdı. Başıma yığışıb növbə ilə mənimlə yadigar şəkil çəkdirirdilər. Həmin şəkillərdən bir neçəsi məndədir. Bölüyün rabitəçisi Musəvi[1] yanımda dizini qatlayıb əlini sinəmə qoyub, bu gecə şəhid olacağam deyə mənə Fatihə oxuyur. Rza Əşəri ilə Əli Kari də yanımda uzanıb şəkil çəkdirmişdilər.

O qədər hay-küy saldılar ki, yatmaq fikrindən daşındım. Axşama da az qalırdı. Dəstəmaz almaq üçün qollarımı çırmadım. Saatın əqrəbləri bir-biri ilə yarışırdı. Qürub yaxınlaşdıqca daha da həyəcanlanırdım. Əməliyyat gününün qürub çağı bilirsizmi nədir?! Həyəcandan boğulurdum. Sanki soyuq bir güllə ürəyimdə gəzir, özünü oyan-buyana çırpırdı. Tək qalmaq istəyirdim. Hamı bu vəziyyətdə idi. Bilirdik ki, şam azanı veriləndə səmanın qapıları açılır və gedəsi olanların bir-bir adları çəkilir. Boğazımızı qəhər tutmuşdu, ağlamaq üçün bəhanə

[1] Musəvi 1985-ci ildə Bədr əməliyyatında şəhid oldu.

gözləyirdi. Əməliyyat gecəsi və soyuq qəhərlər. Həmin gün axşam namazını küləkdən rəqs edən qamışların arasında qıldıq. Yavaşca, yüngül şəkildə əsir, ürəklərimizi də təkrarolunmaz səsi ilə əsdirirdi.

Namazdan sonra sanki dünya dayanıb bizə baxırdı. Aləmin qəm-qüssəsi ürəyimə çökmüşdü. Hər nəfəs alanda qəhərim çatlayırdı. Baxışlarımızı bir-birimizdən gizlədirdik. Kim gedəsi idisə, baxışı ilə digərlərinin ürəyinə od vururdu. Bilmirdin ki, sən qalacaqsan, yoxsa yoldaşın. Bilmirdin ki, görüş qiyamətə qalacaq, yoxsa əməliyyatdan sonraya. Uşaqların baxışında bir dünya söz vardı; halallıq və şəfaət istəyi. Əmindik ki, çoxlarını daha görməyəcəyik. Ayrılıq çətin olmasın deyə bir-birimizə baxmırdıq.

Saniyələr çox yavaş keçirdi. Hamının vəziyyəti bir neçə saat öncə ilə fərqlənirdi. Hamı vardı, amma sanki yoxdu. O qədər adamın içində Seyid Mehdi uzaqdan parıldadı. Suya buraxılmış körpülərin birinin üstündə oturub uzaqlara baxırdı. Dərin bir nəfəs alıb ahını gölün üstünə buraxdı.

Cəfəri görmək üçün gözlərimi gəzdirdim. Yumru sifəti ağlamaqdan islanmışdı, uşaq üzünə oxşayırdı. İstəyirdim ki, yaxınlaşıb qolumu boynuna dolayım, doyunca ağlayım, amma üzüm gəlmədi.

Getmək zamanı yaxınlaşdıqca taqətlər də azalırdı. Ürəyimdə nə isə əsirdi. Altından keçmək üçün Quran gətiriləndə qiyamət qopdu. Uşaqlar bir-birini qucaqlayıb hönkür-hönkür ağlayırdılar. Göz yaşlarından hamının üzü islanmışdı. Ayrılmaq nə qədər çətindir! Həyəcandan boğulmaq üzrəydim; birdən bu gecə də dostlarım gedər, mən qalaram!

Qayıqlar körpülərə yan almışdı. Mirqeysərinin qayıq batalyonu bizdən öncə suya girdi. Qəhər hələ sinəmə ağırlıq edirdi. Daha heç kimdən səs çıxmırdı. Uşaqlar qayıqlara minib qarşıdakı qaranlıqda gözdən itirdilər. Seyid Mürtəza Musəvi[1], Hüseyn Kaci və Rza Əşərini qaranlıqda gördüm. Bir qayıqda oturmuşdular. Bir neçə metr suyun üstündə sürüşdük və sonra hücum nöqtəsi. Daha heç nə görünmürdü. Biz, qaranlıq və avarın şappıltısı! Uzaqlarda isə ölüm dayanıb bizə tamaşa edirdi. Bir-birimizə baxıb gülümsəyirdik. Qamışların xışıltısı ürəyimizi tumarlayırdı. Çalışırdılar ki, bir-birinə yavaş dəysinlər və səs çıxarmasınlar. Həzrət Rəsul (s) batalyonunun döyüşə başlamasını

[1] Seyid Mürtəza Musəvi 1968-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

gözləyirdik. Biz irəlilədikcə düşmən tərəfi suyun üzünü yaxşı görmək üçün qamışları daha çox yatırtmışdı.

Seyid Mehdi qayığın dimdiyində dizi üstə oturmuşdu; arxası bizə, üzü qaranlığa sarı. Birdən partlayış səsi sükutu pozdu. Hücumçu qayıqçılar döyüşə girmişdilər. Bu zaman qayıqsürən bizim qayığımızın motorunun ipini çəkdi və sürətlə qarşımızdakı bəndə doğru üz qoyduq. Motorlu qayıqlar bəndə çatmaq üçün yarışa başladılar.

Qalanın üstündəki pulemyotlar yanıb-sönəndə bir-birinə düyünlənmiş günəş şəkilli istehkam millərini görürdüm. Qalanın sahilini döşəmişdilər. Qarşıdan suya doğru bir mərmi atıldı. Su fontan vurub hamını islatdı. Burnuma kəskin qoxu və palçıq iyi doldu. Məhəmməd Zülfi qayığın ortasında oturmuşdu:

– Bir könüllü istəyirəm, - dedi, - maneənin üstünə hoppansın.

Yolumuzda günəşəbənzər millərdən başqa hansı maneənin olduğunu bilmirdik; mina, yoxsa tikanlı məftil. Seyid Mehdi heç kimə düşünmək fürsəti verməyib dilləndi:

– Özüm qayığın başındayam.

Arxasındakı dünyaya arxa çevirmişdi. Dizlərini yerdən qaldırıb bir qədər qalxdı. Qayığın kənarından möhkəm yapışmışdı ki, zamanında hamıdan öncə hoppansın. Onun sözündən sonra ürəyim sakitləşdi, fikirləşdim ki, vəzifə boynumdan götürüldü. Mən o anda afiyəti, Seyid Mehdi isə aqibəti düşünürdü. Oturuş tərzi yaxşı yadımdadır. Sanki başı ilə qarşıdakı qaranlığı yaracaqdı. Arxasına hətta ötəri nəzər də salmadı. Qayıq bəndə çatdı və qarşımıza heç bir maneə çıxmadı. Yalnız atəş altında Həzrət Rəsul (s) batalyonunun uşaqlarının zəif ah-naləsini eşidirdik. O mərəkədə şəhidlər suda rahat yatmışdılar. Seyid Mehdi aşağı hoppandı. İpi bərk saxlamışdı. Uşaqlar bir-bir qayıqdan enirdilər. Qayıq yellənirdi. Qalanın başındakı pulemyotlar dayanmadan başımıza atəş yağdırırdılar. Göldən çıxan bu qədər canlı qüvvəni görüb dəli olmuşdular.

Bölüyümüzün hər üç qayığı bəndə çatdı. Barıtla su iyi bir-birinə qarışmışdı. Əyilə-əyilə sol tərəfə qaçdıq. DŞK səngəri suya dayanmadan atəş açırdı. Qalanın üstündəki atəşlərdən də üzərimizə isti dalğa gəlirdi.

DŞK pulemyotçusu bizi görən kimi pulemyotunu bizə doğru çevirdi. Hamımız yan-yana yerə uzandıq. Ağzı quduz it kimi açılırdı, səs-küy salırdı. Nə irəli gedə bilirdik, nə də geriyə. Güllələr hay-küylə başımızın üstündən keçirdi. Qalanın sinəmin altında titrədiyini hiss

edirdim. Ağzım torpaq dadırdı. Arxamdan "ax" səsi gəldi. Məhəmməd Zülfi əli gözündə qalanın aşağısına uzandı. Taqım sahibsiz qaldı. Yanına getmək istəyirdim. Yəqin ki, ağrısı çox idi. İri cüssəsi qalanın üstündə büzüşmüşdü. Yerimdən tərpənə bilmirdim, azca hərəkət edən yerə sərilirdi. Tərpənməyindən bildik ki, sağdır və bunun üçün şükür etdik.

Cavad Cəfəri RPG qumbaraatanını çiyninə qoydu, dizi üstə oturub DŞK səngərini nişan aldı. Atəş açdığı anda qarnına bir güllə dəydi. Qumbaraatan çiynindən düşdü, özü də qalanın üstündə onun yanına yıxıldı. Atdığı mərmi hədəfin bir neçə metrliyinə düşüb onu silkələdi və səngərin kənarındakı torpağı havaya uçurdu. Əli İrəmlə Məhəmmədcu qaranlıqda qalanın döşünə qalxdılar. DŞK pulemyotunu qumbaraatanla susdurmaq istəyirdilər. DŞK hirsli bir adam kimi irəli-geri gedir, yaxasını cırırdı. Bizim gözlərimiz önündə Əli İrəmlə Məhəmmədcunu da vurdu. Bədənləri qalanın üstündə bir neçə metr sürüşüb rahatlaşdı. Yorğunluğu çıxsın deyə mərmi çantasını Məhəmmədcunun arıq çiynindən götürmək istəyirdim. DŞK pulemyotunun səsi adamı kar edirdi. Mən Seyid Mehdi və Müctəba ilə birlikdə hamıdan öndə idim. Pulemyotun lüləsi bizi vuracaq qədər aşağı enə bilmirdi, qırmızı qamçıları başımızın üstündən keçirdi. Təngə gəlmişdik.

– Mənə bir qumbaraatan verin, - Müctəba uşaqlara tərəf dönüb dedi.

Qışqırtısı bitib qurtarmamış kimsə RPG qumbaraatanını ona verdi. Qalanın yoxuşunda bir qədər qalxıb qumbaraatanı çiyninə qoydu, dodaqlarını bir tərəfə yığıb gözünü qıydı:

– Vıjjj!

Səngərin kənarındakı torpaq havaya sovruldu. Müctəbanın qumbaraatanının arxasından çıxan alov sinəmi yumruqladı.

– Nə edirsən, ağa Müctəba? – yerə yıxılandan sonra dedim.

Arxaya çevrilib məni gördü, bir qədər aralandı, növbəti mərmini qumbaraatana bağladı. Bu dəfə DŞK səngərinin o tərəfindəki torpaqlar havaya uçdu.

– Əl qumbaran var? – Seyid Mehdi əlini çiynimə qoyub soruşdu.

Nə etmək istədiyini bildim. Oraya qədər də öz qorxmazlığını sübut etmişdi. Əlimi belimdəki əl qumbarasına apardım. Havada qamarlayıb əyilə-əyilə qalanın yanından pulemyota doğru getdi. DŞK bizə o qədər atəş açmışdı ki, lüləsinin yumşalmasına az qalırdı. Onun lüləsinin

altında Seyid Mehdinin kölgəsini gördüm. Əl qumbarasını səngərin ağzından içəri atdı. Min bir, min iki, min üç:

– Bomb!

Pulemyot susdu. Seyid Mehdinin qışqırtısı bütün səs-küyləri üstələdi:

– Gəlin!

Pulemyotçu arxası üstə səngərinin aşağısına düşmüşdü. Yanından keçib getdik. Uşaqların biri qarnına bir güllə vurdu. Yazıq ağrıdan qalxıb oturdu. Bildik ki, Seyid Mehdinin qumbarası səngərə düşəndə bayıra qaçıbmış. Səngərin yanında uzanıb ki, ya bizi arxadan vursun, ya da ortalığın sakitləşməsini gözləsin. Niyyəti nə idisə, alınmadı, bir neçə atəşlə yerə tikildi.

Müctəba o səngərin arxasındakı ictimai səngərləri təmizləmək istəyirdi. Bölüyün pulemyotçusu Baqir Fəlsəfinejadla[1] mən də onun ardınca getdik. Döyüş anbaan qızışırdı, ağız deyəni qulaq eşitmirdi. Mərmilərin iti fit səsi səmanı bürümüşdü. Sanki qiyamət qopmuşdu. Uzaqdan və yaxından gələn qalın partlayış səsi yeri titrədirdi.

Birinci səngərdə heç kim yox idi. İkincisinə çatanda bir düşmən döyüşçüsü mayka ilə bayıra qaçdı. Bilmirəm o səs-küydə nə edirmiş ki, hələ paltarını geyməmişdi. Maykasının ağartısını görəndə əyildim, boğazımın dibindən qışqırıq səsi çıxdı:

– Müctəba, iraqlı.

İraqlı qaça-qaça avtomatını bizə doğru tutub atəş açmağa başladı. Müctəba yerə uzandı. Mən də onun üstünə atıldım. Güllələr vızıltı ilə başımın üstündən və yanımdan keçirdi. Baqir də mənimlə Müctəbanın üstünə uzandı. İraqlı bizə doğru bir əl qumbarası atdı, uzaqda partladı. Qumbaranın seçməsi kürək sümüyümə girib yandırdı. Çətinliklə patron kəmərimdən bir əl qumbarası qoparıb onun qaçdığı istiqamətə atdım.

– Baqir, qalx, patron qatarı ilə üstümə uzanmısan, boğuluram, – dedim.

Zavallı Müctəba da altımızda qalmışdı. Boynum istiləşdi. Elə bildim ki, kürəyimdən qan şırıldayır. Özümü silkələdim. Baqir yerə diyirləndi. Bir-birinin ardınca səmanı işıqlandıran fişənglərin işığında üzünü gördüm. Sanki illər öncə şəhid olmuşdu. Özümü itirib tələsik Müctəbanın üstündən qalxdım. O da tərpənmirdi.

---

[1] Məhəmmədbaqir Fəlsəfinejad 1958-ci ildə Qumda doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Məcnun adasında şəhadətə qovuşmuşdur.

Düşmən döyüşçüsünün bizə açdığı atəşlər öz işini görmüşdü. Bir güllə Müctəbanın alnından dəymişdi, biri də Baqirin beynindən. Mənə isə heç nə qismət olmamışdı. Müctəba səcdə halında yerdə qalmışdı. Mən onun üstünə atılmışdım, Baqir də mənim üstümə düşmüşdü. Ayağa qalxdım. Bədənim Baqirin başından axan qanına bələnmişdi. Müctəbanın başından da qan şiddətlə axırdı. Onun sözü yadıma düşdü. Demişdi ki, əməliyyatın əvvəlində rahat olacağam. Silahını uşaq kimi qucaqlamışdı. Daha heç bir hadisə mehriban üzünü kədərləndirmirdi.

Bəlkə də, Məhəmməd Zülfi qayıqda könüllü istəyəndə canımı düşünməsəydim, bu atəş məni də göylərə aparardı. İndi isə yerdə qalmışdım, içərisində nə olduğunu bilmədiyim düşmən səngərlərinin arasında, tək-tənha. Paltarlarımın üzərindəki təzə qan qoxusu başıma dolmuşdu. Qaranlıqda ətrafa göz gəzdirdim. Uşaqlar qalanın arxasına gəlirdilər.

Atəş, partlayış və təkbir səsləri bir an da dayanmırdı. Müctəbanın müavini Əli Şəhrbafı tanıdım. Ona tərəf qaçdım. Birinci mövqe tez ələ keçirildi. Sürətimiz yaxşı idi. Digər batalyonlar da öz istiqamətlərində yol açsaydılar, asanlıqla irəliləmək və qayçılanmamaq olardı. Əli Şəhrbafla və başqa bir-iki nəfərlə birlikdə qoltuğumuzda qumbara gedib qalanın arxasındakı hər bir səngəri, hər bir dəlik-deşiyi təmizlədik. Geri qayıdıb Müctəbanın üzündən öpmək istəyirdim. Ancaq daha uzaqlaşmışdıq.

İraqlılar təzə oyanırdılar. Qalanın üstündən baxanda Hur gölü od tutub yanırdı. Vahiməli qamışlar yanır, suyun üstünə işıq saçırdılar. Neçə saatdır vuruşduğumuz yadımdan çıxmışdı. Qaranlıqda uşaqların birinin səsi gəldi. Dinc bir yer tapıb azan deyirdi. Səsini eşidib özümə gəldim, boğazımı qəhər tutdu. Ayağının altındakı yer titrəyəndə, başının üstündəki göy od tutub yananda dincliyin nə demək olduğunu bilirsən. Partlayışlar altında eşitdiyim azan səsi bütün azanlardan fərqli və çox hüzurlu idi.

Müharibənin qapısını bağladım. Ürəyim istəyirdi ki, bu, axırıncı namazım olsun. Torpaq sipərin yanında dayandım. Məndən bir qədər irəlidə başqa biri də namaz qılırdı. Rüku və qünutunu oturduğu yerdə

yerinə yetirdi. Çiyinləri yüngül tərpəndi və alnını torpağa qoydu. Sanki döyüşdə deyildi.[1]

Baqirlə Müctəba gözlərim önündən getmirdi. Şüştərdə Möhsünün başına gələn acı hadisədən sonra nə qədər qəm-qüssəyə batmışdı, namazlarının qünutlarında necə ağlayırdı! Yəqin ki, indi də uşaqların yorğunluğunun dərdini çəkirdi.

Güllə və qəlpələr sürətlə başımız üzərindən keçirdi. Fikirləşirdim ki, kaş onların ardınca gedib özləri ilə şəhadət, yoxsa yara apardıqlarını görəydim.

Üz-başımızı toz basmışdı, üstümüzdən barıt qoxusu gəlirdi, acından qarnım quruldayırdı. Gölün kənarında oturub əmr gözləməyə başladıq. Su şəhidləri qolları üstə qaldırıb göylərə təklif edirdi. Ala-toranlıqda Mustafa Kəlhüri gəldi, dedi ki, burada qalıb əmr gözləməliyik.

Nə orada qalmaq olurdu, nə də irəliyə getmək. Dəcləyə doğru gedəcəkdik, amma digər istiqamətlərdəki qüvvələrimiz hələ Dəclənin kənarına yerləşməmişdilər. Zaman əleyhimizə işləyirdi. Suyun üstündə bir neçə düşmən postu qalmışdı, uşaqları gedib-gəlməyə qoymur, yaxınlıqdan keçən hər bir qayığı vururdular. Hava işıqlaşdığına görə hər tərəfi görürdülər.

"Xeybər əməliyyatından sonra Hur gölü müdafiə mövqeyinə çevrildi. Düşmən su yollarında və qamışlıqların içində üzən və bəzən hərəkət edən pusqu qüvvələri yerləşdirdi".[2]

Qum diviziyasında Seyid Cavad Musəvi adlı iki nəfər vardı. Biri Xakfərəcdən olduğuna görə onu Xaki çağırırdılar. Digəri isə Qumun Abşar xiyabanından idi və ona Abi deyirdilər. Əməliyyatdan sonra Seyid Cavad Xaki gölün ortasındakı düşmən qüvvələrini necə susdurduqlarını mənə danışdı:

İstiqamətlərdən birinin 6 km-lik məsafəsində təxminən on beş düşmən səngəri mövqe seçib minaatan, RPG və DŞK ilə uşaqların yolunu bağlamışdı. Cavad Xaki, Əmir Bitərəfan,[3] Hacı Rza Şəms və başqa bir neçə nəfər o səngərləri susdurmaq və şəhid olmaq niyyəti ilə bir qayıqla onlara tərəf getmişlər. Onlar qamışların və həmin səngər

---

[1] “Döyüş səngərlərini məscidlərə, cihad meydanlarını təkbir səsləri ilə mələklərin məkanına çevirmiş mücahidlər barədə nə danışmaq olar?!” (İmam Xomeyni, Nur səhifəsi, c. 19, s. 40-41)

[2] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 113, 115.

[3] Əmir Bitərəfan 1965-ci ildə Qumda doğulmuş, 1988-ci ildə Vəlfəcr-10 əməliyyatında şəhadətə qovuşmuşdur.

tərəfindən vurulub suyun üzündə qalmış şəhid cəsədlərinin arası ilə pusqu səngərlərinə yaxınlaşırlar. Allah onlarla olduğuna görə oraya çatanda düşmənlərin sursatı təxminən bitibmiş. Bir nəfərin DŞK arxasında oturduğunu, dizə qədər patron qatarının düzüldüyünü görürlər. Onlar bizim uşaqlarımızı görəndə bu qayığın arxasınca digərlərinin də gələcəyini düşünüb təslim olurlar, əllərini başlarının üstünə qoyub deyirlər:

– Mən müsəlmanam.

Seyid Cavad və digərləri onların məzlum simalarına aldanmırlar, İran tərəfə üzsünlər deyə onları suya atırlar, sonra da: "Taq! Taq! Taq!"

Günəş qalxdıqca irəliləmək də çətinləşirdi. Hava işıqlaşdığına görə buna icazə verməyəcəklərini düşünüb qorxurdum. Baqirin qanı paltarımda qurumuşdu. “Baqirlə Müctəba özlərinə məxsus dayanacaqda bu dünyadan endilər" – deyə düşündüm, öz dayanacağıma çatmayacağımdan qorxub narahat oldum.

Müctəbanın son sözü yadıma düşdü. Kaş əvvəldə rahatlaşacağını deyəndə özümə gələydim, ona and verəydim ki, nə bilirsə, söyləsin. Ancaq çox heyif! Qırmızı dəftərçəmi cibimdən çıxarıb Müctəba ilə Baqirin adlarının önündən qırmızı bir kvadrat çəkdim; yəni şəhid oldular.

Nəhayət, səhər saat 10-da irəliləmə əmri verildi. Dəclənin yaxınlığındakı bir yola qədər gedib orada mövqe seçməli idik. Dəstqeyb bölüyü çox şəhid vermişdi. Sayımızı düzəldib yola çıxaq deyə digər bölüklərdən bizə döyüşçü verdilər. Cəfərlə Mənsur da yeni döyüşçülərdən idilər; toz-torpağın içində, ac, bizdən də pis vəziyyətdə.

Düzülüb yola düşdük. Əli Şəhrbaf öndən gedirdi, mən arxasınca, bölük də mənim ardımca. Hər yerdən barıt qoxusu gəlirdi. Gecə nə əkmişdiksə, gündüzün işığında görürdük. Yer mərmi, güllə və qəlpə çuxurları ilə doluydu. Kolon ayağı kəsilmiş bir düşmənin yanından keçdi. Üzü üstə yerə yıxılmışdı. Ayağının altında laxtalanmış qan dairəsi qaraya çalırdı, dizinin altından çəhrayı ət sallanırdı. Yapışqan qan qoxusu ürəyimi bulandırdı. Ayağı yetim uşaq kimi bir neçə metr aralıya düşmüşdü. Onun bədbəxt halına yazığım gəldi. Başı üstə dayandım. Qorxur, yavaşca "mən müsəlmanam, mən müsəlmanam" deyirdi. Fikirləşdim ki, bəlkə də, bu yaralanma onun həyatının dönüş nöqtəsi ola bilər; yaşayar və doğru yol seçər.

Kolon onun yanından keçmişdi. Uşaqların ardınca getmək istədim. Hələ bir neçə addım atmamış arxadan bir səs eşitdim. Yaralı düşmən

arxası üstə çevrilib qarnının altında gizlətdiyi avtomatı kolona tərəf tuşlayırdı. Çox təəccübləndim, avtomatın lüləsinin altından bir təpik vurdum. Uşaqlar mənə doğru döndülər. Kolonu atəşə tutmaq, hamımızı qətliam etmək istəyirdi. Silahı kənara düşdü.

– Belə danışmamışdıq ha, – deyib qarnına, sinəsinə və başına vurduğum üç işıqlı güllə ilə onu yerə tikdim.

Güllənin fosfor tüstüsü başından qalxıb havada buruldu. Canının son zərrələri tüstü ilə çıxdı. Daha çox, onun bədbəxtliyinə ürəyim yandı. Yaşaya bilərdi, amma istəmədi.

Günortadan sonra Dəclənin yaxınlığındakı bir yola çatdıq. Aclıq yadımızdan çıxmışdı. Yaxından və uzaqdan partlayış və atəş səsləri gəlirdi. Düşmən özünü itirdiyindən sursatları qutu-qutu başımıza boşaldırdı. Uşaqların arasında Cavad Fəxxarini gördüm. Əndimeşk düşərgəsindəki düzənlikdə azdığımız gecə yadıma düşdü.

- Kaş burada itəydim və məni heç kim tapa bilməyəydi! Bu çöllükdə o qədər gəzəydim, nəhayət, öz dayanacağıma çatıb enəydim. Müctəba ilə Baqirin yanına gedəydim; Məhəmməd dayımın yanına! – deyə öz-özümə düşündüm.

Üç kilometr yol getmişdik. Başımıza yorğunluq tozu ələmişdilər. 60 mm kalibrli bir mərmi fit verə-verə başımızın üstündən keçdi. Hətta başımızı gizlətməyə də halımız qalmamışdı. Fiti qulağımın pərdəsini titrətdi. Bizdən bir qədər aralıya düşüb yeri yardı. Yerdə açdığı qara çalanı gördüm. Mənsur Baqiri məndən bir qədər aralıda yerdə oturmuşdu. Dəcəllikləri ilə hamını bezdirmiş bu oğlan necə də böyümüşdü! Laboratoriya borusu və yanmış qarışqalar yadıma düşdü. İşarə ilə onu çağırmağa çalışdım, görmədi.

Bölüyün qırmızı dəftərini cibimdən çıxardım. Qırmızı kvadratlar çoxalırdı: Əli İrəm və Məhəmmədcu. Kaş bir nəfər də mənim adımın önündən bu kvadratdan çəkəydi! Uşaqlardan eşitmişdim ki, İranizadə də elə əvvəldə qalanın üstündə rahatlaşıb. Bir qırmızı kvadrat da ona qismət oldu. Uşaqların biri də qaladan keçəndə yıxılmışdı. Dedikləri əlamətlərdən onu tanıdım: Pursadiqi.[1] Kəsilmiş əlinə görə yadımda qalmışdı. Bir əllə avtomatı idarə etmək bacarığı diqqətimi cəlb eləmişdi. Yolun arxasında uşaqların arasında gəzir, dostlarını soruşurdum. Çoxu qalanın üstündə vurulmuşdu. Hər dəfə qırmızı

[1] Nasir Pursadiqi 1960-cı ildə doğulmuş, 1985-ci ildə Bədr əməliyyatında Dəclənin şərqində şəhadətə qovuşmuşdur.

kvadrat çəkəndə dünyanın dərd-qəmi ürəyimdə bardaş qururdu. Məncə, o qalanın adını Şəhadət qalası qoymaq lazım idi.

***

Təminat qüvvələri cənnət məmurları kimi aramızda gəzib bizə mükafat verirdilər. Konserv gətirmişdilər. Həm səhər, həm günorta, həm də şam yeməyi sayılırdı. Nə qədər ac olduğum orada yadıma düşdü. Dəftəri cibimə qoyub konservi süngü ilə açdım. Balığın kəskin qoxusu başıma doldu. İlk bir neçə tikə torpaq və barıt dadırdı. Fikirləşdim ki, Müctəba burada olsaydı, hamı konserv almayınca dilinə heç nə vurmazdı. Boş qalmış yeri ürəyimi yandırdı. Boğazım qızışdı. Göz yaşlarımı saxlaya bilmədim. İştaham küsdü. Konservi kənara qoydum.

Axşama qədər orada qalmalıydıq. Uşaqlar süngü ilə səngər qazırdılar. Müctəba ilə Baqirin gedişinə narahat halda ana bətnindəki uşaq kimi yerdə büzüşüb oturdum. Şəhadət növbəti dəfə yanımdan ötüb keçmişdi. Partlayış və taqqıltıların layla səsi daha da uzaqlaşdı; Müctəba və Baqir kimi.

Gözlərimi açanda şər qarışmışdı. Qumquma suyu ilə dəstəmaz aldım. Hələ kolon yola düşməmişdi, namaza vaxtım vardı. Yer ayaqlarımızın altında titrəyirdi. Yaxından və uzaqdan gələn partlayış səsləri qulaq batırırdı. Səma daim saralır, qızarırdı.

Qərara alınmışdı ki, iraqlılar bu tərəfə gəlməsinlər deyə Dəclənin üstündəki körpünü bağlayaq. Ağlımıza da gəlmirdi ki, bizdən öncə ətrafdakı əkin kanallarında pusqu qurmuşlar. Bizə doğru yağan işıqlı güllələrə sarı yola düşdük. Düşmən bölüyü bizimlə güllələrin arasında pusquda dayanmışdı. Cavad Fəxxari öndən gedirdi, Şəhrbafla mən də arxasınca. Mənsur, Cəfər və Seyid Mehdi mənim arxamdan gəlirdilər. Bir qədər gedəndən sonra birdən beynimə gəldi ki, biz tək deyilik. Qaranlıqda bizi izləyən baxışları hiss edirdim. Özümə gəlincə bir nəfərin önümdə uzandığını gördüm. Silahının ucunu qaldırdı. Gözümü qırpmağa da macal tapmadım.

Onun atəşi ilə sanki qarnıma bir kərpic dəydi. Böyük torpaq kanalın kənarına düşdüm. Şəhrbaf onun işini bitirmək istəyirdi, amma silahı ilişib atəş açmadı, qundaqla iraqlı əsgərin üz-başına vurmağa başladı. Ağır vurhavur səsi hər yeri bürüdü. Mən də kanalın kənarında can verirdim. Güllə o qədər iti və sürətlə kəsib gedir ki, bir neçə saniyədən sonra qanın istisindən nə baş verdiyini bilirsən. Sümüyə dəyəndə isə həm ağrıdır, həm də vurulduğunu anlamaq olur. Həmin güllə

göbəyimin üstündən dəymiş, çıxanda axırıncı qabırğamı tutmuş və buna görə məni qaldırıb yerə çırpmışdı.

Uşaqların yalnız ayaqlarını görürdüm; tələsik gedib-gəlirdilər. Bilmirdim ki, hansı bizimkilərin ayağıdır, hansı düşmənin. Məni heç kim görmürdü. Qulağım yerdə idi. Sanki yerin altında nəsə guruldayır, onu titrədirdi. Canımın hərarəti qarnımın üstündəki dəlikdən bayıra tökülürdü. Get-gedə soyuyur, taqətsiz olurdum. Ayağımı yerə sürtürdüm. Ayaqlarımın altı çökək olmuşdu. Bütün canım balaca bir top kimi boğazıma yığılıb bayıra çıxmaq istəyirdi. Nəfəsimin yolu bağlanmışdı. Güllə bədənimdən çıxanda ağciyərimə xəsarət yetirmişdi; xırıldayırdım. Ölümün biraddımlığında idim. Bu bir cümləni demək qədərincə boğazımın açılmasını istəyirdim:

– İlahi! Qələt elədim günah elədim.

Gözümü açdım. Səma işıqla doluydu. Bir qüvvə məni yerə tikmişdi. Kirpiklərimin ixtiyarı əlimdə deyildi, özümdən asılı olmadan açılıb-bağlanırdı. Həmin axşam can verməyin çətinliyini təcrübə etdim. Bir neçə dəqiqədən bir huşumu itirirdim. Hər dəfə özümə gələndə işıqlı səmanı görürdüm, heç bir səs eşitmirdim. Səmada fırlanan işıqları görəndə arxayın olurdum ki, daha bitdi, rəngbərəng hurilər rəqs edib dövrə vura-vura mənə doğru gəlirlər. Bir neçə saniyədən sonra isə huri tüstüləyir, sönürdü. Onda bilirdim ki, hələ bu dünyada çapalayıram və fişəngləri huri ilə səhv salmışam.

Zaman qırılırdı və mən yuxu ilə oyaqlıq arasında üzürdüm. Gözlərimi açanda ağrıdan döş qəfəsim partlamaq üzrəydi. Dözə bilmirdim. Gözlərimin yenə bağlanmasını istəyirdim. Bilmirdim ki, ağrının şiddətindən huşumu itirir, sonra yenə özümə gəlirəm.

Bəm və zil səslər uzaqlaşıb-yaxınlaşır, mən ölümlə həyat arasında çapalayırdım. Torpağın soyuğu üzümü qıdıqlayırdı. Qarşımda bir cüt ayaq dayanmışdı. Gözlərimi bağladım. İşimi bitirəcək son gülləni gözlədiyim yerdə belə bir səs eşitdim:

– Ya Əli! Qalx!

Seyid Mehdinin səsini tanıdım. Məni geriyə aparmaq üçün düşmənlərin arasına qayıtmışdı. Qəhər boğazımı sıxdı. Keyimiş, ağırlaşmışdım, başıma qan və barıt iyi dolmuşdu. Qolumdan tutub öz boynuna saldı. Bədənim yerdən qopanda yuxarısı dartıldı və qarnımın dərisi yırtıldı. Xırçıltını hiss etdim. Canımın min qatında ağrı dolaşdı.

– Burax, seyid, get, indi səni vurarlar, - dedim.

Bu müsibətlə qayıtmaqdansa orada can verməyi üstün tuturdum. O cəhənnəmdə özünü naza qoymağın da yeri deyildi. Seyid Mehdi arxaya yıxılmayım deyə əlini belimə doladı.

– Sakit ol, danışma, – deyə elə qışqırdı ki, israrın faydasız olduğunu başa düşdüm.

Seyid Mehdi gedir, mənim ayaqlarım da onun ardınca sürünürdü. Birdən budum istiləşdi. Bir güllə əl-qolumun arasından keçib budumun üstündən xətt çəkdi. Əlim zərblə bədənimdən ayrılıb yuxarı qalxdı, ayağım sümüklərinin iliyinə qədər yandı. O güllənin göynərtisinə dirildim. Əlim qarnımda ağırlığımı Seyid Mehdinin çiyninə saldım, sürünə-sürünə torpaq sipərin arxasına qədər getdim.

Atəş altından xilas olmuşdum. Seyid Mehdi məni yerə uzatdı. Bədənim torpağa dəyən kimi yenə gözlərim yumuldu. Yalnız öpüşünün hərarətini alnımda hiss etdim. Qaçıb məndən uzaqlaşdı. Ətrafımdakı səslər zəifləyirdi. Ağır bir mürgüyə daldım. O halda nə qədər qaldığımı bilmirəm. Ancaq qanlı bir öskürək məni qaldırıb yerə çırpdı. Yenə can verməyə başladım. Ayaqlarımı yerə sürtürdüm. Hər hərəkətlə ayağımın altında yaranmış çuxur dərinləşirdi. Bilmirəm neçə canım vardı ki, xilas ola bilmirdim. Huşumu itirir, yenidən özümə gəlir və yenə dua etməyə başlayırdım:

– İlahi! Qələt elədim günah elədim.

Müctəbanın üzü gözlərim önündə idi. Onun əlini tutmağı necə də istəyirdim! O anların xatirələri zəif şəkildə yaddaşımda qalıb. Hər şey təkrarlanırdı: Anamın bişirdiyi fisincanın ətri evi bürümüşdü. Nənəm yanımda uzanıb Nəməki nağlını danışırdı. Atam kassa arxasında oturmuşdu, mən də Şeyxan bazarında oynayırdım.

Ağrı elektrik kimi bədənimi titrətdi. Gözlərimi açdım. Torpağı çəngələmək istəyirdim. Yenə huşumu itirdim. Qardaşım Əli təzə dünyaya gəlmişdi. Bacılarımla onu qucağımıza götürmək üstə dalaşırdıq. Uzaqdan Məcidin, Əmirin və Əlinin səsi gəlirdi; oynayıb məni çağırırdılar. Cəfərgilin evinin önünə getdim. Hacı ağa qapını açıb həmişəki kimi bərkdən salam verdi. Nə qədər cavab verməyə çalışsam da, boğazımdan səs çıxmadı.

Ağrı yenə sinəmə doldu. Gözlərim hədəqəsindən çıxmaq üzrə idi. Uzaqlarda səma yanıb-sönürdü. Gözlərimi yumdum. Kaş bu lənətə gəlmiş ağrı bitəydi! Cəfərlə Cəmkərana getdik. Hər yerdən gözəl ətir gəlir, günbəzin yaşıl işığı bizi səsləyirdi. Dərin nəfəs aldım: torpaq iyi, Cəmkəran ətri. Möhkəm öskürək gözlərimi ovdu. Qanın duzlu dadı

ağzıma dolmuşdu. Barmağımı boğazıma salıb qan laxtasını çıxarmaq istəyirdim. Yenə ağrı. Hər yer qış idi. Üzümün önündəki torpağı ovucladım. Dişlərim soyuqdan bir-birinə dəyirdi.

Bir nəfərin məni silkələdiyini hiss etdim. Bir qoca və mənimlə yaşıd bir gənc məni motosikletdə oturtmağa çalışırdılar. Bir anlığa üzlərini gördüm, sonra yenə gözlərim yumuldu. Baxışlarındakı rahatlıq yadımdadır. Adlarını soruşmaq istəyirdim, amma kirpiklərimi idarə edə bilmədim. Soyuq sümüklərimi titrədir, başım bədənimə ağırlıq edirdi. Gözlərim yumuldu. Nüsrət xanım xalça toxuyur, oxuyurdu. Hacı Əlimirzənin təsbehini götürmüşdüm. Evdən buğda iyi gəlirdi. Məhəmməd dayım zirzəmidəki buğdaları bellə toplayırdı. Bel yerə dəyəndə xırçıltı səsi gəlirdi.

Yenə canım ağrımağa başladı. Başım partlamaq üzrəydi. Bərk atılıb-düşürdüm. Başımın üstündəki ulduzlar hərəkət edirdi. Hur gölünün iyi gəlirdi. Qayığın su üzərindəki təkanlarından özümə gəldim. Məni geriyə göndərirdilər. Yenə gözlərim yumuldu. Cəfəri başım üstə görəndə elə bildim ki, o da şəhid olub, ikimiz də cənnətdəyik. Ancaq Əhvazın Şəhid Bəqayi xəstəxanasında əməliyyat otağının yanındaydıq. Çiynindən yaralanmışdı, sarığı vardı. Əyilib üzümdən öpdü. Kövrəlib gözlərimi yumdum. Mehriban üzü və narahat baxışı həmişəlik yaddaşıma həkk oldu. İndi də onun üçün darıxanda gözlərimi yumub həmin görüntünü təsəvvür edirəm. Şəhid Bəqayi xəstəxanasından yalnız bunu xatırlayıram. Özümə gələndə məni başqa bir yerə göndərirdilər. Cəfəri görmək üçün gözlərimi gəzdirdim. Yox idi.

Xəstəxananın həyətində açıq havada uzanmışdım. Soyuq külək paltarlarımın altından girib məni üşüdürdü. Ağrıkəsicilərin təsiri azalmışdı. Ağrı döş qəfəsimi çatladırdı. Mart günəşi də mənim qədər cansızdı, bədənimi qızdıra bilmirdi. C-130 təyyarəsinin ətrafı mənim kimi yaralılarla doluydu. Cırıq qanlı paltarlarla xərəklərin üstündə uzanıb qalmışdıq. Hamımızın bir ortaq dərdimiz vardı: dostlarımız getmiş, biz qalmışdıq.

Gözlərimi yumdum. Daha boğulmurdum. Ciyərimdəki qanı boşaltmışdılar. Yadıma düşdü ki, qarnıma güllə dəyib. Yaramı görmək üçün başımı yerdən qaldırdım. Ağrı qarnımda dolaşdı və başım sürətlə yerə düşdü. Susuzluq məni əldən salmışdı. Serumu qolumdan çıxarıb başıma çəkmək istəyirdim. Arzu etdim ki, kaş bu təyyarə bizi Məşhədə aparaydı. Ürəyim ziyarət istəyirdi. Əlimi çətinliklə sinəmə qoyub:

– Salam olsun sənə, ey qəriblər qəribi! – dedim.

Göz yaşım saçımın arasına qədər axdı. Təyyarədə orta mərtəbədə idim. Ax-uf səsləri, qan və spirt qoxusu... Köynəyimin altından nazik bir şlanq çıxmış, irin dolu bir torbaya qoşulmuşdu. Yavaşca qarnıma əlimi çəkdim. Bint və yapışqan əlimin altında qaldı. Şlanqı əyilmiş son iki qabırğamın arasından salmışdılar. Onun ağciyərimin irinlərini boşaltdığını bilmirdim. Gözlərim torbanın içindəki qanda ikən yuxuya getdim.

Tehranın İmam Xomeyni xəstəxanasının dəhlizləri yaralı ilə doluydu. Tavandakı ağ uzun lampa narıncı rəngə düşmüşdü; dayanmadan göz vurur, yanıb-sönürdü. Boğazımda duzlu dad hiss etdim. Tərpənmək istədim, amma qarnımın ağrısı qoymadı. Dərisi daralmışdı, hər dəfə tərpənəndə yırtılacağından qorxurdum. Tibb bacılarının işləri başlarından aşır, hərəsi bir tərəfə qaçırdı. Heç kimin ağlına gəlmirdi ki, qan ağciyərimə qayıda bilər. O qədər xırıldadım ki, hər yer qaraldı.

Axırıncı dəfə özümə gələndə atamla Hacı Rəhmət başım üstə dayanmışdılar. Güman ki, nə vaxtsa özümə gəldiyimdə tibb bacılarının biri evimizin telefon nömrəsini almışdı. Atam elə vəziyyətdə idi ki, çırtma vursaydın, qan çıxardı. Tez-tez harasa gedib-gəlirdi. Hər dəfə gözlərim Hacı Rəhmətə sataşanda Məcidlə xalamı soruşurdum. Nə cavab verdiyi yadımda deyil.

1985-ci ilin novruz bayramına dörd gün qalmış xəstəxanalara çoxlu yaralı göndərilmişdi. Tibb bacılarının biri yorğunluğunun əvəzini atamdan çıxmışdı. Düşünürdü ki, yaralı döyüşçülər onların bayram şənliklərini məhv edib. Atam buna görə hirsli idi. Hacı Rəhmət Təcriş meydanındakı Şəhidlər xəstəxanasından doktor Fərhənglə əlaqə saxladı. Qohumumuz idi, sözünü yerə salmadı. Bir neçə saatdan sonra məni oraya apardılar.

Anamla Siddiqə xalam hər gün görüş vaxtı xəstəxanada olurdular. Görüş başlayan kimi gəlir, gedəndə tibb bacıları onları zorla bayıra çıxarırdılar. Həmin il novruz bayramını xəstəxanada qarşıladım. Hər gün görüşümə gələnlər olurdu; ailə üzvlərimdən tutmuş tanımadığım insanlara qədər. Dəstə-dəstə gəlib çarpayıdakı döyüşçülərin bayramlarını təbrik edirdilər.

Axşam hamı gedəndə qəm-qüssədən ürəyim çatlayırdı. Xəstəxanada axşamdan sükut zamanı başlayırdı, amma mənim yuxum gəlmirdi. İşim özümü müayinə etməkdən ibarət olmuşdu. Köynəyimi qaldırıb

qarnıma baxırdım. Dərinin iki tərəfindəki qara iri tikişləri üst-üstə saxlamışdılar. Döş qəfəsimin iki tərəfinə əlimi qoyanda çökəyə düşdüyünü hiss edirdim. Sol tərəfim bir barmaq qədər batmışdı. Ağciyərimin qanını hələ də şlanqla çıxarırdılar. Uzun şlanq qan dolu iyrənc torbaya birləşmişdi.

Yaralarımı görəndə əməliyyat gecəsi yadıma düşürdü. Yalnız uşaqların vurulub şəhid olma səhnələri yadımda qalmışdı: Göldən keçirdik və mən Müctəbanın arxasınca qaçırdım. Nə qədər çox qaçırdımsa, məndən bir o qədər uzaqlaşırdı. Onu çağırırdım, eşitmirdi. Qaçırdım, çöllük ayaqlarım altında titrəyirdi. Əli İrəm, Abbas Məhəmmədcu və Baqir Fəlsəfinejad Şəhadət qalasının üzərində dayanıb mənə baxırdılar. Sonra vurulduğum yerə çatırdım; enə bilmədiyim dayanacağa. Güllənin səsindən və güclü təkanından yuxudan diksinirdim. Bəzən yuxum ağırlaşanda sol tərəfə çevrilirdim, qabırğalarımın arasındakı şlanq dartılırdı və öz qışqırıq səsimə yuxudan oyanırdım. Arzum o şlanqın bədənimdən çıxarılması idi.

Uzun şlanq xəstəxanadan çıxan günə qədər sinəmin altından asılı qaldı. Xəstəxana geyimini çıxaranda ürəyim xaki formamı istədi. Evə getməli olduğuma inanmaq istəmirdim. Tehrandan Quma qədər gözlərimi açmadım. Yolun kənarındakı çöllükləri görəndə çox narahat olurdum.

Salariyyəyə çatanda günorta idi, Peyğəmbər (s) məscidindən gələn azan səsi küçələri bürümüşdü. Qəhərdən boğulmaq üzrə idim. Anam qapını açdı, məni görən kimi bərkdən ağlamağa başladı. Nənəm məni əzizləyir, əlində üzərlik yaylığının küncü ilə gözlərini silirdi. Daha mənim ağlamağıma bir yer qalmadı. Çox narahat olmasınlar deyə düz yeriməyə çalışdım. Qardaşım Əli qucağıma gəlmək istəyirdi, amma onu qaldıra bilmirdim, qarnımda nəyinsə dartıldığını hiss edirdim.

Məndən xəstəxana iyi gəlirdi. Hamama sığındım, duşun altında hönkür-hönkür ağlamağa başladım. Qabırğamın üzərindəki yara ürəyimdən cəmi dörd barmaq aralıdaydı; lənətə gəlmiş dörd barmaq.

Anam günortaya fisincan asmışdı. Bir neçə qaşıqdan artıq yeyə bilmədim. Qəhər məni boğurdu. Yenə dünyada əsir olmaq fikri başımdan çıxmırdı. Sinəmin ağrısını bəhanə edib yatdım. Hərəmə getmək, günbəz altında fəryad qoparıb şəhadət diləmək istəyirdim.

Seyid Mehdi bozumtul-yaşıl geyimi ilə başım üstə dayanmışdı. Onu görəndə qalxıb oturmaq istədim, əli ilə işarə verdi ki, uzanım:

– Biz dostluq borcumuzu yerinə yetirdik; evə gəldiyin ilk axşam səni görməyə gəldik. Sən də çalış həzrət Zəhra (ə) təsbihini yavaş-yavaş de.

Diksinib yuxudan ayıldım. Çox narahat oldum. Yuxuda Seyid Mehdi başqa cür idi, dövrəsini yumşaq və yüngül bir dairə tutmuşdu. Onun üçün çox darıxdığımı hiss etdim. Yataqda uzanmaq bütün ruhumu incidirdi.

Həmin gün xakfərəcli uşaqlar məni görməyə gəldilər: Cəfər, Əli Salehi, İbrahim Zare və Əkbər Şirqulami. Cəfərin çiyni təzə sağalmışdı, qolu boynundan asılmışdı. Hər şeydən danışırdılar. Mən yaralanandan sonra düşmən ağır atəşlə uşaqların çoxunu şəhid etmişdi. Mənim arxamda olan Mənsur Baqiri itkin düşmüşdü. Yolun arxasında olanda gördüyüm görkəmi yadıma düşdü; çox sakitdi, sanki bizi görmürdü. Həsrətlə düşündüm ki, niyə onda gedəsi olduğunu başa düşməmişəm.

Zeyd zastavasında uçurduğu çərpələnglər məşhur idi. Həmişə ərəbcə "Səddama ölüm olsun" şüarı yazılmış hazır bir çərpələngi olurdu. Bekar olanda istehkamın üstünə qaçır, işarə barmağını ağzına qoyub başının üstünə qaldırır, guya küləyin istiqamətini təyin edirdi. Ürəyincə olanda çərpələngini buraxırdı, külək də sanki sevinib onu oynada-oynada düşmən mövqeyinə tərəf aparırdı. Hamı toplaşıb tamaşa edir, gülürdü. İraqlılar göyə o qədər atəş açırdılar ki, axırda çərpələng və üstündəki Səddam başı üstə yerə düşürdü. Mənsur həmin çərpələnglərə minib getdi; səssiz, rahat və gülə-gülə.

Həmin gün kolon dağılır. Pusqu qurmuş düşmənlərin sayı gördüyümdən də çoxmuş. Sübh çağı tanklarını mövqeyin həmin qırıq hissəsindən içəri salırlar.

Şəhidlərin adı çəkiləndə uşaqlar kövrəlirdilər, Cəfərin ağ yanaqları qızarırdı. Şəhadət karvanından geri qalmaq həsrəti hamımızı yandırırdı.

Cavad Fəxxari həmişə deyirdi ki, cəsədimin bu torpaqda yer tutmasını istəmirəm. O, əks-hücumun ikinci günü yaralanır. Onu geriyə aparmaq üçün xərəyə qoyurlar. Bir mərmi isə düz xərəyin ortasına düşür və Cavaddan yer tutacaq heç bir şey qalmır. Onun şəhadəti ürəyimi çox yandırdı.

Bir dəfə şəhid dəfnində Rza Əşəri zarafata ona demişdi:

– Cavad, bir gün səni də camaatın qolları üstə görəcəyəm.

– Oğlan, cəsədimin camaatın qolları üstə qalxmasını əsla istəmirəm, – deyə Cavad əminliklə cavab vermişdi.

Rza deyirdi ki, o, Bədr əməliyyatında çox narahat imiş, həmişəki Cavad deyilmiş. Halını soruşanda dərin bir ah çəkib cavab veribmiş:

– Rza, yəni mən yenə qalacağam?!

O zaman Cavadın 25 yaşı da yox idi, davranışları isə qırxyaşlı bir kişi kimi idi. Bədr əməliyyatında kürək sümüyündən yaralananda uşaqlar sevinib düşünürdülər ki, yaralandığına görə geri göndəriləcək və bu əməliyyatda sağ qalacaq. Ancaq Cavad geri getməmiş, özü yarasını bağlayıb mövqedə qalmışdı.

Əməliyyatın neçənci günündəsə uşaqlar bağlamalı olduğumuz körpüyə çatırlar. Torpaq sipərin arxasında o qədər tank və texnika görmüşdülər ki, hər iki nəfərə bir tankın düşdüyünü deyirdilər. Bizim qüvvələrimizin sayı isə o qədər az imiş ki, qumbaraatanlarımız bir mərmi atandan sonra tez otuz-qırx metr kənara gedib birini də oradan atırmışlar ki, düşmən saylarının çox olduğunu zənn etsin. Bu vəziyyətdə iki gün müqavimət göstərirlər. Düşmən onları geri qovmaq üçün tanklarından birinin pedalını bağlayıb birbaş uşaqların olduğu torpaq sipərin ortasına yönəldir. Hamı qorxur. Hacı Əkbər Nuri qumbaraatan uşaqların biri ilə birlikdə cəld motosikletə minib gələn tankı torpaq sipərin arxasında vurur. Sonralar öyrəndim ki, Cavad Delazər öz kəşfiyyat məruzələrində bu düşərgənin tankla dolu olduğunu qeyd edibmiş.

Uşaqlar Cavad Abidi və Mustafa Kəlhürinin başçılığı ilə düşərgəyə gedir, yaxınlaşdıqda torpaq sipərlərin arxasında onları gözləyən düşmənlərin pusqusuna düşürlər. Bu barədə eşitdikcə daha çox həsrət çəkirdim ki, kaş o gecə yaralanmayaydım. Sübh namazından sonra Cavad Fəxxari ilə Rza Əşəri torpaq sipərin arxasında qazdıqları çalanın yanında otururlar. Tankların gurultusunu eşidəndə Cavad təklif edir ki, qumbaraatanla onları vursun. Özü də torpaq sipərin tank çalası kimi bayıra çıxmış bucağına doğru qaçır. Bu zaman Cavadın yanına bir mərmi düşür. Rza özünü Cavada yetirir. Görür ki, qan içində yerdə qalıb, çəfiyə şalını da üzünə atıb. Şalı kənara çəkir. Yaralı və qanlı üzünü görəndə bilir ki, şalı qəsdən üzünə atıb ki, uşaqlar görüb ruhdan düşməsinlər. Əlindən tutub kövrək səslə qulağına pıçıldayır:

– Cavad, mən getməliyəm. O dünyada şəfaət yadından çıxmasın. Cavad, mənəm, Rza.

Cavad Rzanın əlini çox yavaşca sıxır, amma bir söz deyə bilmir. Rza əyilib onun alnından öpür. O qarışıqlıqda tibbi köməkçilər Cavadı geri aparmaq istəyəndə xərəyin üstünə bir mərmi düşür. Cavaddan heç nə qalmır, iki tibb işçisi də şəhid olur. Beləliklə, arzusuna qovuşur və cəsədi heç vaxt camaatın qolları üstə qalxmır.

Hamı getmişdi; əməliyyat günü başım üstə Fatihə oxuyan bölük rabitəçisi Musəvi də. Kaş zarafatı həqiqət olaydı! Ancaq özü şəhid olmuşdu. Ona Fatihə oxumağa dilim gəlmirdi. Həsən Zairi də getmişdi, Şəhid Rəcayi liseyinin İslam birliyinin sədri. O, üç il öncə mənə verdiyi məktubla tibbi köməkçi kimi cəbhəyə ayağımı açmışdı. Ərdistaninin adı çəkilən kimi həmişə cibindən çıxarıb oxuduğu balaca vərəqləri yadıma düşdü. Fikirləşdim ki, o vərəqlərdə həmişə şəhadət sirrini təkrarlayırmış. Seyid Mehdi barədə soruşmağa cürət etmirdim. Cəfər başını aşağı saldı. Bildim ki, nə isə demək istəyir. Sanki ev başıma uçdu. Onunla qardaşlıq əhdi bağlamışdıq, amma tək getmişdi.

Əməliyyat gecəsi yadıma düşdü. Qamışlıqların arasındakı körpünün üstündə oturmuşdu. Təkliyə çəkilməsindən bəlli idi ki, bu dünya ilə bağlarını qoparır. Hər şeyi ürəyindən çıxarmışdı. Daha uşaqların sözlərini eşitmirdim. Qərara gəlmişdik ki, Seyid Mehdi ilə birlikdə cənnətə qədər gedək. Dünyanın qəm-qüssəsi ürəyimə çökdü. Kaş əməliyyat günü yenə şəfaət vədi alaydım! Kaş məni geri qaytarmağa qoymayaydım! Kaş o lənətə gəlmiş güllə bir qədər yuxarıdan dəyəydi! Kaş uşaqların yanında qalaydım! Kaş heç vaxt bu xəbəri eşitməyəydim!

Uşaqlar gedəndən sonra başımı yastığa batırıb göz yaşlarımı sərbəst buraxdım. Seyid Mehdi mənə dostdan da yaxın idi. Onun qəmindən ürəyim parçalanırdı. O hara, mən hara! Dostun şəhid olandan sonra bilirsən ki, onunla nə qədər fərqli olmuş və bütün bu fərqləri görməmisən. Bunu onda anlayırsan ki, o gedir, sənsə bir dünya həsrətlə qalırsan.

Yataqda qalmaq qəmi az idi, Seyid Mehdidən ayrılmaq qəmi də əlavə olundu. Elə hiss edirdim ki, ev mənə darlıq edir. Əgər Xakfərəcdə olsaydıq, özümü məscidə yetirərdim, əhvali-ruhiyyəm dəyişərdi. Burada isə tək idim.

Anam otağa girdi. Diviziyanın təminat bölməsindən bağlama göndərmişdilər. İnana bilmirdim: təsbeh, kimlik nişanı, qələm və bölüyün siyahısı yazılmış qırmızı dəftərçə. Xəstəxanada, ya da, bəlkə, cəbhədə ciblərimi boşaltmışdılar. Qarnımın qanı dərtərçənin

vərəqlərinin kənarlarını qaraltmışdı. Onu axırıncı dəfə yolun kənarında oxumuşdum.

Boğazımı qəhər tutdu, qəm-kədərim təzələndi. Göz yaşlarımın arxasından uşaqların adlarını dumanlı görürdüm. Mehdi İranizadə də şəhid olmuşdu. Dez bəndindəki təlim axşamları yadıma düşdü. Rabitə cihazını göz bəbəyi kimi qoruyurdu. Üzü soyuqdan qızarırdı. Ocağın kənarında elə otururdu ki, digərləri də yanına yerləşsinlər. Mustafa Kəlhüri İslamın tənhalığına görə o qədər qəm-qüssə çəkdi ki, öz qanı da İslam yolunda töküldü. Həmişə oxuduğu şeiri xatırladım:

Ey ağıllılar! Ey ağıllılar!
Evinizdən bayıra çıxın!
Mənə tamaşa edin,
Mənə dəli deyirlər.

Yavaşca oxuya-oxuya şəhid olduğunu eşitdiyim hər kəsin adının önündən balaca qırmızı kvadrat çəkdim. Axırıncı adam Seyid Mehdi Musəvi idi. Bu qırmızı kvadratlardan mənim adımın önündən də çəkilməsini istəyirdim. Dəftərçəni bağlayıb ürəyimin üstünə qoydum, ədyalı başıma çəkdim, heç kim bilmədən öz halıma yavaşca, səssizcə, amma yanıqlı-yanıqlı ağlamağa başladım.

"Komandirlər bəsicilərlə birlikdə, bəzisi ağır yaralanmış olsa da, o qədər müqavimət göstərdilər ki, bir qismi yarasına görə şəhid oldu, amma geri qayıtmadı. Dəclənin Kiseyi adlı hissəsində Aşura diviziyası güclü təzyiqə məruz qaldı. Diviziyanın komandiri Mehdi Bakiri heç bir yolla oradan çıxmağa razılıq vermədi. O, Kərbəla qərargahının komandirinin və diviziyasının əsas kadr heyətinin israrına baxmayaraq, geri çəkilib bəsiciləri ən ağır şəraitdə tək qoymağa razı olmadı və nəhayət, alnından dəyən güllə ilə şəhadətə qovuşdu".[1]

İranlı komandir və döyüşçüləri məğlubiyyət komasından çıxaran yeganə amil İmam Xomeyninin müraciəti idi:

"Ordu və korpus komandirlərinə deyin ki, – məlumat verdilər ki, bəziləri narahatdırlar, – narahatlığa heç bir əsas yoxdur. Əlbəttə, mən şəhidlər üçün və sizin üçün dua edirəm, amma hamımız bilməliyik ki, biz Allahın iradəsinə tabeyik. Biz imamlardan üstün deyilik. Onlar da bəzən zahirdə uğur qazanmayıblar; həm Peyğəmbər (s), həm

[1] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 118

Əmirəlmöminin (ə), həm İmam Həsən (ə), həm İmam Hüseyn (ə). Biz onların qarşısında kimik ki! Əsas Allahın istəyidir. O, nə istəsə, yaxşıdır. Onun istədiyinə şirin bal kimi qucaq açmalıyıq və heç nədən narahat olmamalısınız. Möhkəm olun və indidən növbəti əməliyyat barədə düşünün. Əmin olun ki, qalibsiniz. Bu gün də qalibsiniz. Allah üçün görülən işdə məğlubiyyət yoxdur".[1]

[1] İmam Xomeyni və müqəddəs müdafiə, s. 25-30, Əhməd Qulampurun hekayəti.

# Səkkizinci fəsil

## *Sanki müharibə getmir*

"Biz bunların hamısına qarşı müqavimət göstərməliyik. Necə ki, bizim gənclərimiz, şükür Allaha, indi cəbhələrdə bu böyük qələbələri qazanmışlar. Gərək axıra qədər davam etsin. Gərək heç bir zəiflik göstərilməsin və sonunda, inşallah, bayrağı sahibinə versinlər".

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 4

Vaxtlı-vaxtsız bir şappıltı səsi gəlirdi. Bilirdik ki, kimsə sərinləşmək üçün suya atılıb. 1985-ci ilin iyununda Hur gölünün üstündə müdafiə mövqeyi yaratmışdıq. Məni oraya Yadullah Hüseyni aparmışdı. Mövqeyin komandiri idi. Mənim ardımca gələndə cəbhəyə tək getmək istəmədim, evbəev gəzib adam topladım.

Bir bölük döyüşçü idik, Hurun isti və boğuq havasında həlak olurduq. Əgər göldə çimmək olmasaydı, günəş dərimizi soyardı. Günorta olan kimi günəşin şüaları burnumuzun ucuna qədər enirdi. Düşmənin görməsinə və atəş ehtimalına baxmayaraq, uşaqlar suya tökülüşürdülər. Yadullahın müavini Məhəmməd Fərəhzad[1] hamıdan qabaq başı üstə suya atılırdı. Qorxurdum ki, suya dəyən güllə dalğası əl-ayaqlarını kəsər. Suyun kənarında oturub onları çağırırdım ki, tez bayıra çıxsınlar. Ancaq mənə qulaq asan yox idi.

Biz postda duranlara nisbətən padşah idik. Düşmənin ehtimali nüfuzunun qarşısını almaq üçün suyun üstündə üç post yaratmışdıq.

---

[1] Şəhid Məhəmmədəli Fərəhzad 1966-cı ildə doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında şəhadətə qovuşmuşdur.

Yazıqlar düşmənin baxışı və atəşi altında nəfəs ala bilmirdilər, o ki qala çimməyə. Onlar üzləri günəşdən yanmış halda suda qamışlıqların arasında yaşayırdılar. İraq tərəfi Bədrdə üzərindən keçdiyimiz Şəhadət qalasının üstünə bir tank yerləşdirmişdi. Qamışlıqların arasındakı postlarımızı görmürdü, amma orada nəsə olduğunu bilirdi. Gündə bir neçə dəfə Hurun suyunu mərmi ilə havaya qaldırırdı. Su dalğalarla dolurdu, postlar suyun üstündə yellənirdi. Yeməkpaylayan qayıqla sakit su yollarında dövrə vurur, qamışlıqların xışıltısını dinləyirdim. Təravətli qoxu gəlirdi. Posta qədər qamışlıqların arası ilə 1 km gedirdim. Hur gölü uşaqların xatirəsi ilə doluydu: Seyid Mehdi, Müctəba, Baqir, Əli İrəm, Abbas Məhəmmədcu, Mehdi İranizadə və s. Bədr Bədr olsun deyə bu sularda gecədən sübhə kimi nə qədər titrəmişdik.

Gecələr səngərlərin pis iyindən yatmaq olmurdu. Hurun ağcaqanadlarının qorxusundan Hindistanın pis qoxulu ayaqqabı mazlarını üz-gözümüzə yaxırdıq. Kəskin iyi bizi boğurdu, ağcaqanadların isə vecinə də deyildi. Adlarını “adamyeyən ağcaqanad” qoymuşduq. Müdafiə mövqeyində olduğumuz bir ayda gecələr yata bilmirdik, gündüzlər də mürgüləmək istəyəndə qarınqulular bizi oyadırdı. Suya bir əl qumbarası atırdılar, zavallı balıqlar partlayış dalğasından suyun üzünə çıxırdı. Onları tutub kərə yağında qızardırdıq. Balıq kababı yemək o mövqeyin ən şirin hadisəsi idi.

Bir aydan sonra mövqeyi təhvil verib Dez bəndinə getdik. Bu düşərgənin yuvatanıyan göyərçininə dönmüşdük. Oranın hər qarışı mənim üçün xatirə doluydu. Bekar olan kimi şeir dəftərimi götürürdüm:

"Qaranquşlar uçmaq üçün iradələrini toplamış, köç niyyəti etmişlər. Qış gözəl səsli qaranquşa məskən ola bilməz. O, həmişə bahar, təravət və yaşıllıq istəyir. Qaranquşlar bahara köçmüşlər, bizsə qalmışıq. Biz donmuş qışsevərlərik. Qarın ağartısı saçımıza qonub, soyuğu ürəyimizə. Hələ də bilmirik ki, gül nədir, bülbülün səsi necə olur və yaşıl hansı rəngdir. Çünki hələ nə baharı tanımışıq, nə gözəl gül ətrini duymuşuq, nə də təbiətin yaşıl gözəlliyini görmüşük. Hələ yerimizdə möhkəm qalmış, qışın soyuğu ilə uyğunlaşmış, qar-borana alışmışıq. Bəli, biz qəlbimizin soyuq qışı ilə qaldıq. Və biz baharı görənlərə matəm saxlayırıq!

Məhəmmədhüseyn Hüseyni Yekta

Sentyabr 1985"

Dəftərimi bağladım. Göz yaşlarım bundan artıq yazmağa qoymadı. Uzaqda iri bir daşın üstündə oturmuşdum ki, ürəyim istəyən qədər ucadan ağlayım. Baharı görənlər üçün darıxmışdım. Dez bəndi düşərgəsi uşaqlarsız natamam görünürdü. Haraya baxırdımsa, Müctəba Seyfini və Seyid Mehdini görürdüm. Bu düşərgədə əl-ələ tutub qardaşlıq əqdi oxumuşduq. İndi isə yox idi və təkliyin qardaşının canını necə sıxdığını görmürdü. Yuxarıdan taqımların pərakəndə çadırlarına baxdım. Qürbət bu sakit düşərgənin hər yerinə kölgə salmışdı. Ürəyim qəm-qüssədən yarılırdı.

Diviziya boş idi. Hamı bilirdi ki, əsas əməliyyatlar qışda olur. Cəbhədə heç bir şey canlı qüvvənin az olması qədər ürəyini sıxmır. Bir neçə ay öncə bu düşərgədə adam əlindən yer yox idi. Taqımlar dağın yamacında və dərələrdə kolonlarla yürüş edirdilər. Üzəndə səs-küyümüz hər yerə yayılırdı. İndi isə sükut düşərgəni çənbərləmiş, hərə bir tərəfdə büzüşmüşdü. Təlimlərin arasında vaxt tapan kimi zirinc rəngli dəftərçəmi açırdım. Uşaqların yanında yaşadığım bütün anları yazmaq istəyirdim. Məlum deyildi ki, növbəti əməliyyatda kim qalacaq, kim gedəcək. Bir istifadəlik batalyon kimi idik.

Təlim komandirimiz İsmayıl Nurbəxş idi. Bizi hər gün suya girməyə məcbur edir, üzgüçülük təlimini namaz kimi vacib bilirdi. Nə həvəsim vardı, nə də üzməyi bacarırdım. O isə əl çəkmirdi. Bununla uşaqların həm ruhlanmasını istəyirdi, həm də sərinlənməsini. Beləliklə, əməliyyat məsələsi bəlli olana qədər canlı qüvvə duruş gətirəcəkdi.

Birinci gün başı üstə suya girmək üçün hamını suyun kənarında cərgəyə düzdü. Kim qorxub suya atılmırdısa, özü itələyirdi. Şappıltı ilə suya düşəndə bildim ki, işində çox ciddidir. Qışqırmağa başladım. Üzməyi bacarmadığımı düşünmürdü. Əli belində suyun kənarında dayanıb deyirdi ki, şıltaqlıq olmaz, mütləq üzməlisiniz. Çoxlu su içəndən sonra boş-boşuna şəhid olduğumu görüb əlini uzatdı. Uzanıb əlindən yapışdım və ayağım yerə dəyənə qədər buraxmadım.

Axşamlar dağa yürüşə gedirdik. Fərdpurla Salehi yan-yana gedirdilər. Məhəmməd Sadiqi hamıdan axırda gəlirdi. Onu hər görəndə Müctəba yadıma düşürdü. Bədrdə Müctəbanın müavini olmuş, indi isə tək qalmış, özünə qapanmışdı. Rza Əşəri ilə Şəhrbaf hamıdan öndə gedirdilər. Heç kim danışmırdı.

Axşam yürüşlərini sevirdim. Səmanın altında sakitcə yol gedirdik. Torpaq ayaqlarımızın altında yumşaq səs çıxarırdı. Dostlarımız göydən bizə əl yelləyirdilər, mən də həsrət odunda yanırdım. Səid Xazininin köynəyinin arxasındakı yazını hər axşam ay işığında oxuyurdum: "Ya ziyarət, ya şəhadət". Dodaqaltı təkrarlayır və iki yolayrıcında qalırdım. Özümdən soruşurdum ki, hansını istəyirəm: Əgər şəhadət istəyirəmsə, bəs niyə hələ də bu dərələrdə sərgərdan qalmışam?

Nəhayət, əməliyyat məsələsi dəqiqləşdi. Mikroavtobuslara minib yolun döngə və yoxuşlarını arxada qoyurduq. Salona isti külək dolurdu. Tərdən bezmiş halda özümü qaşıyırdım. Susuzluqdan dilimiz qurumuşdu. Nə qədər gedirdiksə, həyəcanım bir o qədər çoxalırdı. Biz Bədrdən sağ çıxanlar bir-birimizi yaxşı başa düşürdük. Hamımız əməliyyat üçün sinov gedirdik. Qarşı tərəfim nura boyanmışdı, mənsə günahlarımın pərdəsi arxasında əsir idim. Müharibənin bitəcəyi gündən qorxurdum. Zeynəddin yadıma düşdü. Onun dediyi kimi, yenə can və baş vermək zamanı yaxınlaşırdı. O, çıxışları və komandirliyi ilə həmişə aşiqlər üçün səmaya yol açırdı. İndi isə yox idi və döyüşdə aşiqləri səmaya aparmırdı. Ürəyim istəyirdi ki, əlimdən tutsun, məni özünün və dostlarımın yanına aparsın. Səmanı və dostlarımı xatırlamağın həzzi gözlərimi isitdi və yatdım.

Günbatana yaxın uşaqların səs-küyünə oyandım. Çəngulə çayının kənarında idik. Sevincək mikroavtobusdan enib o ki var gərnəşdim. Hər şey Vəlfəcr-3 günlərində olduğu kimi idi. Çay özünün yaşıl-mavi bədənini daşlar üzərində yellədirdi. Sərçələrin səsi çayın kənarındakı qısa ağacların arasında dolaşırdı. Ağcaqanadlar bizi qarşılamağa gəldilər. Bir-bir özümüzü qaşımağa başladıq. Taqımların çadırlarından başqa hər şey yerində idi; istidən uşaqların iki tərəfini qaldırdıqları çadırlar. Mustafa Kəlhüri motosikletlə süfrənin ortasından keçib düşmənin əks-hücumunu dəf etmək üçün hamını sıraya düzsün... Ah, yeri necə də görünürdü! Uşaqların çimmək səsi çayın kənarındakı tünd və açıq əhəng dağlarında hələ də əks-səda verirdi.

Soyunub suya girmək, canımı sarmış bütün yorğunluğa su səpib yüngülləşmək istəyirdim. Əli Şəhrbaf uşaqların arasında gəzə-gəzə deyirdi:

– Ya Əli, qardaş! Tələs, əxəvi! Heç kim qalmasın!

Çimməyə vaxtımız yox idi. Pikaplar sıraya düzülmüşdü. Axşam vaxtı və maşınların işıqları sönmüş halda Aşura-2 əməliyyat bölgəsinə getməli idik. Birinci pikapa mindim, salonun arxasında dayanıb

yuxarısındakı mildən tutdum. Diviziyanın əməliyyat istiqamətlərinin komandiri Məhəmmədcavad Delazər sürücünün yanında oturmuşdu. Pikap kolonu yola düşdü. Yanmış üzümüzə isti külək dəyirdi. Sürücü birdən əyləcə basdı və pikapın arxasındakılar irəli atıldılar. Kolonun ortasındakı sürücülərin ikisi işıqlarını yandırmışdı. Delazər hirslə maşından endi, yumruğunun altı ilə kapota çırpdı. Heç kimdən səs çıxmırdı. Maşınının işığını yandırmış sürücülərə bir neçə ağır söyüş verdi, boynunun damarları şişdi. Külək onun səsini aparırdı. Haqlı idi. Bölgədə keçid az idi, düşmən pikap kolonunu görsəydi, şübhələnərdi.

Cavadın hirsləndiyi zaman mən salonun üstündə arxası üstə uzanıb qollarımı iki tərəfə açdım, gözlərimi göyə və ulduzlara dikdim. Fikirləşdim ki, ulduzlar pikapların arxasındakı döyüşçülərdən özlərinə adam seçirlər. Cavad hirslə maşına minəndə isə qəzəbinin qalanını da qapıya boşaldıb onu möhkəm çırpdı və əlim qapının arasında qaldı. Elektrik vurmuş adam kimi yerimdən atıldım. Cavad başını pəncərədən çıxardı. Ağrıdan qıvrıla-qıvrıla zarıltımı dişlərimin arasından çıxardım:

– Ağa Cavad, əlim sındı.

Başını narahat halda yellədi və maşın yola düşdü.

Biz mövqeyə girən ilk bölük idik. Kolonla yola düşdük. Heç kimdən səs çıxmırdı. Kolonun əvvəli və axırı qaranlığa girmişdi. Müdafiə mövqeyimiz olan təpələrin arxasına yerləşdik, qulaqlarımızı şəkləyib əməliyyat parolunun elan olunmasını gözlədik. Ay işığında uşaqların üzlərini görmək istəyirdim. Gedəsi olanlar parıldayırdılar.

Təqvim 15.08.85 tarixini göstərirdi. Gecə saat 01:30 dəqiqədə əməliyyat parolu elan olundu. Bizim bölüyümüz Əli Şəhrbafın rəhbərliyi altında təpənin sol tərəfindən endi, İsmayıl Nurbəxşin bölüyü də sağ tərəfindən. Aşura-2 əməliyyatının zəif cəhəti düşmənin bizim mövqeyimizi görməsi idi. Hər bir hərəkəti vururdular. Bir çay yatağından keçməli idik. Bizimlə düşmən mövqeyinin arasına iri-xırda daşlar döşənmişdi. Çaydan keçəndən sonra pərakəndə şəkildə minalanmış 145 saylı təpəyə çatırdıq.

Yola düşmək istəyəndə Mehdi Kazimbabayi peyda oldu. Kəşfiyyatçı idi. Rza Əşəri onu görən kimi təəccüblənib:

– Səni kəşfiyyatçı kimi göndəriblər? – deyə soruşdu.

Mehdi yoluna davam edib bizim önümüzdə dayandı, əlini sükut əlaməti olaraq dodaqlarının üstünə qoydu və işarə verdi ki, ardınca gedək. Bir neçə metr gedəndən sonra yerə oturdu, qaranlıqda torpağın altından nəsə çıxardı. Telefon kabeli idi. Kəşfiyyat zamanı kabeli

torpağa basdırmışdılar ki, hücuma keçəndə çıxaraq və yolu itirməyək. Bir neçə addım gedəndən sonra bildik ki, axıra qədər belə olacaq. Rza irəli gedib gülə-gülə Mehdinin boynunun arxasından tutdu:

– Mən heç vaxt sənin arxanca getmərəm, – dedi. - Üstəlik, kabeldən tutub gedəcəyiksə, burda nə var ki?! Özümüz gedə bilərik.

Mehdi gülməkdən danışa bilmirdi. Yerini Rzaya verib məndən öndə dayandı. Çiyninə vurdum, gülə-gülə, göz-qaş işarəsi ilə kolonun axırını göstərib dedim:

– Dadaş, arxaya!

Olumla ölümün biraddımlığında zarafatımız tutmuşdu. Gülə-gülə Mehdini əlbəəl edib arxamıza göndərdik. İndi Şəhrbaf öndən gedirdi, Rza ilə mən arxasınca, guya kəşfiyyatçı olan Mehdi bizim arxamızca, kolon da onun ardınca. Özü hamıya o qədər sataşırdı ki, bu zarafatlara alışmışdı.

Bir dəfə camaat namazında Rzanın yanında dayanmışdı. Rza ikinci rükətdə təşəhhüddən qabaq bir qədər qalxdı, sonra oturub təşəhhüdü dedi. Namazdan sonra Mehdi çox ciddi şəkildə üzünü Rzaya tutub:

– Dadaş, namazda hüzuri-qəlbin yoxdursa, mənim yanımda qılma, - dedi.

Gülüş səsləri ucaldı. Rza da gülüb Mehdinin böyrünə birini ilişdirib cavab verdi:

– Sənin hüzuri-qəlbin olsaydı, mənim təşəhhüdü unutduğumu görməzdin.

Ondan sonra kim bir səhv edirdisə, uşaqlar zarafata başlayırdılar:

– Dadaş, hüzuri-qəlbin yoxdursa, bizimlə gəzmə.

Həmin gecə də Mehdiyə deyirdik ki, hüzuri-qəlbin olmadığına görə öndən getməməlisən.

Çay yatağına çatanda vəziyyət dəyişdi, ortaya ağır sükut çökdü. Daşlıqdan pişik kimi yüngül şəkildə keçdik. Xırda daşlar ayaqlarımızın altında tərpənəndə qorxurduq ki, düşmən səsindən duyuq düşər. Nəfəslərimizi də saxlamışdıq. Gözüm Mehdidə və kolonun axırında idi. Kiminsə qalacağından qorxurdum. Birdən işıq bir qamçı kimi səs-küylə gecənin qaranlığını yardı. Yerə yapışdıq. Düşmən 145 saylı minalanmış təpələrin başına müdafiə qurğusu yerləşdirmişdi, tez-tez göyü işıq parçaları ilə doldururdu. Hər dəfə yananda yerimizdə qalırdıq. Bilmirdik ki, bizi görüb və indicə hamımızı yatağın yerinə sərələyəcək, yoxsa yenə boşuna bağrımızı yarır. Təpəyə çatana qədər

yüz dəfə ölüb-dirildik. İndi isə öz təpələrimizdən endiyimiz qədər dördəlli və səssizcə qalxmalı idik.

Müdafiə qurğusunun atəşindan sonra səngər işıqlanırdı və pulemyotun arxasındakı düşmən döyüşçüsünün kölgəsini görürdüm. Yuxarıdan hər şeyi gördüklərinə görə keçid açmaq mümkün deyildi. Minalanmış sahədə ən kiçik dəyişikliyi və hərəkəti hiss edirdilər. Bir bölük idik, təpənin yoxuşu da mina dolu. Qulağımız ratsiyada oturub hərəkət əmrini gözləməyə başladıq. Birdən düşmən mövqeyi oyandı. Bildik ki, İsmayıl Nurbəxşin bölüyü döyüşə girib. Pulemyot vəhşi heyvan kimi guruldamağa başladı. Əgər pulemyotçu təpənin başından lüləni bizə tuşlasaydı, bir nəfər də sağ qalmazdı. Əli Şəhrbafla bir-birimizin gözlərinə baxdıq:

– Gedək?

Söz ağzımdan çıxmamış "ya Əli" deyib dizini yerdən qaldırdı. Minalanmış sahənin ortasından sürətlə qaçırdı, Əşəri ilə mən də arxasınca. Qaranlıqda fikir verirdim ki, ayağımı düz onun ayağının yerinə qoyum ki, üçümüz birlikdə havaya uçmayaq. Meydanın sonuna cəmi bir neçə addım qalmış arxada partlayış gurultusu qopdu. Bölük bizim ardımızca gəlirdi. Uşaqlar minaya düşmüşdülər, ancaq dönüb baxmaq zamanı deyildi. Minalar partlayan kimi təpənin kənarında bir düşmən döyüşçüsü peyda oldu, əlində kalaşnikov avtomatı bütöv bir darağı bizə doğru boşaltdı. Güllələr vızıldaya-vızıldaya başımızın yanından keçirdi. Fikirləşirdim ki, niyə mənə güllə dəymir.

O qarışıqlıqda uşaqların hansısa müdafiə qurğusunun yerləşdiyi səngəri susdurdu. Avtomatlı düşmən kanalın içinə atılıb sol tərəfə qaçdı. Əli fürsətdən istifadə edib kanalı təmizləmək üçün sağ tərəfə qaçmağa başladı. Mən də sol tərəfə düşmən döyüşçüsünün arxasınca qaçdım. Gözlərim düşmənin müdafiə səngərinin içinə sataşdı. Müdafiə qurğusunun arxasında özümüzlə yaşıd bir yeniyetmə vardı, cansız cəsədi qurğunun üzərinə düşmüşdü. Hələ düz-əməlli saqqalı çıxmamışdı.

Cəld kanalın içinə qaçdım. Burnuma yanmış barıt iyi doldu. Düşmən döyüşçüsü bütün güllələrini boşaltmışdı, indi isə arxası bizə qaçırdı. Biraddımlığında çiynindən vurub dedim:

– Dayan!

Nə qədər çağırdımsa, qulaq asmadı, mən də atəş açdım. Güllə belindən dəydi və üzü üstə kanala yıxıldı. Başımı uşaqlara çevirib:

– Gəlin, – dedim.

Rza kanalın kənarı ilə qaçırdı. Çağırdım ki, kanalın içinə gəlsin. Əlini ağzının dövrəsində halqa edib qışqırdı:

– Məhəmmədhüseyn, bura daha təhlükəsizdir.

Doğru deyirdi. İraq tərəfi öz kanalının koordinatını bilir, 60 mm çaplı mərmi ilə vururdu.

Qaranlıqda batalyonumuzun komandir müavini Mustafa Əsgərini[1] tanıdım. İrəli qaçırdı, bir dəstə döyüşçü də arxasınca. Bir pulemyot kanalın sonunda çadır qurub başımıza atəş yağdırırdı, nəfəs almağa imkan vermirdi. Səma daim işıqlanıb-qaralırdı. Bilmirəm, arxamdakı kimdisə, qışqırdım ki, pulemyotu susdursun. O tərpənənə qədər bir nəfər "Allahu əkbər" deyib RPG qumbaraatanı ilə pulemyot səngərini havaya uçurdu. Təkbir qışqırtısından bədənimdən titrətmə keçdi. Yer ayaqlarım altında əsir, başıma torpaq və barıt iyi dolurdu.

Bölüyü təpənin başına gətirməyə adam axtarırdım. Qalın bir partlayış səsi diqqətimi cəlb elədi. Əşəri ilə Şəhrbaf kolonun axırını yığmaq üçün təpədən enmişdilər. Əlinin ayağı minaya düşmüşdü. Sanki hər şeyi sürətli rejimə keçirmişdilər. Digər qüvvələri gətirmək üçün kanalın girişinə doğru qaçdım. Kanal cansız cəsədlərlə dolmuşdu; həm düşmənlərin, həm də öz uşaqlarımızın. Fikirləşdim ki, bu qarışıqlıqda hər an bir güllərin sürətlə mənə doğru gəlməsi mümkündür. Fikir hələ beynimdən keçməmiş isti və qəzəbli güllələr üzərimə hücum etdi. Yerə oturub bir saniyədən sonra gözlərimi açdım. Gördüm ki, sağam. Bir nəfər güllələrə qalxan olmuşdu. Mənim kimi düşmən tərəfdən kanalın girişinə doğru qaçdığı yerdə vurmuşdular. Onu tanıdım: Əhməd Qəffarian[2] idi. Başını dizimin üstünə qoydum. Son nəfəsi ilə ruhu da bədənindən çıxdı və məsələ bitdi. Ona ürəyim yandı. Mənim əvəzimə yerə yıxılmışdı.

Təpənin üzərinə yağan atəşin həcmi o qədər böyükdü ki, az qala təpə əriyəcəkdi. Qan və barıt qoxusu kanalı bürümüşdü. Uşaqların birinin paltarına o qədər qan dəymişdi ki, qaraya çalırdı. Mərmilər tələsə-tələsə ətrafıma enirdi. Hansı tərəfə baxırdınsa, bir nəfərin yıxıldığını görürdün. Mənə isə, xala xətrin qalmasın, bir qəlpə də dəymirdi. Sıxışmışdıq.

---

[1] Mustafa Əsgəri 1956-cı ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

[2] Əhməd Qəffarian 1962-ci ildə doğulmuş, 1985-ci ildə Aşura-2 əməliyyatında Çənguləda şəhadətə qovuşmuşdur.

Kanalın sonunda iki-üç nəfər namaz qılmağa başladı. Mən də yerimdə yarıqalxmış vəziyyətdə dayandım. Əgər atəşin səngiməsini gözləsəydik, sübh namazımız qəza olardı. Allah Özü qəbul etsin! Hər dəfə mərmi fiti gələndə başımı gizlədirdim. Düz-əməlli oturmaq istəyəndə növbəti fit səsi məni əyirdi.

Bu zaman İsmayıl Nurbəxş, Səid Xazini və başqa bir neçə nəfər təpədən endilər. Namaz qılmasaydım, mütləq onlarla gedəcəkdim. Lakin mənim taleyim üçün başqa bir şey yazılmışdı. Düşmən qüvvələri cəld arxalarını bağlayıb onları əsir tutdular.

Təpə ayaqlarımızın altında vulkan kimi titrəyirdi. Nə əsirlər üçün bir iş görmək olurdu, nə də bundan artıq irəliləmək. Havanın alatoranlığında geri çəkilmək əmri verildi. Hücuma keçmişdik, amma mövqeyə yerləşmək imkanımız yox idi. Kanaldan əl üzmək hamımıza çətin idi. Dostlarımız bu kanalda yaralanmışdılar və onları geri qaytarmaq olmurdu. Çarəmiz yox idi. Kanalın yerində laxtalanmış qanlar çəkməmin altına yapışırdı. Ürəyim yerindən çıxmaq üzrəydi. Gözlədim ki, hamıdan axırda gedim, bəlkə, kimin üçünsə əlimdən bir iş gəldi.

O vurhavurda uşaqların biri döyüş yerinə gətirilmiş Titap keks qutularının yanında oturmuşdu. Qutuları açır, keksləri əzirdi. Uşaqlar onu çağırıb dedilər ki, canını götür, qaç.

– Mən Titapı çox sevirəm, birinin də düşmən əlinə keçməsinə imkan verməərəm, - o, yerindən tərpənmədən cavab verdi.

Bilmirdik ki, gülək, yoxsa onu döyə-döyə ayağa qaldıraq. Mərəkə qopmuşdu. Geri çəkilməkdə qayda belə idi: sürünə-sürünə, pəncə üzərində gəldiyimiz yolu birnəfəsə qaçmalıydıq ki, az itki verək.

Həmin həngamədə uşaqların biri Musa Abpeykərdən[1] soruşdu:

– Musa! Musa! Vəziyyət necədir?

Musa qəliz Qum ləhcəsi ilə cavab verdi:

– Qaç, bu dəfə bütün qeybi yardımlar iraqlılar tərəfə keçib.

Mustafa Əsgəri ilə keçidin ağzında dayanmışdıq, uşaqları bir-bir keçirirdik. Kanalın sonuna baxdığım yerdə birdən bir düşmən əsgəri içəri atıldı. Mustafaya baxıb:

– Ağa Mustafa, gedək? – deyə soruşdum.

– Get, gəlirəm, - dedi.

---

[1] Musa ləqəbli Seyid Möhsün Abpeykər 1963-cü ildə Qumda doğulmuş, 1986-cı ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

Mən öndən, Mustafa da arxadan təpənin yoxuşunu qaçır, sürüşürdük. Düşmən döyüşçüsü özünü bizə yetirib arxadan atəş açırdı. Güllə və daşlar ayağımın altından və yanımdan keçirdi. Çay yatağına çatdım. İraqlı əsgər and içmişdi ki, bizi salamat buraxmayacaq. Güllələri vızıldaya-vızıldaya qulağımızın dibindən keçirdi. Sağa-sola dönə-dönə və əyilə-düzələ qaçırdım.

Uşaqların biri qarnını tutub daşların üstündə uzanmışdı. Profilindən tanıdım: Əli Məhdəvi idi. O qədər zarafatcıldı ki, hamı öncəki əməliyyatlarda əlinin yaralandığını bilirdi. Mərmi qəlpəsi işarə və orta barmaqlarının iki bəndini kəsmişdi. Diviziyanın uşaqlarının hərəsini bir dəfə aldatmışdı. Yarımçıq barmaqlarını burnunun altına qoyurdu, elə bilirdin ki, burnuna salıb. Birdən barmaqlarını çəkib qarşında tutur, gülürdü. Onu bu dəfə də mərmi qəlpəsi yaxalamışdı. Bütün gözü ovulub yerə tökülmüş, qarnı yırtılmışdı. Bədrdəki vəziyyətim yadıma düşdü.

Düşmən əsgər hələ də atəş açırdı. Nəyin bahasına olursa-olsun, məni yatağın içində basdırmaq istəyirdi. Silahını bizə tuşlamışdı, əl çəkmirdi.

Əlimi uzadıb Əlinin qolundan tutdum. Üzü qan içində idi.

– Əli, sənsən? Nə oldu? – deyə soruşdum.

– Kor oldum, – zarıyıb dedi.

– Canın çıxaydı, cəbhəyə gəlməyəydin!

Qolunu boynuma dolayıb onu qaldıranda bir "pıqq" səsi gəldi. Mərmi qəlpəsi qarnından bayıra düşdü, içalatı sallandı. Yazığa zarımaq fürsəti verməyib sürüyə-sürüyə təpənin arxasına apardım. Nəhayət, inadkar düşmənin hədəfindən çıxdıq.

Diviziya komandiri Hacı Qulamrza Cəfəri motosikletlə təpənin döngəsində dayanmışdı. Yenə qayıdıb yaralı gətirmək istəyirdim.

– Hacı, motosikleti versəniz, gedib bir neçə yaralı da gətirərəm, – dedim.

Toz-torpaq içində olan üst-başımı süzdüb:

– Olmaz! – dedi. - Cəld geri çəkilin!

Haqlı idi. İtki sayını artırmaq olmazdı. Bu bir dəfəni də o qədər güllə və qəlpə altından qaçaq şəkildə sağ çıxmışdım.

Təpənin arxasında vəziyyət pis idi. Uşaqlar toz-torpaq içində, yorğun və həyəcanlı halda oturmuşdular. Özlərindən bir dəqiqə sonra kim gəlirdisə, dövrəyə alıb məlumat öyrənməyə çalışırdılar.

Əməliyyat yalnız gecədən sübhə qədər çəkmişdi, belə tez bitməməli idi; o ki qala bu qədər şəhid və yaralı ilə. Təcili yardım maşınları gedib-gəlirdi. Məhəmməd Zülfini gördüm; köynəyini çıxarmışdı, axırıncı qabırğasının altına qəlpə girmişdi. Qanaxması dayansın deyə baş barmağını yarasının üstünə sıxırdı. Vəziyyətini başa düşürdüm. Qəlpə sümüyə dəymiş, həmişə gülər üzü ağrıdan qırışmışdı. Gözünə qəlpə dəyəndə olduğu kimi səssizcə, zarımadan yarasının üstünü tutmuşdu. Hər neçə dəqiqədən bir dodağını dişləyib sağ gözünü yumurdu. Protez gözü də ağrıdan yığılmışdı.

***

Toyota pikapları şəxsi heyəti sürətlə Çənguləyə aparırdı. Düşmənin təyyarələrlə ağır atəş yağdırıb hamımızı birlikdə dostlarımızın yanına göndərmə ehtimalı vardı. Çənguldə mikroavtobusa mindik. Dünən gələndə dolu olan oturacaqlarda indi sərnişin yox idi. Uşaqların yeri necə də görünürdü: Fərdpur, Salehi, Mustafa Əncüməfruz və Məhəmməd Sadiqi. Gedişlərindən ürəyimiz kabab olurdu, əlimizdən də bir şey gəlmirdi. Məhəmmədi Kanal üçyolunda görmüşdülər; alnından güllə dəyib, səcdə halında şəhid olubmuş.

Heç kimdən səs çıxmırdı. Qəm-qüssələrimizlə baş-başa qalmışdıq. Uzun yol da bitmək bilmirdi. Tünd qırmızı dəftərçəmi cibimdən çıxarıb yazmağa başladım. Hər sözlə canımın bir parçası kağıza süzülürdü. Hələ də heyrət içində idim. Hər şey tez baş vermişdi. Döyüş səhnələri gözlərim önündən getmirdi. Başımıza nə gəldiyini indi anlayırdıq. Qəribliyimizə ürəyim yanırdı. Pəncərənin pərdəsini kənara çəkdim. Yolun ətrafının döyüş yerində qoyduğumuz yaralılarla dolu olduğunu hiss edirdim. Sanki bizə baxırdılar. Ürəyim istəyirdi ki, mikroavtobusdan enib o qədər qaçım, qaçım, özümü də orada qoyum. Bu qədər böyük dünya mənə dar gəlirdi. O qədər güllə və qəlpə altından salamat çıxmışdım və bu, məni dəli edirdi.[1]

Günorta Əndimeşk düşərgəsinə çatdıq. Uşaqların yeri çox görünürdü. Heç kimin heç nəyə həvəsi yox idi. Ayaqlarımız boş və səssiz çadırlara doğru gedə bilmirdi. Dünyanın qəm-qüssəsi ürəyimizə çökmüşdü. Ən yaxşı döyüşçüləri orada qoymuşduq. Quru qızılı otların

---

[1] "Mənim əzizlərim! Siz qalibsiniz; istər Haqq-taala yolunda zahiri qələbə əldə edəsiniz, istərsə də şəhid, əlil və ya əsir olasınız. Haqq-taala sizinlədir və dövrün imamının Allah əli olan güclü əli sizə kömək edir. Kim Allah üçün, İslamın ucalığı və məhrumların xilası üçün ayağa qalxsa, fələyin hadisələrindən nə qorxusu olar!" (İmam Xomeyni, Nur səhifəsi, c. 19, s. 149-150)

üstünə səpələnib bir-bir ağlamağa başladıq, hər tərəf uşaqların ahnaləsi ilə doldu. Qüssə ürəyimin dərinliyindən bayıra çıxdı, çiyinlərim titrəməyə başladı və hönkürtüm ucaldı. Fərdpurla Salehinin üzü gözlərim önündən getmirdi. Qışqırmaq istəyirdim. Uşaqların biri rövzə oxumağa başladı. Səsi necə də yanıqlı idi! İmam Hüseynin (ə) qəribliyindən oxuyurdu. Bir neçə nəfər üzünü torpağa qoymuşdu. Sızıltılar fəryada çevrildi.

Hiss edirdim ki, şəhidlər bizi dövrəyə alıb rövzəyə qulaq asırlar: Məhəmməd Sadiqi eynəyini götürüb göz yaşlarını qolu ilə qurudur. Fərdpur alnını əlinə söykəyib, çiyinləri titrəyir. Azdanışan və məzlum Mustafa bizə baxır. Biz onlardan ayrıldığımız üçün ağlayırdıq, onlar bizim yazıq halımıza.

İsmayıl Nurbəxşlə Səid Xazini yadıma düşdü. Görəsən, iraqlıların arasında vəziyyətləri necə idi?! İşgəncəyə məruz qaldıqlarını, döyüldüklərini düşünəndə bədənim əsdi. Razı idim ki, Nurbəxş məni yüz dəfə Dezin suyuna itələsin, amma qayıtsın. Xazininin köynəyinin arxasındakı yazı yadıma düşdü: "Ya ziyarət, ya şəhadət". Fikirləşdim ki, ona ziyarət qismət oldu, bəs mənə? Əlimin altındakı torpağı çəngələyib bərkdən ağlamağa başladım.[1]

Uşaqlar öz başlarına torpaq tökürdülər. Quru otlar ovuc-ovuc torpaqlarla havaya qalxır, qızılı bədənləri uşaqların çiyninə və başına qonurdu. Axşama qədər çöllükdə qaldıq. Aşura-2 əməliyyatı bizim üçün həqiqətən, Aşura oldu. Heç kəs bizi toparlaya bilmirdi.

Səhər mərasimi Rəhim Səfəvinin çıxışı ilə başladı. Ürəyimizdən xəbəri vardı, uşaqların əhvali-ruhiyyəsinin məhv olduğunu bilirdi. Hər sözü ilə müsibətimiz təzələnirdi. Bir neçə nəfər bərkdən ağlamağa başladı.

Dizlərimi qucaqlayıb oturmuş, başımı aşağı salmışdım. Rəhim Səfəvi itirdiyimiz ruh yüksəkliyini qaytarmağa gəlmişdi. Müjdə verdi ki, qarşıda bir əməliyyat olacaq. Söz verdi ki, mühüm bir istiqaməti 17 saylı diviziyaya tapşıracaq. Bilirdi ki, ürəyimizin hərarəti yalnız atəşlə soyuya bilər.

Əgər xanım Qumda olmasaydı, heç vaxt qayıtmazdım; özü də Aşura-2 dən sonrakı acınacaqlı halımla. Şəhərdə qalmaq mənə rəzalət

[1] Uzun illərdən sonra Səid Xazini mənə dedi: "İraqlı zabit köynəyimin arxasındakı yazını görəndə mənə dedi: "Nə ziyarətə, nə şəhadətə; düz əsarətə!"

kimi gəlir, çox əzab verirdi. Küçə və xiyabanlar arasında həbs olunurdum.

Özümü hərəmə yetirdim. Xanımın yanında dünya geri çəkilirdi. Zərihi qucaqladım, üzümü gözəl ətirli barmaqlıqlara qoydum. Bütün ruhuma sakitlik yayıldı. Göz yaşları yavaşca yanaqlarıma süzüldü. Uzun bir yolun kənarında dayanmışdım. Yolun sonu işığa qərq olmuşdu. Hamı yanımdan keçib işığa daxil olurdu, mənsə nə qədər gedirdimsə, çatmırdım. Fikirləşirdim ki, hansı günahım məni bu qədər geriyə itələyir. Yavaşca danışırdım, xanım da mehriban şəkildə dinləyirdi. Yalvarırdım ki, şəhadətim üçün dua etsin. Qorxurdum ki, bir gün hamı gedər, mən qalaram.

Əməliyyatların arasında Quma gələndə vəziyyətim belə olurdu. Onda Cəfər də gəlmişdi. Səhərdən-axşama qədər bir yerdə olurduq. Hərəmlə Şəhidlər gülzarı məzarlığının arasında qalmışdıq. Şəhid məzarlığı mənim üçün cəbhə kimi idi. Bütün uşaqlar toplaşdılar, Mehdi Zeynəddinin məzarı yanında oturduq. Torpağı da rahatlıqla doluydu. Ona deməyə bir dünya sözümüz vardı: Bədrdən, Aşura-2-dən, uşaqların məzlumluğundan, əməliyyatda yerinin görünməsindən və qüssədən yarılmış qəlbimin darıxmasından.

Cəfər gedib Seyid Mehdinin məzarı yanında oturdu. Mən də ardınca getdim. Bütün şəhidlərin qəbri yanında oturub doyunca ağlamaq, mənə yolu göstərmələrini, öz yanlarında yer verməlіrini xahiş etmək istəyirdim. Seyid Mehdinin məzarı yanında komandamız təkmil oldu. Biz üç bədəndə bir ruh idik. Bu ruhun bir parçası bizdən ayrılıb göylərdə gəzirdi. Torpağının yanında onun üçün daha çox darıxdım. Cəfərin gözləri qızarmışdı. Qış yadıma düşdü. Seyid Mehdi ilə Məşhədin Şəhidlər gülzarı məzarlığında şəkil çəkdirmişdik. Yenə onunla şəkil çəkdirmək həvəsinə düşdüm. Gözlərimizin yaşını silib qollarımızı məzar daşının üstünə qoyduq. Şəkildə heç birimiz gülmürdük; nə mən, nə Cəfər; yalnız Seyid Mehdi göylərdə gülürdü.

Qumda bir həftədən çox davam gətirməyib özümü diviziyaya yetirdim. Əndimeşk düşərgəsinə hər gedəndə dəyişdiyini görürdük: Bir dəfə hündür otlar qısaldılmış, bir dəfə taqımların çadırları qurulmuş olurdu. Bu dəfə də bizim üçün tualet tikmişdilər: peşəkar mühəndis tərəfindən tikilmiş əsl tualet; qapı, pəncərə, şlanq. Görməmişlər kimi sevinirdik. Cəbhədə tualetlərin üstü şiferdən olurdu, qapısı ədyaldan. Ədyalın önündə də bir aftafa olurdu. Aftafa içəridə olanda bu o

deməkdi ki, tualetdə adam var və gözləməlisən; bayırda olanda isə yəni tualet boşdur.

Yeni tualeti bütün batalyonların ortasında tikmişdilər. Adını "uzaq yol" qoymuşduq. Çünki gedib-gəlməyimiz çox çəkirdi.

Həzrət Məsumə batalyonu təzə yaradılmış, Hacı Əkbər Nuri ona komandir təyin edilmişdi. Məni İbrahim Cənabanın bölüyünə verdilər. Köhnə döyüşçülər toplaşmışdılar, hara baxırdımsa, bir tanış görürdüm: Əli Dünyadidə, Həsən Rəncbər, Əbülfəz Müqəddəm, Məhəmməd Zülfi. Uşaqların yanında düşərgədə necə günlər yaşayırdım! Gecələr əlimdə dəftərçə xəlvətə çəkilirdim. Özüm üçün bir növ şair olmuşdum:

"Yadıma salıram ay və ulduzun sənin zikr və dua dolu gecələrinə həmdəm olduğu zamanı, aşiqanə münacatına tamaşa etdikləri vaxtı. Hər dəfə gecə gələndə gözlərim önündə minlərlə xatirə canlanır".

Yazırdım və uşaqların xatirələri film kimi gözlərim önündən keçirdi: Səmavinin yanıqlı Aşura ziyarətnamələri, Fərdpurun çadırın arxasındakı ah-nalələri, Müctəbanın gecə ibadətləri, Seyid Mehdinin namazdan sonra ağlaya-ağlaya etdiyi səcdələr. Yanlarında olmaq istəyirdim, ayrılıqdan yorulmuşdum. Bu yorucu məsafəni qət etmək və gözümü yumub-açan kimi dostlarımın yanında oturduğumu görmək istəyirdim.

“Ya Rəbb! Bu necə gecədir ki, pəncərə arxasında qalmaqdan yorulmuş, soyuq qəfəs millərini qanadlarımla qırmışam. Gözlərim bir arzunun yolunda qalıb, ya Rəbb: onun kimi səfər etmək arzusu!”

Məhəmməd Zülfinin gözlərindən uzaq olan kimi yazır, ağlayırdım. O, hər dəfə dəftəri əlimdə görəndə yaxınlaşır, məni ələ salır, gözəl halımı zarafata və gülüşə çevirirdi.

Yenə mikroavtobuslar peyda oldu. Bizi mindirdilər və yola düşdük. Bu dəfə həmişəkindən fərqli idi. Bizi elə bir yerdə endirdilər ki, əməliyyat bölgələri ilə heç bir əlaqəsi yox idi.

İlk dəfə idi Ərvənd çayının kənarına gəlirdim. Çayın və xurma ağaclarının iyi Geriyə qədər ətrafı bürümüşdü. Geri bölüklərin yerləşdiyi tərk olunmuş evlərdi. Ağacların arasında gəzişəndə suyun iyi və yosunun üfunəti Mərəq kəndinin ortasından keçən seli yadıma saldı.

Mərəqdə çox gözəl bir bulaq vardı. Bulağın suyu kəndin ağacları arasından yavaşca və gözəl səslə dolaşıb keçirdi. Analar bulağın kənarında paltar yuyurdular, biz də oynayırdıq: mən, Məcid, Əmir, Mehdi, Əli və dayılar.

Bir dəfə bacılarımız da bizim oynumuza qoşuldular. Mən mühəndis idim, çertyoj çəkirdim, digərləri material gətirirdilər. Balaca xudmani evimizdə hər şey vardı: qapı, pəncərə, həyət, tavan, divan və hətta axur. Əl-ayaqlarımız çox çirklənmiş, dırnaqlarımızın altı palçıqdan qaralmışdı. Palçıq evimizdə hələ doyunca oynamamış hirsli buludlar səmanı qaraltdı. İri yağış gilələri evimizi yudu, yalnız daşları qaldı. Bizi ağlamaq tutdu. Analar əllərimizdən tutdular və evə qaçdıq.

Yağış sürətlə üz-başımıza yağırdı. Atamın dayısıgilə çatana qədər sudan çıxmış siçan kimi olduq. Ev kəndin yuxarısında idi. Böyüklər deyirdilər ki, sel gələcək; və gəldi də. Mən selin səsini uzaqlardan eşidirdim. Uca və anlaşılmaz dalaşma səsi kimi yaxınlaşırdı; hündür hirsli səs. Palçıqlı su hay-küylə irəliləyir, qıvrılır, qarşısına çıxan hər şeyi götürüb aparır, xoş dillə gəlməyəndə ardınca sürüyürdü. Nərə çəkə-çəkə bədənini əyib dönürdü. Nənəmin nağıllarındakı divlərin də tərpədə bilmədiyi daşları asanlıqla qaldırıb-endirir, bizim kimi qorxu içində baxan tamaşaçıların bağrını yarırdı.

Anamın ətəyindən bərk yapışmışdım. Qorxurdum ki, sel gəlib məni də aparar. Səhər yuxudan oyananda sel getmiş, nərələri bitmişdi. Gözlərimi açar-açmaz eyvana qaçdım. Hər tərəf palçığa bələşmiş, uçmuşdu. Ağacların gövdəsi və oyan-buyana düşməkdən yorulmuş daşlar palçığa batmışdı. Böyük bir bataqlığa çevrilmiş Şahpəsənd bulağının iki tərəfindən hay-küy gəlirdi ki, kim ölüb, kim sağdır.

Qərara alınmışdı ki, nə şəxsi heyət əməliyyat olacağını bilsin, nə də düşmən. Mən hündür xurma ağaclarına çıxmaq, bizimlə İraq arasında ilan kimi uzanmış Ərvəndin o tərəfinə göz atmaq, uzaqlarda nə olduğunu görmək istəyirdim. Ağaclar başımız üstə çətir açmışdı. Bu sakit xurmalıqda müdafiə mövqeyimiz vardı. Arxamızda Xosrovabad yolu yerləşirdi, qarşımızda isə Ərvənd. O vaxta qədər torpaq sipər və kanal olmayan bir mövqe görməmişdim. Sanki öz həyətimizdə oturub qapını taybatay açıq qoymuşduq, düşmən də evinin divarının kənarından bizə göz qoyurdu. Bir düşmənin möhkəm mövqeyinə baxırdıq, bir də özümüzün zəif mövqeyimizə. O tərəfdə xurma ağaclarını yatırtmışdılar, əvəzində qala və səngər hündürə qalxmışdı. Qalanın aşağısında düzülmüş pulemyot və tankların isə sayı-hesabı yox idi. Sahilə günəşəbənzər istehkam milləri, künclüklər və tikanlı məftillər döşənmişdi. Günəşəbənzər millər suyun içinə qədər gəlirdi. O qədər çox və iç-içə idi ki, baxanda elə bilirdin su onların arasında ilişib qalıb.

Bizim səngərlərimiz də xurmalığın arasındakı boş evlər idi; gücü heç nəyə çatmayan səngərlər. Bir top mərmisi işini bitirə bilərdi. Nə künclük vardı, nə günəşəbənzər mil. Bir bizdik, bir də palçıqlı sahil.

Hüseyn Əfşar həmişə xurma ağaclarının arasında gəzişirdi. Onu ələ salıb deyirdik ki, qabanların üzünü ağ eləmisən. Tehranlı idi, Qumun Salariyyə məhəlləsində yaşayırdı. Batalyonun rabitəçilərindən idi. Düşmənin ratsiya danışıqlarını dinləmə ehtimalı olduğuna görə bu istiqamətdə telefonla əlaqə saxlayırdıq. Hüseyn Əfşar da həmişə xurmalıqda kabelləri yoxlayır, ağacların arasında itir, harada qırıq olurdusa, düzəldirdi.

Bir gün Xosrovabad yoluna doğru getdim. Fikirləşdim ki, oralara baxım və nə olduğunu görüm. Yolun yaxınlığındakı boş bir kəndə girdim. Düşündüm ki, indi uşaqların səngərinə çevrilmiş balıqçı daxmaları bir zamanlar bu kəndin əhalisinin olub. İndi nə daxmanın sahibi vardı, nə də kənd evlərinin. Evlərin birinə girdim. İki balaca otağı vardı. Tüstüdən qaralmış təndiri sönmüşdü. Bilirdim ki, soyuqdur, amma əmin olmaq üçün divarına əlimi qoydum. Otağın küncündəki yataqlar çoxdandı səliqə ilə üst-üstə yığılmamışdı. Yerə parçadan bir gəlincik düşmüşdü. Bilirdim ki, gözləri gəlinciyinin arxasınca qalmış hansısa qız uşağınındır. Ona yazığım gəldi. Nəfisə bacım və gəlincikləri yadıma düşdü. Canı onlara bənd idi.

Günün bu vaxtında evdən təndir və təzə çörək ətri gəlməli, uşaqların oyun və gülüş səsləri Ərvəndin o tayına getməli idi. Dünyanın qəm-qüssəsi ürəyimə doldu. Müharibədən uşaqlara pay verə bilməzdim. Ancaq payları vardı; acı və əzabverici; mənim və dostlarımın payından da ağır.

Mövqeyimizə qayıtdım. Əli Dünyadidə süngü ilə əlinin üstündəki gülləri təmizləyirdi. Xurmalıqda motosikletdən yıxılmışdı. Motosiklet bir tərəfə düşmüşdü, özü bir tərəfə. Kanalın üstündəki taxtalardan çıxmış iri bir mıx əlinə girmişdi. Qanaxması dayansın deyə yumruğunu kanalın kənarındakı güllərə vurubmuş. Axşam da oturub əlinin gül sarığını təmizləyirdi.

Cəbhədə belə müalicə üsullarını çox tətbiq edirdik. Hərəmiz bir növ həkim olmuşduq. Tibbi köməkçi çağlarım yadıma düşdü. Əgər ilk yardım çantam olsaydı, qolunu sarıyardım, tapşırardım ki, gedib tetanus peyvəndi vurdursun. Hərçənd, özüm də onun yerində olsaydım, belə oyun-oyuncaqlara məhəl qoymazdım. Kim bu asanlığa geri gedərdi ki?!

Hər gecə birimiz suyun kənarındakı qarovul səngərinə posta gedirdik. Bir dəfə mənim növbəm idi. Hər bir səsə yerimdən sıçrayırdım. Bilmirdim ki, bizimkilərdir, düşmənin kəşfiyyatçı dalğıcı, yoxsa ayağının altındakı otları tərpədən qaban. Qaranlıqda ağacların kölgəsini adamdan seçmək də olmurdu. Yalnız suyun və nəfəslərimin səsi gəlirdi. Qaranlıqda birtəhər özümü balıqçı daxmasına yetirdim. Ərvənd qara xəttə dönmüşdü, ay işığı onun üzərini almaz kimi parıldadırdı.

Daxmaya çatana qədər ölüb-dirildim. Məndən qabaq bir nəfər də oraya getmişdi. Mən içəri girən kimi barmağını dodaqlarının üstünə qoyub "sss" səsi çıxardı. Qaranlıqda üzünü görmürdüm. Balıq və yosunların kəskin qoxusu daxmanın divarlarına hopmuşdu. Dizimi qucaqlayıb yanında oturdum. Niyə mənimlə birlikdə növbədə qaldığını bilmirdim. Məgər mən növbəni təhvil almağa gəlməmişdim?! Yanımda avtomat gözümü qıyıb suya baxırdım. Ağcaqanadlar əl çəkmirdilər. Hurun kənarındakı ağcaqanadlar kimi adamyeyən idilər. Səhərə qədər qaşına-qaşına keşik çəkdim.

Növbəti gecə qarovul səngərinin yanındakı başqa bir daxmaya getdik. Aralarında iki yüz metr məsafə vardı. Bunu Zülfi kəşf etmişdi. Səhərəcən deyib-gülmək üçün oraya toplaşdıq. Mən, Zülfi, Əli Dünyadidə və Əbülfəz Müqəddəm zorla oraya yerləşmişdik. Yazıq Əbülfəzin dəri allergiyası vardı, bədəni xırda qırmızı nöqtələrlə doluydu. Qaşınması yaxşılaşsın deyə belini dam-divara sürtürdü. Əlinin üstündəki nöqtələri görəndə mən də qaşınırdım. Söhbətimiz təzə qızışmışdı ki, birdən ayaq səsi eşidib sakit qaldıq. Bir nəfər yaxınlaşırdı. Elə bildim ki, yerimiz bilinib. Həsən Rəncbərin cüssəsi qaranlıqdan daxmaya girdi. Köynəyini şalvarına salmışdı. Zülfi onu görən kimi üzünü salamat gözünə tərəf yığıb sözləri uzada-uzada dedi:

– Vay! Sən necə göyçək olmusan!

Çıxardığı əda ilə sanki səngərdə gülüş bombası partladı. Ancaq tez səsimizi boğub bir-birimizə işarə ilə sakit qaldıq. Guya mövqeyin kənarındaydıq, çox səs-küy salmamalı idik! Həsən tez köynəyini şalvarından çıxardı, Zülfidən uzaqlaşıb Əli Dünyadidənin arxasına keçdi. Məhəmməd də əl çəkmirdi, Həsən tərpənən kimi "bəh-bəh" deyirdi. Biz də ağzımızı tutmuşduq və gülüşdən çapalayırdıq. Yazıq Əbülfəzin ağlamaq və gülüş səsi bir-birinə qarışmışdı. Bilmirdi ki, dərisini qaşısın, yoxsa Zülfi ilə Rəncbərin zarafatlarına gülsün.

Ağacların arasında çox gəzib Ərvəndə göz qoyandan sonra yenə mikroavtobuslar peyda oldu. Onları görən kimi beynimizdən "görəsən hara gedirik?" tapmacası keçirdi. Dəmiryol vağzalına çatanda Marağaya ezam və kəsim yerinin xatirələri yadıma düşdü. Ancaq ağlımıza da gəlməzdi ki, bizi üzgüçülük təlimi üçün paytaxtın ortasında endirə bilərlər. Tehrana çatanda dustaqlar kimi avtobusa mindik və pərdələri sıx-sıx bağladıq.

Azadlıq stadionuna çatana qədər hamı dilxor idi. Cənnətin qapısı ağzından Tehrana gəlmişdik. Daha şəhərdə yaşamağa yaramırdıq, ürəyimiz səngər və silah istəyirdi. Pərdənin bir tərəfini yavaşca kənara çəkdim. Avtobus işıqforda dayanmışdı. Şəhərdə həyat soyuqqanlı şəkildə davam edirdi; sanki müharibə getmir. Fikirləşirdim ki, yazıq camaat binaların, xiyabanların, şəhərin hasarının arxasında qalıb - həyat hasarının arxasında. Onlar bir qədər aralıda cənnət qapılarının açıldığını bilmirdilər. Mən də şəhər hasarında itib-batmaqdan çox qorxurdum. Yaşıl işıq yanan kimi xalam oğlanlarından birini gördüm. Yolun o tərəfinə keçmək istəyirdi. Ancaq onu çağıra bilməzdim; çünki bizim Tehranda olduğumuzu heç kəs bilməməli idi.

Paytaxtın xiyabanları ilə qalxıb-düşəndən, ürəyimiz çox yanandan sonra çatdıq. Bu dəfə on iki min nəfərlik Azadlıq stadionu diviziyanın düşərgəsi olmuşdu. Hər birimiz narahat və hövsələsiz halda bir tərəfdə uzandıq. Tamaşaçı tribunalarının yuxarı hissəsi əsgər ədyalları ilə döşənmişdi. Hələ bizim üçün nə düşündüklərini bilmirdik. Sübh tezdən yenə avtobuslar gəldi və bizi dustaq kimi mindirib Şəhid Şirudi hovuzuna apardılar. Mənim müsibətim də orada başlandı. Bu qısa üzgüçülük təlimləri ilə balıq kimi olmalıydıq. Mənsə elə əvvəlki kərpicdim, başı üstə suyun dibinə batırdım.

Hovuzun kənarından ikiəlli yapışmışdım. Heç kimlə də zarafatım yox idi. Təlimçilər təlimə başlamaq üçün bizi yoxlayırdılar. Əvvəldə xilasedici jilet vermədiklərinə görə bildim ki, bu sənöl o sənöllərdən deyil; imtahanı üzə bilənlərdən alarlar, mənim kimisindən yox.

Bölük sıraya düzülmüşdü. Uşaqlar bir-bir başı üstə suya tullanırdılar. Növbə mənə çatanda oturduğum yerdə ehtiyatla suya girdim, hovuzun kənarından da bir metrdən çox aralanmadım. Ayağımın altı boşalan və əllərim havada qalan kimi nəfəsim daralırdı və "ay nənə" qışqırırdım. Bədrdə ağciyərim xəsarət almışdı, nəfəsimi yaxşı saxlaya bilmirdim. O qədər zarıyıb şikayətləndim ki, mənə öyrətməyin xeyrindən keçdilər.

Təlim bitəndə o qədər acırdım ki, paltarımı geyə bilmirdim. Ürəyim istəyirdi ki, xörəyimi versinlər, hovuzun yanında yeyim. Suda əl-ayaqlarımızın dərisi qırışır, sanki canımızın şirəsi sorulurdu. Həmişə ac idik. Bir dəstə islanmış qəlyan gövdəsinə bənzəyirdik. İdman klubuna çatanda rəngbərəng uzun-enli şortlar hər yeri bəzəyirdi. Təlimin ikinci seansına qədər qurumalı idilər.

Tehranda gündəlik işimiz bundan ibarət idi. Hərəyə iki tikə xörək yeyib özümüzü ədyallara yetirirdik. Yuxu necə də şirindi! Suda olduğumuz qədər quruda olmurduq. Xlor rəngimizi açmışdı, üzümüzdən ilk gündəki yanmış və toz-torpaqlı batalyona oxşamırdıq; tərtəmiz, gözəl-göyçək olmuşduq.

Bir gün uşaqların biri hovuza gedəndə bir qutu xurma aldı. O xurma həmin təlimlərin ən şirin hadisəsi oldu. Xurmanı yedim, tumunu seansın axırına qədər ağzımda saxladım; aclığım getsin deyə sorurdum. Axşamlar təlimdən idman klubuna qayıdanda ən çox iki səs eşidilirdi: soyuqlamış uşaqların asqırağı və rövzə səsi.

Mərhum Müəzzinzadə özünün məşhur "Zeynəb, Zeynəb" növhəsini həmin il məhərrəmlikdə oxumuşdu, Cəfərdə onun kaseti vardı. Kiçik maqnitofonda oxudur, başına toplaşıb ağlayır, sinə vururduq.

Hamımız darıxırdıq, amma üz vurmurduq. Heç birimiz şəhərdə qalmağı sevmirdik. Cəbhə, torpaq və barıt qoxusu üçün darıxırdıq. Bəzən hovuzda ürəyim çox sıxılırdı, təlimin tez bitməsi üçün saniyələri sayırdım ki, gedib Hacı Səlim Müəzzinzadənin növhəsini oxudum, dizlərimi qucaqlayıb öz halıma ağlayım.

Dodaqaltı Hacı Səlimlə birlikdə oxuyurdum:

Zeynəb, Zeynəb, Zeynəb!
Dərd aşina Zeynəb!
Qərqi-bəla Zeynəb!
Ey ruhi-baiman!
Canım sənə qurban!
Zeynəb, Zeynəb, Zeynəb!
Sərgəşteyi-dövran!
Avareyi-tufan!

Səsinin yanğısı ürəyimi kabab edirdi. Hələ də o unudulmaz növhəni dinləyəndə Tehrandakı həmin qərib günlər və çoxdandır həyatda olmayan dostlarım yadıma düşür.

İyirmi gün işimiz bundan ibarət oldu; su və təlim. Təlimin sonlarında məndən başqa hamı bir növ balığa dönmüşdü. Axırıncı gün ayağımızı hovuza qoyan kimi təlimçi tramplin üzərindən başı üstə suya tullanmaq üçün bir adam istədi. Heç kim önə çıxmadı. Təlimçi də əl çəkmirdi, istəyirdi ki, qorxularımız çıxsın. Nəhayət, bir nəfər ürəkləndi. Yaşı hamıdan çox idi: Səburi, Şəhid Səburi qardaşlarının atası.[1] Tramplinə çıxan ilk adam o oldu. Yavaşca "Bismillah" deyib dərin nəfəs aldığını gördüm. Sonra isə bıçaq kimi suya girdi. Düyünlənmiş yumruqlarla birlikdə başını sudan çıxarana qədər nəfəs almadan baxdım. Uşaqların təkbir səsi hovuzu başına aldı. Həmin gün tramplin üzərindən suya tullanmaq üçün növbə yarandı. Qorxumuz çıxmışdı.

---

[1] Hüseyn və Məhəmməd Səburilər 1955 və 1963-cü illərdə Qumda doğulmuşdular. Hüseyn 1984-cü ildə Məcnun adasında, Məhəmmədsə 1982-ci ildə Fəthülmübin əməliyyatında Şuşda şəhadətə qovuşdu.

# Doqquzuncu fəsil

## *Fava xoş gəlmisiniz*

"Hamıya göstərişdir: "Hər gün Aşura, hər yer Kərbəladır". Əmr belədir ki, hər gün və hər yerdə həmin hərəkatı, həmin proqramı davam etdirməlisiniz. İmam Hüseyn (ə) azsaylı adamları ilə hər şeyini İslama qurban verdi, böyük bir imperiyaya qarşı çıxdı və "yox" dedi. Bu "yox" hər gün və hər yerdə qorunmalıdır".

İmam Xomeyni, Nur səhifəsi, c. 10, s. 315

Mikroavtobuslar Əndimeşk düşərgəsindən Hur gölünün yaxınlığına qədər dayanmadan qaza basdılar. Bizə nə silah verdilər, nə də haraya getdiyimizi söylədilər. Təlimə bənzəyirdi. Rüfəyyi bölgəsinə çatanda bilmirdim ki, gülüm, yoxsa ağlayım; yenə Hur gölü. Dərin nəfəs alıb suyun qoxusunu ciyərlərimə doldurdum. Düşərgəmiz suyun və qamışlıqların ortasında idi. Bizi dəstə-dəstə qayıqla aparıb qamışların üstündə endirdilər. Ağır bir təlim idi, özü də İranla İraq arasındakı Hur gölünün ortasında. Ayağımız yerdən üzüldü. Seyid Mehdi yadıma düşdü. Bu körpülərin üstündən cənnətə getmişdi. Onların yellənən gövdələri üzərində addımlayır, arxamdakı dünyadan uzaqlaşırdım. Körpülər yerlə göyün təminat yolu idi.

Taqımların çadırları körpülərin üzərində quruldu. Yetmişnəfərlik səs-küylü batalyon ədyalları altına atıb oturdu: yatmaq, yemək, dua və təlim. Suda həyat başladı. Körpülər qamışların arasında bir-birinə birləşdirilmişdi. Orada üç istiqamətə ayrılan bir yol vardı. Bilmirdik ki,

hansı tərəfə gedək. Abdullah Cavadi yol nişanı hazırlamağa başladı. Kiminsə gecə namazı qıldığını görməsi kifayət idi; qaçıb qulağının dibində yazıq səslə və gülməli görkəmlə: "İltimasi-dua" deyirdi. Bəzən uşaqların əllərinin içinə bir ikitümənlik metal pul qoyub deyirdi ki, Allahdan az dilənçilik edin. O qədər zarafatcıl idi ki, yol nişanları da gülüşə səbəb olurdu. Həmin üçyoldakı nişanın üzərinə belə yazmışdı: "Neyləyim üçyolu".

Taqımlardan bir qədər aralıda qamışların arasına bir körpü yerləşdirmişdilər. Ortası boş idi, yanında da qırmızı bir aftafa vardı. Ətrafına çuval düzmüşdülər ki, çox da açıq olmasın. Göldəki balıqlara görə tualetə getməyin ayrı bir macərası vardı. Uzun bığları olan balaca qara balıqlar vardı. Biz tualetə gedəndə yosun yeyən balıqlar körpünün üstündəki dəliyin başına toplaşırdılar, nəcisə elə hücum edirdilər ki, su yuxarı sıçrayırdı. Aftafanın suyunu saxlayırdıq, onlar gedəndən sonra özümüzü yuyurduq.

Hamama getməyimiz isə daha rahat idi. Uşaqlar zarafata körpünün kənarında uzanıb ucadan qüsl niyyəti edirdilər:

– Qüsl edirəm, ağcaqanad qüslü! – deyir, sonra isə diyirlənib şappıltı ilə suya düşürdülər.

Qumda Hacı Eşqi hamamı adlı ümumi bir hamam vardı. Göldə çimən birini soruşanda deyirdilər ki, Hacı Eşqi hamamına gedib.

Bekar olanda mavi dəftərçəmi götürüb uşaqların yaxşı xarakterlərini qeyd edirdim. Bəzən məni ələ salır, yazdıqlarımı görmək üçün başıma toplaşırdılar. Onlardan qaçıb sakit bir yerə daldalanırdım. İsrar edirdilər ki, yazılarımı onlara oxuyum. Deyirdim ki, mən şəhid olandan sonra hamısını oxuyarsınız. İndi isə onlar şəhid olublar, mənsə onların ad və xatirələri ilə dolu olan dəftərçələrimlə qalmışam.

Axşamlar xilasedici jilet geyib qayıqlara minirdik; hər dörd nəfər bir qayığa. Qamışların arasında, dar və ensiz su yollarında gəzməli, səssizcə avar çəkməli idik. Soyuq külək suyun üzərində sürüşüb gözlərimizi çıxarmağa gəlirdi. Macəra dolu qayıqçılıq idi. Bircə artıq hərəkətlə qayıq çevrilirdi: başlar suya, ayaqlar yuxarı. Qayığı birtəhər çevirirdik, ancaq əsas problem yaş bədənlərimizi çevrilməyə bəhanə axtaran qayığa qaldırmaq idi.

Mən Əli Dünyadidənin taqımında idim. Əli birinci qayıqda otururdu, mən də ikincidə. Davud Ustadzadə[1] birinci müavini idi, Abdullah Cavadi də bütün dəcəlliyi ilə ikinci müavini. Davudu həmişə qəliz Qum ləhcəsi ilə çağırırdı. O qədər "Dovut ağa, Dovut ağa" dedi ki, ad üzərində qaldı. Ustadzadəni hamı Dovut ağa çağırır, o da hamıya eyni cavabı verirdi:

– Can!

Qayıqçı taqımlar suyun üzərində bir-birinin ardınca düzülürdülər. Üzməyi və qayıq sürməyi yaxşı bacarırmış kimi qayığın başında otururdum. Kifayət idi ki, qayığın dimdiyi öndəki qayığa ilişsin; hər ikisi nəzarətdən çıxırdı. İndi gəl, düzəlt görüm, necə düzəldirsən. Kolon bir göz qırpımında alt-üst olur, on yeddi-on səkkiz qayıq bir-birinə düyünlənirdi. Dümdüz kolon suyun üzərinə və qamışların arasına səpələnmiş qayıqlara çevrilirdi. Hurun balıqları kolonla üzməyi öyrəndilər, bizsə kolonla qayıq sürməyi öyrənmədik.

Bu əsnada bir neçə nəfərin zarafat damarı tuturdu. Qəsdən qayıqla digərlərinə vururdular. Vuranın kim olduğunu tapana qədər qayıq qamışların arasına sürüşürdü və kolonu itirirdin. Gecənin qaranlığında soyuqda kolonu axtarmağa başlayırdın, özü də səssizcə, qışqırıb “hardasınız” deyə soruşaraq yox.

Soyuqdan hamının burnu axırdı. Bölük komandiri İbrahim Cənaban[2] bizimlə birlikdə hər yerə gedirdi. İri cüssəsi və ciddi rəftarı elə əvvəldə özümüzü yığışdırmağımıza səbəb oldu. Ancaq köhnələr belə şeyləri başa düşmürdülər. Komandirin gözündən uzaqda min oyundan çıxır, gülüşürdülər.

Təlimlərdən bir həftə keçirdi. Çoxumuz birinci mərhələdə qalmışdıq, minməyi də öyrənməmişdik. Cənaban gecənin yarısı bizi qamışların arasına topladı. Yumru bir hovuz kimi ərazi idi. Bizimlə iclas keçirib vəziyyəti başa saldı və bir qədər danladı. Hündür qamışlar bizi dövrəyə almışdı, biz də qayıqlara minib suyun üstündə dövrə vurmuşduq. Heç kimdən səs çıxmırdı. İbrahim Cənabanın qayığı dairənin ortasında idi. Cəld avar çəkib yerində bir dövrə fırlandı, üzünü

---

[1] Davud Ustadzadə 1965-ci ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

[2] Əli ibn Əbu Talib diviziyasının İmam Səccad (ə) batalyonu komandirinin birinci müavini Şəhid Seyid Məhəmməd-İbrahim Cənaban 1963-cü ildə Qumda doğulmuş, 1986-cı ildə Kərbəla-1 əməliyyatında Mehranda şəhadətə qovuşmuşdur.

bizə çevirdi. Başlar aşağı idi. Bilirdik ki, bizdən narazıdır. Qamışlar da xışıltılarını saxlamışdılar.

İbrahim bizi danlamağa başladı. Qaşları düyünlənmişdi, düşmən eşitməsin deyə qışqırtısı boğazının dibindən çıxırdı:

– Qardaşlar, bu nə vəziyyətdir?! Həmişə kolonlardan gülmək səsi gəlir. Burada avarın səsinin gəlməsi də qadağandır. Təlim zarafat yeri deyil axı!

Bilirdi ki, qayıqlar uşaqların zarafatlarına görə çevrilir və ya istiqamətini dəyişib itir.

– Qardaş Fəthi[1] çox narahatdır. Deyir ki, əməliyyat zamanı bu suda kimin qanı tökülsə, öz boynunadır.

Bu qədər hirslənməyə haqqı vardı. İranla İraq arasında təlim keçirdik, amma vecimizə də deyildi.

Fəthi Ərakdan idi, diviziyanın kəşfiyyat bölməsindən təlimlərə kömək etməyə, işin yolunu-yolağını öyrətməyə gəlmişdi.

Uşaqlar soyuqdan büzüşmüşdülər. Donmuş barmaqlarımı güclə avardan qoparıb ağzımın buxarının önünə tutdum.

– Ağa Fəthi bəzi məsələləri xatırladacaq, qulaq asın, – deyə İbrahim daha ciddi səs tonu ilə bildirdi.

Fəthini Zeyd zastavasından tanıyırdım. İstiqamət komandiri idi, gecə gəzintilərimizdə və dəcəlliklərimizdə bizi anlayışla qarşılayırdı. Onu heç vaxt bu qədər hirsli görməmişdim. Qayığını dairənin ortasına sürüşdürdü. Çırtma vursaydın, qan çıxardı. Səs tonunu çətinliklə alçaqda saxlamışdı.

– Qardaşlar, qulaq asın, – dedi. – Belə qayıq sürmək, belə avar çəkmək, bu qədər səs-küy olmaz! Hamı buna əməl etməlidir!

Hamı nəfəs almadan qulaq asır, Fəthi hirslənir, danlayırdı. Ancaq dəcəllər bu asanlığa dayanandılarmı?! Bir neçə nəfər yavaşca Kürzəbərə işarə verdilər ki, təkbir desin. Kürzəbər gözünə döndüyüm də dərhal əlini ağzına qoyub qışqırdı:

– Təkbiiir!

Biz bilirdik ki, cınqırımızı çıxartsaq, işimiz bitər. Lal-dinməz dayandıq. Yazıq təzələr isə aldandılar, düyünlənmiş yumruqları var-gücləri ilə havaya qalxdı:

– Allahu əkbər! Allahu əkbər! Allahu ək...

---

[1] Nizaməli Fəthi 1964-cü ildə Ərakda doğulmuş, 1988-ci ildə Favda şəhadətə qovuşmuşdur.

Hamının sakit durduğunu görüb özlərinə gəldilər və təkbir boğazlarında qaldı. Cənaban özündən çıxdı. Kəşfiyyat rəisini ələ salmışdıq. Bu isə kiçik məsələ deyildi.

Kürzəbəri hamı dəcəlliyi ilə tanıyırdı. Günorta yatdığın yerdə başının üstünü kəsdirib elə fit səsi çıxarırdı ki, elə bilirdin raket indicə başına düşəcək. İndi də təkbiri ilə bölüyü bir-birinə vurmuşdu. Cənaban buna son qoymalı idi. Ayağa qalxdı. İri cüssəsi qayığı yellətdi. Əllərini belinə qoymuşdu. Gözlərini Kürzəbərdən çəkmədən dedi:

– Ağa Kürzəbər, suya!

– Bəli?

– Suya atıl, – daha bərkdən dedi.

Bütün təlimi məşq edirdik ki, suya düşməyək. İndi isə Kürzəbər bu donmuş suya başı üstə atılmalı idi. Qayığın üstündə dayanıb hoppandı:

– Ya Hüseyn! Mən öldüm, – qışqırdı.

Qol və ayaqları taxta kimi qurudu, suyun üstünə çıxdı. O vaxta qədər zorla özümüzü saxlamışdıq, Kürzəbərin çıxardığı ədadan sonra isə yenə bölük bir-birinə dəydi. Cənaban heyrətlə bizə baxdı. Sanki xəbərdarlıq toplantısında deyildik. Gülüş səsləri bitənə qədər gözlədi, sonra qayıqda tərpəndi, hər birimizin gözlərinə baxıb dedi:

– Hamınız suya girin.

İndi də təəccüblə baxmaq bizim növbəmiz idi. Cəza gözləyirdik, amma bu qədər ağır yox.

Heç kimə etiraz fürsəti vermədi, özü hamıdan qabaq suya atıldı. Artıq çənə vurmaq yeri deyildi. Hamımız suya girdik. Mən ilk bir neçə dəqiqədə qurumuşdum, az qala soyuqdan daşa dönəcəkdim. Çapalamağa başladım. Çənələrim şaqqıltı ilə bir-birinə dəyirdi. Sanki suya elektrik buraxmışdılar. Hamı titrəyir, qaçmaq istəyirdi. Tələsik qayığa minmək istəyirdik, amma bacarmırdıq. Gərək qayıqla burun-buruna gedib əlimizi boynuna ataydıq, su dolmuş ağır çəkmədəki ayağımızı belinə dolayaydıq ki, geri getməsin. Sonra yaş bədənimizi qaldırmaq növbəsi gəlirdi; əgər bəxtimiz gətirsəydi və qayıqla birlikdə çevrilməsəydik. Minib rahat olurduq, amma növbəti adam minəndə yenə başı üstə suya düşürdük.

Nə edəcəyimizi bilmirdik. Düşmənin qulağının dibində bir bölük suya girib qayıqlarla güləşirdi. Yazıqlarla o qədər əlləşdik ki, başlarını suya saldılar, arxaları çöldə qaldı; küsmüş uşaqlar kimi. Bizim donmuş bədənimiz də avarlar kimi suyun üzündə gəzirdi. Üzə-üzə, sürüyə-

sürüyə qayıqları nisbətən dayaz yerə və möhkəm qamışların ada kimi sudan çıxdığı hissəyə gətirdik. Dayanıb suyunu boşaltdıq və mindik. Nəhayət, səhərə yaxın sudan çıxdıq. Namaz qılmaq istəyirdik, amma başdan-ayağa suyun içində idik; yatmaq istəyirdik, amma donurduq. Müsibət idi. Çadırlara doluşub ədyallarımızın altına girdik, soyuqda titrəyib qaldıq.

Nəhayət, təlimlər bitdi. Silah-sursatımızı qoltuğumuza vurub əməliyyata hazırlaşdıq. Bu dəfə, həqiqətən də, lotoreyamız udmuşdu. Bundan qabaq beşinci kolonu çaşdırmaqdan ötrü bir neçə dəfə palçıqlı avtobuslar ardımızca gəlmişdi. Bu qədər canlı qüvvənin haraya getdiyini və harada əməliyyat olacağını öyrənməməli idilər. Üç gün avtobusların işi bizim diviziyamızı mindirib-endirməkdən ibarət oldu. Sübh namazını Əndimeşk düşərgəsində qılırdıq, günortanı Hüzeyfə gölünün yaxınlığında yeyirdik, axşama yenə Əndimeşk düşərgəsində başımızı yerə qoyurduq. Sübh açılar-açılmaz da yenə həmin minvalla təkrarlayırdıq. Bizi bölgələr arasında yaxşıca dolandırandan sonra başqa bir diviziyanın ardınca gedirdilər.

Axırıncı dəfə avtobusa minəndə atom enerji stansiyasına getdik. 1986-cı ilin fevral ayı idi. Zeynəddinin şəhadətindən sonra ilk dəfə idi oraya gedirdim. Bu düşərgədə konteyner və çadırlarda yaşadığım günlər gözlərim önündə paraddan keçirdi. Buraya gəldiyim gün çox fikirləşirdim ki, görəsən niyə buranın adını atom enerjisi qoyublar. Onda Zeyd istiqamətinə göndərildim və kəşfiyyat komandasında işləməyi öyrəndim.

Hansı tərəfə baxırdımsa, bir xatirə yadıma düşürdü və dostlarım üçün darıxırdım. Kaş zaman geri qayıdaydı! Kaş Mehdini, Müctəba Seyfini, Mustafa Kəlhürini və Mənsuru yenə görəydim! Düşərgənin hüseyniyyəsinə getmək, dizlərimi qucaqlayıb oturmaq, tanınmayım deyə çəfiyə şalımı başıma atıb bərkdən ağlamaq istəyirdim. Ancaq daha hüseyniyyə yox idi. Deyirdilər ki, qısa qapanmadan yanıb. Fikirləşdim ki, bu hüseyniyyədə o qədər ürəyimiz yandı, axırda dözməyib özü də yandı.

Yola düşməzdən öncə diviziya komandiri Hacı Qulamrza Cəfəri batalyon önündə çıxış etdi. Vəlfəcr-8 əməliyyatında Favda düşmənə zərbə endirməli idik. Hacı Qulamrza Ərvəndin adını çəkəndə halım pisləşdir. Heç kimdən səs çıxmırdı. Ürəyimdə acı bir iztirab yarandı. Uşaqlara göz gəzdirdim. Dediklərini sözbəsöz udurdular. Ərvənddən keçmək fikri məni həyəcanlandırdı. Xurmalığın və balıqçı

daxmalarının yanındakı sakit mövqe yadıma düşdü; düşmənin sahilinə sərdiyi maneələrdən ibarət dəmir döşənəcək. Fikirləşirdim ki, hər gün bir avaz çalan çaydan necə keçə bilərik. Ayağımız Ərvəndə çatanda dünya bitirdi. Sanki bu çay dünya ilə göylərin sərhədi idi. Gərək hər şeyimizi xurmalıqda qoyub suya girəydik. Ərvəndin heç kimlə zarafatı yox idi.

Hacı Qulamrza xəritənin önündə dayanıb İraqın nazik uzun quyruğunu bizə göstərirdi. Biz onu qayçılamalı idik; Fav adlı uzun quyruğu. Favı ələ keçirəndən sonra İraqın beynəlxalq sulara yolu bağlanırdı. Onda bildim ki, Ərvəndin kənarında iyirmi gün qalıb balıqçı daxmalarında keşik çəkməyimizin səbəbi nə imiş. Əməliyyat mühiti ilə tanış olaq deyə bizi suyun kənarına aparmışdılar. Postda bizimlə birlikdə dayanan tanımadığımız qardaş da göz qoyurmuş ki, sübh çağı kəşfiyyatdan qayıdan dalğıclarımızı vurmayaq. Hacı Qulamrza əməliyyat planı barədə ciddi və qərarlı şəkildə danışırdı. İmam Xomeyni demişdi ki, müharibə dayanmamalıdır. Əməliyyat üçünsə Favdan münasib yer yox idi. Ərvənd adlı maneəyə görə düşmən bizim Fava hücum edəcəyimizi ehtimal etmirdi.

Bu dəfə bizi aparmağa avtobus yerinə TIR və böyük yük maşınları gəldi. Yük yerləri çadırla örtülmüşdü. Biz, yəni həzrət Məsumə batalyonu mindik. Sıx-sıx və ehtiyatla oturduq ki, əl qumbaralarımız yanımızdakının patron kəmərinə ilişməsin. Bütün materialların birlikdə toza dönəcəyindən qorxurduq. Uşaqlar gülüşür, bu yük maşınları ilə heyvanların daşındığını söyləyirdilər. Bir nəfər bu sözü eşidən kimi qaranlıqda qoyun səsi çıxardı. O qədər təbii idi ki, elə bildim bizimlə birlikdə qoyun da yükləyiblər. Gülüş bombası partladı. Kimin nə məharəti vardısa, göstərirdi. Hər tərəfdən bir səs gəlirdi: biri mələyir, biri miyoldayır, biri kişnəyir, bəziləri də hamının üzünü ağ edib eşşək kimi anqırırdı.

Doyunca güləndən sonra yadımıza düşdü ki, əməliyyata gedirik. Sanki bir nəfər ayağa qalxıb hamının başına sükut tozu səpdi. Cəbhənin bu qanununa alışmışdıq; həmişə çox güləndə kövrəlməyimizi, gözlərimizdən yaş axmasını gözləyirdik.

Yük maşınının arxası baxışla dolmuşdu; söz dolu və sakit. Hər şeyi ürəyimizdən çıxarmağa başladıq. Qəhər sinələrimizə ağırlıq edirdi. Zarafat və gülüşlər məzlumluğa çevrilib uşaqların üzünə tökülmüşdü. Onların hər birinin üzündən öpmək istəyirdim. Heç kimdən səs çıxmırdı. Heç birimiz bu əməliyyatdan qayıtmaq barədə düşünmürdük.

Şeir dəftərimi açdım. Çadırın arasından səhifələrinə nazik işıq düşürdü. Bu şeiri ucadan hamı üçün oxumağı necə də istəyirdim:

Dost tərəfindən hər nəfəs sanki mənə müjdə gəlir,
Öz vüsalıma doğru nişan verir, yol göstərir.
Mənim kəbəm onun üzü; ürəyimlə təvaf edim dövrəsinə,
Səfa əhli can atır məhz belə bir ziyarətə.
Minada zibh edirik ki, biz onunla görüşək,
Aşiqlər can atarmı bundan üstün ticarətə?!

Çox kövrəldim. Bu şeir bizim halımızı bəyan edirdi. Bu əməliyyatdan qayıtmaq mənim üçün qayıtmamaqdan çətin idi. Başım fikirlə doldu, canıma təşviş düşdü. Birdən bu dəfə də qalsam, necə?! Dizlərimi qucaqladım, yanağıma yaş süzüldü. Qaranlıq necə də yaxşıydı!..

Yük maşını əyləcə basanda hamımız irəli atıldıq. Çadır və nazik işıq kənara çəkildi. Mat-məəttəl baxırdıq. Ora iki ay öncə gördüyümüz boş mövqeyə əsla bənzəmirdi. Top və katyuşa qurğuları sıra ilə gizlədilmiş, sakit xurmalıq bəsicilərlə dolu bir şəhərə çevrilmişdi. Daha maraqlısı isə düşmən tərəfin bu qədər get-gəl qarşısında heç bir iş görməməsi idi. Əməliyyat axşamı ordu və Məşhəd uşaqları Xəyyin və Şələmçə bölgəsinə hücum etdilər;[1] bir diversiya hücumu. Düşmən yaxşı aldanırdı. Bu müddətdə o qədər çaşdırıcı əməliyyatımız olmuşdu ki, əsas əməliyyatın göldə olacağını düşünürdü.

"Düşmən Hur bölgəsinə tam nəzarət edə bilmədiyinə, digər tərəfdən, İran Xeybər və Bədr əməliyyatlarında oranı yaxşı tanıdığına görə, bundan əlavə, öz cəbhəmizin Hur bölgəsində mühəndislik və daşıma fəaliyyətlərinin artan həcmi düşməndə belə bir qənaət yaratmışdı ki, İran Hurdan hücuma keçəcək".[2]

Ərvəndin suyunun müxtəlif formalarını öyrənmək üçün aylarla iş görüldü. Bu çayın tarixçəsi, habelə meteorologiya idarəsindən

---

[1] "Şələmçədən Kuşka qədər üçüncü istiqamətdə ordunun Quru Qoşunları mühüm bir dəstək hücumu nümayiş etdirdi. Bu əməliyyat düşməni əsas hücum yerinə dair çaşdırmaqla bərabər, əməliyyatın ilk günlərində düşmənin əks-hücumlarının həcminin azalmasına və iranlı qüvvələrin ələ keçirdikləri yerlərdə möhkəmlənməsinə də səbəb oldu". (Unudulmaz döyüşlər atlası, Müctəba Cəfəri, s. 118.

[2] İran və İraq müharibəsinin təhlili, c. 3, Hüseyn Ərdistani, s. 173.

Xosrovabad və Fav bölgələrinin son iyirmi ilin hava şəraitinə dair verilən məlumatlara görə heç bir problem yaranmayacağı düşünüldü.[1]

İraqın Bəsrənin şərqində yerləşmiş üçüncü korpusunun komandiri general-leytenant Mahir Əbdülrəşid 15.02.86 tarixində, yəni Vəlfəcr-8 əməliyyatından və İraqın Fav şəhərinin işğalından bir həftə sonra bildirirdi: “Yaxın günlərdə iranlı qüvvələrin əsas hücumu Hüveyzə gölü bölgəsində baş tutacaq". O, buna görə Fava canlı qüvvə göndərməyin qarşısını almışdı.[2]

Bizim batalyonumuz əməliyyata bir gün qalmış bölgəyə getdi. Ayağımı yerə qoyanda ürəyim əsdi. Şəxsi heyətin üzündən yorğunluq və yuxusuzluq yağırdı. Gülür, xurma ağaclarının arasında tər tökürdülər. Bilirdim ki, əməliyyat nə qədər böyük olsa, şəxsi heyətin yuxusu və yeməyi bir o qədər az olur. Arıq cüssələrini qucaqlamaq istəyirdim.

Xurmalıqda yola düşdüm. Vahimə və qürbət bir-birinə qarışmışdı. Ərvənd əzəmətlə bizimlə İraqın arasına sərilmişdi. Ölüm çayın o tayından əl yelləyir, bizi çağırırdı. Bölüyümüzün taqımlarından birinin adı Şəhid Məhəmməd Sadiqi taqımı idi. Xurmalıqda gözlərim Məhəmmədi axtarırdı. Əmindim ki, bizə göz qoyur. Bədrdə bölüyün komandir müavini olmuşdu, indi isə sahibi idi. Beynimə gəldi ki, ağaclardan birinin yanında dayanıb, eynəyini köynəyinin ətəyi ilə parıldadır, sonra yenə gözlərinə taxıb bizə baxır. Ürəyimdə xahiş etdim ki, mənimçün dua etsin.

Gözlərimizi yumub-açınca günəş batdı və əməliyyat öncəsi həyəcanlı qürub çağı gəldi. Çayın səsi ağacların arasına yayılır, özüylə matəm gətirirdi. Ürəyim qüssədən partlamaq üzrə idi. Dalğıclar hamıdan öncə suya girəcəkdilər. Balıq kimi su istəyirdilər. Eşitmişdim ki, kəşfiyyat zamanı səkkiz yüz dəfədən artıq Ərvənddən keçib-gəlmişlər. İndi isə imtahan zamanı idi.

Günəş Favın arxasında batır, suyun üzərinə qırmızı toz səpirdi. Gedəsi olanlar özlərini ələ verirdilər. Hərə bir tərəfə çəkilmişdi. Onlara baxanda ürəyin yandıqca yanardı, gedə bilməmək həyəcanı, dostu görməmək qorxusu, bütün dünyanı ürəyindən çıxarmaq təşvişi səni boğardı. Qəhər sinələrimizə ağırlıq edirdi. Göz yaşlarımızın axması

[1] Yenə orada, s. 170.
[2] Unudulmaz döyüşlər atlası, Müctəba Cəfəri, s. 118.

üçün bircə bəhanə lazımdı. Xurma ağaclarının arasında sükutdan qiyamət qopmuşdu. Darıxırdım. Bəziləri vəsiyyətnamə yazırdılar.

Ərvəndin kənarındakı xurma ağacları uşaqlara baxırdı. Fikirləşdim ki, bu ağacların danışmağa nə qədər sözləri var; gözü gəlinciyində qalmış qız uşağından tutmuş balıqçı daxmasını Allahın ümidinə buraxmış qoca kişiyə qədər. Cəbhə uşaqları o ağacların arasında nə qədər səssiz gecə namazı qılmış, kəşfiyyatçı qüvvələr gecə ikən suya girmiş, uşaqlar soyuqdan tir-tir əsmişdilər. İndi də vidalaşma və göz yaşları. Bu ah-nalələrin və göz yaşlarının hamımız üçün bir mənası vardı: Birdən hamı gedər, mən qalaram.

Düşmən radarları Ərvəndin sahillərinə nəzarət edirdi. Xurmalığın içindəki kanallardan suya girməyə məcburduq. Kərbəla diviziyasının dalğıcları kanalların kənarına düzülüb havanın qaralmasını gözləyirdilər. Şimaldan idilər, özlərinin dediyi kimi, suda böyümüşdülər. Baxışlarında nə qalmağa meyil vardı, nə qayıtmağa ümid; yalnız getmək həvəsi görünürdü. Axşam özünün soyuq kölgəsini xurmalığın üzərinə salanda suya girirdilər.

Bir-bir kanalın kənarında otururdular. Yaş arıq üzləri böyük dalğıc eynəklərinin altında itirdi. Bir bizə baxırdılar, bir də qarşıya. Suyun üstünə uzanırdılar. İki-üç metr sürüşür, suya batırdılar; sakitcə və yüngül. Su dalğalanır, yenə sakitləşirdi. Sanki buradan heç bir dalğıc suya girməyib. Qəriblikləri ürəyimi yandırdı. Bir-bir suya girir, batırdılar. Əlimdən onların salamatlığı üçün yalnız dua etmək gəlirdi.

Təqvim 09.02.86 tarixini göstərirdi. Ay buludların arxasından baxışlarımızla oynayırdı. Xurmalıq qaranlığa qərq olmuşdu. Qayıqlar bizi gözləyirdi. Su və qurbağa səsi, habelə xurma ağacının iyi hər yeri bürümüşdü. Kanalın yanında sıraya düzülmüşdük. Heç kimdən səs çıxmırdı. Dalğıclar mövqeyi ələ keçirəndən sonra növbə bizə çatacaqdı. Qulaqlarımızı şəkləmişdik ki, ilk səsdən sonra qaza basıb sürətlə düşmən sahilinə gedək.

Dalğıclardan xəbər gəlmirdi. Ağır saniyələr keçmək bilmirdi. Külək suyun üzərindən sürüşüb uşaqların arasında gəzişirdi. Həyəcan ürəyimizi parçalayırdı. Ay zəif işığını suyun və bizim başımızın üzərindən topladı, səma qatı buludlarla doldu. Külək xurma ağaclarının çətirləri arasında dolaşırdı. Göz-gözü görmürdü. Çox həyəcanlandıq. Dalğıcların fikri xora kimi canıma düşdü. Biz hələ bərk yer üzərindəydik, onlarsa düşmənin yanında. Suda təxminən üç minə yaxın dalğıc vardı. Külək, yağış və fırtına Ərvəndə və xurma ağaclarına qarşı

hücuma keçdi. Belə fırtına zamanı Ərvəndin dalğası dalğıcları hansı tərəfə istəyirdisə, aparırdı, əlləri heç bir yerə çatmırdı. Külək bizim üz-başımızı da yaş qamçılarla döyəcləyirdi. Dalğıclar Ərvəndi necə ram edəcəkdilər?

Əməliyyatın məhv olacağına dair stresdən boğulurduq. Allahın hikmətini bilmirdik. Bu külək və fırtınaya görə düşmən postları kor olacaq, dalğıclar mövqeyi daha asan ələ keçirəcəkdilər.

Hər yerimizdən su damırdı. Çəkməm palçıqdan yapışqan olmuş, ağırlaşmışdı. Uşaqların üz-gözündən həyəcan yağırdı. Dalğıclardan xəbərsiz qalmağımız hamını narahat edirdi. Sağollaşıb suya girəndə baxdığım üzlər gözlərim önündən getmirdi. Çarəsiz qalmışdıq.

“(Bütlər yaxşıdır) yoxsa əli hər yerdən üzülüb darda qalan birisi Ona dua etdiyi zaman onun duasını qəbul edən kimsə?!”[1]

Dodaqaltı oxuyur, göyə baxırdım. Birdən su dalğaları və göy gurultusu arasında boğuq bir atəş səsi eşitdim. Dalğıclar döyüşə girmişdilər. Nəhayət, "Ya Fatimətuz-Zəhra" parolu elan olundu. Ordunun Xosrovabad yolunun kənarına döşənmiş artilleriyası guruldamağa başladı. Yer ayaqlarımızın altında titrəyirdi. Qiyamət qopmuşdu. Uşaqlar motorlu qayıqlara doğru qaçırdılar. Bir saniyə də itirmək olmazdı. Kanalın ağzından Ərvəndin dalğaları üzərinə çıxanda qayığı idarə etmək çətinləşdi. Hər dəfə tərpənəndə qorxurdum ki, bir nəfər suya düşəcək. Yer-göydən atəş yağırdı. Öz mövqeyimizdəki mini-katyuşalar işə salınmışdı. Ürəyim həyəcanla doluydu. Qayığın İraq tərəfə salamat keçməsi üçün yüz min salavat nəzir etdim.

Yağış üz-başımızı isladır, soyuq külək dərimi yandırırdı. Suyun sahilində bir fənərin zəif işığı göz vurur, qarşılarına maneə çıxmasın deyə qayıqçıların hansı səmtə getməli olduğunu bildirirdi. Dönüb öz mövqeyimizə baxdım; mini-katyuşaların dayanmadan açdığı atəşlərlə qızarmışdı, qulaqbatıran səsi bizim qayığımıza qədər gəlirdi. Başımızın üstündəki səma sarı işıqlarla doluydu. Hər yer titrəyirdi.

Qaranlıqda yarımçıq bir estakada göründü və qayıq onun kənarında dayandı. Aşağı hoppandım. Qayığın ipindən bərk yapışmışdım ki, digərləri də ensinlər. Su qayığı udmaq istəyir, dalğaların arasına dartırdı. Saxlamağa gücüm çatmırdı. Birdən çiynimin yüngülləşdiyini hiss etdim və ayağımın yanından bir şappıltı səsi gəldi. Silahım suya düşmüşdü. Sanki heç mənə lazım deyildi. Əlim boşaldı. Çayın əks

[1] Nəml, 62.

istiqamətinə qalxdıq. Sol tərəfdə Fav yerləşirdi: İraqın kəsməli olduğumuz nazik uzun quyruğu.

Sahildəki qalanın arxasına keçməli idik. Düşmən mövqeyində irəlilədikcə kəşfiyyatçı uşaqları daha çox alqışlayırdım. Sanki çəkilmiş xəritə üzərindən hərəkət edirdik. Hər şey Hacı Qulamrzanın əməliyyat məlumatlandırması zamanı göstərdiyi kimi idi. Sahilin yaxınlığında və çayla paralel olan Fav-əl-Bihar magistralının üçyolundan dayanmadan keçdik.

İraqın Fav-Ümm əl-qəsr magistralında yerləşən artilleriya mərkəzinin yaxınlığındakı torpaq sipərə getməli idik. Fars körfəzinə və İmam limanına nə atəş yağırdısa, artıq biraddımlığımızda olan həmin bazadan yağırdı. Sol tərəfimizdə İraqın neft tankerləri partladılmışdı. Göyə alov qalxır, şöləsi işıqlı bir xəncər kimi qaranlığa batırdı, heç bir külək və fırtınanın ona gücü çatmırdı. Bizim neft tankerlərindən qismətimiz üzümüzü aydınladan alov işığı oldu.

Hər şeyi hesablamışdıq. Səngərləri təmizlədiyimizə görə arxadan zərbə ehtimalı yox idi. Hacı Əkbər Nuri Ümm əl-qəsr üçyolunda səngərləri təmizləyəndə yaralandı və iyirmi dörd saata geri göndərildi. Bölüyün balaca rabitəçisi Mustafa Xadimi[1] də orada qarnından yaralandı. Onu hər dəfə görəndə cəbhəyə ilk dəfə gəlişim yadıma düşürdü. Bığları təzə çıxırdı. O qədər sakit idi ki, hamı onu sevirdi. Gecə namazının vaxtı gələndə həmişə hamıdan öndə olurdu. Uşaqlar onu ələ salıb deyirdilər ki, Allahın canından nə istəyirsən, niyə bu qədər namaz qılıb ağlayırsan.

Həmin gecə sübhə qədər yol bağlı qaldı, yaralıları geri göndərmək mümkün olmadı. Mustafa da davam gətirmədi və Vəlfəcr-8 əməliyyatında həzrət Məsumə batalyonunun ilk şəhidi oldu.

***

Gecənin soyuğu yaş paltarlarımın altına girirdi, soyuqdan titrəyirdim. Top atəşi səngimirdi. Əli Dünyadidə və Həsən Müqimi ilə birlikdə öndən gedirdik, digərləri də arxamızca. O qədər arxayın gedirdik ki, elə bil öz torpaqlarımızda gəzirik. Hələ Fav-Bəsrə-Ümm əl-qəsr üçyoluna yerləşməmiş qarşımızda bir İraq pikapı peyda oldu. Qaza basıb üzərimizə gəlirdi. Uşaqların biri qumbaraatanla yolun ortasına qaçdı. Pikapın işığı qumbaraatanın üstünə düşdü. Sürücü

---

[1] Seyid Mustafa Xadimi 1969-cu ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Abadanda şəhadətə qovuşmuşdur.

əyləcə bərk basdı. Sanki bizi indi görürdü. Bu qədər iranlı döyüşçünün torpaqlarına girdiyinə inana bilmirdi. Nə geriyə yolları vardı, nə də irəliyə. Maşının iki qapısı açıldığı anda RPG mərmisi hər yeri aydınlatdı.

Bizim bölüyümüz üçyoldan keçdi, arxamızdakı bölük də bizə dəstək üçün orada qaldı. Üçyolda bir zenit qurğusu qalmışdı.

Ümm əl-qəsr magistralının sağ tərəfində İraqın hərbi qərargahlarından biri yerləşirdi. Kvadrat şəkilli böyük bir ərazi idi, hər tərəfində torpaq sipər qurulmuş, künclərində səngər düzəldilmişdi. Bir düşmən əsgəri sağ tərəfdəki səngərdə pusqu qurmuşdu, atəş açaraq heç kimi yaxına buraxmırdı. Patronları bitənə qədər gözlədik. Əli Dünyadidə uşaqların birini arxadan ona doğru göndərdi. İki nəfər səngərdən çıxdı. Düşmən əsgəri siçana dönmüşdü; əli başında qəliz ləhcə ilə dayanmadan "Tehran, Tehran" deyirdi. Fikirləşdim ki, indi ona silah versələr, hamımızı gülləbaran edər. Axırıncı patronuna qədər vuruşmuş, indi isə yazığa dönmüşdü. Hələ mövqeyimizi bərkitməmiş o qaranlıqda əsir tuta bilməzdik. Əli Dünyadidə ona bir güllə xərclədi.

Qərargahı təmizləməyə başladıq. Həyətin ortasındakı furqon kimi hər şey öz yerindəydi. Qərargahın dəlik-deşiklərindən sahibsiz bir kalaşnikov avtomatı tapıb sevincək götürdüm. Çiynimdəki silahımın yeri doldu.

Ərazinin ortasında betondan bir səngər vardı, bir neçə pillə ilə aşağı enirdin. Pillələr qaranlığa qərq olmuşdu. İçinə bir əl qumbarası atdıq ki, kimsə sığınmışsa, işini bitirsin.

Uşaqlar gəzişir, hər yerə baş çəkirdilər. Mənimsə acından taqətim çəkilirdi. İraq torpaqlarında bir neçə kilometr piyada yol getmişdik. Bir nəfər qərargahın ortasında dayanıb azan verməyə başladı. Səsi tanış gəldi, amma tanımadım. Bu sözləri eşitməyə necə də ehtiyacım vardı:

– Qəsb olunmuş yerdə namaz olar?!

– Qıl, cavabı mənim boynuma!

Uşaqlar elə deyib-gülürdülər ki, sanki gedəcəklərindən arxayındılar. Namazdan sonra alnımı torpağa qoydum. Həyəcanlı idim, qorxurdum ki, birdən öncəki əməliyyatlar kimi yenə enməyə dayanacaq tapmaram.

– İlahi, bir gecə keçdi. Bilmirəm ki, bir də əməliyyat olacaq, yoxsa yox.

Zaman keçdikcə həyəcanım da çoxalırdı.

– İraqlı! İraqlı!

Qışqırıq səsinə yerimdən hoppandım. Uşaqların biri düşərgənin ortasındakı səngərin pilləkənindən yuxarı qaçırdı, şalvarı düşməsin deyə patron kəmərindən tutmuşdu. Səsini eşidən hər kəs pillələrə doğru qaçdı. Zavallı tualet məqsədi ilə beton səngərə girmişdi. Orada taxtadan sınıq–salxaq bir çarpayı varmış. Taxtalarından birini çıxarıb əldəqayırma tualetində oturmaq istəyəndə aşağıdan bir cüt gözün vahimə içində ona baxdığını görmüşdü. Çarpayının altına baxanda iraqlı zabitin kobud cüssəsi tərpənmiş, o da şalvarını yuxarı çəkə-çəkə bayıra qaçmışdı.

Səngərə atdığım əl qumbarası yadıma düşdü. O zabit çarpayının altına girdiyinə görə salamat qurtulmuşdu. İndi isə səngəri dövrəyə almış bizim əlimizdən qaça bilməyəcəkdi. O qədər qəliz ləhcə ilə "təal, təal"[1] dedik ki, boğazımız tutuldu. Nəhayət, iraqlı zabit lütfkarlıq edib pilləkəndən qalxdı. İri cüssəsi səngərin girişindən zorla çıxdı. Fikirləşirdim ki, görəsən çarpayının altına necə giribmiş. Digərləri kimi o da Tehranı soruşmağa başladı! Başımız qarışan kimi qaçıb qaranlığa girdi, Əli Dünyadidənin atəşləri də onun ardınca. Bir nərə sinəsini parçalayıb bayıra çıxdı, sonra bir neçə addım da qaçdı. Cəsədi də qaçmaq istəyirdi. Birdən yerində quruyub yıxıldı.

Çarəmiz yox idi. Bir saatdan sonra öz başımıza nə gələcəyini də bilmirdik. Arxamız su idi, önümüz qaranlıq. O şəraitdə əsir tutmaq quyruğumuza süpürgə düyünləmək kimi bir şey idi.

Beton səngər macərası bitəndən sonra əlimi qatlayıb başımın altına qoydum. Ulduzlar yağışlı buludların arxasından boylanırdılar. Uzaqlarda, öz mövqeyimizdə səma yanıb-sönürdü. Taq-tuq səsi beynimə dolmuşdu, soyuq bədənimi ürpədirdi.

Bu zaman anlaşılmaz bir səs diqqətimi cəlb elədi. Elə bildim ki, tank səsidir, yaxınlaşır. Avtomatımı yerdən qamarlayıb torpaq sipərin üstünə yaxınlaşdım. Bizə istirahət düşmədiyi üçün işıqları yanan on yük avtomobili Fav-Bəsrə magistralı ilə gəlirdi. Mümkün qədər canlı qüvvə yükləmişdilər ki, guya mövqeyi qorusunlar. Xəbərləri yoxdu ki, biz onları qayçılayırıq və öz ayaqları ilə tələyə gəlirlər. Sollarında, əl-Bihar magistralı üzərində Aşura diviziyasının uşaqları və Hüseyn Xərrazinin İmam Hüseyn (ə) diviziyası vardı, sağlarını da biz tutmuşduq. İşıqlı güllələr yük maşınlarına doğru bir-biri ilə yarışa girir,

---

[1] Ərəbcə "gəl, gəl" deməkdir.

ətraflarını işıqlandırırdılar. Yuxarıdan biz vururduq, aşağıdan da Aşura və İmam Hüseyn (ə) diviziyaları.

Seyid Cavad Xaki özünü üçyolun kənarındakı zenit qurğusuna yetirdi, pulemyotun lüləsini aşağı endirib onları biçməyə başladı. Düşmən qüvvələri bir-bir yola səpələnir, əliboş getməsinlər deyə canlarını da götürüb qaçırdılar. Hava işıqlaşana qədər yük maşınları və çöllüyə səpələnmiş canlı qüvvəsi ilə məşğul olduq. Yazıqlar hansı tərəfə qaçırdılarsa, önlərində peyda olurduq.[1]

Ara sakitləşəndən sonra Ümm əl-qəsr magistralında İraqın raket mərkəzinə doğru yola düşdük. Mərkəzin yaxınlığında yarımçıq bir torpaq sipər vardı. Onun yan-böyrünə nəzər saldım. Bir torpaq təpəsi idi, heç bir tərəfdən bir yerə bağlanmamışdı. Əsla torpaq sipərə bənzəmirdi; yalnız arxasında belini torpağa yapışdırıb nəfəs dərmək olardı. Ona çatmaq üçün çox yol gəlmişdik.

Cansız fevral günəşi səmanın eyvanından taqətsiz əlini üz-başımıza çəkirdi. Az qala bizi yatırdacaqdı. Ac idim. Udqunanda boğazıma nəmli torpaq gedirdi. Durbinlə diqqətlə baxdıq. Raketləri aparmışdılar, atış tribunaları bizə qismət olmuşdu. Torpaq sipərin aşağısında uzandıq. Gecədən səhərə qədər yol yeriyəndən, vuruşandan sonra heç bir şey yuxunun yerini verə bilməzdi.

Yoxuş yerində uzandım. Sanki yerin altında böyük bir div oyanmışdı; nərildəyir, bayıra çıxmaq istəyirdi. Partlayış, avtomat səsi və mərmi fiti mənə layla deyirdi, hirsli div altımda titrəyirdi. Gözlərimi yumub qarnımda gərnəşən boş mədəm barədə fikirləşməməyə çalışdım. Göz qapaqlarımın ağırlaşdığı yerdə motosiklet səsinin gəldiyini hiss etdim. Sevincək yerimdən qalxdım. Yemək payımı alım deyə təminat motosikletini axtarmaq üçün ətrafa göz gəzdirdim. Lakin səs göydən gəlirdi. Düşmən helikopteri başımızın üstündə dövrə vurur, bir qadın səsini başımıza tökürdü:

– Mühasirədəsiniz, irəliyə və geriyə bütün yollarınız bağlanmışdır.

Gənc bir qadın yuxarıdan bizim üçün çıxış edirdi. Farsca danışıq ləhcəsindən xalq mücahidlərindən olduğu bilinirdi. Çoxlu nemətlər saydı; əgər təslim olsaydıq, İraq onları bizə bəxş edəcəkdi!

---

[1] "Elə bilməyin ki, sizin tüfənginiz, J3-ünüz və ya avtomatınız qalib gəlmişdir. Qarşınızdakılarda bundan da yaxşısı vardı. Sizdə az idi, onlardasa çox. Sizi qalib etmiş və edəcək amil sizin imanınız və ixlasınızdır. Bu, sizdə var, onlarda isə yoxdur". (İmam Xomeyni, Nur səhifəsi, c. 16, s. 196-199)

Təslim olanlara veriləcək qadınlardan danışmaq istəyəndə uşaqlar bir RPG mərmisi göndərərək sözünü kəsdilər. Mərmi sürətlə helikopterin yanından keçdi. Helikopter tərpənib yerini dəyişdi. Batalyonumuzda bir qoca vardı. Üzünü helikopterə tutub qəliz Qum ləhcəsi ilə ucadan etiraz etməyə başladı:

– Əşi, bizdən əl çək, özümüz arvadlarımızın əlindən qaçıb buraya gəlmişik!

Bu söz uşaqların yorğun və toz-torpaqlı üzlərində gülüş yaratdı.

Bitərəfan qumbaraatanı çiynindən endirib torpaq sipərin o tərəfinə qaçdı və yenə:

– Vıjjj!

Helikopterə o qədər atəş açdı və biz təkbir dedik ki, pilot və natiq məcbur qalıb getdilər.

Yarımçıq torpaq sipər strateji nöqtə idi, onu saxlamalı idik. Mənsə irəli getməyi çox istəyirdim. Elə bilirdim ki, əsl hadisə mənim dayandığım yerdən irəlidədir.

Hacı Qulamrza günortadan sonra bizim yanımıza gəldi. "İrəli" əmrini verməsini istəyirdim, amma təkidlə tapşırdı ki, burada qalın və tehranlılar gələnə qədər torpaq sipəri göz bəbəyiniz kimi qoruyun. 27 Saylı diviziyanın uşaqları mərkəzi ələ keçirməli idilər. Yer bizdəydi, göy İraqda. Artilleriyamız elə düzülmüşdü ki, Favdakı yolları vura bilirdi. Buna görə təmas xəttinə canlı qüvvə göndərə bilmir, əvəzində başımızın üstünə bacardıqları qədər təyyarə göndərirdilər. Təyyarələr göydə sağa-sola şütüyürdü, başımızı hər qaldıranda ən azı iki-üç təyyarə sürətlə gedib-gəlirdi. Favın fəthindən bir gün keçirdi, düşmən şokdan ayılmaq üzrə idi. Təyyarələrin qalın səsi qulaqlarımızın pərdəsini titrədirdi.

Helikopter macərasından az sonra qəribə bir səhnə gördüm. Hamı torpaq sipərin kənarına qalxıb düşmən tərəfin yük maşınına baxırdı. Bilmirdik ki, yolunu azıb, yoxsa başına hava gəlib. Yuxulu kimi artilleriya qərargahından Ümm əl-qəsr-Fav magistralına çıxdı. Arxasında birli bir pulemyot vardı. Soyuqqanlılıqla yanımızdan keçdi. Düşmən əsgəri pulemyotun arxasına keçmək istəyəndə birdən hər tərəfi alov bürüdü. Uşaqların mərmisi hədəfə dəydi və yük maşını yerində qurudu.

Yeni bir hadisə baş vermədən belimi torpaq sipərə dayadım. Nəhayət, yatmağa macal tapdım. Hətta yolunu azan güllə və

qəlpələrdən qorunmaq üçün altımdakı torpağı da çökək etmədən gözlərimi yumub yatdım.

Atəş və avtomat səsləri yaxınlaşmışdı. Qırmızı güllələr qaranlıqda başımızın üstündən keçirdi. Yuxulu halda dördəlli özümü torpaq sipərin yuxarısına yetirdim. Tehranlılar gəlmişdilər. Yadımda deyil ki, Meysəm batalyonu idi, yoxsa Əmmar. Döyüş atəşləri yuxumu qaçırdı. Partlayış səsləri bir-birinə qarışmış, vurhavur başlamışdı. Bu qədər irəlilədiyimizə görə çox sevinirdik.

Namazdan sonra istehkamın arxasında bir qədər gəzdim. Hələ yeməyə heç nə yox idi. Hər yer işıqlı güllələrlə və qalın partlayış səsləri ilə doluydu. Bəzi uşaqlar arxamızdakı mövqeyə qayıtmışdılar. Ora gecələmək üçün daha rahat idi. O gecədən ancaq yorğunluq və aclıq yadımda qalıb.

Ertəsi gün uşaqların səs-küyünə oyandım. Düşmənin komandir qərargahından radio tapmışdılar. İran kanalını tapdılar, hamı sakit qalıb qulaq asmağa başladı. Radionun xışıltısı ilə güllə və qəlpə səsləri altında ağa Xameneinin 11 fevral qələbə yürüşündə çıxışı yayımlanırdı. O zaman o, prezident idi. Favın ələ keçirildiyini xalqa xəbər verəndə biz də onlarla birlikdə salavat və təkbir dedik. Gözlərim yaşardı. O dönəmdə xalqın ümidi bizə idi. Radiodan hücum marşı yayımlandı.

Düşərgənin ortasındakı furqon birdən işə salındı və yola düşdü. Elə bildim ki, düşmən sürücüsüdür, bu qədər silahlı arasından maşınla qaçmaq fikrinə düşüb. Sükanın arxasındakı isə Əsgər Bərati idi. Sevincək qaza basır, qərargahda dolaşırdı. Bir neçə nəfər də atılıb mindi. Yaxşı qənimət idi. Hələ Fava yol açılmadığı üçün canlı qüvvə və yaralı daşımaqda ondan istifadə etmək olardı. Əməliyyat marşını eşidəndən torpaq sipərin arxasında qala bilmir, düşmənin üstünə yerimək istəyirdim. Heç kim yorulduğunu büruzə vermirdi. Uşaqlar ya cib Quranları ilə məşğul idilər, ya silahları ilə. Bəziləri də zarafatlaşırdılar. Bütün bu enerjini bir-birimizdən alırdıq. Günortaya qədər Arxa cəbhə xidmətinin də Fava ayağı açıldı. Motosikletlə mövqedə şütüyür, yemək paylayırdılar. O qədər aclıqdan sonra qatılaşmış konservlər necə də ləzzətli idi!

Nəhayət, gecənin qaranlığı bizə yol açdı. Kolon işıq dolu səmanın altında yenə yola düşdü. Fişənglərin işığında uşaqların üzlərini görürdüm. Gözümə tanış bir sima dəydi. Mustafa Əncüməfruz idi. Təəccübləndim. İşıqda üzü bir az da aydınlaşdı. Mustafa deyildi, səhv

görmüşdüm. Öz-özümə fikirləşdim ki, yəqin, indi göydən bizə baxır. Onun üçün darıxdım. Əgər olsaydı, gözəl xətti ilə Favın bütün divarlarına "Yaşasın Xomeyni" yazardı.

Nə qədər irəliləyirdiksə, sakitlik idi. Çöllüyə sərilmiş soyuq və qaranlıqda bir komandir qərargahına çatdıq. Qərargahın küncündəki səngər hələ nəfəs alırdı. Pulemyotçu kolonu görüb dayanmadan atəş açırdı. Yerə yapışdıq. Qulaqlarım güllələrin səs-küyündən cingildəyirdi. Məhəmməd Səadətməndlə Əli Dünyadidə öndən getdilər. Pulemyot quduz it kimi hürürdü. Qaranlıqda Məhəmmədin "ax" səsi gəldi. Əlindən vurulub yerə oturdu. Əli Dünyadidə irəli sürüşdü. Pulemyotçu pulemyotunu qucağına götürüb səngərdən bayıra qaçdı. Dəli olmuşdu. Kolona doğru atəş açmazdan öncə qarşısındakı Əli Dünyadidə ilə göz-gözə gəldi. "Ya Hüseyn" qışqırtısı bütün bədənimi ürpətdi. Qışqıran Əli idi. Tətiyə basdı və qumbaraatan mərmisi pulemyotçunun qarnına girdi.

Pulemyot səngəri susdurulandan sonra Əli irəliləyək deyə bizə işarə verdi. Qərargahda heç kim yox idi. Ancaq hər bir dəlik-deşikdə bir düşmən döyüşçüsü qala bilərdi. Hava tam işıqlaşana qədər gözlədik. Sonra məktəbdən tarixi muzeyə gəlmiş uşaqlar kimi hər yerə baxmağa başladıq. Hər şeyə əl vurur, yoxlayırdıq. Orada gördüklərimi başqa heç bir səngərdə görməmişdim: kreslo, çarpayı, kondisioner... Qərargahda bütün komfort imkanları vardı, sanki heç müharibə deyildi. Uşaqlar həyəcanla o tərəf-bu tərəfə gedirdilər. Kim nə görürdüsə, dostlarını çağırırdı. İraqlı komandirlər yatsaydılar, yuxularına da girməzdi ki, qərargahları bizim kimi nadinc bəsici uşaqların əlinə keçə bilər. Səngərlərin birində bir neçə qadın paltarı vardı. Onları görəndə üzüm istiləşdi; tez keçdim.

Uşaqların diqqətini hər şeydən çox qərargahın ortasındakı qazanlar cəlb elədi. İsti xörək, həm də toyuqplov yeyəcəyimiz ağlımıza da gəlməzdi. Az qala sevindiyimizdən qanad açıb uçacaqdıq. Bişmiş toyuğun iyi iştahamı ikiqat artırdı. Əlim o qədər çirkli idi ki, ilk bir neçə tikədən torpaq və barıt dadı gəlirdi. İki günlük aclıqdan sonra doyunca yediyimiz yerdə uşaqların biri həyətdəki tualetdən çıxdı, arxasına bir tank mərmisi düşüb tualeti uçurdu. Sevinirdi ki, bəxti yaxşı gətirib, yoxsa məzarının üstünə belə yazacaqdılar: “Şəhadət yeri: tualet”.

Gülüşümüz bitməmiş növbəti mərmi yeri titrətdi. Bildik ki, bunda bir iş var. Özümüzü toparlayıb qərargahın bayırına baş çəkdik. Tanklar

bir xətt üzrə irəliləyirdi. Nəcəf diviziyası hələ Fav-Bəsrə yolu ilə gəlməmiş, bizə birləşməmişdi. Tanklar da bizimlə Nəcəf diviziyasının arasındakı boşluqdan istifadə etmişdilər. Əmr verildi ki, nəyin bahasına olursa-olsun, bu məsafəni bağlayaq və düşmənin quyruğu qayçılansın.

Günortaya qədər Nəcəf diviziyası ilə bir-birimizə çatdıq və tanklar mühasirəyə düşdü. Sanki qiyamət qopdu. Düşmənin tankların yanında piyada hərəkət edən böyük bir ordusu bizimlə Nəcəf diviziyasının arasında qalmışdı. Bir tərəfdən bizim pulemyotlarımız başlarına güllə yağdırırdı, bir tərəfdən də tankların topu yeri şumlayırdı. Bizim gücümüz daha çox idi, iraqlıları xəzan yarpağı kimi biçirdik. Qulaqlarım bütün bu zil və bəm səslərdən tutulmuşdu. Ağız deyəni qulaq eşitmirdi. Bir-birimizlə qışqıra-qışqıra danışırdıq. Yer od-alovdan qızmışdı.

Bu vurhavurda bir İraq BMP-si sürətlə bizə doğru gəlməyə başladı. Qumbaraatanla nə qədər atəş açdıqsa, birmetrliyindən keçdi. Yaxınlaşanda gördük ki, Nəcəf diviziyasının uşaqlarıdır. Bilmədik ki, düşmənin zirehli maşınını necə ələ keçirib qaza basıbmışlar.

– Dadaş, indi hardan getməliyik? - sürücü başını çıxarıb ünvan soruşurdu. O mərəkədə yolu itirib iraqlıların içinə giribmiş. Yolu göstərdik və ümid etdik ki, indiyədək bizim əlimizdən salamat çıxdığı kimi düşmənlərin hədəfindən də uzaqlaşar.

Günorta saat ikiyə qədər tanklarla məşğul olduq. Yer ayaqlarımızın altında yellənirdi. Düşmən təzyiqini bir neçə dəfə artırdı və vəziyyətimiz ağırlaşdı. Mövqeyi qoruyub saxlamaq bu bir neçə düşməni öldürməkdən daha əhəmiyyətli idi. Birləşdiyimiz yerdə tankların qaçması üçün yol açdıq. İri gövdələrini sürüyə-sürüyə geri qayıtdılar və onlardan qurtulduq.

İraq tərəfi isə əl çəkmirdi. Kəşfiyyat helikopterləri və çəyirtkə təyyarələr daim başımız üstə vızıldayırdı. Onlar üçün yalnız göy qalmışdı. Uşaqlar arasında helikopter vurmaq yarışı başlamışdı. Başımız mərmi fiti və qumbaraatan partlayışı ilə dolub-daşırdı. Təminatçılar motosikletlə gəzib mərmi, daraq və patron paylayırdılar. Qumbaraatanlar bir dəqiqə dayanmırdılar; tez-tez yerlərini dəyişdirir, helikopter və tankları nişan alırdılar.

Şəhid daşıyan Toyota pikapları toz-torpaq içində mövqedə şütüyürdülər. Əgər geri qayıtmağa məcbur olsaydıq, şəhidlər

qalmamalı idi. Pikaplar şəhidləri çayın sahilinə aparır, oradan da qayıqla döyüş yerindən uzaqlaşdırırdılar.

Birinin qolu yox idi, birinin ayağı, birinin başı; biri qumbaraatan idi, biri rabitəçi, biri taqım komandiri, biri çapar, biri snayper. Kim nəçi idisə, hamısını yan-yana qoymuşdular. Qollar qanlı bədən və paltarların yanında uzanmışdı. Gözlər yumulu və ya yarıaçıq idi. Hamısını pikapın arxasına düzmüşdülər. Onlar yalnız bir məsələdə bir-birindən fərqlənmirdilər: hamısı cənnət yolçusu idi. Mən də onlar kimi pikapa yüklənmək istəyirdim.

Pikapların birinin altından qan axırdı. Maşındakı şəhidlərə göz gəzdirdim. Batalyonun çaparı Əhməd Təcvidianı[1] və Mustafa Burcəlizadə[2] adlı döyüşçünü tanıdım.

Favın ortasındakı duz zavodunun yaxınlığından yenə yarımçıq torpaq sipərin arxasına qayıtdıq. Üç gün davam etmiş ağır döyüş taqətimizi almışdı, yeni qüvvələr bizi əvəz etməli idi. Düşmən təyyarələri geridəki obyektlərimizi vurmaq yarışına girmişdilər. Hava hücumundan müdafiə qurğuları da birnəfəsə atəş açır, titrəyirdi.

Əməliyyatın ilk günlərində uşaqlar 85 düşmən təyyarəsini endirdilər. Sonralar eşitdim ki, Şəhid Səttari[3] radar və yer-hava ixtisaslarından hava hücumundan müdafiəyə dair ən yaxşı kadrları dəvət etmiş, onları radar stansiyalarına, yer-hava mövqelərinə, xüsusən də Hauk raket mərkəzinə bölmüşdü. Hauk axtarış radarını söndürmə layihəsini də o, icra etmişdi. Bu radar funksiyasına görə çox tez diqqət cəlb edirdi. Şəhid Səttarinin göstərişi ilə İran səmasındakı düşmən təyyarəsi kəşf edilən kimi Hauk radarı bir anlığa söndürülürdü, bununla da İraq tərəfi ana radarı görə bilmirdi.

Həm bizim atəşimiz ağır idi, həm də düşmən təyyarələri çox idi. Qiyamət qopmuşdu. Yarımçıq torpaq sipərin arxasına səpələnmişdik. Birdən göydə bir Tupolev bombardman təyyarəsi peyda oldu. Çox qorxduq. Çöllükdə sığınmağa yer də yox idi. Tupolev göydə bir dövrə vurdu. Gözlərimizlə onu izləyirdik ki, görək raketlərini hara atacaq. Lakin taxta-şalban və digər tikinti materialları tökməyə başladı. Bu,

---

[1] Əhməd Təcvidian 1963-cü ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

[2] Mustafa Burcəlizadə 1969-cu ildə Qumda doğulmuş, 1986-cı ildə Vəlfəcr-8 əməliyyatında Favda şəhadətə qovuşmuşdur.

[3] Mənsur Səttari 1948-ci ildə Qərçəkdə doğulmuş, 1995-ci ildə hava qəzasında şəhadətə qovuşmuşdur.

canlı qüvvəni ruhdan salmaq fəndi idi. Uşaqlar gülüb pilota əl yellədilər.

Yenə torpaq sipərin arxasına uzandıq. Gözlərimə istehkamın bir tərəfində düzəldilmiş xudmani bir yataq səngəri sataşdı. Rza Əşəri ilə birlikdə içinə girdik. Əhmədi soyadlı uşaqlardan biri səngərin önündə çömbəlib danışırdı. Küncüd pastasının və səhər çörəyinin dadı hələ damağımda idi. Gözlərim qızışdığı yerdə təyyarənin şığıma səsi qulaqlarımın pərdəsini titrətdi. Əhmədi bayıra boylandı. O qədər qorxdu ki, gözləri yerindən çıxmaq üzrə idi. Boğazının dibindən bir qışqırtı çıxdı:

– Uşaqlar! Atəş açdı!

Bunu deyib bizim yanımıza sıçradı. Mərminin fiti havada uzandı və hər yer qaraldı. Üz-başımıza isti toz-torpaq töküldü, nəfəs yolum bağlandı. Təyyarənin mərmisi torpaq sipərin arxasına düşmüş, sanki onu yerindən qoparıb bizim üzərimizə atmışdı.

Bədənimə əlimi çəkdim. Bilmirdim ki, bu dünyadayam, yoxsa o birində. O dar qaranlıq səngərdə əl-ayaqlarımız bir-birinə düyünlənmişdi. Çətinliklə torpağın altından çıxdıq. Partlayışı görmüş hər kəs bizim tikələrimizi yığmaq üçün səngərə doğru qaçırdı. Uşaqları görəndə əmin oldum ki, hələ bu dünyadayam. Ağzım palçıqla dolmuşdu. Qulağımdan fit səsi gəlirdi, heç nə eşitmirdim.

Beynim dumanlı halda bir tərəfdə oturdum. Təminat motosikleti qarın sursatı paylayırdı. Payımı almağa taqətim yox idi. Bədənim hələ partlayış dalğasından ürpəşdiyi yerdə birdən bir fransız topu[1] yeri titrətdi. Tüstü və toz-torpaq yerlə göyü bir-birinə birləşdirdi. Bir motosiklet bir yaralını tərkinə qoyub partlayışın baş verdiyi ərazidən çıxdı. Yaralının qana qərq olmuş üzünü tanıdım. Seyid Mehdinin qardaşı Seyid Mürtəza Musəvi idi. Dua etdim ki, kaş şəhid olmasın; kaş onun yerində motosikletin tərkində mən olaydım! Ata-anasına yazığım gəlirdi, Seyid Mehdini təzə itirmişdilər. Sanki canıma zəhər doldu, ürəyim sıxıldı; özümdən, bir-bir gedən dostlarımdan, bir neçə metrliyimə düşən və yalnız başıma bir neçə ovuc torpaq tökən mərmidən. Üç-dörd gündü yer-göydən atəş yağırdı, mənsə hələ də öz dayanacağımı tapmamışdım.

Qayıq Ərvəndi eninə yarır, xırda su damcıları üz-başıma səpilirdi. Hər dəfə yerimizi yeni gəlmiş qüvvələrə verəndə yolun ortasında

---

[1] Yüksək dağıdıcılıq qabiliyyəti olan uzaqmənzilli top idi, Fransa İraqa vermişdi.

peşman olurdum. Dönüb arxamdakı Fava baxdım. Artıq bizim olmuşdu. Günəşdən yanmış mühəndis-istehkam uşaqları öz mövqeyimizdəki xurmalığın arasında məşğul idilər, Fav sahilinə doğru su üzərindən etibarlı bir yol çəkmək istəyirdilər. Avtobus bizi Əndimeşk düşərgəsinə aparmaq üçün xurma ağaclarının arasında gözləyirdi. Buldozerlər dayanmadan işləyirdi. Saldıqları yarımçıq yol Ərvəndin kanallarını bir-birinə birləşdirib Abadan-Xosrovabad magistralına gedirdi. Favdan öz mövqeyimizə yeganə yol qayıq yolu idi, o da yalnız şəxsi heyəti daşıyırdı. Fava texnika aparmaq üçün başqa bir yola ehtiyacımız vardı.

Ordu mövqeyə PMP adlı körpülər gətirdi. Qatlanıb-açılan böyük dəmir listlər idi. Suya atanda suyun üzündə yavaşca açılırdı. Uşaqlar qayıqda hazır vəziyyətdə gözləyirdilər; suya düşən kimi ortaya doğru itələyir, polad burazla sahilə bağlayırdılar. Çox əziyyətlə körpüləri bir-bir suya atır, bolt-qayka ilə bir-birinə birləşdirirdilər. İşləri bitəndən sonra düşmən təyyarələri peyda olub körpünün bir hissəsini vururdu, uşaqlar yenə işə başlayırdılar.

Əkbər Şirqulami və Cəfərin qardaşı Hacı Rza Əhmədi Miyanəci körpü salmaq işinə rəhbərlik edirdilər. Onlar Vəlfəcr-8 əməliyyatının səhərisindən işə başlamışdılar. Sonralar Əkbər mənə deyirdi:

– PMP qurğularını çox çətinliklə İraq sahilinə çatdırdıq, Əli Salehi motosikletlə onun açılışını etdi, qaza basıb birbaşa İraq sahilinə getdi.

Uşaqlar körpünün üstündə son bərkitmə işləri gördükləri yerdə birdən düşmən təyyarəsi səs maneəsini yarıb körpüyə uşaqların başının üstünə şığıyırdı.

Növbəti üsul hərəkətli dəmir list idi. Suyun üzərinə üzən bir list salırlar. Üstündə iyirmi Toyota pikapını saxlaya bilirmiş. Təkərsiz bir traktoru qaynaqla ona birləşdirirlər. Əsas kreativlik traktorun təkərinin dövrəsinə dolanıb iki sahilə mıxlanmış polad buraz idi. Traktor birinci ötürücüdə irəli gedir, arxa ötürücüdə geri qayıdırdı. Sürücülər qayıqla gedirdilər, bərənin üzərinə qaynaqlanmış traktor da maşınları aparırdı. Beləliklə, polad buraz qırılanda itki vermirdik. Vaxtsız əcəl kimi göydə dolaşan düşmən təyyarələrinin qorxusundan bu daşıma üsulundan yalnız gecələr qaranlıqda istifadə olunurdu.

Bundan sonra növbə gündüzlər düşmən raketlərinin altında yığdıqları bərəyə çatdı. Boruları koper üsulu ilə dirək kimi suda möhkəmlədir, PMP körpülərini bu dirəklərə söykəyirdilər. Gecələr

körpü üzərində gedib-gəlirdilər, gündüzlər də iki tərəfdən çəkirdilər və ortası bir-birindən ayrılırdı.

Favın fəthindən bir il sonra, nəhayət, mükəmməl bir iş bacardılar. Xurma ağaclarının arasına üç min qalın boru gətirdilər. Hər üç borunu bir böyük yük maşınına yükləmişdilər. Bu boruların hər iki tərəfini çadırla bağladılar. Borunu kanalın suyuna salıb qayıqla Ərvəndin ortasına aparırdılar. Suda üzən kran onu tuturdu. Çadırını açırdılar və dalğıclar onu çayın yerinə bərkidirdilər. Bundan ötrü Ərvəndin girişini seçmişdilər. Həm eni çox olduğuna görə suyun təzyiqi az idi, həm də düşmən artilleriyasının hədəfində deyildi. Suyun yerində boruları bir-birinə o qədər qaynaq etdilər ki, axırda suyun səviyyəsinə qalxdı, suyun üzərində körpü göründü. Düşmən təyyarəsi bomba atır, boru sıradan çıxırdı, biz də təyyarəni vururduq. O qədər təyyarə endirdik ki, İraq tərəfi geri çəkildi. Besət körpüsü 1986-cı ildə açıldı. O tərəfində tabloya belə yazdılar: "İraqa xoş gəlmisiniz!"[1]

[1] 1988-ci ilin aprelində İraq tərəfi Favı geri almaq üçün hücuma keçəndə Besət körpüsü İraq raketləri tərəfindən vurulub dağıdıldı. (Bir fikrə görə, bu körpü Amerikanın lazer raketləri tərəfindən dağıdılmışdı).

# Onuncu fəsil

## *Şüşə göz*

"Bu nur karvanında can və baş verənlərin xoş halına! Bu dəyərli varlıqları böyütmüş insanların xoş halına!"

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 92-93

Anamın telefondan gələn səsi titrəyirdi. Bilirdim ki, tez-tez gözlərinin yaşını silir. Üz vurmadım. Balaca qardaşım Əli ayaqlarından yapışıb dəstəyi almaq, mənimlə danışmaq istəyirdi. Boğazının altını öpməkdən ötrü ürəyim nar kimi çatladı. Uşaqlar top və mərmi yağışı altında idilər, məzuniyyətə getməyi vicdanım qəbul etmirdi; xüsusən də Seyid Mürtəzanın şəhid olduğunu eşidəndən sonra. Əndimeşkdən evə zəng vurmaq imkanı bizə bəs idi.

Anam narahat olduğumu səsimdən anladı. O qədər sorğu-sual etdi ki, axırda Seyid Mürtəzanın şəhid olduğunu söylədim.[1] Hər ikimiz çəkinməyi kənara qoyub ağladıq. Anam hər dəfə kiminsə şəhid olduğunu eşidəndə məndən də dözümsüz olurdu, mənim şəhadət xəbərimi eşidəcəyindən qorxurdu. Həmin axşam Hacı Rəhmət və Siddiqə xala ilə Suriyaya gedəcəkdilər. Evdə olmadıqlarını bilib anama

---

[1] Seyid Mürtəzanın ata-anası mənim ata-anamla yol yoldaşı idilər. Atam təyyarədə məsələni karvan başçısına söyləyir. Bir nəfər cəsarətlənib bu xəbəri ata-anasına çatdırır. Suriyada həzrət Zeynəbin məqbərəsi yanında ona yas keçirir, cənazəsini Qumda ata-anası olmadan dəfn edirlər.

dedim ki, geri qayıdacağam. Söz ağzımdan çıxan kimi yalan söylədiyimə peşman oldum. Ancaq daha heç nə edə bilməzdim. Anam səfərdə narahat olmasın deyə bunu demişdim.

Bir batalyon çirkli adam hamamdan çıxmışdı; hamımız parıldayırdıq. Ayaqlarımızı cütləyib gümrah halda əmr gözləyirdik. Bizi səhər düzülüşü ərazisinə topladılar. Hacı Əkbər Nuri elə danışırdı ki, nəfəs almağa heyfimiz gəlirdi. Sözlərindən başa düşdük ki, bir istifadəlik bir bölük istəyir: Şəhadət bölüyü.

– İş çətinləşib. İraqlıların arasına girmək istəyirik. Kim gəlməyə tərəddüd edirsə, bölükdən ayrılıb kənarda dayansın.

Heç kim yerindən tərpənmədi. Əkbər Nuri gözlərini bir-bir uşaqların üzündə gəzdirdi. Yalnız Abdullah Cavadi yerindən qalxdı. Təxmin etdim ki, dəcəllik etmək istəyir. Ağ-sarı üzü bir qədər açılmışdı. Başını aşağı saldı, sallaq çiyinlərlə ayaqlarını ardınca sürüdü. Bütün başlar ona doğru çevrildi. Bölükdən bir neçə metr aralandı, hamı onu görəndən sonra yavaşca dövrə vurub yenə yerində oturdu. Gülüş dalğası batalyonu silkələdi. Hacı Əkbər hirsləndi. Qışqırtısı ilə hamımız lal olduq. Adları oxumağa başladı:

– Əli Dünyadidə, Cəfər Əhmədi Miyanəci, Davud Ustadzadə, Rza Əşəri, Həmid Havayi, Abdullah Cavadi, Seyid Cavad Musəvi, Məhəmmədhüseyn Hüseyni Yekta...

Digər altmış iki nəfərin adı yadımda qalmayıb. Əşyalarımızı toplayıb yola düşdük. Əməliyyatın on dördüncü gecəsi idi. Yenə Fav. Artıq adımıza yazılmış həmin yarımçıq torpaq sipərin yanına yerləşdik. Gecə ikən duz zavoduna doğru getmək istəyirdik. Döyüş nöqtəsi oraydı. Ümm əl-qəsr limanına və Xor Abbdullaha çatmamış atəş ağırlaşmışdı. Bölüyü pikapla irəli apardılar. Raketlər yolda və çöllükdə salamat yer qoymamışdı. İki tərəfin mövqeləri bir-birinə o qədər yaxınlaşmışdı ki, şəxsi heyətin içinə nüfuz ehtimalı vardı.

Bir gecə uşaqlardan Mahmud Lələ adlı birisi tualetdən çıxıb qaranlıqda bir kölgə görür. Yazığın ağlına da gəlmirmiş ki, tualetə silahlı girmək lazımdır. Aftafanın lüləsini qaldırıb "Qif! Qif!"[1] deyə qışqırır. Kölgə düşmən döyüşçüsü çıxır, əlini başının üstünə qoyub Mahmudun önünə düşür.

Aftafa ilə əsir tutmaq əhvalatı bütün mövqeyə yayılmışdı. İraqlı briqada komandirlərindən biri idi, təslim olmaq üçün bizim

---

[1] Ərəbcə: "Dayan! Dayan!" deməkdir.

mövqeyimizə gəlibmiş. Onu Hacı Qulamrza Cəfərinin səngərinə aparırlar. Ərəb döyüşçülərimizdən Delpişə adlı birisi tərcüməçi kimi onunla gedir. Delpişə israrla diviziya komandirinin yanında ondan soruşur ki, nə məlumatın varsa, söylə. O isə deyir ki, döyüş yerinin ortasında, İraqın birbaş atəşi altında olan bu səngər nəinki diviziya, heç taqım komandirinin səngərinə də oxşamır; məni diviziya komandirinin, ya da ən azı batalyon komandirinin yanına aparın.

Gümanı məntiqli idi. Dünyanın heç bir yerində diviziya komandiri təmas xəttindəki səngərə yerləşmirdi. Uşaqlar deyirdilər ki, iraqlı komandir xeyli vaxtdan sonra Hacı Qulamrza Cəfərinin səngərindəki get-gəllərdən və ratsiyalardan onun həqiqətən diviziya komandiri olduğuna inandı.

Həmin gecə bizi döyüş yerinə ən yaxın nöqtədə endirdilər; duz zavodunun yaxınlığında. Onun yalnız adı zavod idi, içində qısa torpaq sipərlə eni-uzunu yüz metrlik hovuzlar olan açıq bir ərazi idi. Körfəzin suyunu bu kvadrat hovuzlara tökürdülər, buxarlandırandan sonra duz qalırdı.

Səma daim işıqlanıb-qaralırdı. Qalın partlayış səsi və mərmilərin fiti bir-birinə qarışırdı:

– Vıjjj! Vıjjj! Vıjjj!

60 mm çaplı minaatan dayanmadan yeri parçalayır, dolu kimi yağırdı. Kolon qaranlıqda magistrala doğru irəliləyirdi. Duz zavoduna qədər 1 km yol getməli idik. Yer ayaqlarımızın altında titrəyirdi. Bir neçə dəfə "ax" səsi eşitdim, bildim ki, kiməsə qəlpə dəydi. Zavodun cənub bucağına çatana qədər yetmişnəfərlik bölükdən əllisi qaldı. Çoxu döyüşdən öncə uçmuşdu.

Davud Ustadzadə məndən öndə gedirdi, aramızda dörd-beş metr məsafə vardı. Birdən bir mərmi ayağının arxasını boşaltdı. Gözlərimin önünü tüstü və qaraltı bürüdü, ciyərim yandı. Dayanmağa macal yox idi. Sürətimi artırıb mərminin çalasından, toz-torpaqdan və böyrü üstə yerdə qalmış Davudun yanından keçdim. Onu son dəfə çağırmaq istəyirdim:

– Dovut ağa! - O da mənə təbəssümlə baxıb desin: – Can!

Hovuzları su basmışdı. Hovuz yolunun hündürlüyü belimizə çatırdı. Ayaqlarımız topuqdan bir qədər yuxarıya qədər suya batırdı, çəkmələrim ağırlaşmışdı. Yolun yoxuşuna təkərlər buraxmışdılar ki, hovuzun suyu yoxuşu yumasın. Bir neçə dəfə güllə qulağımın dibindən keçib təkərə dəydi. Ərimiş plastikin acı qoxusu gəlirdi.

Döyüş yeri kvadrat şəklində idi, biz və iraqlılar qarşı-qarşıya iki bucağın arxasında hücuma hazır vəziyyətdə idik. Biz yetmişdən azdıq, onlarsa yüzlərlə. Buna görə bölüyümüzün adı Şəhadət idi. Heç kim qayıtmaq barədə düşünmürdü. Hər bir neçə dəqiqədən bir qarşıdan atəş açılırdı. Güllələr daş kimi hovuzların üzərində şütüyür, şappıldayırdı. Bu güllələrlə bir neçə nəfər sakitcə torpaq sipərin döşünə yıxıldı. Onlara baxanda qışqırmaq istəyirdim. Sinəm yarılmaq üzrəydi. Əli Dünyadidə öndən gedirdi, mən, Həmid Havayi, Cəfər Əhmədi Miyanəci də onun arxasınca. Kolonun əvvəli və sonu ilə əlaqə saxlamaq üçün əlimdə bir ratsiya vardı. Əsğər Bərati ilə Əkbər Nuri kolonun sonundaydılar, uşaqları idarə edirdilər.

Düşmən həmin gecə hücum etmək istəyirdi. Qərara alınmışdı ki, Şəhadət bölüyü düşmən qüvvələrini qəfil yaxalasın. Fikirləşirdim ki, görəsən onların bu axşam bu nöqtədən hücuma keçəcəklərini haradan öyrəniblər. Məsələnin necə olduğunu müharibədən illər sonra kəşfiyyatçı komandirlərdən birinin xatirə kitabından oxudum:

Düşmənin hərəkətlərindən məlumat toplamaq üçün yeganə yol qüllə idi. Onlar duz zavodunun yaxınlığında güclü qüllələrdən birini seçib Şərif Mütəvvəri adlı balaca dezfullu bir bəsicini oraya müşahidəçi qoyurlar. O, hər gün sübh çağı hava işıqlaşmazdan öncə durbin, ratsiya və yemək götürüb qüllənin başına qalxır, axşama qədər müşahidə aparır, düşmən mövqelərindəki ən kiçik yerdəyişməni xəbər verirmiş. Vəlfəcr-8 əməliyyatı başlayandan təxminən iki ay sonra İraq tərəfi planlarının haradan ələ keçdiyini bilib Dezfulun müşahidəçisini vurur.[1] Onun müşahidələrinin nəticələrindən biri bizim həmin gecəki döyüşümüz idi.

Önümüzü zorla görürdük. Qaranlıq qır kimi hər yerə yapışmışdı. Hovuzların kənarındakı ensiz yolla gedirdik. Qaranlıqda bir kölgə bizə doğru gəlirdi. Yavaşca Əli Dünyadidənin çiynindən vurub gözləməsini bildirdim. Elə bildim ki, öz uşaqlarımızdandır, ətrafa göz qoymaq üçün öndən gedib. Kölgə bizim biraddımlığımıza çatdı. Başımı irəli verib Əlinin çiyninin üstündən yavaşca soruşdum:

– Sən kimsən?

Qara kölgə pulemyotunun lüləsini Əlinin digər çiyninin üstündən irəli uzatdı. Lülənin hərarəti Əlinin üzünü yandırdı, başını geri çəkdi.

[1] Bu ixlaslı döyüşçünün müşahidə əhvalatı Sərdar Şəhid Əhməd Sövdəgərin xatirələrinə dair "Qurğuşun yollar" kitabında yazılmışdır.

Atəşin alovundan yerimdən atıldım. Kölgə düşmən döyüşçüsü idi, şəxsi heyəti də sıra ilə ardınca düzülmüşdü. Atəşlə Əlinin üz və qulağının bir hissəsi getdi, o, üzü üstə yerə yıxıldı. Düşmən kolonunun qumbaraatanı məndən iki addım aralıdaydı. Özümə gəlincə mərmisi üzümün yanından keçdi. Mərminin dibindəki pərlər qulağımın yanında vızıldadı, daş və ya qəlpə kimi isti bir şey gözümə dəydi, gözüm qızışdı. Bərk bir şey də gözümün altından dəyib taqqıldadı. Hədəqə sümüyümün və burnumun sınmaq səsini eşitdim. İsti qırmızı güllələr kolona doğru hücum etməyə başladı. Əlimi üzümə vurdum, barmaqlarımın arası yağlı və yapışqan maddə ilə doldu. Döyüş qızışdı. Həmid Havayı pulemyotla ayağa qalxıb qarşısında kim vardısa, vurmağa başladı. Cəfər əlini çiynimə qoyub üzümə baxdı, gözümün üstünə qoymağa bir dəsmal verib dedi ki, geri qayıt.

Hovuzda qiyamət başladı, mənsə kor kimi gəzə-gəzə Hacı Qulamrzanın səngərinə getdim. Başımın bədənimdən böyük olduğunu hiss edir, səndələyirdim. Digərlərinin baxışlarından bilirdim ki, gözüm iyrənc şəklə düşüb. Huşumu itirməsəm də, çox şey yadımda qalmayıb. Yalnız başımın ağırlığı və pikapın təkanları. Anama söylədiyim yalan həqiqətə çevrildi və mən geri qayıtdım.

Həkim hədəqəmi boşaltmalı olduqlarını söyləyəndə çox həyəcanlandım, az qala çarpayıdan atılıb qaçacaqdım. Birtəhər udqundum. Həkim başa saldı ki, gözümün sinirləri hərarətdən sıradan çıxıb. Allahın istəyinə razı olmaqdan başqa yolum yox idi. Həkim fənəri yenə gözümə saldı, başını yaxınlaşdırıb diqqətlə baxdı. Sanki nəsə axtarırdı. Nə ağrım vardı, nə də fənərin işığı məni incidirdi. Stula söykəndi. Sözü bir idi: boşaltmaq.

Sübh tezdən bütün göz çuxurumu boşaltdı. Məcid çarpayımın yanından tərpənmirdi, nə baş verdiyini öyrənən kimi özünü yetirmişdi. Çarpayıdan düşmək istəyəndə tez qaçıb qoltuğuma girirdi. Sanki üzümdən nəsə əskilmişdi. Sağ tərəfimdə yüngüllük hiss edirdim.

Gözümün üstündə yekə bir sarıqla Tehranın Ləbbafinejad xəstəxanasının həyətində gəzişirdim. Məcid yanımdan aralanmırdı, naməhrəmə baxmasın deyə başını o qədər aşağı salırdı ki, məni gülmək tuturdu. Onu ələ salıb deyirdim:

– Mən bir gözlə gərək səni də idarə edim ki, dam-divara dəyməyəsən.

Hər dəfə tualetə gedəndə güzgünün önündə dayanır, sarığın ucunu qaldırıb yeni görkəmimə baxırdım; gözümün yeri çökək olmuşdu.

Qəlpənin istiliyi alt göz qapağımı da əritmişdi, yerində çəhrayı ət görünürdü. Üst qapaq yöndəmsiz vəziyyətdə çökəyin üstündə qalmışdı; nə açıq idi, nə də bağlı. Qaşlarım da pis şəklə düşmüş, içəriyə doğru əyilmişdi. Baxıb yaxşıca iyrənəndən sonra sarığı gözümə çəkirdim.

Yanağım göyərib şişmişdi. Hədəqə sümüyüm sındığına görə sağ tərəfimə baxa bilmirdim. Üzümdən ağır bir daş sallandığını hiss edirdim. Əsas problem isə sınmış burnum idi. Mən ağızla nəfəs almağa alışmamışdım, səhərə qədər dəfələrlə oyanırdım. Ağız və boğazımın quruması da çox narahat edirdi. Burnumu əlimlə sağa-sola əyirdim, sümüyü taqqıldayırdı. İndi də burnumla nəfəs almaq istəyəndə dəliklərini əlimlə açıb havanı yuxarı çəkməliyəm. Bilmədim ki, üzümə qumbaraatan mərmisinin qəlpəsi dəydi, yoxsa bir daş parçası. Nə idisə, yandırıb parçaladı və məni yararsız hala saldı.

Hələ sarıq gözümdə olanda bir gün səhər çağı otağın qapısı bərk açıldı və anam ağlaya-ağyala içəri girdi. Ona nə qədər təskinlik vermək istəyirdimsə, qulaq asmırdı. Hava limanından birbaş xəstəxanaya mənim korluğumu görməyə gəlmişdi. Məcid qapının çərçivəsi altında dayanıb başını aşağı salmışdı. Görünür, halımın yaxşı olduğunu ona başa salmağa çox çalışmış, amma bacarmamışdı. Hacı Rəhmət və Siddiqə xala çarpayının bir tərəfində dayanmışdılar, anamla atam da o biri tərəfində. Bəxtimdən gözümdə sarıq vardı. Əgər anam xurd-xəşil olmuş gözümü görsəydi, xəstəxananın altını üstünə çevirərdi.

Ertəsi gün səhər çağından kök şirəsi ilə süd məcunu mərasimləri başlandı. Anamla xalam hər gün sübh tezdən əllərində bir dolça kök şirəsi, bir şüşə də süd xəstəxanaya gəlirdilər. Axşama qədər südlü kök şirəsinin hamısını içib bitirməli idim. Bilirdim ki, müqavimətin xeyri yoxdur və son damlasına qədər boğazıma tökəcəklər. Heç nə demədən stəkanları alıb başıma çəkirdim. Südlü kök şirəsindən partlamayıb tez-tez tualetə getməyə icazə verdiklərinə görə şükür edirdim.

Alt göz qapağım tamam yanmışdı. O, bərpa olmayınca protez göz qoya bilməzdim. Qapaq olmadığına görə göz yerində fırlanardı və çəpgöz olardım. Hədəqəmə bəbəksiz ağ bir şüşə yerləşdirib məni evə buraxdılar. Hər dəfə güzgünün önünə keçəndə üzümü görüb diksinirdim. Yazıq nənəm üzümə baxmağa cürət etmirdi. Bilirdim ki, əziyyət çəkir və ürəyi yanır. Evdən çıxanda gün eynəyi taxıb bəbəksiz şüşə gözümü gizlədirdim. Kiminsə mənə təəccüblə baxmasını sevmirdim. Özümə görə bir Şeyx Həsən olmuşdum - Xakfərəc

məhəlləsinin kor rövzəxanı. Mən uşaq olanda, hər ayın yeddisində bizə qadınlar üçün rövzə məclisinə gəlirdi. Arzulayırdım ki, onun qara eynəyini taxım, əsasını yerə vura-vura yol gedim. Gələn kimi qaçıb əlindən tutur, "ya Allah" deyə-deyə xanımların arasından yol açır və məclisin başındakı taxta stulda oturdurdum. Əlini başıma çəkir, saçımın tellərinə yavaşca toxunurdu.

İndi həm eynəyim vardı, həm əsam. Üstəlik, bir gözüm görsə də, Şeyx Həsəndən də pis yeriyirdim. Sağ tərəfim, ümumiyyətlə yox idi. Elə bilirdim ki, qaranlıq görəcəyəm, amma heç nə görmürdüm. Əvvəllər sağ tərəfimi hiss etməməyə alışmamışdım; çox narahat olurdum, nəsə axtaran adam kimi başım daim boynumda fırlanırdı. Görməmək pis dərddi, səhv görmək isə ondan da betərdi. Evimizin pilləkənindən o qədər yıxılmışam ki, sayı-hesabı itib. Baxış dəqiqliyim pozulmuşdu, hər şeyi olduğundan daha yaxında görürdüm. Əşyaların gördüyümdən uzaqda olduğunu öyrənənə qədər bir neçə ay çəkdi. Hər dəfə stəkana su tökmək istəyəndə xalçanı isladırdım. Gərək dolçanın ağzını stəkanın qırağına yapışdıraydım ki, yerə tökülməsin. Xörək yeməyim də elə idi; qaşığı dodaqlarımda hiss edəndən sonra ağzımı bağlayırdım ki, xörəyi yaxama tökməyim.

Hələ bir gözlə yaşamağı öyrənməmiş döyüş yoldaşlarım məni görməyə gəldilər. Dörd yekə adam toplaşmışdıq: Məhəmməd Zülfi, Əli Məhdəvi, mən və Həsən Rəncbər. Amma cəmi bir cüt salamat gözümüz vardı.

Əli hamıdan qabaq içəri girib:

– Nə olub? – dedi.

– Kor olmuşam, – sızlayaraq şıltaqlıq etdim.

– Gözün çıxaydı, cəbhəyə getməyəydin! – Əli qaşlarını qaldırıb cavab verdi.

Aşura-2 əməliyyatı yadıma düşdü, güldüm. Özüm onu belə ələ salaraq geriyə aparmışdım, indi əvəzini çıxırdı.

– Əgər həmin gecə səni xilas etməsəydim, indi dilin uzun olmazdı, – deyə mən də zarafatına zarafatla cavab verdim.

Əlinin hər iki gözü sıradan çıxmışdı. Məhəmməd Zülfinin sol gözü Bədrdə qalmışdı. Mən də sağ gözdən məhrum idi. Yalnız Həsən Rəncbərin bir cüt salamat gözü vardı. Onu da o qədər dedik ki, növbəti əməliyyatda hər ikisinin çıxacağından qorxdu.

Əli qızışıb Aşura-2 əməliyyatında yaralanma hadisəsini danışırdı. Əməliyyat gecəsi qan içində yerə yıxılır. Gözü heç bir yeri

görmədiyinə görə geriyə qayıda bilmir. Kim yanından keçirmişsə, xahiş edirmiş ki, onu da aparsın. Uşaqlar da çəkinmədən deyirmişlər ki, sursat gətirməyə gedirik, yaralı apara bilmərik. O da qışqırırmış:

– A kişi, sursat mühümdür, yoxsa mən?

Əli hadisəni bəzəyib-düzəyərək danışır, biz də gülməkdən uğunurduq.

Həmin gün yenə Fava qayıtdığımı hiss etdim. Uşaqlar mən yaralanandan sonra baş vermiş hadisələri danışdılar. Qulaq asır, yanıb-yaxılırdım. Yaralanmam məni uşaqlardan ayırmışdı; geri qalmağın acı dadını hiss edirdim.

Sağollaşanda darıxdım. Atamla birlikdə qapıya qədər onları ötürdüm, qapının azğında dayanıb uzaqlaşmalarına baxdım. Bilirdim ki, yenə gedəcəklər və bəlkə, onları bir də görməyəcəyəm. Başımı qapıya dayamışdım. Göz yaşlarımın arxasından dumanlı görünürdülər. Birdən üç nəfər kanalın kənarında oturdu. Zülfi köynəyinin altından bir şey çıxarıb bordürün kənarına bərk vururdu. Gözlərim qamaşırdı. Atamı çağırıb uşaqları göstərdim. Düz görürdüm. Küçənin başına getdik. O qədər məşğul idilər ki, bizi görmədilər. Atamın Suriyadan gətirdiyi kokos palmasını taxçanın üstündən çırpışdırmışdılar. İki küçə uzaqlaşmağa da dözə bilməmişdilər, küçənin başında çömbəlib sındırmaq istəyirdilər.

Onları yaman yerdə yaxalamışdım. Yavaşca yaxınlaşıb dedim:

– Mənə də verərsiz?

Səsimi eşidib diksindilər. Bilmirdilər kokos palmasını harada aşırsınlar ki, atamın yanında biabır olmasınlar. Utanmasınlar deyə gülüb dedim:

– Ata, ciblərini axtar, gör başqa bir şey götürməyiblər?

Yapışdırılmış çini qab kimi olmuşdum; bir yerimi tuturdum, başqa bir yerim xarab olurdu. Cəbhəyə getməyi çox istəyirdim, amma gözümün vəziyyəti imkan vermirdi.

1986-cı ilin novruzu mənim üçün ən acı bayram oldu. Çox dilxor idim. Favın fəthindən sonra imam buyurmuşdu ki, kim bacarırsa, cəbhəyə getsin; mənsə evdə oturmuşdum. Yaralanma əhvalatımı gündə yüz dəfə yadıma salırdım. Əgər düşmən qumbaraatanı cəmi 10 sm sağa doğru atəş açsaydı, indi göylərdə gəzirdim. Həsrət və qəm-kədər bayram görüşmələrinə də həvəs qoymurdu. Fürsət tapan kimi evdən çıxıb Şəhidlər gülzarı məzarlığına gedir, Mehdi Zeynəddinin qəbri

yanında otururdum. Gözləri şəkildə də ayna kimi idi, içində özümü görürdüm.

Dostlarımdan nə qədər uzaqdaydım! Onlar üçün necə də darıxırdım! Şəhidlər gülzarında həm hamı vardı, həm heç kim yoxdu. Aramızda nazik bir pərdə vardı və mən onları görmürdüm. Qəhər məni boğurdu. Gözlərimi bağlayıb yüngül və azad şəkildə haraya istəyirdimsə, gedirdim: Hurun sahilinə, Dez bəndinə, Məhabad kəsim yerinə və Fava. Aman Fav əlindən və məni qərq etdiyi həsrətdən! Özümə gələndə şam azanı verilirdi; bir dəfə hərəmə gedirdim, bir dəfə Cəmkərana, bir dəfə Çaharmərdan məscidinə. Bir şey itirən və harada axtarmalı olduğunu bilməyən adam kimi idim.

Döyüşlər mürəkkəbləşmişdi. İraq tərəfi bir tərəfdən Favın fəthini mediada əhəmiyyətsiz göstərməyə çalışırdı, digər tərəfdən də müharibəni bizim torpaqlarımıza doğru çəkmişdi. Deyirdilər ki, biz hərəkətli müdafiə olunuruq; düşməni öz torpaqlarımıza çəkir, sonra qayçılayırıq. Lakin bizi Favda qayçılamaq yerinə Mehrana gedib çıxdılar. Arxadan da qərb cəbhəsinə hücum edir, qələbələrini böyük göstərməyə çalışırdılar. Boşaldılmış, xaraba qalmış kiçik bir sərhəd şəhərini işğal etməyi elə göstərirdilər ki, sanki Tehranı ələ keçirmişlər.

Evdə anamla nənəmin gözünə çox da görünmürdüm. Gözümü görəndə çox narahat olurdular. Alt qapaq hələ sağalmamışdı. Özüm də hər dəfə ayna önündə dayananda yeni görkəmimdən diksinirdim. Cəbhə mənim üçün əlçatmaz olmuşdu. Qapağın yanması məsələnin yarısı idi. Sağalandan sonra dəri nəqli əməliyyatına növbə gəlirdi. Göz qapağı bərpa olunmayınca protez göz qoya bilməzdilər.

Ümidsiz halda stulda oturdum. Doktor diqqətlə baxdı, gözümün altına əlini çəkdi. Heç nə hiss etmirdim. Qərara gəlmişdim ki, bu dəfə də dərimin əməliyyata hazır olmadığını söyləsə, daha səbir etməyim, göz qapağımın üstünü bağlayıb cəbhəyə gedim. Lakin doktor stula söykənib dedi:

– Nə vaxt əməliyyat edim?

Sevindiyimdən az qala onu qucaqlayacaqdım.

Üzə transplantasiya üçün ən yaxşı dəri bazumun arxasının dərisi idi: yumşaq, nazik və az tüklü. O dəridən 5 sm-i gözümün altına yamaq etdilər. Yaralanma və əməliyyat ağrılarının hamısı bir tərəfə, göz qapağının qaşınması bir tərəfə. Sinirlər bir-biri ilə əlaqə qurduğuna görə gözümün altı qaşınırdı. Barmağımı çətinliklə sarığın altına salıb doyunca qaşıyırdım. Barmağımı o qədər gözümə saldım ki, salamat

olsaydı, kor olardı. Bir həftədən sonra doktor sarığı açanda qaşqabağı yerlə getdi. Bitişmiş dəri qaralmışdı. Çox narahat oldum. Yenə əməliyyat vaxtı təyin etdi. Bu dəfə özümə söz verdim ki, üzümə əl vurmayacağam. Gözümün altına sanki iynə batırırdılar, mənsə dözürdüm. Barmağımı sarığın üstündən hərəkət etdirirdim, özümü aldadırdım ki, guya qaşıdım.

Bu dəfə həkim sarığı açanda əlimə bir güzgü verdi. Əvvəlki kimi olmamışdı, amma hər halda, ürək parçalayan üzdən yaxşı idi. Köçürülmüş dərinin rəngi xeyli müddət digər yerlərdən açıq oldu, üstündən nazik uzun bir tük də çıxırdı. Əvvəllər uzanan kimi qayçı ilə kəsirdim, amma get-gedə ona da alışdım. Bu qədər həkimə getməkdən və nə olacağını bilməməkdən yorulmuşdum. Ürəyim cəbhədəydi, özüm xəstəxana yollarında.

Gözümün bir tərəfindən artıq ət çıxmışdı; arıq və qırışmış bir lobya kimi. Özümə gəlincə görürdüm ki, bir saatdır barmaqlarımın arasında əzilib. Oyuncağıma çevrilmişdi. Yazığın ayağı olsaydı, mənim əlimdən qaçardı. Həkim onu yandırdı, amma çirkin lobya yanmaqla əl çəkmədi. Onu kökündən məhv etmək üçün yenə əməliyyata girməli oldum.

Lobyanı götürəndən sonra, nəhayət, axırıncı mərhələyə çatdım. İndi özümə göz ala bilərdim. Gözlər Tehranın Əkinçi prospektində satılırdı. Məcid də mənimlə getdi. Göz vitrinini görəndə bildim ki, mənim kimi nə qədər təkgöz adam varmış. Mat-məəttəl gözlərə baxırdım: yaşıl, mavi, qara və qəhvəyi. Seçmək yerinə zarafatlaşırdıq ki, hansı göz hansı heyvan üçündür və mən hansı heyvanın gözündən almalıyam. Deyib-güləndən sonra bir tay göz seçdim. Həkim mənə çoxlu istifadə qaydaları öyrətdi. Hər gecə gözümü çıxarıb stəkandakı suya qoyacaqdım; protez diş kimi. Gözü çıxarmazdan və salmazdan öncə əllərimi yumalı idim. Mənsə bu işləri heç vaxt görmədim. Gecədən səhərə qədər gözümlə yatıram və kim baxırsa, gözüaçıq yatdığımı düşünür. Bəzən göz yaşı vəziləri sarı bir maddə ifraz edir. Digərlərinin baxışından bilirəm ki, gözüm çirklənib. Çıxarıb əlimə keçənlə təmizləyirəm.

Diqqətlə gördüyüm yeganə iş yerinə salmaq idi. Güzgünün önündə çalışır, gözümü öz yerinə salırdım. Yol yeriyəndə barmağım həmişə gözümdə olurdu ki, çevrilmədiyindən əmin olum. Əvvəllər onu çıxaranda iyrənib tez yuyurdum. Yapışqan maddə barmaqlarımın arasından sürüşürdü və mənim acığım gəlirdi.

Yeni simam mənə adiləşmirdi. Sağ gözüm həmişə təəccüblü görünür, həddən-artıq açıq olurdu. Başımı hansı tərəfə çevirirdimsə, o, yalnız qarşıya dikilirdi. Göz qırpmaq üçün barmağımdan kömək alırdım. Yadımdan çıxmaz, protez gözümü ilk dəfə hədəqəmə qoyanda elə bildim ki, görə biləcəyəm. Başımı sola-sağa çevirdim, amma heç nə görmədim.

***

Hacı ağa Miyanəci harada olsaydı, şam azanından öncə özünü məscidə yetirirdi. O deyirdi ki, imam gərək camaatı gözləsin. Namazdan sonra, həmişəki kimi, mehraba söykənib camaatla üz-üzə oturardı. Onun ondəqiqəlik moizələri mənim üçün dünyaya dəyərdi. Danışanda hamı kövrəlirdi. Ürəklərimizi götürüb göylərə aparırdı. Sehrli sözləri ilə şəffaf və həssas bir şüşəyə dönürdük.

Bir gecə rövzəsi həmişəkindən fərqləndi. O, həzrət Əli Əkbər rövzəsi oxudu. Qəhər boğazımı sıxırdı. "İmam Hüseynin (ə) beli parça-parça olmuş oğlunun bədəni yanında əyildi". Hacı ağanın gözləri doldu və salam verdi. Qısa və təkrarolunmaz rövzələrinin dadı heç vaxt yadımdan çıxmaz.

Həmin gecə Abdullahi məscidinin divarlarının əl-ayaq çıxarıb üstümə gəldiklərini hiss edirdim. Boğulmaq üzrə idim. Bütün məscid balaca bir otaqdan ibarətdi, altı iyirminəfərlik cərgədən artıq adam tutmurdu.

Məsciddən çıxdım. Musa ibn Cəfər pasajının yanındakı dar ensiz küçə də qüssəylə doluydu. Ürəyim parça-parça olurdu. Cəfər həmişə hacı ağanın arxasınca məsciddən çıxırdı. Onu görmək üçün boylandım. Amma yadımdan çıxmışdı ki, onu bir də görməyəcəyəm. Hacı ağanın çiyninin arxasında ağa Mehdinin üzünü görəndə həqiqət üzümə bərk çırpıldı: Cəfər daha yoxdu.

Böyük qardaşı Hacı Mehdiyə özüm xəbər vermişdim. Təkbaşına nə edəcəyimi bilmirdim. Namazımızı Hacı ağa Miyanəcinin arxasında qıldıq. Nə baş verdiyini deməyə fürsət gözləyirdik. Evlərinə çatana qədər beynimdə min cümlə qurub sildim. Sözlərimin heç biri yerinə düşmürdü.

Hacı xanım şam yeməyinə toyuq içalatı bişirmişdi. Elə bilirdim ki, kərpic uduram. Dolça və stəkanı yanıma qoymuşdum, hər tikədən sonra suyu başıma çəkirdim ki, boğazımın yolu açılsın. Şamdan sonra saatın əqrəbləri bir-birinin ardınca qaçmağa başladı. Mehdi ilə nə edəcəyimizi fikirləşirdik. Hacı ağa çay stəkanını götürdü. Qarşısında

qəmli-qəmli oturmuşduq, göz-qaşla bir-birimizə işarə verirdik ki, söhbətə başlayaq. Hacı bir dizinin üstündə oturmuş, dirsəyini o biri dizinə qoymuşdu. Çayı nəlbəkiyə süzdü, mütəkkəyə söykənib mehriban baxışını üzümə dikdi.

– Yaxşı, ağa Məhəmmədhüseyn, cənazəni sabah nə vaxt gətirirlər?

Yerimdə quruyub qaldım. Mehdi mənə baxdı. Özümü itirdim. Xəbəri ona tədricən söyləməkdən ötrü nə qədər plan cızmışdıq, o isə bilirmiş.

– Bizim Cəfərimiz də göylərə getdi. Xoş halına! Xoş halına! - dərin köks ötürüb əlavə etdi.

Xəbəri bizdən qabaq namazqılanların birindən eşitmişdi. Namaz üçün məscidə girəndə yaxınlaşıb ona başsağlığı vermişdi. Hacı da üz vurmamış, təşəkkür edib həmişəki kimi səccadəsi üzərində oturmuş, camaat gələnə qədər zikr deməyə başlamışdı. Həmin ağır qəmlə namazını qılıb moizəsini etmiş, evdə bizimlə xörək yemişdi. Bizim xəbəri verə bilmədiyimizi görüb özü söyləmiş, işimizi asanlaşdırmışdı. Onu qucaqlayıb zar-zar ağlamaq istəyirdim; öz halıma, Cəfər üçün, qaşını da düyünləməyən, daim dodaqaltı Allaha şükür edən bu qocanın səbir və təqvası üçün. Ancaq üzüm gəlmədi. Qəhərimi udub sabah hansı saatda harada olacağını söylədim. Həmin gecə evə getmədim. Sanki yolumu azmışdım. Xiyabanlarda dolaşmağa başladım. Yol gedir, fikirləşirdim.

Yer qızıb titrəyir, dar qaranlıq pusqu səngərini udmaq istəyirdi. Birinci mərmi partlayışı ilə Cəfərin üz-başına tavandan torpaq və daş töküldü. Yenə mərmi fiti gəldi və qulaqlarının pərdəsi titrədi. O, üzü üstə yerə yıxıldı, qıvrım saçı toz-torpaqla doldu. Qalın və güclü partlayış səsi... Torpaq və yanmış barıt qoxusu... Pusqu səngəri alt-üst olmuş, tavanın taxtaları qırılmışdı. Kaş Cəfər səngərdə olmayaydı! Kaş taxtalar arxadan başını yarmayaydı!

Bilmirəm neçənci dəfəydi Cəfərin şəhadət anını eşitdiklərim əsasında təsəvvür edirdim. Qəm-qüssədən ürəyim çatlamaq üzrəydi. Sanki o səngəri Cəfərə düzəltmişdilər, Allah şəhadəti orada xüsusi şəkildə, yalnız ona təklif etmişdi...

Xiyabanlarda gəzə-gəzə hərəmə çatdım. Həzrət Məsumə (s) dərdimi bilirdi. Ürəyimi götürüb Cəfərin yanına apardı. Ay üzü bir an da gözlərim önündən getmirdi. Onu beş il qabaq ilk dəfə gördüyüm kimi idi, intizarla mənə baxırdı.

Hərəmdə hər şey dəyişdi. Bir nəfər ürəyimin qəm-qüssəsini götürdü. Yüngülləşdiyimi hiss etdim. Xanım təkbaşına mənim üçün hər kəs idi. Sanki zərihinin yanında Cəfərə yaxınlaşmışdım. Ətri başıma doldu. Həmişə birlikdə oturduğumuz yerdə oturdum, Cəfər də yanıma yerləşsin deyə dizlərimi qucaqlayıb ziyarətnamə oxumağa başladım. Yəqin ki, Cəfər də deyirdi:

– Salam sənə, ey Allah vəlisinin qızı! Salam sənə, ey Allah vəlisinin bacısı! Salam sənə, ey Allah vəlisinin bibisi! Salam sənə, ey Musa ibn Cəfərin qızı; həmçinin Allahın rəhməti və bərəkətləri!

Sözlər boğazımda qırıldı, çiyinlərim titrədi, göz yaşlarım yanaqlarıma süzüldü. Cəfərin ziyarətnamə oxuması həmişə məndən çox çəkirdi. Qapının yanında gözləyirdim ki, ayrılıb gələ bilsin. Gələn kimi gözlərinə baxırdım. Həmişə qızarmış olurdu. İndi isə dünyanın sonuna qədər gözləsəydim də, gəlməyəcəkdi. Məndən öncə getmişdi; o qədər sürətli və qəfil getmişdi ki, mən qalmışdım. İndi Cəfər məni gözləyirdi - yuxarılarda, göylərdə.

Hərəmdə min parça olmuşdum, hər parçanın da bir neçə xırda parçası vardı. Bu pərən-pərən parçalardan xoşum gəlirdi. Başımı tərpətdim, tavandakı güzgü parçalarındakı əksim də tərpəndi. Zərihin yanındakı eyvanın aynaları mənimlə dolmuşdu. Hərəmin bu küncünü sevirdim. Zərihi görürdüm, xanımı hiss edirdim, amma məni heç kim görmürdü. Parçalarım xırda aynaların içində o qədər qarışıq yayılırdı ki, əsla görünmürdüm. Şəhidlərin parça-parça olduqları zaman nə hiss etdiklərini düşündüm. Yəqin ki, mənim kimi razı və rahat olurmuşlar. Kaş Cəfər də burada olaydı! Onun namaz qılmasına baxaydım, aynalarda bir-birinə qarışmış əl, ayaq, üz və başlarımıza tamaşa edəydim. Başımı arxamdakı divara söykədim. Parçalar daha da qarışdı:

– Ah, Cəfər!

Onun üçün darıxırdım. Kaş yanımda olub məni sakitləşdirəydi! Gözlərimi yumdum, parçalarım qeyb oldu. Cəfərin ətri başıma doldu; xaki rəngli gödəkcəsinin ətri. Əlini çiynimdə hiss etdim. Bilirdim ki, gələcək, pis olduğumu görüb tez özünü yetirəcək. Əlimdən tutdu, canıma enerji doldu. Onunla birgə uçduğumu hiss edirdim. Həmişəki kimi az danışır, yalnız baxırdı. Hər şey tez baş verirdi. Zaman arxamızda qaldı. İşıqlı bir şəhər və get-gəllər. Bir neçə addımla küçələri keçdik, yaşıl dəmir qapıya çatdıq. Mənə çox tanış gəlirdi. Ayağımı qapıdan içəri qoyan kimi dünya dəyişdi, yerin-göyün rəngi fərqləndi. Yasəmən ətri bütün ciyərimə doldu. Yan-yana düzülmüş

eyni ölçülü daşların arasıyla getdim. Boğazımı qəhər tutdu; nə yuxarı gedirdi, nə aşağı. Dərin nəfəs aldım. Cənnət ətri gəlirdi. Mehdi Zeynəddin qarşımda idi, cənnətin düz ortasında. Çıxışlarında olduğu kimi, uşaqlar onu dövrəyə almışdılar. Onun səsi və təbəssümü üçün darıxmışdım. Həmişə dodağı azca əyilirdi, bilmirdim ki, təbəssümünün arxasında kədər yatır, yoxsa sevinc. Ona yaxınlaşıb başımı aşağı saldım. Uşaqların qəmli baxışlarından utanırdım. Sinfin tənbəl şagirdi idim. Hər bir addım atanda daha yüngül olduğumu hiss edirdim; yumşaq fəzada üzürdüm. Hər şey təzə və incə bir işıq dairəsinin içində idi; məndən başqa hər şey.

Mehdinin biraddımlığında dayandım. Başımı çiyninə qoyub hönkür-hönkür ağlamaq istəyirdim. Utanmağı kənara qoyub bərkdən ağlamağa başladım. Mehdi başını aşağı saldı, digərləri də onun kimi. Daş cərgələrin arası ilə yola düşdüm. Üzərlərində uşaqların adlarını görəndə daha bərkdən ağlayırdım. Onlardan birinin üzərindəki yazı silinmişdi. Onu oxumaq üçün diqqətlə baxdım: "Cəfər Əhmədi Miyanəci". Cəfərin adını görəndə ürəyimdən nəsə qopub yerə düşdü. Özümü itirib ona doğru çevrildim. Getmişdi. Onda yadıma düşdü ki, bura haradır; Qumun Şəhidlər gülzarı məzarlığında idim. Ətrafıma baxdım. Bütün uşaqlar getmişdilər. Mən yan-yana düzülmüş eyni ölçülü daşların qarşısındaydım. Yuxudan oyandım. Hərəm boş idi. Xanımdan başqa hamı getmişdi. Yuxu ağzımı bal kimi şirinləşdirdi; isti və qısa. Gözlərim aynalardakı parçalarıma sataşdı. Göz yaşlarımla islanmış üzümü sildim.

– Ah, Cəfər!

Yeri görünürdü; burada, mənim yanımda, aynaların içində. Bütün vücudum darıxırdı. Cəfəri ilk dəfə gördüyüm yerə getdim: Xakfərəc prospektinin küçə ilə kəsişən yerinə.

Hər şey yerindəydi və heç kim yox idi. Cəfərsiz və uşaqlarsız bu ensiz küçələrdə və qədim evlərdə nəsə çatmırdı. Onu beş il öncə küçəmizin başında çiynində nərdivan görmüşdüm. Elə bildim ki, bu illər mənim üçün bir gecə kimi keçib; qısa, sürətli və yuxuda. Xatirələr film kimi gözlərim önündən keçməyə başladı. Əbülqasimxanın tiryəkinin qoxusu hələ də dama qədər gedirdi. Xavər xanımın təzə isti südünün ətri küçəni bürümüşdü. Prospektin kənarındakı kanalda çimən uşaqların gülüş səsləri hələ gəlirdi. Arabalarının isti asfalt üzərindəki təkərlərinin səsi gəlirdi. Sahibəzzaman məscidinin azan səsi, Mehri bacımla həyətdə velosiped sürmə səsimiz, inqilabçıların şüar və

molotov kokteylinin partlayış səsi. Hər şey necə də tez keçmişdi! Şəhidlərin dəfn mərasimində Quran səsi, analarının ağlamaq səsi, müharibə səsi... Ürəyim bütün dünya qədər sıxılırdı.

Xakfərəc məhəlləsində gəzişirdim. Hər tərəf mənimçün xatirə doluydu. Sübh azanına qədər Xakfərəcin küçələrində Cəfəri yadıma salıb dolaşdım, kövrəldim, ah çəkdim. 15 Şəban çılçıraqlarının rəngi mənim üçün rəngsiz olmuşdu. Küçəmizin başında bir çardaq qurub şərbət paylayırdılar. Ağzım acı olmuşdu, heç nə yeyə bilmirdim. Beş il öncə düz burada Cəfər məndən nərdivanı saxlamağımı istəmişdi. İndi mən yenə də aşağıda dayanmışam, Cəfərsə yuxarıda, ən yuxarıda, o qədər yuxarıda ki, nə onu görürəm, nə də ona əlim çatır.

Sübh namazını Sahibəzzaman məscidində Cəfərsiz və kövrək halda qıldım. Şəhərin bütün əhalisi Cəfərə bənzəyirdi. Başımı haraya çevirirdimsə, onu görürdüm. Qəhərdən döş qəfəsim çatlamaq üzrəydi.

Ayağımı morqa qoyanda başıma xüsusi qoxu doldu. İrəlilədikcə daha kəskinləşirdi. Soyuqda Marağa hüseyniyyəsində keçirdiyimiz gecə yadıma düşdü. Onda Cəfərin halı dəyişmişdi. Sonralar mənə danışdı ki, həmin gecə yuxu ilə ayıqlıq arasında İmam Mehdinin (ə) hüseyniyyəyə girdiyini görübmüş. İmamın nuru və əzəməti Cəfərin taqətini alıbmış. İmam Hüseyniyyəyə girib soyuqdan büzüşmüş uşaqların üstünü ədyalla örtürmüş. Yuxunu mənə danışanda səsi həsrət və qəhərlə doluydu. Duyduğu ətirdən danışırdı, deyirdi ki, sanki göylərə xas bir ətir idi və o günə qədər onu duymamışdım. İndi isə düz İmam Mehdinin (ə) doğum günündə şəhid olmuşdu və morqa gözəl ətir dolmuşdu; yasəmənə bənzər bir ətir.

Cəfər yerdəydi, bacı və qardaşları da dövrəsində. Ətrafının boşalmasını gözlədim. Bilmirəm ailəsindən utanırdım, yoxsa özündən. Taxtalar başını arxadan yarmışdı. Üzü sağlam idi, ay parçası kimi. Alnından çənəsinin yaxınlığına qədər açıq rəngli qan qurumuşdu. Cəsarətlənib onu birinci və axırıncı dəfə öpdüm; çənəsinin çıxıntısını, qan dəyməyən yerini. Yenə utanıb tez geri çəkildim. Onunla qardaşlıq əhdi bağlamadığıma görə canıma həsrət doldu. Cəfər mənim üçün ibtidai məktəb müəllimim kimi idi; həm onu sevirdim, həm də ondan utanırdım. Buna görə heç vaxt əlindən tutub qardaşlıq əqdi oxumağa üzüm gəlmədi; heç vaxt ardınca yola düşüb birlikdə cəbhəyə getməyə çalışmadım, onunla bir taqımda olmağa, cəbhədə birlikdə vuruşmağa israr etmədim. Hər dəfə təsadüfi şəkildə cəbhədə görəndə davranışlarına fikir verməyə çalışırdım; çalışırdım elə bir söz deməyim

ki, fikrə getsin; elə bir iş görməyim ki, yanlışımı söyləsin. Rəftarımla onu sevdiyimi və istədiyi hər bir işi görəcəyimi car çəkirdim. Sanki deyirdim ki, sənin sevdiyin və dediyin işləri Allah da sevir. O isə mənə yalnız baxırdı, sanki qəlbimin içini gördüyü xüsusi baxışlarıyla. Əl verib halımı soruşur, işinin ardınca gedirdi. O gedirdi, mənim həsrət dolu baxışlarımı da ardınca çəkirdi. Elə indiki kimi. Gözlərimi üzünə dikmişdim, ona tamaşa etməkdən doymurdum.

Hərəmdən Çaharmərdan xiyabanına və sonra şəhid məzarlığına qədər tabutunun altındaydım, sol tərəfdə geridə. Addım-addım onunla getmək istəyirdim; cənnətin qapısına qədər. Bu xiyabanı bu başdan o başa birlikdə nə qədər getmişdik! İndi də birlikdəydik.

Məzarının yanında dizlərim boşaldı, yerə oturdum. Mən bu məzarı gecə hərəmdə yuxu ilə ayıqlıq arasında görmüşdüm. Gülzarda gəzişəndə Cəfərin adını məzarın üstündə oxuyub yuxudan ayılmışdım. Bu, Cəfərin bir il yarım öncə içinə uzandığı məzar idi. Beynim çatlayırdı. Cəfər nələr bilirmiş, mənsə anlamamışam. Birlikdə Seyid Mehdi Musəvinin məzarını ziyarət etdiyimiz günü xatırladım. Yandakı cərgədə bir neçə boş qəbir vardı. Cəfər birinin içinə girib uzandı, dedi ki, ləhəd daşlarını düzüm. Əvvəl razılaşmadım. Düşünürdüm ki, qəbir qazmaq və qəbirdə uzanmaq cəbhəyə aiddir, buraya yox. O isə israr etdi. Çarəsiz qalıb daşları üstünə düzdüm. Beş dəqiqə sükut içində qəbirdə uzandı, mən də baxdım. İndi də həmin qəbirdə uzanmışdı və mən yenə baxırdım. Dəfndən başqa bir şey anlamadım. Özümü və Cəfərin yanında qəflət içində yaşadığım anları düşündüm; əlimdən çıxmış neməti. Bu nemət otuz ildən çox keçməsinə baxmayaraq, hələ də özünü zərrə-zərrə göstərir. Şəhid olduğu zamandan, 1986-cı ilin may ayından etibarən hər gün boş yerini bir şəkildə hiss edirəm. Bəzən düşünürəm ki, kaş Cəfəri getməyə qoymayaydım, onu bu günlər üçün saxlayaydım. Çünki bu günlərdə ona həmişəkindən daha çox ehtiyacım var.

Gecə evə qayıtdım. Ayaqlarımda can qalmamışdı. Otağımda oturdum. Mən, Cəfər və Seyid Mehdi üçlüyünün bədənində olan vahid ruhdan yalnız mən qalmışdım. Hiss edirdim ki, dünyada nəsə çatışmır. Cəfərdən yalnız morqda ay kimi parlayan üzü və cənnət dadan öpüşü xatırlayırdım.

İki gün öncə yadıma düşdü. Uşaqların biri ilə Çaharmərdan xiyabanında gəzişirdim. Beynimdən keçdi ki, mənim söz və davranışlarıma Cəfər qədər irad bildirən yoxdur; əgər indi burada

olsaydı, xiyabanın bu başından o başına qədər mənə min cür nəsihət verərdi, dodaqlarım sallanardı. Fikir ildırım kimi beynimi yandırdı. Hər şeyi yan-yana düzdüm. Bu naşükürlük beynimdən keçən zaman Cəfər şəhid olmuş və nemət bitmişdi. Axşam şəhadət xəbəri gəldi, iki gündən sonra da bütün Çaharmərdan boyunca Cəfərin tabutu altında getdim, o isə heç bir nəsihət vermədi. Fikirlərim ah olub sinəmdən çıxdı.

Qəmli-qəmli dizlərimi qucaqlayıb özümə qapıldım. Təklik böyüdü, böyüdü, böyüdü və bütün otağı bürüdü. Qəhər çiyinlərimi titrətdi və gözlərimdən yaş axmağa başladı.

Təqvim 7 may 1986-cı ili göstərirdi. Hacı Rzanın Peykanının faralarının zəif işığının gücü bu qədər qaranlığa çatmırdı. İkiəlli sükanın üzərinə çökmüşdüm, gözlərimi qıyıb irəliyə baxırdım. Dar və sonsuz yol qaranlığın ortasından yol açırdı. Gözüm yaralanandan sonra ilk dəfə idi sükan arxasında otururdum. Qorxurdum ki, qarşıdan maşın gələr, görmərəm. Başım boynum üzərində tez-tez fırlanırdı.

Hacı Rza barmaqlarının arasında təsbeh yuxuya getmişdi. Bu təsbeh həmişə əlində olurdu. Təsbehi olmayan vaxtlarda da mən onu təsbehlə görürdüm. O qədər rahat və dərin yuxuya getmişdi ki, sanki yatağındadır. Qumda maşının açarını mənə verəndə Cəfər yadıma düşdü; öz cazibədarlığı və əminliyi ilə. Ona "yox" deyə bilmədim. Özünün və ailəsinin canını təkgöz və naşı bir adama əmanət etmişdi. Hava qaralanda peşman oldum. Əhvaza çox qalırdı. Özü də sanki çarpayıda yatmışdı. Ona baxdım. Təsbehi əlindəydi. Hər bir işdən öncə istixarə edirdi. Fikirləşdim ki, yəqin, mənim maşın sürməyim yaxşı gəldiyi üçün belə rahat yatıb.

Güzgüdən arxaya baxdım. Xanımı da yatmışdı. Mərziyə ilə mən oyaqdım. Yumru sifətindən Cəfərə oxşayırdı. Anasının çadrasının küncünü sorurdu. Onu qucağıma götürüb boğazından öpmək istəyirdim. Hər dəfə ona baxanda utanır, üzünü anasının çadrasının altına salırdı. Öz uşaqlığım yadıma düşdü; Məcid, Əmir, Mehdi və əkizlər Raziyə və Mərziyə ilə birlikdə Siddiqə xalamın evinin altını üstünə çevirirdik. Bir-birimizi qatırdıq, ağız deyəni qulaq eşitmirdi. Mən dəstənin başçısı idim; öndən qaçırdım, digərləri də ardımca. Hansımızsa qapını bərk çırpanda birdən Mərziyədən qışqırtı qopdu. Dəstək alnının ortasından dəydi və qan şırıldamağa başladı. Rəngimiz qaçdı. Xalam həyəcanla Mərziyəyə yaxınlaşdı. Nazik qan izi gözünün və burnunun yanından çənəsinə çatmışdı, oradan da köynəyinə

damırdı. O çapıq əkizlərin yeganə görkəm fərqi oldu. Otağın bir tərəfində qısılıb oturduq, bir anlığa bütün səsimiz kəsildi. Yalnız Mərziyənin ağlamaq səsi gəlirdi. Oyun və gülüş burnumuzdan gəldi.

Hacı Rza ilə xanımı Mərziyənin ağlamaq səsinə oyandılar. Uşağa isti olmuşdu.

– Ağa Məhəmmədhüseyn, neçə kilometr yatdım? – deyə hacı soruşdu.

Bilmirdim ki, onun sözünə gülüm, yoxsa ağlayım. Məni Cəfərdən və atasından başqa heç kim "ağa Məhəmmədhüseyn" çağırmırdı. Belə çağırılanda elə bilirdim ki, başqa bir adam olmuşam; sanki bir neçə il böyüyürdüm. Yolun kənarındakı nişana baxıb təbəssümlə dilləndim:

– On kilometrdən çox.

Mərziyə daha bərkdən ağlamağa başladı. Maşını yolun torpaq çiynində saxladım. Hamımız yerə endik. Gərnəşdim. Paltarım tərdən bədənimə yapışmışdı. Mərziyə hələ də ağlayırdı. Cəfərin fikri başımdan çıxmırdı. Onun baxışını hiss edirdim.

Məzarına torpaq tökəndə kənarda dayanıb fikirləşdim ki, daha Cəfərdən əlim üzüldü. Bütün vücudumu acı təklik hissi bürüdü. Cəfərlə özümdən də yaxın dost olmuşdum, canımdan əziz birini itirdiyimi hiss edirdim. Fikirləşdim ki, görəsən mən yarımçıq yoldaş oldum, yoxsa o. Cəfər yolun sonuna çatmışdı, mənsə hələ ortasındaydım. Bəs yolun qalanını onsuz necə gedəcəkdim? Məni tərk etməyib qardaşına tapşırdığını bilmirdim. Əminəm ki, həmin gün qardaşı ilə məni Cəfər yan-yana oturtmuş, Əkbər Şirqulamini məclisinin ortasında məni Hacı Rzaya təqdim etmək üçün göndərmişdi. Həmin günü yadıma saldıqca Allahın hikmətini və Cəfərin nəzarətini daha yaxşı anlayıram.

Qəhərdən bağrım yarılırdı. Hacı Rzadan, xanımından və atasının çiynində gülən Mərziyədən uzaqlaşmaq, qarşımda sərilmiş düzənliyin ənginliyinə getmək, heç kimin olmadığı, heç kimin görmədiyi və heç kimin eşitmədiyi bir yerdə vücudumun dərinliyindən qışqırmaq, Allahı çağırmaq istəyirdim. Xahiş edim ki, bir fürsət də versin və o fürsətdə Cəfər kimi bir dostun qədrini bilim. Sızlayım, yalvarım ki, ya Cəfəri mənə qaytarsın, ya da məni onun yanına aparsın.

Qumdan Əhvaza kimi o qədər yolu Meruya yerləşmək üçün getmişdik. Meru yeni bir dünya idi. Orada nə Kalaşnikov götürmək vardı, nə də durbinlə baxmaq. Səhərdən-axşama qədər mühəndislik işləri öyrənirdim. Əhvazın Çaharşir meydanının kənarındakı Meru

zavodu[1] Kərbəla qərargahının mühəndislik mərkəzinə çevrilmişdi. Hacı Rza bacarıqlı mühəndisləri, özünün dediyi kimi, "ovlayıb" oraya aparırdı. Orada əməliyyat zamanı döyüşçülərin ehtiyacı olan texnikalar istehsal olunurdu. Hoverkraft, Hurnəvərd və Əbabil adlı təksərnişinli təyyarə onların ixtiralarından idi. Güllə və bomba altından ədəd, rəqəm, həndəsə və sapand dünyasına atılmışdım. Ətrafa göz gəzdirəndə dörd böyük tikili görürdün. Bütün istehsallar həmin tikililərdə baş verirdi.

Qərargahın uşaqlarından mühəndis Ruzbəhani yaxşı yadımda qalıb. Beyni hesablama və mühəndislik layihələri ilə doluydu. Mən Meruda olanda hoverkraft düzəldirdi, həm suda, həm quruda hərəkət edən nəqliyyat vasitəsi.

Qərargahda heç nəyi tullamırdılar; Honda motosikletinin təkərindən tutmuş aşmış bir təyyarənin pərinə qədər. Hamısını düzüb qoşub yeni bir əşya hazırlayırdıq. Mühəndis Ruzbəhaninin kreativ fikirləri digərlərinə də keçmişdi. Xarab olmuş hər bir şeyi atmazdan öncə fikirləşirdik ki, hansı işə yarayar.

Əkbər Şirqulami ilə mən yaşda hamıdan kiçik idik. Hacı Rza həmişə deyirdi ki, vəzifə bir tərəfə, təlim də bir tərəfə. İndi vəzifəniz vuruşmaqdır, amma bir gün müharibə bitəcək və siz hər yeri abadlaşdırmalı olacaqsınız. Abadlaşdırma da yalnız qol gücü ilə olmur, elm və ixtisas lazımdır. Gərək müharibədən sonra dərslərinizlə məşğul olasınız. Bu gün dərs ab-havasından nə qədər az uzaqlaşsanız, sonra müharibəsiz dünyaya daha tez qayıdacaqsınız. Bütün bunları riyaziyyat dərsinin əvvəlində deyirdi ki, Əkbərlə mən qaşqabağımızı yığışdıraq.

Biz müharibə olmayanda da yayda dərs oxumurduq, o ki qala müharibənin ortasında, özü də riyaziyyat dərsinə?! Guya yayda diviziyanın tətil edildiyini, cəbhədə sakitlik olduğunu görüb şəhərdə boş-boş gəzməyək deyə buraya gəlmişdik. Ağlımıza da gəlməzdi ki, yayımız Hacı Rzanın riyaziyyat dərsi ilə bir neçə əməliyyatdan da ağır keçəcək. Riyaziyyat dərsi mənə zəhrimardan da acı idi. Üstəlik, müəllimindən çəkinib dərsdən boyun qaçıra bilmirdik. İkiməchullu tənliklərin əlindən oturub ağlamaq istəyirdim, amma Hacı Rza başım üstə dayanırdı, ağlamaq yerinə məni onları həll etməyə məcbur edirdi.

[1] İnqilabdan öncə bu zavodda kosmik tavanlar düzəldirdilər. İnqilabdan sonra və müharibə vaxtı isə cəbhəyə lazım olan təchizatın istehsalı üçün mühəndislik komandasına verildi.

Əkbərlə zarafata deyirdik ki, indiyədək şəhid olmayanın cəzası budur. Həqiqətən də, çox pis cəza idi. Dərs bitəndən sonra sanki əməliyyatda qalib gəlmişdik. Beynimizə hava dəysin deyə sevincək bayıra çıxırdıq.

Riyaziyyat dərsi nənəmin hamamdan öncə zorla başıma yaxdığı balıq yağı kimi idi; iyi hamamdan sonra da burnumda qalır, ürəyimi bulandırırdı. Riyaziyyat dərsindən sonra beynimin çeynəndiyini düşünür, Səddamı söyürdüm.

Hacı Rzanın bütün dərs proqramı riyaziyyatdan ibarət deyildi, təfsir dərsimiz də olurdu. Sübhlər namazdan sonra dərsə başlayırdıq. Yuxulu olsaq da, riyaziyyat qədər çətin olmurdu. Hacı Rza "Bismillah" deyib başlayırdı. Gözlərindən yorğunluq yağırdı, amma üz vurmurdu. Təfsir və riyaziyyat dərslərinə ayırdığı iki saat onun istirahət saatları idi. Sanki Cəfər on il böyüyüb danışırdı. Sözləri bir-bir yumurlayıb beynimə qoyurdu ki, heç vaxt yadımdan çıxmasın. Səbirlə və sakitcə o qədər təkrarlayırdı ki, yaxşı öyrənim. Cəfər də belə idi. Özümə gəlincə görürdüm ki, kövrəlmişəm. Cəfərin xatirəsi canıma hopmuşdu, az qala ağlayacaqdım. Hacı Rza məni çağırırdı, qaşlarını düyünləyirdi ki, diqqətim dərsdə olsun; eynilə Cəfər kimi.

Hacı Rzanın kölgəsi olmuşdum, çox yerə onunla gedirdim. Hər gün Korpus nazirliyində iclası vardı, mən də müharibənin pərdə arxasına baş çəkirdim. Döyüşün qızğın yerindən komandir otağına gəlmişdim. O günə qədər adlarını eşitdiyim komandirlərin çoxunu yaxından görürdüm. Bəzi komandirləri görəndə atamın qayğıları yadıma düşürdü. Döyüş yerindəki şəxsi heyət və imkan azlığı barədə elə danışır, ürək yandırırdılar ki, sanki öz uşaqları cəbhədə çətinlik çəkirlər. Məncə, uşaqlar irəlidə bir dəfə güllə ilə şəhid olurdularsa, komandirlər hər bir döyüşçünün şəhadəti ilə can verir, yenə dirilirdilər. Komandir ata deməkdir - cavan atalar. Çoxunun otuz yaşı da yox idi, xanımları özlərindən də kiçik idi. Hacı Rzanı Fəcr otelinə aparanda bəzi xanımları görürdüm. Ya təzə gəlin idilər, ya da təzə ana olmuşdular.

Fəcr oteli komandir ailələrinin evinə çevrilmişdi. Hacı Rzanın xanımı ilə Mərziyə də Əhvazın Fəcr otelində qalırdılar. Hər xanımın bir otağı vardı, səhərdən axşama qədər gözünü qapıya dikib otururdu ki, ərinin ya özü gələcək, ya da şəhadət xəbəri. Kaş yenə onların hamısını oraya toplayıb bir film hazırlamaq olaydı; müharibənin gizli qalmış yarısının filmi; ailə həyatlarının qızıl çağını bir otaqda tək və qorxu içində yaşamış gənc qızların xatirələrindən bəhs edən film.

Bir gün Hacı Rza qərargahdan xanımına zəng vurub dedi ki, Əhvazın Çaharşir meydanına gəlsin. Uzun müddətdən sonra onları gəzməyə aparmaq istəyirdi. Biz qərargahdan çıxmamış təcili bir iclas təyin etdilər. Sonra da harasa getdik; yadımdadır ki, Çaharşir meydanı deyildi. Yazıq xanımı bir qız uşağı ilə axşama qədər orada oturub Hacı Rzanı gözləmişdi. Daha çox Mərziyəyə yazığım gəlirdi. Atasını görən kimi ayaqlarından sallanır, qucağından düşmürdü.

Kərbəla-1 əməliyyatı həmin günlərdə baş tutdu. Qum diviziyasının kəşfiyyatçı uşaqları Qalavizan yüksəkliyində qiyamət qoparmışdılar. Onların Qalavizan dərələrində və dağdakı dolanbaclarda tapdıqları yollarla düşmən torpağının dərinliyinə getmək olurdu. Bu qızıl yollar Mehrandakı Kərbəla-1 əməliyyatında qələbənin açarı oldu.

1986-cı ilin yayı idi. İmam buyurmuşdu ki, Mehranı geri alın. Uşaqlar da Mehranın azadlığını qanları ilə imzaladılar.

Qərbə getdim. Hər yer mənim üçün xatirə doluydu. Vəlfəcr-3 əməliyyatında da o bölgədə olmuşduq. Aftafada düzəltdiyimiz limonotu şərbəti yadıma düşdü. Həmin günlərdə Mahmud Paknejad düşmən mövqeyinin arxasından bir yol tapmışdı. Dediyinə görə, yol düşmən mövqeyinin düz arxasından qalxırdı. Yəqin ki, Mehranın iki günə azad edilməsinə həmin qızıl yol səbəb olmuşdu. Sonralar mənə dedi ki, diviziyanın Vəlfəcr-3 əməliyyatında Qalavizanın yamacında şəhid olan Kəşfiyyat rəisi Şəhid Nədiri Qalavizanın süqutunun əsl səbəbini kəşfiyyatçı qüvvələrin təpənin arxasından keçməsində bilirmiş. O yolu da Şəhid Nədirinin sifarişi ilə tapmışdı; təhlükəsiz, döngə dolu və Qalavizan təpəsinin arxasından. 17 Saylı diviziyanın uşaqları əməliyyatdan bir gün öncə təpənin arxasına keçib düşmənin yaxınlığına yerləşmiş, digər qüvvələrin qarşıdan əməliyyata başlamasını gözləmişdilər.

Fav bir əlimizdəydi, Mehran digər əlimizdə. Sevindiyimizdən yerə-göyə sığmırdıq. Mövqeyimizin bərkiməsi üçün yalnız Kəlləqəndi təpəsi qalmışdı. Hacı Rza Kərbəla taktika qərargahına gəlmişdi. Onu Məlikşahi və Çəngulə ümumi zonasının yaxınlığında bir beton səngərdə tapdım. Hacı Qasim Süleymani və Rəhim Səfəvi də orada idilər. Hacı Qasim Vəlfəcr-3 əməliyyatında diviziyasının uşaqlarının məzlumluğundan danışırdı. Kərbəla-1-də qələbə onun üçün bir növ məlhəm sayılırdı.

İndi də Mehrana gedəndə yuxarı qalxıram, Qalavizanın başına. Yüksəklikdən şəhərə süzülən azan səsini dinləməyi sevirəm. Təpələrin

üz-başından sakitlik və qəriblik yağır. Ayağımın altından gələn çınqıl səsi ürəyimi titrədir. Uçurumun kənarına gedirəm, ən irəliyə. Aşağı baxanda qorxuram. Külək məni arxadan itələmək istəyir. Kəşfiyyatçı uşaqları xatırlayıram, iyun-iyul aylarının istisində bu yollarda susuzluqdan şəhid olanları. Uzaqlarda İraq sərhədində bir dirəyin üstündə alov yanır, səmaya qızılı və dumanlı tüstü qalxır. Alov yuxarıda sürüşür, kölgənin qaraltısı ilə şölənin işığı bir-birinə qarışır. Uçurumun kənarına boylanıram. Xırda daşlar ayaqlarım altından qaçır, diyirlənirlər. Onları çox tezliklə qaranlıqda itirirəm. Ayaqlarımın aşağısı sanki başqa bir dünyadır; sükut və vahimə dolu. Dərənin dərinliyindəki alçaq-hündürlüklər sanki ayaqlarım altında cücərmiş balaca dağ silsiləsidir. Kiçik təpələr qaranlığa batıb. Aşağılarda külək sərgərdandır, özündən sirli səslər çıxarır: uşaqların danışıq səsi, düşmənin qulağının dibində namaz səsi, qorxu səsi və susamış isti nəfəslərin səsi.

# On birinci fəsil

## *Qan yolu*

"Şəhidlər məstanə qəhqəhələrlə, qovuşduqlarına görə sevinc içində Rəblərinin yanında nemətlərdən bəhrələnirlər... Onlar Pərvərdigarın "Bəndələrimin arasına daxil ol və cənnətimə gir" deyə müraciət etdiyi arxayın ruhlardır".

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 92-93, 147

Artıq Meruda, əməliyyatdan uzaqda qala bilmirdim. Televiziyadan tez-tez imamın yüz min nəfərlik bir qoşun hazırlamaq əmrindən danışır, bizi coşdururdular. Nə iş bacarırdımsa, Hacı Rzanın yanında gördüm və bacarmadıqlarımı öyrəndim. 1986-cı il müharibənin taleyi ili adlandırılmışdı. Həlledici əməliyyatlar həyata keçirmək istəyirdik. Hacı Rza ilə sağollaşıb ürəyimin qaldığı yerə - diviziyaya yola düşdüm.

Xalam oğlu Məcid iki ayağını bir başmağa dirəyib dedi ki, bu dəfə mütləq səninlə getməliyəm. Qorxurdum ki, xalamla Hacı Rəhmətin əzizinin başından bir tük əskilər. O isə əl çəkmək bilmirdi. Gec gəlmişdi, tez getmək istəyirdi. Axırda məcbur qalıb razılaşdım. Cəbhə həvəsini özüm beyninə salmışdım, razılaşmaqdan başqa yolum da yox idi. Şərt kəsdim ki, mənimlə getdiyini heç kimə söyləməsin. Kim cürət edib Hacı Rəhmətə deyə bilərdi ki, Məcidi güllənin önünə göndərsin. Qərara gəldik ki, bir məktub yazıb cəbhəyə getdiyini söyləsin və

sağollaşsın. Məktubu da elə yerə qoysun ki, Quma çatan kimi görsünlər və narahat olmasınlar.

Təqvim 24.11.86 tarixini göstərirdi. Adamla və səs-küylə dolu qatar vağzalında gəzişirdim. Döyüşçü o qədər çox idi ki, sanki diviziyanın düşərgəsinə girmişdin. Çiyinlərində çanta bir-bir dayanmışdılar. Qış gələn kimi əməliyyat ətri də yayılırdı, kim harada olsa, özünü diviziyaya yetirirdi. İmamın fərmanı da çoxlarının ayağını cəbhəyə açmışdı.

Qoltuğumda bir boğça külçə şirniyyatı adamlar arasında göz gəzdirməyə başladım. Məcid bir kənarda dayanmış, həmişəki kimi başını aşağı salmışdı. Gözlərindən sevinc yağırdı. Hacı Rzanın külçələrini çantasına doldurub göndərdim ki, zalın axırında gözləsin. Bilirdim ki, anamla Əşrəf xala indicə peyda olacaqlar. Mən yolüstü Xakfərəcə Cəfərin anasına baş çəkməyə getmişdim. O da Hacı Rzaya aparmaq üçün bir boğça Təbriz külçəsi vermişdi.

Vağzalın ortasındakı saata baxdığım yerdə anamla xalam qucaqlarında uşaq içəri girdilər. Əşrəf xalam balaca Hüseyni gətirmişdi, anam da Əlini. Vağzalda qələbəlik və havanın soyuq olduğunu bəhanə edib onları tez göndərməyə çalışdım. Həyəcandan boğulurdum, qorxurdum ki, Məcidi görərlər. Sağollaşdığımız yerdə Hüseyn tualetə getmək istədi. Çox həyəcanlandım. Tualet zalın axırında idi. Allah-Allah edirdim ki, Məcid uzaqdan Əşrəf xalanı görüb bir yerdə gizlənsin. Lakin bir neçə dəqiqədən sonra qorxduğum başıma gəldi: xalam bir əli ilə Hüseyni götürmüşdü, o biri əli ilə də Məcidin çantasından tutub dartırdı. Yazıq Məcidin bir gözü məndə idi, bir gözü xalamda. Qatarın yanından qayıdacağından qorxurdu. Xalamla anam çantanın içində şişən şeyin nə olduğunu görmək üçün gülə-gülə zəncirbəndini açdılar. Məcid həyəcan dolu baxışlarla məndən kömək istəyirdi. Külçələri görüb bir neçəsini götürdülər. Xalam Hüseynin əlinə bir külçə verdi, birini də gülə-gülə öz ağzına qoyub dedi:

– Məgər biz külçə yeyə bilmirik ki, anan sənə bu qədər külçə verib?!

İçim içimi yeyirdi, onların başqasının olduğunu deyə bilmirdim. Külçələr Məcidi xilas etdi. Anamla xalam elə bildilər ki, onları Siddiqə xalam Məcidə verib və cəbhəyə getdiyini də bilir. Biz minənə, xalamla anam qayıtmağa razı olana qədər yüz dəfə ölüb-dirildim. Məsələ xeyirlə bitəndən sonra oturacağa yayılıb gözlərimi yumdum. Yazıq

Məcidin halı məndən də pis idi; güclə gülümsəyir, xalalarına əl yelləyirdi.

Əhvaz-Əndimeşk magistralının kənarında, Dehloran üçyolunun yaxınlığında bizdən başqa heç kim yox idi. Düzənliyin ortasındakı su kanalına baxdım. İki tərəfində bir-birinə qarışmış sarı hündür otlar sıraya düzülmüşdü. Çöllükdə soyuq külək əsir, buz kimi qolları ilə bizi qucaqlayırdı. Gözümüz sulanır, burnumuz axırdı. Çatar-çatmaz təminat uşaqları bizi sıraya düzüb dedilər:

– Soyunun.

Mat-məəttəl üzlərinə baxdıq, qulaqlarımızın dibinə qədər qızardıq. O qədər mızıldadıq ki, dalğıc geyimini göstərdilər. Geyimləri alıb yanaqları qızarmış halda çadırın arxasına keçdik və boş bir yerdə geyib əynimizə olub-olmadığını yoxladıq. Daha utancaq olanlar o geyimlə də digərlərinin qarşısına çıxmadılar, elə arxada geyib yoxladılar və tez çıxarıb yenə yaşıl-bozumtul formalarını geyindilər.

Birinci axşam hələ yolun yorğunluğu canımızdan çıxmamışdı. Ədyalın altında nəfəslərimizlə qızışdığımız yerdə birdən bizi oyatdılar. O qara soyuqda dalğıc geyimi geyib suya girməli idik. Qumbaraatanlar, islanmasın deyə yuxulu halda silahlarını sellofana bükürdülər.

Tam hazır vəziyyətdə kanal tərəfdə sıraya düzüldük. Ədyalıma bürünmək istəyirdim. Soyuq bədənimin dərisini çatladırdı. Suya girən kimi ayağımın altı boşaldı və nəfəsim gəlmədi. Düşündüm ki, indicə bu qaranlıqda boğulacağam və heç kim mənə kömək edə bilməyəcək. Ciyərim Bədrdə deşilmiş, burnum Favda sınmışdı. Nəfəs almaq üçün yarıaçıq bir ağzım vardı, onu da suya görə yumurdum.

Çapalamağa başlayanda kanalın o tərəfindən atəş açıldı. Güllələr vızıldaya-vızıldaya başımın üstündən keçirdi. Səsim boğazımda qaldı, az qala infarkt olacaqdım. Öz pulemyotçularımızın kanalın o tərəfində hazır vəziyyətdə oturduqlarını bilmirdim. Hacı Əhməd Kərimi əlimdən tutub məni bayıra çıxardı. Səs-küyümlə bütün təlimi korlamışdım. Kanalı elə keçməli idik ki, pulemyotçular bilməsinlər. Ən kiçik səslə pulemyot atəşə başlayırdı və biz geri qayıdıb yenə əvvəldən başlamalı olurduq.

Komandirlər təlimdə nə qədər çox tələbkar olurdularsa, əməliyyatın bir o qədər çətin olacağını bilirdik. Mənim səs-küyümə və pulemyotun atəşinə görə hamını geri qaytardılar. Su içində titrəyə-titrəyə çadırlara qayıtdıq, dalğıc geyimlərini əynimizdən çıxarıb sevincək ədyalların

altına doluşduq. Ağlımıza da gəlməzdi ki, iki saatdan sonra yenə oyadıb suya aparacaqlar.

Çöllükdə, kanalın soyuq suyunda ağır təlimlər car çəkirdi ki, biz bir istifadəlik batalyonuq. Hər gecə işimiz bundan ibarət idi. Pulemyotçular kanalı qartal kimi güdüb ən kiçik səs eşidəndə atəş açırdılar və biz geri çəkilməli olurduq. O soyuqda paltarlarımız qurumaq yerinə donurdu. İkinci dəfə geymək istəyəndə bizi ağlamaq tuturdu; bədənimizə yapışır, yuxarı qalxmırdı. Əsl müsibət onda başlayırdı ki, su dalğıc geyiminin zəncirbəndinin arasından az-az içəri girirdi. Xırda bir həşəratın paltarımın altına girib bütün bədənimi yavaş-yavaş sancdığını hiss edirdim. Soyuq su dərimin altına qədər yandırır, sanki iynə kimi batırdı. Birdən bir nəfər əl-ayağını bərk tərpətsəydi və yavaş bir şappıltı çıxsaydı, pulemyotçular başımızın üstündən atəş yağdırırdılar; yəni sizi gördük.

İlk gecələrdə naşı olduğumuza görə iki-üç dəfə suya girirdik. Keyimiş və göyərmiş əllərimizin gücü dalğıc geyimlərinin zəncirbəndinə çatmırdı. Qara paltar qır kimi dərimizə yapışır, onu ətdən qoparmaq istəyirdi. Bədənimizdən ayrılsın deyə ona yalvarırdıq. Bir gecə soyuqdan çənəm o qədər titrədi ki, dişlərimin qırılacağından qorxdum, ədyalı dişləyib yerimdə qısıldım. Qanın damarlarımda donduğunu hiss edirdim. Uşaqların üzünə baxdım; hamı o gündəydi.

Üzgüçülükdən sonra çadırlara yuxu tozu səpirdilər. Hər kəs cansız və hərəkətsiz halda bir tərəfə düşürdü. Təlim ağırlaşdıqca bu dünyadan bir az da uzaqlaşırdıq. Heç kim üz vurmasa da, hamı bu əməliyyatdan qayıtmamağa hazırlaşırdı.

Sübh azanına bir saat qalmış yuxudan oyansaydın, inanmazdın ki, bu uşaqlar gecənin yarısına qədər soyuq suda çapalayıblar. Çadırlarda heç kim qalmırdı, hamı səmanın altına sığınırdı. Çadırların arxasında gəzişməyi sevirdim. Hamı oradaydı, amma sanki heç kim yoxdu. Hərə bir tərəfdə raz-niyaz edirdi. Arabir ixtiyarsız bir hönkürtü sükutu pozurdu və sonra yenə sükut. Saatlarla uşaqların arasında gəzmək, onlara baxmaq, ay üzlərindən öpmək istəyirdim. Cənnət ətri gəlirdi onlardan. Sanki hər birini adla çağırmış, bu biyabana dəvət etmişdilər. Kaş o anları qeyd etmək olaydı! Artıq soyuğu vecimizə almırdıq. Mələklər bütün o biyabana hasar çəkmişdilər ki, bizi Allahdan başqa hər şeydən uzaqlaşdırsınlar. Dostbazlıqlar bitmişdi, hər kəs hazır vəziyyətdə köç zamanını gözləyirdi. Bu çöllükdə olduğumuz iyirmi günün xüsusi dadı vardı: isti, şirin və qısa; balın ağızda əriməsi kimi.

Sübh azanı uşaqları çadırların arxasındakı çöllükdən bir yerə toplayırdı. Hərə bir tərəfdən özünü yetirirdi. Hacı Əkbərzadə[1] hamıdan qabaq gəlir, əbasına bürünüb cərgələrin dolmasını gözləyirdi. Böyük eynəyi sifətinin bir hissəsinə çevrilmişdi. Qünut zamanı arxasında o qədər adamın dayandığını unudurdu, səsi yana-yana, sızıltı ilə çıxırdı:

– Ey Allahım! Bizə Öz yolunda şəhidlik səadəti nəsib elə!

Bu duanı üç dəfə təkrarlayırdı. Havanın qaranlığında çiyinlərinin titrədiyini görürdüm. Düşünürdüm ki, hər dəfə yalvararaq belə dua etdikdə şəhadətə bir addım yaxınlaşır. Ürəyim istəyirdi ki, axşama qədər orada dayanım, hacı şəhadət istəsin, mən də ağlayım.

Namazdan sonra heç kim çadırlara girib ədyalın altında qızışmağa tələsmirdi. Hacı ağa Aşura ziyarətnaməsi oxuyurdu, uşaqlar bir-bir ağlamağa başlayırdılar. Onun səsini yazmaq istəyirdim. Elə o vaxtdan səsi üçün darıxırdım. Rövzələri o günə qədər eşitdiyim bütün rövzələrdən fərqlənirdi. Dizlərimi qucaqlayır, başımı qollarımın arasına salırdım. İsti göz yaşlarım donmuş üzümü qıdıqlayırdı. Çox darıxdığı günlərdə bizim üçün moizə edirdi. Bilirdik ki, qərarsızdır. Sanki uşaqlarla dərdləşirdi. Arzusuna çatmadığı əməliyyatlardan, göydən bizə baxan dostlarından və bizi udmaq üçün əjdaha kimi ağzını açmış dünyadan danışır, qarşımızdakı səmaya gedən yol haqda məlumat verir, yanır, yandırırdı.

Gündüzlər nə qədər çox yeriyirdiksə, gecələr əl-ayaqlarımızın əzələləri soyuq suda bir o qədər az tutulurdu. Hər gün səhər düzülüşündən sonra piyada yürüşümüz olurdu. Qışın cansız günəşi bədənimizi gizildədirdi. Yol yeriməklə qızışmağa çalışırdıq. Kolon ilk bir neçə metri düz gedirdi, sonra isə ilan kimi qıvrıla-qıvrıla. Çadırların arxasında o qədər qəbir qazılmışdı ki, düz yerimək olmurdu. Qəbirlərə düşməmək və onların arasından yol tapmaq üçün gözlərimizi yaxşıca açır, onların arasına səpələnirdik və kolondan bir şey qalmırdı. Axırda batalyon komandiri Hacı Əkbər Nurinin etiraz səsi ucaldı. Qərara alındı ki, uşaqlar qəbirləri bir tərəfdən qazsınlar, belə pərakəndə şəkildə yox.

Hər dəfə Məcidi görəndə sanki ürəyim əsir, yavaşca yerə tökülürdü. Hər dəfə daha arıq görünürdü. Xalam yox idi ki, üzünün dərisinin

---

[1] 17 Saylı diviziyanın Etiqadi işlər üzrə komandir müavini Şəhid Müctəba Əkbərzadə 1962-ci ildə Ərakda doğulmuş, 1986-cı ilin yanvarında Kərbəla-4 əməliyyatında şəhadətə qovuşmuşdur.

soyuqdan necə quruduğunu görsün. Ayağımız cəbhəyə dəyən kimi yollarımızı ayırmış, hərəmiz bir bölüyə getmişdik. Sanki heç qohum deyildik və birlikdə gəlməmişdik. Cəbhədə qayda beləydi, gərək tanımadığın insanların arasında itəydin. Dostbazlıq və qohumbazlıq Qumda da vardı. Cəbhədə dostluq və bağlılıq vardısa, bir-birimiz üçün dua etmək və şəfaət sözü verməkdə idi. İş və təlim vaxtı hər şey zəifləyirdi, hətta iki xalaoğlunun münasibəti də.

Həzrət Məsumə batalyonu Hacı Əkbər Nurinin komandirliyi ilə yüksəlmişdi. Mən Seyid Cavad Abinin bölüyünün əsas kadrına düşdüm. Seyid Cavadlar bölüyümüzü ələ keçirmişdilər: Abi komandir idi, Xaki onun birinci müavini. Mən də bölüyün çaparı oldum. Məcidsə başqa bir bölükdə idi. Gecələr dalğıc kolonunun başında dayanırdı. Suya başı ilə elə girirdi ki, sanki neçə il bu anı gözləyib. Uşaqlığımız yadıma düşürdü. Həyətlərindəki hovuzda yarışanda həmişə birinci olurdu. Cəld başı üstə suya atılır və suyun altında sürüşürdü. Biz tərpənincə düyünlənmiş yumruqları ilə suyun o başından çıxırdı. Yaş bədənini hovuzdan çıxarıb bizim şappıltı salmağımıza baxırdı. O günlər əsla ağlıma gəlməzdi ki, o, bir gün hücumçu dalğıcların sırasında dayanacaq, boy-buxunlu, bığ-saqqallı bir igidə çevriləcək.

Qara dalğıc geyimi onu daha arıq göstərirdi. Şnorkeli[1] dişlərinin arasında tutub qaranlıqda suyun üzərində sürüşürdü. Onu itirirdim, birdən başı kanalın o tərəfindən çıxırdı. O zülmətdə üzünü görmürdüm, amma əmindim ki, təbəssümlə digərlərini gözləyir. Dalğıc geyiminin üzərinə xətt düşmüşdü; digər paltarları kimi. Hər bir işi o qədər can-başla görürdü ki, həmişə şalvarları cırıq olurdu. Bir işi ya görməzdi, ya da düzgün görərdi; istər futbol oynamaq və velosiped sürmək olsun, istər üzgüçülük və dalğıclıq.

Həyətlərində tor çəkib voleybol oynayırdıq. O qədər məşq edirdi ki, zərbələrinin heç biri bayıra düşmürdü. Yerə şığıyanda şalvarının bütün dizi cırılırdı; amma qalib gəlirdi. Onun üçün hər şey ciddi idi.

Bir gün onu səhər düzülüşündən sonra gördüm. Nədənsə elə bildim ki, hamıdan çox əziyyət çəkir. Yanına getdim. Məni görən kimi yorğun üzünə təbəssüm qondu.

---

[1] Burnu da örtən üzgüçülük eynəyidir. Ona 15 sm uzunluğunda nazik bir borucuq birləşib ağıza keçir. Üzgüçülük zamanı başı suya batıranda bu şlanqın ucu sudan bayırda qalır və ağızla nəfəs almaq mümkün olur.

– Məcid, bura yaxşıdır, yoxsa Pasdaran prospektindəki villanız? – deyə soruşdum.

Elə utanıb başını aşağı saldı ki, soruşmağıma peşman oldum. Bir nəfər yox idi desin ki, axı sənə nə dəxli var.

– Bura çox yaxşıdır! – yanaqları qızarmış halda cavab verdi.

Bunu yavaşca deyib özünü uşaqların arasında gizlətdi. Düşünürdüm ki, görəsən Məcid üçün burada Hacı Rəhmətin var-dövlətinin təmin edə bilmədiyi nə var. Sürücülük vəsiqəsi alanda hacı ona bir Reno almışdı. O isə maşını satıb pulu ilə cəbhəyə səsucaldan və fənər göndərmək istəyirdi.

– Nəyim varsa, Allahdan və atamdandır. Razı olmayınca bu işi görmərəm, – deyirdi.

Məcid o qədər israr etdi ki, axırda Hacı Rəhmət razılaşdı. Renonu satdı və arxayınlaşdı. Uşaqlıqdan xarakteri belə idi. Həmişə nəyi vardısa, digərləri ilə paylaşardı; hətta xərclik pullarını da. Bu xarakteri Hacı Rəhmətdə ona güclü bağlılıq yaratmışdı. Məcidin nə cəbhəyə getməsini istəyirdi, nə də onu qalmağa məcbur edə bilirdi. İlk dəfə ezam olunmaq istəyəndə demişdi:

– Gəl, mənim yanımda işlə, nə qazansan, cəbhəyə xərclə, amma özün getmə.

Məcid isə artıq yolunu tapmışdı.

Hacı Rəhmət motosikletə qarşı idi. Əmir motosikleti çox sevirdi, amma almırdı; Məcid üçün isə motosiklet də aldı ki, qalıb cəbhəyə getməsin.

Təlimin sonunda cəbhə adəti üzrə bir qurban kəsdilər. Çox uzun bir vəhdət süfrəsi sərildi. Hamı ilə birlikdə yeyilən bozbaş çox dadlı olurdu.

Nahardan sonra Rza Əşəri ilə kanalın kənarında gəzişdiyimiz yerdə palçıqdan tikilmiş balaca otağın pəncərəsinin arxasında qara bir torba diqqətimi cəlb elədi. Görünür, kimsə orada gizlətmişdi. Ağzını açdım. Qoyunun ciyər və ürəyini görüb sevindik. “Heç kim başqasının ruzisini yeyə bilməz” deyə düşünüb səssizcə ruzimizi götürdük və yas sahibinə belə bir mesaj yazdıq: "Mərhum ürək və ciyərin vəfatı münasibəti ilə yasda olan ciyəriyanmışlara başsağlığı veririk!"

Oğurluq ürək və ciyəri məhv etməkdən ötrü xəlvət bir yerdə oturduq. Nə qədər gözümü gəzdirdimsə, Məcidi görmədim. Tək yemək istəmirdim, uşaqlıq çağımızdakı dəcəlliklərdə olduğu kimi, yenə birlikdə olmaq istəyirdim. Acı badamlar yadıma düşdü.

Yayda Qumun səmasından od-alov yağırdı, şəhərdə qalmaq olmurdu. Məni, Mehri və Nəfisə bacılarımı gün vurmasın deyə Mərəqə köçürdülər. Çox vaxt xalalar da gəlirdi və dəstəmiz toplaşırdı. Səhərdən axşama qədər uşaqlarla oynayıb başımızı hər yerə soxurduq; evlərin quş damından və axurundan tutmuş camaatın badam bağına qədər.

Hacı Rza Fəllahın badam bağı yaxşı bar vermişdi. Bizim kimi şuluq uşaqlar belə bir bağa baş çəkməyə, ağaclarına dırmaşmaya bilərdilərmi?! İstər öz bağımız olsun, istər camaatın bağı. Əli, Məcid, Əmir, Mehdi və Mürtəza dayımla birlikdə bağın ətrafındakı çəpərin arasından pişik kimi keçdik. Bir saatdan sonra isə əlimiz çatmayan və hələ ağacda qalmış bir badam da tapmaq olmazdı. Bu qədər dartınmadan, ağaclardan sallanmadan yorulub yığdığımız badam təpəsinin yamacında oturduq. Birincisi acı, ikincisi acı, üçüncüsü acı... Ağzımız yaxşıca acılaşanda bildik ki, son dənəsinə qədər belə olacaq. Hamısını ağacın altında basdırdıq. Həftəsonu idi, yazıq kişilər bizə baş çəkməyə, guya havalarını dəyişməyə gəlmişdilər. Ertəsi gün səhər çağı badamların dəfnini unutduğumuz yerdə həyətdə bir səs-küy qopdu. Hacı Rzanın olduğunu bilən kimi rəngimiz qaçdı. Atama və xalalarımın yoldaşlarına nə dedisə, nə eşitdisə, səhər yeməyi süfrəsində onların ağır baxışları yaxşı yadımda qalıb. Hacı Rzaya məhsulunun qarşılığında verdikləri pul önəmli deyildi, bizi bir saat öz başımıza buraxa bilmədiklərinə görə narazı idilər. Məzlum olmuşduq, Əlidən də məzlum. Başıaşağı və səssiz halda səhər yeməyi yeyirdik. Həmin səhər yeməyində böyüklərin qaşqabaqları və acıqlanmaları ilə ağzımız da acılaşdı; Hacı Rza Fəllahın acı badamları kimi.

Rza Əşəriyə badam xatirəsindən danışa-danışa ürək və ciyər yeyir, Məcidsiz fatihəsini verirdik. Yaxşı uşaqlar kimi əl-üzümüzü də yuduq, məzlum və haqlı adamlar kimi çadırda uzanıb xeyli yatdıq. Yuxunun ağır yerində Hacı Əkbər Nurinin səsinə oyandım:

– Məhəmmədhüseyn, qalx, avtobusumuz yoxdur.

Batalyon yerdə qalmışdı. Əndimeşkə getmək üçün avtobus tapmalı idim. Uşaqlardan adını unutduğum biri ilə Əndimeşk yol polisinə getdik. İşimizin həll olunması üçün üzlü olmağa məcbur idik. Bir tərəfdə oturub avtobus gözləməyə başladıq. Sürücü hərəkət saatını yazdırmaq üçün avtobusdan enən kimi biz mindik. Döyüşçülərin ehtiyacı barədə avtobus sərnişinlərinə alovlu bir çıxış etdim. Elə inamla danışdım ki, sanki bu iş üçün cibimizdə möhürlənmiş bir

sərəncam var. Camaat mat-məəttəl mənə baxırdı. Sözlərim bitəndən sonra onları hörmətlə avtobusdan endirdim. Ortadan iki-üç nəfər döyüşçülərin salamatlığı üçün salavat dedizdirdi. Əlbəttə, onları elə-belə yolda düşürtmədik, eyni üsulla digər avtobusların önünü kəsib onları birtəhər yerləşdirdik. Axşama qədər təlim düşərgəsinə doğru dörd avtobus yolladıq. Ora çatan kimi uşaqlar palçıq vedrələri ilə onları qarşıladılar. Sürücülərə yazığım gəldi; bir neçə dəqiqə ərzində avtobusları yaman günə düşdü.

Salavat səsi və üzərlik tüstüsü hər yerə dolmuşdu. Şəxsi heyət beldə qumbara və daraq avtobuslara mindi. Görkəmlər buraya gəldiyimiz birinci gündən yerlə göy qədər fərqlənirdi; hamı arıqlamış, toz-torpağa bələşmiş, gözlər çökəyə düşmüşdü. Bizi görən hər kəs bilirdi ki, çoxdandır yuxu üzü görmürük. Gözlərimiz yenicə qızışdığı yerdə Xürrəmşəhrin girişində bir neçə ikimərtəbəli uçuq kərpic tikilinin qarşısında yerə endirdilər:

– Qardaşlar, bu gecə gərək dördmərtəbənin içində yatasınız.

Taqım komandirləri şəxsi heyəti kərpic tikililərə doğru aparırdı. Hava qaralmışdı. Nə qədər gözümüzü ovuşdurduqsa, üçüncü və dördüncü mərtəbəni görə bilmədik. Hər mərtəbədə iki zal vardı və ümumilikdə hər tikilidə dörd zal edirdi. Buna görə onlara dördmərtəbəli deyirdilər.

Kim harada yer tapdısa, yatdı. Hətta baş-ayaqlarımızı hara qoyduğumuza da baxmadıq. Əsgər ədyallarına bürünüb gözlərimizi yumduq. Bir neçə dəqiqədən sonra uşaqların uzun nəfəs səsləri gəldi. İyirmigünlük təlimin yorğunluğunu yatmaqla çıxarırdıq.

***

Torpaq yol uşaqların kolonu kimi dümdüz şəkildə qaranlığa batmışdı. Çölün soyuğu paltarlarımızın altına girirdi. Pikaplar bizi Nəhr Xəyyin-Şələmçə magistralının üçyolunda endirib getdilər və biz sonuna qədər getməli olduğumuz uzun torpaq yolla baş-başa qaldıq. Ayaqlarımızın altındakı torpağın yumşaq xırçıltısı sükutu pozurdu. Sanki şirin ağzında yol gedirdik. Bu bölgədə bir nəfərin hərəkəti də düşmənin gözündən qaçmırdı, o ki qala iki batalyona.

Kərbəla-4 əməliyyatında Şələmçə və Əbülxəsib istiqamətindən hücuma keçməli idik. Biz, yəni əbülxəsiblilər Ərvənddən keçib özümüzü İraqın Bəvarin və Ümm əl-rəsas adalarına yetirməli idik. Digər batalyonlar da Şələmçədə qarşı tərəfdən hücuma keçəcəkdilər. Biz ilk hücuma keçən batalyon idik, Nəhr Xəyyindən keçib Bəvarin

adasını tutmalıydıq. Bütün bunları Hacı Əkbər Nuri plan üzərindən bizə izah etmişdi.

Dalğıcların qara geyimi ay işığında parıldayırdı. Uzaqlarda yer göyə birləşmişdi. Məscidin günbəzinin qaraltısı görünürdü. Bütün Xəyyin kəndindən yalnız Vəliəsr (ə) məscidi və dəlik-deşik olmuş günbəzi qalmışdı. Birdən beynimdən keçdi ki, görəsən bu kəndin əhalisi indi hansı şəhərdə qaçqındır, evlərindəki rahatlığı hansı sıx prospektdə axtarırlar.

Məscidin günbəzi uşaqların müşahidə qülləsi olmuşdu. Altındakı dəmir pilləkəndən qalxıb durbinlə baxırdılar. Bu məscidin danışmağa çox sözü vardı. O, müharibə günlərinin, boş qalmış kəndin sakit şahidi idi. İndi də yolum Xəyyinə düşəndə ona baş çəkirəm. Kərpic günbəzin deşikləri elə də qalıb. Ulduzlar bu deşiklərdən məscidə boylanırlar. Oraya daha çox gecə vaxtı və tək getmək istəyirəm. Günbəzin altında oturmaq, gözlərimi yumub yaxşı qulaq asmaq; biyabanlığın sükut səsinə, torpağı tumarlayan küləyin səsinə, batalyonumuzun uşaqlarının torpaq üzərindəki addımlarının səsinə, nəfəslərinin səsinə, oradakı mələklərin pıçıltılarına, müşahidəçilərin o günbəzin altında qıldıqları namaz səsinə və qulağıma pıçıldayan səsə:

– Hüseyn, tez ol, dostlarının gözü yoldadır.

Batalyon sakitcə məscidin yanından keçdi. Səma özünü günbəzə yetirmişdi. Ulduzlar pulcuq kimi idi. Torpaq yol məscidin yanından qaranlığa doğru uzanıb gedirdi, biz də onun ardınca. İrəlilədikcə daha da həyəcanlanırdım. Sanki məsciddən sonra dünya bitdi və biz Allahla baş-başa qaldıq. Düşmənin müşahidəsi və hədəfi altında dimdik yol gedirdik. Heç kimdən səs çıxmırdı. Bölük komandirlərinin ağzına boğaz ratsiyaları bağlanmışdı, səs tellərinin titrəməsi ilə bir-biri ilə əlaqə saxlayırdılar.

Havadan cənnət ətri gəlirdi. Göz yaşlarım üzümü islatmışdı. Mələklər torpaq yolun kənarlarına düzülmüşdülər, gedib bir daha qayıtmayacaq uşaqların adlarını yazır, göz yaşlarını silirdilər. Nəhr Xəyyinə çatana qədər yarım saat keçdi; dadı hələ də damağımda qalan cənnət ətirli yarım saat.

Yolun sonunda arıq və qısa bir torpaq sipər bizi gözləyirdi. Əyilə-əyilə onun arxasına doluşduq. Kövsər batalyonundan Hacı Əbülfəz Şikarçinin rəhbərlik etdiyi dalğıc bölüyü Bəvarin adasının ensiz çıxıntısına hücum edəcəkdi. Səssizcə kanalın kənarındakı gizli əraziyə yerləşdilər. Yarısı qamışlıqda, yarısı da suda olan böyük bir metal list

vardı. Dalğıclar onun altına girdilər.[1] Bizim batalyonumuz da torpaq sipərin döşünə yapışdı.

Ağır bir sükut aramızda yuva qurmuşdu. Birlikdə son gecəmizi yaşayırdıq. Uşaqların gözlərində yaş parıltısını görürdüm. Dodaqlar tərpənib zikr deyir, gözlər dostlardan halallıq istəyirdi. Onlara baxmağa taqətim çatmırdı; qorxurdum ki, gedərlər, mən qalaram və bu baxışlar ömrümün sonuna qədər ürəyimi yandırar. Gözlərimi yumub dərin nəfəs aldım. Yenə cənnət ətri gəlirdi. Bizim arıq torpaq sipərimizlə düşmənin səngər qalası arasında Xəyyin kanalı vardı. Eni iyirmi metr də olmazdı. İstəyirdik ki, tez atəş əmri verilsin və biz çaya girək. Lakin xəbər çıxmırdı. Torpaq sipər bizim üçün səmaya ucalmağın son maneəsi idi, daha arxasında qərar tuta bilmirdik. Ağlımıza da gəlməzdi ki, səhərə qədər orada qala bilərik. Uşaqlar çəfiyə şallarını üzlərinə atıb oturduqları yerdə yatdılar.

Günəş Vəliəsr (ə) məscidinin kərpic günbəzinin arxasından qalxırdı. Görünür, o da son dəfə uşaqları görmək istəyirdi. Havanın işıqlanması işimizi çətinləşdirdi. Ayağımızı uzatmağa da cürət etmirdik. Kimdə cib Quranı vardısa, onunla məşğul idi, digərləri də zikr və namazla. Daha söyləməyə söz qalmamışdı. Baxışlarımızı bir-birimizdən gizlədirdik. Göz yaşlarımız görünməsin deyə axşamın gəlməsini istəyirdik.

Düşmənin qulağının dibində bir sutka sükut içində keçdi. Təqvim 24.12.86 tarixini göstərirdi. Günbatan çağı çayın iyi gəldi. Günəş uzaqlarda, Ərvəndin arxasında batır, suyun üzərinə qan sıçradırdı. Dünyanın qəm-qüssəsi ürəyimə çökdü. Məcidi xatırladım. Onu dünəndən görməmişdim. Tapşırmaq istəyirdim ki, özündən muğayat olsun. Ətrafıma göz gəzdirdim. Yox idi.

Düşmən torpaq sipərin üstündən müşahidə edirdi, bir avtomatla işimizi bitirə bilərdi. Arıq istehkamın altını qazmışdılar. Gərək dördəlli o dəlikdən girib qamışlığın arasındakı suyun kənarına gedəydik. Tunelin girişinin yanında oturduğumuz yerdə düşmən təyyarəsinin qəzəbli səsi canıma qorxu saldı. Elə bildim ki, indicə başımıza bir bomba atıb hamımızı cənnətə göndərəcək. Lakin pilotun planı başqaydı. Fişənglə suyu və qurunu işıqlandırdı. Fişənglər on beş dəqiqə çilçıraq kimi hər yerə nur səpdi. Hələ fişənglər sönməmiş torpaq sipər titrəməyə başladı. İraqlılar bizimlə görüşə gəlmişdilər.

[1] Adi şəraitdə bu listdən suda yük daşımaq üçün istifadə olunurdu, orada isə dalğıcların pusqu və hücum nöqtəsi olmuşdu.

Qalanın üzərində nə qədər silahları vardısa, hamısı birdən işə düşdü. Ayaqlarımızın altı qızışdı, havaya torpaq və barıt iyi doldu. Düşmən qalası vulkana dönmüşdü. Dördlü zenit pulemyotu qalanın kənarından suyun dərinliyini dəlik-deşik edirdi. Su şumlananda kəskin balıq iyi qalxdı. Qiyamət qopmuşdu. İlk bir neçə dəqiqədə suyun kənarındakı qamışların hamısı yerə yatdı. Bu isə gizlədənin gizlənməsi demək idi. Qamışlıq qırıq qamışlarla dolu yanmış bir yerə çevrildi. Biz torpaq sipərin arxasına qısılmışdıq. Düşməni qəfil yaxalamalı idik, amma özümüz qəfil yaxalanmışdıq.

"İraq Müdafiə naziri: "İranlılar öz məqsədlərini həyata keçirə bilsəydilər, bütün Favı, Xor Abdullahı və Bəsrənin şimalını işğal edəcəkdilər. İndiki məğlubiyyətlərinin səbəbi budur ki, biz hazırlıqlı idik və lazımi planlarımız vardı".[1]

Özümü torpaq sipərin arxasındakı səngərə yetirdim. Seyid Cavadların hər ikisi oradaydı. Çapar idim, bu vəziyyətdə komandirin yanından ayrılmamalı idim. Hamımız şok içində idik. Kim torpaq sipərin altındakı tuneldən çıxmaq istəyirdisə, güllə və qəlpə hücumu ilə geriyə itələnirdi. Batalyon istehkamın arxasında əl-qolu bağlı qalmışdı. Düşmən plamin adlı qumbara lentini qalanın üstündəki avtomata qoydu, avtomatın başını qaldırdı və uşaqların üzərinə qumbara yağışı yağmağa başladı. Yer dar idi, adam çox. Hər qumbara partlayanda, bir qışqırtı gəlirdi, dalğıclar bir-birinin ardınca yerə yıxılırdılar. Onları görəndə ürəyim od tutub yanırdı. Hansını götürmək istəyirdinsə, başqa biri yaralanırdı.

Ağız deyəni qulaq eşitmirdi. Seyid Cavadın boğazının damarları şişmişdi.

– Hacı Əhməd Kərimi ilə Hacı Əkbər Nurinin yanına qaç, de ki, vəziyyət ağırdır, nə edək.

Dalğıclar gözlərimiz önündə bir-bir əldən gedirdilər. Bayıra qaçdım. Qumbara partlayışlarının gurultusundan qulaqlarım tutulmuşdu. Ürəyim istəyirdi ki, gözlərimi yumum və heç nə görməyim. Şəhid və yaralılar arasından torpaq sipərin ortasındakı komandir səngərinə getməli idim. Beynimdən keçdi ki, kaş Məcid onların arasında olmayaydı. Torpaq, qan və barıt qoxusu bir-birinə qarışmışdı. Yerə yıxılmış dalğıcların üzləri mənə tanış idi. Hamısını təlim gecələrində görmüşdüm.

---

[1] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 243.

Özümü komandir səngərinə atdım. Nəfəsim gəlmirdi:

– Hacı Əhməd, istehkamdan keçmək olmur; nə edək?

Hacı Əkbər Nuri Hacı Əhməd Kəriminin yanında oturmuşdu, ratsiyalar bir-birinin ardınca səslənirdi. Geri ilə əlaqə saxlamaq istəyirdilər.

– Seyid Cavada de, onu dəli etsin.

Onların vəziyyəti də Seyid Cavaddan fərqlənmirdi. İş əngələ düşmüşdü, nə irəliyə yolumuz vardı, nə geriyə. Dalğıclar metal listin altından çıxıb əməliyyata təkan vermək istəyirdilər, amma suyun kənarındakı minalar əl-qollarını bağlayırdı. Düşmən dördlü pulemyot atəşləri ilə onları metal listin altına itələyirdi. Sudakı maneələr suyun özündən çox idi. Baxanda əvvəlcə günəşəbənzər istehkam milləri, üçkünc maneələr və tikanlı məftillər görürdün, sonra su.

Mərəkə yerinə qaçdığım yerdə yanıma bir plamin qumbarası düşdü, qəlpəsi barmağımın sümüyünə batdı. Döş qəfəsimin ağrıdığını hiss etdim. Əlimi qoltuğumun altına salıb yolumun üstündəki ilk səngərə atıldım.

Nə edəcəyimizi düşündüyümüz yerdə Əli Dünyadidənin səbri tükəndi. Minaçı uşaqlardan Möhsün Turabian adlı birisi ilə çiyinlərinə bir torpedo[1] qoyub qaçdılar. İstehkamdan keçəndən sonra onları görmədim. Sonralar özləri çayın üstündən necə keçid açdıqlarını mənə söylədilər. Yanıb qırılmış qamışların arası ilə suyun kənarına, düşmənin hədəf zonasına gedirlər. İraqlılar Kalaşnikov daraqlarını dəli kimi onlara doğru boşaldırlar. Gülləbaran altında torpedonu tikanlı məftillərin altına uzadırlar. O partlayanda bir-birinə keçmiş tikanlı məftillər açılır. Əli üzünü uşaqlara tutur, əlini ağzının dövrəsində yumurlayıb qışqırır:

– Gəlin!

Sağ tərəfinə düşən RPG qumbaraatanının fiti onun səsini yarımçıq kəsir və qəlpə bir böyrünü aparır. Özünə gəlincə növbəti mərmi sol tərəfinə düşür və o biri böyrü də qana qərq olur. Üçüncü mərmi önünə düşəndən sonra isə diz çökür, içalatı və bağırsaqları bayıra tökülür, qan içində yerə yıxılır.

Yaxından-uzaqdan gələn partlayış səsləri qulaqlarımın pərdələrini titrədirdi. Zaman keçmək bilmir, yer ayağımızın altında əsirdi. Həmişə düşünürəm ki, həmin gecə uşaqlar öz qanları ilə yol açdılar. Arzu

[1] İçi TNT maddələri ilə dolu olan 5 sm diametrli bir boru

edirəm ki, zaman geri qayıtsın, həmin yaralı əllə gedib tikanlı məftillərin üstünə uzanım və uşaqlar üstümdən keçsinlər. Bəlkə bununla qan yolunu açmaqda mənə də bir pay yazarlar. Çox əfsus ki, həmin gecə bir də qayıtmayacaq!

Əli Dünyadidə yaralanandan sonra diviziyanın su birləşməsinin komandiri Hacı Əkbər Şirazi[1] şəxsi heyəti ilə gəldi. Onlar polistrol köpükdən körpülərini suya salıb çayın o tərəfinə yol açdılar. Bizi çaydan keçməyə qoymayacağına dair and içmiş düşmən qumbaraatan mərmilərini körpünün ortasına tuşladı. Hacı Əkbər isə körpüləri əziyyətsiz gətirməmişdi ki, bir qumbaraatanla xeyrindən keçsin. Başı üstə suya atıldı. Uşaqlar iri cüssəsinin düz körpünün mərmi düşmüş hissəsindən çıxdığını görmüşdülər. Şəxsi heyət keçsin deyə körpünün iki tərəfini əlləri ilə saxlamışdı. Lakin o, çox davam gətirmədi, başından belinə qədər avtomatla vuruldu, əlləri körpüdə ikən şəhid oldu.

Çay bizi ikiyə böldü; yarımız bu tərəfdə qaldı, yarımız o tərəfdə. Çaydan keçənlərin geriyə yolu yoxdu. Onlar düşmənin qalanın üstündə qazdığı kanalda ilişdilər. Kanal da nə kanaldı?! Onun içində uşaqların başına nələr gəldiyini yalnız Allah bilir!

Mövqedə qiyamət idi. Yer dayanmadan titrəyirdi. Hər iki tərəf var gücü ilə müqavimət göstərir, bir-birini vururdu. Səma yanıb-sönürdü. Sudan keçmiş qüvvələr kanalın sonunu azad edə bilmədilər. Bəvarin düşmən əlində qalmışdı. Qalanın üstündəki dördlü pulemyot başımıza o qədər atəş yağdırdı ki, az qala lüləsi əriyəcəkdi. Günəş çıxmamış geri qayıtmaq əmri verildi. Gərək qayıdaydıq. Ancaq necə qayıtmaq?! Uşaqların arxasında qayıtmağa yol da yoxdu. Sağlam olanların çoxu qayıda bilmədi, o ki qala yaralılara. Əgər Allahın köməyi olmasaydı və geri çəkiləndə çayın üstünü qatı duman bürüməsəydi, itki olduqca böyük olardı. Uşaqlar duman içində mərəkədən çıxdılar.

Mən həmin gecə Məcidin sudan çıxdığını görmədim. Sevinirdim ki, çayın bu tərəfindədir. Fikirləşirdim ki, atəş səngiyəndən sonra onu axtararam. Lakin yaralı bədənini düşmən qalasının üstündə gördüklərini söyləyəndə özümdən biixtiyar yerə oturdum, bildim ki, daha ona əlim çatmayacaq. O, xalamla Hacı Rəhmətin dünyası idi.

---

[1] 17 Saylı diviziyanın su birləşməsinin komandiri Əkbər Xirədpişə Şirazi 1955-ci ildə Fars vilayətinin Dəhbid rayonunda doğulmuş, 1986-cı ildə Kərbəla-4 əməliyyatında Nəhr Xəyyində şəhadətə qovuşmuşdur.

Kim geri qayıdırdısa, onu soruşurdum. Uşaqların biri dedi ki, qayıdanda topuğunu tutubmuş, danışmağa taqəti yoxmuş, baxışı ilə onu da aparmasını istəyibmiş. Lakin elə atəş altında mümkün idimi?! Çayın o tərəfinə keçib Məcidi tapmaq istəyirdim; dalğıc geyiminin zəncirbəndini açım, qanaxması azalsın; boğazına bir qurtum su töküm, gözlərini açıb gülümsəsin, sonra arıq bədənini çiynimə atıb geriyə gətirim. Ancaq mümkün deyildi. O gecə uşaqlardan çoxu düşmən kanalında qaldı; yaralı və ya şəhid halda.

Bəvarindən salamat qayıdanlar dəli olmaq üzrəydilər. Buna haqları vardı; çünki yaralı dostlarını düşmənin yanında qoyub gəlmişdilər. Ağır şərait idi. Həmin gecə Həsən Müqimi və Hacı ağa Əkbərzadə də orada qaldı. Həsənin adını eşidəndə balaca külüngü ilə özünə qazdığı yataq otağı, Dez mədənindəki düşərgədə toyuq və xoruz saxlaması yadıma düşdü. Fikirləşdim ki, görəsən indi haradadır; yaralıdır, yoxsa şəhid olub; qanaxmadan soyuyubmu, ağrısı varmı, huşu yerindədirmi... Suallar beynimi didirdi.

Dostunun şəhid olduğunu görəndə daha rahatsan, nəinki yaralandığını eşidib xəbərsiz qalanda. Elə olanda bir dəfə yoxluğunu qəbul edirsən, bitir. Belədə isə ürəyin zərrə-zərrə yanır və axırda nə görəcəyini gözləməli olursan. Onun axırı da bəzən on ildən sonra olur, bəzən iyirmi ildən sonra, bəzən də heç vaxt olmur.

Hacı ağa Əkbərzadənin siması və qünutdakı səsi bir an da beynimdən çıxmırdı. Nəhayət, arzusuna çatmışdı. Çaydan keçə bilən uşaqlardan eşitdim ki, bir pulemyot dayanmadan bizim döyüşçülərimizə doğru atəş yağdırırmış. Əkbərzadə gedib pulemyotu susdurmaq istəyir. Ancaq getməsi ilə vurulması bir olur. Onun xatirəsi ürəyimi parçalayırdı. Namazın qünutunda o qədər şəhadət istədi ki, axırda arzusuna çatdı.

Əli Sabuni də həmin əməliyyatda şəhid oldu. Möhsün Hüseynian onun şəhadət xəbərini eşidəndə mehriban üzü qəhərdən qızarırdı. Uşaq kimi dəcəlliklərinə görə Əlini başqa cür istəyirdi. O, Xızır dağında yıxılanda Möhsün şam namazından sonra evlərimizə gəldi, valideynlərimizdən icazə alıb bizi dostumuzu ziyarət etməyə apardı. Əli alnındakı kiçik bir cızığa görə başına bir neçə metr sarıq bağlamışdı. Möhsün onu görən kimi gülüb:

– Biz bu qədər hövzə dərsi oxumuşuq, hələ başımıza belə əmmamə qoymamışıq, - demişdi, hamımızı gülmək tutmuşdu. Doğru deyirdi. Əli özünə görə bir hacı ağa olmuşdu.

Barmağımı nə qədər sıxırdımsa, qanı dayanmırdı. Ayaqlarımın taqətini çəkmişdi. Digər yaralılarla birgə məni də Əhvazın Çaharşir meydanındakı poliklinikaya göndərdilər. Əməliyyat düşündüyümüzdən də tez məğlubiyyətlə üzləşmişdi. Düşmənə manevr və təbliğat imkanı vermək istəmirdik. Qərara alınmışdı ki, mənim kimi yüngül yaralılar diviziyaya qayıtsınlar.

Bütün fikrim Məciddə qalmışdı. İstəyirdim ki, korpus itkin düşdüyünü evlərinə xəbər verməzdən öncə Qumda olum. Gecəni sübhə qədər atəş altında yata bilməmişdim, indi də gözlərimi yuman kimi Məcidin səsini eşidirdim. Uzaq bir yerdən məni səsləyirdi, Xəyyin çayının o tayından. Gecə vaxtı beynimə düşdü ki, gərək Quma gedim. Arıq cüssəmi oğrular kimi divardan aşırıb ax-ufla xiyabana keçdim. Ağrı topuğumdan başlayıb qulağımın dibinə qədər sancdı. Poliklinika Merunun yaxınlığında idi. Uşaqlardan bir dəst paltar almaq üçün birbaş oraya getdim. Xəstəxana geyimi ilə evə gedə bilməzdim.

Həmişəki kimi açarımı itirmişdim. Anam qapını açdı. Zəngimi tanıyırdı. Məni görən kimi Məcidi soruşdu. Sualına cavab tapa bilməyəndə inandım ki, o, daha yoxdur. Darıxmaq canıma hücum etdi. İstəyirdim ki, başımı anamın sinəsinə qoyub hönkür-hönkür ağlayım, o da saçımı tumarlayıb mənə təskinlik versin. Ancaq üzüm gəlmədi. Göz yaşlarımı görməsin deyə başımı aşağı saldım. Anam inana bilmirdi. Yenə Məcidi soruşdu. Cavab verməyəndə isə bərkdən ağlamağa başladı. Arzu etdim ki, kaş Məcidin yerinə mən gedəydim. Anamın ağladığını görüb qardaşım Əli də ağlamağa başladı. Nənəm sinəsinə vurub Siddiqə xala üçün ağı deyirdi. Məcid hamı üçün necə də əziz idi!

Əlini qucağıma götürdüm, sakitləşsin deyə həyətə çıxdım. Evdə vəziyyət alt-üst olmuşdu. Mehri və Nəfisə bacılarım bir küncə qısılmışdılar. Atam hava qaralmamış evə gəldi. Mənə baxan kimi başımı aşağı saldım. Özümü günahkar bilir, həyatda olduğuma görə utanırdım. Əlini çiynimə qoydu. Əlinin ağırlığına və hərarətinə nə qədər ehtiyacım vardı! Günortaya qədər qohumlara xəbər yayıldı. Telefonumuz dayanmadan çalırdı. Atam mənim əziyyətimi çəkib məsələni hamıya izah edirdi. Bir tərəfdə qısılıb oturmuşdum. Bədənim tərləyirdi, titrədirdim. Əlim irinləmişdi.

Doktor Feyz iynəni əlimə batıranda sümüyümün qızışdığını hiss etdim. Ağrıdan gözlərimdən yaş gəldi. Qəlpənin tərpənməsini və çəkilməsini hiss edirdim. Doktor onu pinsetlə tutmuşdu. Ağrıdan ayaqlarım da keyimişdi. Qışqırmayım deyə dodağımı bərk dişlədim.

Doktor bir hərəkətlə balaca qanlı qəlpəni bayıra çıxardı, yanındakı metal kasaya atanda cingildədi. Məncə, onda olmayan yeganə rəng qızıl rəngi idi. Səni yalnız döyüş yerindən xilas edən belə balaca qəlpələrə zarafata qızıl qəlpə deyirdilər; hansı ki, 2 sm o tərəfdən keçsəydi, mən də çaydan keçərdim; indi ya Məcidin yanında olardım, ya da ondan düz-əməlli məlumatım olardı.

Gec gəlib tez getmiş Məciddən geri qalmaq fikri bir tərəfə, Hacı Rəhmətlə üzləşmək fikri də bir tərəfə! Necə deyə bilərdim ki, Məcidi sağ ikən düşmən mövqeyində qoyub gəlmişəm?!

Sarıqlı əlimlə şüşənin buxarını sildim. Buz bağlamış çöllük də şüşənin arxasından gözlərimə dikilib məndən Məcidi soruşurdu. Nə qədər gedirdimsə, yol bitmək bilmirdi. Soyuq külək özünü maşının içərisinə soxurdu. Məcidin müsibəti qışı qara gətirmişdi. Gödəkcəmin yaxasını qulaqlarımın dibinə qədər qaldırdım. Anamın gözləri ağlamaqdan qızarmış, şişmişdi. Maşından enib qaçmaq, qışqırıb Məcidi çağırmaq, ona çatana qədər qaçmaq istəyirdim; qolundan tutub gətirim, Hacı Rəhmətə də özü cavab versin.

Xalama nə deyəcəkdim? Hacı Rəhmətlə üz-üzə gəlmək fikri məni çox narahat etdi, boğazımda nəsə qaynayıb nəfəsimin yolunu kəsdi. Kaş o qalaydı, mən yox. Pasdaran prospektinə çatmamış maşından endim. Hacı Rəhmətlə daha gec üzləşmək istəyirdim.

Hara gedirdimsə, Məcid də oradaydı. Bütün şəhəri birlikdə gəzmişdik. İndi hara baxırdımsa, onu görürdüm. Gözləri camaatın üzündə əks olunurdu. Yanımdan keçən hər kəs Məciddi, həmişəki utancaq baxışlarıyla.

Özümə gələndə küçələrinin başındaydım. "Neyistan-7" lövhəsini görəndə ayaqlarım titrəməyə başladı. Qışın çilləsində hava od kimi istiləşdi. Nəfəsim gəlsin deyə yaxamı açdım. Ağzım qurumuşdu. Lal və boş küçəyə baxdım. Qış fəslinin soyuq qürub çağında nə uşaq vardı, nə oynayan. Sanki dünəndi, Hacı Rəhmət bazara gedəndə hərəmizə beş tümən pul vermişdi: mənə, Məcidə, Əmirə, Mehdiyə və bacılara. Sevincək qaçıb kakaolu süd almışdıq. Tehranda qalanda hər səhər işimiz bu idi. Axşamüstü də Məcid, Əmir və Mehdi ilə birlikdə amerikalıların qolf meydançasına gedir, kənarda dayanıb topun divardan bizə doğru gəlməsini gözləyirdik; gələn kimi götürüb qaçırdıq. Məcid həmişə bizimlə olur, qaçırdı, amma heç vaxt topu götürmürdü.

Evlərinə çatdım. Qollarım bədənimə ağırlıq edirdi. Çətinliklə udqunub zəngə basdım. Xalamın ağlamaq və qışqırıq səsi ürəyimi parçalayırdı. Dayılar və xalalarımın yaşlı yoldaşları qonaq otağında divarboyu oturmuşdular. Qapının ağzında dayandım. İçəri girə bilmirdim. Hacı Rəhmət çiyninə Nayin əbası atıb yuxarı başda oturmuşdu. "Salam" sözünü boğazımın dibindən çətinliklə bayıra çıxardım. Başlar mənə doğru döndü. Üzüm qızarmışdı, ürəyim boğazımda döyünürdü. Hacı Rəhmət "ya Əli" deyib dizlərini yerdən qaldırdı. Sanki başım bədənimdən böyük olmuşdu, yanaqlarım gizildəyirdi. Otağın o başından mənə doğru elə gəldi ki, sanki çiyinlərində ağır bir yük var. Burma bığı daha üzünə yaraşıb heybət vermirdi.

Qarşımda dayandı. Gözlərinin içinə baxa bilməyib başımı aşağı saldım. Əllərinin hərəkətinə diksindim, elə bildim ki, indicə qulağımın dibindən isti bir sillə dəyəcək. Qollarını boynuma doladı, çiyinləri titrəməyə başladı və hönkürtüsü ucaldı. Qumdan Tehrana qədər canımda olan bütün qorxu göz yaşına çevrilib axmağa başladı. O vaxta qədər onun ağladığını görməmişdim. Tez özünü toparlayıb dərin nəfəs aldı, əlimdən tutub otağın başında öz yanında oturtdu. Kişilər ortamı yumşaltmağa çalışdılar:

– Bəlkə, əsir düşüb.

– Bəlkə, sürünə-sürünə öz mövqeyimizə qayıdıb.

– Bəlkə, yaralanıb və xəstəxanaların birindədir.

Hərə bir söz deyirdi. Hacı Rəhmət əlimi əlində saxlamış, gözlərini xalçanın naxışlarına dikmişdi; nə bir söz deyir, nə bir söz eşidirdi. Bəlkə də, hamıdan yaxşı bilirdi ki, Məcid daha qayıtmayacaq.

Hacı Rəhmət Məcidin "qalmaq, yoxsa getmək" yarışında uduzmuşdu. Məcid üçün getmək yazmışdılar, Hacı Rəhmət üçün yanmaq. Məcid getdi, atasının ürəyi yandı; yavaşca, səssiz. Daha qabaqkı Hacı Rəhmət deyildi ki, bazarın bütün bir sırası ona ayaq cütləsin. Məcidin müsibəti belini əymiş, qocaltmışdı. Gününü-gecəsini birtəhər keçirirdi. Xalam deyirdi ki, xəbəri eşidəndə Məcidin otağına gedib çarpayısının yanında dizi üstə oturmuş, ədyalı əlləri ilə sıxıb bərkdən ağlamışdı. Dünyanın işi tərsinə dönmüşdü: ana ataya təskinlik verirdi. Çox deyirdi ki, Məcid sevdiyi yolla gedib, Hacı Rəhmətin yanmış ürəyi isə sakitləşmirdi. O, uşaqlarının içində Məcidi başqa cür sevirdi, həmişə deyirdi ki, mənim Məcidim birdənəydi. Yazıq bir neçə ay Məcidə yas məclisi keçirməyə qoymadı. Özünü o yerə vurmur,

cəsədin qayıtmadığını bəhanə edirdi, amma gözü yoldaydı ki, Məcid qayıdacaq. Axırda da oğlunun cəsədinin qayıtmasını görmədi, o, itkin düşəndən iki il sonra qəm-qüssədən həyatla vidalaşdı.

Məcidin itkinlik xəbərindən bir həftə ötməmiş cəbhəyə qayıtdım. Soyuduculu konteynerlər qarşımda cərgəylə düzülmüşdü. Kimliyi məlum olmayan şəhidləri bu konteynerlərə yığmışdılar. Məcidin böyük qardaşı Əmir, əmisi Hacı Həmid və əmisi oğlu Hacı Mustafa ilə ondan bir iz tapmağa getmişdik. Haraya gedirdiksə, Hacı Həmidi tanıyırdılar. O, öndən gedirdi, biz də arxasınca. Konteynerlərin içindəki şəhidləri Nəhr Xəyyinin aşağısından, Ərvənddən toplamışdılar. Dalğıc geyimləri əyinlərində cırılmışdı. Çoxunun başı yoxdu, olanların da üzlərini balıqlar yemişdi. Fikirləşirdim ki, kaş Məcid onların arasında olmasın, onu Hacı Rəhmətə və xalama bu vəziyyətdə aparmayım. Şəhidlər rahat yatmışdılar, sanki bir də evlərinə qayıtmayacaqdılar. Onları görəndə çox narahat oldum, nəfəsim daraldı.

Sonuncu konteyneri açanda yerdə bir ay parıldadı. Uzun ağ saqqallı bir qocaydı, yalnız başını tapmışdılar. Konteynerin bir tərəfində, dalğıcların ayaqlarının yanında boynu üstə qoymuşdular. Yerə çatan ağ saqqalını görəndə Həbib ibn Məzahir yadıma düşdü, səhərdən tikan kimi boğazıma batan qəhərim açıldı. Orada, qapının yanında oturub ağlamağa başladım. Kimin mənə baxdığı və ya baxmadığı önəmli deyildi.

Çox bezmişdim. Bəs Məcid haradaydı? Onu tapsaydım, xəcalətim bir az azalardı. Fikirləşdim ki, indi göydən mənə baxır, mənsə konteynerlərin və onun göylərə ucalmış dostlarının bədənləri arasında sərgərdan qalmışam. Əlimdən gələnsə, yalnız hönkürtü idi.

Kor-peşman Tehrana qayıtdıq. Hacı Rəhmət hələ Məcid üçün yas keçirməyə razılıq vermirdi. Siddiqə xala bir gecə yuxuda gördü ki, bir kişi bir tikilinin qarşısında dayanıb və xalamı içəri oğlunun yasına dəvət edir. Xalam da razılıq vermir, deyir ki, mən hələ oğlumun cəsədini görməmişəm. Kişi binanın arxasında Məcidin cəsədini xalama göstərir və onu yenə içəri dəvət edir. Xalam içəri girir, xanımlar şəhid anasına hörmət üçün ayağa qalxırlar.

Xalam bu yuxudan sonra Məcidə yas məclisi keçirdi. Yas sahibinin cəsədi isə on dörd il sonra gəldi.[1] Yasda xalamın gözünə görünmədim;

---

[1] Məcidin cəsədi on dörd il sonra axtarış zamanı tapıldı, 24.05.01 tarixində, İmam Rzanın (ə) şəhadətinin ildönümündə İrana qayıtdı.

qorxurdum ki, ağladığı yerdə məndən Məcidi soruşar, cavab verə bilmərəm.

Ağır məclis idi; nə cəsəd vardı, nə məzar, nə də soyuyacaq torpaq. Belə olduqda isə Məcidin yoxluğunu qəbul etmək olmurdu. Xalama yazığım gəlirdi. Küçədə gəzişirdim. Məcidin şəkildən baxışı da utancaqdı. Sanki hamı ona baxdığına görə xəcalət çəkirdi. Şəhadət xonçasının Məcidi dövrəyə almış işıqları ətrafa zəif və dumanlı işıq saçırdı; Məcidlə bizim aramızda zərif və nurlu bir hasar kimi. İşıqların arasından küçənin sonuna, hətta daha uzağa baxırdı; bizim görmədiyimiz qəşəng bir yerə.

Məcid məndən cəmi beş ay böyükdü, məndən təxminən beş il sonra cəbhəyə gəlmiş, amma tez getmişdi. O, bütün işləri kimi cihadı da ən yaxşı şəkildə yerinə yetirmişdi. Hər dəfə vəsiyyətnaməsi barədə fikirləşəndə yalnız bir cümləsi beynimdə çox dolaşır: "İlahi! Özün şahid ol ki, dünyanın bütün gözəlliklərini bir tərəfə atıb Sənə doğru gəlirəm".[1] Məncə, Məcidin bütün həyatı bu bir cümlədə xülasə olur.

---

[1] "Bu əzizlərin yazdığı vəsiyyətnamələri oxuyun. Əlli il ibadət etmisiniz, Allah qəbul eləsin, bir gün də vəsiyyətnamələrin birini oxuyun və düşünün". (İmam Xomeyni, Nur səhifəsi, c. 14, s. 491)

# On ikinci fəsil

## *Sualtı qayıq*

"Önəmli olan budur ki, bu gün hamı hər şeyini bizim üzümüzə bağlayıb və bunun özü bizimçün bir nemət olub. Bütün qapılar bağlananda və fikirlər açılanda görürsünüz ki, işlər başladı və hər yer fəaliyyət mərkəzi oldu".

İmam Xomeyni, Nur səhifəsi, c. 1, s. 270

İstidən bezib sərinlənmək ümidi ilə əlimi boğazımın altına çəkirdim. Düşünürdüm ki, görəsən, qışın ortasında bu qədər istilik göyün harasından başımıza yağır. Buşəhrin isti günəşi dərimi yandırır, rütubətli havada paltarlarım bədənimə yapışırdı. Qumun yayı istilik baxımından Buşəhrin qışına uduzurdu. Aşura qayığı suyu yarıb irəliləyir, üzərindəki DŞK pulemyotuna görə ağırlaşmış gövdəsini çətinliklə qaldırıb-endirirdi.

Körfəzin sahilində dayananda onun əzəmətini görmək olmur. Elə ki, ayağın yerdən üzülür, körfəzin nə olduğunu anlayır, dərin və ucsuz-bucaqsız sularla baş-başa qalırsan. Arxamızda ağ köpükdən xətt qalırdı. Sahilin heç qaraltısını da görmürdüm. Uzaqlarda yalnız səmaya birləşmiş körfəz suyu görünürdü.

Hacı Rza məni bir neçə lövbəri təhvil almağa göndərmişdi. Kərbəla-5 əməliyyatının mühəndis layihəsində istifadə olunacaqdı. Suyun xırda şor dənəcikləri üz-başıma dəyir, acı dadı dərimi yandırırdı. İti günəş şüası suyun üzərindən gözlərimi qamaşdırırdı. Əlimi gözlərimin üstünə

qoyub baxdım. Bizdən uzaqda bir qayıq gövdəsini soyuqqanlı və ağır şəkildə suda dartırdı. Onu görəndə xalalar və dayılarla birlikdə Qişm adasına səfərimiz yadıma düşdü. Təkərlə doktor Sənətinin maşınının qapısını əzəndən sonra gəmiyə minmişdik. Məcid, Əli və Mürtəza dayımla göyərtənin kənarına qaçıb gözlərimizi suya dikdik. Bizi çağırıb geri çəkilməyimizi tapşırırdılar, qulaq asmırdıq. Böyüklərin ürəyi bulanırdı, bizimsə vecimizə deyildi, maraqla suyun üzərinə əyilmişdik.

Körfəzin köpüyünə baxmağı sevirdim. Eşitmişdim ki, bu sular dəniz ulduzları və meduzalarla doludur. Gəmi suyu yarıb irəliləyirdi; müharibədən və qəm-qüssədən uzaq. Anam böyük bir qarpızı kəsdi. İri qırmızı dilimləri dişləyəndə çənəmizin altından suyu axırdı. Toxumlarını uzağa üfürmək yarışına başlamışdıq. İndi isə nə Məcid vardı, nə Məhəmməd dayım, nə də Qişmə kollektiv səfər. Su, günəş və Məcidlə dayımın başımda dolaşan gülüş səsləri ilə baş-başa qalmışdım.

Xarəkə çatanda paltarlarım duzlu su damcılarından ağarmışdı. Elə bilirdim ki, hələ də gəmidəyəm; yer ayaqlarımın altında yellənirdi. Gedib-gələn adamlara göz gəzdirdim. Estakadada dayanmış gəmi və qayıqların sayı prospektdəki maşınlardan çox idi. Sahil həyatı Qumdakı həyatla necə də fərqlənirdi! Əhalinin hər bir işi körfəzlə tənzimlənirdi: işləmək, yatmaq, yemək.

İraq Azərpad və T estakadalarını təzə vurmuşdu.[1] Şumlanmış və yanmış vəziyyətdəydilər; yarısı suda, yarısı bayırda. Səddam ağlını itirmişdi. Fav ovcumuzun içindəydi. Mehranı geri almış, Kərbəla-5 əməliyyatında da Bəsrəyə yaxınlaşmışdıq. Bizi bir tərəfdən çıxarırdısa, başqa bir tərəfdən irəliləyirdik. Bu vurhavurla bizi müharibənin bitdiyini qəbullanmağa məcbur etmək istəyirdi. Üstünlük də bizdə olduğuna görə razılaşmırdıq, deyirdik ki, işğalçı mühakimə olunsun, dəymiş ziyan ödənsin və naməlum atəşkəs yox, daimi sülh imzalansın. Bu səbəbdən dəli kimi şəhərlərimizin canına düşmüşdü.

Xarək neft mərkəzləri ilə doluydu. Buna görə İraq raketlərini Xarəkə doğru yönəltmişdi. Hər gün bir tərəfini bombalayır, xəbəri hər yerə dolaşırdı. Təmir-tikinti qüvvələri tərdən islanmış və günəşdən yanmış üzlərlə dayanmadan işləyir, estakadaları bərpa edirdilər.

[1] İranın əsas nefti Xarək adasından ixrac olunurdu. Düşmən oranı dəfələrlə atəşə tutdu, amma ordunun hava hücumundan müdafiə sistemi sayəsində neft ixracını heç vaxt dayandıra bilmədi. (Hekayəçi)

Estakadasız liman uşaqların çimməyinə də yaramırdı, o ki qala neft tankerlərinin yan almasına.

Ləndinkraflar[1] yük doldurmaq üçün lövbər salana qədər şəhərdə gəzir, qəm çəkirdim: Xarək bombardmanının şəhidlərinin, yanmış estakadaların və cəbhələrlə məhdudlaşdırmağın mümkün olmadığı müharibənin qəmini.

Hacı Rza Əhmədi Darxuində, bizim diviziyamızın öncəki düşərgəsinin yanında Nuh Mühəndislik Mərkəzi yaratmışdı. İşim bitəndən sonra yolumu atom stansiyasındakı düşərgəyə döndərdim. Düşərgə bombalanandan sonra ilk dəfə idi oraya gedirdim. Orada gəzişir, dostlarımı xatırlayıb ah çəkirdim. Həyatda olmayan dostlarım üçün darıxdım. Düşərgə onların səs-küyü ilə doluydu. Kaş onları görə biləydim! Üç il qabaq Həsən Zairi ilə birgə yanında şəkil çəkdirdiyimiz konteyner yadıma düşdü. Konteynerin üzərində sınmış bir divar və bir neçə qırmızı qızılgül rəsmi vardı. Rəsmin yuxarısına yazılmışdı: "Şəhərimizin küçələrindəki lalələrin qırmızı ləçəklərindən şəhadət ətri gəlir".

Həmişə fikirləşirdim ki, rəssam nə üçün lalə yerinə qızılgül çəkmişdir. Bu rəsmin adını “Olmayan lalə” qoymuşdum. Hər dəfə şeiri oxuyub rəsmə baxanda məni gülmək tuturdu. Buna görə bu sənət əsəri ilə şəkil çəkdirmək istədim. Konteynerin pilləsi üzərində oturdum, Həsən Zairi də yanımda dayandı. Əlində qırmızı təsbeh vardı. Həmişəki kimi, bu dəfə də şəkil çəkdirəndə fikrim başqa yerdə oldu. Hər ikimiz başımızı keçəl qırxdırmışdıq ki, uşaqların dediyi kimi, əməliyyat zamanı düşmənin gözünü qamaşdıraq.

Kaş Həsən və digər uşaqlar da düşərgədə olaydılar: Əbüzfəz və Abbasəli Muradilər, quyuqazan külüngü ilə Həsən Müqimi, Cəfər, Mənsur Baqiri və Həsən Rəncbər. Yerləri necə də görünürdü! Amma heç biri yoxdu; nə uşaqlar, nə də hətta konteynerlər. Boş və yarıyanmış bir çöllük idi. Bombardmandan salamat çıxmış konteynerləri də aparmışdılar. Partlayışlar yerdə qara dairələr açmışdı. Onların arasında gəzişir, düşərgənin xatirələrini gözlərim önündən keçirirdim.

Hüseyniyyənin yerləşdiyi yerə çatdım. Bir zamanlar sıx və səs-küylü idi; Ahəngəranın gələcəyi gün kimi.

Bədr əməliyyatından öncə idi. Tavandan asılmış ventilyatorların hüseyniyyənin ağır və boğucu havasına gücü çatmırdı. Məhəmməd

---

[1] Üzərində kabinə olan böyük bir gəmi

Bitərəfan dayı[1] dostunun çiynində oturub guya hay-küyü sakitləşdirirdi. Batalyonların miyandarı idi. Həmin gün az qala ventilyatorun altında özünü işə salacaqdı. Pərlər sürətlə üzünün yanından və başının üstündən keçirdi. Başını gizlədir, qəliz Qum ləhcəsi ilə uşaqlara deyirdi ki, Ahəngəran gələnə qədər sakit olsunlar.

Hüseyniyyədəki əzadarlıqlar üçün bütün dünya qədər darıxdım. Kaş yenə olaydı və mən içinə girəydim! Yanmış və boşalmış çöllüyə göz gəzdirdim. Beton hamam səmtindəki qara partlayış dairələri arasında irəlilədim. Bombardmandan salamat çıxmış yeganə yer oraydı. Ancaq nə faydası; duş altında oxuyan uşaqlar yoxdular. Gülüş və zarafat səsləri Karunun o tayına qədər getmirdi. Bədənlərində döymə olanlar yox idilər ki, gecələr hamamda keşik çəksinlər, şəkil dolu bədənlərindən utanmasınlar deyə başqalarını içəri buraxmasınlar.[2]

Artıq heç kim yox idi. Bütün düşərgədən sükut və qürbət yağırdı. Yumşaq torpaq özünü küləyə tapşırmışdı. Külək qara dairələr arasında oyan-buyana əsirdi.

Bu yanmış çöllükdə elə itmək istəyirdim ki, heç kim məni tapmasın. Bütün bu yalqızlıqdan yorulmuş halda yerə oturdum, torpağı ovucladım. Boğazımı sıxan qəhər çiyinlərimi titrətdi, ağlamaq səsimlə sızıltılarım bir-birinə qarışdı. Dostlarımı ürəyim istəyirdi.

Şəhərlərin bombalanması barədə hərədən bir söz eşidirdim. İraq raketləri Quma da çatmışdı. Xəbərsizlik mənim üçün hər bir pis xəbərdən ağır idi. Çantamı hazırlayanda anamla nənəmin nə üçün kövrəldiyini başa düşürdüm; indi bilirdim ki, niyə atam gedişimi görməsin deyə sübh çağı məndən tez evdən çıxırmış.

Evə zəng vuranda ağlamaqdan anamın səsi tutulmuşdu. Nə baş verdiyini təxmin edə bilmirdim. Beynimə min cür fikir doldu. Anam hıçqırır, danışa bilmirdi. Nənəm dəstəyi aldı. Fəxri xalamın oğlu Əli Kərbəla-5 əməliyyatında şəhid olmuşdu. İnana bilmirdim. Xəbərdən dilim tutuldu, dünya başıma hərləndi. Ondan cəmi bir neçə kilometr geridəydim, amma birdən-birə aramızda yerlə göy qədər məsafə yaranmışdı. Ağzım acılaşdı. Fikirləşdim ki, indi Məcidlə birlikdə mənə

---

[1] Məhəmməd Bitərəfan 1964-cü ildə doğulmuş, 1988-ci ildə Fav əməliyyat bölgəsində şəhadətə qovuşmuşdur.

[2] "Çoxlu əziz gənclər Haqq-taalanın rəhmət əli ilə birdən-birə, mənəvi və ruhi bir ildırım sürəti ilə... bir gecədə yüzillik yolu qət etdilər, ariflərin və arif məsləkli şairlərin uzun illər arzuladıqlarını birdən-birə əldə etdilər, Allahla görüş eşqini şüardan əmələ çevirdilər..." (İmam Xomeyni, Nur səhifəsi, c. 17, s. 304-305)

baxırlar. Vücudumun dərinliklərindən bir fəryad qopub döş qəfəsimi yarmaq istəyirdi. Gözlərimi yumdum. Göz yaşları kirpiklərimin arasından özünə yol açdı.

Sanki şəhərə ölüm tozu səpmişdilər. Küçələrin hay-küyü yoxa çıxmışdı. Onların uşaqların oynamaq səsi ilə dolmasını istəyirdim. Hərəmin ətrafı qələbəlik idi; maşın da çoxdu, amma şəhər ölmüşdü. Camaat canını götürüb qaçmış, düşmən raketlərinin izi olmayan yerlərə köçmüşdü.

Ölümün əhali ilə yarışa girdiyini hiss edirdim. Aralarına ayrılıq salmaq üçün bir tərəfdə pusqu qurmuşdu. Biz öndəydik, namərd düşmənsə raketlərini arvad-uşaqların başına tökmüşdü.

Bazar üçyoluna çatanda yerimdə quruyub qaldım; nə müştəri sıxlığı vardı, nə səs-küy, nə get-gəl. Kərpic və dəmirlərdən ibarət bir xarabalıq idi. Hansı uçqunun hansı mağazanınkı olduğunu ayırd etmək olmurdu. Fikirləşdim ki, keçən həftəyə qədər burada olmuş insanlar indi hardadırlar. Fatimiyyə günlərinin qara bayraqları hələ görünürdü. Sanki bundan artıq uçmasın deyə divarları saxlamışdılar. Raketlərin biri bir qadın məclisinə düşmüşdü. Rövzə zamanı analarının yanında oynayan balaca qız uşaqlarının fikri ürəyimi yandırırdı. O məclisdə şəhid olanların çoxunun adı Fatiməydi. Talelərinə qibtə etdim. İrəlidə ağır atəş altında əlim şəhadətə çatmamışdı, burada şəhərin içində isə şəhadət paylamışdılar.

Uçqun arasında gözlərim korpusun köhnə ofisinə sataşdı. Partlayışın gurultusu şüşələrini qırmışdı. Toz-torpaqlı pilləkəni və qapının üstündəki qıflı ora çoxdandır heç kimin girmədiyini göstərirdi. Bu pilləkənin üstündə özümü gördüm, bığı təzə göyərmiş on dörd yaşlı oğlan uşağını. Əlimdə şəxsiyyət vəsiqəsi pilləkəndən yuxarı qaçmışdım. Tez bir zamanda cəbhəyə getmək istəyirdim. Həmin gündən beş il ötürdü. Bu boşaldılmış ofisdə o get-gəllərdən də xəbər-ətər yoxdu; nə məni qeyzlə dərslərimi oxumağa göndərən ucaboy kişi, nə də düşmənlə döyüşə gedən kimi müharibənin bitəcəyini düşünən oğlan uşağı. Bu uçqunun arasında yalnız müharibə görünürdü, rəhimsizcəsinə şəhərin ortasında dayanıb meydan sulayırdı.

Şükür Allaha ki, Qumda həzrət Məsumənin (s) hərəmi vardı və ürəyimi qüssədən yarılmağa qoymurdu. Bu sıxıcı şəhərdən hərəminə sığındım. Sübh azanına az qalırdı. Gözlərim zərihə sataşan kimi qəhərim açıldı, başımı barmaqlıqlara qoyub öpdüm və ətrini içimə çəkdim. Əlinin qarabuğdayı çöhrəsi bir an da gözlərim önündən

getmirdi. Həmişə onu ələ salıb "qara Əli" çağırırdıq; həmişə, yalnız bir gündən başqa.

Fəxri xalamla birlikdə qatıra minib hamıdan öndə gedirdilər. Gecəni İmamzadə Davud məqbərəsində qalacaqdıq. Biz uşaqlar hamıdan çox sevinirdik. Nə qədər israr etdik ki, qatıra tək minək, amma heç kim bizə üz vermədi. Qatırlar bir-birinin ardınca dağın aşırımlarından keçirdi. Dəstəmiz yerindəydi: mən, Məcid, Əmir, Mehdi və Mürtəza dayım. Birləşəndə Əlini məzlum tapıb incidirdik. Onu nə qədər "qara Əli" çağırırdıqsa, bizə məhəl qoymurdu.

Fəxri xalanın yanında şirə dönmüşdü. Qatırları hamıdan öndə gedirdi. Bizim də tərsliyimiz tutdu. Yeyin getsin deyə ayaqlarımızla qatırlarımızın böyrünə vururduq, onlarınsa vecinə deyildi. Əli dəqiqəbaşı dönüb bizə baxanda və əl yelləyəndə daha çox hirslənirdik. Aşağıya baxanda başım gicəllənirdi. Qatırın ayağının altından xırda bir daş çıxdı. Gözümlə onu izlədim, ucsuz-bucaqsız dərədə itdi. Qorxumdan xurcundan bərk yapışdım.

Dərənin dibinə baxdığım yerdə birdən Fəxri xalanın qışqırtısı ürəyimi üzdü. Əli yerlə göyün arasında sallaq vəziyyətdə qalmışdı. Hamı toplaşdı. Kişilərin səsi xalamın qışqırtısı qədər bərk çıxırdı. Əlini yuxarı qaldırmayana qədər biz uşaqları yaxınlaşmağa qoymadılar. Qan alnından köynəyinə tökülürdü. Səfər burnumuzdan gəldi. Anam qızıl üzüyünü su dolu stəkana saldı. Hərəyə bir qurtum qızıl suyu içdik. Hıçqırtım dayanmırdı. Yolun qalanını piyada getdik və heç kim qatıra minmək istəmədi. Əlini qanlı köynəkdə görəndə kövrəlirdim, ona ürəyim yanırdı. Həmişəkindən də məzlum olmuşdu. Heç kimin onu incitməsini istəmirdim, hətta özümün də.

– Əli! – cibimdəki nabatlardan vermək üçün onu çağırdım.

Mənə sarı döndü. Alnına baxdım. Fikirləşdim ki, balaca qanlı yarıq üzünü çox ağrıdır. Ona çox yazığım gəldi.

Azan səsi bütün məqbərəyə yayıldı. Başımı dizlərimin arasına saldım, hönkürtülərim zərihin ətrafındakı sükutu pozdu. Əli üçün darıxırdım.

Nə qədər qaza basırdımsa, yol bitmirdi. Məcidin şəhadətindən bir ay ötməmiş Əli getmiş və qəlbimi odlamışdı. Üçümüz də yaşıd idik; birlikdə böyümüş, birlikdə məktəbə getmiş, birlikdə ayağımız cəbhəyə açılmışdı; hətta mən onlardan daha tez. İndi isə yalnız mən qalmışdım. Digərlərinin uçmasına çox şahid olmuşdum, qanadım olmadığına görə özümü dəyərsiz hiss edirdim. Məni ağlamaq tutdu. Dodaqaltı onu

çağırdım. Kaş o qədər məzlum olmayaydı, o qədər səssiz getməyəydi! Kaş məni də özü ilə aparaydı!

Küçənin qürubunu soyuq sükut bürümüşdü. Şəhadət xonçasındakı şəklində əvvəlcə alnındakı sınığın izi olan balaca ağ xətti gördüm. Çərçivədən gülümsəməsi ürəyimə od vurdu. Necə də mehriban gülürdü; onu yamsılayıb "r" hərfini "l" kimi tələffüz etdiyimiz zamanlarda olduğu kimi! Dilində pəltəklik olduğunu özü unutmaq istəyirdi, bizsə qoymurduq, qəsdən ağzımızı əyib onun kimi danışırdıq. O isə şıltaq zarafatımıza görə heç vaxt narahat olmur, həmişə gülürdü.

Fəxri xalam məni görən kimi dərdi təzələndi, oxuyub-ağlamağa başladı, qollarını boynuma saldı. Əli üçün darıxmışdı. Zorla udqundum. Kaş Əli olaydı və mən xalamı sakitləşdirməyə məcbur olmayaydım![1]

Bir ayağım Xakfərəcdə idi, bir ayağım Salariyyədə. Kərbəla-5 şəhidləri şəhəri ələ keçirmişdilər. Uşaqların şəhadət xonçalarını görəndə yanıb-yaxılırdım. Sakitləşə, bir yerdə qərar tuta bilmirdim. Yasa gedəndə şəhidlər üçün darıxırdım, məzarlığa gedəndə Cəmkəran üçün; Cəmkərana gedəndə xanımın zərihinin yanında tək qalmaq istəyirdim, hərəmə gedəndə də yer-göy üçün darıxırdım. Dərdimin nə olduğunu bilirdim: şəhadət istəyirdim.

Divarlarda qara bayraqları görəndə Hacı Hüseyn Baqirzadəgan yadıma düşürdü. Artıq yox idi və məhərrəmlikdə məscidi qaraya bürümürdü; yox idi ki, cəbhədən qayıdanda qızlarını qucağına götürüb dizləri üstə oturtsun. Saç-saqqalı ağarmış olsa da, gənclərdən önə keçib getdi.

Kərbəla-5 şəhidlərindən çoxunu tanıyırdım. Heç birinin yas məclisində Bitərəfanın məclisi qədər ürəyim yanmadı. Diviziyada çoxlu Bitərəfan vardı. Bu, Favdakı Bitərəfan idi, RPG qumbaraatanını arıq çiyininə qoyub torpaq sipərin bu tərəfindən o tərəfinə sürüyən, düşmən helikopterini vurmaq istəyən.

Məsciddə atasının yanında oturdum. Əlimi tutdu. Bütün sözləri quru və zəhmətkeş əllərinin hərarətinə süzüldü. Bitərəfandan yalnız Fav xatirəsi yadımdaydı. Çərçivədən bizə baxırdı; atası kimi sakit və lal-dinməz. Oğlunun şəhadəti ilə beli büküldü. Bəlkə də, kar və lal

---

[1] "Öz pak ətəklərində İslam üçün belə övladlar yetişdirmiş hörmətli anaların şərafətli addımları qarşısında nə demək olar?!" (İmam Xomeyni, Nur səhifəsi, c. 19, s. 40-41)

olmasaydı, bir gecə içində bu qədər qocalmazdı; oğlundan, onun üçün arzularından, ona çəkdiyi zəhmətlərindən, əziyyətlə evə gətirdiyi halal çörəklərdən danışardı. O qədər danışardı ki, ürəyi soyuyardı, qəm-qüssəsi azalardı. O isə sakit və məzlum halda oğlunun şəklinə baxır, gözlərinin kənarından yaş süzülürdü.[1]

Hamı şəhid məzarlığında idi. Bu başından o başına qədər köks ötürürdüm. Fikirləşdim ki, burada hamıya yer var, məndən başqa; mənim bu cənnətdən payım yoxdur. Abdullah Mürəvvicin məzarı yanında oturdum, əlimi daşın üstünə qoydum. Soyuğu qəlbimi alt-üst etdi. Üzümü daşdakı üzünə yapışdırıb onu öpdüm. Əminəm ki, Abdullah oradaydı; yaşıl seyid şalı ilə, sakit və azdanışan halda, Əhvaz-Rüfəyyi magistralında səhərə qədər Məcidlə mənim yanımda qaldığı kimi.

Həmin gecə qaranlıqda iti görmədim, kapota çırpıldığını eşidib əyləcə basdım. Heyvanın sümüyü radiatoru deşmişdi. Nə edəcəyimizi bilmirdik. Ölmüş iti kənara çəkdik. O zülmətdə və istidə yolun kənarında oturmalı, köməyə yetəcək birinin gəlməsini gözləməli idik. Maşının işığının düşdüyü yerdə oturduq. Abdullahın təzə çıxan seyrək saqqalı arasında tər damcıları parıldayırdı. O qədər susuz idim ki, başımı maşının altına salıb radiatordan axan suyu içmək istəyirdim. Yalnız Məcidin qumqumasında su vardı; dəstəmaz almaq və üçümüzün susuzluğunu yatırmaq üçün bir qumquma. Özü bir qurtum da içmədi.

Duzlu tər gözlərimi yandırırdı. Abdullahla Məcid səmimiləşmişdilər. Cibimdən mavi dəftərçəmi çıxardım. Abdullahın xarakterləri yazmaq üçün maraqlı gəldi. Adını çoxdan dəftərimə yazmışdım, Salariyyənin Peyğəmbər (s) məscidində ilk dəfə gördüyüm zaman. Namazdan sonra əlimi əlləri arasında saxlamış, eynək arxasından uzun və dərin baxışla mənə baxıb demişdi:

– Allah qəbul eləsin!

Əlləri ilə ürəyimdə nə isə əkdiyini hiss etdim. Adını elə o vaxt dəftərimə yazdım. İndi də maşının işığında yazıram, o və Məcid anlamadan adının önündəki xətləri doldururam. Onda heç vaxt ağlıma gəlməzdi ki, bir gün Məcidlə Abdullah olmayacaq və mən tək

[1] "Daxmada yaşayıb şəhid vermiş bu insanların saçının bir teli dünyanın bütün saraylarından və saray adamlarından üstündür!" (İmam Xomeyni, Nur səhifəsi, c. 20. s. 342)

qalacağam. O, Məcidə yeganə duasının şəhadətə layiqlikdən ibarət olduğunu söyləyəndə kaş mənim üçün də dua etməsini istəyəydim! Məcidlə elə danışırdı ki, sanki sözünü yalnız o, başa düşür. Qələbə xəbəri olmadan şəhərə qayıtmağa utanırdı; özündən, şəhid və əsir analarından.

Yaşıl şalı ilə gözlərini sildi. Məcid başını aşağı saldı. Sözlər göz yaşlarının arxasından dumanlı görünürdü. Dəftərçəmi bağladım. Sübh azanına az qalırdı. Hərəmiz qaranlıq çöllüyün bir tərəfinə çəkildik. İsti və susuzluq yadımızdan çıxdı.

Soyuq daşı bir də öpüb Abdullaha dedim ki, Salariyyə məscidində namazdan sonra olduğu kimi, yenə əlimdən tutsun. Səhərə qədər yanında qalmaq istəyirdim, o da qəlbimi əlinə alıb mənə bəndəlik sirrini öyrətsin – Abdullah olmaq sirrini.

Şəhadət zamanı Hacı Əhməd Kərimi ilə birlikdə idilər. Kərbəla-5 əməliyyatının əvvəlində bir neçə nəfərlə birlikdə qurulmaqda olan torpaq sipərin arxasına yerləşirlər. Hacı Əhməd Kərimi ilə Abdullah Mürəvvic də həmin komandada imişlər. İri ağır bir mərmi qəfildən özünü torpaq sipərin arxasına yetirir. O qədər sürətlə gəlir ki, heç kim top, yoxsa minaatan mərmisi olduğunu bilmir. Bu mərmi ilə Əli Azad Fəllah,[1] Abdullah Mürəvvic, Hacı Əhməd Kərimi və orada olan hər kəs şəhid olur. Bir neçə dəqiqədən sonra həmin istiqamətə bir mərmi də düşür. Bu zaman uşaqlardan üç nəfər istehkamın üstündə olub, mərmi isə yalnız birini aparmaq əmri alıb: Əhməd Niyazxanini.[2] O, öncəki mərmidən parça-parça olmuş şəhidlərin cəsədlərini toplayırmış. Dostlarının cəsədini topladığı zaman ürəyi necə sınıbsa, dostlarına nə deyibsə, bir neçə dəqiqə ötmədən başsız halda və qan içində yanlarına gedib.

Mərminin qəlpələri Hacı Əhmədin sinəsindən yuxarı hissəni və ayaqlarını aparır, ondan əzilmiş bir ət parçası qalır; yəni arzusu həyata keçir: “irbən irba”.[3] Uşaqlar onu ələ salıb deyirmişlər ki, belə iri cüssənlə Şəhidlər gülzarı məzarlığının balaca qəbirlərinə yerləşməyəcəksən. O isə gülüb cavab verirmiş:

– O qəbirlər də mənə böyük olacaq.

---

[1] Əliəkbər Azad Fəllah 1966-cı ildə Qumda doğulmuş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

[2] Seyid Əhməd Niyazxani 1961-ci ildə Qumda doğulmuş, 1987-ci ildə Kərbəla-5 əməliyyatında Şələmçədə şəhadətə qovuşmuşdur.

[3] Dualarda işlənmiş bu ifadə "parça-parça" deməkdir.

Doğru deyirdi; tikə-tikə olmuş bədəni, yanında oturmaqdan doymadığım o kiçik məzarın yarısına da sığardı.

Zeyd istiqaməti yadıma düşdü. Hacı Əhmədlə birlikdə düşmənin pusqu səngərini susdurmağa getdiyim gecə qumbaraatanlardan ötrü necə də təşvişli idi! İri gözləri qaranlıqda həyəcan saçırdı, dodaqaltı zikr deyirdi. Sübh çağı qumbaraatanlar sağ-salamat qayıdanda onların başına dolanır, hər birinin toz-torpaqlı və yorğun üzünü öpürdü.

Məzarlıqdan hərəmə qədər piyada getdim. Çaharmərdan xiyabanı Kərbəla-5 şəhidlərinin şəhadət xonçaları ilə doluydu. O vaxt hərəm gecələr boş olurdu. Ürəyimi həzrət Məsumədən (s) başqa hər kəsdən gizlədirdim. Cəfəri ürəyim istəyirdi. Əməliyyat zamanı, Məhəmməd Zülfinin taqımı. Atom enerji stansiyasındakı düşərgənin yanındakı torpaq təpənin başına sancılmış bayrağın altına toplaşaq. Mən keçəl başımla fotoaparatın qarşısında dayanım, Məhəmməd ətrafımızda gəzişib zarafat etsin, bizi güldürsün. Fotoqraf "bir, iki, üç" demədən şəkil çəksin və hamımız qışqıraq. Məhəmməd hamıdan çox gülsün.

Onun üçün darıxırdım. İstəyirdim ki, yanımda oturub qolunu boynuma salsın, desin ki, biz ikimiz bir başıq. Mənim sağ gözüm protez idi, onun sol gözü. Deyirdi ki, Məhəmmədhüseynin yanında oturanda düz görürəm; sağ tərəf mənlikdir, sol tərəf Məhəmmədhüseynlik. Qəhvəyi rəngli şeir dəftərçəmi görəndə qaçıb yanımda oturur, yazılara baxır, ucadan oxuyub sinə vururdu. Onun əlindən haraya qaçacağımı bilmirdim. O qədər oyun çıxarırdı ki, ağlamaqla gülməyim bir-birinə qarışırdı. İndi, şəhid olandan sonra da məni ağlamağa qoymurdu. Gülməli xatirələri ilə ağlamağım gülməyimə qarışırdı. Ürəyim onun üçün dünya qədər darıxırdı; gülüşü, zarafatları, uşaqların düymələrini qoparması, taqım uşaqlarıyla voleybol oynaması üçün...

Dəstəmaz alanda bitişik qaşları bir-birinə qarışırdı, iri əqiq üzüyünü barmağında fırladırdı, çənəsinin altından su damırdı. Üzüqibləyə oturub cib Quranını oxuyur, azanı gözləyirdi. Quran oxuyanda yavaşca ağlamasından ötrü darıxmışdım. Kaş yüz dəfə də yaralanaydım və Məhəmməd məni görməyə gələydi! Onun gülər üzünü görəndə gözlərim yaşarırdı, xahiş edirdim ki, məni də aparsın. Zarafata şərt kəsirdi ki, əvvəl dəftərçələrimi verim, oxusun, sonra. Bütün dəftərçələrimi ona verirdim - razılaşırdı. Sevincək ardınca yola düşürdüm, ağlamaqla gülməyim bir-birinə qarışırdı.

***

Şəhab qayığı sözəbaxan uşaqlar kimi nə deyirdimsə, edirdi. İdarəetmə qutusunun üzərindəki qulpu irəli-geri verir, Azadlıq idman kompleksindəki gölün başına fırlanırdım. Su dalğalanırdı. Mühəndis-istehkam bölüyünün uşaqlarının yeni ixtirası uzaqdan partlayış üçün istifadə ediləcəkdi. Üzərindəki uzun anten idarəetmə qutusunun dalğalarını tuturdu. Qarşısından və böyürlərindən buynuz kimi üç metal mil çıxmışdı. Bu millərlə hədəfin qapısı bağlanırdı, qayığın yerindəki TNT maddəsi ya avtomatik partlayırdı, ya da biz uzaqdan partladırdıq.[1]

Kərbəla-5 əməliyyatından sonra İraq tərəfi müharibəni sulara yönəltdi. Bizim neft tankerlərimizi vuraraq Fars körfəzində təhlükəsizliyi pozmağa çalışırdı. Biz də əlimizi əlimizin üstünə qoyub baxa bilməzdik. İmamın dediyi kimi, adekvat qarşılıq verməyə məcbur qaldıq. 1987-ci ildə İranın sularda strategiyası adekvat qarşılıqdan ibarət idi. Biz deyirdik: "Fars körfəzi bizim üçün təhlükəsiz olmasa, heç kim üçün təhlükəsiz olmayacaq". Bununla İraqın regionda ən önəmli müttəfiqləri olan Küveyt və Ərəbistan təhdid olunurdu.

Fars körfəzində İraqa dəstək verən gəmilərə Şəhabla xəsarət yetirə bilirdik. Mən və Şəhab əl-Qariə batalyonunun ilk qüvvələri olduq.

1987-ci ilin novruz bayramı idi. Şirazın Mərvdəşt bəndinə ordunun Təlim bölməsinin xüsusi təyinatlılar qərargahına getdim. Mən çatanda Şəhabı bir təpənin yamacında suda bağlamışdılar. Xırda dalğalarla o da tərpənir, tappıltı səsi çıxarırdı. Ali-Sədi birinci gün hər yeri mənə göstərdi. Mən korpusun Dəniz qüvvələrinin Mühəndis bölməsi tərəfindən oraya göndərilmişdim. O, Şəhabla mənim, habelə hələ şəxsi heyəti gəlməmiş əl-Qariə batalyonunun komandiri idi. Yavaşca gedirdi, mən də arxasınca. Şəhabı da özü təpənin aşağısına bağlamışdı. Suyun kənarına çatanda diqqətlə və səbirlə ipini çəkdi ki, açılmayacağına əmin olsun. Yumru sifətində tər damcıları parıldayırdı. Qayıqdan arxayın olandan sonra yavaşca təpənin yoxuşu ilə qalxdı və mən yuxarıdakı birmərtəbəli və birotaqlı tikililərdən birinə yerləşdim.

Pəncərənin arxasında dayananda yalnız su görürdün, bir də ətrafındakı alçaq-hündür təpələri. Şora ağ kəmər kimi təpələrin

---

[1] O günlərdə korpusun Dəniz qüvvələri yaradılırdı, Mahşəhr, Buşəhr və Bəndər-Abbas limanlarındakı qərargahları yenicə fəaliyyətə başlamışdı. Dəniz qüvvələrinin Mühəndis-döyüş bölməsinin yaradılması Hacı Rza Miyanəciyə tapşırılmışdı. Mühəndis Hacətzadə, mühəndis Vəkili və Əkbər Şirqulami Meru düşərgəsində Nuh qərargahının uyğun bölməsini idarə edirdilər.

dövrəsinə dolanmışdı. Təpələrin əksi bəndin suyuna düşürdü. Su o qədər təmizdi ki, sanki altında da təpələr vardı. Ortasından isə bir təpə qalxırdı. Kiçik bir adaydı, üzərində yarımçıq tikili vardı; qapı-pəncərəsiz beton bir tikili. Saray adamlarının oteli olacaqmış, indi yarımçıq və yararsız halda təpənin başında qalmışdı. Axşamüstülər külək onun boş mərtəbələrinə girir, toz-torpağı ilə oynayırdı. Otel tikmək üçün sakit və gözəl yer seçmişdilər. Fikirləşdim ki, inqilab olmasaydı, indi bu binada necə get-gəl vardı, bu sahillərdə mənim və Ali-Sədinin yerinə kimlər gəzişirdi! Yəqin ki, Şəhabın yerinə sahil pedallı və avarlı qayıqlarla dolu olardı.

Qərara alınmışdı ki, Şəhabı idarə etməyi öyrənmək üçün beş bəsici göndərsinlər. Səhərdən axşama qədər düşərgədə gəzişir, onları gözləyirdim.

Həmin ilk günlərdə atam mənimlə əlaqə saxlayıb novruz tətillərinə Şiraza gəldiklərini söylədi. Nə vaxt geyinib özümü Şirazın Huma otelinə yetirdiyimi bilmədim. Mən çatanda şam namazına Şahçıraq ziyarətgahına getməyə hazırlaşırdılar. Xalam, Hacı Rəhmət, Raziyə və Mərziyə də gəlmişdilər. Xalamı görəndə başımı aşağı saldım. Bilirdim ki, əhvalları dəyişsin deyə səfərə çıxıblar, məni görəndə isə Məcid daha çox yadlarına düşəcək. Hamıdan arxada gedir, gözlərinə girməməyə, müsibətlərini təzələməməyə çalışırdım.

Şahçırağın minarələri şəhərə yaşıl nur ələyirdi. Onları görən kimi havanın sərinləşdiyini və qarnımın qıdıqlandığını hiss etdim. Atamla Hacı Rəhmət öndən gedirdilər. Hacının iri dənəli təsbehi danışanda da barmaqlarının arasında fırlanırdı. Məciddən sonra həmişə yorğun görünürdü, yavaş və ağır-ağır yol gedirdi; sanki çiyni üzərində ağır yük vardı. Mənə içi yonulmuş bir dağ təsiri bağışlayırdı: böyük, amma zəif.

Şirazda cəmi bircə gün qaldım. Qorxurdum ki, əl-Qariə batalyonunun könüllü qüvvələri gələrlər, mən olmaram. Onlar isə mən qayıdandan iki gün sonra gəldilər, özü də necə!

Günorta yeməyinin birinci qaşığını ağzıma qoymaq istəyəndə qısa qışqırıq səsi eşidib pəncərədən bayıra baxdım. Şəhab yarıya qədər suda idi, üstündə bir neçə qara top da suyun üzərində enib-qalxırdı. Əgər səs-küylərini eşitməsəydim, inanmazdım ki, toplar təzə gəlmiş döyüşçülərin başı ola bilər. Tələsik suyun kənarına qaçıb motorlu qayığa atıldım. Birdən yadıma düşdü ki, açarı məndə deyil. Uşaqların biri də səs-küyü eşidib özünü yetirdi. Tez sahilin yanındakı yelkənli qayığa mindi, mən də ardınca. Qışqırıq səsləri başıma düşürdü.

Yelkənli qayığın nə sürəti vardı, nə də gücü. Qarıldaya-qarıldaya soyuqqanlılıqla təpəni dövrə vurdu. Ali-Sədi də özünü sahilə yetirmişdi, qanadları yolunmuş quş kimi atılıb-düşür, qışqırırdı. Beynim işləmirdi. Bu qədər adam gözlərim önündə boğulurdu. Bilmirdim ki, hansına kömək edim. Ali-Sədinin səsi sahildən suyun ortasına gəlirdi. Az qala infarkt olacaqdı.

Şəxsi heyət gələn kimi naharını yeməmiş idarəetmə qutusunu götürüb onları Şəhaba mindirir və sürətlə sürür. Sürət çox olduğuna görə uşaqlar qayığın aşağı tərəfinə, motorun yanındakı boş yerə sürüşürlər. Ali-Sədi də bütün bunlardan xəbərsiz halda qayığı sağ tərəfə döndərir. Qayığın arxası batır və hamı suya düşür.

Qərargahda iri cüssəli bir pasdar və bir ordu kapitanı da vardı, hərdən axşamlar Ali-Sədi ilə birlikdə mənim otağıma gəlirdilər, sübhə qədər söhbət edirdik. Onlara ordu ilə birləşdiyimiz günlərin xatirələrindən danışırdım, gülürdülər. Ordu kapitanı Təbrizdəki ev ünvanını vermişdi ki, yolum düşsə, onlara baş çəkim. Həmin iki nəfər də bəsicilərlə birlikdə qayığa minmişdilər və indi hamısı birlikdə suyun ortasında çapalayırdı. Heç birinin də xilasedici jileti yoxdu.

Birinci adamın başı üstə çatıb yelkənli qayığın kənarına uzandım. Zəif gözləri uzaqlara dikilib qalmışdı. Əlimi saçına uzatdım. Heç bir reaksiya vermədi. Dirsəyimi yerə qoyub bir qədər qalxdım və onu çəkmək istədim. Saçı barmaqlarımın arasından sürüşdü və suya girdi. Soyuqdan bərkimişdi.

Qışqırmaq istəyirdim. Bəsicilərin ruhsuz baxışları mənə işgəncə verirdi. Daha çapalamırdılar, yavaş-yavaş suya batırdılar; soyuqdan halsız üzlər və donmuş baxışlar. Ali-Sədi o qədər qışqırdı ki, axırda səsi tutuldu. Qayığın avarını götürüb başqa birinə yaxınlaşdım. İri cüssəli pasdar idi. Avarı qarnına bərk sıxdım. Özünə gəlmiş adam kimi əlini uzadıb avardan möhkəm yapışdı. Çətinliklə onu yuxarı çəkdim. Bəsicilərin biri də qayıqdan ayrılmış bir plastik bidon sayəsində suyun üzündə qalmışdı. Həmin yeddi nəfərdən yalnız bu iki nəfər sağ qaldı.

Suya baxanda az qala dəli olurdum. Sakitcə, hay-küysüz, heç nə olmamış kimi beş nəfəri udmuşdu. İnana bilmirdim ki, bu sudan daha heç kim sağ çıxmayacaq.

Axşama qədər hamı hadisədən xəbər tutdu. Ali-Sədi ilə suyun kənarında oturmuşduq, təşviş içində yanğınsöndürənlərin işinə baxırdım. Gözləyirdim ki, heç olmasa, bir nəfəri tapsınlar. Ancaq çox heyif! Sudan hər şey tapıldı, cəsədlərdən başqa. Suya dalğıc da

göndərdilər, amma əliboş qayıtdı. Aşağı qaranlıq idi. Ali-Sədi dayanmadan ağlayırdı. Bəsicilərin gəliş anını və onları qayığa mindirməsini axşama qədər yüz dəfə mənə danışdı. Özünü günahkar bilirdi. Elə danışırdı ki, sanki rövzə oxuyur. Əhvali-ruhiyyəsi çox pis vəziyyətdə idi. Mən də ondan geri qalmırdım. Yuxu mənə haram olmuşdu. İstəyirdim ki, özüm suya girib qarış-qarış hər yeri axtarım. Sinəmdə ağır bir ah qalmışdı, çıxmırdı. Boğulmaq üzrəydim. Heç birinin adını bilmədiyim bəsici uşaqların üzləri gözlərim önündən getmirdi; buzlamış halda, soyuq baxışlarla mənə baxırdılar.

Bu hadisədən sonra şəxsi heyətə qayıq sürmək, dalğıclıq və üzgüçülük təlimi keçdilər.

Əmir şimala getmək istədiyimi biləndə iki ayağını bir başmağa dirəyib dedi ki, mən də səninlə gələcəyəm:

– Hələ Məcidin müsibəti təzədir. Əgər başından bir tük əskilsə, Hacı Rəhmətə nə cavab verərəm?! – dedim.

Nə dedimsə, razılaşmadı. Hacı Rəhmətin Mersedes avtomobilini götürdü, Hacı Rza ilə məni də mindirdi. Hacı Rza elə əvvəldə yatdı. Şəxsi heyətə baş çəkməyə gedirdi. Fikirləşdim ki, bunların hər ikisinin qardaşı ilə döyüş yoldaşı olmuşam, hər ikisi şəhid olub, mənsə qalmışam. Üçüncü adam olmaq istəyirdim. Birdən hirsli və kobud bir səslə diksindim. Az qala qorxudan infarkt olacaqdım; özümə görə yox, Əmirə görə. Qorxurdum ki, bir hadisə baş verər. Avtomobili yol kənarına çəkdi və yerə endik.

Maşının önü sallanırdı. Nə qədər sürətlə gəlmişdiksə, burnumuzdan gəldi. Hidravlik amortizatorun yağ borusu sınmışdı. Maşın təmir olunana və Ənzəlinin Zibakənarında yerləşən Seyyidüşşühəda qarnizonuna çatana qədər yarıcan olduq. Hələ yorğunluğumuz çıxmamış Mahmud Nikusöhbətlə Hüseyn Kaci gəldi; həmişəki kimi şuluq və enerjili. Qayıqların biri ilə suya girdilər. Sahilin kənarından dalğıclara baxırdım. Qayığın kənarında oturub arxası üstə suya girirdilər. Qara paltarla Məcidə necə də bənzəyirdilər!

Birdən qışqırıq səsləri gəldi. Hamı Hüseynlə Mahmudun qayığını dövrəyə almışdı. Bir nəfəri çətinliklə sudan çıxarıb qarnı üstə qayığın yerinə uzatdılar. Mərvdəşt xatirələri beynimə hücum etdi. Paltarla suya girdim. Balaqlarım islanıb ağırlaşdı. Qaçırdım, həyəcandan ayaqlarım bir-birinə dolaşırdı. Qayığın yerinə uzatdıqları dalğıcı pikapın arxasına qoydular. Mən çatana qədər Toyota sürətlə getdi və yalnız qan izi qaldı. Uşaqların biri motorlu qayıqla o dalğıcın üstündən keçmiş,

pərlər budunu yaralamışdı. Allahın köməyi ilə əməliyyat olundu və məsələ xeyirlə bitdi.

Seyyidüşşühəda düşərgəsində səhərdən axşama qədər şəxsi heyətlə birlikdə dalğaların üstündə qalxıb-enir, gecədən səhərə qədər də suyun kənarında göz yaşı tökürdüm. Uşaqların yorğunluğunu, amma üz vurmadıqlarını görmək qəhər olub boğazımdan yapışırdı. Suya girib qayığı çıxarmaq üçün bir-birindən önə keçəndə əllərindən öpmək istəyirdim. Qəhər boğazımı sıxır, böyüdükcə böyüyürdü.

Axşam qara kölgəsini suyun ortasına qədər sərəndə kazarmada qala bilmirdim. Əmiri görəndə Məcid yadıma düşürdü, onu aramızda hiss edirdim. Balaqlarımı qatlayıb yaş qumların üstündə addımlamağa başlayırdım. Dalğaların yeknəsəq səsini dinləyə-dinləyə qum üzərində arxası üstə uzanır, əllərimi başımın altına qoyub gözlərimi səmaya dikirdim. Fikirləşirdim ki, görəsən, şəhid dostlarım bu səmanın harasından mənə baxırlar. Buludları və ulduzları kənara çəkib onları görmək, növbəmin nə vaxt gələcəyini soruşmaq istəyirdim.

Seyyidüşşühəda qarnizonunda təlimlər üç ay çəkdi. Bu müddətdə Şəhabı da təmir edib bizə modern bir qayıq kimi verəcəkdilər. Şimal təlimləri bitəndən sonra Qufas[1] bölgəsinə getdik. Korpusun Bəhmənşir çayının sahilindəki boş bir qərargahına yerləşdik. Çay sakitcə qamışların arasından sürüşürdü. Gündüzlər qurbağa səsi gəlirdi, gecələr də qaban xorultusu. Bizim işimiz də səhərdən axşama qədər suyun kənarında gəzmək olmuşdu. Şəhabı gözləyirdik.

Hacı Rza oraya bir Toyota Hayes və bir neçə ikimotorlu Aşura qayığı göndərmişdi. Uşaqlardan İbrahim Zare, Abbas Möhsüni, Məhəmmədəli Təbayi, Əli Nəsrullahi, Abbas Nəsrabadi və Tağızadə yadımda qalıb. Təbayi hamıdan böyük idi, gecələr yatmazdan öncə bizə hövzə dərslərini öyrədirdi. Onun əlindən qaçmaq olurdu, amma Albuğbeyşin əlindən yox. Sübh tezdən bizi oyadırdı. Yerli əhalidən idi, qəliz ərəb ləhcəsi soyadı kimi bizə qəribə gəlirdi. Bizi suyun kənarında sıraya düzüb deyirdi ki, Şəhab gələnə qədər qayıqçılıq təlimi keçməlisiniz. Əvvəldə üz-gözümüzü turşudub dedik ki, motorlu qayığı sürmək üçün təlimə ehtiyac yoxdur. O da israr etmədi, bizi suyun dayaz yerinə aparıb dedi ki, sürün. Hamımız palçığa batdıq. Köpümüz yatandan sonra öyrətdi ki, hər bir şəraitdə qayıq sürmək xüsusi məharət

[1] Xuzistan vilayətinin Abadan rayonunda, Bəhmənşir çayının sonunda yerləşən bir kənddir.

tələb edir; dayaz yerdə, fırtınada, hündür dalğalarda və sürətli axında. Onda başa düşdük ki, qayıq sürməkdən yalnız üz-göz turşutmağı bilirik.

Başıaşağı və sözəbaxan olduq. Albuğbeyş bir söz demədən hər gün sübh çağı yaxşı uşaqlar kimi gedib qayıqları işə salır, gözlərimizi ağzına dikib bu gün nə qazanacağımızı gözləyirdik. Hər birimizin getməli olduğumuz yolu plan üzərində işarə ilə göstərirdi. Qol saatını açıb əlində tutur, suyun kənarında otururdu. Gediş-gəliş zamanlarını yazırdı ki, hər şeyin dəqiq olduğunu bilək. Bir həftədən sonra hər birimiz özümüzə görə bir kapitan olduq.

Şəhabla hədəfi məhvetmə əməliyyatını səbirsizliklə gözləyirdim. İstəyirdim elə edim ki, gecələr başımı rahat yastığa qoya bilim. Bu əməliyyatdan ötrü uşaqlarımız Mərvdəşt bəndində canlarından olduğu üçün məni yalnız qələbə sakitləşdirə bilərdi. Hər gecə yuxuda görürdüm ki, Şəhabı hədəfə vurmuşam, üzərimə atəş yağır. Tər içində yuxudan oyanırdım. Beynimə girmişdi ki, Şəhab işləməsə, özüm ona minim və birlikdə hədəfə çırpılaq. Qayıq sürəndə nə vaxt yerimizdə dönmək vaxtı gəlirdisə, Mərvdəştdəki bəsicilərin donmuş üzləri gözlərim önünə gəlirdi. Dövrə vurandan sonra qaz pedalını axıracan basırdım. Qayığın səsi başıma düşürdü. Qarşıya baxır, tam sürətlə sürürdüm. Xırda su dənəcikləri üz-başıma dəyir, soyuq küləkdən alnım ağrıyır, gözlərim yaşarırdı, mənsə daha çox qaza basırdım. Çox sürətlə sürmək, özümdən və bəsicilərin baxışından qaçmaq istəyirdim.

Şəhab gəlməzdən bir neçə gün öncə İbrahim Zare ilə Əhvaza getdik. Hacı Rza Şəhabın və idarəetmə qutusunun bir neçə hissəsini Bəhmənşirə aparmaq üçün mənə verdi. Hayesin iri cüssəsi yolda gedir, isti külək maşının içinə dolurdu. İbrahim Zare sükan arxasında idi. Ayağımı idarəetmə panelinin üstünə uzatdım. Bədənim tərdən yapışqan olmuşdu. Yolun kənarındakı çöllüklərə baxa-baxa məni yuxu tutdu. Birdən yerlə göy arasında asılı qaldım. Torpaq dalğası pəncərədən hücum edib bütün boğazıma doldu, əl-ayaqlarım bir-birinə düyünləndi, hər şey başıma fırlandı. Əlim heç yerə çatmırdı, özümü saxlaya bilmirdim. İbrahim də mənim günümdəydi. O, sükan arxasında yatmış, maşın Abadan magistralının kənarındakı enişdə çevrilmişdi.

– İbrahim, sağsan? – soruşdum.

Ax-ufla cavabımı verəndə arxayın oldum. Bədənimi pəncərədən bayıra çəkdim. Hər yerim əzgin olmuşdu. İbrahim də qan içində bayıra sürüşdü. Qulağı yırtılmışdı, qanı bazusuna axırdı. Sürünə-sürünə yolun

kənarına getdik. Maşının təkərləri hələ havada fırlanırdı. Beynim dumanlı idi. Qan dirsəyimin yarasından barmaqlarımın arasına qədər yol açmışdı. Hacı Rzaya nə cavab verəcəyimi bilmirdim. Acınacaqlı vəziyyətdə boş yolun kənarında oturduq. Əhvaza necə getdiyimizi xatırlamıram, amma Şəhid Bəqayi xəstəxanası yadımdadır. İçəri girən kimi Bədr əməliyyatı yadıma düşdü. Qarnımdan yaralananda məni oraya aparmışdılar, əməliyyat otağına girəndə Cəfər yanağımdan öpmüşdü. Onun üçün necə də darıxırdım!

Xəstəxanadan Hacı Rzaya zəng vurdum. Bədxəbər bayquşa dönmüşdüm. Onu bir qədər hazırlayıb:

– Hayes parça-parça oldu, – dedim.

Zavallı yalnız maşının sıradan çıxdığını və bizə heç nə olmadığını biləndə Allaha şükür etdi, tapşırdı ki, mütləq bir qurban kəsək. Sarıqlı qol və qulaqla qərargaha qayıtdıq. Baş və görkəmimiz gülməli olmuşdu. Uşaqlar zarafata deyirdilər ki, Hacı Rza bizə bir şey olacağından və İslamın köməksiz qalacağından qorxur, İslam köməkçilərinin salamatlığı üçün qurban kəsməyi tapşırır.

Nəhayət, deyilən gün çatdı və Şəhab peyda oldu. İçərisinə 400 kq TNT yerləşdirmək mümkün olduğuna görə bir növ raket kimi idi. Hamı onu idarə etmək istəyirdi, amma qoymadım. Əvvəlcə özüm yoxlamalı idim. Mərvdəşt hadisəsi mənə dərs olmuşdu. Mən suyun kənarında oturmuşdum, Abbas Möhsüni ilə Əli Nəsrullahi bir qayıqda Şəhabın ardınca gedirdilər. Əvvəl bir az qaz verdim, gördüm ki, yaxşı və çevikdir. Qazı artırdım, uzaqlaşdı.

Baxışımla onu izləyirdim. Çayın döngəsinə çatanda soyuqqanlılıqla qulpu sola verdim; bir dəfə, iki dəfə, üç dəfə... Nə illah etdimsə, dönmədi, burnu üstə quruya girdi. Motorun pərləri vızıldayırdı. Həyəcanlanıb qışqırdım ki, onu söndürsünlər. Abbasla Əli Nəsrullahi qayıqla ona yaxınlaşdılar. Həyəcandan boğulmaq üzrəydim. Motorun quruda işləməsi sürtünmə və hərarət yaradırdı, partlaya bilərdi. Əli sahilə atılıb qayığa doğru qaçdı. Benzin bakını motordan ayırmaq istəyəndə birdən çayın bu tayına boğuq və qalın bir səs gəldi. Əlinin yanması fikri zərbə kimi başıma endi. Baxmağa cürət etmirdim. Əlinin əlləri yandı və motor xırda dəmir parçaları ilə doldu. Sağ olduğuna görə şükür etmək lazım idi. O qədər sevindim ki, bu qayığın da fatihəsini verdiyimiz və xəcalət çəkməli olduğumuz yadımdan çıxdı. Sevincək Hacı Rzaya zəng vurdum.

– Yenə nə olub? – səsimi eşidən kimi bunu soruşdu və xəcalət içində dedim ki, bu dəfə qayıq əldən getdi, amma əvəzində heç kimə heç nə olmadı.

***

SSRİ və ABŞ mərəkənin araqarışdıranı olmuşdular, Fars körfəzinə təhlükəsizliyi qaytarmaq üçün bir-biri ilə yarışırdılar. Fars körfəzi bizim hakimiyyətimiz altında idi, istəməsəydik, neft tankerləri və gəmilər oradan rahatlıqla keçə bilməzdilər. İraq SSRİ və ABŞ-ın kölgəsi altında su döyüşlərinə girmişdi və biz Fars körfəzinin supergüclərin poliqonuna çevrilməsinə icazə verməməli idik.

Məsələ 1987-ci ilin iyulundan başladı. Bridgeton gəmisi geniş mühafizəçi müşayiəti ilə Fars körfəzindən keçmək istəyirdi. Müşayiət layihəsi Amerikaya məxsus idi. Gəmi Hürmüz boğazına qədər problemsiz gəldi. ABŞ çox həyasızlıqla Küveytin və Səddam Hüseyni dəstəkləyən digər ölkələrin neft tankerlərini qorumaq üçün Fars körfəzinə hərbi müdaxilə edirdi. Dörd yüz min tonluq Bridgeton gəmisi Amerika bayrağı altında Küveytə doğru gedirdi. ABŞ donanmasının bir neçə döyüş gəmisi də bu nəhəngi müşayiət edirdi. Jurnalistlərin gəmilərin göyərtələri üzərindən reportajları sayəsində bütün dünyanın gözü bu gəmiyə dikilmişdi. İmam isə o gəmi barədə demişdi:

– Əgər mən olsaydım, gəmini vurardım.

Fars körfəzi o günlərdə adekvat əməliyyat üçün Nadir Məhdəvinin[1] və komandasının əlində idi. Gəmi boğazdan keçəndən sonra Qərb mediası şirə dönüb İranı aşağılamağa başladı. Şəhid Nadir Məhdəvinin qardaşı Həsən Fəqih öz xatirələrində qardaşının dilindən belə söyləyir:

“Biz Buşəhrdən Fars adasına getdik... Əməliyyata başlamaq istəyəndə körfəzdə fırtına qopdu... Allaha təvəkkül edib yola düşdük... Minaları iki yüz metrlik bir əraziyə buraxıb salamat qayıtdıq".[2]

Müxbirlərin Bridgetonun Fars körfəzindən problemsiz keçidi barədə gurultulu reportajlarından bir neçə saat sonra gəmi minaya düşdü, onda bir neçə metrlik bir dəlik yarandı. Maraqlı idi ki, gəmilərdən yalnız o,

---

[1] Nadir Məhdəvi ləqəbli Şəhid Hüseyn Bəsriya 1963-cü ildə Buşəhrdə doğulmuş, 1987-ci ildə Amerika gəmisinin göyərtəsi üzərində işgəncə altında şəhadətə qovuşmuşdur.

[2] “Nadir, qardaşım, Hüseyn”, Seyid Qasim Yahüseyni, s. 177-178.

minaya düşmüşdü. Amerikanın əzəməti sındırıldı. Müşayiət karvanı sallaq bayraqlarla təyinat yerinə çatdı.

Hadisədən on gün ötür və Fars körfəzindəki qələbə xəbərimiz hər yerə yayıldı. Daxili media qurumları bu qələbəni geniş şəkildə işıqlandırırdılar. Üstünlüyün bizim tərəfimizə keçdiyi yerdə Ərəbistan Amerikanın gəmi karvanının intiqamını aldı: iranlı hacıları qətliam edərək qələbəni burnumuzdan gətirməyə çalışdı.

Çətin günlər idi. İranla Ərəbistan arasında güclü informasiya müharibəsi gedirdi.[1] Bəzən xəbərlərə qulaq asanda dünənə qədər İraq tərəfdə, bizim qarşımızda dayanan bütün döyüşçülərin indi maskasız meydana girdiklərini hiss edirdim; ABŞ və SSRİ bir tərəfdən, Ərəbistan da bir tərəfdən. Bu arada münafiqlər döyüşçülərin cəbhələrdə vuruşmasından və xalqın başının həcc faciəsinə qarışmasından istifadə edərək özlərini hazırlayırdılar. Təşəbbüsü əldən verməməli idik. Güc nümayişi ən yaxşı yol idi. Korpus uşaqları geniş şəkildə işə başladılar. Fars körfəzindən keçən gəmilər yeni yoxlanış növü ilə üzləşdilər. Yoxlanış və nəzarət üsulu beləydi ki, ratsiya ilə gəminin hərəkət və təyinat yerləri və yükü soruşulurdu. Gəmi İraqa yük aparmadığını bildirəndə yoluna davam edirdi. Yalnız bu da deyildi. "Şəhadət manevri" adlı bir dəniz manevri keçirdik və hamının ağzı açıq qaldı.

Fars körfəzi pasdar və bəsicilərlə dolu idi. Səhərdən axşama qədər təlim və məşq. Günəş və rütubətli hava hamını tərlədib yandırırdı. Sutkanın hansı saatında sahilə çıxsaydın, bir dəstənin suyun üzərində qalxıb-endiyini görərdin. Şəhadət manevri heysiyyət məsələsi idi. Bütün birləşmələr ona cəlb olunmuşdu. Manevrin bir hissəsində səkkiz yüz sürətli qayıq eyni zamanda suya girdi və körfəz üzərində möhtəşəm bir səhnə yarandı. İraq tərəfindən raketlə vurulmuş bir neft tankeri də şərti düşmən gəmisi kimi Hürmüz boğazının ortasında dayandı və hamı onun ətrafında hünərini göstərdi.

Bu manevrdə bizim əl-Qariə batalyonumuza üç tapşırıq verilmişdi. Birincisi Şəhab qayığının təqdimatı, ikincisi Korpus nazirliyinin Dəniz qüvvələrinin yeni qayığı olan Buraqla manevr idi. Üçüncü

[1] "Allahdan xəbərsiz olan bu ləyaqətsiz vəhhabilər həmişə müsəlmanların qəlbinə arxadan sancılan xəncər kimi olmuşlar... Əbu Süfyan və Əbu Ləhəbin bu varisləri, Yezid yolunun bu davamçıları, həqiqətən də, onların və öz sələflərinin üzlərini ağ etmişlər". (İmam Xomeyni, Nur səhifəsi, c. 20, s. 349-354)

tapşırığımızı isə özümüz də düz-əməlli bilmirdik; yalnız demişdilər ki, hazır olun.

Buraqla Şəhab Şirazın İmam Hüseyn (ə) qarnizonunda idi. Manevrə bir həftə qalmış Əkbər Şirqulami ilə Şiraza getdik. Tapşırıq sərəncamını göstərdik, qayıqları hörmətlə bizə təhvil verdilər. Lakin əsas məsələ sonrası idi. Onları Bəndər-Abbasa aparmaq üçün TIR yük avtomobili istəyirdik, özü də iki ədəd. Əkbərlə birlikdə fikirlərimizi üst-üstə qoyub telefonun dəstəyini götürdüm. Qarnizondan yol polisinə zəng vurdum, səsimi boğazıma salıb özünəinamla sərəncam verdim:

– Yorulmayasınız, qardaş! İmam Hüseyn (ə) qarnizonunun komandiriyəm. TIR yük avtomobilinə təcili ehtiyacımız var. Onları gətirmək üçün qardaş Yektanı və əməkdaşını sizin yanınıza göndərirəm.

TIR-lar yolun kənarında dayanmışdı. Boylu-buxunlu iki yaşlı kişi də maşınlarının kölgəsində siqaret çəkirdilər. Hərəmiz birinin maşınına minib yolu göstərdik. Mənim hesablarıma görə, ertəsi gün günortadan qabaq Bəndər-Abbasa çatmalı idik, lakin sürücülər elə sürürdülər ki, manevrin axırına da çata bilməyəcəkdik. Qoca tez-tez burnunu yumruqlayır, fınxırırdı. Dərdinin nə olduğunu bilirdim. Dedim ki, maşını saxlasın. Əkbərin sürücüsü də yol kənarında saxladı. Manqal-kömürünü soruşdum. Əvvəl qorxub inkar edirdi, onlarla işimiz olmadığını biləndə işə başladı. Kömürü yelpikləyib onları avtomobilin arxasına göndərdim. Fikirləşdim ki, özlərini düzəldib cana gəlsinlər. Tiryək iyi gələndə evimiz yadıma düşdü. Kondisioner hər axşam bu iyi Əbülqasimxangilin evindən bizə gətirirdi.

Abbas Möhsüni Şəhaba məsul təyin olundu, Əli Təbayi də Buraqa. Buraq hidrosiklə bənzər sürətli qayıq idi, raket atırdı. Su üzərindəki iki hamar taxtalı bu qayıqdan baş açana qədər üçüncü ixtira da peyda oldu. TIR avtomobili bu nəhəng ixtiranı belinə atıb estakadanın kənarına gətirəndə təəccübdən ağzımız açıq qaldı. Diametri üç metr olan on dörd metrlik qara bir çəlləkdi. Başında şüşə bir papaqcıq vardı, kapitan otağı idi. Sonunda bir metr yarımlıq bir pərvanə görünürdü. Üstündə səsboğucu boru vardı, sudan bayırda qalırdı. Bütün sualtı gəmi bundan ibarət idi.

Kran nə qədər güc elədisə, onu tərpədə bilmədi. Başqa bir kran da gəldi, iki tərəfindən tutub suya saldılar. Baş-ayaqsız bir nəhəng idi. Ehtiyatla içinə girdim. Dizel qoxusu burnuma doldu. Hər iki tərəfində yerə qarşı-qarşıya skamya bərkitmişdilər. On beş sərnişin tuturdu.

Altmış voltluq bir lampa işıldaböcək kimi tavandan sallanır, qaranlığı qovmağa çalışırdı. Kapitan kabinəsində bir oturacaq, yanında da maşın ötürücüsünə oxşayan iki metal dəstək vardı. Ən maraqlı hissəsi balans sistemi idi. Kapitan oturacağının qarşısındakı taxtadan mıxla bir şey asılmışdı; tərpənəndə bilirdin ki, çox əyilmisən və indicə aşacaqsan.

Oturub açarı fırlatdım. Gurultu qopdu və dizel iyi qalxdı. Sualtı gəmi titrədi. Ötürücünü sağa çəkdim. On dörd metrlik çəllək sahilin kənarına yapışmışdı. Bilmirdik ki, hərəkət etdirmək üçün əvvəlcə suyun ortasına dartmaq lazımdır. Ağır gövdəsini bir neçə metr tərpədib dayandı. Ötürücünü nə qədər sağa-sola verdimsə, tərpənmədi. Pərvanə qıfıllanmışdı, fırlanmırdı. Hər dəfə ötürücünü tərpədəndə qışqırıb kişnəyirdi.

Elə əvvəldə həvəsimiz öldü. Sudan çıxarıb pərlərin niyə fırlanmadığını öyrənmək məqsədilə bir kran gətirdik. Əlli metr aralıda qayıqlara yanacaq daşıyan bir tanker vardı, şlanqı da suya salınmışdı. Pərlər fırlananda suyu özünə tərəf çəkmiş, yanacaq şlanqı ona dolaşmışdı. Diametri 10 sm olan şlanq o qədər dartılmışdı ki, çeçələ barmaq nazikliyində olmuşdu. Nə şlanq kəsilirdi, nə də pərvanə işləyirdi.

Paltarlarımı çıxarıb uzun-enli şortumla pərvanənin çərçivəsində oturdum. Bədənimi irəli verib əlimi pərlərin arasına uzatdım və bıçaqla şlanqı kəsməyə başladım. Çılpaq bədənim Bəndər-Abbasın yay günəşi altında yanırdı. Tər boğazımın altına qədər axır, dizel qoxusu ciyərimə dolurdu.

Bir saatdan sonra kranın sürücüsü yoruldu, tutqacı avtomatik rejimə keçirib getdi. Kranın tutqac başlığı hər yarım saatdan bir 10 sm aşağı enirdi. Şlanqı kəsmək üç saat çəkdi. Bədənim o vəziyyətdə quruyub qalmışdı, boynumu tərpədə bilmirdim. Başdan-ayağa dizelə və estakadanın yanına toplanmış yanmış qara yağa bələşdim. Zarıya-zarıya pərvanənin çərçivəsindən bayıra çıxdım. Yuyucu tozu ilə bədənimi elə sürtdüm ki, dərimin bir qatı getdi, amma dizel iyi getmədi. Yağlı və qəliz idi, saçımın arasına girmişdi. Nəyimiz də olmasa, üzümüz vardı və geri çəkilmirdik.

Ertəsi gün səhər çağı yenə sualtı qayığa girdim. Bu dəfə əvvəlcə bir qayıqla onu suyun ortasına çəkdik, sonra işə saldım. Ötürücülərin birini irəli verdim, hərəkət etdi. Bir ötürücü irəli-geri vermək üçündü, biri də sağa-sola döndərmək üçün. Dəstəyi daha çox itələdim, sürəti

artdı. Su kabinənin şüşəsinə hücum etdi, heç yeri görə bilmədim, qorxub dəstəyi yerinə qaytardım.

Həyəcanlı iş idi. Şüşə üzərindəki nazik su qatı hər şeyi əyri-üyrü və dumanlı göstərirdi. Bərk sürəndə kapitan kabinəsi də suyun altına girirdi.

Yavaş-yavaş Şəhid Bahünər estakadasının dalğalara mane olan girişindən çıxdım. Günortaya qədər körfəzin içində meydan suladım. Günəş göyün ortasına çatmışdı, paltarlarım tərdən bədənimə yapışırdı. Sualtı qayığı söndürüb banının üstündə oturdum. Sərinləşim deyə paltarlarımı çıxardım. Körfəzlə və səma ilə təkbaşına qalmışdım. Su sualtı qayığa dəyir, şappıltı səsi qulaqlarıma dolurdu.

Uzaqlardan bir qayıq vızıldaya-vızıldaya yaxınlaşırdı. Ağlıma da gəlməzdi ki, Möhsün Rzayı qayıqda ola bilər.

– Sürücü sizsiniz? – deyə soruşub sualtı qayığı göstərdi.

Qalxıb üst-başımı səliqəyə salmaq istəyəndə yadıma düşdü ki, əynimdə yalnız şort var.

– Bəli, – deyə cavab verdim.

– Yola düşürsünüz? – qayığı başdan-ayağa süzüb dedi.

Sualtı qayığın hərəkətinə baxmağa gəlmişdi. Tez bandakı bacadan içəri sürüşdüm, kabinədə oturub sürməyə başladım. Sürəti azaldıb-artırırdım, kabinə suyun altından çıxırdı. Çalışırdım ki, sualtı qayıq Möhsün Rzayinin qayığına dəyməsin və dalğası onun qayığını tərpətməsin. Axırda razılıq əlaməti olaraq başını yelləyəndə bildim ki, sualtı qayıq Şəhadət manevrində iştirak edə bilər.

Manevrə cəmi bir neçə gün qalırdı. Şəhabın yaxşı işləməyəcəyindən qorxub qərara gəldik ki, gedib şərti düşmənimiz olan gəmiyə bir mil qaynaq edək, TNT maddəsi ilə dolu bir qayığı milə bağlayaq, əgər Şəhab partlamasa, onu partladaq. Açıqlama da verək ki, partlayış tərzini göstərmək, eyni zamanda Şəhaba xəsarət yetirməmək üçün qəsdən belə edirik.

Gəmi Hürmüz boğazının ortasında Larək adasının qarşısında idi. Kreativ fikrimizi həyata keçirmək üçün dörd nəfər getdik. Abbas Möhsüni ilə Təbayi bir Vəlfəcr qayığına qaynaq aparatı qoyub yola düşdülər. Tağızadə ilə mən də Aşura qayığı ilə qoruyucu qüvvələr kimi getdik. Körfəzin dərinliyinə gedəndə buylar özlərini sənə göstərir, əlin heç bir yerə çatmayanda təskinlik verirlər. Arxayın olursan ki, bu nişanlar varsa, yolu azmazsan. Bir metr yarım enində qazla dolu çəlləklərdi, lövbərlə körfəzin yerinə bərkidilmişdi. Üstündə üçayaqlı

bir oturacaq, onun üstündə də lampa vardı, mayakı əvəz edib gecələr gəmilərə yol göstərirdi.

Həmin gün buyların biri mənimlə Tağızadənin istirahət yeri oldu. Razılaşmışdıq ki, uşaqların qaynaq işi bitəndən sonra ardımızca gəlsinlər və birlikdə qayıdaq. Qayığı buya bağladıq. Göz işlədikcə sakitlik, su və günəş vardı. Körfəzin göy rəngi Larək təpələrinin və Oman dağlarının başından başqa hər yeri bürümüşdü. Qayığın xırda təkanlarından ürəyim bulandı, buyun üstünə çıxdıq. Arxa-arxaya üçayaqlıya söykənib dizlərimizi qucaqladıq. Yapışqan səhər günəşi dərimizi yandırırdı. Xilasedici jiletlərimizi çıxarıb üçayaqlının üstünə atdıq və kölgəlik düzəltdik. Bir saatdan sonra günəş jiletləri dövrə vurub yenə gözlərimizə girdi. Gün vurmasından qorxurduq. Köynəklərimizi çıxarıb kölgəliyi böyütdük. Günəşsə əl çəkmirdi. Axırda şalvarlarımızı da üçayaqlı oturacağın başına keçirib kölgələndik.

Günorta olmuşdu. Birdən beynimə gəldi ki, uşaqlar işlərini bitirənə qədər gedib Larək adasında namaz qılaq. Bədənimi əyib qısa çardağımızın altından çıxardım. Gözlərimə inanmayıb:

– Tağızadə, qayıq hanı? – deyə qışqırdım.

İp suda ilan kimi qıvrılmış, buyun üstündəki mərcanlara sürtülərək qırılmışdı. Bilmirdik gülək, yoxsa ağlayaq. Qayıq uzaqlarda suyun üzərində soyuqqanlılıqla qalxıb-enirdi. Qayıqdan da uzaqda köpəkbalıqlarının belinin sudan çıxan tikanını görürdüm. Məhəmmədəli ilə Abbas da gəlmək bilmirdilər. Biz Hürmüz boğazının ortasında qalmışdıq, qayıqsa çox uzaqdaydı.

Su günorta günəşinin altında almaz kimi parıldayırdı. Suya girməyə cəsarət lazım idi, o da məndə yox idi. Zaman keçdikcə qayıq daha da uzaqlaşırdı. Tağızadə başı üstə suya girdi. Qayığa çatmaq üçün on beş dəqiqədən çox kral üzdü. Köpəkbalıqları ona yaxınlaşmasınlar deyə şüuraltımda nə qədər zikr vardısa, oxudum. Qayığa minənə qədər ölüb-dirildim. Özü də köpəkbalıqlarının qorxusundan o qədər sürətlə üzmüşdü ki, on dəqiqə qayığın yerində tövşüdü. Yazıq bilmirdi ki, açar buyun üstündə, şalvarının cibində qalıb. Simləri o qədər bir-birinə vurdu ki, axırda motoru işə saldı.

Nəhayət, vəd olunmuş sübh çatdı. Ağa Xamenei[1] kürsüdə, bizim hamımız da suda manevri icra etməyə hazır idik. Sualtı qayıq iri

---

[1] O zaman prezident idi.

gövdəsi ilə sıranın önündə dayanmışdı, ilk manevr də mənim üzərimə düşürdü. Onu kürsüyə tərəf sürüb bir qədər qaza basdım. Şükür Allaha ki, hər şey yolunda gedirdi. Qazı bir qədər də artırıb suyun altına girdim. Öz yüksək məharətimi göstərmək həvəsinə düşdüm. Bərk qaza basıb aşağı getdim. Sevincimdən bir dəfə yerimdə dövrə vurdum. Vəcdə gəlmişdim. İkinci dəfə də dövrə vurdum. Artıq tamamilə suyun altında idim. Amma istiqaməti itirdim. Mövqeyimi təyin edim deyə suyun üzünə qalxdım. Düz kürsünü qoruyan iki qayığın arasından çıxdım. Qayıqçı peşəkar idi, vaxtında yeri boşaltdı və dövlətə bir neçə şəhid təqdim etməyimə imkan vermədi. Motor birdən titrəməyə başladı və mən özümə gələnə qədər söndü. Elə qazla suyun altına girdiyimə görə səsboğucunun borusundan motora su girmişdi.

– Niyə getmirsən?

Kürsüdən dayanmadan ratsiya ilə bu sualı təkrarlayırdılar. Haqlı idilər. Nəhəng gövdəsi ilə hər yeri tutmuşdu, heç kim manevrinə başlaya bilmirdi.

– Sönüb... getmir.

Manevri işıqlandıran xarici jurnalistlərin önündə vəziyyətdən çıxmalı idik. Dedim ki, məni aparmaq üçün iki qayıq göndərsinlər. Elan etdik ki, o, sualtı qayığın manevri idi, bu da xarab olduqda ona yardım əməliyyatıdır. Sualtı qayıqla məni sürüyə-sürüyə kənara apardılar. Növbə Abbas Möhsüniyə çatdı. Şəhabı işə salıb sürətlə gəmiyə doğru göndərdi. Dörd yüz kiloqram TNT maddəsi gəmiyə dəydi, amma partlamadı. Şəhab öz-özünə dövrə vurub kürsüyə doğru qayıtdı.

Ürəyimiz yerindən çıxmaq üzrə idi. Çətinliklə onu yenidən idarə edə bildi və yenə gəmiyə doğru göndərdi. Yenə kürsüyə tərəf qayıdacağından qorxub partlamağının xeyrindən keçdilər. Çox inamla elan etdilər ki, əsas qayığı partlatmaq istəmirik, amma partlayışı görünsün deyə əvəzedici qayığı partladacağıq. TNT maddəsi ilə doldurduğumuz digər qayığı hədəf gəmiyə yaxınlaşdırdıq. İndi Əli Nəsrullahi qayığın ipini hədəfə qaynaq etdiyimiz milə düyünləməli idi. Mən sualtı qayıqla məşğul idim, manevrlərinə baxa bilmədim. Sonralar Əli mənə danışdı ki, ipi düyünləyəndə dalğa qayığın altına girir, barmağı ipin arasında qalıb çıxır. Yazıq üz vurmadan, sızlamadan qayıdır ki, partlayış tez baş tutsun.

Bilmədim növbə Buraqla Təbayiyə çatdı, yoxsa yox, amma yadımdadır ki, manevrdən sonra Şəhab suyun üzərində qalmışdı, heç

kim ona yaxınlaşmağa cürət etmirdi. Mən diviziyanın minaçı uşaqlarından birini göndərdim. Hamını geriyə göndərib özü tək qaldı. Biz də bir qayıqda uzaqda dayanıb dua və zikrə başladıq. O, qayığın üzərindəki fiberqlası açıb alışdırıcını çıxardı. Bizim qayığımızdan təkbir və salavat səsi ucaldı və Şəhab sağ-salamat geri qayıtdı.

# On üçüncü fəsil

## *Camaatın qızı*

"Bizim müharibəmiz Fələstinin azadlığı ilə nəticələnəcək... Bizim müharibəmiz haqla batilin müharibəsi idi və bu, bitən deyil. Bizim müharibəmiz yoxsulluqla sərvətliliyin, imanla rəzalətin müharibəsi idi və bu müharibə Adəmdən həyatın sonuna qədər vardır".

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 283-284

Bir Fav vardı, bir Nuh qərargahı - özümüz üçün get-gəl edirdik, səngər və yoldan tutmuş xəstəxanaya qədər inşaat və tikinti də öz yerində. İki il öncəki Favdan əsər-əlamət yox idi. Uşaqlar dam-divarlara o qədər farsca tablo vurmuşdular ki, şəhərdə gəzəndə adamı gülmək tuturdu. Hər gün bir tərəfdə yeni bir mərkəz cücərirdi. Mühəndislik qərargahı üçsantimetrlik kərpicləri ilə bütün tikililərdən təzə görünürdü. Qərargahımızın qarşısında Fatimeyi-Zəhra (ə) xəstəxanası yerləşirdi, 15 km kənarda da duz zavodu.

Çevrəmiz yerindəydi: Mürtəza Səffari Nuh qərargahının komandiri, Hacətzadə[1] Mühəndislik rəisi, Əkbər Şirqulami də onun birinci

[1] Mühəndis Bəhmən Hacətzadə İngiltərədən Gəmi mühəndisliyi üzrə məzun olmuşdu, Hacı Rza Əhmədi Miyanəcinin dəvəti ilə korpusun Dəniz qüvvələrində işləyir və Nuh qərargahına gəlib-gedirdi. O, müharibədən sonra da Dəniz qüvvələrinin Özünütəmin cihadı təşkilatının rəisi oldu. Təəssüf ki, 1999-cu ildə Məşhəd yolunda avtomobil qəzasında dünyasını dəyişdi. (Hekayəçi)

müavini idi. Mən də Mühəndislik kəşfiyyatının rəhbəri idim. Düşmən bir kərpicin yerini dəyişsəydi, biz bilməli idik. İşim İraqın hərəkətlərinin şəklini çəkmək idi. Hər səhər durbinimi boynumdan asıb motosikletin arxasında oturur, ən irəliyə gedirdim. Durbinin arxasında bir dəstə kar-lal görürdüm, onlardan heç bir səs çıxmırdı. Sanki televizorun önündə oturmuşam və müharibə filminin səsini almışam. Yük maşınları və əsgərlər gəlib-gedirdilər. Elə bil cavan bir adam əlində durbin onları izləmir. Bir əlimdə durbin olurdu, birində qələm; nə görürdümsə, yazırdım: Harada səngər qurmaq istəyirlər? Harada torpaq sipəri genişləndirirlər? Harada minalanmış sahə yaradırlar? Hansı maneələri toplayır və harada kanal açırlar? Hamısını yazırdım. Ərvəndin sahilindən, xalça kimi hər yerə döşənmiş günəşəbənzər istehkamlardan başlayıb Xor Abdullah sahilinə çatırdım. Suyun içindəki üçkünc istehkamların sayını da əzbərləmişdim. Kölgələri suda titrəyirdi, özləri isə tərpənmirdilər. Hər yerə gedir, şəkil çəkirdim.

Fotoqraflıq zamanı duz zavoduna da baş çəkirdim. Bir gün gözüm çıxan yerə getdim. Orada bir şey olmadığını bilsəm də, torpaqları ayağımla eşdim. Həmin gecənin görüntüləri film kimi gözlərim önündən keçdi. Hətta öz artilleriyamızın uzaqlarda guruldayan səsini də eşidirdim. Gözüm çıxanda Cəfər məndən bir neçə addım arxadaydı. Qaranlıqda gözünü qıyıb üzümə diqqətlə baxmış, üzümə qoyum deyə dəsmalını mənə vermişdi.

Dəsmalının ətri burnuma doldu, əlimdə durbin yerə oturdum. Cəfərin orada olduğunu hiss etdim. Aramızda nazik bir pərdə vardı və mən onu görmürdüm. Yavaşca onu çağırdım. Cavab gəlmədi. Boğazımı qəhər tutdu. Niyə qumbaraatan mərmisi işi bitirmək yerinə üzümün kənarından keçməli idi? Şəhadət artıq arzum deyil, ehtiyacım idi və bu ehtiyacı hər gün daha çox hiss edirdim.

Çətinliklə torpaqdan ayrılıb ayağa qalxdım. Axşama qədər çoxlu şəkil çəkməli idim. Üzümü durbinin arxasında yığdım. Duz zavodu hovuzları ilə birlikdə gözlərimin önünü tutdu. Cəfərlə Seyid Mehdi qollarını bir-birinin boynuna salıb mənim şəkil çəkməyimi gözləyirdilər; Məşhəddə və Şəhidlər gülzarı məzarlığında çəkdirdiyimiz şəkillər kimi. Daha ağlamaqdan keçmişdi, qışqırmaq

istəyirdim. Gözlərimi qolumla qurulayıb yenə duz hovuzlarına baxmağa başladım. Cəfərlə Seyid Mehdi getmişdilər.[1]

Qayıdandan sonra qərargahın damına çıxdım, rəngbərəng dəftərçələrimi açıb oxumağa və yazmağa başladım. Dəftərçələrə bir dünya şəkil də əlavə olmuşdu, onları səliqəyə salmalı, dəstələrə ayırıb Nuh qərargahına və komandirim Mürtəza Səffara təhvil verməli idim. Düşmənin mühəndislik işlərinin şəkillərinin köməyi ilə Əkbər Şirqulami və mühəndis Hacətzadə ilə birlikdə İraqın Fars körfəzindəki əl-Bikr və əl-Əmiyyə estakadalarına atəş yağdırdıq.[2]

Hələ şəkillər ətrafımda ikən ustad Salmani göyün harasındansa yerə düşüb qarşımda peyda oldu. O israr edirdi, mənsə inkar. Keçəl başım üstə ustalıq öyrənmək istəyirdi. O qədər dedi ki, axırda razılaşıb başımı ona tapşırdım. Sevincək qaçıb taburetka və qayçı-daraq gətirdi. Günortadan sonralar işimiz bu idi. Fav Mühəndislik qərargahının damına toplaşırdıq; çay süfrəsi, söhbət və deyib-gülmək də öz yerində.

Adəm övladı belədir, müharibənin ortasında da xoş anlar yaşamaq istəyir. Damda uşaqları görəndə elə bilərdin ki, bahar pikniyinə gəliblər və sanki müharibə getmir. Fav günəşi qürub çağı son zərbələrini vurur, bizi bacardıqca qızdırıb Xor Abdullah magistralının arxasında enirdi. Biz də çay içə-içə ona baxırdıq.

– Pisss! Pisss! – ustad taburetkanı altıma qoyub dedi, sonra başıma su səpməyə başladı. Sərinləşirdim, xoşum gəlirdi. Bədənimin təndirinin qapağının açıldığını və bütün istilərin başımdan çıxdığını hiss edirdim. Boynumdan və qulaqlarımın yanından su axırdı. Başımı yaxşıca islatdı, saçımı silib-süpürdü. Mən də arxayın halda oxuyurdum, gülüşürdük:

Başımı necə gəldi qırxma, ey ustad Salmani,
Çünki öz diyarımızda ad-sanımız var, bizi tanıyır hami.

---

[1] "Siz adam olmaq istəyirsiniz, amma adam olmaq əziyyətli işdir. Dünyada başıuca olmaq istəyirsiniz, bunun isə əziyyəti var, boşuna olmur". (İmam Xomeyni, Nur səhifəsi, c. 18, s. 314)

[2] Bu iki estakada müharibənin əvvəlində, 1980-ci ildə ordunun Hərbi Dəniz Qüvvələrinin Hərbi Hava Qüvvələrinin dəstəyi ilə həyata keçirdiyi Mirvari əməliyyatında tam dağıdılmışdı. İraq sonrakı illərdə onu yenidən bərpa etdi. Kərbəla-3 əməliyyatından bir il sonra üzərində mini-katyuşa olan bir Əsakirə qayığı və topla təchiz olunmuş digər qayıqlarla gecənin yarısı Ərvəndə hücum edib düşmənin estakadalarına atəş yağdırdıq, onları çox bərbad günə qoyduq bilsinlər ki, biz varıq. Çünki əl-Bikr və əl-Əmiyyə strateji mövqelərinə görə İraqın Fars körfəzindəki göz və qulaqları sayılırdı.

Qayçı xırçıldaya-xırçıldaya saçımın arasında gəzirdi. Arabir bir neçə addım geri çəkilib əsərinin panoramasına baxanda məni gülmək tuturdu. Sanki koordinat öyrənib atəş açacaqdı.

Vaxtından bir az keç, üz-başımıza əl çək,
Müsəlman müzəffər edər, qardaş, müsəlmani.

O kəsir, mən bəh-bəh deyirdim; mən oxuyurdum, o, bəh-bəh deyirdi. Çaylarını bizə yaxın yerdə içən bir neçə nəfərin də fikri mənim başımda və ustadın əlində idi. Uzaqdan ünvan verirdilər ki, haranı qırxmıyıb və hara qalıb.

Bir saat başım üzərində işlədi. Topa-topa tüklərim aypara şəklində yerə düşürdü. Çayxorlar süfrəni yığışdıranda əlimə bir güzgü verdilər. Özümə baxanda isə təəccübdən ağzım açıq qaldı. Sanki başımdan bir sürü qoyun keçmişdi; bir tərəfin otlarını tam yemişdilər, bir tərəfi tapdamış, bəzi otları da əsla görməmişdilər. Məni gülmək tutdu. Başımda pilləkən yaratmışdı. Bir özümə baxdım, bir də ustad Salmaniyə. Özü də gülüb deyirdi ki, o qədər şeir oxudun, başını yellətdin, diqqətim yayındı. Taburetkanı altımdan çəkib əşyalarını topladı və gülə-gülə getdi. Mən də yarımkeçəl başımla baş-başa qaldım.

Bədbəxtlikdən, evə zəng vuranda bəzi hadisələrin baş verdiyini və o başla Quma qayıtmalı olduğumu öyrəndim. Mehri bacım gəlin köçürdü, bir həftədən sonra nişanı idi. Öz-özümə fikirləşdim ki, yəni bu qədər böyüyüb, mən bilməmişəm? Anama söz verdim ki, nə olursa-olsun, özümü nişana yetirəcəyəm. Ancaq bilmirdim saçımı harada gizlədim ki, kürəkənin[1] qohumlarının yanında biabır olmayım.

Evə çatdığım axşam taleyüklü bir axşam idi. Gəlinin qardaşı ilə tanış olsunlar deyə fəxrlə içəri girdim, ərköyünləşdim, amma heç kim mənə məhəl qoymadı. Kürəkənin bir qohumu vəfat etdiyinə görə nişan mərasimi təxirə düşmüşdü. Atamla anam hamıdan çox dilxor idilər. Haqlı idilər. Anam əlində telefon qonaqlara zəng vurub xəbər verirdi. Hər dəfə dəstəyi yerə qoyanda yavaşca gözlərinin yaşını silir, Mehri bacıma yavaşca "qurban olum, başına dönüm" deyəndən sonra növbəti adama zəng vururdu. Yazığım gəldi; həm anama, həm də gəlin qardaşı olacaq deyə boşuna ümidlənmiş özümə.

– İndi ki bu qədər yol gəlmişik, qarnımızı da nişan yeməyinə və şirniyyatlarına hazırlamışıq... – dedim. Atam nə deyəcəyimi maraqla

[1] Cənab Dadrəs ordu komandirlərindən idi və həmişə cəbhədə olurdu.

gözləyərək mənə baxdı. – İstəyirsinizsə, mən evlənim, şirniyyat da yemiş olaq, - deyə sözümü tamamladım.

Anam hövsələsiz halda əlini yelləyib üzünü çevirdi. Heç kim sözümü ciddi qəbul etmədi və mən pərt oldum. Bir yolla onların əhvallarını yaxşılaşdırmaq istəyirdim. Axı dünyanın sonu gəlməmişdi! Əlimirzə ilə Nüsrət xanıma üzümü tutub dedim:

– Görürsüz?! Bəyəm mənə nə olub?! Mən evlənmək istəyirəm.

Düşünmədiyim yeganə iş evlənmək idi. Müharibənin qədrini bilir, bu imkanların təkrarolunmaz olduğunu başa düşürdüm. Əlimirzə başını yelləyib atama baxdı, istixarə etmək üçün təsbehini qaldırdı. Az sonra gülümsəyəndə sevinib dedim:

– Nə əcəb! Axır ki, biri güldü.

İstixarə yaxşı gəlmişdi. Dizlərini yerdən qaldırıb telefona yaxınlaşdı. Nömrəni yığmaq üçün Nəfisə bacımı çağırdı. Qohumlardan birinə zəng vurmaq və qızına elçi getmək üçün icazə almaq istəyirdi. Halbuki mən gülsünlər deyə zarafat etmişdim, əslində, evlənmək fikrim yox idi.

Atılıb-düşməyə başladım:

– Əşi, zarafat etdim. Mən cəmi iki gün icazə almışam, cəbhəyə qayıtmalıyam.

Məsələni ciddiyə almışdılar və sanki mənim fikrim onlar üçün əhəmiyyətli də deyildi. İsrar edirdim ki, indi ailə quracaq şəraitdə deyiləm, amma heç kim qulaq asmırdı. Mənə göstərdikləri qızın atasını, yəni Hacı Həmidi[1] tanıyırdım, qədim cəbhə adamlarından idi. Adını çəkən kimi Məcid yadıma düşdü. İtkin düşəndən sonra əmisi Hacı Həmidlə onu axtarmağa getmişdik.

Növbəti axşama elçilik üçün vədələşdilər. İnana bilmirdim. Ürəyimdə dedim: "Məcid, köməyə gəl, daha mənlik deyil". Evdə nə qədər atılıb-düşdümsə, xeyri olmadı. Birdən beynimə gəldi ki, hərəmə gedim. Həzrət Məsumənin (s) yanında dünyanın bütün sevgiləri vardı. Zərihi öpüb ətrini içimə çəkdim. Zərihlə üz-üzə oturanda elə bilirdim ki, burada yüngülləşim deyə bütün dünya dayanıb gözləyir.

Xanımla doyunca danışdım; özümdən, evlənməyə şəraitimin olmamasından, bununla sevinən ata-anamın əziyyət çəkməsindən,

---

[1] Hacı Həmid Sənəti Hacı Rəhmətin qardaşı idi. Məcid şəhid olanda cəsədini axtarmaq üçün onunla birlikdə cəbhəyə getmişdik. O, inqilabın birinci seçim pasdarlarından və Həzrət Rəsul (s) diviziyasının təminat komandirlərindən idi.

tanımadığım qızdan, üzərinə ad qoymağa qorxmağımdan, cəbhədən qayıdım deyə gözlərinin yolda qalacağından... Düşünürdüm ki, camaatın qızı yazıqdır, mənim şəhər həyatına uyğun olmadığımı, müharibə və cəbhə fikrini başımdan çıxara bilmədiyimi bilmir. Ümumiyyətlə, mənim birinci xanımım cəbhə idi; nə qədər ki müharibə vardı, silah çiynimdən enməyəcəkdi. Mən ona görə ailə qururdum ki, dinim kamilləşsin, şəhadət qapısı üzümə açılsın. Qərara gəldim ki, bunların hamısını camaatın qızına deyim.

Təqvim 02.11.87 tarixini göstərirdi. Hamı Fəxri xalamın evinə toplaşmışdı, oradan elçi gedəcəkdik. Əli ilə Məciddən başqa hamı oradaydı. Taxçanın üstündəki şəkilləri gözümə sataşdı. Şəkil onların yerini verə bilərdimi?!

Camaatın qızının evi Fəxri xalamgilə yaxın idi. Uzun-qısa saçım bir tərəfə, elçi getdiyimə görə, heç olmasa, əynimə bir dəst kostyum da geyməmişdim.

Danışdığımız vaxtda çatdıq. Yağış küçəni yumuşdu. Bir-birimizin ardınca düzülüb içəri girdik. Divarboyu adam oturmuşdu, kimin kim olduğunu bilmirdim. Böyüklər oradan-buradan danışırdılar. Mən başımı aşağı salıb “görəsən, indi uşaqlar nə edirlər” deyə düşündüyüm yerdə birdən dedilər ki, bəylə gəlin danışsınlar. Bütün bədənimi tər basdı, az qala xəcalətdən evlərindən qaçacaqdım. İyirmi yaşım vardı, amma o vaxta qədər heç bir naməhrəmlə tək qalmamışdım. Kiminsə dadıma yetməsini istəyirdim. Hacı Həmidə baxdım, əlimlə təklif etdim ki, o da təşrif buyursun. Təbəssümü ilə bildirdi ki, olmaz. Ayaqlarım yerə yapışmışdı, addım ata bilmirdim. Özümü toparlayıb yenə Hacı Həmiddən xahiş etdim ki, bizimlə gəlsin. Allaha şükür, bu dəfə razılaşdı. Camaatın qızı atası ilə yandakı otağa keçdi, mən də onların ardınca. Bütün bu baxışlar altında həyəcanlanmışdı. Hacı Həmid qapını bağladı və böyüklərin səs-küyü bayırda qaldı.

Camaatın qızı divara yığılmış şkafın yanında oturdu, Hacı Həmidlə mən də qarşısında. Xalçanın güllərinə o qədər baxdım ki, başım gicəlləndi. Çox gözlədim ki, Hacı Həmid sükutu pozsun, amma xeyri olmadı. Qardaşı Hacı Rəhmətdən fərqli olaraq sakit və azdanışan idi. Heç vaxt evdə tapılmayan köhnə cəbhə döyüşçülərindən idi. Bilirdim ki, döyüşçü olduğuna görə mənim kimi bir cavanı evinə buraxıb.

Qızı ilə üz-üzə oturmuşdum və nə deyəcəyimi bilmirdim. Qulaqlarım qızarmışdı. Danışmayınca otaqdan çıxa bilməzdim. Ürəyimdə "Bismillah" deyib boğazımı arıtlamaq üçün yavaşca

öskürdüm. Xeyri olmadı. Sözlər çətinliklə boğazımın dibindən çıxıb havada itirdi.

– Nə qədər ki müharibə var, mən gərək vuruşum. Mənimlə həyat müharibə və cəbhə deməkdir; yəni müharibənin kölgəsi altında yaşamaq...

Sözlər otaqda dövrə vurub camaatın qızına çatdı. Mənim gözlərim də onları izlədi. Başını aşağı salıb qulaq asırdı. Cəsarətlənib sözümü davam etdirmək istədim. Aramızda uzaq bir tanışlığın olduğunu hiss etdim. Bildim ki, sözümü başa düşür və halımı anlayır. Baxışları xalçanın gülləri üzərinə dikilmişdi, təsdiq əlaməti olaraq başını azca yelləyirdi. Bilmədim yanaqları xəcalətdən çəhrayı olmuşdu, yoxsa istidən; amma mənə isti idi, tər damcıları belimə axırdı.

Avtomat rejiminə keçib tez-tez danışırdım. O qədər sözü haradan tapdığımı bilmirəm. Əvvəldə danışmağa üzüm gəlmirdi, sonra isə heç kimə macal vermirdim. Mən nə qədər çoxdanışan idimsə, camaatın qızı da bir o qədər sakit və utancaqdı. Hətta soruşmadı ki, onunla harada yaşamaq istəyirəm, yaşayış xərclərimizi necə əldə edəcəyəm. Yalnız qulaq asırdı. Otaqdan çıxanda daha həyəcanlı deyildim, ağzımda məchul bir şirinlik qalmışdı.

Bu evlilikdən arxayın halda gözümü böyüklərin ağzına dikdim. Üç gün sonraya nişan təyin olundu. Həmin üç gün mənimçün üç il kimi keçdi. O qədər utancaqlığına və azdanışanlığına baxmayaraq, Zəhra xanım üçün darıxırdım.

Ertəsi gün sübh tezdən oyandım. Anamla Siddiqə xalam nişan alış-verişi üçün Zəhra xanım və anası ilə birlikdə bazara gedəcəkdilər. Siddiqə xalam anam qədər sevinirdi. Bilirdim ki, Məcidi düşünərək bizimlə gəlir. Onun toyunu görməyi həmişə arzulayırdı.

Cibimdə üç min tümən pul vardı, yeddi min tümən də atam verdi ki, əliaçıq olum. Bütün yolboyu Zəhra xanımı düşünürdüm. Bilmək istəyirdim ki, o da mənim kimi sevinir, yoxsa yox. Lakin anası ilə maşına minəndə bütün sevincim yox oldu, bir dünya xəcalət içində boğulub qaldım. Ürəyim özünü sağa-sola çırpırdı. Yavaşca pulu anamın çantasına qoyub göz-qaşla bildirdim ki, mən maşından enməyəcəyəm.

Anamla xalam nə qədər israr edirdilərsə, iki ayağımı bir başmağa dirəyib deyirdim ki, bu qədər qadınla gəzməyə utanıram. Bir nəfər yoxdu desin ki, ay rəhmətliyin oğlu, bura özümüz üçün yox, səninlə xanımın üçün gəlmişik; alış-veriş bir yana, bu qədər arzulayırdın ki,

Zəhra xanımı bir də görəsən, indi niyə oyun çıxarırsan? Hətta güzgüdən bir dəfə ona baxmağa da üzüm gəlmədi. Anamla xalam mənimlə bacarmadılar. Maşında oturub dedim ki, zövqünüzü bəyənirəm.

Güzgü və şamdanları özləri aldılar. Nə qədər etdilərsə, üzük istəmədim. Heç platin də sevmirdim. Onlar israr edirdilər, mən də inkar. Nəhayət, razılaşdılar. Qadın paltarından danışanda qulaqlarıma qədər qızardım, sükana bərk yapışıb yerimdən tərpənmədim. Növbə mənim saatıma gələndə isə heç bir bəhanəni qəbul etmədilər. Onların məcburiyyəti ilə və Zəhra xanımla anasından çəkindiyimə görə maşından endim. Həyəcandan qoluma taxdığım ilk saatı bəyəndim. Tez maşına qaçıb sükanın arxasına sığınmaq istəyirdim. Ora səngərim olmuşdu.

Bu bir neçə əşyanı almaq günortaya qədər çəkdi. Restoranda günorta yeməyində başımı o qədər aşağı saldım ki, az qala boşqaba girəcəkdim. Hətta Zəhra xanımın harada oturduğunu görmək üçün də baxmadım. Xalamla analar söhbət edirdilər, biz ikimiz də utanmaq yarışına girmişdik. Nəhayət, cümə səhəri boş xiyabanlarla görüşümüzə gəldi. Atamın güllü-çiçəkli Şevrolet avtomobili ilə gözəllik salonuna Zəhra xanımı götürməyə getdim. Yenə kostyum geyməmişdim, həmişə cəbhə formasında gəzirdim. Özümə çox hörmət edəndə köynəyimi dəyişdirirdim, şalvarımsa dəyişmirdi.

Həmin gün paltar şkafımı açdım, birtəhər adını bəy paltarı qoya biləcək bir dəst paltar tapmadım. Məcbur qalıb həmin şalvarı və mənə aldıqları köynəyi geydim. Axırıncı dəfə nə vaxt altıcibli xaki şalvardan başqa bir şalvar geydiyim yadımda deyildi. Heç kim də məndən soruşmamışdı ki, beş ildir şalvarının belini patron kəməri ilə bərkidirsən, adi şalvar kəmərin var, yoxsa yox. Təzə şalvarımı yuxarı çəkib zəncirbəndini bağladım. O qədər enli idi ki, ayaqlarımdan düşürdü. Patron kəməri ilə saxlamağa çalışdım, amma kəmər yerinə keçmədi. Anama demədən həyətə çıxıb paltar ipini açdım, bıçaqla yarım metrini kəsib özümə kəmər düzəltdim. Ancaq qorxurdum ki, birdən düyünü boşalar. Düyünün başını şalvarıma salmış, köynəyi üstündən aşırmışdım. Pencək yerinə də əynimə yüngül gödəkcə keçirib yola düşdüm. Gödəkcə o qədər uzundu ki, enli köynəyimdən də aşağı düşürdü. Pal-paltarımdan və sanki çəmənbiçənlə qırxılmış saçımdan hər kəsə oxşayırdım, təzə bəydən başqa.

Sevindiyimdən yerə-göyə sığmırdım. Gözəllik salonunun önündə saatın əqrəblərini yuxu tutdu. Zaman Zəhra xanımsız keçmək istəmirdi. Bir neçə dəfə yerə enib kapotun üzərindəki gülləri səliqəyə saldım, şüşələri parıldatdım, amma Zəhra xanım gəlmədi ki, gəlmədi. Kiminsə gəlin maşınının ardınca düşəcəyindən qorxub heç kimə xəbər verməmişdim. Zəhra xanım mənim məhrəmim olacaqdı, istəmirdim ki, siqnalların səsindən bütün naməhrəmlərin diqqəti mənim məhrəmimə cəlb olunsun.

Nəhayət, gözəllik salonunun qapısı açıldı və sanki ürəyim guppultu ilə buzlu su dolu bir stəkana düşdü. Yanındakı xanımların biri maşına minməsinə kömək etdi. Ağ çadrası çənəsinin altına qədər gəlirdi. Yavaşca salam verdi, mən yalnız "s" hərfini eşitdim. Maşını işə salıb qaza basdım. Evlərinə çatana qədər bir kəlmə də danışmadım. Bütün sevincimi və həyəcanımı qazın pedalına boşaldırdım.

Tehranın Piruzi prospektindən Əfsəriyyə məhəlləsinə qədər yolu on dəqiqəyə getdim. Qadın məclisi qayınatamgildə keçirilirdi. Nişan süfrəsini elçilik zamanı oturduğumuz otaqda açmışdılar. Kişi məclisi də iki küçə aşağıda, gəlinin əmisi Hacı Həbibgildə idi. Süfrənin başına iki stul qoymuşdular. Zəhra xanımla yan-yana oturduq. Utandığından o qədər kənara çəkildi ki, az qala stuldan düşəcəkdi. Başımı aşağı salmışdım. Xanımlar süfrənin ətrafını tutmuşdular. Bir yerə baxmağa üzüm gəlmirdi. Zəhra xanım dizinin üstünə Quran qoyub oxuyurdu. Cildinin küncü də mənim dizimin üstündə idi. Xoşbəxtliyimiz yerinə ipin düyününün açılmaması üçün dua edirdim. Köynəyimi səliqəyə salmaq bəhanəsi ilə əlimi düyünə vururdum, görürdüm ki, hələ yerindədir.

Nəhayət, nikah əqdinin giriş hissəsi oxundu. Hamı sakit qalıb gəlinin cavabını gözlədi. Birinci və ikinci dəfə cavab vermədi. Giriş mənə uzun gəlirdi; nəfəsimi saxlamışdım. Kəbinkəsən sualını üçüncü dəfə təkrarlayanda Zəhra xanım bir az başını qaldırıb yavaşca və gözəl səslə "bəli" dedi və birdən-birə hər şey mənim üçün gözəlləşdi. "Bəli" sözünü o qədər qəşəng dedi ki, ürəyim istəyirdi kəbinkəsən yüz dəfə də "məni özünüzə vəkil edirsinizmi?” deyə soruşsun, Zəhra xanım da utana-utana çadrasının altından yavaşca desin:

– Bəli.

Kəbinkəsən nikah əqdini oxuyub gedən kimi xanımlar mən görüm deyə gəlinin çadrasını başından götürdülər. Ancaq heç kim fikir vermirdi ki, bəyin sağ gözü görmür, gəlin də sağ tərəfdə oturub.

Nənəm əyilib alnımdan öpdü. Mavi gözləri dənizə dönmüşdü. Anam Zəhra xanımın barmağına taxım deyə üzüyü mənə verdi. Utanırdım. Anamdan xahiş etmək istəyirdim ki, özü taxsın, amma geri çəkildi və səsimi eşitmədi. Üzüyü baş barmağımla işarə barmağımın arasında tutdum, əlinə toxunmasın deyə digər barmaqlarımı yuxarı qaldırdım, nəfəsimi saxlayıb dəqiq nişan aldım. Həyəcanla üzüyü barmağının sonuna itələyib tez əlimi çəkdim. Qızlar əl çalır, bizə şeir oxuyurdular, mən də xəcalətimdən ölürdüm. Ürəyim istəyirdi ki, şkafın qapısı açılsın və girib içində gizlənim.

Biz məhrəm olandan sonra özləri rahat olsunlar deyə məni otaqdan çıxardılar. Ancaq əslində, xanımlar bayıra çıxmalı idilər ki, mən rahat olum. Hər halda, heç kim fikrimi soruşmadı və məni çox hörmətlə bayıra atdılar.

Kişi məclisində öyrəndim ki, Mehri bacımla kürəkənimiz Dadrəs nişan mərasiminin yerinə sabah Məşhədə getmək istəyirlər. Heç kimdən təklif gözləməyib dedim ki, biz də gəlirik. Bəhanə tapıb sevincək qadın məclisinə qayıtdım, qapının yanında dayanıb dedim ki, Zəhra xanımı çağırsınlar. Başımı aşağı salmışdım. Bir neçə dəqiqəyə gəldi. Onu görən kimi həyəcanlandım, sözə necə başlayacağımı bilmədim.

– Yorulmayasınız, – dedim.

"İki küçə uzaqdan bunu deməyə gəlib" deyə düşünəcəyindən qorxub cavabını gözləmədən əsas mətləbə keçdim:

– Sabah biz də Mehri xanım və ağa Dadrəslə birlikdə Məşhədə gedəkmi?

Bir qədər dayanandan sonra başını yellədi. Razılaşdığına görə sanki dünyanı mənə verdilər.

Mərasimdən sonra hamımız Əhməd dayımgilə toplaşdıq. Anamla atam hamıdan çox sevinirdi. Onların gülüşlərini sevirdim. Ədyalla yastığı qoltuğuma vurub yatmağa getdiyim yerdə Fəxri xalam qarşımda peyda olub:

– Sən burda nə edirsən? – deyə soruşdu. Bir anlığa pis bir iş gördüyümü sandım. Anamla Siddiqə xalamı çağırıb əlavə etdi: – Bu niyə xanımının yanında qalmayıb?

Qızardım. Qulaqlarım istiləşdi. Başımı aşağı saldım. Xalalarımın dəcəlliyi tutmuşdu, mən də qoltuğumda yastıq gözlərimi ağızlarına dikmişdim. Nə gəlin evinə qayıtmağa üzüm gəlirdi, nə də qayıtmamağa ürəyim. Bilirdim ki, xalalarım Məcidlə Əli üçün

arzularını mənim üzərimdə həyata keçirmək istəyirlər. O qədər vasitəçilik etdilər, göz vurdular, nəvaziş göstərdilər ki, axırda yola düşdüm.

Zəhra xanımın ağ paltarla və qat-qat tül ətəklə qapıya çıxacağını gözləyirdim, amma qapını Hacı Həmid açdı. Utandığımdan qıpqırmızı oldum, bir qədər mızıldadım. Zəhra xanımın anası yaxınlaşıb məni içəri dəvət etdi. Onun kimi sakitcə və tələsmədən danışırdı, sözünü yaxşı eşitməyə imkan verirdi. Məncə, Zəhra xanımın məzlum davranışları və azdanışanlığı anası kimi idi: yavaş, məntiqli və səbirli.

Hamı evdəydi, Zəhra xanımdan başqa. Gələnə qədər bir neçə dəqiqə çəkdi. O müddət mənə çox uzun göründü. Gələndə özümü itirib ayağa qalxdım. Boyda məndən kiçik idi, qulağı sinəmə çatırdı. Fikirləşdim ki, indicə özünü sağa-sola çırpan ürəyimin səsini eşidəcək. Ürəyim istəyirdi ki, zaman dayansın və səhərə qədər söhbət edək. Ağzından çıxan sözlər mənə nəvaziş kimi gəlirdi. Məni birinci dəfə Hacı Rəhmətgildə görməsindən danışdı. Ona arıq və qara bir gənc təsiri bağışlamışdım.

Zəhra xanım nə qədər azdanışandısa, mən də bir o qədər dayanan deyildim. Sözlərimi başa düşdüyünü hiss edirdim. Sanki dediklərimin hamısını öncədən bilir, təsdiq əlaməti olaraq başını yelləyirdi. Elə qulaq asırdı ki, yenə danışmaq istəyirdim. Bu qədər uzunçuluğuma özüm də təəccüblənirdim. Əbülqasimxanın göyərçinlərinin yumurtaları yadıma düşdü.

İki yaşım vardı, hələ dil açmamışdım. Bir səhər Nərgiz xanım qapımızın zəngini basır, göyərçinlərinin yumurtasından nənəmə verib tapşırır ki, hər gün səhər sarısını mənə yedirtsinlər. Bir aya yumurtalar təsirini göstərir və Məhəmmədhüseyn can dil açır. İndi də çox danışanda Əbülqasimxan yadıma düşür. Göyərçinlərinin yumurtalarını xatırlayıb onun üçün dua edir, gülərək öz-özümə düşünürəm ki, rəhmətlik dilimi necə açıbsa, heç nə ilə bağlanmır.

Göyərçin yumurtalarının xatirəsi Zəhra xanımın çox xoşuna gəldi. Əlini ağzının önünə qoyub yavaşca gülürdü.

Uşaqlıqdan cəbhə günlərinə qədər bütün xatirələrimi ona danışdım: Bədrdə Müctəba Seyfidən, Seyid Mehdidən, Aşura-2 əməliyyatında Əli Fərdpurdan, Kərbəla-4 əməliyyatında Məciddən və dalğıclardan, Kərbəla-5-də Əlidən, Abdullah Mürəvvicdən, Məhəmməd Zülfidən, Hacı Əhməd Kərimidən, Favda gözümdən, Cəfərdən və göylərdə məni gözləyən bütün dostlarımdan.

– Nə məndən sizə ər çıxar, nə də sizdən mənə xanım, – bilmədim necə oldusa, ağzımdan belə bir cümlə çıxdı.

Qaza bu qədər bərk basmalı olmadığımı bilmirdim. Pəncərəyə və tülün arxasındakı səmaya baxıb arzularımdan danışırdım; çox darıxdığım dostlarımdan, izdivacın mənə və dostlarıma qovuşmağıma mane olmasını istəməməyimdən. Bir döyüşçü ilə yaşamağın çətinliyindən də danışıb dedim ki, məndən sonra tez ailə qurmasını istəyirəm. Zəhra xanımın çoxdan sakit qaldığını hiss edib ona baxdım. Mehriban üzü göz yaşlarından islanmış, gözləri dəryaya dönmüşdü. Mən də o dəryada boğuldum.

Səhər tezdən Mehri bacı və ağa Dadrəs bizi aparmağa gəldilər. Hacı Həmidin gözünün işığının əlindən tutdum və maşına mindik. Nişanımızdan cəmi bir gün keçirdi, təklikdə də bir-birimizlə danışmağa utanırdıq, o ki qala Mehri bacımla Dadrəsin yanında. Yolboyu onlar danışdılar, bizsə sakit qaldıq. Çox gözlədim ki, Zəhra xanım da bacım Mehri kimi danışsın, xeyri olmadı. Gözucu ona baxırdım, ürəyim sevinclə dolurdu. Gözlərimi yumdum ki, Zəhra xanım yuxuda sükutunu pozub mənimlə bir qədər danışsın.

Nişapuru keçəndən sonra oyandım. Benzin bitmişdi. Yolun kənarında nə qədər gözlədiksə, qeybi yardımlar gəlib çıxmadı. Kürəkənimi məzlum tapıb ələ salmağa başladım:

– Cənab qardaş, xanımınla söhbətə başın qarışıb, benzinə fikir vermirsən. İndi bu bidonu al və zəhmət olmasa, bizə benzin gətir.

Yazıq razılaşıb getdi. Bir adam yox idi mənə desin ki, ay insafsız, gecənin bu vaxtı çöllükdə haradan benzin tapsın. Çoxlu piyada gedəndən sonra bir kəndə çatmışdı. Bir-iki saat gözləyəndən sonra, nəhayət, qayıtdı.

Məşhədə çatmaq üçün səbirsizlənirdim. İstəyirdim ki, Zəhra xanımla tək qalım və o, Mehri bacım kimi mənimlə danışsın. Bilirdim ki, maşında bir il də qalsaq, danışmağa utanacaq.

Ertəsi gün sübh tezdən Zəhra xanımın əlindən tutub şəhərə yola düşdük: hərəmi, Şəhidlər gülzarı məzarlığını, Kuhsəngini və əməliyyatlar arasında dostlarımla getdiyim hər yeri ona göstərdim, çıxardığımız bütün oyunları söylədim. Mən danışırdım, o gülürdü. O səfər mənim üçün qısa bir yuxu kimi idi; şirin və unudulmaz.

İndi də hərəmin Səqqaxana həyətinə gedəndə o günlər yadıma düşür. İlk dəfə orada birlikdə namaz qılmışdıq. Nişanlı çağımızın yeganə şəkli də oraya aiddir. Fotoaparatın arxasından ona baxıb "gül"

demişdim, o isə utanıb yerə baxmışdı. Sanki Allah bütün yaxşılıqları Zəhra xanımın vücuduna doldurub mənə əmanət vermişdi. Mənimlə həyatın çətinliklərindən narazılıq etdiyini, kobudluq göstərdiyini və ya sözümün üstünə söz dediyini əsla xatırlamıram. Bəzən gözucu ona baxıram; ürəyimdə bir şey qanadlanıb boğazıma çatır. Həmişəki kimi mənim üçün nə qədər əziz olduğunu, yanımda olanda hər cəhətdən necə arxayın olduğumu ona deyə bilmirəm. Allaha şükür edirəm ki, var. Onun varlığı mənə bəsdir. Mən dünyanın bu başında, Zəhram o başında da olsa, o qədər yaxşıdır ki, yaxşılığı mənə çatır və əhvalım gözəl olur.

Nişanımızda qohumlarımızdan biri dayanmadan gəlinlə bəyin, yəni mənim şəklimi çəkirdi. Sizdən nə gizlədim, ürəyimdə bu işə razı deyildim. Nə qədər dedim ki, şəkil çəkməyin, heç kim qulaq asmadı. Axırda lent yandı və şəkil çıxmadı; nə albomumuz üçün, nə də kitabın bu fəsli üçün.

# On dördüncü fəsil

## *Zəhərdən acı*

"Xoş siz xalqın halına! Xoş siz qadın və kişilərin halına! Xoş əlillərin, əsirlərin, itkinlərin və hörmətli şəhid ailələrinin halına! Əfsus mənə ki, hələ yaşayıram, qətnaməni qəbul etməkdən ibarət zəhərli camı başıma çəkirəm və bu böyük xalqın əzəmət və fədakarlığı qarşısında xəcalət hissi keçirirəm. Və əfsus bu karvanda olmayanların halına! Əfsus müharibə, şəhadət və böyük ilahi imtahandan ibarət bu böyük mərəkənin yanından indiyədək sakit və laqeyd, yaxud tənqidlə və aqressiv keçənlərə!"

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 92-93

Favın fəthindən zaman keçdikcə İraq və müttəfiqləri bu məğlubiyyəti kompensasiya etmək üçün daha çox qüvvə cəlb edirdilər. Bu qədər illər boyu ağır silahları çiynimizdə ona görə daşımamışdıq ki, Favın fəthi ilə arxayınlaşıb yerimizdə oturaq. İşğalçını və himayədarlarını cəzalandırmaq, habelə Favı geri almaq istəyən diviziya və texnikaları sıradan çıxarmaq üçün yeni əməliyyat barədə düşünürdük. Düşmən qüvvələrini Favdan uzaqlaşdırmaq üçün bir aldadıcı əməliyyat lazım idi. Nə qədər çox uzaqlaşsaydılar, bir o qədər yaxşıydı.

Diviziyalar canlı qüvvəni qərb cəbhəsinə cəmlədilər. Vəlfəcr-10 əməliyyatı şimal-qərbdən Hələbçəyə doğru planlaşdırıldı. Qərb yüksəklikləri bir-bir bu əməliyyatda ələ keçirilir və şəxsi heyət ruh

yüksəkliyi ilə irəliləyirdi. 1988-ci ilin ilk aylarında Hələbçəyə qədər getdik.

Quru Qoşunların Aviasiya xidmətinin uşaqları dayanmadan döyüş yerinə canlı qüvvə aparır, geriyə yaralı gətirirdilər. Abdullah Cavadinin əli bu əməliyyatda kəsildi və yaralanması uşaqların gülüş mövzusuna çevrildi. O, düşmən qüvvələrini uzaqdan görüb əl qumbarasını çəkir, sonra isə fikrindən dönüb yerə qoyur və avtomatla işlərini bitirmək qərarına gəlir. Birdən əl qumbarasının partlayacağını xatırlayıb yerdən götürür və uzağa atmaq istəyəndə əlində partlayır. Onu ələ salıb deyirdim ki, bu əlinlə o qədər mərdimazarlıq etdin, gecə namazı qılanların ovcuna o qədər ikitümənlik qoydun ki, axırda əlin də sənin əlindən qaçdı. Bir-biri ilə zarafatlaşanda deyirdilər ki, nə vaxt əl qumbarasını çəksəniz, Abdullah kimi yerə qoyun, istixarə edin, yaxşı gəlsə, götürüb atın.

Vəlfəcr-10 əməliyyatındakı irəliləyiş sevinci çox çəkmədi. Hələbçə xəbərləri fırtına kimi hər yerə yayılıb qələbənin şirinliyini zəhərə çevirdi. Mən onda cənubdaydım; hər gün bir söz eşidirdim, bədənim ürpəşirdi.

16 Mart 1988-ci ildə şəxsi heyət döyüş səs-küyünün arasında yeni səslər eşidir. Sanki çox ağır bir şey yerə düşüb hər yeri titrədir. Bu qalın və ağır səsi hər gün dalbadal eşidir, nə olduğunu bilmirlər. Nəhayət, reportyorlar Hələbçəyə gəlirlər. Səddamın bu cinayəti barədə televiziyadan yayımlanan görüntülər yadımdadır. Şəhərin küçələri bombardmandan qaçmağa çalışan insanların cəsədləri ilə doluydu. İraqın şimalındakı kürdlər iranlı döyüşçülərlə əməkdaşlıq etdiyinə görə Səddam onlara belə bir ümumi cəza tətbiq etmişdi: səssiz və alovsuz bombardman. Sianid qazı yavaşca hər yerə yayılıb əhalini sanki illərdir ölmüş ruhsuz heykəllərə çevirmişdi.

Səddam Hələbçədən sonra yenə bizim üstümüzə gəldi, Tehrana ballistik raketlər atdı. Vəziyyət ağır idi. Qərara alındı ki, Fav duz zavodu bölgəsinin ön xəttində top yerləşdirib Ümm əl-qəsri vuraq. Bununla düşmənin su hücumlarına bir qədər qarşılıq vermiş olurduq. Favda təmas xəttinə yaxın olduğumuza görə top üçün səngər düzəltməli idik. Ekskavator və buldozerlər gəldi. Bir tərəfdən, yer yumşaq idi, ağır maşınlar palçığa batırdı, bir tərəfdən də düşmənin DŞK pulemyotu işləməyə qoymur, quduz it kimi dayanmadan hürürdü.

Layihənin rəhbəri mühəndis Ənsari idi. O, Mürtəza Səffaridən bizim üçün peşəkar bir qumbaraatan göndərməsini istədi. Düşmən səngərləri betondan idi, bizimki isə çuvaldan.

DŞK hamını bezdirmişdi. Sonralar mühəndis Ənsari mənə dedi ki, o vurhavurda balaca bir bəsici peyda olur. Mühəndis ona baxıb soruşur:

– Sən qumbaraatansan?

– Bəli, məni ağa Mürtəza göndərib, – deyə bəsici uşaq özü boyda qumbaraatanı çiynində yerbəyer edib cavab verir.

O, dördəlli istehkama qalxıb DŞK səngərinə baxır. Mərmisi səngərin düz girişinə dəyməli idi. Soyuqqanlılıqla oradan enib mərmini qumbaraatana bağlayır. Yenə torpaq sipərə dırmaşıb dizinə qədər yuxarı qalxır. DŞK pulemyotunun atəşi torpaq sipərə dəyib toz-torpağı havaya uçurur. Qumbaraatanın mərmisi yan keçir və o sürüşüb aşağı enir. Cibindən bir Quran çıxarıb oxumağa başlayır. Mühəndis Ənsari onun da bacarmayacağından qorxub balaca bəsiciyə deyir:

– Qardaş, atırsan?

– Dəyəcək.

– Atırsan? – yenə təkidlə soruşur.

– Dəyəcək, – bəsici arxayın təbəssümlə ona baxıb eyni cavabı verir.

Quranı oxuyub qurtarandan sonra istehkama qalxır, nişan alar-almaz atəş səsi ucalır. Qumbaraatanla DŞK bir zamanda guruldayır. Mərmi düz səngərin girişində partlayır, pulemyotun gülləri də bəsicinin bədəninə dəyir və o, istehkamın üstündən yerə yıxılır. Mühəndis Ənsari özünü ona yetirir. Qumbaraatan gözlərini açıb gülümsəyir:

– Gördün, dedim ki, dəyəcək, – deyə gözlərini bağlayır və sanki bu dünyada işi qalmamış kimi arxayın şəkildə gedir.[1]

Həmin günlərdə Ayətullah Əhmədi Miyanəci Əhvaza gəldi. Mən Nuh qərargahının Mühəndislik kəşfiyyatının başçısı idim, Favı ona göstərmək istəyirdim. O isə düşünürdü ki, vəzifəsi döyüşçülərə xütbə oxumaqdır, bölgəyə baxmaq yox. O qədər israr etdim ki, axırda razılaşdı və döyüşçülər önündə çıxış etmək şərti il Fava gəldi.

---

[1] "Biz fəxr edirik ki, sizin kimi əzizlərin yaşadığı zamanda və yerdə yaşamışıq, sizin nəfəs aldığınız havada nəfəs almışıq. Siz ixlaslı və fədakar insanlarsınız. Siz öz nəfslərinizə qalib gəldiniz, bizsə geridə qaldıq". (İmam Xomeyni, Nur səhifəsi, c. 16, s. 196-199)

Fav ilk gündəki Fav deyildi, raket mərkəzi, Fatimeyi-Zəhra (ə) xəstəxanası və buz zavodu açmışdıq. Bölgədə gəzintimiz bitəndə günortaydı. Uşaqlar camaat namazı qılmaq üçün minarəsinə İmam Rzanın (ə) günbəzinin bayrağını vurduğumuz balaca məscidə toplaşdılar. Məncə, qəlblərinin hacının zərif və səmavi moizələri ilə düyünlənməsi üçün ən əlverişli vaxt idi.

Hacı ağa minbərdə oturdu. Söhbətinə yenicə başlamışdı ki, gurultu qopmağa başladı, hər şey alt-üst oldu, məscidin ətrafı Avstriya topları ilə vurulub titrədi. Cərgələrin arasından minbərə sarı qaçdım. Bir neçə nəfər məndən qabaq hacını minbərdən endirib məscidin yanındakı səngərə doğru apardı. Çox həyəcanlandım, səngərə girib ondan üzr istəməyə başladım. Mənim davranışlarımı görəndə sakit və mehriban üzündə özünəməxsus təbəssüm yarandı:

– Ağa Məhəmmədhüseyn, məni niyə minbərdən endirdiniz?! Bunlar bizə xoşgəldin deyirdilər, axı niyə başa düşmürsünüz?! – dedi.

Vəlfəcr-10 əməliyyatından sonra Fav boşalmışdı. Daha düşərgədə işimiz yox idi. Mən də Quma qayıtdım. Ancaq ağlımıza da gəlməzdi ki, düşmən altı ildən sonra Favı geri almaq üçün müdafiə qınından çıxa bilər.

İraq ordusu 18 aprel 1988-ci ildə döyüşçülərimizin Favdakı mövqelərinə hücuma keçdi. O zaman iranlı qüvvələrin çoxu şimal-qərbə yerləşmişdi, Hələbçədə Vəlfəcr-10 əməliyyatını yenicə bitirmişdilər. Beləliklə, Fav süqut etdi.[1]

Kaş olmayaydım və o günü görməyəydim! Favın əldən çıxmasının acılığı əldə edilməsinin şirinliyindən çox idi. Fırtınalı əməliyyat gecəsində suya girən dalğıcların üzləri gözlərim önündən getmirdi. Ərvənd çoxunu geri vermədi. Fav dalğıcların bizə əmanəti idi.

Şam namazı üçün Abdullahi məscidinə getdim. Hacı ağanın moizələrini dinləmək, məscidin bir tərəfində oturub dizlərimi qucaqlamaq, başımı divara dayayıb doyunca ağlamaq istəyirdim. Namazdan sonra əlini öpmək üçün yaxınlaşdım, qoymadı. Əlimi əlində saxladı, canıma təkrarolunmaz bir rahatlıq yayıldı. Bu yaşlı adam heç nəyi unutmurdu. Ailə qurduğumu bilirdi. Əvvəlcə xanımın halını soruşdu, sonra özümün. Başımı aşağı saldım. Mənim yaşadığıma, Cəfərinsə həyatda olmadığına görə xəcalət çəkdim. Əgər yaşasaydı, yəqin ki, indiyə o da mənim kimi ailə qurmuşdu.

---

[1] İran və İraq müharibəsinin təhlili, c. 3, s. 391.

Hacı ağa Fava dair yeni xəbərləri bilirdi. Əbasını çiynində düzəldib Cəfərin gözləri ilə mənə baxdı; söz və sevgi dolu:

– Ağa Məhəmmədhüseyn, tez cəbhəyə qayıt. Allah Şimri İmam Hüseynin (ə) sinəsi üstündə gördü, vecinə də olmadı ha!

Çox ürəyim istəyirdi ki, qayıdım, amma alınmadı. Diviziya Hələbçədə idi, oraya qayıtmağın da faydası yoxdu. Mühəndislik kəşfiyyatında da işim qalmamışdı. Nə qala bilirdim, nə də getmək mümkündü. Döyüş birləşmələrinə qoşulmaq üçün diviziyanın cənub cəbhəsinə qayıtmasını gözlədim.

Həmin gecə iftardan obaşdana qədər oyaq qaldım. Zəhra xanım obaşdan yeyəndən sonra yatdı. Onu Quma gətirmişdim ki, toyumuzdan sonrakı ilk ramazan ayında birlikdə olaq. Yazıq Qumun istisinə alışmamışdı, amma mənə görə dözür, bir söz demirdi.

Birdən ağır və qorxunc bir səs qəzəbli bir div kimi sükutu uddu. Zəhra xanım diksinib oyandı. Üz-gözündən vahimə yağırdı. Tez işığı yandırdım ki, qorxmasın. Dodaqları ağarmışdı. Partlayış səsini yaxşı tanıyırdım. Tez küçəyə qaçdım.

Səfaiyyə dödryolunun yaxınlığındakı bir evdən əsər-əlamət qalmamışdı. Yalnız mətbəxin divarlarının kafelləri və tül pərdənin ağartısı görünürdü. Allaha şükür ki, evdə heç kim yoxmuş. Səsi Səfaiyyə xiyabanından bizim evimizə qədər gələn raket yerdə qara əyri-üyrü çala yaratmışdı. Hava işıqlaşana qədər orada gəzişdim. Ayaqlarım evə getmirdi. Bu dağılmış evin bizim evimizlə fərqi yoxdu. Mən irəlidə vuruşurdum ki, camaatın evi uçmasın, indi isə müharibənin dağıtdığı bir evin yanında dayanmışdım. Ev sahibi bütün bu uçqunu görəndə hansı vəziyyətə düşəcəkdi? Çox narahat oldum.

Həzrət Məsuməyə (s) sığındım. Zərihin yanında Abdullah Mürəvvicin vəziyyətini başa düşdüm, bildim ki, niyə qələbə xəbəri olmadan şəhərə qayıtmaq istəmirmiş. Şəhid və əsir analarından utanmaqda haqlı idi. Həmin gecə mən də o qara dərin çuxurun yanında özümdən utandım. Şəhərin səmasındakı bu raketlər camaatda hansı hisslər yaradırdı? O həzrətə (s) söz verdim ki, şəhərlərin üstündə heç bir raket görünməyənə qədər cəbhədə qalıb vuruşacağam.

***

1988-ci ilin iyul ayı idi. Diviziyanın Hələbçədə tapşırığı hələ bitməmişdi. Başı kəsilmiş toyuq kimi çırpınır, diviziyaya getmək istəyirdim. Qumda mənim üçün hər şey havadaydı, özümü veyil hiss edirdim. Uşaqların hansını görürdümsə, mənim günümdəydi.

Düşmən Favı ələ keçirəndən sonra hərəkətli müdafiə sisteminə başlamışdı. Bizim qüvvələrimiz də şimal-qərbdə idi. Düşmən Məcnun adasında və Fəkkədə irəliləyir, şəhərləri bombalayırdı. Bütün bunlarla bərabər İrana qarşı sanksiyalar da artırdı. Ağır şərait idi. Bu şərait qətnaməni qəbul etməyə gətirib çıxardı.

Qətnaməyə heç kim inanmırdı. Hər dəfə imamın müraciətini eşidəndə bərkdən ağlayırdım. Ürəyim yanır, özümü günahkar bilirdim. Fikirləşirdim ki, yəqin, işimizi düzgün görməmişik və imam qətnaməni qəbul etməyə məcbur olub. Ayətullah Miyanəcinin həmin gün dediyi söz yadıma düşdü. Necə də tez həqiqətə çevrilmişdi! Allahın heç kimlə komplimenti yoxdu və əldən çıxmış fürsəti geri qaytarmırdı. İmamın tək qalması kompensasiya ediləsi bir şey deyildi.

Həsrətlə qətnamə barədə düşünür, hər sözünə görə yüz dəfə ölürdük. Bir neçə gün beynim dumanlı oldu, kimsə danışanda sözlərini başa düşmürdüm. Heç bir yerdə qərar tuta bilmirdim, həmişə evdən bayıra çıxırdım; ya korpusda olurdum, ya da cəbhə dostlarımın yanında. Çıxış yolu barədə düşünür, tapa bilmirdik. Təngə gəlmişdik. Sanki bağlı bir qapının arxasında qalmışdım. Qapının həmişə açıq olacağını düşünürdüm. Əməliyyatlar isə daha bitmişdi. Arxayın idim ki, bu əməliyyat da olmasa, növbəti əməliyyatda mən də qanad çalıb gedəcəyəm. Göylərdən mənim halıma yanan dostlarıma arxayın idim. Hər dəfə qətnamənin adı çəkiləndə dünya başıma uçurdu, bilmirdim ki, kimin qəmini çəkim; bir anlıq fürsət üçün dözümsüzlük edən öz qəmimi, yoxsa imamın qəlbinin qəmini. Artıq məktubunun hər sözünü əzbərləmişdim:

"Bu qərar mənim üçün öldürücü zəhər kimidir. Ancaq Allah-taalanın razı olduğuna razıyam, Onun dinini və İslam Respublikasını qorumaq üçün hörmətimiz varsa, xərcləyərik. Keşikçilər korpusunun komandanının son məğlubiyyətlərdən sonra mənə yazılan onlarla hərbi-siyasi məruzədən biri olan təsirli məktubunu nəzərə alaraq... Xatırladım ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının birinci müavininin etirafına görə, korpus komandanı zəruri ehtiyaclar təmin olunduğu təqdirdə müharibəni davam etdirməyi lazım bilən azsaylı komandirlərdəndir. Bu komandan öz planının ən önəmli uğur hissəsini büdcə və imkanların əldə edilməsi bilmişdir. Əlbəttə, bunları söyləməklə bərabər, deyir ki, yenə də vuruşmaq lazımdır. Bu isə şüardan başqa bir şey deyil. İlahi! Biz Sənin dinindən ötrü qiyam

etmişik, dinindən ötrü vuruşmuşuq və dinini qorumaq üçün atəşkəsi qəbul edirik".[1]

Müharibəyə qarşı çıxan və cəbhənin üzünü də görməyən adamlarla işim yoxdu. İşim əsgərlik iddiasında olan özümüzləydi. Qətnamənin zəhər camına bənzədilməsi bizi məhv edirdi. Gülləni düşmən atır, zəhəri isə dost verir. Ürəyimiz istəyirdi elə bir iş görək ki, imamın qəlbi dostlardan bu qədər sıxılmasın, amma əlimizdən bir iş gəlmirdi. Tarix təkrar olmuş, imam Malik Əjdərə qayıtmasını əmr etmişdi.

"İnqilabçı övladlarım! Ey müqəddəs qürurundan əl çəkməyə hazır olmayanlar! Bilin ki, mənim ömrümün hər bir anı sizə xidmətdən ibarət müqəddəs eşq yolunda keçir. Bilirəm ki, sizə çətindir - məgər bu qoca atanıza çətin deyil?! Bilirəm ki, baldan şirin olan şəhadət sizin önünüzdədir - məgər bu xidmətçiniz üçün elə deyil?! Ancaq səbirli olun, Allah səbir edənlərlədir! İnqilabi kin və qəzəbinizi sinələrinizdə saxlayın, düşmənlərinizə qəzəblə baxın və bilin ki, qələbə sizinlədir..."[2]

Ağır şərait idi. Özümü havada hiss edirdim, xilasım üçün haraya əl atacağımı bilmirdim. Ürəyim istəyirdi ki, qüssədən infarkt olum, canım qurtarsın. Müharibə illərindən yalnız məzuniyyətə gəldiyim günlər yadıma düşürdü. Məzuniyyət zamanlarım gözlərim önündə paraddan keçir, həsrət və peşmanlıq məni dəli edirdi. İnana bilmirdim ki, cəbhə ilə sağollaşmalıyam. Sanki yuxudan oyanmışdım; dadı damağımda qalmış və təkrar olunmasını istədiyim qısa və şirin bir yuxudan.

Bizim kimi İraq tərəfi də qətnaməyə güvənmirdi. Elə bilirdi ki, bu, iranlıların zaman qazanmaq taktikasıdır. Buna görə bizim torpaqlarımıza doğru irəliləmək qərarına gəldi. Sanki heç qətnamə qəbul olunmamışdı.

Meyməkin işğalı xəbəri hər yerə yayıldı. Bu, bizə çox toxundu. Hücum namərdcəsinə idi. Düşmənin namərdliyinin qarşısını almaq üçün kim bacardısa, özünü cəbhəyə yetirdi.

Hamı atəşə susamışdı. 1988-ci ildə iyulun sonlarında diviziya Hələbçədən yeni qayıtmışdı. Hələ şəxsi heyətin təri qurumamış həzrət Məsumə batalyonu yola düşdü.

---

[1] "İranın qaşı" jurnalı, İran və İraq müharibəsinə dair xüsusi buraxılış. Say: 21, s. 34-43.

[2] İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 95-97.

Durum ağırlaşmışdı. Hansı fitnənin alovunu söndürürdüksə, başqa bir yerdən alov qalxırdı. Münafiqlər həmin ayın 25-də İraqın hücumları sayəsində qərb sərhədlərindən keçdilər. Şəhərlərimizdə irəliləyir, hər şeyi alt-üst edirdilər. Əndimeşk düşərgəsində xəbərləri izləyirdik ki, görək bir saat qabaq hardaydılar, indi hara çatıblar. Məqsədləri Tehranı ələ keçirmək idi. Birinci gün İslamabadı ələ keçirib müqavimət göstərən hər kəsi yandırdılar, xəstəxanadakı yaralıları güllələdilər.

"Əbədi günəş" adlı əməliyyat planında hər bir qüvvənin tapşırığı bəlli idi. İslamabadı ələ keçirəcək qüvvələr şəhərdə qalacaqdı, növbəti şəhərləri azad etməyə gedənlər dayanmadan irəliləyəcəkdilər. Münafiqlər cəld Kirmanşaha doğru hərəkət etdilər, İslamabaddan keçib Həsənabad aşırımına çatanda korpus qüvvələrinin bir qismi onlarla vuruşdu. Münafiqlər onları vurdular və yalnız bir nəfərləri sağ qalıb qayıtdı. Həmin bir nəfər qayıdanda Səddama müxalif olan və İran tərəfdən vuruşan iraqlılardan ibarət Bədr diviziyasının üç avtobus döyüşçüsünün cənuba getdiyini görür. Onlar münafiqlərlə döyüşə göndərilmiş ilk ezam qüvvələri idilər. Münafiqlərin Həsənabadda gecikməsi döyüşçülərin bir neçə kilometr aralıdakı Çaharzəbər boğazından keçib müdafiə mövqeyi qurmalarına yaxşı imkan yaradır. Münafiqlər Həsənabaddan və Bədr diviziyasının qüvvələrinin kənarından keçib xüsusi təyinatlı pasdar diviziyası, Qaim briqadası, Ənsar əl-Hüseyn briqadası və 27 saylı diviziyanın bir qismi ilə vuruşur və qəfil yaxalanıb Çaharzəbərdə dayanırlar.

İyulun 26-da hava işıqlaşanda Kirmanşah boş və səssiz idi. Bəzi evlərin divarlarına yağlı boya və ya yanmış yağ boyası ilə vurma işarəsi çəkmişdilər, silmək olmurdu. Uşaqlar deyirdilər ki, münafiq qüvvələr gecə ikən bu əlamətləri çəkiblər: yəni bunlar hizbullahçıların evləridir və məhv edilməlidir".[1]

Bədr qüvvələrinin döyüşü vəziyyəti bizim xeyrimizə dəyişdirdi. Biz həm Çaharzəbərdə torpaq sipər qura bildik, həm şəxsi heyət özünü Kirmanşaha yetirmək imkanı qazandı. Bir gün sonra isə mühasirə dairəsi tamamlandı. 27 İyul 1988-ci ildə münafiqlərin Kirmanşahın Çaharzəbər boğazında bombardman edildiyini eşidib yenidən cana gəldik. Hər dəfə Mirsad əməliyyatının adını eşidəndə qürur hissi keçirirdim, münafiqləri məhv etməkdə bizə yardım etmiş ilahi əli

---

[1] İran və İraq müharibəsinin şəkilli ensiklopediyası, Cəfər Şirəliniya, s. 483.

görürdüm. O, düşməni öz ayağı ilə bizim yanımıza göndərmişdi ki, iki günə zərərsizləşdirək. Onların cəsədlərinin şəkillərini görəndə bu ayə beynimdə canlanırdı: "Nəhayət, Rəbbin onlara əzab qamçısı endirdi. Şübhəsiz ki, Rəbbin (zülmkarlara qarşı) pusqudadır".[1] Lakin bunların heç biri ürəyimdəki ağır qətnamə alovunu söndürə bilmirdi. Ürəyim bir anlıq döyüş üçün döyünürdü, ayağımı səmaya açacaq döyüş.

Münafiqlərin fitnəsi yatırılandan sonra bəzi komandirlər düşmənə zərbə endirmək fikrinə düşdülər. Tez şəxsi heyət nizama salındı. Cəbhələrə axışmış canlı qüvvənin sayı-hesabı yox idi. Pikaplar görünəndə az qala sevindiyimdən uçacaqdım. “Əməliyyat” sözü ürəyimin yarasına məlhəm idi. Əhvazın çıxışındakı Sepenta düşərgəsində həzrət Məsumə batalyonunda bir neçə saat əmr gözlədik. Düşmənin namərdliyinə cavab olaraq onu öz torpağında qovmaq istəyirdik. Həm sərhəddən uzaqlaşdıracaqdıq, həm də qətnamə müzakirələrində əlimiz güclənəcəkdi. Hətta bir güllə atmazdan öncə də imamdan vəzifəmizi soruşurduq. İmamın cavabı isə gözlənilməz deyildi: "Kişinin sözü birdir". Son əməliyyat həsrəti ürəyimizdə qaldı.

İmam buyurmuşdu: "Əsla İraq torpağına hücum etməyin. Onlara doğru hətta bir güllə də atmayın. Əgər onlar bombalasalar, siz də məsləhət görsəniz, bombalayın. Hazır qüvvələriniz olsun; əgər hücum edib bir yeri tutsalar, siz də onlara hücum edin. Mən elan etmişəm ki, qətnamənin qəbul edilməsi taktika deyil. Hücum isə bunun əksi olar".[2]

Geri çəkilmək əmri veriləndə bütün dünyanın mənimlə tərs düşdüyünü hiss edirdim. Uzun bir yolu birnəfəsə qaçmışdım, indi isə deyirdilər ki, qapılar bağlanıb və gəldiyin yolla geri qayıt. Təkbaşına düşmən mövqeyinə hücum etmək istəyirdim. Bir adam axtarırdım ki, yalvarım, məni xilas etsin. Lakin hamı mənim günümdəydi. Mat-məəttəl gözlərimizi bir-birimizə dikmişdik.

Yenə məzuniyyət günləri gözlərim önündən keçməyə başladı. Bəlkə, məni göylərə göndərəcək güllə iştirak etmədiyim əməliyyatlarda atılıbmış. Razı idim ki, bütün dünyanı verim, o güllə gəlib işi bitirsin. Düşüncə və xəyallar beynimi çeynəyirdi. Bir nəfərin başımın ortasında dayanıb qışqırdığını hiss edirdim:

– Daha bitdi! Hamı getdi, sən qaldın!

---

[1] Fəcr, 13-14.

[2] “Qətnamənin qəbul edilməsi taktika deyil”. "Müharibə tarixi" jurnalı, İran və İraq müharibəsi barədə xüsusi buraxılış. Say: 10, Məcid Muxtari.

Qalmaq düşüncəsi məni məhv edirdi. İmamın dediyi kimi, inqilabi qəzəbimizi vəd olunmuş günə, daha böyük cəbhəyə, haqla batil döyüşündə başqa bir missiyaya qədər sinələrimizdə saxlamalıydıq. Lakin bu yanmış sinələrin nə qədər taqəti vardı?! Məgər bu müqəddəs vadidən ayrılmaq olardı?!

Quma qayıtmağa heç kimin ürəyi gəlmirdi. Bəlkə, bir yol açılar deyə qərarsız halda gözləyirdik. Səhərdən axşama qədər Əndimeşk düşərgəsində gəzişirdik, gecədən səhərə qədər də hərə bir tərəfə çəkilirdi; biri ağlayır, biri namaz qılır, biri yazır, biri gəzişib qaranlıqda gözdən itirdi. Daha ezam olmayacağını düşünəndə gözlərimizdən yaş axırdı. Elə bu düşərgədə şəhidlərlə birlikdə yaşamış, birlikdə yatmış, birlikdə nəfəs almış, birlikdə zarafatlaşmış, bir süfrədən xörək yemiş, birlikdə ağlamış, birlikdə namaz qılmışdıq. İndi də şəhidlər yuxarıdan bizim necə sərgərdan qaldığımıza tamaşa edirdilər. Məgər bu düşərgədən ayrılmaq olardı?! Məgər onunla vidalaşa bilərdik?! İnana bilmirdik ki, hər şey bitdi, özü də bir gecənin içində, qəfildən. Bir neçə kilometr aralıda bizi gözləyən rəngarəng dünya ilə baş-başa qalmışdıq. Bilmirdik ki, ömrümüzün daha neçə ilini orada qonaq qalacaq və cəbhədən arxada qoyduğumuz bər-bəzəkləri ilə daha nə qədər vuruşmalı olacağıq.

1988-ci ilin avqust ayı idi. Xəbər ağız-ağız dolaşıb mənə çatdı. Prezident ağa Xamenei düşərgəyə gəlmişdi. Şam namazında hüseyniyyə xaki geyimlilərlə doldu. Ağa Xamenei mehrabda dayanmışdı; qüdrətlə və yaşıl korpus formasında. Saqqalı tərpənir, dodaqaltı azan və iqamə deyirdi. Cəbhəyə öncəki gəlişini və döyüşçülərə müraciətini xatırladım:

– Bizim şəklimiz sizin səngərinizdədirsə, sizin şəkliniz bizim qəlbimizdədir.

Ürəyimdə nəsə tərpəndi və kövrəldim. Onu daha yaxşı görmək üçün boylandım. Azanı bitirəndən sonra əllərini üzünün önünə qaldırıb qamətini düzəltdi. Biz də həmçinin. Ən yaxşı iqtida idi.

Namazdan sonra hüseyniyyə sükuta qərq oldu. Amansızlıqla qəlbimizi sıxan ağrı bir qədər sakitləşsin deyə gözlərimizi ağa Xameneinin ağzına dikmişdik. Şəhid Zeynəddinin şəhadəti yadıma düşdü. Həmin gün Rəhim Səfəvi ağa Mehdinin yetimlərinə təskinlik vermək üçün özünü Məhabad kəsim yerinə yetirmişdi. İndi yenə yetim qalmışdıq və ağa Xamenei yanmış qanadlarımıza, şəhadətdən məhrum sınıq qəlblərimizə məlhəm olmağa gəlmişdi.

Ürəyimizi götürüb uzaq günlərə apardı; hər birimizin inqilab xalçasının bir tərəfini çırpmalı olduğu zamana. Müharibənin sonlanması ilə bizim mübarizəmiz bitmir, yalnız forması dəyişirdi. Silahı çiynimizdən endirsək də, ağırlığı və daimi hazırlığı bizimlə qalırdı; canımızı və malımızı İslam və inqilab yolunda fəda etmək hazırlığı.

Hər cümləsi ilə ürəyimin qəmi yuyulur, yerində ümid bitirdi. Düşmən həmin gün Səddamla qarşımıza çıxmışdı, başqa gün də gizli muzdurları və rahatlıq düşkünləri ilə üstümüzə gələcəkdi. Odur ki, dini qorumaq və onun yolunda fədakarlığa hazır olmaq borcumuz idi. İslamın həmişə oyaq düşmənləri qarşısında daim oyaq qalmaq borcumuz idi. Düşündüm ki, mübarizə davam edirsə, deməli, səmanın yolları hələ açıqdır və biz yalnız vəzifəmizi yerinə yetirməliyik.

Həmin axşam işa namazından sonra o hüseyniyyədə yorğun bədənimizə yenə can üfürüldü; sinifdə qalmış bir şagirdin yenidən imtahan imkanının yaranması kimi. Ağa Xameneinin çıxışından sonra Əli Maliki məclisi əlinə aldı. Məhərrəm ayının ikisi idi. Üzümü qara əza şalıma batırıb ürəyimi Əlinin səsinə tapşırdım. Müharibə illərinin bütün həsrətləri qəhər olub boğazımı tutdu. Səcdəyə getdim; torpaq ətri, cənnət ətri. Ağa Xamenei də qumlu uşaqların rövzəsini dinləmək üçün oturmuşdu. Çəfiyə şalı göz yaşlarına dəsmal oldu. Uşaqlar elə ağlayırdılar ki, sanki ömürlərinin son rövzəsini dinləyirlər. Rövzəxanın səsi onların fəryadları arasında itirdi. Sinə vururdular, hüseyniyyə titrəyirdi. Sanki Seyyidüşşühədanın (ə) karvanı ilə Kərbəlaya girmişdilər. Ağa Xameneinin söhbətləri ilə İmam Hüseynin (ə) dini müdafiə və zülmün kökünü kəsənə qədər mübarizədən ibarət yolunu davam etdirmək üçün yenidən cana gəlmişdilər.

Onun hər bir sözü ürəyimizin alovuna su səpdi. Bilmirdik ki, inqilabı qorumaq yolunda hər birimiz üçün öz potensialımız qədərincə eniş-yoxuş dolu tapşırıqlar yazırlar. Ən ağırı da İmam Xomeynidən sonra bayraqdarlıq vəzifəsi idi ki, onun özünə tapşırılacaqdı.

Həmin axşam barədə düşünürəm, qətnamədən sonrakı otuz illik xatirələr film kimi gözlərim önündə canlanır; müharibə xatirələrindən də dolanbaclı, şəhid olmuş döyüş yoldaşlarım üçün darıxmaqla keçən xatirələr. Bəzi günlərdə, bəzi ezamiyyətlərdə yardımlarına çox möhtac oluram. Müharibə günlərinin yadigarı olan və hərəsi bir tərəfdə vəzifəsini yerinə yetirən digər dostlarımın durumundayam. Gözləyirik

ki, dan yeri ağarsın və vilayət kölgəsi altında şəhadətlə qanad çalaq. Allahın salamı, rəhməti və bərəkəti olsun sizə!

Məhəmmədhüseyn Hüseyni Yekta
13 Rəcəb 1439, Əmirəlmömininin (ə) doğum günü
31 Mart 2018

Minarəsinə İmam Rzanın (ə) günbəzinin bayrağı vurulmuş Fav məscidi

Ayətullah Miyanəci bu məsciddə xütbə söylədi və söhbətin ortasında bölgə uzaqmənzilli raketlə atəşə tutuldu.

"Mən sizin aranızda olsam da, olmasam da, hamınıza vəsiyyət və tövsiyə edirəm ki, inqilabın yad və naməhrəmlərin əlinə keçməsinə imkan verməyin, şəhadət və qan öncüllərinin öz gündəlik həyatlarının eniş-yoxuşlarında unudulmasına razı olmayın. Burada sizə son sözüm budur ki, atalarınızın qanının nəticəsi olan İslam Respublikasına sona qədər sadiq qalın, öz hazırlığınızla, inqilabın ixracı ilə və şəhidlərin qanının mesajını çatdırmaqla dünyanın xilaskarı, imam və canişinlərin sonuncusu olan İmam Mehdinin – ruhum ona fəda olsun – qiyamına zəmin yaradın".

İmam Xomeyni, Nur səhifəsi, c. 21, s. 93, c. 20, s. 37-38

## Mündəricat


Giriş əvəzi ... 3
Səmaya körpü ... 4
Birinci fəsil ... 9
İnqilabın səsi ... 9
İkinci fəsil ... 26
Müharibə uşaq oyunu deyil ... 26
Üçüncü fəsil ... 41
Ağ-qırmızı xalatlar ... 41
Dördüncü fəsil ... 65
Xaki geyimlilər ... 65
Beşinci fəsil ... 98
Şəhadətin qayda-qanunu var ... 98
Altıncı fəsil ... 113
Əlvida, komandir ... 113
Yeddinci fəsil ... 136
Qırmızı kvadratlar ... 136
Səkkizinci fəsil ... 166
Sanki müharibə getmir ... 166
Doqquzuncu fəsil ... 186
Fava xoş gəlmisiniz ... 186
Onuncu fəsil ... 209
Şüşə göz ... 209
On birinci fəsil ... 231
Qan yolu ... 231
On ikinci fəsil ... 251
Sualtı qayıq ... 251
On üçüncü fəsil ... 276
Camaatın qızı ... 276
On dördüncü fəsil ... 290
Zəhərdən acı ... 290